Ağarəhim

# Əsərlər

## Roman

## VII

Bakı - 2014

**Redaktorlar:**
**Əlizadə Əsgərli**
**Təyyar Salamoğlu (Cavadov)**

**Ağarəhim.** Əsərlər. 20 cilddə. VII cild (roman). Bakı, BQU nəşriyyatı, 2014, 625 səh.

Yazıçı Ağarəhim Rəhimovun çoxcildlik "Əsərlər"inin bu cildinə epik miqyas genişliyi ilə seçilən "Girdab" romanı daxil edilmişdir. Əsərin sərlövhəsindəki rəmzi-məcazi mənalandırma süjet boyu vahid epik axarla irəliləyən təzadlı hadisələrin dinamik inkişafında lay-lay, qat-qat açılır. Sosial mühitin insanın mənəvi dünyasında, tale yolunda oynadığı rolu gənc Şəfəqin iztirablı, məşəqqətli həyatı timsalında ümumiləşdirən görkəmli nəsr ustası içərisində yaşadığımız cəmiyyətin mürəkkəb və ziddiyyətli mənzərəsini diqqət önündə saxlamaqla yanaşı, mənəvi-əxlaqi dəyərlərin qorunması uğrundakı humanist-maarifçi mövqeyini də əsərin ən mühüm məqamlarında ön plana çəkmişdir.

*Bakı 2014*



# Girdab

Yeniyetməlik dövrünə təzəcə qədəm qoyan bu qız olduqca gözəl, dərrakəli, utancaqıydı. Təcrübəsizlikdən və bilməməzlikdən doğan sadəlövhlüyü vardı onun. Ata qayğısı, ana nəvazişi görməmişdi. Valideyn sevgisi, məhəbbəti duymamışdı. Bunun üçün də oturub-durub heyfslənirdi. Neçə il əvvəl dodaqları əsə-əsə, bütün bədəni uçuna-uçuna, göz yaşları yanaqlarına süzülə-süzülə, sinəsindən "ah" qopa-qopa əziz nəvəsinin alnından, saçlarından öpən babasını bu qızcığaz acı bir təəssüflə xatırlayırdı. Sonralar hərdənbir babasıgilə qonaq gəlməsi nəzərə alınmazsa, bu qız on dörd yaşınadək böyüyüb ərsəyə çatdığı isti yuvasından taleyin hökmü ilə bir dəfəlik ayrılmışdı. Bu ayrılıq uzun müddət onda niskilli, kövrək, qərib və kimsəsiz duyğular oyatmışdı. O duyğular indi də oyaq qalmaqdaydı. Bir zaman yaşadığı evin və bu evin sakinlərinin: əziz, doğma babasının, ögey nənəsinin, onların iki qızının, bir oğlunun yerini anbaan uzaqlaşdığı, təəssüf hissi ilə yad elədiyi acı xatirələr tuturdu.

Baba ağır-ağır, addım-addım, yana-yana, doğrana-doğrana uzaqlaşdıqca nəvə ürəyi sıxıla-sıxıla, göz yaşları axıda-axıda, hıçqıra-hıçqıra dayanıb onun getdiyi yola, ayaq izlərinə, bir də getdikcə uzaqlaşmaqda olan qaraltısına baxırdı. Qızcığaz istədi babasını haylasın, "Məni bura atıb getmə, özünlə qaytar apar" desin. Ancaq bu mümkün deyildi, rüzgar elə yetirmişdi ki, baba getməli, nəvə yad bir şəhərdə kimsəsiz, daldasız, Allah ümidinə qalmalıydı. Baba getdi. Hənirtisi də, qaraltısı da yavaş-yavaş əriyib qeyb oldu. Onun yerini yolda gördüyü al-əlvan mənzərələr, bir də bu yad şəhərin binaları, yolları, sürətlə yanından ötüb ke-

çən maşınlar, yaşayacağı yataqxananın qarşısında qaynaşan həmyaşıdları barədəki səthi və dumanlı təsəvvürlər, anlaşılmaz, qarmaqarışıq fikirlər tutdu.

Şəhər nadanlarla, cahillərlə, anasının əmcəyini kəsənlərlə doluydu. Burda incə və zərif gedişlərlə uşaqları, yeniyetmələri, gəncləri cəzb eləyən və arxasınca apara bilən güclü maraq vardı. Həyata hədsiz sevgidən, yaşamağa olan sonsuz ehtirasdan, insanlığa məhəbbətdən gözlərdə doğan parıltının cazibədarlığı dünyada heç bir şeylə müqayisə olunmur, —deyirlər. Sevgi hiylədən, paxıllıqdan, xudpəsəndlikdən, xəyanətdən çox-çox uzaqdır. Bu ali hissin bətnindən yalnız təbiilik, sadəlövhlük, qısqanclıq doğulur. Belə olanda təbiət möcüzələri, gözqamaşdırıcı gözəlliklər, ürək ovsunlayan incə səslərin ahəngdarlığı adamı heyrətləndirməyə, həyəcanlandırmaya bilmir. Bunların şahidlərinə çevrilənlər bəzən mahiyyətdən xəbərsiz olduqlarından eşitdiklərini, duyduqlarını lazımınca dəyərləndirə bilmirlər. Bəlkələr və şübhələrdən doğan pıchapıclar baş alıb gedir. Adam çaşır, bir çox şeyləri dolaşdırır, qarışdırır, bir çox hallarda da deyilənlərə inanır.

Bu qızcığazın ağlı qədərincə yetkinləşməmişdi. Kifayət dərəcədə məqsədli müşahidə və təhlil qabiliyyəti qazanmamışdı. Bunlara baxmayaraq, tükənməz arzuları çağlayırdı. Bu qızda dilruba gözəlliyin ilkin cizgiləri vardı. Uzun kirpikləri ilə əhatələnmiş oynaq, qara gözlərində sevinc və fərəh duyğuları parlayırdı, məhzun, oğrun baxışları ona bir baxana "bir də bax", — deyirdi. Yumşaq, qara, parıltılı saçları çiyinlərinə tökülmüşdü. Onda qızlıq duyğuları ilə qadın şuxluğu arasında tədricən mübarizə gedirdi. Hazırda hansının üstünlüyü barədə çətin söz demək olardı. Mütaliə eləmək, biliklərə yiyələnmək onun başlıca istək və arzularıydı. Adamların gözlərinə dik baxmazdı. Gərdənini düz saxlamağa adət eləmişdi. Naz-şivə ilə, göz-qaşla danışmazdı. Yavaş, xırda addımlarla yeriyərdi. Ölçüsüz-biçisiz hərəkətlərində, yöndəmsiz oturuş-duruşunda təzə-təzə səliqə-sahman yaradardı. Sevinməyi də bacarardı, kədərlənməyi də. İncə, məlahətli səsi sanki adamın beyninə işləyərdi. Sadə, təbii hərəkətləri onu ilk dəfə görənlərin də xoşuna gələrdi. Təbəssümlü bu qız az və astadan danışmağı sevərdi. Dindirməsən danışmazdı. Danışanda da tez-tez həyasından, ismətindən tutulardı. Yanaqları qıpqırmızı olardı. Onu tanıyanlar, onunla ünsiyyətə qoşulanlar: — Heç bu zəmanənin qızı deyil elə bil — deyərdilər. Kimsənin qəlbinə toxunan söz deməzdi, kimsəyə qüsur tutmazdı. Bu cəzbedici şəhərə atıldığı gündən, tikiş üzrə texniki peşə məktəbinə qəbul olunduğu və yataqxanada məskunlaşdığı vaxtdan o, yalnız özü üçün xoşbəxtlik axtarardı. O, hər şeydən nə isə öyrənməyə çalışardı. Tapdıqlarına ürəkdən sevinərdi. Bu da qızı yeni uğurlara həvəsləndirərdi onda. Ümid çırağı alışar, inamı güclənərdi.





Ümidinin nə vaxtsa sönəcəyini, inamının qırılacağını heç ağlına da gətirməzdi. Bu qız ilk andan yataqxananın komendantı Fəridə xanımın xoşuna gəldi. Onu görcək qadının çöhrəsində zərif, incə bir təbəssüm oynadı. Sonra o, mehribanlıqla soruşdu:

— Adın nədir, qızım?

— Şəfəq.

— Çox yaxşı. İkinci mərtəbədə Süsənlə bir otaqda qalacaqsız. O da yaxşı qızdı. Tanımadığınız şəhərdə hər şey ola bilər. Özünüzdən muğayat olun.

Şəfəq qadının səsində bir səmimiyyət, mehribanlıq duydu. Fəridə otağın açarlarından birini də ona verdi. Yataqxana həyatına nabələd qız astaca geri dönüb onun üçün ayrılan otağa getdi. Əvvəl o tərəf-bu tərəfə baxdı, sonra pəncərənin qarşısına gəlib, şəhərə tamaşa eləməyə başladı. Səs-küylü izdiham, adamların qaynaşması, küçələrdə böyüklü-kiçikli maşınların hərəkəti, onların gurultusu Şəfəqdə böyük bir maraq oyatdı. Elə bu vaxt qapı açıldı. Qədd-qamətli, qonur gözlü, qarabuğdayı bir qız içəri girdi. Saçları arxaya daranmışdı, onun geniş alnı, qalın çatma

qaşları, balaca şiş burnu, uzun sifəti vardı. Gülümsünəndə ağ sədəf kimi dişləri nazik dodaqları arasında parıldayırdı. Əyninə geydiyi yaşıl yubkanın ətəkləri dizlərinə qədər uzanırdı. Ayağına qırmızı ayaqqabı geymişdi. Eyni yaşlı bu qızlar tanış oldular. Çox çəkmədən də bir-biriylə ünsiyyət tapdılar... İsnişdilər... Bu, şəhərə təzə gələn Şəfəqin də, Süsənin də ürəyincə oldu. Yataqxana komendantının sözləri bu qızların uyuşmasında az əhəmiyyət kəsb eləmədi. Axşam şam naharından sonra Süsən qapını açıb balkona çıxdı. İlk əvvəl ona elə gəldi ki, göy qübbəsi bütünlüklə qopub Gəncənin üzərinə çökmüşdü. O, heyranlığını gizlədə bilməyib Şəfəqi də balkona — yanına çağırdı. Buna bəndmiş kimi o da balkona çıxdı. Çilçıraqban şəhər, rəngbərəng işıqlar, şən izdiham... Şəfəq hisslərini gizlədə bilməyib: — Hər şey gözəldi, — dedi. Bayaqdan bəri mürgüləyən bu çilçıraqban şəhərin sirli, sehirli, cazibədar axşamında xəyallarının uçuşları onlarda əlçatmaz arzular oyadırdı. Açıq səmanın ecazkar sərməstliyi, təbiətin füsunkar gözəlliyi, insan ağlının, zəkasının heyranlıq doğuran möcüzələri, ürək ovsunlayan musiqi, şən nəğmələr — hamısı onlara gələcəkdə də gözəl həyat, xoşbəxtlik vəd eləyirdi. Sanki bütün bunlar gecənin bətnindən doğulurdu. Səhər açılan kimi yeni mənzərə yaranacaq: dan yeri qızaracaq, günəş hər tərəfi al-qumaşa bürüyəcəkdir. Süsən və Şəfəq bir-birinə şirin arzularından söhbət açdılar. Hər ikisinin də balaca ürəyi köksünə sığmırdı. Düşünürdülər ki, qarşılarında böyük həyatın xoşbəxtlik qapıları taybatay açılır.

* * *

Yeniyetməlik dövrünə təzəcə qədəm qoyduğundanmı, özünün səmimiyyət və mehribanlığındanmı, ya nədənsə, Fəridə xanımın da, vaxtyor Afət xanımın da rəğbətini qazanmışdı Şəfəq. Neçə dəfələrlə bu qadınlar öz aralarında bu qızcığazın ədəb-ərkanından, özünü aparmasından ağızdolusu danışmışdılar. Yataqxanada yaşayan bəzi qızlara bir-birindən xəbərsiz bu qadınlar Şəfəqi neçə dəfələrlə nümunə də göstərmişdilər. Qızlardan bəziləri yaxşı mənada: — Biz Şəfəq ola bilmərik, — demişdilər. Elə qızlar da vardı ki, Şəfəqin adı çəkiləndə qəlblərində ona qarşı doğan xudbinlik, paxıllıq, qısqanclıq hisslərini açıq-aydın bildirmişdilər. Neçə dəfələrlə Şəfəqi komendant otağında hazır çaya, yeməyə, cürbəcür meyvələrə qonaq da eləmişdilər bu qadınlar. Onlar Şəfəqə doğma qızları, nəvələri kimi baxırdılar. Hər gün qızlardan, ya işçilərdən: — Şəfəqi görəniniz olubmu? — deyə soruşardı Fəridə xanım. "Hə" cavabı almadıqda qızlardan birini Şəfəqin ardınca göndərər, dərdi-sərini öyrənməyə çalışardı. Dilli-dilavar qızlardan bəziləri: — Xeyir ola, Fəridə xala, Şəfəqi bu qədər əzizləməkdə. Bəlkə oğluna, ya nəvənə... — deyərdilər.

Fəridə də onların dediklərinə o qədər ciddi əhəmiyyət verməzdi: — Kaş siz deyən olaydı, — deyərdi. Fəridə yataqxanada da, yataqxanadan kənarda da nəzarətçisi, himayəçisiydi Şəfəqin. Bu qadın Allah adamı idi. O, ləyaqətini, şərəfini qoruyan, özünə qiymət verən qızları öz balası sanardı. Dəfələrlə yataqxananın ətrafına qız dalınca gələn oğlanlarla söhbətlər aparmışdı, onlara məsləhətlərini vermişdi. İnsafən, oğlanlardan bir çoxunun təmiz ürəklə gəldiklərinin şahidi də olmuşdu. İmkansız, kimsəsiz, daldasız yataqxana sakinlərini ər evinə köçürəndə Fəridənin sevinci, fərəhi yerə-göyə sığmazdı. Çoxunun da toyunda özü iştirak eləmişdi. Yelbeyin, sarsaq oğlanlar yataqxananın ətrafında gəzəndə Fəridə əsəbləşərdi. Onların kimlərin ardınca gəldiklərini öyrənərdi. Həmin gün qızları yanına çağırtdırıb onlarla ana-bala kimi açıq danışardı. Lazım gələndə anlamazları məzəmmətləyər, tənbehləyərdi. İnsafən, qızlar da Fəridədən inciməz, küsməzdilər. Dediklərindən nəticə çıxarardılar. Yığışmayan, yollarından dönməyən qızları səssiz-səmirsiz yataqxanadan uzaqlaş-

dırardı. Öz-özünə həmişə deyərdi: — "Bir sarsaq qız beşini, onunu da arxasınca aparar. Qız ağ pambıq kimidi, qara ləkə götürməz. Bir anlamazın nalayiq, düşünülməmiş hərəkəti hamısına bədnamlıq gətirər. Bir halda ki, bu məsum qızları burda mənə etibar eləyiblər, gərək onları göz bəbəyim kimi qoruyam. İndi bunların şirin, yalan vədlərə aldanan vaxtlarıdı. Bunlar ana nəvazişindən, ana məsləhətindən uzaqdadırlar. Bu iş, bu vəzifə mənə etibar olunubsa, gərək bu qızlara analıq eləyəm. Maşallah, Allah başacan versin, hamısı gözəl-göyçək qızlardı bunların. Hərəsi bir evin, bir ailənin yaraşığıdı. Odu ha, elə götürək Şəfəqi. Anasının südü ona halal olsun. Başıaşağı, ağlı başında baladı. Ona düşər oğlum, nəvəm olsaydı, vallah, onu kənara buraxmazdım, öz evimə, ailəmə aparardım. Heyif ki, yoxdur. Bunun üçün nə qədər heyfslənirəm. Mən nə qədər burdayam, canımda can var, Şəfəqə pəsmançıyam. Necə də şirin dili var?! Bircə dəfə ondan yalan eşitməmişəm. Səsini qaldıran, kimsə ilə dalaşan görməmişəm. Hə, bircə dəfə qapı ağzında arxasınca gələn, ondan əl çəkməyən, özü demiş, şit-şit danışan, yüngül hərəkətlər eləyən bir oğlanı yaxşıca kötəklədiyinin şahidiyəm. Başına dəyən zərbədən özünü itirərək oğlanın geri çəkilməsi: "Adə, bu qız deyil, xuliqandı" deməsi indi də yadıma düşəndə az qalıram uğunam. Burda yaşadığım müddət ərzində kimsə Şəfəq barədə ədəb-ərkandan uzaq söz deyə bilməz. Desə də, Allahın qəzəbinə gələr".

* * *

Texniki peşə məktəbində Süsənlə Şəfəq bir qrupda oxuyur, hər həftənin cüt günləri birlikdə fabrikə təcrübəyə gedirlər. Dərslərinə birlikdə hazırlaşırlar. Şəhərə bir yerdə çıxırlar. Bu qızlar əkiz bacılar tək bir-birindən ayrılmırdılar. Məktəbdə, yataqxanada, fabrikdə keçirilən kütləvi tədbirlərdə fəal iştirak eləyirdilər. Hərəsi iki dəfə məktəbin direktorluğu tərəfindən fəxri fərmanla təltif olunmuşdular. Bu zaman Süsənlə Şəfəq çox sevinmişdilər. Bu qızlar — rəfiqələr boş vaxtlarında şəhərin görməli, gəzməli yerlərində olurdular.





Yataqxananın komendantı Fəridənin özlərinə qayğısını, nəvazişini duyurdular, lazımınca dəyərləndirirdilər. Yataqxanaya gedib-gəlmək üçün yol birinci mərtəbəsi atelye olan beşmərtəbəli binanın qarşısından keçirdi. Hər dəfə də ordan ötüb keçəndə pəncərə qarşısında tikiş maşınında paltar tikən oğlanın gözləri bu qızlara dikilirdi. İnsafən nə Şəfəq, nə də Süsən ona diqqət yetirərdilər, əksinə, görməməzliyə vurardılar.

Adi günlərdən biriydi. Şəfəq mağazadan çörək alıb qayıdırdı. Onu ilk dəfə Süsəndən ayrı görən, hər gün onu bir neçə dəfə müşahidə eləyən dərzi oğlan atelyedən çıxdı. Arxadan: — Şəfəq, — deyə bir neçə dəfə səslədi. Qız geri döncək dərzi oğlanı gördü və istədi iti addımlarla ondan uzaqlaşsın. Sonra da fikirləşdi ki, yaxşı deyil, bəlkə, mənimlə başqa sözü var. Şəfəq dayandı. Onun sual dolu nəzərləri oğlana dikildi. Dərzi bir qədər özünü itirdi. Handan-hana çəkinə-çəkinə astadan bildirdi:

— Mən bir ilə yaxındır ki, səni izləyirəm.

Bunu eşidən Şəfəq tutuldu, bir az da pörtdü.

— Çox pis.

Şəfəq getmək istəyirdi ki, oğlan dedi:

— Mənim adım Hümmətdi.

— Qurtardıq.

Qızın amiranə, qəti sözləri Hümməti çıxılmaz vəziyyətə saldı. O, heç bir söz tapa bilmədiyindən yerindəcə donub qaldı. Şəfəq birbaşa otağa gəldi. Elə bu vaxt qonşu otaqda qalan Şəbnəm içəri girdi. Gülümsünərək soruşdu:

— Nə deyirdi, aaaz?

— Kim?

— Ooo!

Hələ əməlli-başlı özünə gəlməyən Şəfəq maddım-maddım onun üzünə baxdı. Şəbnəm gülərək:

— Üzümə elə baxırsan, adam gözləri ilə gördüyünə də şübhə eləyir.

Çarpayıda uzanıb kitab oxuyan Süsən qalxıb yatağındaca oturdu və üzünü Şəbnəmə tutaraq dedi:

— Nə hadisə baş verib ki?

— Şəfəq özü bilir.

— Deyin, mən də bilim.

Şəfəq başını yelləyərək:

— Atelyedə işləyən oğlan salam verib söz soruşdu. Mən də cavabını verdim. İndi də Şəbnəm üstümə düşüb soruşur ki, o, nə deyirdi? Süsən işin nə yerdə olduğunu anlasa da, söhbətə bir o qədər əhəmiyyət vermədi. Sonra da Şəbnəmə gülə-gülə dedi:

— Əh... Boş şeydi. Şəfəq hələ məktəbi qurtarmalıdı, işləməlidi. Bir də ki, qızın qarşısını oğlan kəsər də. Qız kəsmir ki? Onsuz da bir qız bir oğlanındı. Gəl, sən də əyləş, nahar eləyək.

Söhbət bununla qurtardı. Qızlar deyə-gülə nahara əyləşdilər. Nahardan sonra Şəfəq şkafdan qalın cildli kitabı götürdü və çarpayısına uzanıb oxumağa başladı. Bir səhifə çevirmişdi ki, Hümmət gəlib durdu gözləri önündə. "Bir ilə yaxındı ki, səni izləyirəm" cümləsini deyərkən oğlanın üz-gözündəki qızartını, keçirdiyi həyəcanı, səsindəki titrəyişi, sözlərindəki səmimiyyəti xatırladı. İlk dəfə belə söz eşitdiyindənmi, abır-həya hissindənmi, ismətindənmi sanki Şəfəqin bir anlığa əti sümüklərindən aralandı. Özü də bilmədən qəlbində iki hiss oyandı. Hümmətə həm acıqlanırdı, həm də yazığı gəlirdi.

Şəfəq Süsəndən xəbərsiz bu fikri başından çıxarmağa çalışsa da, ona heç cürə nail ola bilmədi. O, kitabı örtdü və balıncının altına qoydu. Qızın gözləri tavana dikildi. Öz-özünə düşündü: "Axı Hümmət kimdi? Nə olsun ki, atelyedə işləyir. O, məni niyə izləməlidi ki? Mənimlə niyə maraqlanmalıdı ki? Eh... Əcəb





işə düşdüm. Bundan sonra iş-gücünü atıb ardımca düşməsə yaxşıdı. Yataqxanadakı qızlara da yeni söz lazımdı, deyib, ələ salıb laqqırtı vursunlar. Yox, babam məni bura kiminləsə sevişmək üçün gətirməyib. Burda deyirlər də: "Hər yarağım düzəldi, qaldı bircə saqqal darağım". Hümmət özü üçün danışır. Bir də mənə yanaşsa, ona cavab verməyəcəm... Bununla da iş bitəcək... Vəssalam!.. "Fələk deyir: — Sən saydığını say, gör mən nə sayıram". Məsələ heç də Şəfəq düşünən kimi olmadı. Hümmət hər gün Şəfəqin ardınca gəzir, qız hara gedirsə onu gözdən qoymurdu. Bunu hər gün Şəfəq də, elə yataqxananın qızları da görürdülər. Rəfiqələrindən bəziləri Şəfəqi məzəmmətləyirdi də: — Hümmət diqqətsiz oğlan deyil, "hə" desən, pis olmaz, — deyirdilər.

Günlər, aylar beləcə ötüşürdü. Adi bir gün idi. Şəfəq məktəbdən qayıdanda komendant Fəridə xanım onu öz otağına çağırdı. İçəridə yaşlı qadın əyləşmişdi. Uzunboyunlu, arıq, qurğaz bu qadının sarıbəniz sifəti xeyli qırışmışdı. Dümağ saçlarını yarıya ayırmışdı o. Çənəsinin altındakı qara xalda bitən bir cüt tük də elə bil uzanmışdı. Əyninə geydiyi yaşıl rəngli ipək xalatın yaxası ütülənmədiyindən qırış-qırış olmuşdu. Düymələrin keçdiyi ilgəhlərdən bir neçəsi yeyildiyindən püzgələnmişdi. Ayağına geydiyi əldə toxunmuş qara yun corabının boğazını dizinə çəkmişdi. Corabın ayaq hissəsinə tez cırılmasın deyə boz, qalın parçadan üzlük çəkmişdi. Fəridə Şəfəqə məktəb, dərslər, fabrik, yataqxana... barədə suallar verdi. Sonra da söhbəti Şəfəqin ailə vəziyyəti üzərinə gətirdi. Qız heç bir şeyin fərqinə varmadan Fəridənin suallarına cavablar verirdi. Söhbətin sonunda Şəfəq onlarla xudahafizləşib öz otağına getdi.

Axşama az qalırdı. Süsən günortadan qızlarla şəhərə çıxdığından hələ otağa qayıtmamışdı. Şəfəq otaqda sabahkı dərslərinə hazırlaşırdı. Qapı döyüldü. O, tələm-tələsik yerindən qalxıb qapını açdı. Fəridə otağa girdi. Qız onu görcək gülümsündü və:

— Buyurun, Fəridə xala, əyləşin, bir stəkan çay için, — dedi.

Fəridə:

— İçmirəm, ömrün uzun olsun, qızım, Süsəni görmürəm, — deyə soruşdu. Şəfəq:

— Qızlarla şəhərə gedib.

— Qızım, ikilikdə səninlə söhbət eləmək istəyirəm. Ancaq istərdim danışdıqlarımız öz aramızda qalsın. Bayaq mənim otağımda əyləşən qadının adı Qəhmərdi. Onu bura qonşu binanın altındakı atelyedə işləyən Hümmət göndərib. Qəhmər Hümmətin anasıdı. O qadın səni görmək istəyirdi. Oğlunun da, özünün də xoşuna gəlmisən.

Şəfəq nə deyəcəyini bilməyib Fəridənin gözlərinin içinə baxdı, yanaqları qızardı. Fəridə xanım əlavə elədi:

— Sən razısansa, onlar rayona gedib babanla danışmaq istəyirlər.

Şəfəqin sanki bədəni uçundu. Gözləri doldu. Sonra titrək və pıçıltılı səslə astadan dedi:

— Mən bura ərə getməyə gəlməmişəm.

— Yaxşı-yaxşı fikirləş, qızım. Bildiyimə görə kimsəsiz, daldasız qızsan. Xoşbəxtlik, səadət öz əlləri ilə qapını döyəcləyir. Mən səninlə bir ana kimi danışıram, Şəfəq. Unutma ki, yetimə gəl-gəl deyən çox olar, çörək verən az. Mən biləni Qəhmər pis qadın deyil. Bir qızı var, o da ərdədi. Tək oğlu var. Hazır evi-eşiyi. Demirəm "hə" de. Mən qadının fikirlərini sənə çatdırdım...

Fəridə xudahafizləşib otaqdan çıxdı. Şəfəq fikrə getdi. Hər gün arxasınca sürünən Hümmət, bayaq komendant otağında əyləşib onu diqqətlə müşahidə eləyən Qəhmər barədə düşündü. Qoca, ağsaqqal babası Zeynal kişini, ögey nənəsi Şapərini xatırladı. Biliyinin azlığından, təcrübəsizliyindən heç cürə baş aça bilmirdi. Öz-özünə dedi: — Neyləməli? Ərə gedəcək vaxtımdımı? Ərə getmək asandımı? Axı nə olsun ki, neçə vaxtdı Hümmət məni izləyir? Məni istəyir? Axı mən onu tanımıram. Halına, xislətinə bələd deyiləm. Nə olsun ki, boy-buxunludu? Nə olsun ki, ev-eşiyi var? Bəlkə... Yox!.. Tanımıram... Nə olsun ki, anasını mənim ardımca göndərib? Nə olsun ki, Fəridə xala onlar barədə xoş sözlər deyir? Yox! Hümmət, səni tanımadan səninlə mənimki tutan söhbət deyil"...





* * *

May ayının axırlarıydı. Şəfəqin peşə təhsilini başa vurmasına lap az qalırdı. Bir gün dərsdən qayıdanda babasını yataqxananın qapısı ağzında gördü. Qız balaca uşaq kimi babasının üstünə qaçdı. Baba ilə nəvə qucaqlaşdılar, öpüşdülər. Sonra da baba gətirdiyi balaca həsir zənbili götürdü. Şəfəq dərhal: — Ver, mən aparım, — deyə zənbilin qulpuna əl atdı. Baba nəvəyə etirazını bildirdi və: — Hələ qocalmamışam, — deyə zarafat elədi. Onlar otağa getdilər. Hal-əhvaldan sonra nəvə çay qoyub nahar hazırlamaq istəyirdi ki, baba dedi:

— Ömrüm-günüm, gəl əyləş. Bir azdan mən gedəcəm. Gəldim, səni görüm. Sənin üçün yamanca darıxmışam.

— Elə mən də, baba.

— Qızım, məni bağışla, səninlə açıq danışmaq istəyirəm.

Şəfəqin təbəssümlü çöhrəsində bir ciddiyyət yarandı. O, ilk dəfə görürmüş kimi babasının üzünə baxdı. Baba səsinə ara verdi və handan-hana sözünə davam elədi:

— Mənim balam, rəhmətlik anan, nənən yaşasaydı, elə bir canıyananımız olsaydı, bunu mənim söyləməyim lüzumsuz olardı. Sənə məndən, mənə səndən yaxın kimsə yoxdu.

— Nə olub ki, baba?

— Bir ay olar. Gəncədən bizə Qəhmər adlı bir yaşlı qadın, bir də onun oğlu Hümmət gəlmişdi. Dedilər səni də tanıyırlar. Çox danışdılar, axırda da sənin elçiliyini elədilər. Bunu gözləmirdim. Səndən də xəbərsiz idim.

Şəfəqin üz-gözü qızardı. Alnında, yanaqlarında zəif tər dam-

cıları göründü. Başını aşağı saldı. Baba kövrəldi. Nəvəsinə yazığı da gəldi:

— Dedim, fikirləşərəm, götür-qoy elərəm. Səndən öyrənmək istəyirəm, mənim balam.

Şəfəq utana-utana, qızara-qızara, çəkinə-çəkinə dedi:

— Mən onu tanımıram, baba. Axı tanımadığım adama...

— Aydındı, qızım. Mən səni məcbur eləmirəm. Yaxşı-yaxşı fikirləş. Gözüyumulu "hə" deməyinin mən də tərəfdarı deyiləm. Əgər oğlan özü, anası mənim yanıma təşrif buyurublarsa, deməli, ciddi danışırlar. Ciddi sözə də ciddi münasibət olmalıdı...

* * *

Babasından ayrılan Şəfəq vağzaldan yataqxanaya olan yolu pay-piyada getməli oldu. O, yol uzunu babasının dedikləri barədə düşündü. Babam necə dedi? "Ciddi sözə ciddi münasibət". Babam dünya görmüş adamdı. O, hər şeyi götür-qoy eləməsəydi, mənim yanıma belə dar macalda, qaçaraq gəlməzdi. Babamın danışdıqlarından belə çıxmırmı ki, mən razı olsam, o, da "yox" deməyəcək. Səni başa düşdüm, baba. Hümmət sənin yanına anası ilə gedibsə, deməli, onun mənə dedikləri də həqiqətdi. İnsafən, özü də pis oğlan deyil. Diqqətsizə, kobuda oxşamır. Bəzi oğlanlar kimi şit-şit hərəkətlər eləmir. Barəsində adam utandıracaq şeylər də eşitməmişəm..."

Bax, beləcə düşünə-düşünə Şəfəq otağa necə gəldiyini bilmədi. Şkafın üstündən güzgünü götürdü. Üz-gözünə baxdı. Saçlarını daradı. Ürəyində bir zaman Hümmətə qarşı acıq, bəzən də yazıqlıq doğuran hissləri indi yavaş-yavaş hörmət və ehtiramla əvəzlənirdi. Bu dönüş, çevriliş hardan doğurdu, nədən yaranırdı, Şəfəq özü də bilmirdi. Get-gedə rahatlığı əlindən alınırdı. Onun içində qəribə bir boşluq yaranırdı. Qız elə güman eləyirdi ki, bu boşluğu Hümmət doldura bilər. Ona görə də o, özünə nəzarəti,





diqqəti artırırdı. Sevgi, ailə, ər barədə düşünməyə başlayırdı.

* * *

Şənbə günüydü. Süsən xəstələndiyindən həmin gün bazardükana Şəfəq tək getməli oldu. Hava mülayim idi. Qız trolleybus dayanacağına çatmışdı ki, Hümmətin arxasınca gəldiyini gördü. Hara gedəcəyini bilmədən çaşıb qaldı. Bəxtindən dayanacaqda kimsə yox idi. Hümmət salam verib onun yanında dayandı. Şəfəq başını ona tərəf döndərdi, dodaqucu salamı aldı, Hümmət cəsarətləndi:

— Şəfəq,.. Şəfəq... Mən səni... Ailəniz də bilir... Axı...

Şəfəq başını Hümmətə tərəf çevirdi.

Oğlanın gözlərində səmimiyyətdən, mehribanlıqdan, qayğıkeşlikdən, istəkdən doğan bir parıltı duydu. Qızın ürəyi titrədi. O, heç vaxt, heç zaman belə gözlər görməmişdi. Gözlər nə qədər aydın, nə qədər təmiz?! Şəfəq özü də hiss eləmədən bu aydınlıq, paklıq içərisində sehrləndi. Bunu Hümmət də duydu. Hümmət pıçıltılı bir səslə dedi:

— Şəfəq, o Allah bilir ki...

— Bəsdi.

— Mənə niyə inanmırsan, Şəfəq?

— İnanıram, Hümmət. Mən kimsəsiz qızam, tək bircə babama ümidliyəm.

— Bilirəm, Şəfəq. Elə mən də sənin kimiyəm. Varım, yoxum, bir anam, bir də bacımdı. Onlar da sənin barəndə hər şeyi bilirlər.

— Axı, mən səni tanımıram. Bu tezliyə...

— Mən etiraz eləmirəm. Təki sən "hə" de. Elə bilərəm dünya mənimdi.

Şəfəq çiyinlərini çəkib başını aşağı saldı. Hümmətə elə gəldi ki, Şəfəq razıdı. Bununla da onun aləmində sanki bir günəş doğ-

du. Sevindi, fərəhləndi. Dönüb beş-on addımlıqdakı gül mağazasına tərəf getdi, bir dəstə bağladıb satıcının pulunu verdi, tez də geri qayıtdı. Gülü Şəfəqə uzadaraq:

— Xahiş eləyirəm, al, məni sındırma..

“Sındırma“ sözünü Hümmət elə dedi ki, Şəfəqin ürəyi titrədi.

Hümmət:

— Hava necə də gözəldi, Şəfəq?! Bəlkə bir az birlikdə...

— Mən dükan-bazara getməliyəm. Süsən bikefləyib.

— Bəlkə səni müşayiət eləyim.

— İndi yox.

Hümmət Şəfəqin sözünü çevirmədi. Elə bu vaxt trolleybus dayanacağa çatıb dayandı. Şəfəq trolleybusa minib pəncərədən Hümmətə baxdı. Oğlanın gözləri ona dikilmişdi. Baxışlar necə də səmimi, necə də mehriban idi. Şəfəq gülümsündü və gözlərini qucağındakı gül dəstəsinə dikdi. Trolleybus yerindən tərpəndi. Şəfəq növbəti dayanacaqda düşüb mağazadan qənd, çay, çörək alıb geriyə döndü. Daha bazara getmədi. Qıza elə gəldi ki, bu gün dünyanın xoşbəxtidi. Sevib-sevilmək əgər budursa, nə qədər əzəmətli, nə qədər möhtəşəm, nə qədər əlçatmazdı?!

Qəribəydi, həmişə oğlanlarda qüsur axtaran Şəfəqin gözlərində indi Hümmət hamıdan yüksəkdə dayanırdı. Şəfəq sehirli, füsunkar xəyallar aləmində qəhrəmanlıq macəraları axtarırdı. Hər şey onun gözlərində yaz səhərində gülümsəyən təbiətin əlahiddə möıcüzələri tək cazibədar və heyrətamiz görünürdü.

* * *

Şəfəqdən ayrılan Hümmət birbaşa evə gəldi. Anasını qucaqlayıb üz-gözündən öpdü və uşaq kimi atılıb-düşmək istədi. Yaxşı baxsaydın, ürəyindəkiləri gözlərindən duymaq, oxumaq olardı. Gözləri işıq saçırdı, sir-sifəti leysan yaz yağışından sonra günəşin parlaq ziyasında çimən qızılgül kimi açılmışdı.





Hümmətin qəlbində Şəfəq zəriflik mehrabına çevrilmişdi. O, can-başla bu mehrabın qarşısında diz çökməyə hazır idi. Şəfəqdən “Hə”“ sözünü almaqla, onun əsrarəngiz səsini eşitməklə, gözlərindəki ülvi sevgi qığılcımlarını görməklə özündə məmnunluq hissi duyan Hümmət neçə vaxtda çəkdiyi ruhi iztirablara, əzablara, məşəqqətlərə sanki son qoydu. Ona elə gəlirdi ki, bu gün doğulub. Bu vaxtadək heç bir çətinliklə qarşılaşmayıb. Səadəti, xoşbəxtliyi Şəfəqin əlindədi. O, istəsə təbəddülat yaratmadan gələcək birgə yaşayışlarını mənəvi sərvətlər, zinətlər, dəyərlər, dəfinələr içərisində qurarlar.

Bu vaxt qapı döyüldü. Hümmət sevinə-sevinə gedib qapını açdı. Gələn Tubuydu. O, Hümməti sevincək halda gördü, salam verib içəri keçdi:

— Hə, nə olub, gözlərin gülür? — deyə soruşdu.

— Əşi, bir gəl otur, özünə gəl, sonra sualını ver də.

Qardaşının sözündən xoşhal olan Tubu soruşdu:

— Anam evdədir?

— Bəs harda olacaq? Çay hazırlayır.

— Bir təhər danışırsan. Görürəm, kefin yuxarıdı.

Tubu ayaqqabılarını çıxarıb qapı ağzındakı çətələkləri geyinib mətbəxə keçdi, anasını qucaqlayıb üzündən öpdü və sonra dilləndi:

— Neçə gündü hey can atıram gələm, işdən imkan yoxdu.

Qəhmər:

— Qardaşını təbrik elə.

Tubu:

— Xeyir ola, nə məqsədlə?

— Qızın “hə”sini alıb.

— Lap yaxşı, qardaşıma göz aydınlığı verirəm, ancaq öyrənmək istəyirəm, qızın daldası varmı?

Qəhmər:

— Bir qoca babası var, ancaq özü mənim də xoşuma gəlir.

— Əşi, əsas arxasıdı.

Anası ilə bacısının söhbətini diqqətlə dinləyən Hümmət narazı halda dilləndi:

— Mən yaxşı ailə istəyirəm, var-dövlət, yaxud güclü arxa yox.

Tubu:

— Sağ ol, qardaş! Ədə, elə adamla ailə qur ki, sabah ata-anasından, qardaşlarından istifadə eləyə biləsən. Özün kimi lütdən heç nə görməyəcəksən, ay yazıq. Əksinə, o, səndən istəyəcək. Budu ha, mən də getdim bir lütə. Sabah anası, ya bacısı ölsə, kəfən puluna sənin üstə gələcəklər. “Yoluğun nəyi var ki, cırığa nə verə?“ Yetimçədən bir şey çıxmaz. Ağlını başına yığ”.

Qəhmər:

— Bəsdi, Tubu, atalar deyib: “Könül sevən göyçək olar”. Kimi, istəyir, qoy alsın. Mənə də bu yaşda suçu-külçü lazımdı.

Hümmət:

— İndidən yaxşı başlamısız, ay ana. Sən özünə suçu-külçü, bacım da dalda axtarır. Mənim işim də yaxşı düzəldi. Qəribə adamlarsız. Nəyinizə gərəkdi yetimçədi, nədi, bir şey çıxacaq, ya çıxmayacaq?

Tubu:

— Evlənməyə bir şey yığmısan?

— Şəfəq barədə söhbəti qurtarın.

Hümmət əsəbi halda qalxıb yan otağa keçdi. Düşündü ki, neçə vaxtda maaşından topladığı pullarla gedib Şəfəqə nişan üzüyü, bir dəst paltar alsın. Sonra da gedib nigah kəsdirsin. Gözlənilmədən düşündüklərinin tam əksinə dedi: “Deyəsən, mən dəli olmuşam. Şəfəq bunlara razı olacaqmı? Yox, olmayacaq. Belə vəziyyətdə iş çətinləşəcək...“ Bax beləcə, özlüyündə çıxış yolları axtaran Hümmət növbəti görüşlərin birində Şəfəqlə açıq danışmaq qərarına gəldi.

Üç aydan artıq idi ki, Şəfəqlə Hümmət həftədə iki-üç dəfə





görüşürdülər. Şəhərin görməli yerlərində dəfələrlə olmuşdular. Kinoya, teatra gedirdilər. Qız da, oğlan da tanışlıqlarından məmnunıydılar. Hər biri özlüyündə oturub-durub böyük Yaradanlarına dua oxuyurdular. Bu müddət ərzində bir dəfə də olsun aralarında inciklik doğuracaq söz-söhbətə, artıq hərəkətə yol verməmişdilər. Əksinə, danışıqlarında etik normaları gözləyirdilər. Yataqxanadakı qızlar da Hümmətlə Şəfəq arasındakı sevgi-məhəbbət macərasından xəbər tutmuşdular. Qızlardan bəziləri Şəfəqə: — Ehtiyatlı ol, aldanma, — deyə məsləhətlər də vermişdilər. Bir dəfə qonşu otaqda yaşayan Simuzər ona: — Nə vaxtadək belə boş-boşuna gəzəcəksiniz, belə getsə, səni atacaq, — demişdi. Şəfəq qızların hər birinin dediklərini eşidir, ancaq onlara heç bir söz demirdi. Özlüyündə belə qənaətə gəlmişdi ki, Hümmətə desin: — “Gəzdiyimiz bəsdi“.

Növbəti istirahət günüydü. Hümmətlə Şəfəq Gəncə çayının sahilindəki parka gəldilər. Xeyli yanaşı addımladılar. Keçmişlərindən, arzularından söhbət açdılar. Gözlənilmədən Şəfəq yaxınlıqdakı şah budaqlı çinarın altındakı skamyanı göstərərək dedi:

— Bəlkə, bir az burda əyləşək. Söhbət eləyək.

Bu, Hümmətin də ürəyincə olduğundan o da etiraz eləmədi. Keçib skamyada əyləşdilər. Hümmət dedi:

— Şəfəq, bu qocaman Gəncə çayı da, kölgəsi yan-yörəmizi bürüyən şah budaqlı çinar da, üstündə əyləşdiyimiz skamya da nə vaxtsa bizim sevgimizə şahidlik eləyəcək.

Şəfəq utancaq halda çiyinlərini çəkdi. Hümmət sözünə ara verdi. Sonra da astadan bildirdi:

— Nə vaxtsa yola getməsək, nəinki bu sadaladıqlarım, hətta çayda bir-birinə söykənikli yatan qara daşlar da...

— Deyəsən fanatiksən, Hümmət.

— Şəfəq, əzizim, mən səni sevirəm, özü də çox, lap çox.

Şəfəqin məhzun baxışları Hümmətin üzünə dikildi. Hümmət

onun alışıb yanan gözlərində dərin bir sevgi duydu. Qız gülümsündü. Oğlan hamıdan: anasından, bacısından xəbərsiz dünən zərgər mağazasından aldığı qızıl üzüyü cibindən çıxarıb Şəfəqin barmağına taxdı. Sonra da utana-utana, çəkinə-çəkinə bildirdi:

— Əzizim, sənə demişəm. Mənim xəstə anamdan və bacımdan başqa kimsəm yoxdu. Hələlik mənim gücüm buna, bir dəst də paltara çatır.

— Səndən nə istəyirəm, Hümmət? Mənə sən gərəksən. Təmiz, hərarətlə sevən ürəyin gərəkdi. Bir də babamla danışman. Ondan razılıq alman. Qoca babamın qəlbi sınıqdı... Mən onsuz...

— Oldu, Şəfəq. Elə bu həftə babanla görüşərik. Sənin də razılığını ona çatdıraram.

Barmağındakı üzüyə baxan Şəfəqin ürəyi atlandı. Daha bir söz demədi. Xeyli müddət çayı beləcə müşahidə elədilər, axar suların zümzüməsinə heyranlıqla qulaq asdılar. Handan-hana Şəfəq dedi:

— Qalxaq, gəzdiyimiz bəsdi. Bayaqdan burdayıq, görənlər Allah bilir, nə düşünəcəklər?

— Kim nə düşünür, düşünsün, özü bilər.

Hümmətgil ayağa qalxıb gəzə-gəzə yataqxananın qarşısına gəldilər. Şəfəq xudahafizləşib iti addımlarla binaya daxil oldu.

* * *

Anası ilə ikinci dəfə Göyçaya elçiliyə gedən və babadan: — Allah mübarək eləsin, — deyə razılıq alan Hümmət növbəti həftənin dördüncü günü axşam tərəfi Şəfəqlə görüşdü. Onlar gəzə-gəzə parka gəldilər...

Günəşin şüaları nəhəng çinarların yaşıl, enli yarpaqları arasından süzülüb yerlə qovuşmağa can atsa da, onun böyük hissəsini yarpaqlar canına çəkirdi. Əvəzində yerə bir sərinlik ötürürdü. Budaqlardan budaqlara atılan qarğaların qarıltısı aləmi başına götürmüşdü. Bir qədər aralıda bağça uşaqlarının əl-ələ tutub dövrə vurması, "siçan-pişik" oyunu" oynamaları Şəfəqlə Hümmətin diqqətindən yayınmadı. Şəfəq uşaqlara baxıb gülümsündü:





— Bir zaman biz də belə balaca olmuşuq.

— Düzdü, balaca olmuşuq, ancaq belə şən həyat mənə nəsib olmayıb.

Şəfəq:

— Elə mənə də.

Hər ikisinin acı xatirələri çözələndiyindən Hümmət: — Gedək, — deyə üzünü əks tərəfə çevirdi. Onlar bağın yuxarı başına gəldilər. Nəhəng çinar ağacının altındakı skamyada əyləşdilər. Hümmət cibindən iki qatlanmış məktubu çıxarıb Şəfəqə verdi:

— Babandandı.

Qız məktubu açdı. Dərhal babasının xəttini tanıdı. Şəfəq məktubu səssiz oxudu. Orada salam və hal-əhval soruşmaqdan savayı bir şey yazılmamışdı. Nəvə dərhal babasını başa düşdü...

Məktub o deməkdi ki, Hümmətgil mənim yanımda olublar. Söz sənindi." Şəfəq dərhal düşündü: "Bəli, babam öz sözünü dedi. Yazıq baba, hardan biləsən xeyli vaxt bundan əvvəl mənim də razılıq verdiyimi!" Şəfəqin çöhrəsinə zərif bir qızartı çökdü. Şəfəq dəfələrlə götür-qoy eləmişdi: "Babamın mənə cer-cehiz almaq, toy eləyib ər evinə köçürmək imkanı yoxdu. Mən bunu Hümmətə necə çatdırım. Bunu başa düşən Hümmətin mənə münasibəti necə olacaq?!"

Gözlənilmədən Hümmət dedi:

— Şəfəq, səninlə açıq danışmaq istəyirəm.

Bunu eşidən Şəfəqin ürəyi titrədi, ancaq özünü o yerə qoymadı.

— Buyur, eşidirəm, Hümmət.

— Qadası, mən çox fikirləşmişəm... imkansızam. İstəyirəm, məni düz başa düşəsən. Ağlayan adamlara da nifrət eləyirəm.

Əgər etiraz eləməsən bu günlərdə gedib kəbin kəsdirmək üçün ərizə verək.

Şəfəq duruxdu. Sonra soruşdu:

— Necə yəni?

— Ailə qurmamız barədə baban da xeyir-dua verib. Baxıram ki, o da imkansızdı, biz də. Düşmənləri özümüzə güldürməyək. Etiraz eləməsən, bir-iki dəst paltar alaq. Evimizdə bir ziyafət təşkil eləyim. Nigah günü səni evimizə köçürüm.

Əslində Şəfəqin də başqa yolu yox idi. Buna baxmayaraq, o, dedi:

— Deməzlərmi ki, bu qız nə həyasızdı?

— Kimə nə dəxli var? Bir də ki, kimə hesabat verməliyik?

Şəfəq çiyinlərini çəkdi. Sonra da:

— Özün bil, Hümmət, — dedi.

Oğlan qəflətən qucaqlayıb qızı öpdü. Şəfəq diksinib ayağa qalxdı. İki ürəyi, iki qəlbi birləşdirən bu öpüş Şəfəqin canına indiyədək keçirmədiyi bir vəlvələ saldı. Qız bu hisslərin təsirindən uzun müddət qurtara bilmədi. Ona bir anlığa elə gəldi ki, dünyada bundan əziz, bundan təmiz bir şey yoxdu və ola da bilməzdi. O, ömrü boyu belə bir sevgi dolu ürəyə məhəbbətlə yanaşmağa hazırıydı...

Günəş qüruba çəkilirdi. İşıqla qaranlıq arasında əsrarəngiz mübarizə başlamışdı. Günəş uzun hörüklərini sürüyə-sürüyə çəkib gedirdi. Yerinə qorxu, təlaş, həyəcan yaradan müdhiş gecənin qara pərdəsi gəlirdi. Gündüzün isti nəfəsi axşamın sərinlik vəd eləyən havası ilə əvəzlənirdi. Şəfəq bildirdi:

— Gecdi, gedək.

— Anamla da danışmışam. Sabah nigah kəsdirmək üçün gedib ərizə yazmalıyıq.

— Orda kimlər olacaq?

— Anam, Tubu, bir də onun əri Seyran.

— Süsəni dəvət eləsəm, olarmı?





— Niyə olmur? Kimi xətrin istəyir, dəvət elə.

Şəfəq etiraz eləmədi. Onlar gəzə-gəzə yataqxananın həyətinə gəldilər. Ayrılarkən Hümmət:

— Səhər saat doqquza qədər.

— Hələlik.

* * *

...Nigah üçün ərizə yazıldıqdan bir ay sonra Hümmət yığcam ziyafət təşkil eləyərək Şəfəqi öz evinə köçürtdü. Yataqxanada ömrünü sərbəst yaşayan Şəfəq yeni bir aləmə düşdü. O, ana qayğısını, ana nəvazişini qayınanası Qəhmərin timsalında axtardı. İlk gündən özünü bu evdə gəlin kimi yox, ailənin qızı təki aparırdı. Qayınanasına isinişməsi, dilinin şirinliyi, səmimiyyəti Hümmətdə də hədsiz məmnunluq yaradırdı. Qayınanasının diqqəti, ərinin mehribanlığı Şəfəqi çox sevindirirdi. O, oturub-durub düşünürdü ki, bu evdə, ailədə özünün xoşbəxtliyini, səadətini tapmışdır. Qadın üçün ev, ailə əvəzolunmaz bir şeydi. Böyük Yaradanın buyurduğu kimi ər arvadın sahibi, başının tacıdı. Qadın tacına hər cür hörmət və ehtiram göstərməyə, ləyaqət və namusunu qorumağa borcludu. Ərsiz qadın saqqıza bənzər. Çeynənər, çeynənər, ağızlarda çürüdülər, atılar... Hümmət də eynilə Şəfəq kimi düşünürdü. O, arvadına özünün namus, şərəf qalası kimi baxırdı. Onun aləmində ərlə arvad eyni hüquqa malikdilər. Xoşbəxt həyat, gözəl gələcək arvadı ilə arasındakı səmimiyyətdən, mehribançılıqdan asılı olacaq. Onların bütün işləri qarşılıqlı münasibətlərinə əsaslanmalıdı. Qəhmər də gəlinin hərəkətlərindən xoşhallanırdı. Qayınanada onun ədəb-ərkanından, davranışından belə bir inam yaranmışdı ki, Şəfəq arzu elədiyi adamdı. Allah-Təala Qəhmərin də, Hümmətin də üzünə baxıb. Bu abırlı, ismətli, mehriban xanımı məhz bu ailəyə yetirib.

Yaşadıqları müddətdə bir dəfə də olsun gəlinlə qayınana, ərlə arvad arasında ixtilaf yaranmamışdı. Təkcə Tubunun bu evə

gəlişi, onun Şəfəqə münasibəti o qədər də ürək açan deyildi. Bunu Qəhmər də, Şəfəq də aydın başa düşürdülər. Qəhmər hər dəfə daldada, gəlindən xəbərsiz Tubuya iradlar tutub yüngül və ya ağır məzəmmətlər eləsə də, qız heç bir nəticə çıxarmırdı. Əksinə, ağlına gələnləri deyirdi. Tubunun səmimiyyətdən, qarşılıqlı hörmətdən, adi ədəb qaydalarını gözləməkdən uzaq hərəkətləri həmişə diqqətli və nəzakətli olan Şəfəqin nəzərindən qaçmırdı. Ancaq o, qayınanasının, ərinin xatirinə heç bir əhəmiyyət vermirdi buna. Fikirləşirdi ki, nə vaxtsa Tubu hərəkətlərini başa düşəcək, üzrxahlığını bildirəcək. Bildirməsə də, özlüyündə peşmançılığını çəkəcək. Yetərincə qadınlıq təcrübəsi olmayan Şəfəq ər, qayınana, baldız münasibətlərində səhvə yol verməməyə çalışırdı. Çox vaxt da baldızının yöndəmsiz söz-söhbətini eşitməmək üçün yan otağa, ya mətbəxə keçib iş-güclə başını qatmağa çalışırdı... — Nə danışır-danışsın, hər kəs öz əməllərinin girovudu, quludu, — deyə düşünürdü...

Ağlı söz kəsəndən, özünü tanıyandan Şəfəq özü üçün firavan həyat, gözəl ailə, başadüşən ər arzulamışdı. Düşdüyü ailədən, ərindən narazı deyildi. Bu gəlin özü üçün bircə şeyi qərarlaşdırmışdı ki, Tubunun dediklərini, hərəkətlərini ipə-sapa düzməsin. Vəssalam.

Hər gün fabrikdə işləyən Şəfəq evə gələndə bircə dəfə də olsun yorğunluğunu büruzə verməzdi. Ailənin bütün işlərini görərdi. Onun aləmində qayınana da anadı. Onun qulluğunda canbaşla dayanmaq, dediklərinə əməl eləmək, qəlbini sevindirmək göydə Allaha da xoş gedər.

* * *

Son zamanlar anasının tez-tez xəstələnməsi Hümməti çox narahat edirdi. O, hər dəfə ya həkim arxasınca qaçır, ya da evə tibbi yardım maşını çağırırdı. Şəfəq evdə olmayanda Hümmətin





həyəcanları daha da artırdı. O, özlüyündə belə qərara gəldi ki, Şəfəqlə bu barədə danışsın. Vəziyyətdən birlikdə çıxış yolları axtarsınlar...

Şam yeməyindən sonra ər-arvad yataq otağına keçdilər. Soyunub yataqlarına uzandılar. Aradan bir az keçmiş Hümmət dərindən ah çəkdi. Şəfəq astadan dilləndi:

— Elə bil fikirlisən, Hümmət?

— Hə.

— Niyə?

— Anamın dərdi məni götürüb. Belə olmaz. Arvad bütün günü evdə tək olur. Biz də işdə. Başına bir iş gəlsə...

— Neyləyək?

— Sən də ikicanlısan. Bəlkə işdən çıxasan. Bu vəziyyətdə işləmək sənin üçün çətindi. Evdə olasan. Belə olanda anam da tək-tənha qalmaz. Sən anama da yardımçı ola bilərsən.

— Ana sənindi də, mənimdi də. Mən sən deyənlərə etiraz eləmirəm. Necə məsləhətdi.

— Çox sağ ol, Şəfəq. Mən belə də düşünürdüm.

* * *

Payızın son çağlarıydı. Neçə gün idi ki, sərt əsən küləklər, ara vermədən şiddətlə yağan yağışlar səngimək bilmirdi. Pəncərələri döyəcləyən küləyin uğultusu, yağışın şırıltısı otaqlarda açıq-aydın eşidilirdi. Çöldə havanın soyuqluğu içəridə də duyulurdu. Qarmaqarışıq, bir az da qorxulu röyalar görən Şəfəq yuxudan hövlnak oyandı.

Bir həftəydi ki, hamiləlik yükünü yerə qoyan, ikicanlılıqdan qurtaran Şəfəqin bənizi pambıq kimi ağarmışdı. Özü də xeyli halsızlamışdı, ancaq ana olmaq hissiyatı ona hər şeyi: keçmişini də, indiki halsızlığını da az qala unutdurmuşdu. Şəfəq ürəkdən sevinirdi, özünü dünyanın ən xoşbəxti sanırdı. Onun aləmində

ana olmaqdan, övlad böyütməkdən böyük şərəf yoxdu və heç vaxt da olmayacaqdı. Qadın o zaman qüdrətli olur ki, o, anadı...

Çarpayısında səssiz-səmirsiz uzanan Şəfəqin gözləri tavana dikilmişdi. Gözlənilmədən dəhlizdə səs-küy qopdu. O, əvvəl çarpayısından qalxmaq istəmədi. Səs getdikcə gurlaşdı. Elə bu vaxt xəstəxanaya axşam gətirilən və yanındakı çarpayıda yatan Pəri xanım da diksinib yuxudan oyandı: — Bu nə səsdi? — deyə yatağından qalxdı. Çarpayının qırağındaca oturdu. Sonra da yorğanın ətəyini çılpaq qıçlarının üstə çəkdi. Qadın səsləri getdikcə yüksəlir, bir-birinə qarışır, kişi söyüşləri ilə müşayiət olunurdu. Səslərdən o da aydın olurdu ki, mübahisəyə qoşulan iki-üç yox, daha çox qadınıydı. Onların söyüşləri Şəfəq üçün də, Pəri üçün də nə qədər gözlənilməz olsa da, onlarda belə bir fikir yarandı ki, həmin qadınlar küçədən, tindən tutulanlardı. Belələrini doğum evində işlətmək ən azı günahdı. Şəfəq özünü elə apardı ki, ya söyüşləri eşitmir, ya da deyilənləri heç cür ayırd edə bilmir. Şəfəqin bu hərəkətini Pəri də duydu və özlüyündə bunu təbii hal kimi dəyərləndirdi. Pəri: — Bura doğum evindən çox dəlixananı xatırladır ki? — deyib yenidən çarpayısına uzandı. Bu qadının otuz yaşı ancaq olardı. Qarabənizdi, bəstə boyu, dolu bədəni, sarı rəngli saçları, çuxura düşmüş göy gözləri vardı. Sifətinin dərisi bir qədər codlaşmış, bir az da bozarmışdı. Alnında, yanaqlarında tək-tək qara ləkələr sezilirdi. Heç şübhəsiz ki, bu da hamiləliyin ötəri nişanələriydi. İkicanlılıqdan qurtaran kimi o da tədricən yox olacaqdı. Bu qadın axşamdan bəri bircə dəfə də olsun ayağa qalxmamışdı. Həkim Rumiyyə xanımın dediyinə görə, ikicanlılıqdan qurtarmaq üçün tez gəlib. Xəstəxanada hələ bir neçə gün yatıb gözləməliydi.

Şəfəq üstündən köhnə, cındır, rəngi bozarmış, çirkli xəstəxana yorğanını kənara itələyib ayaqlarını dəmir çarpayının qırağından salladı. Qollarını yuxarı — başı bərabərinə qaldırdı. Sonra əllərini boynunun ardına apararaq gərdəninədək uzanan pırpızlı saçlarını çiyinlərinə tökdü. Boyun-boğazını bir neçə dəfə o tərəf-bu tərəfə yırğaladı. Sonra da ayağa qalxıb çətələklərini geyindi, əllərini belinə qoydu. Sağa, sola, arxaya qanrıldı. Bel sümüklərinin şaqqıltısını eşitdi. Buna bənd imiş kimi canında yüngüllük hiss elədi. Sonra çarpayıda yatan Pərini narahat eləməmək üçün barmaqlarının uclarını döşəməyə astadan basa-basa pəncərəyə yaxınlaşdı. Pəncərəyə ikiqat şüşə vurulmuşdu. O, pəncərənin aşağı gözlərinə çəkilən ağ, nimdaş pərdələrdən birini kənara itələdi. Az qala gözlərinə inanmadı. Ona elə gəldi ki, ömründə heç vaxt belə gur yağış yağdığını görməmişdi. Külək xəstəxananın həyətindəki uca, şah budaqlı, çətirlənmiş çinarlardan birini kökündən çıxarıb həndəvərindəki bir neçə cavan şam, küknar ağaclarının üstünə salmışdı. Bu cavan ağacların da budaqları çinarın ağırlığına, zərbəsinə dözməyib qırılmışdı. Şəfəqin uca, şah budaqlı çinara da, cavan şam, küknar ağaclarına da heyfi gəldi. Külək də, yağış da var gücləri ilə davam etməkdəydi. Külək yağış damcılarını çöldən xəstəxananın divarlarına, pəncərə şüşələrinə çırpırdı. Adama elə gəlirdi ki, küləklə yağış əvvəlcədən şərtləşdikləri kimi bəhsə-bəhs rəqs eləyirlər. Hər ikisi də rəqslərindən böyük şövqlə ləzzət alırdı. Damcılar da öz növbəsində birləşib divarlardan, pəncərə şüşələrindən üzüaşağı süzülürdü. Otaqdakı hənirti, içəridəkilərin nəfəsi şüşələri yüngülcə tərlətmişdi. Şəfəq həyət-bacanı yaxşı görsün deyə əlini şüşəyə toxundurdu. Çöldəki soyuqluq birdən-birə şüşədən onun bədəninə hopdu. O, əlini şüşədən çəksə də, bədənindən ani bir gizilti keçdi. Canında titrətmə duydu və bir an içərisində də ötüşdü. Şəfəq: — Belə getsə, külək qalan ağacları da qırıb tökəcək, yağış da heç kəsənə oxşamır, — deyə düşündü. Bayaqdan bəri sakitcə çarpayısına uzanan Pəri nəsə fikirləşib dedi:

— Biz qadınlar hər dəfə uşaq dünyaya gətirəndə ölüb-dirilirik.

— Niyə?

— Bəyəm, doğmaq asandı? Əzabları nə tez unutdun?

Şəfəq gülümsündü və astadan dedi:

— Onu unutmaq olar?

— Əcəb işdi. Özün doğ, özün də saxla. Vallah, kefdi bu kişilərin işi. Anam məni niyə oğlan doğmadı bilmirəm?

— O bəyəm anandan asılıydı? Bir də ki, oğlan olub neyləyəcəkdin ki?

— Sözdü deyirəm də.

Hər ikisi gülüşdü. Araya ani sakitlik çökdü. Pəri otağı başdan-ayağa süzdü. Öz-özünə: — Həkimlər lap ağ eləyiblər, — deyə düşündü, astadan, narahatlıq, təəssüf və təəccüb hissi ilə bildirdi:

— Görürsən də, bu yatdığımız yer otaqdan daha çox tövləyə oxşayır. Otaq dar. İki çarpayı, bir uşaq beşiyi güc-bəla ilə sığır. Dar pəncərələrdən düşən işıq içərini lazımınca işıqlandırmır. Axşamdan da işıqlar sönüb. Nə var-nə var çöldə bir balaca külək əsir.

— Bir balaca yox, çöldə güclü külək əsir. Ağacları kökündən qoparıb. Görünür, ağaclar elektrik xətlərini də qırıb töküb.

— Harda?

— Həyətdə. Pəncərədən bax. Həyət-bacaya yağı baxsa, yazığı gələr.

— Bir anlığa sən deyən olsun. Tutaq ki, elədi, bacım. Bu otağa, otaqdakılara əməllicə-başlıca fikir ver. Bu bina tikilib istifadəyə veriləndən təmir olunmayıb. Tavan uçub üstümüzə tökülür. Yağışın suyu divarlardan süzülüb gəlir. Döşəmə çürüyüb. Yatdığımız köhnə, dar dəmir çarpayılarda çevrilmək olmur. Çevriləndə də səsi aləmi bürüyür. Adam yuxudan diksinib qalxır. Bu pambığı çıxan döşək, neçə yerdən deşilmiş adyal, bu da tükü tökülən balınc. Yenə deyim? Bəlkə yalandı?!.

Şəfəq çiyinlərini çəkərək gülümsündü, sonra da astadan, pıçıltılı səslə cavab verdi:





— Yalan niyə ki?

— Qorxulusu bunlar deyil ey.

— Bə nədi?

— Mən bir az deyib gülənəm. Zarafatı xoşlayıram. Bu dar divarlar məni sıxır. Sən də deyəsən, adama bir az gec uyuşansan. Məndən incimə ha. İndi səndən soruşuram. Birdən axşam doğası oldum. İşıq da söndü. Sonrası nə olsun?

— Ay səni, gör nədən qorxursan. Həkimlər ona da çarə qılacaqlar.

— Nə tapacaqlar? Deyəcəklər doğuş zamanı bizdən asılı olmayan səbəbə görə dünyasını dəyişdi. Bu da tibbi arayışı.

— Aaa... Allah eləməsin.

— Vallah, nə desən çıxar. Arvadı ölmüş kişilərin də işini bilirsən də? Az qala unudacaqdım. Yaxşı, de görüm həkimlərin məzənnəsi nədi?

— Mən hələ verməmişəm, ancaq deyirlər üç yüz dollar kifayət elər.

— Kimlər deyir?

— Həkimlər, tibb bacıları, xidmətçilər. Mən də Hümmətə demişəm.

— O kimdi ki?

Şəfəq sıxıntı içərisində:

— Ərimdi, — dedi.

— Kişi pulu eşidib o gedən getdi?

— Yox! Hümmət elə adam deyil.

Elə bu vaxt qapı aralandı, ağ xalatlı otuz-otuz beş yaşlı xidmətçi qadın başını içəri saldı. Üzünü Şəfəqə tutaraq — A gəlin, hələ burdasanmı? — deyə soruşdu. Utancaqlıq, ismət hissindən Şəfəqin üzündə qızartı göründü. O, əvvəl istədi bu qadına cavab verməsin. Qadın qapı ağzında dayanıb cavab gözlədiyindən naəlac qalıb astadan dilləndi:

— Hə, burdayam.

— Gözümüzün kökü saraldı ki. Ərin bəlkə gəlməyəcək?

— Gələr.

Qadın hirslə qapını örtüb getdi. Şəfəq özünü təhqir olunmuş kimi hiss elədi, içində daxili sarsıntı duydu. Bu Pərinin də nəzərindən yayınmadı. O, dərhal soruşdu:

— Bu nə istəyir?

— Düşərlərini.

— Bəlkə birinin yoxudu? Belə çıxır ki, olmayan ölməlidi?

Şəfəq çiyinlərini çəkdi. Öz-özünə dedi: "Neyləmək olar, bu xəcalətdən, utanıb qızarmaqdan canımı qurtarsaydım. Bəlkə də yazıq Hümmət borc pul tapa bilmir. Bir də ki hardan tapsın axı. Özü dərzi. Gündəlik də gah işi olur, gah olmur. Çörək pulumuzu güc-bəla ilə qazanır. Üstəlik, mənim burdan çıxma xərcim də üç yüz dollardı..."

Şəfəq birdən yuxudan ayılan kimi oldu. Düşündü ki, doğrudan da, bu qədər pulu Hümmət hardan tapıb gətirəcək? Lap tutaq ki, gedib kimdənsə yalvar-yaxar borc aldı. Onu da gətirib bu dilənçilərə verdik. Bəs sonrası? O, pulları hardan, necə qazanıb qaytaracaq?! Həkimlər də, tibb bacıları da, xidmətçilər də dövlətdən əmək haqqı alırlar. Biz də bu ölkənin vətəndaşlarıyıq. Xəstələrə xidmət də onların borcudu. Zəhmət çəkib vəzifələrini vicdanla, namusla yerinə yetirsinlər. Qurtardıq. Yazıq Hümməti o ağırlıqda yükün altına sala bilmərəm. Cəhənnəmə ki. Qoy burdakı adamlar məni lap təhqir eləsinlər. Öz işləridi. Hər kəsin öz ağlı, öz vicdanı var. Kim vicdanı qarşısında alçalır, alçalsın. Öz işidi. Mən heç kəsə rüşvət verməyəcəyəm. Ömrümdə nə rüşvət vermişəm, nə də ki rüşvət almışam...

Bu götür-qoylar içərisində Şəfəq xəstəxanadan necə çıxacağını, tibb işçilərinin əlindən necə qurtaracağını qərarlaşdırdı. Çarpayısında uzanıb əri Hümmətin nə vaxt gələcəyini gözlədi.

Qapı yenidən açıldı. Bu dəfə göy xalatlı yaşlı xidmətçi qadın əlində böyük çanta içəri girdi: — A bala, bu palatada Pəri adlı





xəstə varmı? — deyə soruşdu. Pəri tələm-tələsik çarpayıdan başını qaldırdı: — Hə, mənəm, — deyə bildirdi. Xidmətçi:

— A qızım, bunu sənin üçün göndəriblər.

— Kim göndərib?

— Qara, uzun bir kişi. Bilmirəm, qardaşındı, ya ərin.

— Ərimdi, a xala. Bir də ki qara niyə olur? Ona mənim gözümlə baxsana.

Otağı gülüş səsləri bürüdü. Xidmətçi:

— Allah özünə qismət eləsin. Kişinə sənin gözünlə niyə baxıram ki?

— Qara olmasına baxma. Mənimlə nəfəs alır. Get deməsəm, elə xəstəxananın qabağındaca yatıb qalar.

— Lazım deyil, a bala. Qapı ağzında yatanlar hələ ki çoxdu.

Xidmətçi qadının son sözləri Pərini yamanca tutsa da, o qadına heç bir söz demədi. Zənbili alıb ona təşəkkürünü bildirdi. Qadın çevrilib gedərkən Şəfəqə yüngülcə göz də vurdu. Onun vurduğu eyhamı Şəfəq də başa düşdü.

Pəri zənbili çəkə-çəkə stolun yanına apardı. Onu açıb içərisindəki yeməkləri stolun üstünə düzdü və astadan üzünü Şəfəqə tutaraq dedi:

— Ay qız, çarpayıda ac-susuz ölə bilərik. Gəl, nahar eləyək. Ağır günün ömrü az olar. Birlikdə çörək kəsək.

Şəfəq istədi desin ki, aclığım yoxdu, Pərinin "çörək kəsək" deməsi onu öz fikrindən çəkindirdi. Elə bu vaxt qapı açıldı, xörək paylayan Sənubər xanım ağ xalatda arabacıqla qapı ağzında göründü: — Qablarınızı verin, sizə isti xörək çəkim, — dedi. Şəfəq tələm-tələsik bir boşqab Pəri üçün, birini də özünə götürdü. Qadın göy çuğun qazançanı çömçə ilə qarışdırdı və hər boşqaba bir çömçə xörək tökdü. Boşqablara tökülən südlü sıyığın buğu yuxarı qalxırdı. Adama elə gəlirdi ki, xörəyin ətri çox çəkməyəcək otağı bürüyəcək. Ancaq belə olmadı. Sıyıq süddə yox, suda bişənə oxşayırdı. Boşqablarda sıyığı görən Şəfəq əvvəl

istədi qadına desin ki, biz daha bu xörəyi yeyəsi olmadıq. Boşqabları geri qaytar. Ancaq Pərinin hamiləliyini düşünüb fikrindən yan keçdi. Həvəssiz halda xörək boşqablarını gətirib stolun üstünə qoydu. Özü də stul çəkib əyləşdi. Pəri də bayaq stolun üstə düzdüklərini yerbəyer edib yağ, bal qablarının ağzını açdı. Hərəsindən bir qaşıq xörəyin içinə atıb qaşıqla qarışdırmağa başladı. Yağ bala qarışır, əriyir, xörəyin üstündə sapsarı izləri qalırdı. Xörəkdən bir qaşıq ağzına qoydu və boğazından ötürüb Şəfəqə dedi:

— Xanım, xörəyinizi qarışdırın, çox yaxşı dada gəldi. Südə o qədər su töküblər ki, xörəyi yemək müşkül işdi. Adamın ürəyi qalxır.

Şəfəq gülümsünərək bildirdi:

— Neçə gündü səhər, günorta, axşam bizi tutublar gah mannıya, gah da içərisində tək-tək düyü olan südə bənzər suya. Allaha acıq getməsin, xəstəxanada verilən xörəklərin iyi gələndə adamın halı pozulur.

Pəri əvvəl başını buladı, sonra da gülümsündü:

— Bə nə bilmişdin? Elə fikirləşirdin sənə quymaq, ya xaşıl bişirəcəklər burda? Sən də...

— Yox, mən elə demirəm ki?

— Zarafat eləyirəm. Onları xəstələrə versələr, bəs özləri?

— Yaxşı, söhbət dananı qurda verər, xörəyini soyutma, sıyıq soyudusa, heç nə. At getsin.

Şəfəqlə Pəri deyə-gülə səhər naharını birlikdə elədilər. Elə bu vaxt qapı şaqqıltı ilə açıldı. Orta yaşlı, başına həna qoymuş qıvrım saçlı, ucaboy, kök, boğazının, qollarının altından ət sallanan tibb bacısı Hürü xanım otağa daxil oldu. Qıçlarını bir qədər aralı qoyub sallaq qarnını irəli verdi. Əllərini belinə qoydu. Diqqətlə baxsaydın, o, qadından çox vağzal samovarına oxşayırdı. Şəfəqə müraciətlə dedi:

— A bala, hələ ərin gəlmədi?





Şəfəq sərt halda cavab verdi:

— Yox.

— Əcəb adamdı. Bu qədər camaatı azara saldı.

Pəri bu qadını diqqətlə nəzərdən keçirtdi. Onun sir-sifəti, qadına uyuşmayan əcaib duruşu Pəridə təəccüb doğurdu. Onda bu qadına qarşı ikrah hissi oyandı. Özünü bilməzliyə vuraraq soruşdu:

— Xanım, siz həkimsiz?

— Həkim olsaydım, nə vardı ki?

— Bə kimsiz?

— Görmürsən?

Pərinin məqsədini başa düşməyən Şəfəq bildirdi:

— Tibb bacısıdı.

Pəri:

— Bilirəm. Nəyinə gərəkdi Şəfəqin əri? Bəyəm kişi azlığıdı?

— Danışığına sədd qoy. Hələ səni nə gözləyir, bilmirsən. Dilini gödək eləsən yaxşıdı.

— Axı onun ərini neyləyirsən?

— Onun arvadının üstündə can qoymuşam. Nəslinə-kökünə borcum yoxdu ki?

— Bəlkə pulu yoxdu. Onda özünü öldürməlidi?

— Mənə nə?

— Canına qara dərd nə? Həyasız. Sizi burda saxlayandadı günah. Dilənçilərsiz. Səhər açılandan kəsmisiz başının üstünü. Adamların üzünün suyunu tökürsüz. Utanın, qızarın. Sizə verilənlər də haramdı, haram!

Tibb bacısı Şəfəqin üzünə qəzəblə baxdı. Əsəbdən onun sir-sifəti əsirdi. Sonra bildirdi:

— Aaa... Bu nə danışır? Bunun başı xarabdı ki?

Pəri qəsdən səsini qaldırdı.

— Kəs səsini, tərbiyəsiz. Arın yox, namusun yox. Adamın əsəbləri ilə oynayırsan. Çıx otaqdan. Qapını da çöldən bağla.

Yoxsa, ayağa qalxsam...

Vəziyyətin kəskinləşdiyini görən tibb bacısı xəstəxana işçilərinin onun hərəkətlərindən xəbər tutacaqlarını düşünüb otaqdan çıxmağa məcbur oldu. Gözlənilməz söz-söhbətdən çaşıb qalan Şəfəq nə eləyəcəyini bilmədi. Pəri gülümsündü, sonra da Şəfəqə heç bir şey olmamış kimi sakit tərzdə dedi:

— Narahat olma.

— Necə narahat olmayım? İşləri korladın, gərək belə etməyəydin. Ağrıların başlayan kimi onun əlinə düşəcəksən. O da...

— Qələt eləyir. O, kimdi ki, məni doğdura. Bir azdan baş həkimlə özüm danışacam.

— Elə olar?

— Niyə olmur ki? Keçəl halva yeyər, puluna minnət. Pulumu versəm, baş həkim özü gəlib tutacaq uşağımı.

— Axı baş həkim kişidi.

— Olsun da. Kişidi, uşaq tutmayacaqsa, burda nə iti ölüb?

— Aaa...

Şəfəqi təəccüb bürüdü. Daha nə deyəcəyini bilmədi. Pəri gülümsündü və dedi:

— Dediklərimin hamısına inandın?

Şəfəq çiyinlərini çəkdi. Pəri əlavə elədi:

— Qorxma, kişi həkimə uşaq tutdurmaram. Bunlar hamısı bir zarafatdı. Deyib-gülməsəm, belə yolunu azanları, insanlığını itirənləri sancmasam, ürəyim çatlar. Bunlar əzazilləşiblər, əldəgöz olublar. Özləri də qadındılar. Şərəfi, ləyaqəti olan qadın da pula bu qədər həris olarmı? Diqqətlə fikir versən, bunlar qadından, həkimdən çox qəssablara oxşayırlar. Belə olmasaydılar, saatda biri tullana-tullana gəlib səndən soruşmazdı ki, ərin hardadı, nə vaxt gələcək? Belələrinə qarşı hamı mübarizə aparmalıdı. Təəssüf ki, belələrini özümüz pozuruq...

Pəri ayağa qalxaraq keçib çarpayısında uzandı. Şəfəq körpəsinin örpəyini qaldıraraq üz-gözünə baxdı. Pəri dilləndi:





— Ay qız, qorxma, heç bir şey olan deyil. İlk uşağım olanda mən də səndən betər idim. Sonralar alışdım. Hər şey tezliklə adiləşdi. Üç aylığında anam uşağı əlimdən alıb apardı.

— Niyə?

— Dedi özüm saxlayacam. Sən uşaq saxlamağı bacarmırsan. Mən də naəlac qalıb verdim. İndi də uşaq nənəsi ilə birlikdə yaşayır. Heç yadına da düşmürəm. Elə bil onu mən doğmamışam... Əti ətimdən, qanı qanımdan deyil. Qorxma... Səninki də belə olacaq.

Elə bu vaxt qapı yenidən taybatay açıldı. Pəri də, Şəfəq də eyni vaxtda dönüb qapıya baxdılar. İçəri qırx yaşı olar-olmaz bir tibb bacısı daxil oldu. Pəri əsəbi halda soruşdu:

— Eşidirik, nə olub yenə? Sənə də Şəfəqin əri gərəkdi?

Tibb bacısı tutuldu. Əvvəl nə deyəcəyini bilmədi. Sonra çaşqın halda bildirdi:

— Mənə yox!

— Kimə?

— Həkimə!

— Həkimə çatdır, Hümmət gələn kimi yanına göndərərik.

Otağa gəldiyinə peşman olan tibb bacısı qapıdan dalın-dalın çıxdı. Pəri üzünü Şəfəqə tutaraq:

— Həyasızları vecinə də alma.

Sonra da Pəri çarpayısında çevrildi, çox çəkmədən xorultusu eşidildi.

Pərinin "Sən uşaq saxlaya bilmirsən" sözləri Şəfəqin qulaqlarında guyuldadı. O, öz-özünə dedi:

— Eh... Pəri, sən hardan biləsən ki, heç mən özüm lazımınca ana nəvazişi, ana, nənə qayğısı görməmişəm. İnanmıram mənim balam o hissləri duyacaq. Mənə elə gəlir ki, sən anadan da, atadan da yarımısan... İndi də heç pis deyilsən. İstəyirəm, məni necə var, elə də başa düşəsən. Sənə həsəd aparmıram, paxıllıq da eləmirəm. Sən ürəyi təmiz, sözü düz qadına oxşayırsan. Sözü

adamın gözlərinin içinə deməyi bacarırsan. İnanmıram səndə ikiüzlülük, riyakarlıq ola. Başqalarının pisliyini istəyəsən. Sən xoşbəxt ol, bacım. Xoşbəxtlik, səadət insanlar üçündü! Biz başqa-başqa adamlarıq. Mən öz haqqımı tələb etməyi bacarmıram. Utandığımdanmı, bacarıqsızlığımdanmı, çox zaman əzab-əziyyətlərə düçar oluram. Sənsə heç bir şeydən çəkinmirsən, qorxmursan... Deyəsən, təkcə doğuş anları yaxınlaşdıqca həyəcanlanırsan... Qorxma hər şey yaxşı olacaq.

Şəfəq bu fikirlər içərisində vurnuxurdu ki, həkim Rumiyyə xanım içəri girdi. Otağa göz gəzdirdi. Pərini yatmış görüb himcimlə soruşdu:

— Bu xanım kimlərdəndi, bilmirsən?

— Yox...

— Dik-dik danışır, hə?

— Niyə?

— Dur gəl mənim otağıma.

Rumiyyə xanım Şəfəqi gözləmədən otaqdan çıxdı. Şəfəq də qalxıb könülsüz halda onun ardınca getdi. Otağa girəndə Rumiyyə mehribanlıq göstərirmiş kimi Şəfəqin üzünə gülümsündü. Sonra da başı ilə "əyləş" işarəsini verdi. Şəfəq həkimin bu səmimiyyətində açıq-aşkar bir sünilik duydu. O da öz növbəsində Rumiyyəyə eyni "mehribanlıqla" münasibət bildirdi. Adamların qəlbini ustalıqla almaqda və ciblərini soymaqda böyük təcrübəsi olan bu həkim əvvəl Şəfəqin öz vəziyyətini, ağrılarının olub-olmamasını soruşdu. Sonra da uşağının sağlamlığı və gələcəkdə də uşağa necə qulluq olunması barədə məsləhətlərini verdi. Şəfəq sakit-sakit, hiyləgərcəsinə danışan bu qadına elədiyi yaxşılıqlara görə təşəkkürünü bildirdi. Rumiyyə xanımın əməyini unutmayacağını söylədi. Şəfəqin sadəlövhlüyündən, sözə tez inanmasından istifadə eləyən Rumiyyə xanım dedi:

— Görürəm, sən abırlı, həyalı, ismətli qadınsan, hörməti, qayğını başa düşənsən, dəyərləndirənsən. Yanında yatan ifritəyə baxma. Xarabdı deyəsən onun başı. Bizim işçilərə də hədə-qorxu gəlir. Unudur ki, onun doğuşu hələ qabaqdadır. Tək bu günlə iş bitmir. Atalar deyib: "Dağ dağa rast gəlməsə də, adam adama rast gələr".





— Pəri xanımı deyirsizsə, o, çox gözəl insandı, deyib-güləndi, zarafatı xoşlayandı. Sizin işçilər yəqin onu başa düşməyiblər.

— Yaxşı. Qayıdaq sənin məsələnə. Mənə heç bir şey lazım deyil. Heç olmasa, iki yüz dollar təşkil elə, baş həkimin ağzını yumum. Tibb bacılarına, xidmətçiyə azdan çoxdan özün bir şey eləyərsən.

— Həkim, Hümmət...

— Hümmət-zad bilmirəm, məni baş həkimin əlində qoyma, sən gəldi-gedərsən, mən burda qalanam. Elə güman eləyəcək ki, alıb cibimi doldurmuşam, qalıb o. Atalar necə deyib: "Şərti şumda kəs, xırmanda yabalaşma". Vaxtında gərək çarəmi qılaydım. İyirmi yeddi ildi bu xarabada işləyirəm. Başıma belə iş gəlməyib. Sənin kimisini görməmişəm.

— Həkim, vallah Hümmət dərzidi. O, nə qazanır ki?

— Hə... Bu da mənim insanlığımdı, ürəyi yumşaqlığımdı. Özünü aferistliyə qoyma. Mənə də Rumiyyə xanım deyərlər. Pulun yox idi, uşaq saxlamayaydın. İndi də doğub əllərdə qalmayaydın. Bildin?!. Sənin əvəzində mən xərc qoyan deyiləm. Baş həkim elə biləcək mən ona atıram.

— Nə?

— Canına qara dərd. Guya başa düşmür. Daş, dəmmə, bomba... Yenə deyim? Həyasız!

Şəfəqi ağlamaq tutdu. Əhvalatı ərinə danışa biləcəyini güman edən Rumiyyə səsinə bir qədər ara verdi, sonra da heç bir şey olmamış kimi sakit tərzdə dilləndi:

— Uşağın burda doğulmasını təsdiq eləyən arayış almalısan baş həkimdən. Mən onun üçün deyirəm. Mənə qalsa, nə var ki. Yoxdu, vermə. Uşağa hansı adı qoymaq istəyirsən?

Şəfəq haçandan-haçana əllərinin içi ilə üz-gözünün yaşını sildi. Xeyli dayandı. Hıçqıra-hıçqıra dedi:

— Mən xəstələnməzdən bir neçə gün əvvəl atası deyirdi ki, oğlum olsa, adını Hikmət qoyacam. Öz adına uyğun: Hümmət, Hikmət.

— Bəs soyadı?

— Seyidzadə.

— Deməli belə, Seyidzadə Hikmət Hümmət oğlu.

Şəfəqin özünə gəldiyini görən Rumiyyə uşağın adını, soyadını, atasının adını qarşısındakı kağıza yazdı, sonra da yüksəkdən qəhqəhə çəkərək əli ilə onun çiyninə vurdu:

— Ay canı yanmış, iki yüz dollar nədi ki, ondan ötrü özünü cırırsan. Dur get, məsələni çürüt. Ona kimi mən də arayışı hazırlaram, baş həkimə möhür vurduraram, gəlib apararsan.

Şəfəq daha Rumiyyəyə heç bir söz deməyib kor-peşman otaqdan çıxdı. Əsəbdən səndələyə-səndələyə dəhliz boyu gedib öz otağına girdi. Öz-özünə dedi: — “Allah imkansızlığın üzünü qara eləsin. Mənim də azdan-çoxdan pulum olsaydı, çırpardım bu alçaqların sifətinə. Yumardım ağızlarını. Yazıq Hümmət, axı neyləsin?! Belə bilsəydim, ölsəydim də bu xarabaya gəlməzdim. Evdə nə çox uşaq tutan həvəçilər. Nə versən, “Allah bərəkət versin“ deyirlər. Mənə elə gəlir ki, Hümmət də axşamı gözləyir. Həkim, tibb bacıları işdən gedəndən sonra gələcək?.. Özgə çarəsi yoxdu, yazıq binəvanın... İki yüz-üç yüz dollar üçün yarım il işləyir. İnsafdırmı ki, neçə ay işləyib qazandığını gətirib versin bu adam soyanlara. Eh, cəhənnəm mənim dərdim. Dözüləsidi. Əl-ayağım qurtarıb. Şükür Allaha, körpəm də beşikdə mışıl-mışıl yatıb. İndi məni qorxudan Pərinin vəziyyətidi. Yazıq mənim alçalmalarıma, göstərilən təzyiqlərə, həqarətli baxışlara dözə bilməyib həkim Rumiyyə xanımla, tibb bacıları ilə, xidmətçilərlə də üz-göz oldu. Ağzıma daşlar, doğuş zamanı birdən Pəriyə, onun gələcək körpəsinə xətər yetirərlər eee. Rumiyyə





bayaq Pəri barədə necə dedi? “İfritə”, “başı xarab”, “Unudur ki, hələ onunku...”

Aman Allah, həkim nə danışır! Bunlar həkimə yaraşan sözlərdimi? Rumiyyə danışdıqlarının məsuliyyətini anlayırmı? Belələrinin vicdanı varmı? Onlar həkim yox, qəssabdılar. İnanıram ki, Rumiyyə kimilərinin fikri, düşüncəsi başqalarının hesabına ciblərini doldurmaqdı. Zülmlə, zorla başqalarından toplananı, halal-xoşluqla qazanılmayanları həzm eləmək olmaz. Bura gələnlərin çoxunun imkansız olduğunu bu zalımlar, mənəviyyat düşkünləri, oğrular, quldurlar, dələduzlar niyə anlamırlar, başa düşmək istəmirlər?! Axı biz də onlar kimi qadınıq. Qadın qadını puldan ötəri əzirsə, bunu nə adlandırmaq olar?! Xalqın kasadlığa düşdüyü, bir loxma çörək pulunu güc-bəla ilə tapıb özünü, uşaqlarını dolandırdığı bu böhranlı məqamda xəstələrə “gözünü çıxar pul ver” deyənlərə nə ad verəsən?! Görünür, sizin kimilərə oxuduğunuz müəssisələrdə yalnız elm öyrədiblər. Əgər onu da lazımınca öyrədə biliblərsə... Sizdə insanlıqdan, tərbiyədən əsər-əlamət görmədim. Mən ali məktəb oxumamışam. Tikiş tikməkdən savayı heç bir peşə sahibi deyiləm. Adi insanam. Ləyaqətlə, şərəflə, namusla yaşamayana nifrət eləyirəm. Axı mənim günahım nədi ki, bu neçə gündə bu qədər təhqir olunum?! Kasıblar, əlsiz-ayaqsızlar bəyəm insan deyillər?! Pulum yoxdu deyə, yaşamağa haqqım yoxdu?! İndi mən ölməliyəm?! Axı nədi Pərinin günahı, onu ifritə adlandırasan?! Ona görə ki, o, ədalət naminə danışıb?! Onu təhqir eləməklə, hədələməklə nə demək istəyirsən?! Sənin qızın, ya gəlinin bizim vəziyyətimizdə olsaydı, dözərdinmi? Bağışla məni... Sənə və sənin kimilərə qadın deməyə dilim gəlmir. Qadınlıq heysiyyətini itirənlərdən nə ana, nə də insan ola bilər...”

Şəfəq bu fikirlər içərisində çabalayırdı ki, Pəri çarpayısında çevrildi. Rumiyyənin bayaq dediyi sözlər, tutduğu iradlar sapa düzülmüş muncuq kimi gəlib keçdi Şəfəqin gözləri önündən.

Ona elə gəldi ki, Rumiyyənin kabinetinə çağırılmasını, onun dediklərini Pəriyə çatdırmasa, doğuş zamanı Pəri üçün böyük fəlakətlər baş verə bilər. Şəfəq özü də həm insanlığa, həm də Allaha xəyanət etmiş olar. Nə qədər gec deyil Pəriyə vəziyyəti açıqlamalıdı. Odur ki:

— Bacı, mən səndən qorxuram, — dedi.

— Niyə?

— Mənə deyilənlərə dözmədin. Bu həyasızlarla üz-göz oldun. Məndən incimə, öz təəssüratlarımı deyirəm. Xəstəxanada səndən çoxlarının zəhləsi gedir. Elə düşünürlər ki, mənim kimi sənin də onlara verməyə pulun olmayacaq. Qorxuram, onlar sənə də, körpənə də könülsüz yanaşalar... Ya xətər yetirələr. Bunlara etibar eləmək çətindi.

— Narahat olma, Şəfəq. Dünən axşam tərəfi evdə sancılandım. Üstümə həkim çağırdılar. Həkimləri də bilirsən də? Onlara pul lazımdı. Ağına-bozuna baxmadan, başları çıxmadan məni basdılar tibbi yardım maşınına. Gətirib çıxardılar bura. İndi də deyirlər, hələ vaxtına var. Onları qınamıram. Pulla diplom alıblar. "Ara həkimləri"" onlardan çox bilirlər. Mənim də hesablamama görə vaxtıma hələ bir neçə gün var. Allah Kərimdi. Qəm çəkmə, barışarıq. Bir də ki bu dava-dalaş pul üstədi. Ciblərini doldursam, Rumiyyənin özü mənim əvəzimdə doğmağa hazır olacaq...

Şəfəq əlini sobaya vurdu. Peç səhərdən söndüyündən bumbuz idi. O, öz-özünə dedi: — "Əri döymüş arvadı it də bir tərəfdən tutdu. İstilik çox güman ki olmayacaq. Deməli, burda qala bilməyəcəyik. Körpə soyuqlaya bilər. Biz getsək, Pəri üçün burda tək qalmaqlar çətin olacaq..." Pəri soruşdu:

— Uşağın doğuşuna aid həkimdən arayış almısan?

— Deyir pul ver, arayışı al.

Pəri çarpayıdan qalxdı. Yun jaketini götürüb, o tərəf-bu tərəfinə baxdı, sonra çiyninə atdı.





— Getdik.

— Utanıram.

— Kəs. Utanan ərə getməz.

Özünü saxlaya bilməyən Şəfəq ucadan güldü. Pəri dərhal:

— Yavaş gül. Elə biləcəklər ki, Hümmət gəlib, onların da ciblərini dolduracaqsan.

Elə bu vaxt qapı aralandı. Sarı, girdə bir baş qapıda göründü. Pəri də, Şəfəq də gülməkdən özlərini çətinliklə saxladılar. Şəfəq: — Kim lazımdı? — deyə xəbər aldı. Başdan səs gəldi: "Həkim burda yoxdu ki?" Şəfəq başı ilə "yox" işarəsini verdi. Qapı örtüldü. Pəri dərhal:

— Kəşfiyyat!

— Nə?

— Sonra başa salaram. Getdik.

Pəri ilə Şəfəq birbaşa Rumiyyənin otağına gəldilər. Həkim onları görcək elə düşündü ki, Hümmət gəlib, bu qadınlar da haqq-hesabı gətiriblər. Həkimin üz-gözündə məcburiyyətdən doğan gülüş yarandı. Bu, gülüşdən çox, saxta təbəssüm təsiri bağışladı. Pərinin sifəti sərt, ciddi görkəm aldı və dilləndi:

— Xəstəxanada işıq yox! Təmizlik yox! Qayğı yox! Nə fikirləşirsiz xəstələrdən pul yığmaqdan savayı? Başqa şey barədə, deyəsən, düşünə bilmirsiz!

Həkim:

— Bu nə dildi? Nə danışıqdı? Yerinizi göstərmədikcə, azğınlaşıb başqalarının işinə qarışırsız. Bu ki lap əxlaqsızlıqdı!

— Mənə xox eləmə! Əxlaqsız sizsiz. Xəstələri qorxudub, utandırıb ciblərinə girirsiz. Siz dilənirsiz.

— Kimdən istəmişik?

— Hamıdan! Elə bu xanımdan da.

— Xanımın dili-ağzı yoxdu? Bəlkə səni özünə vəkil tutub? Bizim ondan xəbərimiz yoxdu.

— Artıq-əskik danışma. Arayışı ver, mən də rədd olub gedi-

rəm.

— Arayışa möhür vurulmayıb.

— Otaqda gözləyirik. Möhür vurdur, göndər palataya.

Pəri həkimin cavabını gözləmədən üzünü Şəfəqə tərəf çevirərək: — Gedək otağa, özü arayışı zəhmət çəkib gətirər, — dedi. Onlar kabinetdən çıxdılar. Dəhlizdə gedə-gedə Pəri astadan mızıldandı: "Sənin Hümmətin də şah gəldiyə döndü". Şəfəq gülümsündü. Pəri əlavə elədi: "Qonşumuz Qızyetərin Allah canını sağ eləsin. Onun köməyi ilə baldızım Solmaz doğmaca bibim qızı Nəzakəti ikicanlılıqdan evdə qurtardılar. Maşallah, özləri də iki gündən sonra qalxıb durdular ayağa. Uşaqları da sappasağ. Yerə vursan, yer yarılar..."

Şəfəqlə Pəri çarpayılarında uzanmışdılar ki, qapı açıldı, Rumiyyə içəri keçib əlindəki arayışı Şəfəqin çarpayısının üstünə atdı. Heç bir söz demədən necə gəlmişdisə, eləcə də geri qayıtdı. Pəri Şəfəqə göz vurdu. Gülüş səsləri otağı bürüdü. Şəfəq ayağa qalxıb arayışı götürərək oxudu. Pəri beşiyə yaxınlaşıb dedi: — Deməli, bu çarpayıda yatan kişi Seyidzadə Hikmət Hümmət oğludur". Bu söz Şəfəqin çox xoşuna gəldi. Bir anlığa düşündü ki, o, ana olmaq səadətinə indicə qovuşdu. Özü də Hikmət uşaq deyil, boylu-buxunlu, qəddi-qamətli, sözü bütöv bir kişidi. İnsafən, Şəfəqin bu hədsiz sevinci Pəriyə də sirayət elədi. O, Şəfəqi qucaqlayıb öpdü və gözlənilməz bir sual verdi: — Hikməti gələcəkdə necə görmək istəyirsən?" Əvvəl Şəfəq tutuldu, sonra: — Sağlam, vicdanlı vətəndaş, ləyaqət və şərəfi özündə olan insan", — deyə bildirdi. Bu cavab Pəri üçün anlaşılmaz, mücərrəd olsa da, fərqinə varmadı. Sadəcə olaraq: — Amin! Amin! — dedi. Şəfəq arayışı iki yerə qatlayıb cibinə qoydu və gedib körpəni qucağına aldı. Hikmətə üzünü tutaraq bildirdi:

— Hə, nədi? Acmısan? Sən də qarın hayındasan?

Pəri dərhal:





— Qarın hayında olar da. Sənə Allah insaf versin. Səhər açılandan körpə beşikdədi. Vaxtında onu yedirib içirmirsən. Darıxma, qoy böyüsün, onda üzünü cıracaq. Baxarsan işinə.

Şəfəq süd yığılmış dolğun döşünü körpənin dodaqlarına sürtdü. Körpə anasını əmməyə başladı. Pəri həvəslə uşağa baxaraq oxşadı: "Ay Allah, buna qurban olum. Necə də marça-març əmir. Böyük oğlan olasan. O gün olsun Pəri xalan toyuna gəlsin. Sındıra-sındıra süzsün..." O, sonra səsinə ara verdi: — Şəfəq, — deyə soruşdu:

— Ərinlə aranızdakı yaş fərqi çoxdu?

— O qədər də yox. Kişi qadından bir az yaşlı olsa yaxşıdı.

— Deyirsən, kişi yaşlı olsa, arvad yumruq yeməz də.

— Yox. Mən elə düşünmürəm. Fikirləşirəm ki, arvadın, uşağın qədrini bilər. Qazandığını dağıtmaz. Tapdığını evə gətirər.

* * *

Qaş qaralmaqdaydı. Güclü küləyin gətirdiyi şiddətli, iri damcılı ağ yağış adamın sir-sifətinə sillə kimi çırpılırdı. Həyət-baca yağış suyu ilə dolmuşdu. Binaların tinindən üzü aşağı sallanan novlardan şırhaşırla axan sular küçə boyu çay kimi axırdı. Yağış damcıları su üzündə qəribə qabarcıqlar yaradırdı. Xəstəxana işçiləri palto, papaqlarını geyinib əsən küləkdən, gur yağışdan boyun-boğazlarını büküb ətrafdakılara baxmadan, kimsəyə fikir vermədən həyət darvazasından tələm-tələsik çıxırdılar. Elə bu vaxt Hümmət əlində bir dəstə gül həyət qapısından girdi. Onu içəridəki xidmətçi qadın gördü və qapını açıb gülümsündü: — Kimin yanına gəlmisən? — deyə Hümmətdən soruşdu. — Şəfəqin! — deyə Hümmət cavab verdi və qapıçının xalatının cibinə bir dollar basdı. Arvadını çağırmasını xahiş elədi. Dolları alan qapıçının gözləri parıldadı. Dərhal: — Gözləyin, gəlir, — deyib getdi. Az sonra Şəfəqlə birlikdə qayıtdı. Hümmət arvadını gör-

cək irəli yeriyib dedi:

— Gecikdiyim üçün məni bağışla. Körpə necədi?

— Yaxşıdı.

— İnanırsanmı ki əzizim, iki gündü ağız açmadığım tanış-bilişim qalmayıb. Axır ki üç adamdan həkim istəyən məbləği borc aldım. Al pulları həkimə ver. Özün də yığış gəl.

— Tələsmə. Pulları özündə saxla. Qaç taksi gətir. Küləkli, yağışlı küçədə uşağı çox saxlaya bilmərik.

— Onda bu gülü al.

— Onu da özündə saxla. Ancaq tez elə.

Hümmət: — Yaxşı, — deyib həyət darvazasına tərəf qaçdı.

* * *

Ərinin gül dəstəsiylə, pulla gəlişinə Şəfəq çox sevindi. Bu, bir tərəfdən ərinin ona olan hörmət və ehtiramı idisə, o biri tərəfdən Pərinin yanında ərinin ona olan münasibətini açıq-aydın ifadə edirdi. Əslində bütün qadınlar belədi. Əri ilə daldada, ikilikdə nə qədər dava-dalaş eləsələr də, başqalarının yanında ərlərinin mədəni rəftarını, özünə qarşı diqqətli olmasını istəyirlər. Belə hallarda onlar kişilərin qəbahətlərini ya bütünlüklə bağışlayır, ya da arxa plana keçirirlər. Bəzən də özləri ərləri barədə yüksək əxlaqi keyfiyyətlər uydururlar. Onları ən nəcib ər kimi qələmə verirlər. İndi Şəfəq də belə bir vəziyyətə düşmüşdü. O, Hümmətdən son dərəcə razılığını nümayiş etdirməli idi. Şəfəqin əqidəsincə Hümmət tərifə layiq idi. İnsafən, kiçik, ötərgi qəbahətlər nəzərə alınmazsa, Hümmətdən elə bir ciddi söz-söhbətə səbəb olacaq narazılığı olmamışdı...

Şəfəq tələm-tələsik otağa qayıtdı: — Gələn Hümmətdi, yır-yığış elə, gedək, — dedi. Pəri dərhal qapını açıb dəhlizə çıxdı. Növbətçini səslədi.

— Xanım, biz gedirik, gəlin otaqlardakı şeyləri təhvil alın.





— Başa düşmürəm. Biz deyəndə özünü də nəzərdə tutursan?

— Bəli!

— Axı həkim səni...

— Mən öz istəyimlə gedirəm.

— Yaxşı fikirləş.

— Çox fikirləşmişəm.

— Baş həkim bilsə, məni cəzalandıracaq.

— Qorxma, pulumun olmadığını ona bildirsən, sənə təşəkkür edəcək.

Tibb bacısı daha başqa bir söz demədi. Palataya gəlib o tərəf-bu tərəfə baxdı, sonra dedi:

— Sizə yaxşı yol.

Pəri də, Şəfəq də tibb bacısına təşəkkürünü bildirərək hər ikisi evdən gətirdiklərini zənbilə yığdı. Paltarlarını geyindilər. Şəfəq körpəni evdən qayınanasının göndərdiyi isti yorğançaya büküb qucağına aldı. Xanımların hər biri öz zənbilini götürdü. Pəri qabaqda, Şəfəq də onun ardınca palatanı tərk elədilər. Pəri pıçıltılı bir səslə: — Bizi həvəslə bura gətirənlər, "qucağımızdan düşmə, yerə düşüb sınarsan" deyənlər, indi görünmürlər", — dedi. Şəfəq gülərək: — Onlara pul lazım idi, biz yox, — deyə cavab verdi. Söhbətin nədən getdiyini bilməyən, öz düşərini bayaq Hümmətdən qoparan qapıçı qadın: — Burda stul var, gəlin əyləşin, — deyə canıyananlıq eləmişdi ki, sarı rəngli taksi darvazadan həyətə girdi. Bunu görən Şəfəqlə Pəri dərhal qapıdan çıxdılar. Güclü külək, şiddətlə yağan yağış onları yaxaladı. Hümmət irəli atılıb körpəni Şəfəqin qucağından aldı və gül dəstəsini ona verdi. Sonra da maşına əyləşdilər.

Şəfəq:

— Hümmət, əvvəlcə Pərini evlərinə aparaq. Sonra biz gedərik, — dedi.

— Bəlkə Pəri xanımı da evimizə qonaq aparaq? Axı bu gün bizim ən xoşbəxt, ən fərəhli günümüzdü.

Pəri:

— Həmişə xoşbəxt olasız. Beləcə sevinəsiz. Başqa vaxtı yoldaşımla gələrik. Evdəkilər elə bilirlər ki, xəstəxanadayam.

Hümmət:

— Onda ünvanınızı deyin. Sürücü bilsin.

— Gülüstan küçəsi, ikinci döngə, Məşədi Kazımlılar məhəlləsi.

Maşın bir qədər də irəliləyib istiqamətini dəyişdi. Dar yola düşdü. Yolun kənarındakı nəhəng şah budaqlı çinarlar bir-birinə qovuşaraq yolun üstünə çətir salmışdı. Güclü külək ağacların budaqlarını bir-birinə çırpır, qırır, yola tökürdü. Yaşayış evlərinin tinlərində, darvaza və qapıların üstündə tək-tək elektrik lampaları yanırdı. Onların da zəif işıqlarını yolun şabalıdı rəngli asfaltı, ağacların qara divi xatırladan vahiməli kölgələri, bir də əl-ayaq yığışan kimsəsiz küçələrə çökən axşam qaranlığı udurdu. Udduqca da insanda qorxu, təlaş hissi doğururdu. Hümmətin qəlbində doğan günəşin işığı sanki küçənin qaranlığını yarıb keçir, ətrafa ilıq bir nəfəs gətirirdi. Daxilən gülən, heç vaxt bu qədər sevinməyən Hümmət arvadından soruşdu:

— Uşağın adı barədə fikirləşmisənmi?

Hamı gülüşdü. Hümmət əlavə elədi:

— Deyəsən, yamanca kəmhövsələyəm?

Pəri:

— Kəmhövsələ niyə olursan ki, Hümmət qardaş? Kişilər hamısı sənin kimidi. Qız olsaydı, ad qoymaq yadına düşməzdi.

— Yox, Pəri bacı! Allah verən paya qurban olum. Qız nədi, oğlan nədi?! Hər ikisi övladdı. Şəfəq sağ-salamatdı, elə bilirəm dünya mənimdi.

Şəfəq heç bir söz demədi. Ancaq ürəyində sevindi. İçində dönə-dönə ərinə təşəkkürünü bildirdi.

Sürücü:

— Mehribanlıq, səmimiyyət ailənin birinci şərtidi. Onlar olan





yerdə çörək də olur, xoşbəxtlik də. Qarşılıqlı hörmət-izzət olmayan yerdə ailə mehribanlığından söhbət gedə bilməz. Zövqlə, yüksək təmtəraqla bəzədilmiş yataqlar, əlvan naxışlı xalçalar, təmtəraqlı kürsülər, yumşaq divan heç kəsə xoşbəxtlik gətirməyib. Xoşbəxtliyi səmimiyyət, mehribanlıq, qarşılıqlı güzəşt və hörmət yarada bilər ki, bu da ailənin özəyini təşkil eləyir...

Bir neçə küçəni kəsib köhnə, qədimi, qırmızı kərpicdən tikilmiş ikimərtəbəli binanın qarşısına çatanda Pəri Şəfəqgillə xudahafizləşib maşından düşdü. Hümmət sürücüyə: — Mikrorayona, Tarana küçəsi, 86-ya, — dedi. Çox çəkmədi ki, maşın hündür, göydələn binaların arasından keçib doqquzmərtəbəli binanın qarşısında dayandı. Hümmətgil sürücünün pulunu verib maşından düşdülər. Onları evdə Şəfəqin qayınanası Qəhmər qarşıladı. Qadının üz-gözündə hədsiz sevinc, təbəssüm vardı. Hümmət: — Ana, — dedi. — Gör sənin görüşünə kim gəlib?

Qəhmər də eyni tərzdə bildirdi:

— Kim gələcək?! Gözümün işığı!! Canım! Ciyərim! Onun ayağının altında nənəsi ölər. Keçin içəri, uşağı qapı ağzında saxlamayın.

Hümmət qabaqda, Şəfəq də onun ardınca utana-utana, çəkinə-çəkinə içəri keçdi. Qəhmər uşağı Hümmətin qucağından aldı. Üzündəki örpəyi qaldırıb diqqətlə nəvəsinin üzünə baxdı.

— Oy... Ay Allah, şükür sənin səxavətinə! Mən də nənə ola bilərəmmiş?! Nəvəm olarmış!.. Qurban deyirəm balama, sağlam böyüsün. Bir qara qoç alıb apararıq İmamzadənin qəbri üstünə. Qurban kəsərik orda.

Qəhmər danışa-danışa otağa keçdi. İki otaqlı bu evi hələ vaxtı ilə zavoddan Qəhmərin əri Hikmətə vermişdilər. Kişi otaqda ilk vaxtlar bir balaca təmir işləri aparmışdı. Allah kasıblığın üzünü qara eləsin. Kişi dünyasını dəyişəndən evə əlavə bir mıx da çalınmamışdı. Döşəməyə döşənmiş parketlərdən bəziləri qopub tökülmüşdü. Bəziləri də boşaldığından ayaqlar altında cır-cır

cırıldayırdı. Divara çəkilmiş kağız saralmışdı. Sağ divara böyük termo söykənmişdi. Onun da aşağısında iki ətir şüşəsi, krem, pudra qabları vardı. Tavanın düz ortasından lampa asılmışdı. Girəcək qapısından solda yataq otağı yerləşirdi. Bu otağın divarlarına çəkilən ağ kağızlar da saralmış, yuxarı hissələri qopub aralanmışdı. Otağın kəllə tərəfində bir pəncərə vardı. Ordan tutqun pərdə asılmışdı. O da bir neçə yerdən deşilmişdi. Otağın tavanından çilçıraq asılmışdı. Otaqda iki nəfərlik çarpayı vardı. Onun da üstünə yeri mavi rəngli pərdə çəkilmişdi. Sağ divara şkaf söykənmişdi. Yataq otağına bitişik otaq yemək və istirahət üçün ayrılmışdı. Döşəməyə qıraqları süzülmüş, nimdaş, ancaq hələ də rəngi solmayan kilim sərilmişdi. Onun da ortasına stol qoyulmuşdu. Stolun ətrafına isə stullar düzülmüşdü. Tavandan asılan çilçıraq elektrik lampalarının işıqlarını otağın hər tərəfinə eyni dərəcədə yayırdı. Otağın tək pəncərəsindən ağ tül, onun da üstündən seyrək gülləri olan ipək pərdə asılmışdı. Pəncərədən solda, küncdə geniş ekranlı televizor qoyulmuşdu. Onun da yanında divar boyu mebel düzülmüşdü. Gözlüklərdə bir-birinin yanında zərif və parıltılı qablar vardı. Mebellərə əks divarın yanında divan qoyulmuşdu. Pəncərəyə əks olan kəllə divara söykənikli iki yumşaq oturacaq vardı. Vanna otağı ilə ayaqyolu evin girəcək qapısı ilə üz-üzə idi. Bunlardan da solda mətbəx yerləşirdi. Mətbəxin sağ küncündə soyuducu qoyulmuşdu. Sol tərəfdə ağ rəngli mətbəx dəsti, döşəmənin ortasında isə stol vardı. Stolun da ətrafında stullar düzülmüşdü.

Qəhmər qucağında körpə divanda oturdu. Hümmətlə arvadı ayaq üstəcə dayanıb nənə ilə nəvəyə tamaşa eləyirdilər. Qəhmər körpənin üzündəki örpəyi bir də qaldırdı. Xeyli baxdı, sonra dedi:

— Lap atasına oxşayır mənim balam. Ağzı, burnu, çənəsi eynilə atasınınkıdı.

Hümmət:





— Bə necə? Oğul atasına oxşar da...

— Yaxşı, sən də ağ eləmə, abrın, həyan olsun.

Nənə nəvəsini əllərində o tərəf-bu tərəfə çevirdi və onunla söhbətini davam etdirməli oldu:

— Boy... Ədə, dodaqlarına bax ey balamın. Bunu daha sizə vermərəm. Nənəsi ilə qalacaq. Balam bala deyil ey, baldı, şəkərdi. Nənəsi boyuna qurban. Bizim evdən də uşaq səsi, uşaq hənirtisi gələrmiş, Allah!

Nənə nəvəsindən ayrılmaq istəmirdi. Bunu görən Şəfəq də sevinir, hərdənbir də gülümsünürdü. Hümmət anasının yanında əyləşdi. Sonra astadan dedi:

— Ana, belə getsə, deyəsən, nəvəndən ayrılmayacaqsan. Biz də acından, susuzluqdan elə ayaq üstəcə...

— Gedin, yeyin, için. Hələ mən balamdan doymamışam, doymayacağam da.

— Onda biz öldük ki?

— Daha mənim balam siz yox, bu quqquludu.

Şəfəq dəhlizə çıxdı. Qəhmər Şəfəqin soyuq su ilə işləyəcəyini düşünüb uşağı Hümmətə verdi. Özü ayağa qalxıb tələm-tələsik mətbəxə keçdi. Gəlinin qab-qaşıq yumağa hazırlaşdığını görcək dedi: “Qızım, xörək, çay hazırdı. Körpəni ac qoyma. Get, sən uşağı əmizdir, rahatla. Mən də ona kimi süfrə açım...” Gəlin qayınanası ilə razılaşmaq məcburiyyətində qaldı. Şəfəq geri qayıdıb körpəsini əmizdirməyə başladı. Hümmət arvadının yanındaca oturub böyük maraq və heyranlıqla oğlunun əmməsinə baxırdı. Şəfəq ərinin maraq və heyrətini görcək pıçıltı ilə dedi:

— Hümmət, anan gələ bilər, ayıbdı, sən keç mətbəxə, mən də körpəni əmizdirib rahatlayım, gəlirəm.

— Oğluma tamaşa eləyirəm, mane olma.

— Yox, anamın bizi belə görməsi ayıbdı. Düşünər ki, biz lap...

— Atanın oğluna tamaşa eləməsi, sevinməsi, fərəhlənməsi

nə vaxtdan ayıb olub ki.

Şəfəq gülümsündü.

— Utanıram, keç o birisi otağa, oğlunu oynatmağa çox vaxtın olacaq. Ananın yaşına da, özünə də gərək biz hörmət eləyək, qayğı göstərək. Böyüksüz evdən nə çıxar ki? Bin-bərəkət də böyük, ağsaqqal, ağbirçək olan yerdədi. Atalar deyib: "Allahsız yerdə otur, böyüksüz yerdə oturma".

Arvadının sözünü yerə salmaq istəməyən Hümmət ayağa qalxıb mətbəxə getdi... Şam naharından sonra qayınana böyük qayğıkeşliklə dedi:

— Qızım, sən zahısan. Sənə soyuq suya əl vurmaq, əski-üskü yumaq olmaz. Allah uzaq eləsin, xəstələnərsən. Qırxın çıxanacan hər işi özüm görəcəm. Utanma, anan da mənəm, qayınanan da.

Anasının qayğıkeşliyindən, səmimiyyətindən məmnun olan Hümmət mehribanlıqla arvadının üzünə baxdı. Şəfəqin gözləri sevincdən sanki alışıb-yanırdı. Hümmət nəsə demək istəyirdi ki, anası: — Bağışla məni, qızım. Bilirsən ki, xəstəyəm, neçə gündü ayaqlarım şişib, evdən bayıra çıxa bilmirəm. Xəstəxanaya — yanına da gələ bilmədim.

Qayınana kövrəldi, səsi boğuldu, titrədi. Özü də hiss eləmədən yanaqlarına bir damcı yaş süzüldü. Bunu Hümmət də duydu. O, anasına təəccüblə baxdı. Gəlininə olan istəyi, sevgisi onu da qəhərləndirdi. Gəlin dərhal ayağa qalxıb qayınanasını qucaqladı, üz-gözündən öpərək dedi:

— Sən nə danışırsan, ana? Mən uşaq deyiləm ki? Hər şeyi başa düşürəm. Bir də ki sən mənim qayınanam yox, anamsan. Hümmət hər gün yanıma gəlirdi. Onsuz da heç kəsi xəstəxanaya buraxmırlar ki? Sən də gəlsəydin, həyətdə qalacaqdın. Hümmətin gətirdiyi dadlı xörəkləri sən bişirməmişdinmi?

— Qanan balasan, qızım. Şirin dilinə, kəsərli ağlına qurban.

Hümmət:

— Sevib, seçib almışam. Görürsən də mənim...





Şəfəq bir balaca sıxıldı, onun üzündə zərif bir təbəssüm duyuldu, ötəri halda Hümmətin üzünə baxdı, başını ahəstə buladı, astadan, pıçıltılı səslə:

— Uşaqlığın hələ də başındadı, — dedi.

Hümmət:

— Uşaqlaşmaq sevgiyə məxsusdu.

Qəhmər dərhal:

— Hümmət kefindən qalmır. Çox şey danışır. Atalar deyib: "Gərək su quyunun dibində ola, quyuya su tökməklə sulu olmaz". Oğlum, bədəsili Allah uğuruna çıxarmasın. Əgər çıxsa, nə deyirsən de, onunla nə danışırsan danış, faydası olmayacaq. Bir qulağından alıb, o birisindən buraxacaq.

Hümmət nəsə düşünüb qəflətən ayağa qalxdı. Qəhmər də, Şəfəq də təəccüblə ona baxdılar. O, üzünü arvadına tutaraq bir qədər ciddi halda:

— Uşaq divandan sürüşüb yıxıla bilər, — dedi.

Qəhmər gülərək:

— Sürüşməz, oğlum, iməkləyə bilər.

Bu sözü eşitcək ər-arvad özlərini saxlaya bilməyib ucadan qəhqəhə çəkdilər. Qəhmər əlavə elədi:

— Görməmişin bir oğlu oldu... Burda oturub çox şey danışacağıq. Qalxın, keçin uşağın yanına. O da tək qalmasın. Mən də qab-qacağı yığışdırıb gəlirəm.

Elə bu vaxt işıqlar söndü. Hər tərəf qaranlıq zülmətə büründü. Qəhmər əsəbi halda deyinməyə başladı:

— Əşi, belə də biabırçılıq olar? Hər gün vaxt-bivaxt bilmirlər, işıqları söndürürlər. Yəqin indi qaz da kəsilər. A qızım, qalx, çırağı yandır. Körpəlisən, bundan sonra çıraq həmişə sənə lazım olacaq... Əşi, indi hansı dövrdü? Əcnəbilər kosmosu fəth eləyir. Nəhəng kompüter sistemi yaradırlar. Biz isə hər gün işığa, qaza həsrətik.

Hümmət:

— Lap alim kimi danışırsan, ay ana. Bunları hardan bilirsən?

— Gündəlik televizorda söyləmirlərmi? Qəzetlərdə yazmırlarmı? Bəyəm eşidib, oxuduqlarımız dərs deyilmi, oğlum? Gərək məktəbə gedək, parta arxasında oturaq? Eşitdiklərim, gördüklərim, oxuduqlarım, təcrübəm, ağlım mənə bəs elər...

Şəfəq qayınanasının dediyi kimi də elədi. Hümmət pəncərəyə yaxınlaşıb pərdəni kənara itələdi. Zülmət içərisində şəhər çox qorxunc, vahiməli görünürdü. Binalar nəhəng qara bir div kimi az qala adamın üstə gəlirdi. Lap aşağıda binanın sakinlərinin narazılıq səsləri eşidilirdi. Hümmət bu səslərin kimlərə məxsusluğunu, adamların nə demək istəmələrini başa düşməsə də, özlüyündə təxmin eləyirdi ki, hamı işıqların sönməsindən gileylənir, işıq işçilərini qınayırdı. Hümmət adamlara haqq qazandırdı. Sonra o, nə fikirləşdisə, bayaqkıların əksinə deyinməyə başladı: — Axı işıqçı yazıqlar neyləsinlər? Evlərdə istiliyin, qazın olmaması ucbatından xətlərə calanan elektrik peçləri gərginliyi yüksəldir, köhnə, nuh əyyamından qalma cihazlar, illərdən bəri dəyişməyən, ömrünü çoxdan başa vurmuş xətlər gərginliyə davam gətirə bilməyib yanıb tökülür. Nə dövlətin bu işləri görməyə gücü var, nə də ona cavabdeh olacaq adamların həvəsi, məsuliyyəti. Belə getsə, çox pis olacaq. Lap əsrin əvvəlindəki kimi. İşıq yoxdu, deməli, istilik də yoxdu. Qaz da olmayacaq. Normal həyatdan söhbət gedə bilməz. Allah bundan betərindən saxlasın. Anasının: — A bala, pəncərədən nə görürsən ki gəl, əyləş görək, — sözləri Hümməti düşüncələrindən ayırdı və pərdəni öz yerinə qaytardı. Sonra geriyə qanrılıb astadan dedi:

— Adam elektrik işığına elə öyrəşib ki, çırağa alışa bilmir. Aşağıda qonşuların səsləri gəlir. İstəyirəm, mən də həyətə düşəm.

Qəhmər:

— Bu qaranlıqda, soyuqda düşüb neyləyəcəksən ki? Onsuz da başın işıq işindən çıxmır. Gedib kiməsə əl verəsən, kömək





eləyəsən.

Hümmət:

— Atalar deyib, "Vur deyənlə vuran yarıdı".

Şəfəq:

— Atalar o məsəli çəkəndə nə elektrik vardı, nə də onun işığı.

Qəhmər:

— Sən Allah otur yerində.

Hümmət keçib öz yerində əyləşdi. Haçandan-haçana dilləndi:

— Televizor da işləmir ki, başımız qarışa. İşsiz-gücsüz adam nə eləyəcəyini bilmir. Əlacsız qalıb ya dövlətlinin varını hesablayır, ya da kasıbın qeybətini qırır. O gün aşağıda qonşular danışırdılar. Üzbəüz binada bir universitet rektoru yaşayır. Onun vurtut yüz dollar maaşı var. Şəhər ətrafında iki yerdə böyük imarət tikdirib. Üç xarici markalı maşın alıb. Oğlu da bu günlərdə xaricə gedib. Restoranda əylənərkən atasının maaşının 8-10 misli qiymətində viski alıb stola qoyub. Sonra da təkbaşına içib... İşə bax... Kimi acından ölür, kimi də harınlayıb adamlığını itirir.

Şəfəqlə Qəhmər təəccüblə Hümmətin üzünə baxdılar. Sonra da eyni anda dodaqlarını büzdülər. Şəfəq:

— Bizsə həkimə verməyə pul tapmırıq, xəstəxanadan üzüağ çıxaq, xəcalətdən ölməyək.

Qəhmər:

— Arvadlar ölkədə hər şeyi hamıdan yaxşı bilirlər. Özü də vaxtında. Bir zaman bu binada yaşayan İlxas vardı ha, yadına gələr, a Hümmət, çox kasıblıqla dolanırdılar. Üç il əvvəl onu vəzifəyə çəkdilər. Onun da gözünə dönüm. Sən deyən kimi, o da şəhər kənarında çoxmərtəbəli bir saray tikdirib. Saray da saraydı ha. Gəl görəsən. O vaxtdan da bu evin qapılarını bağlayıb köçüb ora. Eşitdiyimə görə bir heyvərə, əcaib it alıb. Ona təlimçi də tutub. Təlimçi itə "qalx", "dur", "get", "gəl", "yat" sözlərini öyrədir. Kişi də ona əvəzində ayda nə az, nə çox, min dollar ödə-

yir. Bayaq dedim də, it də itdi ha. Sahibi nə yesə, ondan yeyir. Harda otursa, orda oturur. Harda yatsa, orda yatır.

Şəfəq heyrət içərisində:

— Xoşbəxt itdi.

Otağı gülüş səsləri bürüdü. Qəhmərin nəzərləri divardan asılmış əqrəbləri aramla hərəkət eləyən saata dikildi. Yatmağın vaxtı idi. O, dərindən nəfəs aldı və narazı halda bildirdi:

— Ömürdən bir gün də belə getdi. Gecdi, oğlum. Qalx ayağa. Mənim yataq dəstimi o biri otaqdan gətir. Divanı açaq. Hikmətlə mən burda yatacam.

Şəfəq:

— Ana, körpə səni narahat elər.

— Eləməz. Sən qalx onu əmizdir. Səhərə qədər ac qalmasın. Gərək uşaq üçün sabah beşik alaq. Sabahdan sizinlə qalar. Xəstəsən, narahatsan, çevrilərsən, körpəni bastalaya bilərsən. Allah verən paydı, gərək qədrini biləsən. Tubunun da övladı olsaydı...

Şəfəq:

— Allah eləsin. Sən kimə pislik eləmisən ki ana. Allah mərhəmətlidi. Sənin sözünü gec-tez eşidəcək. Tubuya da övlad qismət eləyəcək...

* * *

Son vaxtlar Tubugildən gələn söz-söhbətlər, dedi-qodular anası Qəhməri lap cana gətirmişdi. Ana oturub-durub onun taleyi barədə düşünürdü. Qızı ilə əlaqədar eşitdiyi bir çox şeyləri oğlundan da gizlədirdi. Onu da bilirdi ki, belə getsə, qızının ailəsi ilə: — əri, qayınanası, baldızı ilə əlaqədar narazılıqlarını qardaşı da təfərrüatı ilə eşidəcək. Ola bilsin ki, o da bacısından inciyəcək, küsəcək. Bəlkə də Hümmət bu işlərdə bacısını günahkar biləcək. Ana qızı ilə əlaqədar söz-söhbətləri xeyli götür-qoy elədi. Hər şeyi oğluna açıq-açığına demək qərarına gəldi. Ancaq





necə, nə vaxt?

Şam yeməyi hazırlayan Şəfəq əri ilə qayınanasını süfrəyə dəvət elədi...

Nahardan sonra Hümmət gözlənilmədən anasından bacısı Tubugilin dolanışığı barədə soruşdu. Qəhmər əvvəl çaşdı. Ona elə gəldi ki, oğlu Tubudan nəsə bir şey eşidib, indi də məndən soruşmaqla ya eşitdiklərinin doğru olub-olmamasını dəqiqləşdirmək, ya da məsələyə mənim münasibətimi öyrənmək istəyir. Qəhmər birdən-birə cavab vermək istəmədiyindən özünü elə apardı ki, guya o, oğlunun dediklərini eşitmədi. Araya sakitlik çökdü. Hümmət sualı təkrar etdi. Qəhmər bu dəfə söhbətdən qaça bilmədi.

— Eh, soruşmasan yaxşıdı. Onunku, deyəsən gətirmədi. Bir ailədə ki dığ-dığ oldu...

Hümmət:

— Ana, bacım da adamla keçinən, yola gedən deyil. Söz-söhbət, narazılıq olmayan ailə varmı?

— Oğlum, mən bacının qəbahətlərinin üstündən pərdə çəkmək fikrində deyiləm. Ancaq gəlin də insandı. Gərək evdə, ailədə...

Şəfəq daxilən qayınanasının sözündən razı qaldı. Münasibət bildirməsə də, özlüyündə bu qadına haqq qazandırdı.

Hümmət:

— Bacımın dili çox uzundu. Bir də ki özü seçib, özü gedib də. Biz ki məcburən verməmişik.

Qəhmər astadan, sızıltılı, pıçıltılı bir səslə:

— Mən nə deyirəm, oğlum. Allah ona da övlad versəydi, bəlkə onun da başı qarışardı. Evinə, ailəsinə bağlanardı. Bu gün sabah ərə getməsinin beş ili tamam olacaq. Nə bilmək olar? Bəlkə qayınanası, baldızı övladı olmamasına görə...

— İnanmıram. Övlad olmur deyə, ailə dağıdarlar?

Ərinin sözü Şəfəqin ürəyincə oldu. O, nəsə demək istəyirdi

ki, Qəhmər təəssüf hissi ilə bildirdi:

— Dağıdarlar, oğul, dağıdarlar. Uşaqsız ailədən nə olar ki? Uşaqsız ər, arvad quru ağac kimidi.

Qayınanasının dedikləri Şəfəqin az qala ürəyini titrətdi. — Əgər mənim də uşağım olmasaydı, deməli, mən də bu evdən çıxmalıydım, Hümmətdən ayrılmalıydım, — deyə düşündü. Qəhmər qəhərləndi. Özü də hiss eləmədən gözləri yaşardı. Bu, Hümmətin diqqətindən yayınmadı. Oğul vəziyyəti yüngülləşdirmək, anasını ağır yük altında çox saxlamamaq üçün ayağa qalxdı. Bunu ana da duydu. O da ürəyində oğlunun bu hərəkətini çox bəyəndi. Hümmət astadan mehribanlıqla bildirdi.

— Ailəni dağıtmaq olmaz. Çalış, Tubunu başa sal.

— Bilirəm, oğlum. Qızın yeri rahat olmayanda ana ölüb-dirilir. Ananın yeyib-içdiyi irin-qan olur. Heyif ki, bunu qızlar başa düşmürlər.

— Nələr çəkdiyini bilirəm, ana! Deyirəm, bəlkə əri ilə danışaq.

— Danışmışam, əri də narazıdı.

— Deməli, mən deyəndi də. Bacım ailəsi, evi barədə düşünmür.

— Niyə?

— Necə niyə? Ər narazı, qayınana narazı, baldız narazı. Zorla onların evində oturacaq?! Bircə çıxış yolu qalır. Ayrılıq!!!

— Mən də başımı itirmişəm. Nə edim, heç özüm də bilmirəm.

— Ancaq onu bilirəm ki, aradan hörmət, izzət pərdəsi götürüldüsə, münasibətləri düzəltmək olmur. Yaxşı deyəndə də pis başa düşülür. Heç bir söz deyilməsə də, insan içində öz-özünü didir, parçalayır. Belə olanda heç bir şeyin fərqinə varmadan adamın içində lənətə gəlmiş qəzəb, nifrət doğulur. Anbaan böyüyür, şişir, nəhayət, partlamalı olur. Nə qədər ağıl versən də, faydası olmur. Nə qədər ki, cinayət baş verməyib, o şəraitdən, o vəziyyətdən qaçıb canını qurtarsan yaxşıdı.





Şəfəq:

— Nə cinayət?! Tubunun işi...

Hümmət:

— Anam elə danışır ki?

Qəhmər:

— Səhər Tubunun sözündən elə nəticə çıxardım.

Şəfəq:

— Onda qərarı gərək Tubu özü versin. Biz məsləhət versək, peşman olarıq. Sonra da məsuliyyətdən yaxa qurtara bilmərik.

Hümmət:

— Şəfəq düz deyir. Bacı mənimdi, xasiyyətinə bələdəm. Sonra deyəcək ki, siz elədiz. Onun danlağından yaxa qurtarmaq çox çətindi. Qaşınmamış yerdən qan çıxarandı.

Qəhmər:

— Nahaq elə fikirləşirsən, Hümmət. Bəlkə onu doğrudan da bezikdiriblər. Yazıq qız cana doyub.

— Bəlkə də sən deyəndi, ana. Axı sən Tubunu da yaxşı tanıyırsan. O, uşaqlıqdan qarışqanı fil eləyəndi. Axı bacımda yalançılıq da var. Sən onun qayınanası, baldızıyla danışmısanmı?

— Əlbəttə. Hamısı ilə evlərində təkbətək görüşmüşəm, bura dəvət eləmişəm. Qayınanası, baldızı ilə danışanda Tubu borclu çıxır, Tubunu danışdıranda onlar. Fikirləşəndə, məni dəhşət bürüyür.

— Bəs əri nə deyir?

— Eh, ərindən danışma. Bədbəxt oğlu uşaq kimidi. Əməllicə-başlıca bir fikri də yoxdu. Beş dəqiqə anasının, bacısının sözünü deyir, beş dəqiqədən sonra Tubunun. Səmti bilinməyən külək kimi əsir o tərəf-bu tərəfə. İndi gəl onunla dərdini bölüşdür, görüm, necə bölüşdürürsən?

— Deməli, tərəddüdlüdü. Deməli, hər iki tərəfdən qorxur.

— Nə deyim, vallah. Matım-qutum quruyub. Qız yükü, duz yükü.

— Ana, Tubu yola getməlidi. Getməsə, axı əri Seyran neyləsin? Nə anasını ata bilər, nə də bacısını. Atsa da Seyrana eşidənbilən nə deyər? Elə biri mən, ona qeyrətsiz, namussuz kimi baxaram. Yola getməsələr, narazılıq davam etsə, boşanmaqdan başqa çarə yoxdu. Gərək bacım yaxşı-yaxşı fikirləşsin, götürqoy eləsin. Papaq deyil ki, başdan-başa qoyula. Doğrusu, mən onunla bu barədə danışmaq, aradan pərdəni götürmək istəmirəm. Qorxuram məni düz başa düşməyə. Elə fikirləşə bilər ki, mən ondan imtina eləyirəm, üz döndərirəm. Əsla yox. Bu ev atamızdan qalıb. Ana, sənindi. Sənin icazənlə həm onundu, həm də mənim. Nə vaxt gəlsə, gözüm üstə yeri var. Ev darlıq eləsə, bu evdən mən çıxmalıyam. Çünki kişiyəm. Ancaq bacıma onu da rəva görmürəm ki, evini, ailəsini dağıtsın.

— Çox sağ ol, oğlum. Hələ bir az da gözləyək. Görək nə alınır.

— Gecə gecədən keçir, gedək yataq. Sabah xeyirə açılsın.

Hümmət gedib yatağında uzandı. Az sonra Şəfəq də körpəni rahatlayıb qayınanasının ixtiyarına verib əri yatan otağa keçdi və soyunub yatağına uzandı. Ərini oyaq görcək astadan: — Hələ yatmamısan? — deyə soruşdu. Hümmət: — Əcəb əsəbiləşdim, — deyə arvadına bildirdi, sonra da yorğanını başına çəkib üzünü divara çevirdi. Nə qədər çalışsa da, yuxusu gəlmədi. Əksinə, bayaq bacısının taleyi barədə anasının dediklərini xatırladı: — Eh, Tubu, Tubu! Sən də ərköyün böyümüsən, bacı. Anam sənin barəndə danışdıqca yanıb-yaxılır. Səni günahlandırmaq istəmir. Onu da başa düşürəm. O, anadı! Sən də onun ciyərparası. Elə mənim də. Qanımız bir, canımız bir. Sən mənim ləyaqətimsən, şərəfimsən, namusumsan, qeyrətimsən, Tubu. Bilirəm, qəlbi sınıqsan. O da sənin qismətindi, bacı. Allah bilir, sənin barəndə düşünəndə ürəyim necə də mum kimi əriyir... Ancaq düşünürəm ki, indi sən yaxşı-yaxşı fikirləşməlisən... Lap günah ərində, qayınananda, baldızında da olsa, sən güzəştə getməyi bacarmalısan. Ərdən çıxmış dul qadına, təsəvvür eləyirsənmi, necə baxırlar, bacı?! Ağzıgöyçəklər, tərbiyədən, mərifətdən kasadlar insanlara böhtan, iftira, yaman demək üçün doğulublar. Onların ağzını nə sən, nə mən, nə də anamız bağlaya biləcək. Mən sənin namusunun, şərəfinin, ləyaqətinin gözətçisiyəm... Sənsə mənim görən gözlərimsən, ruhumsan, döyünən ürəyimsən. Atamın əziz yeganəsisən... Yadigarısan... Bununla da ömrüm boyu fəxr eləmişəm... Bilirəm... Məndən yaş yarım böyüksən. Özünü də çox bilmiş sanırsan... Həyat sən düşünən kimi deyil, bacı! Sən hələ ər evindəsən. Ağlına da gəlmir ki, ömrünün qürub çağında anamızın bütün dərdi-səri sənsən, Tubu. Bu yaşda anamıza mənəvi əzab, iztirab verməyə haqqımız yoxdu. Daha biz uşaq da deyilik. Bu yaşda sonrakı səhvimizi bizə nə anamız, nə bizi istəyənlər, nə də Allahımız bağışlar. Unutma ki, uğursuz hərəkətlərimiz, qəbahətlərimiz bizi ömrü boyu yandıracaq, yaxacaq...

* * *

Günəş doğur, onun pəncərədən süzülən parıltılı şəfəqləri nimdaş pərdələrdən süzülüb otağı qızılı rəngə boyayırdı. Səhərin gözü açılanda yuxudan oyanmağa adət eləmiş Hümmət gözlərini açacaq balıncdan başını qaldırıb yanında şirin-şirin yatan Şəfəqə baxdı. Arvadının xəstəliyini düşündüyündənmi, doğuşdan sonra arıqlayıb halsızlaşdığındanmı, ya da elə narahat eləmək istəmədiyindənmi kişi yorğanını üstündən kənara itələyib ehmalca ayağa qalxdı, paltarlarını geyindi və özü üçün səhər naharı hazırlayaraq yeyib-içib evdən çıxırdı ki, anası ilə qapı ağzındaca qarşılaşdı. Ana salam verib dedi:

— Oğlum, nahar eləmədən hara qaçırsan ki?

— Narahat olma, eləmişəm. Səni şirin yuxudan oyatmaq istəmədim.

— Şəfəq xəstədi. Ona qulluq lazımdı oğlum. Gərək məni qal-

dıraydın.

— Bir şey lazım olacaqmı?

— Yox, oğlum, hər şey var.

— Hələlik.

— Uğur olsun.

Hümmət getdi. Qəhmər Şəfəq yatan otağın qapısına yanaşıb gəlinini astadan sakit-sakit çağırmağa başladı. O qayınanasının səsini eşitcək tələm-tələsik yataqdan qalxıb geyindi və qapıya gəldi. Qəhmər dedi:

— Qızım, sən uşağı əmizdir. Mən də yeməyə bir şey hazırlayım.

— Bəs Hümmət?

— Hümmət tezdən yeyib-içib getdi.

Şəfəq bu evə gələli Qəhmərə "Ana" deyə müraciət eləmişdi. Həmişə də ondan utanmışdı, çəkinmişdi. O, qayınanasının hörmət və ehtiramını saxlamağa çalışmışdı. Bu qadının ləyaqət və şərəfini uca tutmuşdu. İnsafən, qayınanası da, elə Hümmət də onun diqqət və nəzakətini yüksək dəyərləndirmişdi. Hərdənbir Qəhmər özlüyündə: "Kaş Tubuda da Şəfəqin abır-həyasından, ismətindən bir az olaydı", — deyə düşünmüşdü. Hələ bir neçə dəfə Şəfəq olmayanda ana oğluna gəlinin insaniyyətindən: tərbiyəsindən, mərifətindən, ağıl-kamalından söhbət açmışdı. Gülə-gülə oğluna: — Arvad sarıdan bəxtin gətirib, — demişdi. Hümmət də anasının Şəfəqdən razılığını görcək çox məmnun qalmışdı. İl yarımdan artıq birlikdə keçən ömürlərində bircə dəfə də olsun incikləri, umu-küsüləri olmamışdı Qəhmərlə Şəfəqin. Əksinə, həmişə ana-bala kimi dolanmışdılar... Qarşılıqlı xətir-hörmət saxlayırdılar. Bu ailə ilə əlaqəsi olanlar: qonşular da, tanış-bilişlər də, qohumlar da onların səmimiyyətini, mehribanlığını hamı üçün örnək sanırdılar. Bunu eşidən qayınana da, gəlin də sevinir, fərəhlənir, böyük qürur hissi keçirirdilər...

Şəfəq uşağını rahatlayır, Qəhmərsə vanna otağında öz çirkli





paltarlarını yuyurdu. Elə bu vaxt qapının zəngi çalındı. Qəhmər gedib qapını açdı. Gələn Tubu idi. Uca boylu, dolu bədənli, sarı bənizli bu qadın boynu xəz dərili qara palto geymişdi. Eyni rənglə boyanmış saçlarını darayıb çiyninə tökmüşdü. Əyninə geydiyi təzə zolaq-zolaq şalvarın balaqları qırmızıya çalan ayaqqabılarının üstünü örtmüşdü. Üzünə sürtdüyü ağ pudra, yanaqlarına, dodaqlarına çəkdiyi qırmızı boya onun bu sahədəki səriştəsizliyindən xəbər verirdi. Tubunun dairəvi, yumru sifəti, şiş uzun burnu, böyük ağzı, qalın, çırma dodaqları, qonur gözləri vardı. Paltosunun yaxasından sinəsi açıq-aydın görünürdü. Paltonun altından geydiyi paltarlar pərçimləndiyindən sinəsini xeyli qabartmışdı. Onunla qarşılaşanların diqqətini ilk cəlb edən bu qadının görkəmindən daha çox, sir-sifətinə yaxdığı pudra-boya, bir də sinəsinin yöndəmsiz qabarmasıydı. O, gülümsünən kimi, ənləri geri çəkilir, ağzındakı qızıl dişləri parıldayırdı. Sırğalarını göstərirmiş kimi gah başını yırğalayıb saçlarını geriyə — boynunun ardına atır, gah da əlləri ilə geriyə sığayırdı. Hər dəfə də əllərini aşağı salanda barmaqlarına keçirdiyi qızıl, brilyant üzükləri nümayiş elətdirirdi. Ucları vurulmamış, xeyli qabağa uzanmış dırnaqları Tubunun ev, ailə işlərindən xəbərsiz olduğuna şəhadət verirdi. Tubunun görkəmi, hərəkətləri müsahiblərinin nəzərindən heç də yayınmırdı, əksinə, onlarda bu ərköyün, hikkəli qadına nifrət, ikrah hissi oyadırdı. Tubu çox zaman müsahiblərinin bu münasibətlərini açıq-aydın duysa da, əhəmiyyət vermədən: "Hərə özü üçün, necə bilir elə də yaşayır" — deyə düşünürdü.

Qızının gəlişi ananı çox sevindirdi. Ona görə də qızı ilə qucaqlaşıb öpüşdü. Tubunun səhər üstünə, paltarlarına səpdiyi ətrin iyi anasını vurdu. O, dərhal üz-gözünü turşudaraq təəccüblə soruşdu:

— Bu nə iydi, ürəyimi qaldırdı?

— Ətir səpmişəm. Xoşuna gəlmədi?

Tubu paltosunu soyuna-soyuna anasına qüsur tutduğuna görə narazılığını bildirdi. O qızının dediklərinə etiraz eləyərək dedi:

— A bala, yüz dəfə sənə demişəm, ənnik-kirşan çəkməyin də həddi var. Həddini aşan iş tək məndə yox, hamıda ikrah hissi oyadır.

— Eh, sən Allah bəsdi. Beş gün ömrüm var, qoyun, insan kimi yaşayım.

Tubu paltosunu asılqandan asıb dəhlizdəki boylama güzgünün qarşısına keçdi. Əvvəl qabaqdan, sonra arxadan, sağdan, soldan özünə baxdı. Əyninə pərçimlənmiş şalvarın arxasını üstdən aşağı sığadı. Əynindəki koftanın ətəklərini aşağı çəkdi. Əndamından, görkəmindən razı qalan Tubu böyük fəxr və heyranlıqla anasına baxdı, gülümsündü. Qəhmərə elə gəldi ki, bu hərəkətləri ilə qızı: — Necəyəm, xoşuna gəlirəmmi? — sualına ondan cavab istəyirdi. Qəhmər geri çəkildi, sonra da saymazyana, bir qədər də acıqla dedi:

— A qızım, Allah adamın boy-buxunundan alıb ağlına versə, yaxşıdı. İnsanı ağıl idarə eləyir, görkəm yox, qadın həyası, abrı, isməti ilə qədirlənər.

— Hər dəfə gələndə qanımı qaraldırsan.

— Keç otağa. Uşağı olub, Şəfəqi təbrik elə. Körpəni al qucağına.

— Yetimçə nə tez çıxdı xəstəxanadan?

Qəhmər sir-sifətini bozardıb qızına gözlərini ağartdı. Sonra da ciddi və sərt bir halda cavab verdi:

— Yetimçə nədi? — deyirsən...

Tubu narazı halda:

— Bə nədi? Hümmət də getdi, gör kimi aldı. Bunda deyirlər də: “Hamı gedər quş gətirər, şahqulu bayquş gətirər”.

Ana səsini bir qədər də sərtləşdirdi:

— Tubu, ağzına gələni danışma. Hümmət heç də ondan artıq deyil. Yazıq qızdan gör neçə yaş böyükdü. İşi nədi? Bu mən! O





da sən! Şəfəq kimsəsiz qızdı. Allah ona bir tikə çörək verib, qədrini də bilir. Yoxsa, sənin kimi... Bayaq da dedim. Keç gəlini təbrik elə. Bir-iki paltar qalıb, mən də onları yuyub gəlirəm.

Tubu bir qədər əsəbi halda:

— Gəlin dura-dura sən niyə paltar yuyursan?

— Onu mən bilərəm. Get, dedim, get. Səninlə başqa sözüm də var.

Qəhmər üzünü çevirib getdi. Tubu qapını açıb Şəfəq olan otağa daxil oldu. Gəlin baldızını görcək qalxdı, onu qucaqlayıb öpdü və dedi:

— Xoş gəlmisən, Tubu. İndicə sənin barəndə fikirləşirdim.

— Nə fikirdi o?

— Sənsizləmişəm, bacı.

— De görüm, körpə oğlandı, qız?

— Oğlan.

— Xoşbəxt olsun. Kimə oxşayır?

— Atasına. İndi rahatlanıb.

Tubu körpəyə yaxınlaşdı. Uşağın üzündəki örpəyi qaldırıb sir-sifətinə baxdı. Şəfəq dərhal:

— O gün olsun sənin də körpəni görək.

— Eh, istəmirəm. Kim istəyir, Allah ona qismət eləsin. Körpəyə ad qoymusuz?

— Hə, Hümmət atasının adını qoydu. Anam da razılaşdı.

— Bəs sən?

— Mən kiməm ki? Körpənin sahibi anamla Hümmətdi.

Bu dəm Qəhmər otağa gəldi. Tubu keçib divanda əyləşdi. Şəfəq tələm-tələsik çay gətirmək üçün mətbəxə keçirdi ki, Tubu dərhal dedi:

— Gəl otur, gedirəm, aşağıda maşın məni gözləyir.

Qəhmər diksinən kimi oldu. O, təəccüblü halda qızının üzünə baxdı:

— Nə maşın? Maşın kimindi?

Tubu qəsdən anasını qıcıqlandırırmış kimi bildirdi:

— Xarici maşındı. Elşəndən xahiş eləmişəm, məni bura gətirsin. İşə qayıdacam.

Ana səsini bir qədər qaldırdı. Əsəbi halda dedi:

— Ağlını başına yığ. Ərin səni başqasının maşınında görsə, nə cavab verəcəksən.

— Narahat olma. Özüm bilirəm nə cavab verəcəyəm.

Şəfəq qayınanası ilə baldızı arasındakı söhbətin getdikcə cidiləşdiyini görüb yan otağa keçdi. Ana ilə qız əməllicə-başlıca mübahisəyə girdilər. Qəhmər əsəbi halda dedi:

— Ailənin bütün üzvləri səndən narazıdı.

— Mənə nə. Bir də ki anasan deyə başımda qoz sındırmayacaqsan ki. Həyatımı özüm qururam. Onun heç kəsə dəxli yoxdu.

— Var. Qayınananla, baldızınla, ərinlə söhbət eləmişəm. Səninlə də çox danışmışam. Mənimlə — doğma anası ilə belə danışan qızın törətdiklərinə kim dözər? Neçə dəfələrlə məndən, ailəndən xəbərsiz gedib özünü ikicanlılıqdan qurtarmısan. Adamlar uşaqdan ötrü gündə min dəfə Allaha yalvarırlar. Diz çökürlər. Nəzir-niyaz verirlər. Sən neylədin? Özünü doğar qarından elədin, bədbəxtlik girdabına atdın. Hələ cavansan, dediklərimi başa düşmürsən. Vaxt gələcək peşmançılığını çəkəcəksən. Əməllərin ucbatından cəhənnəm odunda yanacaqsan. Əzabdan göz yaşları tökəcəksən... İndi sən burda güzgü qənşərində dalına, qabağına baxırsan, ərin, qayınanan, baldızın elə bilirlər işdəsən.

— Bəsdi, ana.

— Elşən kimdi?

— Müdirin sürücüsü.

— Yox, Tubu! Sən yolunu azmısan. Çox çəkməz... Gəlib qardaşına möhtac olarsan... Ağlın başına gələr. Mən də bu gün varam, sabah yox. Sənin barəndə giley-güzar eşidəndə mən yüz dəfələrlə xəcalətdən ölüb dirilirəm. Elə bilirəm deyəcəklər belə





ədəbsiz, mərifətsiz qız böyütmüsən.

Anasının məzəmmətlərinə dözə bilməyən Tubu ayağa qalxdı: — Mən getdim, xudahafiz, — deyib otaqdan dəhlizə çıxdı. Ana oturduğu yerdən qalxmadı. Qız paltosunu asılqandan götürüb Şəfəqlə də xudahafizləşmədən otaqdan çıxdı. Qapının açılıb örtüldüyünü yan otaqda eşidən Şəfəq elə başa düşdü ki, evə təzə qonaq gəlib. Onu qarşılamaq üçün dəhlizə gəldi. Bu vaxt otaqdan qayınanasının çıxdığını gördü. Onun əsəbi olduğunu dərhal duydu. Qayınana dilləndi:

— Belə qız doğunca daş doğaydım, bala. Əziyyətim hədər getdi. Ümidim boşa çıxdı. İstəyim, arzum ürəyimdə qaldı.

— Allah eləməsin.

— Pis övlad ata-ana üçün böyük dərddi. Onları atasız böyütmüşəm. Bir üzü qız, bir üzü gəlin qalmışam bu dörd divar arasında. Barəmdə nələr deyilməyib? Nələr eşitməmişəm? Namusla, qeyrətlə işləmişəm. Bu tifilləri saxlamışam. İndi gör nələrlə qarşılaşıram? Mənim qızım müdirin maşınında gəzir. Əri bilsə, deməyəcək ki, balam, Elşən kimdi? Lap tutaq ki, əri də bilməsin. Bəs qızımın vicdanı? Bəs onun əməli salehliyi? Bəs qadınlıq ləyaqəti, qadınlıq şərəfi? Bundansa, ölüm yaxşıdı. Mənim yaşamağa haqqım yoxdu. Qızına tərbiyə verə bilməyən, övladının öhdəsindən gəlməyi bacarmayan ana ölümə məhkumdu.

— Ana, əsəbləşmə. Bəlkə Tubu sənin sözlərindən bir nəticə çıxaracaq?

— Yox! Mənim qızım havalanıb. Belələrinə el arasında: "Qızışıb" — deyərlər. Qızışan nə ətrafına baxar, nə də özünə. Əvvəllər Tubu barəsində qayınanasından giley-güzar eşidəndə, baldızından, ərindən narazılıq duyanda elə bilirdim ki, qızımı yola vermək, dolandırmaq istəmirlər. Doğrusu, ona olan istəyim, məhəbbətim beynimi elə kilidləmişdi, gözlərimi elə dumanlandırmışdı ki, günahları həmişə qayınanasında, baldızında axtarardım. İndi görürəm çox yanılmışam. Tubuda da az deyilmiş... So-

ruşdum, həqiqəti demədi. Bu Elşən kimdisə, Tubunun ailəsini dağıdacaq. Bir də ki axı Elşənin nə günahı? Elşən olmasaydı, Tubu başqa birisinin maşınına oturacaqdı. Bacısının bu hərəkətlərini Hümmət bilsə, vallah qan düşəcək. Hümmət uşaq deyil. Həyatın hər üzünü görüb. Nə olsun ki, dərzidi. Nə olsun ki, kasıbdı, əli aşağıdı. Hümmət özünə qiymət qoyandı. Ailəcanlıdı, namusuna, qeyrətinə söz ola bilməz. Dilinə yalan gətirməz. Halal əməyi ilə dolanır. Bilirəm, Tubunun xatirini də çox istəyir, lap çox. Elə bil Tubu bu ailədən çıxmayıb, onu mən doğub-böyütməmişəm. Bədbəxt qız... Nə geyimini bilir, nə oturuşunu, nə də duruşunu. Mənimlə olan söhbətini də eşitdin də, qızım.

— Eşitdim, ana!

— Bala, baldızın barədə hələlik ərinə bir söz demə.

— Demərəm, ana!

— Mən anayam. Qızın bütün qəbahətləri üçün günahkar mənəm. Onu yola gətirə bilməsəm, vay mənim halıma!

Qəhmərin ürəyi bərk darıxdı. O nə fikirləşdisə, ayağa qalxdı. Pəncərəyə yaxınlaşıb pərdəni kənara çəkdi. Həyətə baxdı. Evin qənşərində qara rəngli xarici markalı maşın dayanmışdı. Pəncərələrin şüşələri rəngli olduğundan içəridə sürücü görünmürdü. Tubu binadan çıxıb tələm-tələsik maşına tərəf getdi. Maşına çatar-çatmaz qapı içəridən açıldı. O, sürücünün yanında əyləşdi. Maşın dərhal yerindən sürət götürdü. Tini burulub gözdən itdi. Qəhmər əsəbi halda: — Get, hələ cavansan, peşmançılıq çəkən vaxtın olar, — dedi. Pəncərənin pərdəsini yerinə qaytardı. Sonra da gəlib öz yerində əyləşdi. Əlini dizinə vurdu: — Yandım, Allah! — dedi. Şəfəq təskinlik vermək istəyirdi ki, qayınanasının gözlərinin yaşı yanaqlarına süzüldü. Dodaqları səyridi:

— Qorxuram, oğlumu bədbəxt eləyə. Müdir maşınında gəzənə bax.

— Nə olar ki ana?

— Eh... Sən də lap... A bala, qab düşdü, ya cınqıldadı, ya da





qırıldı. Fərqi varmı qapı arxasındakına? Onun üçün hər ikisi səsdi. Bunun müdir maşınında gəzməsini ya əri gördü, ya da ərinə çatdırdılar. Qılıncın qından çıxmadığını ərinə necə inandıra biləcək. Qadın adı təmizlik tələb eləyir. Ləkə götürmür. Gərək onu göz bəbəyi kimi qoruyasan. Qorumadın ha, haqlı-haqsız yaman ağızlara düşəcəksən. Səni hallandıracaqlar. Sənə olmazın rəngini yaxacaqlar. Murdarlanacaqsan. Çirkaba batacaqsan... Qədir-qiymətin itəcək. Ləyaqətin, ismətin ayaqlar altına düşəcək. Nəticədə heç kəsə gərək olmayacaqsan. Ömrün boyu qara eynəklərdə görünəcəksən...

Qəhmər sözünə ara verdi. Gəlin dönüb qayınanasına baxdı. Qadının sifəti ağarmışdı. Şəfəq ona yaxınlaşıb yanındaca oturdu.

— Ana, sənə nə oldu? — deyə soruşdu.

Qadın haçandan-haçana zərif bir səslə:

— Heç qızım, narahat olma, ürəyim sıxıldı, — deyə cavab verdi.

— Su gətirimmi?

— Yox!

— Dərman necə?

— Ötdü...

— Doğub böyütdüyün gözün görə-görə yolunu aza, məhv ola. Sən də sakit-sakit durub baxasan. Ya da gözləyəsən ki, sonu necə olacaq?

— Ürəyinə salma. Yaxşı olacaq.

— Çətin, qızım. Ərindən, uşağından muğayat ol. Mən ömrümün qürub çağlarını yaşayıram. Bu gün varam, sabah yox. Sən də yetim, kimsəsiz qızsan. Ərin də arxasız-köməksiz. Verin əl-ələ, dolanın. İnsan təkcə bu günü yox, həm də sabah üçün yaşamalıdı. Mənə elə gəlir ki, ömrün bu günü insanın özünün, sabahı isə törəmələrinindi. İnsanı digər canlılardan fərqləndirən də elə budu.

— Ana, sən danışanda ürəyim açılır. Vallah bütün günü sənin

məsləhətlərini dinləmək istəyirəm. Dediklərindən doymuram.

— Ömrün uzun olsun, qızım. Sən də olmasaydın... Tubu elə həyasızlaşıb ki, danışanda kimlə danışdığını anlamır. Unudur anası olduğumu... Əməli saleh qadın gərək göz-qaşla danışmasın. Bir çətvər dilini işə salmaq əvəzinə, bir batman başını tərpətməsin.

— Ana, sən deyənləri ilk dəfədi eşidirəm.

— Həyat təcrübən azdı, yaşa dolduqca sən də çox şeylər öyrənəcəksən.

Qəhmər ayağa qalxıb paltarlarını dəyişdi. Yun, isti jaketini, çəkməsini, paltosunu geyindi. Şalını örtdü: — Hələlik, — deyib qapını açaraq otaqdan çıxdı.

Gəlin: — Yaxşı yol, — deyib qapını içəridən bağladı, sonra oğluna yaxınlaşdı. Uşaq mışıl-mışıl yatırdı. Şəfəq fərəhlə ona baxdı, baxdı. Öz-özünə dedi: "Heç vaxt ağlıma gəlməzdi ki, bir zaman mən də ev-eşik sahibi olacam. Övladım olacaq. Mən də nə vaxtsa əzizlənəcəm. Oğlumuzun olmasına Hümmət axşam necə də sevinirdi. Elə qayınanam da. Qayınanam görüb-götürmüş qadındı. O, düz deyir, Tubu anasının dediklərindən düzgün nəticə çıxarmalıdı. Yoxsa, fəlakətə uğrayacaq. Uçuruma yuvarlanacaq. Bu da Hümmətə əlavə dərd-sər gətirəcək"...

Çox çəkmədi ki, Qəhmər otağa qayıtdı, paltosunu, ayaqqabısını çıxara-çıxara dedi:

— Yamanca üşüdüm. Hava şaxtalıdı. Soyuq adamı qılınc kimi kəsir. Bu soyuqda Hümmət də...

— Hümmətdən narahat olma, ana. Uşaq deyil ki. İş yerində gərəkki qızdırıcı da olmalıdı.

— Görən, işıq varmı? Yoxsa, yazıq balam...

— Gəl, bədənin qızsın. Mən də günorta naharı üçün yemək hazırlayım.

* * *





Hümmət yuxudan oyananda hava ala-toran idi. O, yorğanını üstündən kənara itələyib ayağa qalxmaq istədikdə arvadını da yanında yatmış gördü. Əvvəl ona elə gəldi ki, sabah açılmaq üzrədir. Özü də yuxudan nədənsə tez oyanıb. Yuxusu çəkildikcə gündüz baş verən hadisələr təsəvvüründə canlandı. O, ala-toranın səhərin yox, axşamın qaş qaralması olduğunu anladı. Yataqdan qalxıb anası olan otağa gəldi. Qəhmər beşiyin yanında əyləşmişdi. Hümmət düzəltdirdiyi televizorun kanallarını axtardı. Ürəyinə yatacaq bir şey olmadığındanmı, ya kefsizliyindənmi onu söndürdü. Qəsdən saymazyana dilləndi:

— Səhər Seyran gəlmişdi.

Qəhmər:

— Niyə?

— Tubu ilə yola getmədiyindən danışdı. Sözündən belə çıxır ki, bacım qırıb-çatır hamısını.

— Tubu da gəlmişdi. Mən də onunla sərt danışdım. Dediklərim xoşuna gəlmədi. Durdu getdi.

— İstəyirəm bu günlərdə gedəm onlara. Hamısını toplayam bir yerə. Söhbət eləyim. Deyim, a balam, bu nədi? Ya verin ələlə insan kimi dolanın, ya da ayrılın. Nə vaxta kimi dığ-dığ olacaq? Qırmayın bir-birinizi. Sonra da düşünürəm, bəlkə bir az da gözləyək. Ailəni dağıtmağa nə var ki? Çətini ailə ixtilaflarını yoluna qoymaqdı.

— Mümkün olacaqmı?

— Müşkül işdi.

— Oğlum, indi onların özləri bir evdi, bir ailədi. Biz də bir ev, bir ailə. Nə olar bacın olanda. İndi onu yığışdırıb gətirsən, burda iki ev olacaq. Bir müddət keçəcək. Sən də bezəcəksən, arvadın da, o da, elə mən də. Canımız dedi-qodudan qurtarmayacaq, oğlum. Daha pis olacaq. Hər dəfə düşünəndə ki, Tubunun ailəsi dağılıb, onun qəlbi sınıqdı. Onda qanın qaralacaq.

Hümmət xeyli fikrə getdi. Handan-hana inamsız və ümidsiz

halda dedi:

— Nə deyim, vallah. Sən deyənləri mən də düşünürəm. Ancaq açığını deyim ki, çıxış yolu da görmürəm. Pis günündə, son həddə bacımı ata bilmərəm. Vur-tut bir bacıyıq, bir qardaş.

— Düzdü, oğlum. Nəzərə al ki, mən də anayam. Onlara yenə də möhlət vermək lazımdı. İstəmirəm sən onlarla söhbətə oturasan. Kişi xeylağısan, gedərsən, əsəbləşərsən. Ağzından peşmançılıq gətirəcək sözlər çıxara bilərsən. Yaxşı olmaz. Onda izin ver, oğlum, bacınla da, onlarla da özüm danışım.

— Faydası olacaq?

— Olmasa da...

Şəfəq üzünü ərinə tutaraq dilləndi:

— Anam dünyagörmüş adamdı. İzin ver anama.

Hümmət:

— Yaxşı, onda uzatma, bu gün-sabah onlarla əlaqə saxla.

Qəhmər:

— O birisi gün şənbədi. İş günü deyil. Yəqin ki, hamısı evdə olar.

— Sən deyən olsun, ana.

Hümmət əsəbi halda ayağa qalxıb balkona çıxdı. Soyuq hava, zəif əsən meh Hümmətin üz-gözünə dəydikcə, onun gərilmiş əsəblərinə sanki bir məlhəm qoyurdu. Bacısının acınacaqlı vəziyyətini təfərrüatı ilə bilməsə də, bu barədə o, yalnız bu gün Seyrandan və bir dəfə anasından eşitsə də, ağlına gətirə bilmirdi ki, bütün söz-söhbətin, dedi-qodunun səbəbkarı bacısıdı. O, bütün hörmət-izzəti, ehtiramı aradan götürmüş, geriyə çəkilməsi mümkün olan körpüləri öz əlləri ilə uçurmuşdu, yandırmışdı. Hərəkətlərindən nəinki peşmançılıq keçirdiyi hiss olunurdu, əksinə, özünə, əməllərinə haqq qazandırırdı. Tubuda qəribə əxlaq yaranmışdı. Onun üçün ana da, qardaş da, ər də, qayınana-baldız da adi adamlar idilər. Tanış-bilişlərin, qohumların onun əxlaqına verdikləri qiymətin də elə bir təfavütü yoxdu. Tubunun





bir prinsipi vardı: “Hər kəs özü üçün yaşayır”. Hümmət birdən hiss elədi ki, soyuq onu alır. O, qayıdıb otağa keçdi. Haçandan-haçana Qəhmər öz-özünə dedi: “Övlad çox şeyin fərqinə varmır. Bəzən ağlına da gətirmir ki, gördüyüm işin sonu nə ilə qurtara bilər. Taleyi ilə bağlı həyəcanlarımı duymur, dəyərləndirmir. Gəlin Şəfəq kimi olar. Bircə dəfə bircə kəlməsindən inciməmişəm, küsməmişəm. Atalar yaxşı deyib, “Quyuya su tökməklə sulu olmaz, gərək quyunun özündə su ola”. Ərini də başının tacı hesab eləyir Şəfəq. Onu doğana min rəhmət. Şəfəqin taleyini yazanda Allah üzünə baxıb Hümmətin. Çox şükür sənə, xudaya, heç olmasa Hümmətdən şükranlıyam...“

Səhərdən göyün üzündə uçuşan buludlar çəkilmişdi. Səma apaydın görünürdü. Günəş ziyasını hər yerə səpələmişdi. Həyət-bacaya baxanda adamın qəlbi riqqətə gəlirdi. Hikmət beşiyində mışıl-mışıl yatmışdı. Qəhmər pəncərəyə yaxınlaşıb üstdən aşağı yaşadıqları binanın həndəvərini seyr elədi. Qonşu qadınlar uşaqlarını, nəvələrini götürüb həyətə düşmüşdülər. Balacaların dairə vurub “atdı-tutdu”, “siçan-pişik”, “top kimdə qaldı” oyunları Qəhmərə həmişəkindən daha qəribə göründü. Öz-özünə düşündü ki, bir az böyük olsaydı, yerisəydi, ağlı söz kəssəydi, o da nəvəsinin əlindən tutub aşağı düşərdi. Özü qonşu qadınlarla ordan-burdan söhbət eləyərdi, nəvəsi də həyət uşaqları ilə oynayardı. Qonşular yanında bəhanəsi də olardı ki, nəvəmi təmiz havaya çıxarmışam; uşaq saf hava alsın, tay-tuşları ilə oynayıb qəmi dağılsın, ürəyi sevinsin, o yan-bu yana qaçıb qol-qıçı açılsın... Qəhmər pəncərənin qarşısından çəkildi. Üzünü gəlininə tutaraq: — Bəlkə, mən aşağı düşüm, günəşli gündü, bir az hava alıb gələrəm, — dedi. Şəfəq çiyinlərini çəkdi. Əslində, bu qayınanasının havaya çıxmasına etiraz etmədiyinə bir işarə idi. Qəhmər paltarlarını, ayaqqabısını geyinib otaqdan çıxdı. Şəfəq xəstəxanaya getməzdən əvvəl şkafın yuxarı gözünə qoyduğu yarımçıq qalmış tikmə-boxçasını götürdü, gətirib mətbəxdə stolun üstünə qoydu.

Sonra da açıb içəridən son tamamlama işləri qalmış tikməni, rəngbərəng, nazik, zərif ipək sapları, iynə və bir də sarı qızılı rəngli oymağı çıxartdı. Sap kələflərini bir-birinin yanına düzdü. Onların arasından yaşıl rəngli sapı götürdü və onun ucunu iynənin deşiyindən keçirtdi. Əvvəl atdığı ilmələrə diqqətlə baxdı. Tikişə hardan və necə başlayacağını müəyyənləşdirdi. Rəngbərəng saplardan atdığı zərif ilmələrlə ağ parçanın üstündə əlvan, ağlagəlməz, heyrətamiz lövhələr yaratmışdı. Adama elə gəlirdi ki, hər ilmə, çəkilən əlvan naxışlar mahir rəssamlıq sənətinin ayrı-ayrı nadir inciləridi. İlmələrin ölçülü-biçiliyi, çalınan ilmələrin ahəngdarlığı insanda bənzərsiz, ecazkar duyğular oyadırdı. Şəfəq tikili üzərində elə həvəslə, aludəliklə işləyirdi ki, sanki o, bir anlığa özünü də unutmuşdu. Onun bütün fikri-düşüncəsi fantaziyasını olduğu kimi ağ parça üzərinə köçürmək idi. Ona görə də bu gəlin bütün istedad və bacarığını, hiss və duyğularını, mənəvi dünyasını nümayiş etdirməyə çalışırdı. Onun aləmində böyük həvəslə yaratdığı bu əlvan naxışlar da hardasa, rəssamlıq, heykəltəraşlıq sənətində olduğu kimi yetkin, kamil əsərlərdəndi. Xalq yaradıcılığının inkarolunmaz ən gözəl nümunələrindəndi. Tikmələrdə onun iç dünyası, gözəlliyə olan hədsiz münasibəti, təbiətə sonsuz vurğunluğu açıq-aydın özünü göstərirdi.

Hələ kiçik yaşlarında çəkdiyi şəkillər, toxuculuq üzrə oxuduğu peşə məktəbində Əfşan müəllimədən aldığı rəssamlıq sənətinin sirləri, parça üzərində işləməyin texnologiyası, istehsalatda Yasəmən xanımdan aldığı məsləhətləri indi onun harayına çatırdı.

Bütün bunlar üçün o, Əfşan müəlliməyə də, Yasəmən xanıma da özlüyündə dəfələrlə təşəkkürünü bildirmişdi. Çətinliyə düşəndə, çıxış yolları axtaranda sənət xeyirxahlarının məsləhət və tövsiyələrini xatırlamağa çalışırdı. Hər dəfə də axtardığını tapanda sevincinin, fərəhinin həddi-hüdudu olmurdu Şəfəqin.

Mövzunun cəlbediciliyi, məzmun orijinallığı, yanaşma üslubu, kompozisiyasının sadəliyi və təbiiliyi adamda xoş ovqat oyadırdı.





Böyük aludəliklə başı tikişə qarışan Şəfəq qayınanasının həyətdən nə vaxt qayıtdığını bilmədi. Qəhmər gəlinin tamamlamaqda olduğu tikməsinə baxıb heyranlıq hissi keçirtdi: — Vallah, əllərin qızıldı, — deyə çöhrəsində zərif təbəssüm yarandı bu qadının. O, handan-hana sakit və böyük canıyananlıqla dedi:

— A qızım, bu səni yorar, dincliyini əlindən alar, qocaldar.

Şəfəq astadan gülümsündü, sonra da bildirdi:

— Mənim üçün ən yaxşı dinclik, istirahət bu tikişlə məşğul olmağımdı. Yaxşı, uğurlu tikiş alınanda özümü dünyanın xoşbəxti sanıram.

— Tikişə başlayanda sən yemək-içməyini də, hətta, özünü də unudursan, qızım.

— Hə, düz deyirsən, ana.

— Təmiz aç tikməni, görüm, necədi?

Şəfəq sap kələflərini kənara itələdi. Bayaqdan dizi üstə işlədiyi tikməni stolun üstünə sərdi. Qəhmər əvvəl gözlərinə inanmadı. Dümağ parça üzərində heyrətləndirici təsvir! Arxa planda cəngəllik. Sol tərəfdə yamyaşıl tala. Var gücü ilə ağzını açan, uzun, əyri, qılınc kimi dişlərini qıcıyan, gözləri qızaran xallı pələng cəngəllikdən çıxmaq üzrədi. Talada isə pələngdən xəbərsiz ceyran öz balasını döşünə alıb boyun-boğazını yalayır. Bir qədər uzaqda — sağ tərəfdə ovçu pələngi nişan alıb.

Hadisə elə məharətlə təsvir olunmuşdu ki, qayınana ixtiyarsız halda içini çəkdi. Deyəsən, bu qadının çəməndə təsvir olunan analı, balalı ceyranlara yazığı da gəldi. Bir an içərisində elə düşündü ki, bu, hansısa, mahir fırça ustasının kətan üzərinə köçürdüyü lövhədi. O, sonra dümağ kətan üzərinə atılan ilmələri görəndə ürəyi quş kimi uçundu və iftixar hissi ilə dedi:

— Bu nədi, Şəfəq? Səndə böyük istedad var. Bunu hardan öyrənmisən?

— İstedadımın olub-olmamasını bilmirəm. Bunu mənə peşə məktəbində öyrədiblər.

* * *

Axşama az qalırdı. Günəş öz şüalarını yığıb getdikcə yerini qaramtıllaşan bir pərdə alırdı. Axşamın düşməsinə bənd olduğundan otağa da əcaib qaranlıq çökürdü. Hümmət işdən yenicə qayıtmışdı. O: — Bərk yorulmuşam, — deyə mızıldandı, anasının əlini əlinə aldı, sığalladı, sonra da üstündən öpdü. Anası: — Saqqalın ağarsın, ürəyimi yamanca yumşaltdın, — dedi. Şəfəq də, Hümmət də güldülər. Qəhmər ayağa qalxıb Şəfəqin tikməsini götürüb stolun üstündə boya-boy sərdi. Hümməti heyrət bürüdü. Xeyli baxandan sonra ərinin sual dolu gözləri arvadının üzünə dikildi. Şəfəq ərinə qaş oynadıb bir balaca qımışdı da. Hümmət dedi:

— Belə getsə, Şəfəqi oxutmalı olacam.

Qəhmər:

— Lap yaxşı, oxuyanlar Şəfəqdən artıq deyillər ki?

Hümmət dönüb arvadına göz vurdu:

— Oxudaram, ancaq sonrasından qorxuram.

— Nədən qorxursan?

— Məni bəyənməyəcəyindən.

— Şəfəq elə bala deyil. Səni bəyənməsəydi, gəlməzdi ki.

Şəfəq utana-utana:

— Anam düz deyir. Allah məni Hümmətsiz bircə gün də yaşatmasın. Mənə ucuz ölüm versin.

Qəhmər:

— Allah eləməsin, qızım.

Hümmət əlini tikmə üzərində gəzdirdi. Vurulan naxışlara, çalınan düyünlərə, rənglərin əlvanlığına, xanələr, xallar arasındakı ölçülərə baxdı. — Əhsən, — dedi.





Hümmətin verdiyi bu qiymət Şəfəqə dünyanın özündən də dəyərli idi. Sevincdən gözləri yaşardı. Qayınanası başa düşməsin deyə o, üzünü bir anlığa yana çevirdi.

Şəfəq əri üçün bir stəkan çay süzdü. Hümmət çayın soyumasını gözləmədən bir qurtum ağzına aldı. Çay isti olduğundan onu nə boğazından keçirə, nə də ağzında saxlaya bildi. Özünü ələ ala bilməyib çayı geri qaytardı: — Ağzım yandı, — deyə ufuldamağa başladı. Hümmətin gözləri yaşarmışdı. Ana oğluna — Yekə kişisən, sənin tayların dünyanı idarə eləyir, sənsə özünü apara bilmirsən, — dedi. Anasının məzəmmətinə zarafatla cavab verməkdən başqa çarəsi qalmayan Hümmət gülə-gülə bildirdi:

— Dünyanı idarə eləyənlər hökumət kreslosunda əyləşirlər, mənsə dərzi stolunda.

— Nə olur-olsun, insan gərək özünü idarə eləməyi bacarsın.

Şəfəq ərini qəsdən sancdı:

— Özünü apara bilməmək Hümmətin köhnə peşəsidi.

Hümmət:

— Əcəb işə düşdük də. Balam çay mənim, ağız mənim. Necə içərəm, özüm bilərəm. Axı sizə nə var?

Qəhmər:

— Qorxasan, oğlu da özünə oxşaya.

Hümmət:

— Oğul atasına oxşar da. Necə ki, mən rəhmətlik atama oxşayıram.

— Rəhmətlik atan ayrı kişiydi. Ondan danışma, bala. Atanın yemək-içməyi də, duruşu, oturuşu da, gəzişi də hamıya nümunəydi.

— Hə, təriflə ərini. Şəfəq hardan bilsin ki, doğrudan da, qayınatası nümunəvi kişi olub?

Şəfəq:

— Anam deyirsə, deməli, elədi.

Hümmət:

— Balam, təriflədiyiniz o, kişinin də ciyərparası mənəm də...

Hümmət pəncərəyə yaxınlaşdı. Külək olmasa da, göyün üzündə tək-tək buludlar uçuşurdu. Binaların mənzillərində yanan elektrik lampaları Hümmətə lap uzaqda parlayan zəif ulduzları xatırladırdı. Aşağıda yarpaqlarını tökən şah budaqlı çinar, qovaq ağacları çılpaq qaldığından onların diblərinə tökülən yarpaqlar qaralıb ayaqlar altına sərilən köhnə, nimdaş, cındır şəlpələrə bənzəyirdi. Bir qədər o tərəfdə — səkilərdə soyuqdan palto və ya plaşının yaxalığını qaldırıb donuşa-donuşa gedən adamları gördü. Soyuğa məhəl qoymayan, çiynindən çanta asıban məktəbdən evə qayıdan məktəbliləri görəndə özünün uşaqlığı yadına düşdü. Bax beləcə, xəyal öz şirin qanadlarının ağuşunda Hümməti çəkib lap uzaqlara apardı. "Bu yaşda mən də, tay-tuşlarım da soyuğun, şaxtanın nə olduğunu bilməzdik. Valideynlərimizin qadağalarına baxmayaraq, bəzən ayaqyalın, mayka-tumanla həyət-bacada gəzərdik. Lap qar üstündə qaçardıq. Soyuqdan, şaxtadan yanaqlarımız qıp-qırmızı qızarardı. Nəfəsimiz ağzımızdan paravoz tüstüsü tək çıxıb başımız üzərində burula-burula havaya qalxardı. Canımız da buz baltası kimi möhkəm. Salamatlıq olsun. Hamının övladını Allah bəladan hifz eləsin. Mənim oğlum da onların içində. Bir neçə ildən sonra qaqaş da çantasını bax beləcə, bu uşaqlar kimi, çiynindən asacaq, dərdsiz-sərsiz, deyə-gülə məktəbdən evə qayıdacaq. Qapıdan içəri girən kimi palto-papağını soyunacaq: — Ana, acmışam, mənə yemək ver, — deyəcək. Şəfəq də sevinə-sevinə məktəbdən gələn oğlunun üz-gözündən öpəcək: — Dərsindən neçə almısan, oğlum, — deyə, soruşacaq. Hikmət də böyük qürur və fəxrlə: — Əla, — deyəcək. Sonra da Şəfəq oğlunun üzündən yenidən öpəcək: — Ağıllı balasan, — deyə bildirəcək".

Gözlənilmədən Hümmətin bayaqkı xoş əhval yaradan düşüncələri qırıldı. Nəzərləri məchul bir nöqtəyə dikildi. Handan-hana özünə gəldi. "Eh", — deyə düşüncələrin axarında bayaqkı fikirlərin əksinə addımlamağa başladı. — Qəribəyik, biz insanlar. Nə olsa, ağına-bozuna baxmadan fikirləşirik. Mənə elə gəlir ki, uşaqlıq çağlarında dünya bizim, yaşa dolduqca biz dünyanın oluruq. Qocalıb əldən düşəndə müvazinətimizi itiririk. Həyatın əsirinə çevrilirik. Onun qulu oluruq. Hara çəkir, ora da gedirik. Nədəndi, bilməm?





Qocalanda nəinki nazik geyinmək, hətta adam olan-qalanını əyninə çəkib ürəyi istəyən vaxt həyət-bacaya düşə də bilmir. Elə mənim anam kimi. Ömrünün böyük bir hissəsi ahu-zar içindədi. Gah o üzünü tutur, gah da bu üzünü. Görəsən, xəstələnmədən, ağrı-acı keçirmədən, dava-dərmana möhtac olmadan insanlar ömürlərini başa vura bilməzlərmi? İnsanlara zülm, istibdad gətirən xəstəlik, şikəstlik, kasadlıq olmayaydı. İnsanlar bir-birilərinə can deyib, can eşidəydilər. Heç kəs heç kəsin pisini istəməyəydi, paxıllığını çəkməyəydi... Xəyanət, yaltaqlıq, yalançılıq, qorxaqlıq, ikiüzlülük, riyakarlıq, bədxahlıq olmayaydı. Kimsə kimsənin malına, cibinə göz dikməyəydi...

Keçmə bu dünyanın işlərindən... Çox zaman hissə qapılırıq... Özümüzə bəzən güvənirik. Vicdanımızı satırıq. Haqqı nahaqqa boğdururuq. Qan tökürük. Adam öldürürük. Cani oluruq... Sonra da başlayırıq iblisanə düşünməyə. Özümüzə haqq qazandırmağa, haqsız əməllərimizə qanundan don biçməyə, sifətimizi haldan-hala salmağa, xülya içərisində yaşamağa. Nadanlığımızı dərk eləmədən özümüzü dünyanın məşhur bilicisi sanırıq. Təəssüf!.. Çox təəssüf!..

Mən dərzi Hümmətəm. Dünyadan o qədər xəbərsiz də deyiləm. İnsanların əməlinə az-çox bələdəm. Ancaq mənə heç kəs haqq qazandırmır, Allah da mənə izn verməmişdir ki, həyat barədəki təsəvvürlərim kəm-kəsirli olduğu halda, böyük filosoflara ağıl öyrətmək iddiasına düşəm. Yaxşı tutaq ki, bunu filosof götürdü, görəm Allah da götürərmi?.. Məncə, yox. Bəlkə bu yaramaz xislətimizə görə Allah xəstəlikləri, şikəstlikləri göydən

yerə endirib, “Cəzanızı çəkin” — deyir...

Şəfəqin: — Pəncərənin qarşısında nə qədər dayanacaqsan, — deməsi ərini düşüncələrindən ayırdı. Hümmət geri dönüb gülümsündü.

— Deyirəm, bir zaman gələcək, Hikmət də qonşu uşaqları kimi çanta götürüb məktəbə gedəcək.

Qəhmər özünü saxlaya bilməyib ucadan güldü:

— İnşallah böyüyəcək... Əsgər gedəcək... Qız istəyəcək. Evlənəcək... Arvad-uşaq sahibi olacaq. Böyük vəzifə tutacaq...

Şəfəq:

— Heç bilməzdim, ana. Hümmət əcəb fanatikdi.

Qəhmər:

— Boy... Fanatik niyə olur. Dediklərimiz həyatın özüdü. Ancaq vaxt lazımdı, zaman gərəkdi, qızım, istəyimizə çatmaq üçün.

Şəfəq bir qədər narazı halda:

— Elə deməyin, uşaq dilə-dişə düşər. Bəd nəzərə gələr, göz kəsər.

Hümmətlə Qəhmər ucadan güldülər. Şəfəq daxilən yüngül sıxıntı keçirdi. Ani olaraq dayandı. Sonra o da astadan gülməyə başladı. Qəhmər:

— Qızım, elə danışma. Eşidən-bilən barəndə yaxşı düşünməz.

Elə bu vaxt qapının zəngi çalındı. Hümmət gedib qapını açdı. Gələn qapıbir qonşuları Siyatel qarı ilə onun gəlini Məhsəti idi. Qadının yetmişə yaxın yaşı olardı. Dümağ saçlarını arxaya daramışdı. Başına qara çarşab örtmüşdü. Əyninə köhnə, dirsəkləri süzülmüş yaşıl yun jaket geymiş, bəstəboy, qurğaz bu qadının bəyaz üzündəki, geniş alnındakı dərin qırışlar ömrün-günün əzab-əziyyətdə, çətinliklər içərisində keçməsindən xəbər verirdi. Onun boğaz damarları çıxmış, balaca, göy gözləri çuxura düşmüşdü. Siyatelə baxan ona sinnindən xeyli çox yaş verərdi. Çətinliklərinə baxmayaraq, Siyatel hamı ilə çox səmimi və mehriban idi. Çalışardı ki, kimsənin barəsində güldən ağır söz deməsin. Qeybət, artıq söz-söhbət nəinki eləməzdi, olunan yerlərdə belə ləngiməzdi. Arxasında sıxıla-sıxıla dayanan Məhsətinin iyirmi üç-iyirmi dörd yaşı olardı. Hümməti görcək utandığından yanaqları qızarmışdı. Uca boylu, nərmə-nazik bu gəlinin qan yığılmış nazik dodaqları gülümsəyəndə qönçəni xatırladırdı. Əyninə geydiyi boz kostyum ona çox yaraşırdı. Kağıza bükülünü irəli çıxmış döşlərinə bərk-bərk sıxmışdı. Siyatel Hümməti görən kimi: — Axşamınız xeyir, olarmı, qonşu? — deyə dilləndi. Hümmət gülümsündü:

— Aqibətiniz xeyir. Xoş gəlmisiz, buyurun, buyurun.

Qonşular içəri keçdilər. Qonaq gəlişini duyan Qəhmərlə Şəfəq tez dəhlizə çıxdılar. Gələnlərin qonşular olduğunu görcək ev sahibələrinin gözlərində sevinc, üzlərində təbəssüm duyuldu. Gülərüzlə qarşılaşma gələnlərdə ilk baxışdan xoş təəssürat yaratdı. Qəhmər dedi:

— Nə yaxşı gəlmisiz, ay Siyatel? Həmişə siz gələsiz!

— Hamınızı təbrik eləyirik. Gözü dolu görəsiz.

— Çox sağ olun. O gün olsun sizin də qapınızı biz də belə döyəcləyək.

Siyatel əvvəl Şəfəqi, sonra Qəhməri qucaqladı. Qayınanasının hərəkətlərini eynilə Məhsəti də təkrarladı. Siyatel sözünə davam elədi:

— Gəlini xəstəxanaya necə aparıb gətirmisizsə, xəbərimiz olmayıb. Xəstəxanaya gedərdik. Vəziyyəti öyrənərdik.

— Özümüz əziyyət vermək istəmədik. Ayaq üstə dayanmayın. Keçin evə. Qalanını orda danışarıq.

— Keçəcəyik. Əvvəlcə de görüm oğlandı, qızdı?

Hümmət dərhal:

— Oğlandı.

Otağı gülüş səsləri bürüdü. Əyləşən kimi Siyatellə Məhsəti təzəcə yeyib-içdiklərini, heç bir şeyə ehtiyacları olmadıqlarını

bildirdilər.

Siyatel əlavə elədi:

— Qonşu olsaq da, iş-güc başımızı elə qatıb ki, bir-birimizdən xəbər tuta bilmirik.

Məhsəti:

— Şəfəq, uşağı gətir, baxaq.

Şəfəq gülümsündü.

Qəhmər dedi:

— Gətir körpəni, xalaları baxsınlar.

Şəfəq uşağı qucağına aldı. Körpə qucağa alındığını hiss etməsindənmi, yuxudan kal oyanmasındanmı, yaxud acdığındanmı nə isə başını yüngülcə tərpətdi, üz-gözünü turşutdu, dodaqlarını büzdü. Şəfəq oğlunun bu hərəkətlərini görcək "Can" demək istədi, ancaq qayınanası və qonşularından çəkinib: — Bu qız lap sıntarıbdı deyərlər, ayıbdı, — deyə düşündü. Heç bir söz demədən Hikməti gətirib Məhsətiyə verdi. Qonşu gəlin də körpəni alıb: — Sənə xalan qurban, ağız-burnunu nə yaman büzmüsən, — dedi və onun üzünü qayınanasına çevirdi. Siyatel körpəni Məhsətidən alıb uşağın üzündən öpdü. Bir az yuxarı qaldırdı. O, üzünü Qəhmərə tutaraq: — Lap özünüzə oxşayır, — dedi. Qəhmər dərhal dilləndi:

— Bilirsən, evə çatan kimi nə dedi? Böyüyəndə Siyatel xalanın nəvəsini alacam. Düzdü, sənin nəvən mənim Hikmət balamdan üç ay böyükdü. Bir halda ki ürəyi istəyir, sevir, Allah mübarək eləsin. Yadında saxla, indidən nəvənin elçisiyik ha!

— Biz razı. Ancaq nişan üçün ağır-yüngülünü bəri-başdan eləyin. Sonra daldalaya bilərsiz.

— Nənələr də, nəvələr də razı. Görəsən, ata-analar nə deyəcəklər?

Məhsəti gülümsündü:

— Nənələr deyənə ata-analar nə deyəcək ki?

Qəhmər:





— Allah mübarək eləsin.

Otağı qəhqəhə səsləri bürüdü. Məhsəti özünü saxlaya bilməyib dedi:

— Bizi tanımayan adam qapı arxasından söhbətimizi eşitsə, elə biləcək ki, həqiqətən bura elçiliyə gəlmişik.

Siyatel:

— Bala, elədi də. Biz qadınlar varıq ha, dəhşətik. Oğul, qız, fərqi yoxdu. Övladımız ki oldu, fikrimiz-zikrimiz ona yar axtarmaqdı. Elə ki uşaqlar böyüdü, dırnaqları ovuclarına batan oldu, sonra düşünürük: — Əcaba, görəm, bundan yaxşısı varmı? Vay o günə ki yaxşısı ola. Əgər oldusa, əvvəlki əhdi-peymanı elə o saatca da pozuruq. Yoxdusa: — Sözümüz, sözdü ha — deyirik. Yazıq kişiləri də salırıq oyuna.

— Düz deyirsən, vallah. Mənim kişilərə yazığım gəlir. Onların hamısı çoxbilmiş qadın hiyləsinə aldanır, qadının saman altından necə su yeritməsindən xəbərsiz olurlar. Heç ağıllarına da gətirmirlər ki, gördükləri işlərin əsasını qadınlar qoyurlar...

Qəhmər gülümsünərək nəvəsini Siyateldən aldı. Körpənin üz-gözündən öpdü, sonra: — Beşiyə qoy, narahat olmasın, — deyib uşağı Şəfəqə verdi. Siyatel otağa girərkən divanın küncünə qoyduğu kağız bükülünü götürüb Şəfəqə tərəf uzatdı:

— Ay Şəfəq, bunu Məhsəti xalası kürəkəninə gətirib. Bir dəst paltardı. Geyindirərsən oğluna, göndərərsən bizə. Nəvəmlə də tanış olarlar...

Şəfəq utandı. Əvvəl nə deyəcəyini bilmədi. O, ixtiyarsız halda bükülünü aldı. Sıxıla-sıxıla təşəkkür eləyib onu stolun üstünə qoydu.

Qəhmər:

— Zəhmət çəkmisiz.

— Sizə gətirməmişik ki. Öz kürəkənimizdi də. Qəhmər macal vermir ki, soruşaq kürəkənimizin adı nədir?

— Hikmət. Rəhmətlik babasının adı. Ata-baba yurdunda çı-

raq yandıran olacaq.

— Təki elə olsun.

Qayınanaların söhbətinə qulaq asan gəlinlər hərdənbir gülümsəyir, bəzən də "hə", "hə" deyə başları ilə onların sözlərini təsdiqləyirdilər. Haçandan-haçana Şəfəq dedi:

— Çayınız soyudu, dəyişimmi?

Siyatel:

— Yox, qızım. Qəhmərlə biz günümüzü görüb, ömrümüzü sürmüşük. Allah sənə də, körpənə də sağlam ömür versin. Can deyib, can eşidəsiz. Bircə balanız arxa-dayağınız olsun.

Məhsəti:

— Niyə bircə bala? Hələ...

Qəhmər:

— Məhsəti düz deyir. Azərbaycanlılara bir uşaq nədi ki? Gəlinlərə dil vermə, Siyatel. Uşaq nə qədər çox olsa, o qədər yaxşıdı. Bizdən böyüklər də, elə bizim özümüz də heç vaxt övlad çoxluğundan şikayətlənməmişik. Doğulan uşağın ruzusunu həmişə Allah özü verir. İndiki cavanlardan danışma. Dərd-sərdilər. Bir uşaqları olan kimi deyirlər bəsdi. Uşaq saxlamağı, övlad tərbiyə etməyi özlərinə əzab-əziyyət sanırlar. Hətta, düşünürlər ki, onu kim saxlayacaq? İkincisinə hamilə olan kimi qaçırlar həkimə. Həkimlər də qəribə adamdılar. Oturub düşərlərini gözləyirlər. Pullarını alan kimi ağına-bozuna baxmadan qaldırırlar arvadları abort stoluna. Elə bil qəssabdılar, gözlərinə yel dəyməyə qoymurlar. Əlüstü anaları uşaqdan azad eləyirlər. Hamiləlikdən qurtaran kimi başlayırlar forma saxlamağa. Qanmırlar ki, uşaqsız qadın barsız ağacdı.

— Hələ sən deyənlər harasıdı, ay pir olmuşun qızı. İlk uşağa qalanlar da sən deyən yoldadılar. Axırını Allah saxlasın.

Məhsəti:

— İndi iş yox, güc yox. Bir loxma çörək dağ başına çıxıb. Adamlar qarın dolusu çörək tapmırlar. Bəs, bu uşaq barədə necə





düşünsünlər? İş təkcə bu günlə bitmir ha. Onun sabahı da var. Uşaq böyüdükcə dərd-səri də böyüyür. Özü də necə? Oxuması. Evlənməsi. İş axtarması. Ev sahibi olması. Yazıq ata-ana neyləsin?

Şəfəq:

— İmkanlı ailələrə nə var ki? Onlar üçün uşağa qayğı göstərmək çətin deyil. Amma kasıblar görəndə ki, onun uşağı başqasınınkı kimi geyinib-keçinə bilmir, əzab-əziyyətlər içərisində böyüyür, dərdi-sər içərisində boğulur, fəlakət onda başlanır. Ata, ana yüz dəfələrlə ölüb-dirilir. Uşağından imtina eləyən ata, ana azdımı? Televizorda neçə dəfə bu barədə deyiblər.

Məhsəti:

— Şəfəq düz deyir. Belə olanda adam dünyaya gətirdiyi körpəsi üçün də az qala peşmançılıq hissi keçirsin.

Qəhmər bir qədər əsəbi halda dilləndi:

— Nə danışırsız, qızım? Başınız xarab olub, nədi?

Siyatel sakit və təəssüf hissi ilə dedi:

— Acı da olsa, həqiqət gəlinlər deyəndi, Qəhmər. Mən də çox təəssüf eləyirəm. Bu cinayət dolu məsələni dövlət özü tənzimləməlidi. Necə ki...

Qəhmər:

— Müvəqqətidi. Belə şeylər çox olur, Siyatel. Çox çəkməz. inanıram ki, bu Allahsız hərəkətə son qoyulacaq. Mənə elə gəlir ki, uşaqdan imtina eləmək yerdə insanlığa, göydə Tanrıya qarşı xəyanətdi. Xəyanətsə cinayətdi. İnsan əgər, doğurdan da, insandısa, nəsil artırmalıdı, uşaq tərbiyə etməlidi. Nəinki... Doğrusu, sizin sözlərinizi dinlədikcə vahimələnirəm. Sizə yalvarıram. Belə fikirləri başınızdan atın... Ola bilər ki, bu gün mənimlə razılaşmayasız. Ancaq inanıram ki, zaman gələcək, belələri peşman olacaqlar. Yanıb yaxılacaqlar. Onda da gec olacaq...

Məhsəti:

— Doğrusu, siz anamla danışanda, Qəhmər xala, mən fərəh-

lənirəm, sevinirəm. Ancaq neyləyək ki, bu günkü həyat siz deyənlərin əksini diqtə eləyir. Axşam televizorda diktor qızın dediklərini eşitdinizmi?

Qəhmər:

— Yox! Nə dedi ki?

— Bir nəfər ana yenicə doğulmuş övladını zibilliyə atıb. Belə eləməkdənsə, uşağı dünyaya gətirməmək yaxşıdı.

— Görünür o qadın xəstədi. Normal, ağlı başında olan adam elə eləyə bilməz.

Şəfəq:

— O, əxlaqsızlıqla bağlıdı.

Qəhmər gəlininin sözünü təsdiqlədi:

— Mən də elə düşünürəm. Körpənin bircə baxışı, bircə gülüşü, dil açıb dediyi ilk kəlməni bir dünyaya dəyişmərəm.

Siyatel ani olaraq gəlininin üzünə baxdı. Gəlin qayınanasının fikrini dərhal başa düşdü və gözləri ilə "getməyə hazıram" işarəsini verdi. Bu, ev sahibələrinin də diqqətindən yayınmadı. Qəhmər dərhal dedi:

— Gecə uzun, biz də işsiz-gücsüz.

— Uşaqlara kişi baxır, yəqin onu bezikdiriblər.

— Tez-tez gəlin.

— Atalar yaxşı deyib: "Südlü aş yaxşı şeydi, bir gün sizdə, bir gün bizdə".

Qonaqlar xudahafizləşdilər...

* * *

Hava getdikcə sərtləşirdi. Qalxmaqda olan külək adamın üz-gözünə çırpılırdı. Qəhmər bir anlığa binanın çıxacağında dayandı. Göyə baxdı. Buludlardan göyün üzünə elə bil pərdə çəkilmişdi. Qadın istədi fikrindən dönsün. Bu gün Tubugilə getməyi təxirə salsın. Sonra da fikirləşdi ki, Hümmət Tubunun taleyin-





dən, dolanışığından narahatdı. Yaxşısı budu, gedim onları başa salım, vəziyyəti bir yola qoyum. Yoxsa, belə getməz. Bu fikirlər içərisində Qəhmər qızıgilə necə gəldiyini bilmədi. Onu qapı ağzında qudası Mirvari xanım qarşıladı. Dolu bədənli, uca boylu bu qadının altmışa yaxın yaşı olardı. Başına çoxdan qoyduğu hənanın rəngi solduğundan saçının ağarması aydın hiss olunurdu. Mirvari qudasını görcək çox sevindi. Qudalar öpüşüb-görüşdülər. Mirvari: — Nə yaxşı gəlmisən, Qəhmər bacı? — deyə onu evə dəvət elədi və dedi.

— Səni təbrik eləyirəm. Axşam Tubu dedi ki, Hümmətin oğlu olub. Adını da Hikmət qoyubsuz. Allah başacan versin. Xoşbəxt eləsin. Axır ki sən də nənə oldun.

— Vallah oğul da, qız da mənim üçün birdi. Övladdı. Ancaq Hümmət elə sevinir ki, gəl görəsən.

— Niyə sevinməsin ki?!

— Yaxşı, evdə təksən?

— Seyran bazara gedib. Çiçək də məktəbdədi. Səhər deyirdi ki, iki saat dərsi var. İndi gələn vaxtıdı.

— Bəs Tubu?

— Evdədi, yatıb.

"Yatıb" sözünü eşitcək bir söz deməsə də, Qəhmərin sir-sifəti bozardı. Sözünə ara verdi. Gözləri ani olaraq bir nöqtəyə dikildi. Sonra dedi:

— Xəstədi?

— Yox, o bu gün işləmir.

Qəhmər öz-özünə düşündü: — Əcəb işdi. Sabah açılan nə vaxtdı? Gəlin hələ də yatıb. Qayınana, baldız, ər öz işində-gücündə.

Qəhmər ayağa qalxıb səssiz-səmirsiz qızı yatan otağa keçdi. Otağın iki böyük pəncərəsi vardı. Onlardan asılan tünd rəngli pərdələr bayırdan axan işığın qarşısını kəsdiyindən otaq ala-toran görünürdü. Qəhmər qızının hələ də yuxudan qalxmamasına

daxilən əsəbləşdiyindən otaqda olanlara da o qədər diqqət yetirmədi. O, Tubunun yatdığı taxta çarpayıya yaxınlaşdı. Yorğan bir qədər aşağı sıyrıldığından Tubunun ağ ətli sinəsi, çılpaq qolları, boyun-boğazı, bir də çiyinlərindəki diş yerləri apaydın görünürdü. Qəhmər: — Ayıbdı, — deyə düşünüb bir az geri çəkildi. Sonra astadan, — Tubu, Tubu! — deyə qızını səslədi. Bir neçə dəfə çağırmışdı ki, Tubu "hə", "hə" eləyə-eləyə sağ tərəfi üstə çevrildi və qıçını qaldırıb yorğanın üstə qoydu. Dolu bədəni, yoğun ağ baldırı, nə bilim daha harası anasının gözləri önündə açıldı. Ananı dəhşət bürüdü. Yəqin elədi ki, qızı axşamdan yatağa lüt-üryan girmişdi. Bunu görən ana qapıya tərəf çəkildi. Arxası Tubuya yenə də onu çağırmağa başladı. Gəlin yuxudan oyancaq yorğanın ətəyini tələm-tələsik bədəninin açıq yerlərinə çəkməyə başladı. Sonra da: — Ana, sənsən? — dedi. — Keç aynabəndə, mən də geyinib gəlirəm.

Qəhmər otaqdan çıxaraq heç bir söz demədən gəlib stulunda əyləşdi. Mirvari təzə dəmlədiyi çaydan iki stəkan süzüb stol üstünə gətirdi.

— Soyuqda yol gəlmisən. Bir stəkan çay iç, özünə gəl.

Qəhmər dərindən nəfəs aldı və astadan başını bulayaraq bildirdi:

— Dünya yamanca dəyişib.

— Yox, mən elə deməzdim. Dünya dəyişməyib. Dəyişən insanlardı.

— Bizim vaxtımızda...

Mirvari qudasının fikrini anlasa da, özünü o yerə qoymadı. İstədi söhbətin səmtini dəyişsin. Desin ki, hər dövrün öz adamları, onların da öz istəyi, öz hissi, öz duyğusu olur. Biz öz gözümüzlə bu günkü gəncliyə, ya sabahkı cavanlara baxa bilmərik. Baxsaq da, bir-birimizi anlamaq, başa düşmək çətindi. Sonra nə fikirləşdisə, sözünə ara verdi. Qəhməri axıradək dinləməyi lazım bildi. Elə bu vaxt Tubu otaqdan çıxdı. Qəhmər gözucu,





ancaq əsəbi halda qızına baxdı. Tubu anasının acıqlı baxışını görmürmüş kimi həyətə çıxdı. Mirvari dedi:

— Səni bilmirəm, ay Qəhmər, son zamanlar özümü yamanca halsız hiss eləyirəm. Yəqin...

— Nə yəqin, ay qız. Hələ haramızdı? Görünür soyuqlamısan... Yeməyinə-içməyinə fikir ver. Özünü soyuqdan gözlə. Hamısı düzələcək.

— Təki sən deyən olsun.

Tubu əl-üzünü yuyub içəri keçdi. Sonra da qayınanasına müraciətlə:

— Hazır çay varmı?

Mirvari:

— Çayı dəmləmişəm. Soyuducuda pendir, yağ, bal var. Bir az bundan əvvəl Seyran isti çörək alıb.

— Siz yemirsiz?

Qəhmər:

— Mən yox. Yeyib-içib gəlmişəm.

Mirvari:

— Mən də yemişəm.

Tubu yeməyə başlamışdı ki, həyət qapısı açıldı. Seyran əlində iki böyük zənbil içəri keçdi. Ana iti və cəld addımlarla gedib oğlunu pilləkənin başında qarşıladı və zənbilləri alıb gətirdi. Seyran içəri keçcək qayınanasını görüb gülümsədi, irəli yeriyib ona əl verdi. — Səndən nə əcəb, Qəhmər xala? — deyə soruşdu.

— Neçə vaxtdı ki, görüşmürdük. Dedim, şənbə günüdü, gəlim sizinlə görüşüm, anandan da hal-əhval tutum, oğlum.

— Allah imanını kamil eləsin. Eşitdik sizin də nəvəniz olub. O qədər sevinmişik ki? Anamla belə məsləhətləşdik ki, sabah yığışıb gələk sizə. Hamınızı təbrik eləyək. Hikmət bəylə də tanış olaq.

Kürəkənini dinlədikcə Qəhmər daxilən sevindi və astadan

dedi:
— Deməli, sabah şeytanın qıçını sındırmaq fikrindəsiz?
— Onsuz da gələcəkdik.
Seyran peçə yaxın stullardan birində əyləşdi. İsti onu vurduqca bədəni isinirdi. Qəhmər:
— Deyəsən, üşümüsən?
— Hə... Çöldə bərk soyuqdu. Əllərim, ayaqlarım az qala donacaqdı.
— Tubu bir stəkan çay versin, özünə gəl.
Tubu:
— Mən niyə verirəm? Xəstə-zad deyil ki? Çay içmək istəyir, özü süzsün.
Seyran arvadının üzünə baxdı. Kişinin üzündə süni gülüşün cizgiləri yarandı. Tubu bunun təfavütünə varmasa da, Qəhmər utandığından Seyrana tərəf baxa bilməyib gözlərini pəncərədən çölə dikdi. O, handan-hana üzünü Mirvariyə çevirərək dedi:
— Gəl əyləş, söhbət eləyək. Gərək tez gedəm.
— Sən də qəribə adamsan. Çatmamış, özünə gəlməmiş getmək barədə fikirləşirsən.
— Gəlin xəstədi.
Tubu:
— Bəsdi, sən Allah. Yetimçənin əlinin altında az qala mehtər olmusan.
Araya sakitlik çökdü. Hamı bir-birinin üzünə baxdı. Qəhmər dözməyib astadan, sakitcə bildirdi:
— A bala, o xəstədi, uşaqlıdı, zahıdı.
— Ərə gedən uşaq doğar. Quzu, çəpiş doğmaz ki?
Seyran:
— Bu nə danışıqdı, Tubu?
— Əşi, sən sus.
Mirvari:
— Gəlin ailənin üzvüdü. Gərək ona qayğı göstərəsən.





Tubu ani olaraq Mirvariyə tərəf çevrildi və gözaltı ona baxıb saymazyana bildirdi:
— Səhərin gözü açılmamış yenə qanımız qaraldı. Hər gün bir şeylə zəhləm tökülür.
Qəhmər astadan, incik tərzdə:
— Tökülər, qızım, tökülər, bu ağıl ki səndədi.
Tubu üzünü anasına tutaraq:
— Niyə gəlmisən?
Mirvari:
— Sən yox idin, qızım, Qəhmər vardı.
Seyran:
— Günümüz belədi, Qəhmər xala. Hümmətlə də bu barədə danışmışıq.
Tubu acıqlı-acıqlı:
— Əsəbləşdirmə məni, dur bas bayıra.
Seyran da, Mirvari də həmin anda heç bir söz demədən Qəhmərin üzünə baxdılar. Sanki hər ikisinin gözlərindən oxunurdu: “Günümüzə, halımıza bax, qızına qiymət ver”. Tubu əsəbi halda ayağa qalxıb öz otağına getdi. Qəhmər də, Seyran da onu arxadan süzdülər. Qəhmər hamının eşidə biləcəyi bir səslə dilləndi:
— Stolun üstünü kim yığışdıracaq?
Seyran kinayə ilə cavab verdi:
— Anam.
Qəhmər daha dinmədi. Hər şey aydın idi. Daha heç kəsdən heç nə soruşmağa ehtiyac qalmırdı. Xudahafizləşib gedə bilərdi. O nə isə fikirləşdi. Hələ bir az da qalıb gözləməyi lazım bildi. Araya tam sakitlik çökdü. Seyran ayağa qalxdı. Arvadının özünə açdığı süfrəni əri yığışdırdı. Sonra: — Ana, — dilləndi:
— Sənə kömək lazımdımı?
Mirvari:
— Yox, oğlum, sən Qəhmər xalanla söhbət elə, mən də gəlirəm.

Tubu geyinib-keçinib, ənnik-kirşan çəkib qısa yubkada otağından çıxaraq güzgünün qabağına keçdi. Əvvəl papağını başına qoydu. Saçlarını papağın altına yığdı. Paltosunu geyinib saatına baxdı: — Gecikirəm, — deyə düşündü. Pul kisəsini açıb yoxladı. Xudahafizləşmədən gedəndə hamı təəccüblə onun ardınca baxdı. Seyran:

— Xeyir ola, yenə hara belə?

— Rəfiqəmgilə.

— Anan sənin yanına gəlib, bəlkə sənə deyiləsi sözü var? Sən də çıxıb gedirsən.

— Olsaydı, deyərdi. Dünəndən söz vermişəm.

— Öyrənmək olarmı, rəfiqəngildə səndən savayı kimlər olacaq?

— Kişisən də!

— Şübhə eləyirsən?

— Onu özün deyirsən.

— Yaxşı, get, hər şeyin bir sonu var. Özü də lap yaxındadı.

Tubu pilləkənləri enərkən baldızı Çiçəklə qarşılaşdı. Baldız gülümsünərək Tubudan: — Hara belə? — deyə soruşdu. Tubu kinayə ilə: — Cəhənnəmə, gedirsən, sən də gəl, — dedi. Çiçək guya onun dediklərini anlamırmış kimi: — Lap yaxşı, sənə uğur olsun, — dedi. Otağa keçib Qəhmərlə görüşdü:

— Biz sabah görüşəcəkdik. Bizim adımızdan Hümmət qardaşı da, Şəfəqi də təbrik elə.

Çiçək anasına müraciətlə:

— Sən zəhmət çəkmə, ana. Gəl əyləş, Qəhmər xala ilə söhbət elə. Mən evi yır-yığış elərəm.

— Günortaya az qalır, qızım.

— Mən özüm hazırlıq görərəm.

Qəhmər qızı Tubu ilə Çiçəyin hərəkətlərini, Tubunun Mirvariyə, Çiçəyin də özünə olan münasibətlərini gözləri önünə gətirdi, tutuşdurdu, özlüyündə qızına “Ləyaqət və şərəfini itirmiş”





— deyə düşündü. O, için-için ağlayır, yanır, əzab və iztirabdan üzülürdü. Üz tutub dərdini deməyə yeri yox idi. Qəm, qüssə, kədər, həyəcan onu oturduğu yerdəcə boğurdu. Heç kimə heç bir söz demədən durub getsinmi? “Namərd, nadan qızım məni sizin yanınızda üzüqara, diligödək elədi desinmi?” Keçmiş rəfiqəm, indiki qudam qarşısında: “Məni bağışlayın, belə qız tərbiyə eləyib sizə ürcah eləməyimə görə günahkaram”, — deyə diz çökümmü? Lap tutaq ki, Mirvaridən, Çiçəkdən, Seyrandan üzr istədim. Deyək ki, bir anlığa onlar da mənimlə razılaşdılar... Bəs sonrası... Tubu tutduğu yoldan dönəcəkmi? Qayınanasına, baldızına hörmət qoyacaqmı? Ərini qiymətləndirəcəkmi? İnanmıram... İndi geyinib-keçinib yerini, niyyətini bildirmədən getmək ailə üçün ən böyük saymazlıq deyilmi? Gəlinim bunları mənə eləsə, mən götürə bilərəmmi? Hümmət razı olarmı ki, arvadı Tubu kimi hərəkət eləsin? Yox! Niyə hər şeyi öz adı ilə çağırmayım? Qızımın günahkar olduğunu bilə-bilə onun hərəkətlərinə haqq qazandırımmı? Tutaq ki, bir anlığa qazandırdım. Bunlar mənə necə baxarlar? Deməzlərmi ki sən də qızın kimi ifritəsən? Anası çıxan ağacı balası budaq-budaq gəzər?“ Bu fikirlər içərisində Qəhmər sanki nəhəng bir qaya ilə üzləşmişdi. Bəli, irəli sal qaya, yanlar dərin bir uçurum. Neyləsin? Necə eləsin? İrəlimi getsin? Bu, mümkün deyil. Sağamı dönsün? Dibi görünməz dərə... Solamı dönsün? Nəhayətsiz boşluq. Bircə yol qalır. O da geriyə qayıtmaq. Bəs, bu nə deməkdi? Fəlakət!.. Tubu bundan sonra hansı yolları seçəcək? Qardaşı, qardaşı arvadı ilə yola gedəcəkmi? Getsə də, getməsə də, Tubu ata-ana evinə qayıtmalıdı!.. Vəssalam!.. Başqa çıxış yolu tapa bilməyən Qəhmər dedi:

— Mirvari, qoy Çiçək gəlib əyləşsin. Elə Seyran da.

Mirvari astadan qızını çağırdı:

— Gəl əyləş, xalanın sözü var.

Çiçək stul çəkib əyləşdi və Qəhmərin sözünü gözlədi. Çırtma vursaydın, Qəhmərin qanı yerə düşməzdi. O, dərindən kök-

sünü ötürdü. Dodaqları, üz-gözləri titrəyə-titrəyə sözə başladı:

— Mirvari, biz çox yaxın rəfiqə olmuşuq. Həmişə "can" deyib, "can" eşitmişik. Çətinə düşəndə, başımız ağrıyanda bir-birimizə doğma bacı kimi ağız açmışıq. Həyan olmuşuq. Bir loxma çörəyimizi yarı bölmüşük. Sirlərimizi özümüzdə saxlamışıq. Faş eləməmişik. Bizi tanıyanlar da bizə rəfiqə kimi yox, bacı kimi baxardılar. Bu yaxınlığı, rəfiqəliliyi qohumluğa çevirdik. Düşündük ki, ayrılmaz olarıq, yaxşı-pisimizi də yenə özümüz bilərik. Ölümüzün də, dirimizin də sahibi özümüz olarıq. Açığını deyim ki, son vaxtlar mən düşündüyümüzün, elədiklərimizin əksini görürəm. Gördükcə də yanıram, yaxılıram. Yüz dəfələrlə özüm-özümü məzəmmətləyirəm. Ölüb-dirilirəm... Deyə bilərsiz niyə? Dünən Seyranla Hümmət arasında söhbət olub. Tubunun hərəkətlərindən gileylənib Seyran. Hümmət də mənə hamısını danışdı. İndi də məni bura o göndərib. Seyrana mən həmişə "Oğlum" deyə müraciət etmişəm. Həmişə də belə olacaq. Ondan bircə dəfə narazı olsaydım, qohumluğumuz baş tutmazdı. Tubu nə qədər istəsəydi də, mən onu pozardım. Demək istəyirəm ki, Seyran həmişə ürəyimcə olub.

Seyran:

— Mən də sənə anam kimi baxıram.

— Bilirəm, oğlum. Dünən səhər Tubu ilə də danışmışam. Güman eləyirdim ki, söhbətimizdən nəticə çıxaracaq. Bu günkü hərəkətləri onu göstərir ki, qızım dediklərim barədə heç fikirləşməyib də. Məzəmmətlərimdən nəticə çıxarmayıb. Mən anayam. Onu mən doğub ərsəyə çatdırmışam. Tubunun bu ailəyə gəlişinə də ana kimi xeyir-dua vermişəm. Məsuliyyətim var. Ciddi cavabdehlik daşıyıram. Görünür, qızımın tərbiyəsində ciddi səhvə yol vermişəm. İndi də onun bəlasını çəkməli oluram. Gəlişimdən doğmaca qızım narazı qaldı. Dediklərini də eşitdiz. Deməli, mənə də qabadı, kobuddu. Neyləmək olar? Özü bilər. Bir az əvvəl Seyran da dedi ki, hər şeyin sonu var, özü də lap yaxındadı. Seyran düz deyir. Hər şeyin həddi var. Atalar yaxşı deyib: "Su boğaza çıxanda meymun balasını ayaqları altına alır". Bəli, doğrudan da, belədi...





Seyran:

— Qəhmər xala, təkrar eləyirəm, mənim anamsan. Mən getməliyəm. Bir azdan idarədə olmalıyam. Axıradək səni dinləyə bilmədiyim üçün üzr istəyirəm. Son iki ayda Tubunun hara getdiyini və hardan gəldiyini bu ailədə heç kəs bilmir. Hər şeyi dünən Hümmətə demişəm. Daha bundan beləsi yoxdur. Sizə də, Hümmətə də böyük hörmətim var. Ancaq arvadımdan, Hümmətin bacısından, sənin qızından bezmişik. Evdə kişi söyüşləri söyür. Yersiz dedi-qodu bizi çərlətdi. Sabah açılanda evdən çıxıb bir də qaş qaralanda gəlirəm. Bir tikə çörəyim mənə zəhər olub. Nəinki gəlin olub ev-eşiyə baxmaq, heç mənim pal-paltarımdan da xəbəri yoxdu. Soruşanda ki, niyə belə eləyirsən? Deyir, mən bura nökər gəlməmişəm. Qul deyiləm. Paltarlarınızı da özünüz yuyub, özünüz ütüləyin. Bunlara dözmək olar? O, neçə dəfələrlə anamı təhqir eləyib. Bacımı saçlayıb, döyüb. Səbəbini soruşanda: — Sən də kişisən? — deyir. Biz ağ deyəndə, o, qara deyir. Yaxşı desək, pis deyir. Neyləyək, bilmirik. Mən onu bu günlərdə yığışdırıb aparacaqdım sizə. Hümmətin oğlu olduğunu eşitdim. Sevincinizə zəhər qatmaq istəmədim. Düşündüm ki, bu məsələyə bir-iki həftədən sonra qayıdaram. Bizimki tutmadı. İndi mən gedirəm. Anamla, bacımla söhbətinizi davam elətdirin.

Seyran xudahafizləşib otaqdan çıxdı. Araya dərin bir sükut çökdü. Mirvari dilləndi:

— Hər şeyi özün dedin, bacım. Hansı ana istəyər ki, oğlunun ailəsi dağılsın? Kim istəyər ki, evində, ailəsində yersiz söz-söhbət, dığ-dığ olsun? Əzab-əziyyətlə tapdığı bir loxma çörəyi özünə zəhər eləsin? Hər günü əzab içində keçsin?.. Əlbəttə, heç kim. Bir-birimizi yaxşı tanıyırıq. Mənim oğlum da, qızım da sənin övladlarındı. Həmçinin səninkilər də mənim. Övladlar da

gərək valideynə qiymət verə bilsin... Bunlar heç. Düşünürəm ki, bunlar bizim işimizdi. Ancaq arvadın əri saymaması, onunla yola getməməsi bağışlanmaz haldı. Tubu məsləhət bilmir, etiraz eləmirik, bizimlə danışmasın. Ərini heç olmasa, adam hesab eləsin. Seyranın sözünü ağzında qoyur. Cavabı nə olsa yaxşıdı: "Get vızqırt", "Çərənnəmə", "Baş-beynimi aparma", "Sən nə kişisən?". Nə bilim, nələr... nələr! — Əşi, belə də şey olar? İndiyədək sənə bir söz deməmişəm, bacım. Daha dözə bilmirik. Hər ikimiz anayıq, qadınıq. Bir qadın ki, iki aya yaxındı əri özünə yaxın buraxmasın, bu hərəkəti nə adlandırmaq olar? Hə?..

Qəhmər bir an tutuldu. Yataq otağında qızının çiyinlərində, belində, nə bilim harasında, harasında gördüyü diş izləri gəlib gözləri önündə dayandı. Öz-özünə düşündü: bu diş izləri Seyranın deyilsə, bəs kimindi? Onu maşında gəzdirən Elşəninmi? Rəisinmi? Allah bilir... Bəlkə lap başqasınındı... Əgər başqasınındısa... Axı nə məınası var kimindi? Axır ki, var. Özü də başqasının. Bəli, hər şey aydındı. Bunda deyirlər də: "Dəvə başını salıb pambıq kollarının arasına, elə bilir dalını görən yoxdu"".

Çiçək:

— Sizə qurban olum, açıq danışdığım üçün məni bağışlayın. Hələ çox şeydən anam da, qardaşım da xəbərsizdi. Bildiklərimi gizli saxlamışam. Nə anama, nə də qardaşıma demişəm. Çünki qorxmuşam. Desəniz nədən? Qardaşımın onu doğrayacağından!.. Qanını tökəcəyindən! Qardaşım yaxşı ki getdi. Hər şeyi danışa bilərəm.

Qəhmər:

— Danış, qızım.

Çiçək:

— Tubu əxlaqsız qadınlarla oturub-durur. Öz gözlərimlə görmüşəm, yad maşınlarda gəzir. Tubu hər nəyi varsa, itirib. Sənin qızından tez-tez siqaret iyi gəlir. Bəzən də spirt qoxusu. Allah bilir, bəlkə hələ anaşa, tiryək də çəkir. Səhər gedir, gecə yatan-





da gəlir. Hardan gəldiyini soruşanda bizi təhqir eləyir. Günahımız nədi? Bilmirik... Ondan bizə gəlin olmaz. Onun adı bu ailəyə ləkədi. Mən razı ola bilmərəm ki, tanış-bilişlər qardaşımın üzünə hırıldasınlar, arxasınca "oğraş", "binamus", "qəhbə saxlayan", "arvadı qəhbə" desinlər. Mən razı ola bilmərəm ki, Tubu qardaşıma belə bədnam damğa vursun.

Qəhmər:

— Aydındı, qızım. Haqq sözə mən nə deməliyəm ki? Nə məsləhət bilirsiz? Bəlkə gedim Hümmətlə danışım? Özümüz gəlib yığışdırıb aparaq? Nə diş bilsin, nə dodaq.

Çiçək:

— Özünüz bilin. Bir də gördüz axşamların birində çamadan qarışıq Seyran özü gətirdi.

— Qızım, istəmirəm səs-küy qopsun.

— Biz də istəmirik. Tubu onsuz da siz deyəni eşitməyəcək. Abrı yox, həyası yox. Qışqırıb bağıracaq. Yaxşısı budu Seyran özü gətirsin.

— Etiraz eləmirəm. Sizdən narazılığımız da yoxdu.

Mirvari:

— Yaxşı oldu ki, Tubu özü harasa getdi. Oturub danışmağa imkan yarandı. Yoxsa, burda indi bir tufan, qışqırıq, söyüş yaranacaqdı ki, gəl görəsən...

Qəhmər:

— Aydındı, bacım. Mən durub gedirəm. Onda nə vaxt məsləhət bilsəniz, göndərin. Allah pis övladın üzünü qara eləsin.

Mirvarigildən ağır sarsıntılar içərisində, boğula-boğula, qəhərlənə-qəhərlənə çıxan Qəhmər əvvəl nə edəcəyini, hara gedəcəyini bilmədi. Sonra özünü ələ alıb beş kilometrdən artıq yolu pay-piyada getməli oldu. O, yol uzunu özünü toplayıb qəti bir fikrə gələ bilmirdi. Düşüncələri bir an içərisində güclü zərbə ilə parçalanan büllurun qırıq-qırıq qəlpələri tək gah ətrafa səpələnir, gah da bu qəlpələr bir yerə toplaşaraq birləşirdi. Təəs-

süf doğuran o idi ki, düşüncələrin axarında Qəhmərin götür-qoyları nəinki bər-bəzəkli, parıltılı, göz oxşayan, ürəyə yatımlı büllura, heç yöndəmsiz saxsı parçalarına da bənzəmirdi. Sonu görünməyən, qırıq-sökük, yarı-yarımçıq düşüncələr içərisində bu qadının için-için ağlamaqdan, göz yaşları içərisində ürəyini boşaltmaqdan savayı heç bir çarəsi qalmırdı. Yol boyu o, öz-özünə danışır, gah qızını, gah da özünü məzəmmətləyirdi. Əlacı kəsiləndə bəzən bu dünyaya gəlişinin peşmançılığını çəkir, bəzən də ömür-gün sürdüyü dövranı günahkar çıxarırdı. Ona elə gəlirdi ki, yolu pay-piyada getmir, beli sınmış ilan kimi sürünür. Əsəbdənmi, həyəcandanmı, sonu görünməyən fəlakətin ilkin zərbəsindənmi dodaqları səyriyir, dili-ağzı quruyurdu. Yanından ötən adamları unudaraq öz-özünə danışırdı:

— Eh... Tubu, Tubu... Sən necə də dəyişmisən? Axı sən belə deyildin? Ərinin, baldızının, qayınananın dediklərini dinləyəndə, gördüyün işləri gözlərim qarşısında canlandıranda dəhşətə gəlirəm. Çiçək necə dedi? "Tubudan siqaret iyi, spirt qoxusu gəlir". Baldızının, "Mən razı ola bilmərəm ki, tanış-bilişlər qardaşımın üzünə hırıldayıb, arxasınca "oğraş", "arvadı qəhbə"... desinlər sözündə nə qədər dəhşətli və qorxunc bir həqiqət var! Mirvarini yaxşı tanıyıram. O, təmiz vicdan sahibidi. Ərin də, qayınanan da, baldızın da kifayət qədər dəlillər, əsaslar gətirdilər. Mən onlara heç bir söz deyə bilməzdim. Yadında saxla ki, başqalarından ədalət tələb eləyən adam özü də ədalətli olmalıdı. Danışarkən Seyrangilin hər birinin gözlərində qəti inam hissi vardı. Sözləri möhkəm inamla deyirdilər. Gördüklərim və eşitdiklərim mənə tam əmniyyət verir ki, sənə deyim: İblissən! Balam da olsan, qəbahətlərini pərdələyə bilmərəm. Mən Mirvaridən ayrılanda o, mənə necə baxdı?.. Heç vaxt unuda bilməyəcəyəm. Onun baxışı son dərəcə soyuq və dalğın idi. Mən əziz rəfiqəmin o baxışları altında əriyir, can verirdim. Bunun səbəbkarı isə sənsən, sən!.. Mən sənə beləmi tərbiyə vermişdim, Tubu?!





Bir zaman ər evinə köçəndə mən səni hansı adla yola salmışdım?! İndi sən geriyə necə qayıdırsan?! Yolunu azanda, naməhrəmlərə öpüş, dişdəm verəndə öz taleyin barədə düşündünmü?! Ananın ismətini, ləyaqətini, şərəfini gözlərin önünə gətirdinmi?! Qardaşının namusunu çirkin ayaqlar altına atıb tapdalatdığını götür-qoy elədinmi?! Bəs sənin qadınlıq şərəfin?! Qadınlıq ləyaqətin necə oldu?! Unutma ki, ərə xəyanət, Allaha xəyanətdi! İndi mən doğma qardaşına nə deyim? Gəlin də olsa, yad qızıdı, mən ona necə deyim ki, mənim doğub-ərsəyə çatdırdığım, bir zaman sevinə-sevinə ər evinə yola saldığım qızım geri qayıdır? Deməyəcək ki, axı niyə? Lap tutalım demədi də. Yox!.. Gec-tez qardaşın da, qardaşın arvadı da hər şeyi biləcək!.. Bəli, şübhə eləmirəm ki, qonşular da hər şeydən xəbərdar olacaqlar! Sənə qızım deməyə daha dilim gəlmir. İki aya yaxın əri ilə bir yastığa baş qoymayan qadının bədənindəki diş izləri hardandı? Fikirləşəndə, az qalır ətim sümüyümdən aralansın. Bu günü görməkdənsə, belə namussuzluğa dözməkdənsə, mənə, ölüm fərzdi! Ölüm! Kaş üzərində gəzdiyim torpaq aralanıb məni udaydı! Xəcalətdən qurtaraydım! Sən ər evindən çıxsan, qardaşının gözlərinin içinə necə baxa biləcəksən?! Həmişə bəyənmədiyin, "yetimçə" dediyin Şəfəqin yanında başını qaldırmağa mənəvi haqqın olacaqmı?! Yox!.. Səfeh qız, yox...

Özü də bilmədən Qəhmərin gözlərində giləlnən yaş yanaqlarından üzü aşağı süzüldü. Birdən gözlənilmədən ayağı nə vaxtsa yola atılan qırmızı kərpic parçasına toxundu. Qadın büdrədi. Özünü yıxılmaqdan güc-bəla ilə saxladı: — Zəhrimara qalmış, hardan yola düşüb? — deyə fikirləşdi. O, yanaqlarından axan göz yaşlarını sanki indicə duydu. Əlinin içi ilə üz-gözünün yaşını sildi. Başqalarının da ayağı dolaşmasın deyə, kərpic parçasını kənara atıb yenidən yoluna düzəldi. Dolmuş ürəyini boşaltmağa başladı:

Mən anayam!.. Ömrüm boyu səni xoşbəxt görmək istəmi-

şəm. Boynuna almasan da, nə qədər narazı qalsan da, deməliyəm ki, düşdüyün ev, ailə pis olmayıb... Mən Mirvarinin ağlına yaxşı bələdəm. O, ilanla da yola gedəndi. Götürümlüdü. Əzabkeşdi... Seyran da pis oğlan deyil. Qız kimi ismətlidi. Böyük bir idarənin mühəndisidi. Ailəcanlıdı. Nə demisən, nə istəmisən, onu eləyib. Tərbiyəsinə söz ola bilməz. Boy-buxunlu, yaraşıqlı... Başa düşmürəm, axı narazılığın nədəndi? Qudurğanlıqdanmı? Azğınlıqdanmı? Pula, vara-dövlətə hərislikdənmi? Qadınlıq ehtirasını boğa bilməməkdənmi? Axı mən biləni sən belə deyildin. Səni kim yoldan çıxartdı? Kim?.. Sən hər şeyə cavab verməli olacaqsan, Tubu! Düşündükcə, az qalır ürəyim çatlaya!.. Anaya sevinc, fərəh, qürur hissi əvəzinə başıaşağılıq, diligödəklik, gözüqıpıqlıq, alçaqlıq, namussuzluq, biqeyrətlik gətirdin, Tubu... Bunu anaya qıymaq olardımı? Qardaşa necə? Düzdü, atalar deyib: “Bala baldan şirindi”. Görəm, niyə? Onu da gərək deyəydilər ki, “Bala zəhərdən də zəhərdi”, “Oddu”, “Alovdu”, “Ananı, atanı cəhənnəm əzabında yandırandı”... Yox, Tubu, mən çox yaşaya bilmərəm. İndi səndən qorxuram... Desən niyə? Ər evində elədiklərini qardaş evinə köçürəcəyindən... Şəfəqi hər gün od-alov qasırğasına sürükləyəcəyindən... Dilin zəhər tuluğudu, bala.

Allah imkansızlığın üzünü qara eləsin. Varım olsaydı, sənə bir daxma alardım. Qardaş evinə, gəlin yanına bədnamcasına qayıtmazdın. İndi məni Şəfəqin taleyi düşündürür. O, ağıllı baladı. Sözsüz-söhbətsiz, dedi-qodusuz gəlindi. Həmişə mənə anası kimi baxıb. Sən onunla yola getməsən, onun da qəlbi qırılacaq... Mənə münasibəti dəyişəcək. Mənim də, qardaşının da, elə o yazıq Şəfəqin də yediyi-içdiyi zəhərə dönəcək. Axır ki səs qalxacaq. Qonşuları, tanış-bilişləri bizə güldürəcəksən... Gec-tez kimliyini tanıyacaqlar. Deyə bilərsən, niyə belə danışırsan, ana? Çünki ağlına yaxşı bələdəm, qızım...

Qəhmər gəlib parkın kənarından keçəndə ürəyinin şiddətlə





döyündüyünü duydu, ayaq saxladı. Yaxınlıqdakı skamyaya yaxınlaşdı. Əli ilə söykənəcəkdən tutdu. İstədi otursun. Ancaq yağışdan islanacağını görüb fikrindən yan keçdi. Birdən paltosunun qoltuq cibində ürəksakitləşdirici dərman olduğu yadına düşdü. O, həblərdən birini qəbul elədi. Özünə gəldi. — Qismət nədi, onu da görəcəyik, nə olur-olsun, özümü öldürə bilmərəm ki, — deyib, yoluna düzəldi. Yaşadığı binanın girəcəyinə çatanda Hümmətlə üzləşdi. Oğlu soruşdu:

— Halın bir təhərdi deyəsən, ana?

— Yenə ürəyim tutmuşdu.

— Əsəbləşməmisən ki?

— Qonaqlığa getməmişdim ki, əsəbləşməyim də.

— Sən get evə. Mən də bir az təmiz hava alıb gəlirəm.

— Gəz. Amma çöldə çox dayanma, sənə soyuq olar.

Qəhmər evə gəldi. Divanda əyləşib dərin fikrə getdi. Qarmaqarışıq düşüncələr onu çaş-baş saldığından bir çox məsələləri gəlinindən gizli saxlamaq qərarına gəldi. Bir azdan Hümmət də evə qayıtdı. Oğul gəlib ana ilə üzbəüz əyləşdi. Qadın oğlunun niyyətini başa düşdü. Qəhmərin qırıq-sökük nitqindən, səsinə ara verməsindən Şəfəq dərhal başa düşdü ki, qayınanası onun yanında danışmaq istəmir. Gəlin nahar hazırlamaq bəhanəsi ilə mətbəxə keçdi. Qəhmər özlüyündə gəlinindən razı qalsa da, qızının özbaşına hərəkətlərini, deyəsən, oğluna da tam açmaq istəmədi. Bunu Hümmət də sezdi. Ananın nəzərləri əvvəl bir nöqtəyə dikildi. Bayaq qurduğu sistemlə fikrini ifadə eləməyə başladı.

— Oğlum, yaşım o yaş deyil ki, necə gəldi, elə də danışım. Bir ayağım burda, o birisi gorda. Mirvarigillə həmişə yaxın olmuşuq. O qadın ipək kimi adamdı. Ömrü boyu insanlara xeyirxahlıq göstərib. Ev tikib. Oğlunun, qızının tərbiyəsinə də söz ola bilməz.

— Belə çıxır ki, günahkar bacımdı?

— Hə, acı da olsa, həqiqət elədi. Qızımın dili dil deyil. Nə

desən danışır. Qayınananı eşitmir. Baldızı adam yerinə qoymur. Əri də saymır. Əlini ağdan-qaraya vurmur. O evdə yaşamaq olarmı? Yox... Belə olanda gəlin gərək öz yerini seçsin. “Yersiz gəldi, yerli qaç” olmaz axı.

— Qərarın nə oldu, ana?

— Bu gün-sabah əri yığışdırıb gətirəcək.

Hümmət fikrə getdi və sonra dedi:

— Bacımdan imtina eləməyəcəyəm ki.

— Atalar deyib: “El elə sığar, ev evə sığmaz”. Bizim üçün çətin olacaq.

— Niyə?

— Neçə ildi ki, Tubu burdan aralanıb gedib. İndi qayıdır. Halı, xisləti xeyli dəyişib. Özü də ərsiz qadın. Ona hərə bir cürə baxacaq. Özümüzə bir söz deməsələr də, arxamızca hər şey danışacaqlar. Onu götürə biləcəyikmi?

— Nə haqla danışacaqlar?

— Danışanlar əvvəla haqq axtarmırlar. Əsas var, yoxdu, sözlərini deyirlər.

— Yaxşı, mən neyləməliyəm, ana?

— Elə mən də onu düşünürəm. Pulumuz olsaydı, şəhərdə ona bir daxma alardıq. İşləyib başını dolandırardı. Bizim də gözümüz üstündə olardı.

— Ana, özün bilirsən vəziyyətimizi. Səndən gizli nəyimiz ola bilər ki? Gündəlik yemək-içmək pulunu güc-bəla ilə qazanıram. İmkanlı adamlar da heç kəsə əl tutmurlar. Borcu da sələmə verirlər. Ev almaq üçün xeyli pul lazımdı. Lap tutaq ki, birindən borc aldım. Onu necə qaytararam?

— Matım-qutum quruyub, bala. Bircə onu bilirəm ki, Tubunun ailəsinin dağılması bizə baha başa gələcək.

— Gərək onu bacım özü fikirləşəydi.

Qəhmər başı ilə yan otağa işarə eləyərək pıçıltılı səslə dedi:

— Qorxuram gəlinlə yola getməyə.





— Bu elə adam deyil.

— Bilirəm, oğlum. Şəfəqin sakit olması işi həll eləmir. Gərək hər iki tərəf yola getməyi bacara.

— Bacararlar.

— Tubudan gözüm qorxur. Nə olsun ki, qızımdı?

Hümmət anası ilə sakit-sakit danışsa da, bacısının ailəsinin dağılması onu əsəbləşdirirdi. O, qeyri-ixtiyarı ayağa qalxıb pəncərəyə yaxınlaşdı. Həyətdəki hər şey ona bir anlığa cansız və sönük göründü. Özlüyündə anası deyənləri götür-qoy eləyib çıxış yolları aradı... Arxaya dönüb anasına nəsə demək istədi. Qəhmər vanna otağına keçdiyindən o, qayıdıb öz yerində əyləşdi. Televizorun düyməsini basdı. Ekranda rəqs eləyə-eləyə şən, oynaq mahnı oxuyan müğənni qız göründü. Hümmətin narahat qəlbi ilə heç cürə səsləşməyən bu musiqi sədaları onun duyğularına ağır, kəsici, ikrahedici zərbələr endirdi. Elə bu vaxt ana da qayıdıb divanda oturdu. Ananın da, oğulun da qəlbində böyük narahatlıq vardı. Çiyinlərinə gələcək əsəb yükünün ağır, əzabverici simptomları çökürdü. Ana qızının əxlaqının pozulduğunu və bu yoldan onu saxlamağın mümkünsüzlüyünü apaydın görürdü. Bilirdi ki, Tubunun bu evə qayıdışı oğlunun özünə, ailəsinə baha başa gələcək. Hümmət bacısının dedi-qodu, artıq söz-söhbət yaratmağa öyrəncəliliyindən və yaramaz hərəkətlərindən yaxşı xəbərdar idi. Anasının da dediklərindən belə qənaətə gəlirdi ki, bacısı ona böyük baş ağrısı gətirəcək... Əvvəldən hər şeyi aydın duyan, hadisələrə soyuq hisslərlə yanaşan, deyilənlərə heç bir münasibət bildirməyən, özünü baldızının kor-kobud hərəkətlərini guya başa düşmürmüş kimi aparan Şəfəq qara günlərinin yavaş-yavaş yaxınlaşdığını anlayırdı. Ancaq özünü o yerə qoymurdu. Qayınanasının, ərinin onu yaxşı tanıdığına əminliyini düşünüb özünə təskinlik verirdi... Ağlına da gətirməzdi ki, baldızının bu gəlişi onun üçün ağlagəlməz bir faciə yaradacaq.

Telefon zəng çaldı. Dəstəyi Qəhmər götürdü:

— Alo, eşidirəm.

— Ana, sənsən? Necəsən?

Qəhmər istədi dəstəyi yerinə qoysun. Tubu ilə danışmasın. Sonra fikirləşdi ki, bu hərəkəti ilə onsuz da heç bir şeyə nail ola bilməyəcək. Ona görə də qızına narazı, incik halda cavab verməli oldu:

— Səhər gördüyün kimi.

— Niyə gəlmişdin o xarabaya? İfritələr doldurdumu səni? Oğraş Seyran nə dedi?

Qəhmər əsəbini saxlaya bilməyib:

— Seyran oğraşsa, onda bəs sən kimsən? Heyif. Görünür sənə analıq eləyə bilməmişəm. Gərək sən doğulanda mən öləydim. Vaxt gələr, peşmançılığını çəkərsən. Onda bilərsən ər kimdi, ailə nədi?!

— Tüpürüm hamısına. Ərə gedəndən kimlərəsə köynək, tuman yumaqla, paltar ütüləməklə məşğulam. Neçə ildi insan kimi yaşamamışam. Həyatın nə olduğunu indi-indi dərk eləyirəm.

— Hardan danışırsan?

— Küçədən.

— Danışdıqların küçə söhbəti deyil.

Qəhmər xudahafizləşmədən telefonun dəstəyini yerinə qoydu. Səsi, dodaqları titrədi. Hümmət dinməz-söyləməz ayağa qalxdı: — Həyətə düşəcəm, — deyib otaqdan çıxdı. Qəhmər əlini başının altına qoyub divandaca uzandı. Şəfəqin yadına Pəri düşdü. O, öz-özünə fikirləşdi: “Görəm, Pərinin vəziyyəti necə oldu? O, ikicanlılıqdan qurtardımı? Qurtarıbsa, görəm oğlu olub, yoxsa qızı?” Bu fikirlə Pəriyə zəng çaldı. Dəstəkdən uzun qudok gəldi. Bir an keçməmiş yaşlı qadın səsi eşidildi:

— Alo, eşidirəm.

— Salam.

— Əleyküm-əssalam. Kimdi danışan?

— Şəfəqdi, Pərinin tanışı.





— Pəri xəstədi, qızım. Ona ayağa qalxmaq olmaz.

— Mən kiminlə danışıram?

— Pərinin qayınanası ilə.

— Tanışlıq üçün şadam. Öyrənmək istərdim, Pərinin əl-ayağı qurtarıbmı?

— Hə, qızım, qurtarıb.

— Oğlu olub, ya qızı?

— Qızı.

— Allah xoşbəxt eləsin. Elə mən də Pəridən hal-əhval öyrənmək istəyirdim. Mənim adımdan Pərini təbrik eləyin. Arada zəng çalaram.

— Yaxşı, qızım, sən də xoşbəxt ol. Hələlik.

Şəfəq dəstəyi yerinə qoydu: “Şükür Allaha, sağ-salamat qurtardı”, — deyib, öz otağına qayıtdı...

* * *

Axşama az qalırdı. Səhərdən parlayan günəş öz zəif şüalarını yığıb getmişdi. Yerinə ətəklərinin ucu görünməyən, getdikcə qatılaşmaqda olan qara bir örtük çəkilmişdi. Binaların pəncərələrindən ətrafa səpələnən saysız-hesabsız elektrik lampalarının gur işıqları bu qara pərdənin bağrını ucu iti, şiş nizələr tək yarıb keçir, vahiməsini əridirdi. Yenicə həyətdən gələn Hümmət çöldəki soyuqdan şikayətləndi, gecə qar yağacağını bildirdi. Qəhmər oğlunun sözünü eşitcək saymazyana, astadan, narazı halda: — “Qar dünəndən yağıb, oğlum”, — deyə bildirdi. Oğul anasının nə demək istəməsini başa düşmədiyindən təəccüblü halda onun üzünə baxdı. Anasının solğun bənizində dərin bir kədər, həyəcan və nigarançılıq duydu. Dərhal:

— Başa düşmədim.

— Başa düşülməyəcək nə var ki. Ən qorxulu qar, soyuq, şaxta insanın mənən donmasıdı. Əgər bayırda qar yağıb, dondurucu

şaxta qılıncını çəkibsə, qorxusu yoxdu, otaqda peç yandırıb lazım olan istiliyi əldə eləmək olar. Fəlakət şaxta-boranın, buzun insanın içində olmasıdı. Üşütmə adamın içindən gəlməsidi.

— Heç nə anlamadım.

— Niyə, oğlum? Axı mən qəliz danışmıram. Ana üçün balasının ailəsinin dağılması dəhşətdi. Barmağınızın ucuna tikan batanda elə bilirəm ki, ürəyimə ox sancılır. Başımı balınca qoyub uzandım, olub-keçənləri unutdum. Yatdım da. Ancaq nə fayda?! Yuxuda Tubu ilə didişdim.

— Deməli, yuxuda da əsəbləşmisən.

— Neyləyim, anayam da.

Araya ani bir sakitlik çökdü. Hər kəs öz ürəyi ilə danışırdı ki, qapının zəngi çalındı. Bayaqdan bəri səksəkə içində inləyən, qızı barədə bəzi incəlikləri oğlundan və gəlinindən gizlin saxlamağa çalışan Qəhmərin sanki ürəyi qırıldı. Onu qorxu, təlaş hissləri bürüdü. Qəhmərin sir-sifətinin bozarması oğlunun da nəzərindən qaçmadı. Heç bir münasibət bildirmədən Hümmət gedib qapının gözlüyündən çölə baxdı. Seyranla Tubunu girəcəkdə görcək qapını açdı: — Buyurun, — deyə onları içəri dəvət elədi. Seyranın üz-gözündə məcburiyyətdən doğan təbəssüm yarandı. O: — Axşamınız xeyir, Hümmət, — deyib əlində qara, böyük, nimdaş bir çamadan əsəbi halda otağa keçdi. Tubu ərinin arxasınca otağa daxil olsa da, gözlərini qardaşının gözlərindən yayındırmağa çalışdı. Bunu Hümmət də açıq-aşkar duydu. Ancaq özünü başa düşməzliyə vurdu. Səsə Qəhmərlə Şəfəq dəhlizə çıxdılar. Qəhmər nə deyəcəyini bilmədi. Şəfəq: — Xoş gəlmisiz, gəlin, gəlin, — deyə Tubunu qucaqlayıb öpdü, Seyrana əl verdi. Seyran təşəkkürünü bildirib əlindəki çamadanı dəhlizdə divarın dibinə qoydu.

Seyranın daxilində böyük bir fırtına, dəhşətli təlatüm olsa da, onun zahirində bir laqeydlik vardı. O, heç kəsin üzünə baxmadan astadan, olduqca sakit bir tərzdə dedi:





— Hümmət, qardaşımsan. Ömür-gün yoldaşın da bacımdı. Analarımız arasındakı yaxınlıq bizi qohum olmağa gətirib çıxartdı. Bir dəfə də olsun sizinlə umu-küsümüz olmayıb. Bizim ailəmiz çalışacaq ki, analarımızın səmimiyyət və mehribanlığını necə var, elə də saxlasın. Necə düşünürsüz, düşünün. Bizi günahkar da çıxara bilərsiz. Öz işinizdi. Ancaq onu sizə deməyə məcburam ki, mənim Tubu ilə birlikdə yaşamağım mümkün deyil. Artıq boğuluram. Sənin bacını bir zaman namusum, qeyrətim, ləyaqətim, şərəfim kimi qəbul elədim, indi isə...

Tubu:

— Əşi, boş-boş danışma.

Qardaş da, ana da, gəlin də Tubuya heyrət içərisində baxdılar. Elə bil bu sözün Seyrana heç bir təfavütü yox idi. O, səssiz-səmirsiz evdəkilərin üzünə baxdı. Qəhmər kürəkəninin baxışları altında az qala əriyib, yox olurdu. Qadın iti və qəzəbli nəzərlərlə gözlərini qızının üzünə zillədi. Özünü saxlaya bilməyib dedi:

— Ud nəfəsini, həyasız, indi söhbət kişilərindi.

— Eh... Kişi... Mənim kişimə bax ey...

Seyranı daxilən hirs, qəzəb boğsa da, o, kinayə ilə gülümsündü və dedi:

— Budu mənim günüm, ruzigarım, Qəhmər xala.

Bayaqdan başını aşağı salıb səbr və təmkinlə dinlədiyi söhbəti götür-qoy eləyən Hümmət bildirdi:

— Seyranın kişi olub-olmaması barədə gərək əvvəlcədən düşünəydin, bacı. Özün sevib-seçdiyin adamdı. Məncə, səni Seyrana ərə getməyə heç kəs məcbur eləməyib.

Tubu böyük bir əda ilə cavab verdi:

— Getmişəm, getməmiş olum.

Hümmət bacısını gözaltı süzdü. Sir-sifəti bozarmış Tubunun gözlərindən Seyrana hiddət, qəzəb, nifrət hissi yağırdı. Qəribə idi ki, bunun nədən doğduğunu Hümmət hələ də özü üçün ay-

dınlaşdıra bilməmişdi. Ona görə də üzünü Seyrana tutaraq:

— Mən Tubunun hərəkətləri, ailəyə münasibəti barədə sözlərinizi eşitmək istərdim. Bəlkə bacımın qəbahətlərini təfsilatı ilə açıqlayasan?

Seyran ani fikrə getdi, başını qaldırıb Qəhmərin üzünə baxdı. Qadının yalvarıcı nəzərləri onun üzünə dikildi. Sonra Hümmət bir şey başa düşməsin deyə, qadın göz-qaş ilə keçmiş kürəkəninə "deme" işarəsini verdi. Seyran başını aşağı salıb sakit bir tərzdə dedi:

— Qəhmər xala hər şeyi məndən yaxşı bilir. Qalanını da Tubudan xəbər alarsan.

Hümmət:

— Demək istəmirsən?

Qəhmər:

— Lazım deyil, oğlum. Seyran bura dava-dalaş salmaq, səs qaldırmaq üçün gəlməyib. Mən hər şeydən xəbərdaram. Səssiz-səmirsiz ayrılmaq həm bizə, həm də onlara sərfəlidi. Hər iki tərəfin biabırçılığının üstünü basdırar.

Seyran istədi desin ki, bu işdə bizim heç bir qəbahətimiz yoxdu. Bu andaca Hümmət təəccüblə soruşdu:

— Nə biabırçılıq?

Qəhmər qızının əxlaq pozğunluğunun açılmasından qorxaraq, söhbətin səmtini ciddi-cəhdlə dəyişməyə çalışdı və buna böyük ustalıqla nail oldu. O dedi:

— Səbr Allahın adıdı, — deyiblər, oğlum. Hövsələsi olan çox şey qazanar.

Seyran xudahafizləşib bir dəfəlik bu evdən getdi. Nə edəcəyini bilməyən Hümmət televizorun düyməsini basdı, özü də keçib divanda əyləşdi. Ekran ağardı. Diktor qız elan elədi: "Əziz tamaşaçılar, televizora yaxın əyləşin. "Ailələr və talelər" mövzusunda verilişimizə başlayırıq". Söhbətdə xeyli iştirakçı vardı.

Aparıcı qız əlində mikrofon iştirakçılara yaxınlaşır, onlara





suallar verir, hər birinin məsələyə münasibətini öyrənirdi. Ailə, xüsusilə ər-arvad arasındakı ziddiyyətlər, onları törədən amillər açılırdı. İştirakçıların əksəriyyətinin qənaəti belə idi ki, ər-arvad arasındakı münasibətlər qarşılıqlı hörmətə, ehtirama, həqiqi sevgiyə, məhəbbətə əsaslanmalıdır. Gəlin qayınanasını, qayınatasını özünə valideyn sanmırsa, baldızını, qayınını ailənin üzvü hesab etmirsə, deməli, o, ərinə də hörmət qoymur. Belə istək uzun sürə bilməz. Ər arvadı, arvad da əri əlçatmaz varlıq sanmalıdır. Etibarsızlıq, dəyanətsizlik, qayğısızlıq olan yerdə möhkəm ailədən söhbət gedə bilməz. Təsadüfən qurulan belə ailələrin dayaqları gec-tez uçulub dağılacaq.

Səssiz-səmirsiz televizoru seyr edən Qəhmər bir anlığa düşündü ki, bu veriliş sanki onun ailəsinin bütün üzvləri üçün əvvəlcədən nəzərdə tutulubmuş. Ana veriliş boyu hərdənbir başını qızına tərəf çevirir, sir-sifətinə ötəri baxır, sonra da yenidən televizora tamaşa eləyirdi. Nə bu verilişin, nə anasının yanıb-yaxılan, parçalanan, didilən qəlbinin, nə qardaşının əsəbi üzünün, nə də Şəfəqin təəssüflü baxışlarının Tubu üçün təfavütü vardı. Sanki öz həyatında da heç bir şey olmamışdı. Bu da adi bir televiziya tamaşasıydı. Bir azdan bu tamaşa da sona yetəcək, hər şey özünəməxsus təbii ahəngi ilə davam eləyəcək. Hümmətin gözləri televizor ekranına dikilsə də, onun diqqəti Tubuda, fikri, düşüncəsi bacısının qəribə taleyində, müəmmalı, qəbahətli xarakterində dolaşırdı. Dolaşdıqca da qeyrətinə, namusuna qapanıb qalmışdı. Qəhmər qızının, Hümmət bacısının ailə barədəki qeyri-ciddi, məhdud fikirlərinə heç cürə bəraət qazandıra bilmirdi. Zavallı Şəfəqə bircə şey aydın idi ki, baldızının xasiyyəti çox ağırdı, onunla bir damın altında yaşamaq çətin olacaq. Fikirləşdi ki, bu gün sakit, dinməz-söyləməz, səssiz-səmirsiz oturan Tubu görəm, sabah onun üçün şahmar ilana çevrilməyəcək ki? Mənim isti yuvama soyuq su çiləməyəcək ki? Nə eləyir-eləsin. Özü bilər. Haqq, ədalət öz yerini tutacaq. Təki Hümmətin, əziz balam

Hikmətin canı sağ olsun. Məni lap söysə də, təhqir eləsə də, ona güldən ağır söz deməyəcəyəm. Mən bu evə gəlin gəlmişəm. Ayrı-seçkilik salmağa yox. Hümmətin anası həm də mənim anamdı. İnsafən, bu evə ayaq basandan mənimlə doğma balası kimi rəftar eləyib, Allah imanını kamil eləsin. Əgər mən Hümməti, qayınanamı, oğlumu istəyirəmsə, Tubunu da sevməliyəm... Heyif ki, bu gün Tubu öz ev-eşiyindən çıxıb. Öz xoşu ilə yox... Onu əri gətirib. Mən biləni Seyran pis oğlan deyil. Hümmət də, anam da onun barəsində həmişə xoş sözlər deyiblər. Yadındamı? Elə qabaqlar sən də ərindən ağızdolusu danışardın, Tubu?! Bə indi necə oldu ki, ailən dağıldı?

Ekranda diktor qızın verilişin sona yetdiyini deməsi Şəfəqi düşüncələrindən ayırdı. Hümmət televizoru söndürdü. Başını qolları arasına aldı. Bir qədər dayandı. Sonra sakit və aramla: — Ana, — deyə söhbətə başladı.

— Dünən də mən sənə dedim, indi də təkrar eləməyə məcburam. Tubu mənim bacımdı, mənim namusumdu, qeyrətimdi. Nə qədər ki, canımda can var, bacımın xidmətində duracam... Ev şəraitimiz də, imkansızlığımız da aydındı. Onu açıb-ağartmağa lüzum yoxdu. Bu oturduğumuz otaq bacımla sənin, o birisi isə bizim yataq otağımız olsun. Qalır mətbəx. Kasıbın olanı. O da hamımızın.

Qəhmər oğlunun sözündən sevindi. Onu yüksək qiymətləndirdi. Bununla belə gülümsünərək soruşdu:

— Bala, deyəsən ayırırsan bizi?

— Yox, ana, sənə qarşı bədəsil ola bilmərəm... Qətiyyən... Əlinin işdən qalan vaxtı... Yəqin fikrimi aydın çatdıra bilmədim. Bacıma demək istəyirdim ki, utanmaq, sıxılmaq, çəkinmək lazım deyil. Atamızdan qalma bu evimizdə sənin də payın var. Ancaq bir-iki kəlmə Tubuya da deyiləsi sözüm var.

Tubu:

— Eşidirəm.





— Mən güman eləyirəm ki, geri qayıtmayacaqsan. “Yüz ölçüb, bir biçib” səni bura gətiriblər.

— Seyrana da, onun anasına da, bacısına da nifrət eləyirəm.

— Nifrət mərhələsi arxada qaldı. Bilirsən ki, qız da, ərli qadın da hara getsə, hardan gəlsə, o qədər söz-söhbətə səbəb olmur. Ərsiz qadının bütün hərəkətlərini, sözünü, adi baxışlarını hamı izləyir. Çalışırlar olmayana da bir qara yaxsınlar.

— Mənə heç kəs qara yaxa bilməz. Kişi kimi şeyəm. Mənim öz ağlım var. Belə söhbətlərə ehtiyac yoxdu. Qaldı artıq söz-söhbətə, ağız kəsməyəcəyəm ki?! İstəyəndə mələklərə də böhtan atırlar.

Qəhmər qızına altdan-altdan baxdı. İstədi desin ki, “Kəs səsini, həyasız, dilin də var danışırsan...” Sonra fikirləşdi ki, indi artıq söz-söhbət yaratmayım, qalanını ikilikdə özüm danışaram.

Hümmət bacısının əsəbiliyini, içində gedən mübarizəni, vuruşmanı, dava-dalaşı aydın başa düşürdü. Bununla belə o, bir çox şeylərə əhəmiyyət verməyərək dedi:

— Ərsiz qadınsan. Dedi-qoduya səbəb olacaq hər şeydən qaçmalısan. Özünə nəzarətçi olmalısan. Qonşular, tanış-bilişlər rəhmətlik atamızın da, canına sağlamlıq arzuladığımız əziz anamızın da necə adam olduqlarını yaxşı bilirlər. Biz onların övladlarıyıq. Mən bunu demək istəyirdim, başa düşdün?

Tubu ağız-burnunu əyib üzünü yana çevirərək:

— Qandım.

Tubunun axırıncı sözünün kinayə və rişxəndlə deyildiyini hamı tutsa da, heç kəs ona cavab vermək istəmədi. Hümmət də söhbəti qəsdən uzatmadı. Deyəcəyi bir çox fikirlərdən də yan keçdi. Araya sakitlik çökdü. Yan otaqdan uşaq ağlaması eşidildi. Hamı Şəfəqin üzünə baxdı. O, dərhal ayağa qalxıb tələm-tələsik Hikmətin yanına qaçdı. Hümmət:

— Darıxıram, aşağıda bir az hava alıb gəlirəm.

Qəhmər:

— Get, oğlum. Ancaq çox ləngimə. Şəhərdə avaraların sayı o qədər çoxdu ki, adamın ürəyinə yüz cür qara fikir gəlir.

— Narahat olma. Avaralar pullulara cumurlar. Məni hamı tanıyır. Bilirlər ki, mən gündəliyini qazananlardanam. Bir həsirəm, bir yesir.

— Söz güləşdirmə, tez gəl.

— Oldu.

Hümmət otaqdan çıxdı. Gəlinin yan otağa keçməsi və oğlunun gedişi anaya imkan verdi ki, qızı ilə söhbətini davam etdirsin.

— Bu xasiyyət ki səndə var, yeni bədbəxtliklərə düçar olacaqsan. Gəlmisən, başqa çarən yoxdu. Qardaşınla, gəlinlə yola getməlisən. Uşağa baxmalısan... Oynatmalısan ki, qardaşın da görüb sevinsin.

— Xeyr! Uşağa baxmaq istəsəydim, neçəsini doğardım.

— Bu düşüncələrlə ərini də, ər evindəkiləri də cana doydurmuşdun.

— Yekə arvadsan, bilmədiyini danışma. Evdən çıxmağıma səbəb sənin o xarabaya gəlişin oldu. O ifritələrin yanına nəyə getmişdin, ana? Axı üzü üzlər görmüş o qəhbələr sənə nə dedilər?

— Tərbiyəsiz-tərbiyəsiz danışma. Unutma ki, səni mən doğmuşam, mən anayam. Yolum, haqqım səni tutar. Mənim Mirvarigilə gəlişim sənin evdən çıxmağının səbəbi deyil. Düzünü axtarsan, səni iki-üç gün əvvəl evdən çıxaracaqlarmış... Hümmətin dünyaya gələn körpəsi evdən qovulmağını bir qədər ləngidib. Onlar istəməmişlər ki, bu ailənin sevincli günü səni bura gətirməklə qanımızı qaraltsınlar. Buna görə mən sənin ərinə də, qayınanana da, baldızına da çox sağ olsun deyirəm. Qaldı Mirvarigilə getməyimə. Səbəb sənin barəndə gedən söz-söbətə, dedi-qoduya aydınlıq gətirmək olub. Əslində ora Hümmət özü getmək istəyirdi. Günahların səndə olduğunu düşünüb mən özüm ora getməyi qərarlaşdırdım. Qorxdum ki, Hümmət çox şeydən





agah ola. Kəmhövsələlik eləyə. Ərin də, qayınanan da, baldızın da olanları mənə dedilər. Demədiklərini də gözlərimlə gördüm.

— Elə danışırsan ki, guya mən özümü çöldə qoymuşam.

— Yığışdır özünü. Danışıqlarına sədd qoy. Əvvəla, neçə illərdi ki, onların çörəyini yemisən. Yediklərin səni tutar. İkincisi, mən o ailəni yaxşı tanıyıram. Üçüncüsü, yadda saxla ki, qayınanan mənimlə yaşıddı. Həm də mənim rəfiqəmdi. Məndən qat-qat üstün adamdı. Təsəvvür elə ki, həmin təhqiramiz sözləri mən anana deyirsən. Sən o ailədə özünü gəlin kimi aparmadın, qoçuluq elədin. Sonu ailənin dağılması ilə nəticələndi. Mən indi də gözlərimlə gördüklərimə inana bilmirəm. Gün günorta yerinə qalxıb. Ər-baldız hərəsi bir iş dalınca gedib. Qayınana ev-eşik işləri görür. Gəlinsə yatır. Gəlini güc-bəla ilə ayağa qaldırırlar. O, isə yataqdan qalxıb: — Səhər yeməyi hazırdımı — deyə qayınanadan soruşur. Sonra yeyib-içib süfrəni yığışdırmadan kiminləsə görüşə tələsir. İndi səndən soruşuram, bunu nə adlandırmaq olar?! Mən bir ana kimi sənin hərəkətlərindən xəcalət çəkdim. Yer yarılmadı ki, yerə girim.

— Bilmədiklərini danışırsan. Evdə məni gəlin sanmadılar. İki aya yaxındı ki, Seyran məni özünə arvad hesab eləmir. Mənim tərəfə baxmır.

— Səninlə bir otaqda yatmır?

— Yox!..

— Soruşacağım məsələ bilirəm mənə layiq deyil. Başqa çarəm yoxdu. Ərin səninlə oturub-durmursa, de görüm, boyun-boğazındakı, çiyinlərindəki, kürəyindəki diş yerləri kimindi?

— Onu sənə kim deyib? Oğraş Seyranmı? Yaxşı eləmişəm. Onun acığına eləmişəm.

— Onu mənə Seyran deməyib.

— Yalan danışırsan.

— Alçaqsan sən. Mən yalan danışmıram. Hamısını sən çarpayıda yatanda gözlərimlə görmüşəm. Sən Seyrana oğraş deyirsən.

Arvad qəhbə, fahişə olmasa, kişi oğraş ola bilməz. O, səni evdən çıxarmaqla oğraşlıq, biqeyrətlik xurcununu çiyinlərindən atdı. Bütün bunları deməklə istəyirəm ki, sən biləsən. Mən imkan verməręm ki, Seyranın tüpürüb atdığı namussuzluq xurcununu doğma qardaşın Hümmətin boynuna atasan.

— Bu nə deməkdi?

— Nə dediyimi yaxşı bilirəm. Hümmətin ar-namusu özündədi. Gül kimi arvadı, uşağı var. Bundan sonra elə hərəkət eləməlisən ki, onların üzərinə kölgə düşməsin. Bayaq Hümmət də bunları demək istəyirdi.

— Sən mənə "qəhbə", "lotu" kimi baxırsan, deyəsən?

— Səni xəcalət çəkəsən. Daha sənə deyiləsi sözüm yoxdu...

Hümmət həyətdən qayıdanda yatmaq vaxtı idi. Qəhmər üzünü qızına tutaraq bildirdi:

— Qalx, yataq dəstlərini gətir. Divanı açaq. Sabah bir çarpayı alaq.

Tubu:

— Mənim cer-cehizim...

— Onu hara yığacağıq ki?! Bir də ki bu neçə ildə qırılıb-tökülüb. Onun nəyini gətirək? Onsuz da qoymağa yerimiz yoxdu.

— Pulunu alarıq.

— Səni bura gətirəndə boyun-boğazındakı, qulaqlarındakı, barmaqlarındakı qızılları aldılarmı?

— Niyə almalıydılar ki?

— Bəs taxta-tuxta üçün onlar niyə pul verməlidirlər ki?

— Səninlə heç danışmaq olmur. Dava-şavasan.

Hümmət bacısının dediklərinə başını bulayaraq dedi:

— Anamız heç vaxt davakar olmayıb, Tubu.

Şərtləşdikləri kimi hamı yatmaq üçün öz otağına çəkildi. Tubu soyuna-soyuna dedi:

— Bu gün əsəbdən elə yorulmuşam ki, başım ağrıyır.

Qəhmər:





— Hələ harasıdı?

— Olsun da.

— Qardaşın balasını qucağına alıb bircə dəfə üzünə baxdınmı barı?

— Yox, dedim mən uşağa baxa bilmirəm.

— O, qardaşının balasıdı. Uşağa diqqət, qardaşına, onun arvadına olan diqqətindi, Tubu. Diqqətli olmasan, sənə bu evdə nə hörmət, nə də qayğı olacaq. Az-çox olanları da itirəcəksən.

— Deyəsən, biz ikimiz yola gedə bilməyəcəyik.

— Gedəcəyik. Mən anayam. Hər təpiyinə dözəcəm... Mən yanıram. Yandığımdan da danışıram. Sənin bircə uşağın olsaydı, ailənin dağılması bəlkə mənə o qədər təsir eləməzdi.

— Yat, ana, yat. Yaxşı ki, olmayıb.

Tubu üzünü divara çevirib heç bir şey olmamış kimi gözlərini yumdu. Çox çəkmədən yuxuya getdi. Ana isə gecə yarıdan keçənədək göz yaşları içərisində qızının taleyi barədə düşündü.

* * *

Tubu ər evindən çıxıb qardaş evinə gələli əvvəllər anasının tənələri onu sıxsa da son vaxtlar o hər şeyə alışır, dediklərinə əhəmiyyət vermədən, onları ipə-sapa düzmədən çoxuna adi bir məsələ kimi baxırdı. Anası da qızının get-gedə əndazəyə sığmadığını, kor-kobudluğunu, qardaşını düşünmədiyini, gəlini saymadığını, adam yerinə qoymadığını görüb gah inciyir, küsür, qızını dınışdırmır, gah da gücünü göz yaşlarına verirdi. Qızı barəsində oğluna bir söz deməsə də yanıb yaxılır, nə vaxtsa qızının hərəkətlərinə oğlu, ya gəlini tərəfdən kəskin münasibət bildiriləcəyini yəqin bilirdi. Baldızının nalayiq, yaramaz, əxlaq normalarından çox-çox uzaq hərəkətlərini nəinki sezən, hətta, açıq-aydın duyan Şəfəq özünü heç bir şeydən xəbərsiz kimi aparır, qayınanası ilə baldızı arasına girməyi də özünə qəbahət sanırdı.

Hərdənbir Şəfəqin qayınanasına yazığı da gəlirdi. Qəhmər onu da açıq-aydın yəqinləşdirmişdi ki, bu evdəki söz-söhbətin hamısından Şəfəq xəbərdardı. Ancaq o, bu evin gəlini olduğu üçün ana-bala arasında gedən söz-söhbətə qəsdən baş qoşmaq istəmirdi. Bunu Qəhmər də özlüyündə: — Əhsən səni doğan anaya, — deyə dəyərləndirirdi. Hər dəfə qayınanasının sir-sifəti bozaranda, ya baldızının səsi bir balaca qalxanda, ya gəriləndə Şəfəq körpəsini bəhanə eləyib öz otağına çəkilir, uşağına döş verir, körpəsinin bələyini açır, onunla oynayırdı. Bunların da heç birini eləməyəndə mətbəxə gedir, çay qoyur, yemək hazırlayır, paltarların cırıq-söküyünü tikir, yamayır, yuyub sərir, ütüləyirdi. Özünə dəxli olmayan işlərə baş qoşmaması, səmimiyyəti, mehribanlığı, dilişirinliyi qayınanasının gözlərində Şəfəqi birə yüz böyüdürdü. Bir neçə dəfə bu qadın öz-özünə demişdi:

— Oğlum Şəfəqlə ailə qurduğu üçün xoşbəxtdi. Gəlinim gözəldi. Abırını, həyasını, ismətini hər şeydən üstün tutandı. Danışdırmasan danışan deyil. Ərinə, mənə nə qədər hörmətlə, istəklə yanaşır?! Şükür sənə, xudaya, min şükür! Belə gəlin hələm, hələm... Elə bil bu dünyanın adamı deyil. Xoşbəxt ol, səni, qızım!..

Ana hər gün qızının yöndəmsiz, yüngül hərəkətlərini gördükcə, ölçüsüz-biçisiz danışıqlarını eşitdikcə utanır, çəkinir, öz-özünü lənətləyirdi. Qadın onu da bilirdi ki, Tubu bu evdə özünə yer elədikcə, möhkəmləndikcə Şəfəqə də atmacalarını atacaq, onu bezdirəcək, xoşagəlməz söz-söhbətlər yaradacaqdı. Ona görə də Qəhmər bütün diqqətini gəlin ilə qızı arasındakı danışıqlara, münasibətlərə yönəldir, bir çox məsələlərdə özünə aydınlıq gətirirdi. Yeri gəldikcə o, bu iki qadının — gəlinlə baldızın münasibətlərini yaxşılaşdırmağa çalışırdı. Hər dəfə də Şəfəqin "Narahat olma, ana, Tubu mənim böyük bacımdı", "Tubu bu evin xanımıdı" deməsi Qəhməri sevindirirdi. Bununla belə Qəhmər tam əmin idi ki, Şəfəq heç vaxt Tubuya gözün üstə qaşın var deməyəcək, əksinə, ona hörmət, qayğı göstərəcək...





Bir dəfə Tubu işə gedəndən sonra Qəhmər divana uzanıb özözünə düşünmüşdü: "Tubu uşaqlıqdan kobuddu... Adamla yola gedən deyil. Dili uzundu mənim qızımın. Doğma anasıyam, mənimlə yola gedir ki?.. Heyif... Hədsiz sərbəstlik iddiası onu geriyə — ata-ana evinə qaytardı. Hümmət pis oğul deyil. Gündəlik çörəyinə çalışandı. Arvadına, uşağına bağlıdı. Uşaqlıqdan elə böyüyüb ki, kimsənin toyuğuna daş atmaz. Bilirəm, Tubunu da çox istəyir... Lap çox... Axı nə qədər çox istəsə də, indi onun da ailəsi var. Tubu da ailəsini dağıdıb artıq yük oldu ona. Allah xeyir eləsin... Düşünəndə az qalır ürəyim çatlaya. Ağzıma daşlar, Tubunun baldızının, qayınanasının, ərinin dedikləri həqiqətdisə, o, əməllərindən çəkinməsə, görəm, bunun sonu nə olacaq?! Aman Allah, onları Hümmət bilsə qan düşməyəcək ki? Vallah qorxuram Tubudan! Qorxuram bu işlərin gələcəyindən! Ürəyimə damıb! Yox! Mən anayam! Mən Tubunu yerindəcə oturtmalıyam. Yığışmasa, cəzasını əllərimlə verməliyəm. Rəva bilmərəm ki, Hümmət..."

Qəhmər bu fikirlər içərisində çabalayırdı ki, qapı açıldı, Şəfəq otağa daxil oldu:

— Ana, belə uzanmaqda xəstələnməmisən ki?

— Yox, qızım, narahat olma. Qoca arvadam. İşim yox, gücüm yox. Ayağa qalxıb neyləyim ki? Gəl otur, ana-bala dərdləşək.

Qəhmərin "ana-bala" sözü Şəfəqin qəlbində sevinc, xoşhallıq, şadyanalıq duyğuları oyatdı. Onun üzündə dan yerindən yenicə çıxmaqda olan günəşin oynaq şəfəqləri tək zərif bir təbəssüm yarandı. Gəlin stul çəkib qayınanası ilə üzbəüz əyləşdi. Bir anlığa Qəhmərin əvvəlki düşüncələri dağılsa da ürəyinə sıxıntı, ağırlıq, qəm, qüssə, kədər, inamsızlıq, ümidsizlik, niskil gətirən duyğular çökdü. O, dərindən nəfəs alıb dedi:

— Qızım, ölüm-itim dünyasıdı. Dünyaya gələn getməlidi. Xoşbəxt o adamdı ki, üzüsulu dəyişir dünyasını. Heç kəsə pislik

eləmir, heç kəsdən də pislik görmür. Ölümündən sonra da tanıyanlar ona rəhmət oxuyurlar...

Qəhmərin gözləri doldu. Başını yüngülcə yellədi. Şəfəqin qayınanasına yazığı gəldi. Gəlin astadan dilləndi:

— Niyə elə danışırsan, ana?

Qəhmər üst dişləri ilə alt dodaqlarını sıxdı. Yenə başını yellədi. Handan-hana bildirdi:

— Sözümü kəsmə, qızım. Sən bu evə gələli mənə həm ana olmusan, həm də qız. Bütün zəhmətimi çəkmisən. Mənim yeganə borcum sənədi...

— Nə danışırsan, ana? Nə borc?!

— Qulaq as, sözümü kəsmə. Mən indi pis günə qalmışam. Tubu çıxdı ər evindən. Ana olmazdan qabaq mən insanam. Ona görə də mən hər şeyə qiymət verməliyəm. Düzə düz, əyriyə əyri. Həm də yaşım o yaş deyil, deyəm ki, səhvimi nə vaxtsa, düzəldəcəm. Yox! Atalar yaxşı deyib: "Qırxında öyrənən gorunda çalar..." Deyəsən, çox uzadıram... Keçək əsas mətləbə... Tubu gəlib. Qızımın xasiyyətini mən bilirəm... Ağlı kor-kəsməzdi... Adamla çətin yola gedəndi. Ancaq neyləmək olar? Gəlib sığınıb bizə... Gərək onu da bu evdə yola verək... Dolandıraq... Hər dediyi sözün başına ip salmayaq... Güzəştə gedək... Yoxsa, qonşular da, tanış-bilişlər də bizə yaxşı baxmazlar. Beşinin bizdən xoşu gəlirsə, beşinin də zəhləsi gedir. Dostu ağladıb, düşməni sevindirməyək. Qurban olaram sənə, gərək bu evdən səs çıxmasın. Çalışın can deyin, can eşidin. Bundan sonra çalışaq, başqa yerdə ev alaq. Ya Tubu ilə mən köçərəm o evə, siz qalarsız burda, ya da siz köçərsiz ora, biz qalarıq burda. Hümmətlə öz işinizdi...

— Qurtardın sözünü, ana?

— Hə... Qızım.

— Ürəyini sıxma. Nigaran da qalma. Biz lap yaxşı dolanacağıq. Özün də görəcəksən.





— Çox sağ ol, qızım, mən belə də düşünürdüm.

— Başqa sözün yoxsa, çirkli paltarlar var, mən onları suya çəkim.

— Sən əl vurma, Tubu gələr çəkər.

— Niyə ki? Tubu işdədi. Yorğun-arğın gəlib paltar yumayacaq ki.

Şəfəq ayağa qalxıb vanna otağına getdi. Ərinin, özünün, qayınanasının, bir də axşam Tubunun çıxarıb vanna otağına atdığı paltarlarını yuyub sərdi.

* * *

Növbəti bazar günü idi. Gün günortadan əyilmişdi. Hümmət yeyib-içib otaqdan çıxdı. Qəhmərlə Tubu divanda əyləşib televizora baxırdılar. Şəfəq dəsmal, şampun, sabun götürüb vanna otağına getdi. Bir az keçmişdi ki, Qəhmər Tubudan soruşdu:

— Gəlin hara getdi?

— Hamama.

— Niyə?

— Çimir.

— Niyə oturmusan? Qalx, get kürəyini sürt.

Tubu əsəbi halda:

— Nə? Bircə bu işim qalmışdı.

Qəhmər qızının səsindəki, sözündəki əsəbiliyi duymurmuş kimi astadan, bir az da mehribanlıq və qayğıkeşliklə dedi:

— Qızım, o, bu evə gələli həmişə məni öz anası sanıb. İstəməsəm də, ondan utansam da, o, məni vannaya salıb çimizdirib. Yüz dəfələrlə əl-ayağımı yuyub. Paltarlarımı yuyub, ütüləyib...

— Onun borcudu.

— Nəyidi?

— Borcu.

— Elə isə sən niyə qayınanana borcunu ödəmədin? Hə?..

— Əcəb işə düşdüm.

— Yadındamı? O gün sən çirkli paltarlarını soyunub vanna otağına atmışdın. Onları kim yuyub sərdi? Şəfəq! Düzdü?

— Əvvəla yumayaydı. İkincisi, yetimçəni çıxartma başımıza.

— Sənə elə gəlir ki, Şəfəq yetimçədi. Doğrudu, bədəncə səndən qıvraqdı. Ancaq daxilən o, səndən çox-çox böyükdü. Canına and olsun, ölüncə səninlə kəlmə kəsmərəm. Ayağa qalx, get, onun kürəyinə kisə çək. Ona hörmət eləmirsənsə, barı qardaşına elə.

— Bu dəfə gedirəm. Bir də mənə elə söz demə.

Tubu əsəbi halda ayağa qalxdı. İti addımlarla vanna otağına yaxınlaşıb qapını döydü. İçəridən Şəfəqin suyun fasiləsiz, aramsız şırıltısına qarışıq səsi eşidildi:

— Hə... Nə olub ki?

— Aç qapını.

— Yuyunuram. Bu saat qurtarıram.

— Bilirəm. Qapını aç, kürəyinə kisə çəkim.

— Yox... Zəhmət çəkmə.

Tubu istədi Şəfəqin bu sözündən istifadə eləsin. Qayıdıb öz yerində otursun. Sonra da düşündü ki, anası onu yenidən məzəmmətləyəcək. O, bir də qapını döydü.

— Anam gözümü çıxarır, uzatma, qapını aç.

— Utanıram.

— Əşi, özünü naza qoyma. Utanan ərə getməzdi.

Qızının sözlərini ana yan otaqdan apaydın eşitdi. İstədi — Rədd ol belə, — deyə qışqırsın. Özünü ələ alıb işin nəticəsini gözlədi...

Şəfəq Tubunun xasiyyətinə yaxşı bələd idi. Bilirdi ki, nə vaxtsa baldızı bunu bəhanə eləyəcək, yeri gəldi-gəlmədi yüz dəfələrlə başına taqqıldadacaq. Əlacsız qalıb hamamın qapısını açdı. Tubu içəri keçdi. Şəfəqi heç vaxt belə qiyafədə görməmişdi o. Gəlinin islanmış, şüşə kimi sığallı bədənində adda-budda su





damcıları dənələnmişdi. Mərmər sinəsi, irəli çıxmış döşləri, onların da ucunda qara, böyük gilələr, içəri batmış göbəyi, yumru yanları Tubuya bir an içərisində qəribə göründü. Özlüyündə ona qarşı hardasa, paxıllıq hissi oyandı. Sonra da bu hiss bir an içində əridi, ürəyində: — Qardaşıma halaldı, — deyə düşündü. Şəfəq Tubunun təkidi ilə suyun altına girdi. Yüksək təzyiqlə süzgəcdən fışqıran dumduru sular Şəfəqin şüşə kimi bədənindən üzü aşağı axıb getdikcə adama elə gəlirdi ki, mərmər üzərində qəribə, cəlbedici izlər salırdı. Gəlin suyun təzyiqindənmi, ağız-burnunun su ilə dolub nəfəs ala bilməyəcəyindənmi gözüyumulu Tubuya tərəf çevrildi. Qabaq hissədən boyun-boğazından, ağ büllur sinəsindən axan suların yarısı Şəfəqin döşlərinin arasından özünə yol açıb gedirdisə, qalanı da səmtini dəyişərək döş gilələrinin ucundan kənara sıçrayırdı. Mənzərəni heyranlıqla görən Tubuda qeyri-adi, füsunkar hisslər oyandı. Su damcılarından bəziləri Şəfəqin bədəninə dəyib kənara sıçrayanda, Tubunu hissiyatından ayırdı. Dedi:

— Əynindəki qapağı da çıxart.

— Çıxara bilmərəm.

— Niyə?

— Utanıram.

— Bəsdi, sən Allah, dedim, özünü naza qoyma. Lazım gəlsə...

— Nə?

Tubu əlini qapağa atıb qəsdən üzüaşağı çəkdi. Şəfəq əli ilə müqavimət göstərirdi ki, rezin qırıldı. Naəlac qalan Şəfəq qapağı ayağından çıxarmağa məcbur oldu. O, bir qədər sıxıntı keçirərək qımışdı. Tubu dərhal: — Kisəni ver, — dedi.

Şəfəq suyun altında kisəni Tubuya tərəf uzatdı. Baldızı onu alıb suyun altına tutdu, o yan-bu yana çevirdi, islandığını görüb sıxdı. Kisədən axan su şırıltı ilə vannadakı suyun içinə töküldü. Sonra kisəni sabunladı və: — Üzünü o tərəfə çevir — dedi. Şə-

fəq utana-utana arxasını Tubuya tərəf çevirdi. O, — Üstümü islada bilərsən, bir az da dön, özün də aşağı əyil, vannanın qırağından yapış, yıxılarsan, — deyə təkid elədi. Şəfəq baldızının dediklərinə əməl elədikcə Tubuda qadın hissiyatından çox kişi ehtirası doğdu. Baldızın gözləri qardaş arvadının yançaqlarına, nə bilim haralarına dikilmişdi. Şəfəqin sağ yanında yaş yarımlıqda olanda isti peçə toxunuban yanan yaranın güclə sezilən izləri vardı. Tubu qardaşı arvadının kürəyini kisələdi, sabunladı, sonra da: — Gir suyun altına — dedi. Yaş saçlarının nizamını itirərək, gəlinin üz-gözünə səpələndiyindənmi, su sıçratmalarından başı özünə qarışdığındanmı, isti suyun buxarı vanna otağını bürüdüyündənmi Şəfəq Tubunu aydınlığı ilə görmürdü. Ona görə də o, baldızının keçirdiyi qadına uyuşmayan əcaib hissləri duymurdu. Əslində belə hisslər Şəfəqin yuxusuna da gəlməzdi. O suyun altında gah başını, gah üz-gözünü, gah da bədənini sabunlayır, sürtələyirdi. Su başından, boyun-boğazından, çiyinlərindən bədəni boyu, ağ, şümşad baldırlarına süzülüb vannadakı çirkab suya qarışırdı. İsti su dəydikcə Şəfəqin yanaqları qızarır, ağ, büllur sinəsi daha cazibədar görünürdü. Göbəyindən xeyli aşağıda, solda, qasığının qurtaracağı ilə qarın nahiyəsinin başlanğıcında anadangəlmə balaca bir qara xalı da vardı Şəfəqin. Dumduru isti suyun şırıltı ilə axıb töküldüyü bir məqamda Tubunun gözləri bu xala dikildi. Rezini qırılan qapaq Şəfəqin əynindən çıxmasaydı, Tubu qardaşı arvadının nə yanındakı yara izlərini, nə də qasığındakı kiçik qara xalı görə biləcəkdi. Şəfəq dedi:

— Çoxdandı kürəyimə əl dəymirdi.

— Necə yəni çoxdandı?

— Sizə gələli.

Tubu bir qədər ciddiyyətlə:

— Əvvəllər sürtənin kim olub?

Tubunun səsindəki qeyri-səmimiyyəti, kinayəni Şəfəq açıq-aydın tutsa da özünü o yerə qoymadı. Sakitcə dedi:





— Mənimlə bir otaqda qalan rəfiqəm...

— Hə... hə... Mən getdim.

Şəfəq qol-qıçlarını sabunladı, yaxalandı. Vannadan çıxıb baş-gözünü, bədənini quruladı. Təmiz paltarlarını geyinib vanna otağından çıxdı. Mətbəxə keçdi. Çaydanı qaz pilətəsinin üstünə qoymaq istəyirdi ki, yan otaqdan qayınanasının səsi eşidildi:

— A qızım həmişə təmizlikdə, gəl evə, çay hazırdı, Tubu bir stəkan çay versin iç.

— Hə, gəlirəm, ana.

Tubunu gözləmədən mətbəxə keçən Şəfəq hərəyə bir stəkan çay süzüb qayınanasıgil əyləşən otağa gətirdi. Qəhmər dedi:

— A qızım, baldızın gətirərdi də.

Tubu:

— Qiyamət qopdu. Çayı mütləq mən gətirməliyəm?

— Sən çiməndə yox, o, gətirər.

— Belə getsə, bizi bir-birimizə qırdıracaqsan.

— Sənə borcunu xatırladıram.

— Borcumu yaxşı bilirəm. Məni az çərlət.

Şəfəq:

— Burda nə var ki, ana? İndi mən gətirmişəm, bir azdan da bacım gətirər.

Tubu acıqla:

— Yadınızda qalsın, bu xarabaya mehtər olmağa gəlməmişəm.

Qəhmər səsini qaldıraraq:

— Ağlını başına yığ. Əvvəla, bura xaraba deməyə necə dilin gəlir? İkincisi, ailəyə kömək, evdə iş görmək mehtərlik deyil. Belə düşünmək ən azı yaramazlıqdı. Vaxtında ciddi səhvlərə yol verdim. Neylədin, dözdüm. Qəlbini qırmaq istəmədim. Cəzasını da indi çəkirik. Hələ çox çəkəcəyik də. Bir insan ki özü düşünməsin, Allahını başının üstündə görməsin, onda insanlıqdan söhbət gedə bilməz.

Tubu:

— Eh... İnsan... İnsan... Daha bezmişəm bu sözdən mən. Belə çıxır ki...

— Haqqı nahaqdan ayırmayanın, məsuliyyəti başa düşməyənin, elədiyi günahını sonradan duyub nəticə çıxarmayanın heyvandan fərqi olmaz. Nə olsun ki insan cildindədi.

Ana ilə qızı arasındakı ziddiyyətin getdikcə kəskinləşdiyini və bunun da baisinin hardasa Tubu özü olduğunu düşünən Şəfəq bəhanə eləyib yan otağa keçdi. Beşiyə yaxınlaşıb öz-özü ilə oynayan körpəsini qucağına aldı. Qayınanası ilə baldızı arasındakı söhbətin səmtini dəyişmək üçün uşağı nənəsinin yanına apardı. Sonra da qayınanasına müraciətlə:

— Ana, bax, gör, nəvən babasına oxşayırmı?

Qəhmər uşağı görcək gülümsündü, heç bir şey olmamış kimi nəvəsini qucağına alıb başı üzərinə qaldırdı və avazla oxumağa başladı:

Qurban olum boyuna,
Ellər gəlib toyuna.
Bir hava çaldırsana
Qızlar girsin oyuna.

Balama qurban inəklər,
Balam haçan iməklər.
Balama qurban sərçələr,
Balam haçan dirçələr?

Bayaqkı əsəbiliyin ötüşdüyünü görən Şəfəq uşağı qayınanasından aldı. Onun dili ilə dedi:

— Bax, nənə, bibi, hər gün mənimlə oynamasanız, sizdən küsəcəm, inciyəcəm. Axı mən sizinəm. Babanın nəvəsiyəm. Babanın adını mənə qoymusuz.

Qəhmər:

— Yaxşı, yaxşı, mənim balam. Səni başa düşdüm. İndi sən də





get ye, iç. Qarnın doysun. Bir azdan yenə gələrsən. Danışarıq. Oynarıq... Sən tez böyü, cana dol, möhkəmlən. Nənən əlindən tutub səni həyətdə gəzdirəcək... Səni, heç anana da, atana da ümid olmayacaq. Ömrüm-günüm. Şirin dilim... Qaldı Tubu bibinə. O, özü bilər.

Tubu:

— Vallah, arvad dava-davadı, ey. Deyəsən, ana-bala saçyolduya çıxmalı olacağıq. Bunda deyiblər e: "Qocalanın ağlı olmaz".

Bunu eşitcək qan az qala Qəhmərin beyninə vurdu. O, istədi qabağındakı qənddanı götürüb vursun Tubunun başına, üz-gözünü qana boyasın. Elə bil Şəfəq bunu başa düşdü, bir əlində körpəsini tutub, o biri əli ilə qənddanı, stəkanları götürüb məcməyiyə qoydu. Sonra da təkəlli məcməyini mətbəxə apardı. Qadının isə ağlamaqdan başqa çarəsi qalmadı. Bunu görən Tubu da ayağa qalxıb Şəfəqin ardınca getdi. Şəfəq baldızına "Ana ilə elə rəftar eləməzlər" demək istəyirdi ki, telefon zəngi otağı bürüdü. Şəfəq gedib dəstəyi götürdü: — Alo, eşidirəm, — deyə dilləndi. Dəstəkdən zəif, məlahətli qadın səsi eşidildi. Səs tanış gəlsə də o, danışanın kimliyini araşdıra bilmədi. Dərhal soruşdu:

— Kimdi danışan?

— Pəri.

— Hə... hə... Nə yaxşı. Təbrik eləyirəm səni.

— Sağ ol, qayınanam mənə zəng çaldığını demişdi. Neçə gün idi ki, telefonumuz işləmirdi. Bağışla, bacım, ona görə də neçə gündü sənə zəng çala bilməmişəm.

— Nə bağışlamaq? De görüm, necəsən? Qızın necədi?

— Mən də yaxşıyam, o da.

— Adını qoymusunuzmu?

— Hə... Bilirsən necə?

— Yox.

— Şəfəq.

Şəfəq ucadan güldü. Sonra:

— Xoşbəxt olsun.

— Oğluna verəcəm.

— Oy... Allah qızını da, özünü də sağlam eləsin. Təki sən deyən olsun. Biz razı.

— Hümmət qardaşa da, qayınanana da salam söylə.

— Çox sağ ol.

— Qoy özümə gəlim, Allah qoysa, görüşərik. Hələlik...

* * *

Günortaya az qalırdı. Hava tutqun və çiskinli olduğundan günəş də görünmürdü. Hümmətlə Tubu səhər işə getdiklərindən qayınana ilə gəlin evdə oturub yeni söz tapa bilmədiklərindən keçmişdə baş verənləri təkrarən həvəslə danışıb gülürdülər. Elə bu vaxt binanın girəcəyində hay-küy qopdu. Onlar gözlənilməz haray-qışqırıqdan çaş-baş olub qaldılar. Qarmaqarışıq səslər içərisində hərdən bir "ay ana, öldüm", "kömək eləyin", "qoymayın, məni doğradı", "vallah günahsızam", "öldürmə məni" kəlmələri eşidilirdi. Qəhmər nə deyəcəyini bilmədi. Qorxu, təlaş, həyəcan hissi bürüdüyündən Şəfəqin bədəni tir-tir əsməyə başladı. Səsə Qəhmər qapını açıb çölə çıxdı və bir anlığa gözlərinə inanmadı. Qonşulardan kimisi Güləli kişinin evinə qaçır, kimisi də qorxu, təlaş içərisində evdən çıxırdı. Qəhmər qonşu Gülzar qarıya yaxınlaşıb nə hadisə baş verdiyini soruşdu. Qarı astadan: "Öldürdü", "Al-qana boyadı", — dedi. Qəhmər hadisənin ciddiliyini anladı. O, heç bir söz demədən hadisə baş verən otağa keçmək istəyirdi ki, Vəli əlində uzun tiyəli bıçaq qapıdan çıxdı. Gözləri hədəqəsindən çıxmışdı. Qarabuğdayı bu adamın sifəti ölü sifəti kimi bozarmışdı. Üz-gözü, üst-başı, əynindəki dümağ köynəyi al qana boyanmışdı. Hirsindənmi, qəzəbindənmi, qorxusundanmı, tutduğu əməlinin peşmançılığındanmı o, heç kəsə





bir söz demədən pilləkənləri üzüaşağı enməyə başladı. Vəlinin gedişi adamlarda qorxu, təlaş hissini azaltsa da, içəridəki hay-küy öz tağında davam eləməkdə idi. Qəhmər adamların arasından çətinliklə də olsa, içəri keçdi. Dəhlizdə evin gəlini Yetərin al-qana boyanmış cəsədinin sərildiyini gördü. Ona yaxınlaşdı. Gəlinin mədəsinin üstündə, qarnında bıçaq yerlərini sezdi. Gəlinin gözləri bərələ qalmışdı. Qəhmər onun gözlərini qapadı. Öz-özünə: — "İstanbula, Dubaya, nə bilim haralara gedəndə, a bədbəxt, bilməliydin taleyinin nə ilə bitəcəyini", — deyə düşündü. Qonşu arvadlarından kimsə dedi:

— Böyük faciədi. Qışqırmağın vaxtı deyil. Meyidin üstə bir şey sərin. İndi yəqin həkimlər də, hökumət adamları da gələrlər.

Yetərin qayınanası Sabah, qonşuları Taliyə xanım, Zübeydə qarı, Şikar arvad cənazəni dövrəyə almışdılar. Hamı dəsmal götürüb ağlayırdı. Nitqlər tutulmuşdu. Heç kim danışa bilmirdi. Sabah: — "Mənim başıma daş düşdü. Evim yıxıldı. Bu yaşımda mən başıma haranın daşını salım?" — deyib başına döyməyə, üz-gözünü cırmağa başladı. Zübeydə qarı ayağa qalxıb yan otağa keçdi. Yataq çarpayısının üstünə sərilmiş üzlüyü götürdü, gətirib Yetərin cəsədi üstə sərdi... Səs-küyü eşidib hadisə yerinə gələnlərin sayı getdikcə artırdı. Deyən kim, ağlayan kim? Gələnlərdən kimisi də yanındakına: "— Niyə öldürdü?" "Kim öldürdü?" — suallarını verirdilər. Səbəbini bilirdilərsə də, bilmirdilərsə də kimisi çiyinlərini çəkir, kimisi sualı eşitmirmiş kimi üzünü yana çevirir, kimisi də "Bilmirəm" deməklə canını şahid-sübutçuluqdan qurtarmağa çalışırdı. Çox keçməmiş qapı ağzında kimsə: — Gəldilər, — deyə səsləndi. Qabaqda cani, arxasınca da hüquq mühafizə işçiləri otağa daxil oldular. Ucaboy, qəddi-qamətli Vəli bir an içərisində sanki qocalmışdı. Ayağını hara necə atdığını bilmirdi. Qıçı-qıçına dolaşırdı. Həmişə ucadan, iti-iti danışan, tez-tez zarafat eləyən, üzügülər Vəli heç elə bil əvvəlki adam deyildi. Hadisədən uzaqlaşdıqca o, hərəkətlərini daha aydın tə-

səvvür eləyirdi. Ömrü boyu toyuq başı kəsməyən bu adam indi arvadını öz əlləri ilə qətlə yetirmişdi. Vəli otağa girən andan başını qaldırıb nə adamlara, nə də dəhlizdə sərilmiş Yetərin cəsədinə baxırdı. Onu təkcə düşündürən qoca, əli işdən qalan nurani atası Güləli, ağbirçək, pirani anası Sabah, bir də uşaq bağçasındakı, anasının ölümündən xəbərsiz dörd yaşlı qızı Təranə idi... O, müstəntiqlə üz-üzə, hüquq-mühafizə orqanının digər işçiləri ilə yan-yana dayanmışdı. Özü də hissiz, duyğusuz, həyəcansız. Buz kimi soyuq. Daş kimi donuq. Gələcəyinə ümidsiz... Sabah arvad oğluna tərəf bir-iki addım atdı və ağlaya-ağlaya dedi: — Sən neylədin? Arvadına əl qaldıranda qoca atanın, mənim, bircə balanın barəsində düşündünmü? Atan eşidəndə ki sən arvadını bıçaqla öldürmüsən, onun ürəyi çatlamayacaq ki?! Yetərin ata-anasına, bacı-qardaşına, qohum-əqrəbasına nə cavab verəcəyik? Yaşamaq istəmirdiz, qəlbiniz bir-birinizdən qırılmışdı, ayrılaydız. Yaxşı, mən Təranəyə necə deyim ki, ananı atan öldürdü? Onun məsum uşaq qəlbi buna dözəcəkmi? Yox! Yox!.. Sən qızının gözlərində birdəfəlik "anasının qatili" kimi qalacaqsan! Arvadınsa xəyanətkar, namussuz adlanacaq!.. Güləlinin ailəsinin günahı nədir ki, bu bədnam adı üzərinə götürsün?.. Niyə atanın nəsihətlərinə baxmadın?.. Niyə məni eşitmədin? Niyə qızına rəhmin gəlmədi, oğul? Qızın indi uşaqdı, sabah ağlı söz kəsəndə, sizin əməllərinizi götür-qoy eləyəndə, barənizdə eşitdiklərini ölçüb-biçəndə hansı qənaətlərə gələcəyini fikirləşdinmi? Yox!.. Heyf!.. Gözümün ağı-qarası, balam. Arvadını öldürdün. Sən həbs olundun. Qoca atanın, ağbirçək ananın cənazəsinə kim girəcək? Onlar vəsiyyətlərini, nəsihətlərini kimə eləyəcəklər? Dünyalarını dəyişərkən onların gözləri axı səni axtaracaq... Sənin üzünə, gözlərinə baxmaq, nəfəsini duymaq, səsini eşitmək istəyəcəklər, oğlum. Sən Allahın da qarşısında cinayət elədin? Axı öldürdüyünü sən yaratmamışdın?!"

Ananın dediklərini eşidən müstəntiq dərindən köksünü ötür-





dü. Pəncərəyə sarı bir-iki addım atıb sakit tərzdə Sabah qarıya üzünü tutaraq dedi:

— Ana, hadisə baş verib. Cinayət törədilib. Qətl var. Onlar barədə danışmaqla, ağlayıb-sıtqamaqla iş düzələn deyil. Səni başa düşürəm, anasan. Ancaq biz indi təhqiqat aparmalıyıq. İmkan verin, işimizə başlayaq. Onsuz səninlə də, Güləli kişi ilə də, yeri gəlsə, qonşularla da söhbətlər aparılacaq. Əlaqəsi olanlardan izahat alınacaq.

Müstəntiqin sözlərini eşidənlər yavaş-yavaş çəkilib gedirdilər. Bunu Sabah da, müstəntiq də, elə Vəli də görürdülər. Qonşular otağı tərk elədikdən sonra müstəntiq Vəliyə sual verdi:

— Bu cinayəti törətməyə səni nə vadar etdi?

— Namus.

— Necə yəni namus. Açıq danış.

— Mənə xəyanət.

— Sübut varmı?

— Var.

— Yaxşı, indi necə oldu ki, arvadını öldürdün?

— Açığını deyim ki, mən onun izinə çoxdan düşmüşdüm. Əvvəl gəzdiyi oğlanla — Şamillə haqq-hesabı çürütmək istəyirdim, sonra bununla. Mətbəxdə əyləşib çörək yeyirdik. Nahardan sonra ona işdən çıxmasını təklif elədim. O, razılaşmadı. Üstəlik: — İşləyəcəyəm, ev qadını olmayacağam, — dedi. Mən Şamillə münasibətini ona xatırlatdım: — Bu işdən əl çək, — deyə bildirdim. O da mənə: — Əcəb eləyirəm, kişisən, təmin elə, gəzməyim, — dedi. Yetər bu sözləri elə hökmlə bildirdi ki, mən əsəblərimi cilovlayammadım. Stolun üstündəki çörək bıçağını götürüb bir neçə dəfə onu vurdum. Otaqdan çıxıb dəhlizə qaçmaq istədi. Sonuncu zərbəni də dəhlizdə endirdim. O, qışqırıb yıxıldı. Səsə anam yan otaqdan gəldi. Qarşıma keçib: — Öldürmə, mənə bağışla, — dedi. Ancaq hər şey gec idi. Hər şey olub bitmişdi...

Müstəntiq işini görüb qurtardı və onun nəzarəti altında Yetərin meyidi otaqdan çıxarılıb təcili yardım maşınına qoyularaq xəstəxanaya göndərildi.

Müstəntiqin sorğu-sualından sonra hamıya bəyan oldu ki, əri Yetəri namus üstündə öldürmüşdür. Bunu eşidən qonşulardan kimisi: "Vəli kişi imiş", "Vəli düz eləyib", "Yetər gəzəndə bu gününü görməliydi", kimisi də: "Səhv eləyib", "Görürsən gəzir, boşa getsin" deyirdi. Bayaqdan bəri ayaq üstə dayanıb sarsıdıcı, vahiməli duyğuların təsiri altında hadisəni müşahidə eləyən Qəhmər təəssüf və təəccüb hissi ilə evə qayıtdı. İçəri keçib başını yellədi, sonra bildirdi:

— Biabırçılıq... Böyük peşmançılıq.

Şəfəq:

— Niyə? Nə olub ki?

— Vəli Yetəri bıçaqla öldürüb.

— Nə?

— Hə... Şeytana lənət. Vəli gərək elə eləməyəydi, boşayaydı, vəssalam.

— Niyə?

— Deyilənlər yalan deyilsə, namus üstündə.

— Yəni yalan da ola bilər?

— Hər şey ola bilər, qızım, yaxşı da, pis də. Ağıllı o adamdır ki, görəcəyi işi hissə qapılmadan, yüz dəfələrlə ölçüb-biçsin. Ən düzgün nəticəni çıxarsın. Onda belə hadisələr baş verməz.

— Ana, əgər doğrudan da Yetər ərinə xəyanət eləyibsə, o, ölümə layiqdi. Cinayətin törədicisi, baisi Yetərin özüdü. Ərini də oturduğu yerdə bəlaya salıb.

— Gərək Vəli öldürməyəydi, boşayaydı.

— Əgər arvad ərinə qiymət qoya bilmirsə, ərinin şərəf və ləyaqətini yüksəltməyə çalışmırsa, əksinə, alçaldırsa, onun pis, nalayiq, üfunətli əməllərini yalnız torpaq örtə bilər. Ölüm yuya bilər.





— Çox sağ ol, qızım. Ayağı sürüşkən, şərəfsiz qadın it kimi bir şeydi. Bu heç də kişiyə haqq qazandırmır ki, xəyanətkar arvadını öldürsün. Özü dama girsin. Ata-anasını, yaxud ailənin digər üzvlərini də fəlakətə düçar eləsin. İnsanı yaradan Allah heç kəsə haqq verməyib ki, kimsəni öldürsün. Kimsəyə qəsd eləsin.

— Eh, ana, bədənimə üşütmə gəldi.

— Niyə?

— İnsana qəsd ağırdı, ana. Uşağa yazığım gəldi. Valideyn nəvazişindən məhrum oldu.

— Hə... Əsas uşaqdı. Görünür nə Vəli, nə də Yetər uşaq barədə düşünüblər. Söhbətin səmtini dəyişək, qızım. Bu yaşa gəlmişəm, ancaq gözlərim belə şey görməyib. Dəhşətdi...

* * *

Qaş qaralırdı. Hümmət hələ də işdən evə qayıtmamışdı. Şəfəq bunun üçün bərk həyəcan keçirirdi. O, öz-özünə düşündü: "Son vaxtlar Hümmət evə belə gec gəlməmişdi". Şəfəq bir az da gözlədi. Nigarançılığı artdı. Qayınanasına bir söz deməsə də tez-tez gah mətbəxə, gah otağa keçir, gah da balkona çıxırdı. Qayınana gəlinin narahatlığını sezsə də, üzə vurmadı. Şəfəq axır ki özünü saxlaya bilməyib: — Bizimkilər harda qaldılar? — deyə astadan soruşdu. Qəhmər divardakı saata baxdı. Saat iyirmidən keçmişdi. Qadın çiyinlərini çəkdi, sonra da bildirdi:

— Hümmətdən ötrü həyəcan keçirmə. O, kişi xeylağıdı, dostları, tanışları ilə çayxanaya, yeməkxanaya gedə bilər. Qısqanmaq lazım deyil. Mənə elə gəlir ki, sənin ərin dünyanın ən namuslu, ən qeyrətli, ən ailəcanlı oğullarındandı. Heyf ki, bir az kasıbdı. Nə olar? Adamın kasıb olması qəbahət deyil. Qəbahət adamın özünün, ailəsinin adını, namusunu, şərəfini qorumamasıdı.

— Babam da kasıbdı. Gündəlik çörəyini güc-bəla ilə qazanır.

Mən onun nəvəsiyəm. Kasıblığa öyrənmişəm. Kasıbın qazancı halal olduğu üçün yediyi də halal olur. Bir də ki gərək kişinin qəlbi zəngin olsun. Oturuşu, duruşu ləyaqətli olsun. Özünə, ailəsinə ləkə gətirməsin. Məni bağışla, ana, açıq danışdığım üçün. Hümmətsiz bir günüm də olmasın. Oğlunu sevib-seçib gəlmişəm. Canım da ona...

Elə bu vaxt Hümmət evə zəng çalıb bir qədər gecikəcəyini Şəfəqə bildirdi. Ananın da, gəlinin də nigarançılığı sovuşdu. Qəhmər indi Tubu barədə fikirləşirdi. Özü də səbirsizliklə. Ana yaxşı bilirdi ki, qızının işi çoxdan qurtarıb. Hardasa ləngiyir. Qəhmər özünü saxlaya bilməyib Şəfəqdən soruşdu: — Yaxşı, Tubu bu vaxtacan harda ola bilər? Kiminlə ola bilər? Olduğu adam nə ağılın sahibidi?..

Şəfəq qayınanasının suallarına qəsdən cavab vermədi. Qəhmər balkona çıxıb özünün, Tubunun, Hümmətin paltarlarının yuyulub ipdən sərildiyini gördü. Həyət-bacada tək-tək adam görünsə də onların heç biri Tubuya oxşamırdı. Soyuq ona təsir elədiyindən balkonda çox dayanmadı. Boyun-boğazını, çiyinlərini oynada-oynada otağa qayıtdı. — Şəfəq, qızım, — dedi. — Bundan sonra ərinin və özünün paltarlarını yu, ütülə, səliqəyə sal. Tubu ilə mənim paltarlarıma dəymə.

— Niyə, ana? Mən bu ailənin üzvü deyiləm? Bu evdə çörək yemirəm?

— Yadında saxla. Ailənin də üzvüsən. Ərinin də çörəyini yeyirsən. Onun qazancına sən şəriksən. Söhbət bundan getmir. Sənin bizim işimizi görməyin Tubunun ayaqları altına daş qoyar, arxayın salar, elə nəticə çıxarar ki, ona xidmət sənin borcundu.

— Yox... Tubu elə baldız deyil.

— Sən qızımı məndən yaxşı tanıyacaqsan?

Tubu gecikdikcə Qəhmər möhkəmcə əsəbiləşirdi. O, özlüyündə gah qızını, gah da belə qızın anası olduğu üçün özünü məzəmmətləyirdi. “Bu hərəkətlərinə görə ailəsi dağıldı”. Hümmət





evə gəlib, — Tubu hardadı? — deyə soruşsa, mən ona necə cavab verəcəm? Deyəcəm ki, bilmirəm? Deməz ki, bəs sən nə anasan?.. Qızının yerini bilmirsən... Hərəkətlərindən xəbərsizsən... Ərsiz qadın gecənin bu vaxtı şəhərdə nə gəzir? Kimlərlə gəzir? Rəfiqəsigildədi desəm, inanarmı? Lap tutaq ki, sözümə inandı. Soruşmayacaq ki, bacımın rəfiqəsi kimdi? Vallah, qan iyi gəlir qızımın əməllərindən. Yazıq Vəli də görünür belə olub. Qeyrəti götürməyib. Pis arvad, pis övlad olmağındansa, olmaması yaxşıdı...

Qəhmər fikirlər içərisində çabalayırdı ki, qapının zəngi çalındı. O, divardan asılmış saata baxdı. İyirmi üçə işləyirdi. Gələn Tubu idi. O, içəri keçib salam verdi, sonra da: — Hümmət evdədimi? — deyə soruşdu. Şəfəq: — Yox, hələ o da gəlməyib, — deyə cavab verdi. Spirt qoxusu verən Tubu sevindi, üzündə ani bir təbəssüm duyuldu. O, gəlib anası ilə üzbəüz əyləşdi. Ana qızının gəlişinə etinasız yanaşdı. Salamını da incik, küskün halda aldı. Bunu açıq-aydın Tubu da duydu. Şəfəq: — Yemək hazırdı, — deyə Tubunun üzünə baxdı. O, dərhal: — Ehtiyacım yoxdu, — deyə cavab verdi. Qəhmər əsəbi halda qızına:

— Hardan gəlirsən?

— Elşənin ad günündən.

— Axı, bu Elşən donuz oğlu kimdi?

— İş yoldaşım.

Şəfəq ana ilə qız arasındakı sözləri eşitməsin deyə, öz otağına çəkildi. Qəhmər sözünə davam etdi:

— Deyəsən, içkiyə qurşanmısan? Elşən kişi, sən qadın.

— Nə olsun ki?

— Canına dərd olsun. Səni doğunca daş doğaydım.

— Kişi ilə qadın dostlaşa bilməz?

— Olar. Yatağa qədər.

— Yataq da insanlar üçündü.

— Alçaq qız. İtil gözlərimdən.

— Nə qədər bir kişi ilə oturub-durmaq olar?

— Alçaq. Qeyrətsiz. Namussuz. Ləyaqətini, şərəfini ayaqlar altına atan.

— Başa düş, ay arvad, Elşən mənim ərimdi.

Qəhmər başını qolları arasına aldı. Sonra da öz-özünə astadan dedi:

— Yetərin başına gələn hadisə gec-tez sənin üçün də... Sən o yolu getməlisən, ancaq mən Hümmətdən qorxuram.

— Yetərə nə olub ki?

— Əri onu doğradı.

— Niyə?

— Bilmirəm. Onu qonşulardan soruş. Özünü satan, ayağı sürüşkən qadının qəbahətlərini ancaq ölüm təmizləyə bilər.

Tubu anasını hövsələdən çıxarmışdı. Elə bu vaxt: — Gələn Hümmətdi, — deyib öz otağından çıxan Şəfəq tez qapıya tərəf qaçdı. Qapını açdı. Hümmətin üz-gözü qızarmışdı. Əhvalı da bir az yuxarı idi. O, içəri girən kimi dəhlizdə Şəfəqdən savayı heç kəsi görmədiyindən arvadının burnundan yapışıb özünə tərəf çəkdi. Üzündən, dodaqlarından öpdü. Şəfəq: — Anamgil görər, — deyə tələm-tələsik geri çəkildi. Hümmət anasıgil olan otağa keçdi. Onları əsəbi görcək qayıdıb arvadının üzünə baxdı. Şəfəq yaranmış vəziyyəti açıqlamamaq üçün qəsdən: — Vəli arvadı Yetəri bıçaqlayıb öldürüb, — deyə cavab verdi. Qəhmər dərhal anladı ki, Şəfəq özü bilərəkdən söhbəti dəyişdi. Bununla Tubunu da, Qəhməri də vəziyyətdən çıxartdı. Hümmət: — Vəlidən adam öldürən olar? — deyə ucadan güldü və anasının üzünə baxdı. Qəhmərə elə gəldi ki, bu baxışla oğlu hadisənin — Vəlinin arvadını öldürməsinin həqiqiliyini öyrənmək istəyir. Ona görə də Qəhmər gəlinin dediklərini başı ilə təsdiqləyərək:

— Öldürdü, oğul, öldürdü, — dedi.

— Niyə?

— Deyirlər namus üstündə.





— Axı Yetər elə qadına oxşamırdı.

— Bəlkə də. Ancaq Vəli müstəntiqə elə izahat verdi. Bir də ki, elə-belə, yaxud da xırda-xuruş şey üstündə adamı öldürməzlər ki?

— Ana, şəhərdə namuslu, qeyrətli, ailəsini, uşağını yüksək qiymətləndirən qadınlar da çoxdu. Şərəfini ayaqlar altına atanlar da, tində-bucaqda dayanıb kişi gözləyənlər də. Beş-üç manata, bir kilo makarona özünü satanlar da. Belələrinin ata-anası, qardaşları, ərləri hara baxırlar bilmirəm. Bu qədər əxlaqsızlıq olmaz axı?

Şəfəq özünü saxlaya bilməyib:

— Elələri öldürülməlidi, başqaları da ondan nəticə çıxarsınlar.

Qəhmər çəp-çəp qızının üzünə baxdı, sonra əlavə elədi:

— Doğru deyirsən, qızım. Ancaq işin o biri tərəfi də var. Pozğunu öldürənin aqibəti necə olacaq? Ömrü boyu dörd divar arasında çürümək. Doğmalarını, yaxınlarını vay-şivən içərisində qoymaq. Qalanları daha böyük fəlakətlərə, tufanlara, qasırğalara atmaq. Ən dəhşətli bataqlıqlara sürükləmək. Məncə, Vəli böyük səhv elədi, qızım. Yetəri boşamaqla o, həm özünü məhv eləməzdi, həm qoca ata-anasını qoymazdı pis günə, həm də qızının tərbiyəsi ilə əməllicə-başlıca məşğul olardı.

Tubu:

— Nə ölüb-öldürmək. Səninki tutmadı, vaxtında ayrıl. Nəyə gərəkdi o boyda həngamə? Kişilər oğraş olurlar.

Hümmət:

— Kişiləri çox vaxt arvadları oğraş eləyirlər. Xəyanətkar arvada kişi neyləsin? Kişinin başı qarışır çörək qazanmağa. Arvad-uşağa pal-paltar almaq üçün pul toplamağa. Arvad da öz işində. Nə yaxşı ki, hamısı belə deyil. Nə isə. Mən də deyirəm, Vəli gərək öldürməyəydi, boşayaydı. Vəssalam. Bununla da canı qurtarаydı. Bilsəydim hadisə baş verib, tez gələrdim. Yaxşı deyil.

Güləli kişiyə, Sabah qarıya gedib baş çəkərdim. Təskinlik verərdim. Balam, adamlardan gözləmədiyin şey alınır. Kim deyə bilərdi ki, Vəli adam öldürər? Mən onu çox sakit bilirdim.

Tubu:

— Eşitməmisən, adamın yerə baxanı, suyun lal axanı.

Qəhmər:

— Namus, qeyrət qanda olur. Onu sonradan adamın damarlarına şprislə yeritmirlər. Qan coşdu, hər nə desən olar. Bir də ki elə vəziyyətdə adamı ağıl yox, hisslər idarə eləyir.

Hümmət:

— Nə isə. Çox pis hadisə. Gərək belə olmayaydı... Yaxşı deyil, qonşudular, inciyə bilərlər, sabah gedim həm dərdlərinə şərik olduğumu bildirim, həm də bəlkə bir şeyə ehtiyacları var, onu öyrənim.

— Heyf, oğlum. Ailə dağıldı. Yerlə-yeksan oldu. Güləli də, Sabah da ömürlərini yaşayıblar. Heyf o balaca uşaqdan, qaldı onun-bunun bucağında. Əmidən, dayıdan, xaladan, bibidən uşağa ata-ana olmaz.

Şəfəqin keşməkeşli taleyi, acılı, əzab-iztirablı həyatı bir anlığa gəlib durdu gözlərinin qabağında. Heç özü də bilmədən Yetərin qızına yazığı gəldi. Hardasa öz taleyi ilə balaca Təranənin taleyində bir oxşarlıq, bənzərlik, gördü. — Yazıq qız, — deyə düşündü.

* * *

Tubunun ər evindən çıxıb anasıgilə gəlməsindən xeyli vaxt keçirdi. Bu müddət ərzində Qəhmərin, Hümmətin Şəfəqə olan şəffaf, həssas münasibətinə qısqanclıq hissi keçirirdi Tubu. Bununla belə o, daim düşünürdü ki, Şəfəq olduqca gözüaçıqdı. Hərəkətləri Şəfəqin diqqətindən kənarda heç vaxt qala bilməz. Qalsa da anasının açıq-saçıq dediklərini, məzəmmətlərini nə





vaxtsa ərinə çatdıracaq. Onu yavaş-yavaş qardaşının gözündən salmağa çalışacaq. Zaman gələcək, Hümmət: — Çıx bu evdən, sənin kimi bacı mənə lazım deyil, — deyə onu evdən qovacaq. Tubu bütün bunları düşündükcə evdə özünə rahatlıq tapa bilmirdi. Son günlər o, özlüyündə qəti şəkildə əminlik yaratmışdı ki, Şəfəqi iki halda çıxılmaz vəziyyətdə saxlamaq mümkündür. Birinci halda o, qardaşı arvadını özünün ardınca çəksin, gündə biri ilə oturub-durmağa, özünü satmaqla qazanc əldə eləməyə yönəltsin. Belə olarsa, həm Şəfəqin uzun dili gödələr, məndən qardaşıma artıq-əskik söz deməz, həm də qazandıqlarından alıb geyinib-keçinməyimə, şəhər məhəllələrindən birində özümə ev almaq üçün sərf edə bilərəm. Tubu onu da yaxşı bilirdi ki, bu, çox qorxulu tarandı. Olduqca böyük həssaslıq, ehtiyatla yanaşma tələb eləyir. Bu işdə Şəfəq ehtiyatsızlıq eləsə, qardaşı Tubuya bu əməlini bağışlamayacaq.

İkinci yol Şəfəqlə Hümmətin arasını vurmaq, münasibətlərini korlamaqdı. Ancaq necə? Tubu beynini qurd kimi deşən bu əcaib fikirlər içərisində dolaşır, hansına üstünlük verəcəyini götür-qoy eləyirdi. Ancaq qəti hökmünü verə bilmirdi.

Bunun üçün gərək o, Şəfəqə olan münasibətlərini yaxın, həlim bir vəziyyətə gətirsin. Nəyin hesabına olur-olsun onu özünə inandırsın. Tubu tam əmin idi ki, Şəfəq bir az sadəlövhdü. Deyilənlərə tez inanandı. O, özlüyündə düşündü: "Bəli, Şəfəqin zəif yeri onun sadəlövhlüyü, adamlara olan inamıdı. Baxım, sınaqdan keçirim. Ağzını arıyım. Görüm nə çıxır".

Tubu əlverişli məqam güdməli oldu. Çox keçmədi tapdı. O, adəti üzrə "dostları" təşkil etdiyi ziyafətdə doyunca yeyib-içdi. Kefi duruldu. İndi xəyalı göylərdə gəzirdi. O, həmişəkindən daha tez evə gəldi. Onu qapı ağzında Şəfəq qarşıladı. Tubu qəsdən özünü elə apardı ki, guya çox içib, özünü bilmir, ayaq üstə dayanmağa çətinlik çəkir. O, Şəfəqdən anasının, qardaşının evdə olub-olmadığını soruşdu. "Yox" cavabını aldıqda xeyli sevin-

di. "Nə yaxşı" — öz-özünə düşünüb mətbəxə keçirdi ki, Şəfəq onu öz otağına apardı. Tubu çarpayının üstəcə oturdu. Şəfəq: — Bir azdan anam da, Hümmət də gələcəklər, onlar səni bu vəziyyətdə görməsinlər, uzan, dincəl, özünə gəl, sonra o biri otağa keçərsən, — dedi. Tubu Şəfəqlə razılaşdı. Sonra da ondan xahiş elədi ki, bir parça xiyar turşusu gətirsin. Şəfəq dərhal baldızının istəyini yerinə yetirdi.

Tubu ağız-burnunu əyişdirə-əyişdirə danışır, kefliliyinə Şəfəqi inandırmağa çalışırdı. O, bir az anasının səbirsizliyindən, onu hər gün nahaq yerə məzəmmətlədiyindən, qardaşının çox şeydən xəbərsizliyindən, sadəlövhlüyündən danışdı. Hər biri ilə əlaqədar Şəfəqin münasibətlərini öyrənməyə çalışdı. O da hər dəfə qayınanasına, ərinə tərəfdar çıxır, onların təcrübələrinin zənginliyindən danışırdı. Bunlar Tubunun istəyinə uyğun gəlməsə də "Yaxşı, yaxşı, qayınananı, ərini məndən çox istəməyəcəksən ki?" — deyib ucadan gülür, hərdənbir də göz-qaş oynadırdı. Onun bu hərəkətləri Şəfəqdə daxilən ikrah hissi doğururdu. Ancaq ona tez-tez "hə", "hə" deyir, özü də üz-gözündə məcburiyyətdən doğan təbəssüm yaratmağa çalışırdı. Şəfəqin hərdənbir elədiyi "hə", "hə"ləri, təbəssümləri, gülüşləri Tubunu bir qədər də "irəli çıxmağa" vadar eləyirdi. O, gözlənilmədən söhbətin səmtini dəyişdi:

— Şəfəq, cavan gəlinsən. Özün də ki maşallah gözəlsən. Şəhərdə sənin tək gözəl az-az olar.

— Yox, sən Allah, elə danışma. Nə gözəl?!

— Adamlar belədi də. Bəzən öz gözəlliklərini duymurlar, qiymətləndirmirlər.

— Çox sağ ol.

— Deyirəm, sən yaxşı adamsan. Qardaşımın bəxti gətirib. Nə deyirsə, hamısı ilə razılaşırsan. Evdən çölə çıxmırsan.

— Yaxşılığımı bilmirəm, ailəm, uşağım. Yeməyə çörəyim, geyməyə paltarım. Hümmət neyləməlidi ki? Mən ev qadınıyam.





— Deyirəm də, mən dözə bilmərəm. Axı niyə də dözməliyəm? Mənim bir rəfiqəm var. Adı da Flora. Biz onu Fira deyə çağırırıq. Bilirsən o, nə deyir?

— Yox!

— Hardan biləcəksən? O, deyir ki, dünya beş gündü. Ye, iç, istədiyin kişi ilə kef elə.

— Aaa...

— Nə aa? Biz bu dünyaya niyə gəlmişik? Eşşək kimi işləməyə, burnumuzla zibil eşməyə? Əzab-əziyyət içərisində çürüməyə? Anam məni hər gün danlayır. Belə otur, elə dur, kimsəyə baxma. Yaxşı, bir anlığa fikirləşək ki, anam deyən kimi elədim. Beş-on ildən sonra mənə kim baxacaq? Heç kim!.. Heyf deyil subaylıq?! İstədiyin kimi gey, istədiyin kimi gəz. Pullu, səxavətli kişilərin canı sağ olsun.

— Ee... Sən Allah elə danışma.

— Sən nə görmüsən, ay yazıq? Elə bilirsən kişi təkcə sənin ərindi. Bircə dəfə görsən...

Şəfəq Tubunun niyyətini yavaş-yavaş anlayırdı. Ancaq özünü qəsdən o yerə qoymurdu. İstədi ki, hər şeyi çılpaqlığı ilə Tubu desin. Ona görə də o, heç bir şey başa düşmürmüş kimi baldızının üzünə maraqla baxdı. Tubuya elə gəldi ki, istədiyinə nail olmaq üzrədi. Şəfəqi bir qədər də həyəcanlandırmaq, heyrətləndirmək gərəkdi. Bu niyyətlə də o, ayağa qalxıb çantasını açdı. Qəzetə bükülü kitabçanı götürüb geri qayıtdı. Çarpayının qırağındaca əyləşib həmin kitabçanı açdı, vərəqlədi. Şəfəqi dəhşət bürüdü. Kitabçada bir neçə lüt-üryan qadın və kişi təsvirləri müxtəlif formada, cinsi əlaqə vəziyyətində verilmişdi. Şəfəq kitabçanın səhifələrini görən kimi əsəbi halda ayağa qalxdı:

— Belə biabırçı, həyatökən şəkilləri gəzdirmək ayıbdı, Tubu. Bayaqdan bəri ağzına gələnləri danışırsan. İndi də mənə gör nələri göstərirsən? Heç olmasa qardaşından utan! Mən sənin qardaşın arvadıyam. Qardaşın oğlunun anasıyam! Utanmırsan, mə-

nə belə sözlər deyirsən? İfritələrin, fahişələrin, oğraşların şəkillərini göstərirsən? Qardaşın bilsə, sənin də, elə mənim də taleyim necə olacaq?

— Aa... Sənin başın xarab olub. Mən sənə nə demişəm ki? Baxmırsan, baxma! Qurtardıq! Özünü niyə cırırsan?

Narazılıqdan sonra Tubu qalxıb anası ilə özünə aid olan otağa keçdi. Şəfəq daha söhbəti uzatmadı. Tubunu narahatlıq, qorxu, təlaş, təşviş, həyəcan, əsəb hissləri bürüdü. O daha yerində dayana bilmədiyindən mənəvi gücünü toplayaraq şəkilləri götürüb dəhlizə çıxdı. Heç bir şey olmamış kimi: — Şəfəq, Şəfəq, — deyə çağırdı. Gəlin "hə", — deyə cavab verdi. Tubu o olan otağa keçib əlindəki şəkilli kitabçanı bir neçə yerə cırdı. Sonra da Şəfəqi qucaqlayıb üzündən öpdü: — Məni bağışla, kefli olmuşam, səhv eləmişəm, — dedi. Məsələyə bundan sonra qayıtmamağı, bu barədə anasına, qardaşına bir söz deməməyi bərk-bərk tapşırdı. Şəfəq canını dişinə tutaraq: — Oldu, — desə də uzun müddət özünə gəlmədi.

* * *

Son vaxtlar Tubu Şəfəqə çox həssas münasibət bəsləyir, yeri gəldi-gəlmədi ona ev işlərində qayğılanır, danışıqlarında etik normaları gözləməyə çalışırdı. Tubunun bu hərəkətlərini anası da, qardaşı da görürdülər, duyurdular: — Yəqin səhvlərini, qəbahətlərini düşünüb özünə düzəliş verir, — deyə fikirləşirdilər. Tubu hərdənbir qardaşı arvadına ətir, corab, nə bilim nələr, nələr alıb gətirir, bununla da ona olan istəyini, hörmət və ehtiramını, sevgisini göstərirdi. Ana ilə oğul Tubunun bu diqqət və nəzakətinə sevinirdilər, Allaha şükürанlıq eləyirdilər. Bütün bu cəhdlərin nədən doğduğunu Şəfəq də yaxşı bilirdi. Düşünürdü ki, Tubunun ona göstərdiyi nəzakət müvəqqətidi. Əxlaq normalarını gözləmədiyi söhbətdən xeyli keçəcək, dediklərinin bir





qismi unudulacaq, digərlərinin də üstünü toz alacaq. Tubu yavaş-yavaş əvvəlki vəziyyətinə qayıdacaqdı. Bəlkə də daha kəskin olacaqdı. Əlbəttə ki, bunlar Şəfəqin ehtimalı idi. Ehtimalın sübuta yetib yetməyəcəyini sonrakı hadisələr, zaman həll edəcəkdi.

* * *

Tubu evə qayıdanda axşamdan xeyli keçmişdi. Hümmət bacısı gəlincəyədək iki dəfə arvadından, bir dəfə də anasından onun gecikməsi səbəbini soruşmuşdu. Hər ikisi də: — İndi gələr, — deyə bildirmişdi. Hümmət özlüyündə: — Belə olmaz, — deyə düşünmüşdü. O, axırıncı dəfə saata baxdı. Saat iyirmi ikiyə qalmışdı. Qızının evə gec gəlişi ananı da hövsələdən çıxartmışdı. Oğlu evdə olduğuna görə ana qızı ilə bu barədə danışmaq istəmədi. Fikirləşdi ki, Tubu ilə ya yatağa girəndə, ya da sabah danışar, abrını alaram. Elə bu vaxt Hümmət üzünü bacısına tutaraq narazı halda dedi:

— Saat neçədi, Tubu?

— Necə bəyəm?

— Axı ayıbdı. Cavan qadınsan. Özü də subay. Bu vaxtadək hardasan?

— Rəfiqəmgildə.

— Kimdi sənin əziz-xələf o rəfiqən? Sənin bu vaxt gəldiyini görən qonşular nə düşünərlər?

— Nə düşünərlər ki?

— Hər axşam belə olacaq?

— Səni Şəfəqmi doldurub?

— Nə Şəfəq? Sən nə danışırsan?

Şəfəq:

— Mən qardaşınla bu barədə danışmamışam. Hümməti mən niyə doldurmalıyam ki?

— Yox, ha... Sən dedin, mən də inandım.
— Ayıbdı, Tubu. Axı sən mənim bacımsan.
Hümmət üzünü Şəfəqə tutaraq:
— Sən keç o biri otağa.
Şəfəq yan otağa keçdi. Qəhmər əsəbi halda qızını ayaqdan başa gözləri ilə süzdü, sonra dedi:
— Düzələn şey deyilsən. Başında bir çanaq qan var. Qan!.. Bundan sonra evə gec gəlsən, qoymaram sənə qapı açılsın.
Tubu ağız-burnunu əyişdirib başını yana çevirdi. Hümmət anasının dediklərindən sonra heç bir söz əlavə eləmədi. Durub hirslə balkona çıxdı. Soyuq hava onun üz-gözünü, boyun-boğazını yaladı. Hümmət dərindən nəfəs aldı. Həyətdəki uca çinar, əbrişim, qovaq ağaclarının çılpaq budaqları arasında qonşu, üzbəüz binaların pəncərələrindən süzülən işıqların ətrafa yayılması görünsə də, yerə, həyət-bacaya elə bil qara bir pərdə çəkilmişdi. Bir söz deməsə də, Hümmətin başında bacısı və onun dedikləri ilə əlaqədar düyünlənmiş fikirlər dolaşmaqda idi. Onu da yaxşı başa düşürdü ki, Tubunun hədəfi birbaşa Şəfəqdi. Hümmət öz-özünə dedi: "Yox, sən səhv eləyirsən, Tubu. Mən onu tanıyanı, o, bizə gələli heç vaxt səhvə yol verməyib. O, nə mənim, nə də anamın əksinə gedib. Gedə də bilməz, bacı. Sənə elə gəlir ki, evə dünən gec gəlməyini də mənə Şəfəq çatdırıb. Allah bilir ki, o, mənə bu barədə bircə söz deməyib. Sən böyük səhv eləyirsən. Gəlini də özündən narazı salırsan. Açığını deyim ki, mən sənin xətrinə dəymək, qəlbini qırmaq istəmirəm. Ancaq ona da razı ola bilmərəm ki, hər axşam evə belə gec gələsən. Qonşular, məni tanıyanlar, mənə biqeyrət, namussuz desinlər. Vəli arvadını namus üstündə doğrayıb öldürdü... Bilirəm, sən elə eləməzsən. Yenə də təmiz adı qorumaq gərəkdi. Təmiz ad insanın alnıaçıqlığı, üzüağlığıdı, mənim bacım. Yalvarıram sənə, qoru atamın, anamın adlarını. Mənim ailəmin şərəfini..."
Hümmət balkonda xeyli dayandı. Soyuq yavaş-yavaş öz işini





görürdü. Neştər tək barmaqlarını Hümmətin qabırğaları arasından, kürəyindən keçirirdi. İçəri qayıtmaq istəyirdi ki: — Soyuq olar sənə, Hümmət, — deyə anasının səsini eşitdi. O, dərhal otağa qayıtdı: — Gecəniz xeyirə qalsın, — deyib anası, bacısı ilə xudahafizləşdi.

* * *

Bir neçə gün idi ki, Tubu özündə deyildi. Hər gün səhər əsəbi halda evdən gedir, axşam da geriyə dönürdü. Onun gözlərindəki kin-küdurət, nifrət, qəzəb hisslərini Şəfəq duyurdu. Ancaq Tubuya bir kəlmə də bu barədə söz demirdi. Axı nə deyəydi? Desəydi də Tubu çox şeyi bir-birinə qatacaq, böhtan deməkdən, söyüş-qarğış söyləməkdən çəkinməyəcəkdi. Ona görə də Şəfəq istəyirdi ki, ilk söz Tubu tərəfindən olsun. Əgər belə olarsa, Şəfəq həqiqəti açar, ərinə heç bir söz demədiyinə baldızını inandırmağa müvəffəq olardı. Bu fikirlə də o, səbrə üstünlük verdi. Tubunun məsələyə qayıtmasını gözlədi. Sonra da: — İnsan çox qəribə məxluqdu, — deyə düşündü. — Mən günahsız olduğum halda, işə bax ki, heç bir şeydən özümü müdafiə barədə düşünürəm. Yaxşı deyiblər, hər hansı hadisənin, bir şeyin mahiyyətinə varmadan qərar vermək əbəsdir. Onu da yadda saxla ki, bacım, hər şey kənardan aydın və mübaliğəsiz görünür...
Tubu bu gün də əsəbi gəldi evə. Sir-sifəti bozarmışdı. Bıçaq vursan, qanı yerə düşməzdi. Son günlər ana Tubunun Şəfəqə olan kin, qəzəb hissini açıq-aydın duyurdu. Özlüyündə fikirləşirdi ki, qızının hərəkətləri "özümə yer eləyim, gör sənə neyləyərəm"" iddiasıdı. Ana nə fikirləşdisə qızından soruşdu:
— Xeyir ola, əsəbisən?
— Olaram da. Səhər çantamdan əlli dollar götürülüb.
Bunu eşidən Hümmət də, Şəfəq də diksinib Tubunun üzünə baxdılar. O, gözlərini yana çevirdiyindən heç nə başa düşmədi-

lər. Qəhmər bir şey olmamış kimi astadan növbəti sualını verdi:

— Səncə kim götürər?

— Mən nə bilim.

— Harda götürüldüyünü də bilmirsən?

— Harda olacaq? Evdə.

— Bircə bu çatışmırdı. Deməli, mən götürmüşəm.

— Mən səni demirəm ki.

— Bəlkə, Hümmət götürüb?

Tubu əsəbi halda:

— Bilmirəm, Hümmət götürüb, ya başqası. Dünən bir, bu gün iki. Mən canı yanmışın bəxti belədi.

— Sənin bəxtin yox, xarakterin belədi.

— Səndə ki.

— Sənin başın xarab olub, qızım.

— Xarab olar da. Pulu oğurlanan da mən, başı xarab olan da.

Şəfəq:

— Bacı, çantanı hara qoymuşdun?

— Cibimə.

— Deyirəm, bəlkə iş yerində...

— Mənə yol göstərmə. Pul burda oğurlanıb.

Hümmət:

— Kefdəyik. Birinci dəfədi. Mən də götürməmişəm.

Hümmətin qəsdən dediyi bu sözlər Tubunu birbaşa Şəfəqin üstünə istiqamətləndirməyə imkan verdi. O, dərhal qardaşına cavab verdi:

— Mən səni demirəm ki.

— Deməli, dolları Şəfəq götürüb.

— Bilmirəm.

Hümmət:

— Ana, səbr elə. Hər şey aydınlaşmalıdı. Bu evdə oğru əllər kəsilməlidi.

Qəhmər çılğınlıqla:





— Necə bilmirəm? Mənə də, Hümmətə də deyirsən: "— Mən səni demirəm ki". Belə çıxır ki, Şəfəqdi? Yalandı. Tubunun heç vaxt əlli dolları olmayıb. O dollar səndə hardandı? Yığışdır özünü, həyasız.

Tubu sözünün yerdə qaldığını, ünvanına çatmadığını görüb ayağa qalxdı. Ağlaya-ağlaya vanna otağına keçdi. Əl-üzünü yuyub geri qayıtdı. Hümmət dərindən köks ötürdü. Sonra üzünü bacısına tutaraq dedi:

— Sən bu oğurluq məsələsini ortaya atmaqla kələfin saplarını qarışdırdın. Özün də bilmədən kələfdə böyük bir düyün saldın. Hamımızın: anamın da, mənim də, elə Şəfəqin də qəlbində şübhə toxumları səpdin. Buna ehtiyac vardımı? Əlbəttə, yox. Ağılsızlıq elədin. Anam düz deyir. Bəlkə də heç sənin dolların olmayıb.

Tubu əlinin hər tərəfdən qırıldığını görcək incik halda dedi:

— Deməli, mən yalan danışıram. Dollarım da olmayıb. Qurtardıq. Mən elə bilirdim ki...

Şəfəq söhbəti uzatmamaq üçün qalxıb öz otağına getdi. Baldızının sözləri hələ də onun qulaqlarında guruldayırdı. O, yaxşı bilirdi ki, Tubunun ondan xoşu gəlmir. Bir zaman arxası ilə çəkmək istədiyi qardaşı arvadının üstünə indi oğurluq yıxır. Öz-özünə dedi: "— Tubu, biz qadınlar hər cür fitnə-fəsad yaratmağa hazırıq. Sən bu böhtanla evə gec gəlişini Hümmətin gözündə pərdələmək istəmisən. Vəssalam. Ancaq bu, elə-belə iş də deyil. Ailədə süni narazılıq yaratdın. Araya soyuq su çilədin. Bizim də evdə dığ-dığın əsasını qoydun. Çox pis toxum səpdin. Görək axıradək buna nail olacaqsanmı? Bilmirəm. Hər şey Hümmətdən, anamdan asılıdı. Gərək mən də səbirli olam. Sənin sözlərinə laqeyd, etinasız yanaşam. Bir çox sözlərini eşitməzliyə vuram. Zaman hər şeyə aydınlıq gətirər. Açığını deyim ki, səndən hər şeyi gözləyirdim. Həyat çox qəribədi. Qəhmər kimi anadan sənin kimi qız, Hümmət kimi oğul! Başqa-başqa adamlarsız!

Qardaşın da, anan da hər cür hörmətə, istəyə layiqdi, Tubu. Axı, mən bir şeyi başa düşmürəm, məndən niyə zəhlən gedir? Hə?...”

* * *

Tubu qardaşı arvadını susdurmaq, ya onu bir dəfəlik öz təsiri altına almaq üçün bəhanələr axtarırdı. Şəfəqin o gün verdiyi ibrətamiz cavablar da Tubunu özündən bərk narazı salmışdı. Ona görə də o, Şəfəqə nə vaxtsa əməllicə dərs verməyi özü üçün qərarlaşdırmışdı. Şəfəq də baldızının xasiyyətinə yaxşı bələd idi. Bilirdi ki, Tubu fürsət düşən kimi ya özü mərəkə quracaq, ya da qardaşını ona qarşı qaldıracaq. Ona görə də bu qadına özlüyündə baş qoşmamağa üstünlük verirdi.

Səhər Hümmət mətbəxə gələndə naharı hazır görüb gülümsündü:

— Vallah, od-alovsan, ay çiçək.

— Mən çiçək deyiləm, Şəfəqəm. Əvvəla, istəyirəm mənə təzə ad qoymayasan. Bir də məni az tərifləyəsən. Göz dəyər.

— Çiçək, Şəfəq. İkisi də gözəldi. Qaldı tərifə. Balam, burda nə qəbahət var. Yaxşıya yaxşı deyərlər, pisə pis. Düzdü, sənə mənim gözüm dəyəcək.

— Səninki dəyməz.

— Niyə?

— Axı mən səninəm. Adamın özünün özünə gözü dəyməz.

— Televizorda məsləhət bilirlər ki, göz dəyməmək, bədnəzər kəsməmək üçün gərək camaat dağdağan, gözmuncuğu alsın.

— İşdən gələndə yolunu bazardan sal.

Ər-arvad gülüşdülər. Gülüş səslərini yan otaqda çarpayısında uzanan Tubu eşitdi. Bərk qısqanclıq hissi keçirərək öz-özünə dedi: “Tələsmə, qoy ərin getsin, o gülüşləri göz yaşları ilə əvəzləyərəm... Bu da o günkü deyil. Şəkillərin üstündə mənə çərənlədin. Onda sənə qəsdən güzəştə getdim. İndi əvəzini çıxaram, kimliyimi də sənə göstərərəm“. Hümmət yeyib-içib işə gedəndən sonra bu dəm Tubu dəhlizə çıxıb qara-qışqırıq saldı:





— Mənim paltarlarımı hansı əli qurumuş bu hala salıb? A heyvan, bacarmırsan topalını vurma da. Get, əlindən gələni elə də. Bazar tüngüsü.

Şəfəq istədi ayağa qalxıb baldızından niyə əsəbiləşdiyini soruşsun. Söhbətin özünə ünvanlandığını başa düşcək fikrindən çəkindi. Tubunun qurduğu mərəkənin sonunu gözlədi. Elə bu vaxt Qəhmərin yan otaqdan səsi eşidildi:

— Qışqırma. Səhər-səhər qanımızı qaraltma. Onları gəlin yuyub ütüləyib. Sənə pislik eləməyib ki? Yuduğu xoşuna gəlmir, bundan sonra özün yu, özün də ütülə.

— Çölün çəngisini, ifritəsini, oğrusunu az müdafiə elə. Yüz dəfə demişəm, onu mindirmə başımıza. Necə bilirsən, bəlkə onun ayaqları altına da yıxılaq?

— Saçlarını yolaram. Səni ayağımın altına alıb əzişdirərəm. A həyasız, adam da qardaşı arvadına tüngü, çəngi, ifritə, oğru deyərmi? A ləyaqətsiz, a şərəfsiz, qardaşın eşitsə dediklərini, onun üzünə baxa biləcəksənmi? Onunla kəlmə kəsməyə üzün olacaqmı?

— Əşi, kül onun da kişi başına. Getdi, gör kimi aldı? Sümüyümüzü it sümüyünə caladı. Xotkar balası xotkar, elə bil Rza şah Pəhləvinin qızıdı. Bu qədər söz-söhbəti vecinə də almır. Görürsən, evdən də çıxmır?

— Sən alçaqsan, Tubu. Evdə dedi-qodu yaradırsan. Deyirsən, o da evdən çıxsın, səninlə ağız-ağıza versin? O, abır-həyasını gözləyir.

— Məni yandırma, ürəyimi partlatma. Allah bilir, kimin artığıdı. Gəlib çıxıb uğurumuza.

Şəfəq eşitdiklərinə dözə bilməyib Qəhmərdən soruşdu:

— Nə səs-küydü, ana? Niyə əsəbiləşmisiz?

Qəhmər:

— A qızım, Tubunun başına hava gəlib.

Tubu əsəbi halda anasının üzünə baxdı. Sonra Şəfəqə tərəf çevrildi:

— Paltarları niyə bu günə salmısan? Hamısı deşik-deşikdi.

Şəfəq:

— Əvvəldən deşik idilər. Yaxşı, de görüm, paltarlarını yumaqla sənə pislik eləmişəm? Bir halda ki narazısan, əlimi də vurmaram. Sonra?

Şəfəqin sözləri Tubunu tutdu. O, gözlənilmədən bir an səsini kəsdi. Nə deyəcəyini bilmədi. Sonra qışqırdı:

— Mənimlə dil-dil ötmə, həyasız. Adam balası kimi paltar yumağı öyrənmək lazımdı. Güc-bəla ilə qazanırıq. Onu da gətirib bu vəziyyətə salırsan. Məndən sənə Qəhmər olmaz.

Şəfəq:

— Bilirəm... Anam mənim kimliyimi yaxşı bilir. Belə qan qaraltmağa, evdə söz-söhbət yaratmağa ehtiyac yoxdu, Tubu? Eşidən, bilən bizə də, anamıza da, elə Hümmətə də yaxşı qiymət verməz.

Tubu:

— Kəs, həyasız. Sənin qədər də bilmirəm? Anan gorbagoru da dədən tünbətün belə olub yandırıb. Səni də anan gedən yola salaram. Gözlərini aç, mənə yaxşı bax. Bu da əlli dollar deyil ki, oğurlayasan.

Şəfəqin sir-sifəti bəyazıdı. Elə bil dünya başına dolandı. Dodaqları səyridi. Ürəyi kövrəldi, qəhərləndi. Səsi titrəyə-titrəyə dedi:

— Burda anamın nə günahı var, Tubu?

— Anan da sənin kimi idbar imiş. Allah bilməsə, elə cəza verməzdi.

Şəfəqin gözlərində alacalanan yaş yanaqlarına süzüldü. O, əvvəl özünü ələ almaq, göz yaşlarını silmək istədi. Ancaq bacarmadı. Hönkürüb ağlamağa başladı. Gəlinin haqsız söyüş və təhqirlərə məruz qaldığını görən Qəhmər: — “Tfu”, “Tfu”, “Tfu sənin üzünə!” — deyə qışqırdı. Əlacsız qalıb qayınana ilə gəlin öz otaqlarına çəkildilər. Tubu isə xeyli söyüb-söyləndi. Səsinə səs verən olmadığından mətbəxə keçdi. Bayaq Şəfəqin dəmlədiyi çaydan, hazırladığı yeməkdən yeyib-içib otaqdan çıxdı. Qızının evdən getdiyini duyan Qəhmər kor-peşman ayağa qalxdı, gedib qapını arxadan bağladı. Sonra da gəlib yerindəcə uzandı. Onu fikir götürdü: — “Axı bu yazıq gəlinin günahı nə idi? O, niyə söyülüb-təhqir olunmalı idi? Ona görə ki, bütün günü bizim ayağımızın tozunu süpürüb-silir? Gündə neçə dəfə yemək-içməyimizi hazırlayır? Qulluğumuzda dayanır? Hümmət də kiminləsə ailə qurmalı idi, ya yox? Arxalı gəlinə belə hökm eləmək olardımı? Kimsəsi, dalı-daldası yoxdu deyə, adamı da belə kökə salarlarmı? Yox, Tubu!.. Sən qızım da olsan, Allahsız adamsan... Bu ağılla sən uzağa gedə bilməyəcəksən... Belə getsə, əziyyətimi, südümü sənə halal eləməyəcəyəm...“

Günortaya az qalırdı. Çöldəki havanın soyuqluğu içəridə də duyulurdu. Hikmətin beşikdə ağlamaq səsi eşidildi. Şəfəq ayağa qalxıb körpəsini əmizdirməyə başladı. Göz yaşlarından islanmış yanaqlarını üsulluca silə-silə oğluna mızıldandı: “Nə yaxşı ki, bibinin dediklərini başa düşmürsən, oğlum. Allah bilir ki, nə mən onun əlli dollarını oğurlamışam, nə də paltarlarını yuyarkən barmaqlarımla deşmişəm. Mən bibinə hörmət eləmək istəmişəm. O, isə əvəzində məni təhqir eləməkdən çəkinmədi. Çox maraqlıdı, oğlum. Bibin niyə belə eləyir? Mən ona nədə mane ola bilərəm? Məncə, heç nədə? Yəqin o, qorxur ki, məni öz ardınca çəkmək istəməsini atana deyə bilərəm. Bir də çəkinir ki, evə gətirdiyi əcaib şəkillər barədə Hümmətə nəsə çatdıraram. Yox... Söz oldu getdi. Onu uzatmaq, o məsələyə qayıtmaq sarsaqlıq olardı... İnsafən, Hümmət də bibini çox istəyir. Ona hörmət eləyir. Eləməlidi də. Bacısıdı. Bəs, bibin atana necə? Yox...

İnanmıram... Ürəyimə damıb... Hələ biz çox şeylə qarşılaşacağıq... Hələ bibin anana çox həmlələr eləyəcək... Allah bundan betərindən saxlasın...”

Şəfəq oğlunu əmizdirib beşiyə qoyandan sonra Qəhmər yatan otağa gəldi. Qayınana utana-utana dilləndi: — Bəlaya düşmüşəm, çıxış yolu tapa bilmirəm, Allah özü imdad eləsin.

— Ana, Allah bilir ki, mən günahsızam.

— Bilirəm, qızım. And verirəm Allaha, bu barədə Hümmətə bir söz demə.

— Deməərəm, ana. Ancaq belə getsə, çətin olacaq. Mən bilmirəm. Onun belə danışmaqda məqsədi nədi? Əgər məni bu evdən qovdurmaqdısa, fikrini açıq bildirsin, söyüşlər, təhqirlər kimə və nəyə lazımdı?

— Düz deyirsən, bu yaramaz camaatı bizə güldürəcək. Qaldı səni qovdurmasına, qələt eləyir. Başını da daşa döyür. Hələ mən ölməmişəm.

— Nə deyirəm, axırını gözləyək, görək necə qurtarır.

Şəfəq belə qənaətə gəldi ki, bundan sonra Tubu ilə özü arasında müəyyən sərhəd saxlasın. Əşyalarına yaxın getməsin. Əks halda, Tubu daha ağlagəlməz söz-söhbət, dedi-qodu yarada bilər. Ondan qaçmaq başı salamatlıqdı. Yox, əgər Tubu özünü o yerə qoymasa, tağından düşməsə, onda Hümmətə yalvarıb yaxarsın. Şəhərdə kirayə ev götürsünlər. Qulağı dinclik hər şeydən üstündü. Bir növ sərbəstlikdi. Lap istəsə, Qəhmər ana da bizimlə qalar, bizimlə yaşayar. Bəlkə Tubu da belə istəyir. Dünən necə dedi? — “Bura mənim atamın evidir”. Gərək ki, bu sözü o, axşam da təkrarladı. Hə... Belə de... Ey dili qafil... Mən fil qulağında yatmışam deyəsən. Bəlkə o, düşünür ki, mən onun əməllərini Hümmətə çatdıra bilərəm?.. Yox, Tubu, sən ciddi yanılırsan. Mən heç vaxt satqınlıq eləməmişəm. Satqınlara nifrət eləyirəm. Ancaq onu da istərdim ki, sən doğmaca anana, qardaşına laqeyd, biganə olmayasan. Hər bir addımını ölçüb-biçəsən. Belə





olarsa, hamı səndən razı qalar. Yoxsa, özünü də, bizi də çıxılmaz vəziyyətdə qoyacaqsan!.. Hələ ki gec deyil, düşün!..

*  *  *

Divanda uzanıb gözlərini tavana zilləyən, dərin fikirlərə qərq olan Qəhmərə bir anlığa elə gəlirdi ki, sal qayalıqlarla irəliləyir. Aşağı əlçatmaz, ünyetməz bir dərədi. Çox çəkməyəcək ki, adi bir hənirtinin cüzi təsiri ilə dayandığı qayanın zirvəsindən dərəyə doğru yumalanacaq. Onu heç bir qüvvə  bu dərədən çıxara bilməyəcək. İçində dərin bir qorxu, təsəvvürolunmaz təlaş doğmuşdu Qəhmərin. Bu qadın onu da anlayırdı ki, Tubu bu evdə heç kəsdən utanmır, qorxmur, çəkinmir. İstədiyi kimi hərəkət eləyir. Onun üçün Hümmətlə adi bir adam arasında fərq yoxdu. Bütün ismət və ləyaqətini itirmiş bu qızdan hər nə desən gözləmək olar. Vicdan da, ar da, namus da, ismət də, ləyaqət də, şərəf də onun üçün dildə işlənən bər-bəzəkli sözlərdi. Əgər belə olmasaydı, nə ər evindən çıxardı, nə ünvanı özündən başqa heç kəsə məlum olmayan yerlərə, ziyafətlərə gedərdi, nə də evdə yersiz dedi-qodular, dava-dalaşlar salardı. Qəhmər beləcə öz aləminə qapılmışdı ki, Şəfəq gülümsünə-gülümsünə otağa daxil oldu:

— Bu gün yamanca yatmışıq, ana. Belə getsə, axşam çətin ki yata bilək.

— Eh... Pir olmuş. Sən nədən danışırsan? Nə yatmaq? Bayaqdan bəri eşələnirəm divanda. Tubunun hərəkətlərini götür-qoy eləyirəm. Sonra da keçmiş ağrı-acılı anlarım gəlib durur gözlərimin qabağında. Günahlarımı, kimlərəsə elədiyim pislikləri xatırlayıram. Doğrusu, bağışlanması mümkün olmayan qəbahətlərim yadıma düşmür. Mən valideynlərimə də, qayınanama da, qayınatama da pis olmamışam. Ərim də həmişə başıma and içib. Bu Tubu kimə oxşayıb, bilmirəm. Düşünürəm. Dağ uçub, elə bil

altında qalmışam, qızım. Doğrusu, son vaxtlar gözlərim də qorxmağa başlayıb. Elə bilirəm, Tubu indi, ya bir saatdan gələcək. Yeni tamaşa, ağlagəlməyən bir mərəkə qoparacaq. Onu da Hümmət biləcək. Sonrasını da Allah bilir.

— Ana, çox fikirləşmə. O söhbəti qurtaraq. Elə təsəvvür eləyək ki, nə əlli dollar məsələsi olub, nə də səhərki dava-dalaş. Şam süfrəsi üçün neyləyək? Bir azdan ac-susuz işdən gələcəklər. Bizdən yemək-içmək istəyəcəklər.

— Bəyəm biz günorta naharı eləmişik ki?

— O öz günahımızdı. Onlar "Niyə eləməmisiz?" sualını da verməyəcəklər.

Gəlinlə qayınana şam süfrəsi barədə fikirləşirdilər ki, qapı döyüldü. Şəfəq gedib qapını açdı. Girəcəkdə iyirmi beş-iyirmi altı yaşlı ucaboy, arıq, başına boz yun şərf bağlamış, onun da uclarını paltosunun yaxasından içəri salmış bir qadın dayanmışdı. Bəyaz sifətli bu qadının qara, alınmış nazik çatma qaşları, uzun kirpiklərlə dairələnmiş yekə qonur gözləri vardı. Əyninə geydiyi yaşıl paltosunun ətəkləri topuqlarını da örtmüşdü. Şəfəqlə bu qadının baxışları toqquşdu. O utandığındanmı, ya nədənsə bir qədər çəkindi. Əvvəl udqundu. Sonra sifətində ani qızartı yarandı, titrək səslə bildirdi:

— Bağışlayın, Tubunun anasının evi buradı?

— Bəli.

— Onunla görüşmək istəyirəm, olarmı?

— Niyə olmur ki? Qapı ağzında dayanmayın, keçin içəri.

Qadın təşəkkürünü bildirib içəri keçdi. Şəfəq: — Ana! — deyə ucadan səsləndi və onu qayınanası olan otağa apardı. Qəhmər: — Xoş gəlmisən, qızım, keç əyləş, — dedi. Qonaq təşəkkürünü bildirib əyləşdi və dedi:

— Sizinlə ikilikdə söhbətim var.

Qəhmər gəlinin üzünə baxdı. Şəfəq qayınanasının nə demək istədiyini dərhal başa düşüb, mətbəxə getdi. Qəhmər:





— Buyur, eşidirəm, qızım, — dedi və sualdolu nəzərləri qonağa dikildi.

Qonaq qorxa-qorxa qapıya tərəf baxdı, sonra titrək səslə, udquna-udquna astadan dedi:

— Siz Qəhmər xalasızmı?

— Hə...

— Mənim də adım Şəlalədi. Sizinlə qonşuluqda yaşayıram, üzbəüz binada. Qonşular sizi də tanıyırlar, bizi də.

— Çox yaxşı.

— Mən sizə yalvarıram, mənə kömək eləyin.

Qəhmər təəccüblə qonağın üzünə baxdı. Heç bir şey başa düşmədiyindən çaşıb qaldı. Əvvəl nə deyəcəyini bilmədi. Sonra dedi:

— Nə çətinliyin var, qızım?

— Deməyə utanıram, ancaq gəlmişəm. Başqa çarəm də yoxdu. Deməyə məcburam. Məni doğma balan hesab elə.

Şəlalə tutuldu. Bədənində, əl-ayağında ani bir əsmə də duyuldu. Qəhmər dərhal:

— Sözünü de, qızım, mən də sənin anan.

— Ancaq istəyirəm deyəcəklərim aramızda qalsın.

— Qalar, qızım.

— Mən altı ildir ki, ailə qurmuşam. Bir oğlum, bir qızım var. Ərim Elşən sizin qızınız ilə bir idarədə işləyir. Eşitdiyimə görə, Tubu ərindən ayrılıb. Bilirsiz... Qəhmər xala... Mənim...

Şəlalə için-için ağlamağa başladı. Qəhmər məsələnin nə yerdə olduğunu anladı. Şəfəq eşitməsin deyə, çevrilib qapıya tərəf baxdı. Sonra da astadan, pıçıltı ilə dedi:

— Yavaş danış. Bəs deyirdin, heç kəs bilməsin. Ağlayırsan, hıçqırırsan, yan otaqdan eşidilər.

Şəlalə bir qədər dayandı. Özünə gəlməyə çalışdı. Qəhmər dedi:

— Özünü ələ al, sözünü de.

— Tubu Elşəni ələ alıb, mənim ailəmi dağıdır. Uşaqlarım yetim qalır. Axı mən də, uşaqlarım da yazığıq.

— Qızım, qadın gərək ərini əldə saxlamağı bacarsın. Görünür, burda sənin də günahın var.

— Ola bilər. Ancaq...

— Qaldı Tubuya, mən onunla danışaram.

— Qəhmər xala, mən dava-dalaş, çığır-bağır salmağı bacarmıram. Mənliyimə də çox şeyi sığışdırmıram. Fikirləşdim ki, siz məni başa düşərsiz, mənə kömək eləyə bilərsiz. Ona görə də sizin yanınıza gəldim.

— Əcəb eləmisən, qızım. Düz yol tutmusan. Əgər doğrudan da vəziyyət sən deyən kimidisə, hər ikimiz əl-ələ verib gərək onu aradan qaldıraq. Bir azdan gələr...

— Onda mən gedim. O, gəlib məni burda görməsin.

Çağırılmamış qonaq getdi. Qəhmər nə eləyəcəyini bilməyib bir müddət qapı ağzındaca dayandı. Sonra kor-peşman öz otağına qayıtdı. Çox keçmədi ki, qapı yenidən döyüldü. Gələn Tubu ilə Hümmət idi. Baldız salam vermədən, Şəfəqin üzünə baxmadan anası olan otağa, Hümmət isə: — Susuzlamışam, — deyib mətbəxə keçdi. Şəfəq baldızının incikliyini, narazılığını, əsəbini ərinə duydurmamağa çalışdı. Tubunu görən ana bir az əvvəl cavan gəlin Şəlalənin dediklərini xatırlayaraq əsəbiləşsə də, daxilən sarsılsa da, özlüyündə hirsini, qəzəbini boğmağa çalışdı. Tubu ilə söhbətə yalnız ikilikdə, yatağa girən zaman başlamağı qərarlaşdırdı. Hümmətin səhər alıb gətirdiyi quş ətindən xörək hazırlayan Şəfəq süfrəni açaraq hamını şam yeməyinə dəvət elədi. Səhərki davadan, Şəlalənin gəlişindən xəbərsiz olan Hümmət iştaha ilə yeyib-içir, "Yeyəsən qaz ətini, görəsən ləzzətini", — deyirdi. Anasının da, bacısının da, elə arvadının da məcburiyyətdən doğan gülüşləri Hümmətə boğazdan yuxarı görünürdü. Gözlənilmədən üzünü anasına tutub dedi:

— Axı sizə nə olub, birtəhərsiz?





— Nə olacaq, oğlum? Hamımız evimizdə, işimizdə-gücümüzdə.

— Nəsə bu gün xoşuma gəlmirsiz?

Tubu:

— Nahardan sonra...

Hümmət anası ilə arvadının, Qəhmərlə Şəfəq Tubunun üzünə ötəri baxdılar. Hər biri özlüyündə daxilən əsəbiləşsə də heç kim danışmırdı. Hümmət ailədə müəyyən narazılıq yarandığını duymuşdu. Ancaq bacısının "Nahardan sonra" deməsi ona məsələyə bir azdan sonra qayıtmaq üçün əsas verdi. Hümmət də süfrə üstündə artıq söz-söhbət eləmək istəmədi. Ona görə də şam naharından sonranı gözləməli oldu. Hamı yeyib-içəndən sonra Şəfəq ayağa qalxdı. Süfrəni yığışdırdı. Hümmət üzünü bacısına tutaraq soruşdu:

— Nədən narazısan, bacı?

— Onu arvadından soruş.

Hümmət dərhal arvadı tərəfə çevrildi, sərt bir halda dedi:

— Gəl, əyləş.

Şəfəq ərinin səsindəki sərtliyi, əsəbiliyi duydu və gəlib stulda əyləşərək ərinin üzünə baxdı. Hümmət:

— Tubu nə deyir, Şəfəq?

— Bilmirəm.

Tubu:

— Bilməz də. Dünən əlli dollar pulum yoxa çıxıb. Paltarlarımı yuyarkən koftamı barmağı ilə qəsdən deşib. Sonra da tikib ki, mən başa düşməyim. İndi də qapıdan içəri girirəm. Salam verirəm, almır. Məni adam hesab eləmir. Üzümə də baxmır. Mən deyiləm, sənsən, qardaş. Bunlar nə deməkdi? Bəyəm, mənim bu evdə yaşamağa haqqım yoxdu?

Şəfəq mat-məəttəl əvvəl Tubunun, sonra da qayınanasının üzünə baxdı. Sifəti bozardı. Əsəbdən çənəsi, üzünün əti əsməyə başladı. Tutuldu. Nə deyəcəyini bilmədi. Haçandan-haçana özünə gəlib dedi:

— Tubu, bacı, gərək adam danışarkən Allahını başının üstündə görsün. Əvvəla, mən sənin dollarını götürməmişəm. İkincisi, o paltarlarını yuyub təmizləməklə sənə olan hörmət və ehtiramımı bildirmək istəmişəm. Üçüncüsü, qapını sənə mən açmışam. Sən mənə salam verməmisən. Umu-küsü də eləmirəm. Düşünürəm, bu gün salam verməzsən, sabah verərsən. Dördüncüsü, bura mənim yox, ananın, qardaşının, sənin evindi. Onu da unutmuram ki, çıxhaçıx düşsə, bu evdən mən çıxmalıyam. Sən narahat olma, Tubu.

— Görürsən də, qardaş? Arvadın necə də yağlı-yağlı danışır.

Hümmətin sinəsi qabardı. O, çiyinlərini bir balaca çəkdi. Kənardan gülünc görünsə də məğrur kişi görkəmini aldı. Sir-sifətini bozardaraq, köksünü ötürdü. Sonra xırıltılı səslə bildirdi:

— Şəfəq, özünü yığışdır. Sən bu evin gəlinisən. Nə deyirlər, onu da elə. Unutma ki, bacıma qarşı qaba rəftarı sənə güzəşt eləmərəm.

— Hümmət, əzizim, mənim heç kəslə işim yoxdu. Gəlin olmaq, heyvan olmaq, qul olmaq demək deyil. Mən də insanam. Böhtan, iftira heç kəsə hörmət gətirməz.

— Mən öz sözümü dedim. Bir də söz eşitsəm, narazılıq olsa, məndən incimə. Qandın?!

Tubunun istədiyi yar idi, yetirdi pərvərdigar“. O, düşündüyündən də artıq istəyinə nail oldu. Daxilən sevincdən uçmağa qanadı olmadı. Oğlunun qızı ilə bağlı arvadına dediyi sözlər Qəhmərin çox ürəyincə oldu. Qadın özlüyündə fikirləşdi ki, qızının bu evdə yeri düşündüyündən də möhkəmdi. Bununla belə, oğluna həqiqəti demək, qızına öz yerini göstərmək əvəzinə, ona olduqca mülayim, yumşaq mövqe tutdu. Bunu Şəfəq də açıq-aydın duydu və özlüyündə qayınanasının axşam və səhərki söhbətləri ilə indiki danışığı arasında fərqi görəndə neçə vaxtda: — Ana, — deyə qulluğunda dayandığı, qayğı göstərdiyi bu adamı sanki tanımırmış kimi təəssüfləndi. Daha heç bir söz demədi.





Bu evə gələndən “ana” deyə ürəyində qurduğu heykəl özü də hiss eləmədən çat verdi. Şəfəqin gözləri yaşla doldu və bu evdə, bu ailədə elə bir nüfuzu olmadığını başa düşdü, dodaqları səyriyə-səyriyə ayağa qalxdı. Öz otağına çəkildi. “Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış“ — deyə düşündü. Ona bir həqiqət aydın oldu ki, yeri gəlsə, bir yastığa baş qoyduğu əri anasının, bacısının haqlı-haqsız sözü ilə qapını açıb onu çölə ata bilər. O, öz-özünə dedi: — “Görünür mən də Hümməti, qayınanamı hələ yaxşı tanıya bilməmişəm. Demirəm ki, mənə inansınlar. Böhtana, şantaja, iftiraya kor-koranə inanmaqmı olar? Bəlkə Tubu bir başqa böhtan ataydı? Ağzıma daşlar, mənə qara yaxaydı? Kiminləsə oturub-durub deyəydi. Onu dərindən öyrənmədən, həqiqəti üzə çıxarmadan barəmdə tədbirmi görəcəkdi? Aman Allah! Nə desən çıxar! Günahsız adama şər atmaq insanlığı itirməkdi. Tubunun yalanına inanıb gərək mənimlə belə danışmayaydı. Tubu bacınsa, mən də sənin arvadınam. Mənə hörmət eləmək, mənə qayğı göstərmək də sənin borcundu, Hümmət...”

Şəfəq oğlunu beşikdən qucağına aldı. Üz-gözündən öpdü. Sonra da qan qaralığını dağıtmağa, ərinin, baldızının, qayınanasının ona olan bugünkü münasibətini unutmağa, beynindən çıxarmağa çalışdı...

* * *

Qəhmər tutulub qalmışdı. Onu indi iki məsələ düşündürürdü. Birincisi, Şəlalənin gəlişini, onun dediklərini qızına desinmi? Qızını tutduğu yoldan çəkindirməyə çalışsınmı? Təsir göstərməyə çalışsa: — Elşəndən uzaqlaş, onun ailəsini dağıtma, uşaqlarını yetim qoyma — desə, Tubu onun sözünü eşidəcəkmi? İkincisi, bəlkə Elşən barədə qızına heç bir söz deməsin? Bəlkə doğrudan da, Elşən uşaqlarını, arvadını atıb Tubu ilə ailə qurmaq fikrindədi? Əgər bu həqiqətən belədisə, Tubuya mane olmağa də-

yərmi? Qəhmər xeyli düşündü və belə qərara gəldi ki, məsələni qızına açsın. Qalanları gələcək göstərər. Qəhmər divanda əyləşib qızını da yanına çağırdı. Tubu anasının səsində bir yaxınlıq, səmimiyyət duydu. Stul çəkib üzbəüz oturdu. Qəhmər astadan dedi:

— Bu gün Şəlalə bizə gəlmişdi.

— Şəlalə kimdi?

— Elşənin arvadı. — Qonşuyuq, — dedi. Onu da bildirdi ki, sən onun ailəsini guya dağıdırsan, ərini əlindən almaq istəyirsən. İstəyirəm, mənə düzünü deyəsən. Bu, doğrudumu?

— Xeyr, mən dağıtmıram. Elşən özü məndən əl çəkmir. O, məni neçə illərdi ki, sevir. Mən onunla çoxdan...

— O, səni aldada bilər. İki uşağı da var.

— Ana, bilirəm. Uşağının olması o deməkdi ki, Elşən məndən uşaq istəməyəcək. Bilir ki, mənim də heç vaxt uşağım olmayacaq.

— Bunu qardaşın bilsə...

— Kişilər əvvəl çığırıb-bağırırlar. "Öldürəcəm", "Asacam", "Kəsəcəm" deyirlər. Sonra da hədə-qorxuları sabun köpüyü kimi əriyib yox olur. Hümmətin dedikləri boş şeydi. Qardaşımı yaxşı tanıyıram.

— Tubu, nədənsə qorxuram. Şəlalə evimizi tanıyır. Sürüb qapımıza gələ bilər. Tumanını atar başına. Qardaşın, qardaşın arvadı yanında gözükölgəli ola bilərsən. Mənim də dilim gödək.

— Yox, ana, onlardan qorxma. Şəfəqin başına bir oyun açaram, hardan gəldiyini unudar. Hümmət cavan oğlandı. İstəsə, on beş yaşında qız alar.

— Lazım deyil. Şəfəqlə işin olmasın. Sakit adamdı. Bizə beləsi yaxşıdı. Şəfəqdən sonra eləsi gələ bilər ki, bizə qan uddurar. Səsimizi də çıxara bilmərik.

— Eh... Allah bilir, Şəfəq hansı dərənin dibindən çıxıb. Üzgözündən fahişəlik yağır.





— Hümmət eşidər.

— Hümmətə elə gözəl qız düzəldərəm, özü də məəttəl qalar. Onda Şəfəqin üzünə də tüpürməz.

— Ehtiyatlı ol, özünü rüsvay eləyərsən. Qaldı Hümmətə, ağlını başına yığ. Uşağı var.

Söhbət sona yetirdi ki, Hümmət içəri girdi. Gəlib anasının yanındaca oturdu. Qəhmər astadan danışmağa başladı:

— Oğlum, bizim arxamız yoxdu. Bu dünyada vur-tut bir bacı, bir qardaşsız. Mehriban olun. Bir-birinizin arxasında dayanın. Mənim sizdən başqa kimim var?! Mən də ömrümün qürub çağlarını yaşayıram. Bacın ərindən ayrıldı. Allah bundan sonra ona qapı açsın. Bəlkə xeyirlisi budu. O qədər ərdən çıxanlar olub ki, dul qalıb, sonra yenə gediblər ərə. Sənin də ki, gözəl-göyçək bir oğlun var. Salamat olsun. Ona nənəsi qurban. Mənim hər ikinizə deyəcəyim budu ki, deyilən sözə inanmayın. Aranızı vura bilərlər.

Hümmət:

— Nə danışırsan, ana? Tubunu mən çox istəyirəm. Həyatımda bacımı əvəz eləyəcək adam yoxdu.

Tubu:

— Çox sağ ol, qardaş. Arvadın aramıza girməsə...

Hümmət:

— Qələt eləyir Şəfəq. O, olmayanda, sən vardın.

Qəhmər:

— Yox, mən biləni o da pis adam deyil.

Hümmət:

— Çaxır tünd olar, öz qabını yandırar.

Tubu:

— Vallah kişisən.

Hümmət:

— Bə nədi? Mən arvad sözü ilə oturub-duran, arvad hesabına yaşayan kişilərdən deyiləm.

Ana oğlunun sözünə sevindi, içində bir fərəh duydu. Tubu ayağa qalxıb Hümmətin boynunu qucaqladı...

* * *

Şəfəq yuxudan erkən oyanmışdı. Otaq ala-toran idi. O, özünü çox halsız, əzgin hiss edirdi. Şkafdan qalın cildli "Səfalət" romanını götürdü. Kitabı çoxdan oxuduğundan indi vərəqləri o tərəf-bu tərəfə çevirdi. Dilbərin monoloqu olan hissələri tapıb oxumağa başladı. Qızın ağır, əzablı, iztirablı, məşəqqətli ömür yolunu xatırladı və ona elə gəldi ki, hardasa özü ilə Dilbər, öz həyatı ilə onun həyatı arasında bir yaxınlıq, oxşarlıq, bənzərlik var. O: — Gərək anadan xoşbəxt doğulasan, — deyə düşündü. Ürəyi sıxıldı. Fikirləri qarışdığından kitabı örtüb ayağa qalxdı. Mətbəxə gəlib pəncərəni açdı. Qış səhərinin soyuq, şaxtalı, təmiz havası içəri axmağa başladı. Neçə gündə əsəbləri gərilən Şəfəqin üz-gözünü, boyun-boğazını sığallayırmış kimi hisslərini xeyli yumşaltdı. Gəlin səhərin bu təmiz havasından ciyərdolusu aldı. Çox çəkmədi ki, ürəyindəki sıxıntı ötüşdü. Hava açıldıqca gecənin tükürpədici vahiməsi çəkilib tədricən yox olurdu...

Hümmət yuxudan oyananda axşam kifayət qədər yatmadığındanmı, qan təzyiqinin yuxarı olmasındanmı, soyuqladığındanmı, ya nədənsə başında yüngülcə ağrı hiss elədi. O, alnını, boynunun ardını ovuşdurmağa başladı... Hümmət üzünə baxmadan xudahafizləşmədən otaqdan çıxdı. Ərinin bu hərəkəti Şəfəqə qəribə göründü. Özlüyündə: — Başı xarab olub, — dedi. Bir anlığa özünü təhqir olunmuş sandı... Ancaq kimsəsizliyini, arxasızlığını düşündü: mənim də getməyə yerim, dal-daldam olsaydı, belə təhqirlərə dözməzdim. Sən demə, valideyn insana təkcə uşaqlıqda yox, böyüyüb ərsəyə çatanda da, lap ev-eşik, oğul-qız sahibi olanda da lazım imiş?.. Mən və mənim kimilər sonradan bədbəxt olmurlar, anadan bədbəxt doğulurlar. Həyat mənim kimilə-





rin yox, bəxti üzünə gülənlərindi. Nə eləmək olar? Atalar yaxşı deyib: "Şam gərək haqdan yana", "Haqdan yanan çıraq heç badilən sönməz". Necə də düzgün deyilmiş, səlist, sərrast seçilmiş kəlamlardı? Bunları babalar deyib... Onlar deyibsə, haqsızlıq, ədalətsizlik, arxasızlıq tarixən olub... Neyləyəsən?! Gedib ürəyini kimə açasan, dərdini kimə söyləyəsən? Dünya yaranandan belə olub, belə də olacaq. Deyirlər, ata ilə oğulun, ana ilə qızın taleyində də bir bənzərlik olur... Bəlkə doğurdan da, belədi? Bəlkə kimsə anamdan atama nəsə deyib? Kimsə onların arasını vurub? Atam da günlərin birində anama qəsd eləmək fikrinə düşüb... Qəsd eləyib. Nə idi yazıq anamın günahı? Nə idi mənim günahım? Qoca, əli işdən qalan babamın himayəsində niyə qalmalıydım?.. Eh... Fikirləşməkdən az qalır başım çatlaya... Qismətim nədi, onu da görəcəm. Ancaq indi məni Hikmətimin gələcək həyatı düşündürür...

Hümmətin ağlına baxıb sabah Tubu başqa bir şeyi bəhanə eləyərək üstümə düşə bilər. Qəhmər ana da qızının haqsız, ədalətsiz, yalan, iftira dolu fikrinə qarşı çıxmayacaq, susmağı üstün tutacaq. Hümmət də söz-söhbətin kökünə varmadan bacısının, anasının tərəfində dayanacaq, mənə qarşı çevriləcək, məni danlayacaq, məzəmmətləyəcək, bəlkə də söyəcək, təhqir eləyəcək. Belə olan təqdirdə ya mən özümü müdafiə etməliyəm, ya da susmalıyam. Özümü müdafiə eləsəm, söz-söhbət qızışacaq, getdikcə dərinləşəcək, pərdə aradan götürüləcək. Gərək onda mən bu evdə yaşamayam, ayrılam. Sussam, o deməkdi ki, günahkaram. Şükür sənin mərhəmətinə, İlahi! Görəcəkli günlərim hələ qabaqdaymış... Hümmətin sözündən sonra Tubu üstümə ayaq açacaq. Məni təhqir eləməkdən də çəkinməyəcək... Gec-tez məni evdən qovacaqlar. Deyəsən, həyatımda yeni yollar açılır. Bu yollar məni haradan gətirir və haralara aparıb çıxaracaq, bir Allah bilir. Qız vədəmdə tək idim. Ancaq özümü saxlamalı idim. Bəs indi necə? Aman Allah, körpəmlə küçələrə atılsam,

neylərəm?!.

Şəfəq çalpaşıq fikirlər içində boğula-boğula otağına keçəndə dünyadan xəbərsiz balaca Hikmət mışıl-mışıl yatırdı. Gəlin yuxudan ayılmış kimi özünə gəlib: — Mən dəli olmuşam, nədi? — dedi. Çarpayısında uzandı. Axşamdan narahat yatdığından Şəfəqi şirin bir yuxu apardı. Babası Zeynal kişini yuxuda gördü. Gördü ki, Göyçay çayının sahilindəki hündür ayaqlı bir mərtəbəli evin eyvanında babası məlik-müşkül əyləşib. Şəfəq ona yaxınlaşdı. O, nəvəsini görcək ayağa qalxdı. Boynunu qucaqlayıb alnından öpdü, astadan gileylənməyə başladı: "Orda yaşaya bilməyəcəksən. Sənin həyatın barədə düşünəndə ananın taleyini xatırlayıram. Tubu sənin isti yuvana soyuq su çiləyir. Qayınanansa qızını görür. Ərin sən düşünən qədər də dəyanətli, ailəcanlı deyil, qızım. Aldanmısan, neyləmək olar?.. Qismətdən artıq yemək olmaz... Bu, sənin qismətindi... Heyf!.. Çox heyf!.."

Şəfəq yuxudan hövlnak oyandı. Heç vaxt yuxulara inanmayan gəlin: — Bu nə yuxudu? Allah, mən nə gördüm? — deyə düşündü. Deməli, mənim düşdüyüm qarmaqarışıq vəziyyət, dünəndən bəri keçirdiyim ağır, sarsıdıcı hisslər babama bəyan olub. Yazıq baba! Bir zaman zavallı anamın əzablarını çəkmisən, indi də onun biçarə qızının ağrı-acıları, məşəqqətləri ilə yaşayırsan. Narahatlığımı duyub yuxuda mənimlə görüşə gəlmisən... İstəyirəm, əziz baba, biləsən ki, sənin nəvənin bu işdə heç bir günahı yoxdu. Ona görə də mən heç kəsdən, heç nədən çəkinmirəm, qorxmuram. Mən təkcə o böyük, mərhəmətli Yaradandan umuram. Allah məni yaratdığı kimi də qəhrimi çəkəcək. Sənin vəziyyətinin ağırlığından da xəbərdaram, baba!.. Ömrünün qürub çağlarını yaşayırsan... Əlin işdən qalıb. Günlərinin çoxunu yorğan-döşəkdə olursan. Özündən xeyli yaş kiçik arvadına möhtacsan. Nə ondan olan iki qızına, bir oğluna baxa bilirsən, nə də özünə... Keçən qış Hümmətlə sənin yanına gəlməyim yadındamı, baba?! Sənə qurban olum, mənə olan sevgini gözlərindən





duydum... Mənə olan məhəbbətini səsindən, sözündən hiss elədim. Hümmətə də "oğlum" dedin. İnan mənə, baba! Bəlkə də heç özün də bilmədin dünyanı mənə verdiyini... Bilirəm, məndən bir an da ayrı yaşamaq istəmirdin... Məni gözündən uzağa qoymaq niyyətində heç vaxt olmamısan. Dizinin, qolunun qüvvəsinin tükəndiyini görən ögey nənəm sənin himayəndə yaşamağımı mənə çox gördü. On dörd yaşımda ikən gələcəkdə özünə yük, övladlarına şərik olmayım deyə məni səndən ayırdı... Ağlı hələ yetişməyən, bədəni möhkəmlənməyən bir qızcığazı isti yuvasından ayıraraq qayğı göstərirmiş kimi, ürəyi yanırmış kimi texniki-peşə məktəbinin ağuşuna atdı. Qalmağa yerim olmadığından yataqxanada məskunlaşdım. Məndən ayrılarkən yaz yağışı tək gözlərindən axan damcılar yadıma düşəndə yanıb-yaxılıram, baba... Sənə qurban olum. Dünyada səndən və bir də körpəmdən — Hikmətimdən savayı kimsəm yoxdu... Sənsizliyimi düşünəndə başımın üzərini sanıram ki, qara buludlar alır. Nə vaxtsa, məni əməllicə-başlıca qarsıyacaq qasırğaların ilkin təsirini, hənirtisini duyuram... Belə getsə, çox çəkməyəcək ki, tufanlar qopacaq... Qasırğaların qovğaları, sərt yeli, tufanların qudurğan dalğaları məni bu yuvamdan da atacaq. Ancaq məni bu işdə qınama... Mən günahsızam, qəbahətsizəm... Bunları deməkdə elə bilmə ki, özümdən qorxuram. Əsla yox. Məni qorxudan Hikmətimin taleyidi. Mən istəməzdim ki, ömrüm-günüm anamınkına bənzəyəydi. Körpəmin də gələcək həyatı mənim həyatıma oxşayaydı. Məni qorxudan, dəhşətə gətirən bax budu, baba!..

Şəfəq öz-özünə danışdıqca əsəbiləşir, kövrəlir, acı göz yaşları axıdırdı. Öz-özü ilə danışa-danışa qayınanasının olduğu yan otağa keçdi. Ona elə gəldi ki, qayınanasının sifətindəki, alnındakı qırışların sayı bir qədər artıb, gözlərindəki qaynarlıqdan, baxışlarındakı səmimiyyətdən əsər-əlamət qalmayıb. Şəfəq heç bir şey başa düşmürmüş kimi qəsdən: — Bu axşam babamı yu-

xumda görmüşəm, — dedi. Qəhmər ağızucu: — Yuxu boş şeydi, axşamdan çox yeyəndə adam gecə narahat olur, — deyə cavab verdi. Şəfəq qayınanasının cavabının hiyləgərliklə verildiyini açıq-aydın duydu, ancaq özünü o yerə qoymadı.

* * *

Günlər getdikcə ailədəki narazılıqlar artır, ziddiyyətlər kəskinləşirdi. Tubunun böhtan dolu söz-söhbəti, söyüşləri Şəfəqə rahatlıq vermirdi. Hər gün gəlin əsəbiləşir, əlacsız qalıb ürəyini gah qayınanasına, gah otağına qapanıb öz-özünə boşaldır, gah da körpəsini qucağına alıb, onunla həsbi-hal edirdi. Son günlər Şəfəqə tam aydın olmuşdu ki, belə yaşamaq uzun sürə bilməz. Sürsə də, çox böyük faciələr, fəlakətlər törəyə bilər. O bir şeyi də yəqinləşdirmişdi ki, əgər ərinə evdən çıxmaq, kirayə mənzil tutub yaşayaq haqqında bir söz desə də xeyri olmayacaq, əksinə Hümmətdən daha artıq məzəmmət görəcəkdi...

Son bir həftə idi ki, müxtəlif vaxtlarda evə naməlum kişilər tərəfindən aramsız zənglər çalınırdı. Şəfəq hər dəfə dəstəyi götürür, Tubunu istəyənlərə "Evdə yoxdu", "Düz düşməmisiniz", "Ora deyil", — deyə cavablar verirdi. Hərdənbir: — "Alo, alo, kimdi danışan?", "Səsini çıxar da", "Niyə dinmirsən?" — narahatçılığı ifadə olunurdu. Gah da dəstəyi qaldırıb yenidən yerinə qoyurdu. Beləcə zəng səslərindən təngə gələn Şəfəq öz-özünə düşünürdü: axı bu kişilər kimlərdi? Tubu onlara verdiyim cavablara görə məni söyüb-təhqir eləməyəcək ki? Hümmət bu zənglərin mənə çalındığını güman eləsə, onda necə? Onu mən necə inandıra biləcəm ki, bu zənglər mənə yox, Tubuya çalınır? Zənglər çox davam eləsə, Tubu Hümmətə deyə bilər ki, əziz qardaşım, gör arvadın hansı işlərlə məşğuldu? Tubuya nə var ki... Allahı yox, İmanı yox. Dedi, dedi də. Ondan hər cür yaramazlıq gözləmək olar. Yaxşısı budur ki, bundan sonra dəstəyi





mən götürməyim. Məcbur olub, Qəhmər ana götürər. Qızına olan zənglərdə kişi səslərini də özü eşidər. Şahid olar... Bilirəm, anası zəng səslərini də heç kəsə deməyəcək. Tubunu ayağa verməyəcək, günahkar çıxarmayacaq... Lap yeri gəlsə, qızının yaramaz hərəkətlərinə də haqq qazandıracaq... Eh... Özü bilər. Təki söz-söhbətdən, dava-dalaşdan uzaq olum...

Şəfəq fikirləşdiyi kimi də elədi. Hər dəfə evə zəng çalınanda bəhanə ilə gah mətbəxə, gah da uşağını yedirtmək, paltar ütüləmək üçün yataq otağına keçirdi. Aramsız çalınan zənglər Qəhməri hövsələdən çıxarırdı. O, hər dəfə dəstəyi götürür, "Eşidirəm", "Kimi?", "Bəli", "Xeyr", "Danışan kimdi?" — deyə qısa, yarımçıq cavablar verir, sonra da dəstəyi yerinə qoyub öz otağına çəkilir, divanda yerini rahatlayar-rahatlamaz yenidən telefon zəngi otağı bürüyürdü. Qəhmər deyinə-deyinə təzədən telefona yaxınlaşır, dəstəyi götürür, eyni sözləri təkrarlamaq məcburiyyətində qalırdı. Gündə on dəfələrlə təkrar olunan bu işə Qəhmərin əsəbləri dözmürdü. O axır ki, "İt uşağı, it" — deyə dəstəyi telefonun üstə çırpdı, bu azmış kimi telefonu xətdən ayırdı. Dəhlizə çıxarkən bunu Şəfəq hiss eləsə də özünü görməzliyə vurdu. Nə qayınana, nə də gəlin bu barədə bir-birinə söz dedi. Hər ikisi eşidib bildiklərini, gördüklərini, duyduqlarını özündə saxlamalı oldu. Ancaq Qəhmər onu da bilirdi ki, zəng çalınarkən Şəfəq telefon dəstəyini qəsdən götürmür. Buna da səbəb Tubunun qalmaqallarından özünü bir qədər uzaq saxlamaq istəməsi idi. Bu neçə ildə bir evdə Qəhmərlə ana-bala kimi yaşayan Şəfəq sən demə hələ yaxşı tanımadığı, kəsdiyi çörəyi bir göz qırpımında tapdalayan, haqqı batil eləməyə rəvac verən, ikiüzlü, qazdan ayıq qayınanasının telefon zəngləri barədəki bilgilərindən xəbərdar idi. Ancaq gəlini bircə şey düşündürürdü: qada-bala təki məndən uzaq olsun.

Qəhmər bir söz deməsə də, gəlin özünə qarşı qayınanasının doğmaqda olan nifrətini gözlərindən oxuyurdu. Şəfəq təkcə ona

yanıb-yaxılırdı ki, Hümmət kimi Qəhməri də yaxşı tanımayıb. Ərinə, qayınanasına ürəkdən inanıb, onlar barədə həmişə ağız dolusu danışıb... Qəhməri həqiqi ana kimi özünün arxası, dayağı, həmdəmi sanıb. Ağlına da gətirməyib ki, qızının xatiri xoş olsun deyə, heç bir şeyin fərqinə varmadan günahsız gəlinini bu qadın ayaqlaya bilərmiş. Ayrı-ayrılıqda gəlinlə qayınana qəlblərində, düşüncələrində Tubu, onun pozğun əxlaqı barədə müəmmalı götür-qoylar dolandırırdı. Nə Şəfəq, nə də Qəhmər Tubuya çalınan zənglər barədə kimsəyə bir söz demək istəyirdilər. Şəfəqdən fərqli olaraq Qəhmər onu da düşünürdü ki, gəlin ərinə söz desə, dəlinin yadına daş salırmış kimi işləri korlaya bilər...

Aramsız zənglərdən bezən Qəhmər axır ki, əlacsız qalıb evə hər gün zəng çalan kişilərin kimliyini, niyyətlərini öyrənmək üçün axşam qızı ilə danışmaq qərarına gəldi.

* * *

Hümmət işdən evə gələrkən halı özündə deyildi. Gah televizoru yandırıb-söndürür, gah mətbəxə, gah yataq otağına keçir, gah da qayıdıb anasının yanına gəlirdi. Axır ki o, divanda oturdu. Qəhmər baş qatmaq üçün bayaq toxuduğu corabın yumaqlarını divanın o biri başına atıb bu biri başında əyləşdi. Anası da, arvadı da onun əsəbi olduğunu duyub artıq-əskik söz demək istəmədilər. Bu əsəbilik onsuz da uzun çəkə bilməz, yarım saata, uzaq başı bir saata Hümmət düşündüklərini özü açacaqdı. Onda əsəbiliyinin səbəbi özü-özündən meydana çıxacaqdı. O, ixtiyarsız bir divardan asılan saata, bir də qolundakı saata baxdı. Əsəblərini cilovlamağa çalışaraq anasından bacısının evə nə üçün vaxtında gəlmədiyini soruşdu. Gözlənilmədən qoyulan sual həmişə ehtiyatlı danışmağa, düşünmədən cavab verməməyə adət eləmiş Qəhməri çaşdırdı, o, duruxdu. Hələ qız vaxtlarından ölçülüb-biçilməmiş suala düşünülmüş, cavablar verməyi öyrənmişdi, Qəhmər. Qonşular, tanış-bilişlər ona hiyləgərliyinə, çoxbilmişliyinə görə "qurtdanquş Qəhmər" deyərdilər. Oğlunun sualına çox sakit, astadan, təmkinlə: "— Yəqin işdən gec çıxıblar, maşın tapmır gəlməyə, ona görə də ləngiyir bir az" —" cavabını ana elə laqeydliklə dedi ki, eşidən olsaydı Tubunun evə gec gəlməsində bir qəbahət duymazdı. Qayınanasının cavabını eşidən Şəfəq batildə gülsə də, "Əhsən sənə" desə də, zahirdə özünü elə apardı ki, guya baldızının gecikməsindən başqa fikrə düşmək əbəsdi. Hümmət daha anasının sözünü çevirmədi. O da əvvəlki fikrindən yayındı. Onun yerini arvadının buğlana-buğlana gətirib qənşərinə qoyduğu çay stəkanı tutdu. Halı özünə gəldi. Yavaş-yavaş əsəbilikdən əsər-əlamət qalmadı. Çayın üzü nazik qat bağlayırdı. Hümmət qatı görcək bir anlığa: — Bu çayın qaymağıdı, — deyə gülümsündü. O, nəlbəkidən tutub çay stəkanını özünə tərəf çəkdi. Bərk susuzladığından çayda özgə bir ləzzət duydu. Stəkanı başına qaldırmaq istəyirdi ki, telefonun zəng səsi otağı bürüdü. Qəhmər istədi ayağa qalxıb telefona cavab versin. Hümmət ona imkan vermədi, tələm-tələsik gedib dəstəyi götürdü. Mikrofondan nazik, məlahətli, cəlbedici qadın səsi eşidildi. Hümmət:

— Alo... Alo... Eşidirəm, — dedi.

— Bağışlayın 000.00.99-du?

— Bəli.

— Siz Tubunun qardaşısız?

— Bəli.

Qadın səsinə ara verdi. Sonra:

— Bacınızın harda olduğunu bilirsinizmi?

— İşdədi. İndilərdə gələr.

— Xeyr. Səhv eləyirsiz. Sizin bacınız "Günəşli" küçəsindəki 08 nömrəli evdə kişilərlə kefdədi. Zəng çaldım ki, sizi xəbərdar eləyim, narahat olmayasız.

Hümmət tutuldu. Əvvəl inanmaq istəmədi. Fikirləşdi ki, bu

qadın Tubunu istəməyən iş yoldaşlarından biri olacaq. Zəng çalmaqla Tubunu hörmətdən salmaq və evdə dedi-qodu yaratmaq fikrinə düşüb. Məlumatın ciddiliyi hisslərini həyəcana gətirdi. Qolundakı saata baxdı. Saat 22-yə qalırdı. O, çaş-baş qalıb qadına nə deyəcəyini bilmədi.

Hümmətin qışqırtısını yan otaqda arvadı da, anası da apaydın eşidirdilər. Qəhmər söhbətin Tubudan getdiyini anladı. Ancaq söhbətin mahiyyətindən xəbərsiz idi. Əlacı kəsilən Hümmət:

— Sağ ol — dedi.

— Necə? Sağ olum?

— Mə'lumatın üçün.

— Bacının gündə neçə kişi dəyişməsindən xəbərin varmı?

Hümmət qəzəblə:

— Hə, — deyə cavab verdi.

— Əcəb oğraşsanmış. Yaxşı deyiblər: "Qəhbəni qəhbə eləyən sahibi olur". Bacın camaatın kişilərini pozur, elə mənim kişimi də".

Qadına başqa cavab verməyə söz tapa bilməyən Hümmət əsəblərini nə qədər cilovlamağa çalışsa da, hiss elədi ki, bədəni uçunur, dizləri əsir. Bütün gücünü toplayıb özündə bir anlığa sakitlik yarada bildi:

— Ərinizi əlinizdə bərk saxlayın, xanım.

— Aa... Əcəb kişidi ki bu. Elə bunun özü də...

Mikrofondan uzun qudok səsi eşidildi. Hümmət dəstəyi yerinə qoyub anasıgilin yanına qayıtdı. Arvadının da, anasının da sual dolu nəzərləri Hümmətə dikildi. O, əvvəl söhbəti açmaq istəmədi. Anası: — Axı nə olub? — deyə təkidlə soruşdu. Hümmət eşitdiklərini bircə-bircə anasına danışdı. Danışdıqca da Hümmət qızışırdı. Qəhmər də nə deyəcəyini bilməyib əvvəl susmağa üstünlük verdi. Şəfəq bərk qorxdu. Düşündü ki, əri bacısının bu namussuz, biqeyrət hərəkətlərinə, əxlaq pozğunluğuna görə telefonda xəbər verən qadının dediyi kimi gündə bir kişi





dəyişən bacısını ya vurub öldürəcək, ya da elə bu axşam onu evdən qovacaq. Bu evdə bu axşam qiyamət qopacaq, faciə başlanacaq. Bu işin sonu Hümməti fəlakətə aparacaq. Belə olanda Şəfəqin də, o beşikdə mışıl-mışıl yatan balaca Hikmətin də uğursuz taleyi həyatın arzuolunmaz məngənəsinə atılacaq. Şəfəq bax beləcə özünü için-için yeyirdi ki, Qəhmər nə fikirləşdisə: — Əşi, qanını qaraltma, boş şeydi, acığı gələnə elə zənglər çox eləyirlər, hər sözün başına ip salsan, gərək yaşamayasan, oğlum, — dedi. Hümmət anasından bunu gözləyirmiş kimi dolmuş şar kimi boşaldı. Şəfəq bunu görcək bir an faciə, dava-dalaş olmayacağına sevindi. Sonra da birdən yuxudan oyanmış kimi oldu. Onda belə bir hiss yarandı ki, mənim ərim bu qədər qeyrətsizdimi, xudaya?! Bacının gündə bir kişi dəyişməsinə bu qədər yüngül münasibət olarmı? Atılan qeyrət, satılan namus, tapdalanan ləyaqət, itirilən şərəf, mənasız şəxsiyyət damğasını, ləkəsini üstünə götürənə kişi demək mümkündürmü? Aman Allah, kaş ərimin bu miskin sifətini, alçalmış hərəkətlərini mənə göstərməyəydin...

Bu acı, ikrahedici hisslər içərisində Şəfəq ərinin gözlərinin içinə baxdı. Bayaqkı əsəbilikdən, qəzəbdən onun gözlərində əsər-əlamət görmədi. Şəfəqə elə gəldi ki, illərdən bəri qəlbində qurub-tikdiyi əzəmətli bina gözləri önündə birdən-birə uçulub tar-mar oldu. Əlində tutduğu büllur güldan hansı naməlum qüvvənin təsiri iləsə, bir göz qırpımındaca çilik-çilik olub ayaqları altına töküldü. Hümmət arvadının gözlərində murdar əski parçasına döndü. Bu gəlin heç vaxt özünə arsız, namussuz, ləyaqətsiz, şərəfsiz ər arzulamamışdı. O, nə ərinə, nə də qayınanasına bir söz dedi. Gözlərindəki nifrət hissini gizlətmək üçün öz otağına keçdi. Artıq söz-söhbətləri olmadığından Hümmət qalxıb televizorun düyməsini basdı. Detektiv Qərb filmi göstərilirdi. Ana ilə oğul filmə baxmalı oldular.

Axşam saat iyirmi üçü keçmişdi.

— Sabah tezdən qalxacam, yatmaq vaxtıdı, — deyib Hümmət ayağa qalxdı. Otaqdan çıxırdı ki, Tubu əlində bir dəstə gül salam verib otağa keçdi. Hümmət başı ilə salamı alıb: — Bu vaxtacan hardasan, Tubu? — deyə soruşdu. Bacısı qardaşının sözlərini eşitməzliyə vurdu. Əlindəki gül dəstəsini şkafın üstündəki milli ornamentlə bəzədilmiş güldana qoydu. Tubunun hərəkətlərində çeviklik, üzündə təbəssüm, gözlərində sevinc hissi açıq-aydın duyulurdu. O, çoxdandı ki, evə belə məmnun gəlməmişdi. Bunu anası da, qardaşı da açıq-aydın sezirdilər. Qəhmər oğluna Tubuya başqa söz deməsin deyə göz-qaşı ilə "Sən get yat, özüm danışaram" işarəsini verdi. Hümmət anasının işarəsi ilə yataq otağına keçdi.

* * *

Qəhmər televizoru söndürdü. Yeməyə ehtiyacı olub-olmamasını, evə gec gəlməsinin səbəbini qızından soruşdu. Tubu ziyafətdə doyunca yeyib-içib gəldiyindən anasına başı ilə "yox" işarəsini verdi. "Nə tez yatırsan?" — deyə anasından soruşdu. Ana heç bir əsas gətirə bilmədiyindən çiyinlərini çəkdi. Tubu anasının yanındaca əyləşdi. Ana qızının əxlaq pozğunluğunu qətiyyətlə pisləsə də, ona tam əmin idi ki, övladı mənən xəstədi. Nə qədər çalışsa da, onun xəstə təsəvvüründə bir çevriliş yarada bilməyəcək. Üstəlik, dava-dalaşları artacaq. Aralarındakı ana-balalıq pərdəsini bir göz qırpımındaca qızı deşəcəkdi. Ona görə də Qəhmər özünü elə aparırdı ki, bir çox məsələləri guya başa düşmür, deyilən sözlərin bəzilərini də anlamır. Bununla da ana qızının gördüyü işlərin əxlaq pozğunluğunun sanki çəkisini azaldırdı. Ancaq o, ağlına gətirə bilmirdi ki, Tubu keçmiş uçurumlarını arxada buraxsa da, yeni uçurumlara doğru sürətlə yaxınlaşır. Ana ehtimal eləyirdi ki, qızı tək Elşənin yox, bir neçəsinin ağuşuna atılır.





Tubunun kişilərlə olan gündəlik ittifaqı Elşənə tam bəlli idi. Elşən Tubunun təsvir xəritəsində sönük bir nöqtə kimi görünürdü. Bir də ki Tubunun əlaqələr sisteminə təkcə sürücülər deyil, eyni zamanda şəhərin bir çox vəzifəli şəxsləri də daxil idi. Ana qızını artıq uçurumun kənarında yox, dibində axtarmalı idi.

Qəhmər xeyli fikirləşdi. Sonra sakit bir tərzdə dedi:

— Bayaq bir qadın zəng çalmışdı. Hümmətlə danışdı. Dedi ki, hansı ünvandasa kefdəsiz. Mən bilirəm, Tubu, Elşənlə getdiyini. Ona de, qızım, ya üzə çıxsın, biz də bilək, qonşular da bilsin ailə qurduğunuzu, adın-sanın ləkələnməsin, ya da nə olub, olub, ziyanlığın yarısından çəkilsən yaxşıdı. Bəlkə sənin də bəxtin açılacaq. O qədər sənin kimi dul qadınları alıb arvad eləyənlər olub ki.

— Eh... Nə evlənmək? Kül ərin başına. Ərə getmişdim də. Gördüm nə olan şeydi. Ərə şalvar, tuman, mayka yumaqdan, ütüləməkdən az qala çürümüşdüm. Bunlar azmış kimi birini də doğ, ömrünü sərf elə ona. Ər-mər istəmirəm. Kim istəyir, qoy ona qismət olsun.

— Tubu, neçə gündü mən kişi zənglərinin əlindən zinharam.

— Yəqin Seyrandı.

— Yox, mən onun səsini tanıyıram.

— Bəlkə Şəfəqin adamlarıdı?

Qəhmər tutuldu. Handan-hana dedi:

— Şəfəqə böhtan atma. O, heç elə adam deyil, Tubu. Sən uçurumun kənarındasan. Özünü də, bizi də məhv eləyəcəksən. Evin telefonunu itə-qurda vermə. Abrımız getdi. Yəqin o kişilər qardaşın arvadına da, elə mənə də...

* * *

İnsan qəribə məxluqdu. Gözü görmədiyi, əli-ünü çatmadığı uzaq-uzaq planetləri, qalaktikaları, səyyarələr aləmini, onların

mahiyyətini öyrənib kəşf elədiyi, cəmiyyətin istifadəsinə çevirə bildiyi bir halda, bəzən özü-özünü tanıya, idarə eləyə bilmir. Həyat sirli-sehirli bir aləmdi. Həm təsəvvürolunmaz, ağlagəlməz, ölçüsüz-biçisiz gözəlliklər, həm də dəhşətli, qorxulu, faciəli cəngəlliklər məskənidi. Əzəldən yaranış elədi ki, nə axtarsan taparsan; cənnət də, cəhənnəm də; qüdrətli daş-qaş da, heç kəsə lazım olmayan zir-zibil də; işıq da, qaranlıq da; sevgi də, nifrət də. Öz ağlı, öz kamalı ilə insan istədiyini götürür bu aləmdən. Atalar yaxşı deyib: "Niyyətin hara, mənzilin də ora". Hər kəsin nicatı öz əlindədi. Niyyətinə, əməllərinə görə xoşbəxtliyini, ya bədbəxtliyini tapar... İnsan daim xoşbəxtliyinə doğru can atır. Ancaq hərə bir cürə. Tutduğu yol, elədiyi əməl onu istəyinə doğru aparırmı? Kimisi səadətini əldə eləyir, kimisi də bədbəxtliyini. Səadət işıqlı gələcəkdisə, zəngin mənəvi dəfinələrə yiyələnməkdisə, bəs bədbəxtlik nədir?! Mənəvi dünyasının korluğu, qəbahətlərin ölçüsüzlüyü, hüdudsuzluğu. İnsani hisslərin, duyğuların itirilməsi. Gur şəlalə öz axınını dayandıra bilmədiyi kimi, insan düşüncələri də bir yerdə qərar tuta bilməz. Qabağı kəsilmiş çayın suyunu şişirdərək uzun müddət öz məcrasında saxlamaq mümkün deyil. Fikir, düşüncə də belədir. Onu da çox sıxmaq, ya dondurmaq mümkün olmur. İnsan mənini parçalayan düşüncələr bəzən bir-biri ilə üst-üstə düşən, bəzən də bir-birinə düşmən kəsilən mənafeləri doğurur. Tubu şəhvət hissləri, öz istəyi, arzusu ucbatından bütöv ailənin dəyərlərini çirkin ayaqları altına atıb tapdalayırdı. Qadınlıq ismətini, namusunu, ləyaqətini, şərəfini boğurdu. Vicdan deyilən müqəddəs ali hissləri, duyğuları qırıb-tökürdü. Bütün insani hisslərini itirən, mənəviyyat qəssabı olan bu qadın məzlum, kimsəsiz Şəfəqi hər cür alçaltmağa hazır idi. Onun üçün nə ana, nə qardaş, nə gəlin, nə də qardaşoğlu vardı. Onu maraqlandıran yeganə şey ziyafətlərdə olmaq, pul üçün gündə birinin ağuşuna atılmaq, şəhvət hisslərini, alışıb-yanan ehtiraslarını söndürmək idi. Bunun üçün Tubu





hər şeyə, hər şeyə hazır idi. Ana, qardaş etirazları onun üçün arı vızıltısından başqa bir şey deyildi.

Sürüşkənlik dünyasının zəngin təcrübəsini toplayan Tubu bu yaşında fahişəlik aləminin bütün sirlərinə yiyələnmişdi. Həya hissindən əsər-əlamət qalmadığından onun tətbiq elədiyi metodlar da istəyinə uyğun səmərə verirdi.

Tubu səhər saat onda düz evlərinin qarşısındakı maşın dayanacağında Toğrulla görüşməli idi. O, səhərin şirin yuxusundan gec oyanmışdı. Özündə halsızlıq, ciddi yorğunluq duyurdu. Əvvəl istədi görüş yerinə bu dəfə getməsin. Onunla üçüncü görüşü olduğundan, onun halına, xislətinə hələ tam bələd olmadığından özlüyündə getməyi qətiləşdirdi. Vədələşdikləri vaxta az qalırdı. Tələm-tələsik geyindi, üzünə-yanaqlarına pudra çəkdi. Dodaqlarını qıpqırmızı boyadı, ətir vurdu. Diqqətlə fikir verilsəydi, onu təzəcə leş dağıtmış canavara bənzətmək olardı. Qara, ütülü şalvarını, dümağ koftasını geyindi. Şalvarla kofta dar olduğundan yançaqları və sinəsi az qala paltarları yırtıb çıxacaqdı. O, əlləri ilə qarnına, yanbızlarına sığal çəkdi. Özündən məmnun halda qapıdan çıxırdı ki, telefon zəng çaldı. Qayıdıb dəstəyi götürdü. Danışan Toğrul idi. Tubu onu dərhal səsindən tanıdı: — Hə, gəlirəm, — deyib dəstəyi öz yerinə qoydu və evdən çıxdı. Maşın binanın kəlləsində dayanmışdı. Toğrul Tubunun gəldiyini görcək qabaq qapını açdı. O, qaça-qaça gəlib maşında əyləşdi, dərhal da əyilib oğlanın üzündən öpdü, gecikdiyi üçün üzr istədi. Öpüşdən sərməst olan Toğrulun nigarançılıqdan doğan əsəbiliyi o andaca əriyib yox oldu. Yarızarafatla dedi:

— Bir az da geciksəydin, özüm gələcəkdim sizə.

— Aa... Nə danışırsan? Anam bilirsən, neylər?

— Neylər?

— Deyər qardaşıma. O da doğruyar ikimizi də.

— Qardaşın kişi olsaydı...

— Birdən anam soruşsa, kimsən? Onda nə deyərdin?

— Deyərdim kürəkənin.

— Bəs arvadın?

— Olsun da.

— İstəyirəm təkcə mənim olasan. Bilirsən, onda neylərdim?

— Bildiyini elə də.

— Yadıma düşəndə arvadın var, az qalıram hərdən səni bu əllərimlə boğub öldürəm. Sənin də canın qurtarsın, mənim də. Elə arvadının da.

— Arvad yazıq oturub evdə, özün də ona şərik çıxmısan. Məni də ona qısqanırsan. Balam, bu ədalətdəndimi?

— Ədalət güclülərdədi.

— Yataq üçün doğulmusan. Səninlə görüşəndən sonra evə getmək istəmirəm.

Tubu qəhqəhə çəkərək:

— Hələ harasıdı. Neçə gündü özümdə deyiləm.

— Niyə?

— Özümdən şübhələnirəm.

— Qalmısan?

— Yox. O gündən özümü pis hiss eləyirəm. Xəstə deyilsən ki? Birdən mənə də...

— Başın xarab olub, deyəsən.

Toğrul maşını saxladı. Əsəbi şəkildə qapını açdı: — Düş rədd ol burdan, pozğun, — dedi. Tubu Toğrulun bozarmış sifətini, əsən dodaqlarını, çənəsini görcək bərk qorxdu. Nə deyəcəyini bilmədən maşından düşüb evə qayıtdı.

* * *

Bu neçə ildə özü-özünü can-başla səfalət, cəhalət və cinayət yoluna atan Tubu hər gün daha qatı qaranlıqlara doğru irəliləyirdi. İrəlilədikcə də qəlbindəki az-çox insani hissləri də öz əlləri ilə boğur, doğrayıb tökürdü. Özü də bilmədən özünü mənasız bir





şeyə çevirirdi.

Tubu evə gələndə Qəhmər səhər yeməyi üçün süfrə açırdı. Ana qızını görcək onu yeməyə çağırdı. Ana, bala yeyib-içir, ucadan gülürdülər. Onların bu etinasızlığı, biganəliyi, yaxud da ki qəsdən acıq vermələri Şəfəqə təsir eləməyə bilməzdi. Şəfəq özözünə dedi: "Tubu, Tubu! Bu ağıl ki səndədi, bu dar düşüncəlik ki anandadı, bu qeyrətsizlik, namussuzluq ki sənin qardaşında, mənim ərimdədi — hər nə istəsən eləyə bilərsən. Abırını, həyasını, ismətini gözləməyən, ləyaqət və şərəfinin alçalmasından qorxmayan, ətrafdakıların nəzərini öz üzərində hiss eləməyən adam hər cür əxlaqsızlığa yol verə bilər. Övlad üçün valideyn böyük məsuliyyət daşıyır. Məsuliyyətin itirilməsi valideynin də, övladın da mənəvi məhvinə, ölümünə gətirib çıxarar. Fikirləşəndə dəhşətə gəlirəm. Ana qızının pozğunluğunu bilir. Gündəlik hərəkətlərindən xəbərdardı. Qızını fəlakətdən, dəhşətdən çəkindirmək əvəzinə... Yox, deyəsən, düz fikirləşmirəm axı. Ana neyləməli idi? Qızını neçə dəfələrlə mənim gözlərimin qabağında, qulaqlarım eşidə-eşidə danladı, ona yol göstərdi, bəzən hədə-qorxu da gəldi. Atalar yaxşı deyib: "Su quyunun özündə olmalıdır. Quyuya su tökməklə sulu olmaz". Bulaq qaynamırsa, onun gözünü eşməyin nə mənası. Boş şeydi. Məni yandıran biqeyrət qardaşındı. Nə olsun ki, mənim ərimdi. Hələ görməmişəm o bacısına bircə kəlmə bu barədə ciddi, qəti söz desin. Bacısının əməllərindən ola bilməz ki, o, xəbərsizdi. Əgər doğrudan da belədisə, lap pis. Fəlakətdi, vallah. Ana güzəştə gedir. Qardaş susub durur. Onda üzü-üzlər görmüş Tubu dayanarmı? Allah bilir. Görən, o, bu gün evə niyə qayıtdı? Bəlkə söz verdiyi, vədələşdiyi adam gəlib çıxmayıb. Bəlkə də Tubunu araya qoyub, ələ salıb. Əgər belədisə, nə eləyib?! Əşi, hamısı boş şeydi. Onsuz da Tubu utanan, qızaran deyil. Görəm ana qızından geri qayıtmasının səbəbini soruşdumu? İnanmıram, soruşmasın. Tubuya nə var: deyəcək bu gün özümü pis, halsız, nə bilim necə...

necə hiss eləyirəm. Tubu kefsizə, halsıza oxşayırmı? Yox! Yaxşı tutaq ki, kefsiz idi. Xəstəhal idi. Onda səhər yataqdan qalxıb geyinib-keçinib niyə gedirdi ki? Boş şeydi. Hamısı yalandı. Hamısı bəhanədi. Allah sonrakı biabırçılıqdan uzaq eləsin“.

Günortaya az qalırdı. Şəfəq dünən yuyub sərdiyi paltarlara ütü çəkirdi. Telefon zəng çaldı. Dəstəyi Tubu götürdü. Ucadan "Allo... Kimdi? Eşidirəm“ dedi. Sonra da səsini bir qədər alçaltdı. "Hə", "Tanıdım", "Hara?", "Kimlə?", "Öyrənim", "Çalışaram", "Ağıl kəsən şeydi", "Tində", "Yarım saatdan", "Oldu" sözlərindən savayı başqa söz işlətmədi. Şəfəq bunlardan da heç nə başa düşmədi. Tubu dəstəyi yerinə qoyub yenidən götürdü, nömrələri yığdı. Çox çəkmədən "Salam, Naza", "Əla müştəri", "Şişkadı", "Əliaçıqdı", "Bir saatdan", "Dayanacaqda", "Hələlik" deyib dəstəyi telefonun üstə qoydu. Qırıq-qırıq, əlaqəsiz sözlərdən məlum olurdu ki, zəng çalan kişi idi, sonra zəng vurub danışdığı isə qadındı, özü demiş, rəfiqəsidi. Onlar görüş yerini, vaxtını vədələşirdilər.

Tubu Naza ilə danışdıqdan sonra tələm-tələsik otağa keçdi. Bayaq çıxardığı paltarlarını geyindi. Pudralanıb, ətirlənib anası ilə xudahafizləşmədən otaqdan çıxdı... O, həyətə düşəndə hələ maşın gəlməmişdi. Qonşular bir şey başa düşməsin deyə, yaxınlıqdakı ərzaq mağazasına girdi. Vitrindəki ərzaqlara bircə-bircə baxır, qiymətlərini nəzərdən keçirir, arabir pəncərədən küçəyə boylanırdı. Çox çəkmədi ki, yaşadıqları binanın tinində İsaxanın maşını dayandı. Tubu mağazadan çıxıb yolu keçdi. Saymazyana maşına tərəf yaxınlaşdı. Elə bu vaxt maşının qabaq qapısı içəridən açıldı. Tubu yan-yörəsinə baxdı. Yaxınlıqda onu tanıyan olmadığını görüb maşına əyləşdi. Arxada altmış-altmış beş yaşlı dazbaş, kök, lopabığ bir kişi oturduğunu gördü. Tubunu görcək kişinin gözləri şəhvət hissindən alışıb-yandı.

Tubu gülümsündü. Ürəyində: — Kişi belə olar, — dedi. İsaxan dərhal arxadakı kişini göstərərək:





— Tanış ol, mənim dostum Atabaladı, — dedi, sonra da üzünü Tubuya çevirərək: — Bu can-ciyər də ki Tubu xanımdı.

Salonu gülüş səsləri bürüdü.

Atabala fürsəti əldən verməyərək:

— İsaxan səni çox istəyir, Tubu xanım.

Tubu arxaya çevrildi. Köhnə tanışlar kimi Atabalanın düz gözünün içinə hırıldadı, göz-qaşını oynatdı və dedi:

— Gəlsin istəməsin, əlinə təzə soyulmuş yumurta kimi düşmüşəm.

Hamı gülüşdü.

— Atabala üçün neyləmisən?

Tubu:

— Gedək götürək, dayanacaqda olacaq.

Sonra güzgüyə baxdı. Atabala ilə baxışları qarşılaşdı. Gülümsünərək başını arxaya çevirib əlavə elədi:

— Bəxtinə bomba çıxıb.

Atabalanın ürəyi atlandı. Bir anlığa ona elə gəldi ki, maşın ya hərəkət eləmir, ya da sürəti çox aşağıdı. Belə getsə, çox vaxt itirəcəklər. Onun fikrini duymuş kimi İsaxan: — Tələsmə, — deyib maşının sürətini artırdı. Tubunun bələdçiliyi ilə maşın iki küçəni keçib tramvay yoluna düşdü. Maşın dayanacağa çatmışdı ki, Tubu Nazanın binaların arasından keçib dayanacağa yaxınlaşdığını gördü. — Saxla, — deyə dilləndi. İsaxan maşını saxlayan tək gözü maşınlarda olan Naza yan-yörəsinə göz gəzdirə-gəzdirə maşına tərəf gəldi və özünü bir göz qırpımında içəri atdı. Maşın yerindən sürət götürdü.

İsaxan üzünü Tubuya tutaraq:

— Hara?

Atabala fikirləşmədən:

— Hacıkəndə.

Tubu üzünü yarımqövsü Nazaya çevirərək:

— Uzaq deyil ki? Bir saat o yana, bir saat bu yana. Bir-iki saat

da domiklərdə.

Naza:

— Gec olmaz ki?

— Yox, niyə ki?

— Yaxşı.

Maşın irəli dartındı. Yol boyu Atabala gah əlini Nazanın dizləri üstə, gah çiyninə qoyur, gah da boynunun ardından saçlarını tumarlayırdı. Naza da hərdənbir gah astadan: — Səbrin olsun, tələsmə, — deyir, gah da ağız-burnunu burcudurdu. Atabala özünə qayıdanda isə naz-qəmzə ata-ata onun könlünü alırdı. Maşın dolanbac yollarla yoxuşa dırmandıqca dağların, qayaların başına çəkilən, çılpaq ağacların, kolların, yulğun topalarının dibini, budaqları bürüyən, yol boyu ətrafda özünə şaxtadan məskən salan qartımış dümağ qar örtüyü təbiətin təzadını nümayiş etdirirdi. Maşın irəlilədikcə zarıyırdı. İsaxan maqnitofonun düyməsini basdı. Salonu oynaq, şən musiqi sədaları bürüdü. Ara müğənnilərindən olan qız "Həsir basma, dolan gəl" mahnısını böyük həvəslə oxuyurdu. Adama elə gəlirdi ki, bu mahnı elə bu şərait üçün, ona uyğun əhvali-ruhiyyə ilə indicə bəstələnmişdi. Müğənni də onu bunların xatirinə oxuyurdu. Müştəri tapdıqlarından əhvalları yüksələn Naza da, Tubu da müğənni qızla birlikdə astadan ağız-ağıza verib oxumağa başladılar. Nazanın yumşaq, cazibədar, ürəyəyatımlı, ovsunlayıcı səsi Atabalanı tutdu. Kişi: — Əla oxumağı da varmış bunun, — dedi və özünü saxlaya bilməyib qızın boynunu qucaqlayıb üzündən öpdü. Naza başını Atabalanın qolları arasından güc-bəla ilə çıxartdı — Hələlik bəsindi, unutma ki, bunun da ayrıca öz qiyməti var, — dedi. Salonu gülüş səsləri bürüdü. Cəsarətdən doğan bu öpüş Atabalanın coşan ehtirasına təcili yardım təsiri bağışladı. Gərilən əsəblərinə sanki həzin bir meh məlhəm qoydu. Tubu: — Gedək çataq, adama bir az gillədək, sonra Nazadan xahiş eləyərik, bizim üçün oxuyar, — dedi. Naza fürsəti əldən verməyərək bayaqkı sözünü təkrar





elədi: — Dedim, onun da xərci var.

Söz altda qalmayan İsaxan: — O da Atabalanın boynuna, — deyə cavab verdi.

Bir saatdan artıq idi ki, dağ yollarını dırmanan maşın başı göylər dələn ağacların arasında yerləşən kababxananın qənşərində dayandı. Meşədə bir-birindən beş-on metr aralı tikilən evciklərin həyətində iki böyük kabab manqalı tüstülənirdi. Manqallardan birinin üstündə ət çəkilmiş beş-altı, ikincisinin üstündə isə yeddi-səkkiz şiş görünürdü. Maşından düşən İsaxan xidmətçiyə yaxınlaşıb salam verdi və: — Lələ, evciklərdən boş olanı varmı? — deyə soruşdu. Xidmətçi suala-sualla cavab verdi:

— Niyə yoxdu, lələ?

— Əyləşə bilərikmi?

— Buyurun.

İsaxan maşında əyləşənlərə əli ilə "Düşün" işarəsini verdi. Əvvəl Atabala, sonra da xanımlar maşından düşdülər və xidmətçinin müşayiəti ilə evciklərdən birinə keçdilər. Bura dar olsa da, olduqca təmiz və səliqəli idi. İsaxanla Tubu, Atabala ilə Naza yanaşı əyləşdilər. İsaxan xidmətçidən soruşdu:

— Lələ, nə yeyə bilərik?

— Quzu ətindən lülə, tikə kabab, ilan balığı. Çığırtma toyuq, kartof.

Tubu ağız-burnunu büzərək:

— İlan balığını o yana elə.

Naza üzünü xidmətçiyə tutaraq:

— Bir az tez eləyin. İt oğlu başımı xarab eləyəcək.

Atabala:

— İt oğlu kimdi?

— Ərim.

— Naza, nə yaman qorxursan?

Tubu gülərək:

— Qorxsaydı, burda nə iti azmışdı ki?

Sifariş verildi. Çox çəkmədi ki, hər şey hazır oldu.

Mərəkə başlandı. İsaxan xanımlara konyak, özlərinə də araq süzdü.

Tubu dərhal:

— İsaxan, sən içmə qadası, taleyimiz sənin əlindədi.

— Qorxma.

— Yol polisləri səni "sağacaqlar", onlara verəcəyini bizə ver.

— Narahat olmayın.

İsaxan qədəhini götürüb üzünü Atabalaya tutdu və astadan dedi:

— Mən təklif eləyirəm ki, bu badələri qaldıraq Tubu xanımla Naza xanımın şərəfinə! Həyat müvəqqətidi. Xoşbəxt o adamdı ki, bu gözəl, cazibədar həyatdan kam alıb sonra dünyasını dəyişsin. Məncə, qadınsız həyat yoxdu. Yaşanan ömür də ömür ola bilməz. Böyük mütəfəkkirlər yaxşı deyiblər: "Qadın həyatdı, gözəllikdi, şənlikdi, gülüşdü, kefdi." Əzizlərimiz, inanın, bu gün sizsiz biz də bura gəlməyəcəkdik. Gəlməyəcəkdiksə, bu süfrədəki nemətlərdən də məhrum olacaqdıq. Sizdən soruşuram: bizdən bu dünyada nə qalacaq? Heç nə! Yaxşı, bu dünyadan bizə nə qalacaq? Yenə heç nə. Bircə çəkdiyimiz keflər! Bu dağlar qoynunda, bu gözəl qarlı gündə, Hacıkəndin ab-havasında aldığımız ləzzət. Pis günümüz belə olsun. Təbiətin biz kişilərə ürəklə, cani-dildən bəxş elədiyi xanımlarımızın şərəfinə...

Tubu:

— Dayan, dayan! Hansı xanımlarınızın? Evdəkilərin?

— Eh, sən mənim canım yadıma salma. İçirik Tubu xanımla Naza xanımın şərəfinə. Razı qaldız?

Naza:

— Bu başqa məsələ.

Qədəhlər bir-birinə vurulur, boşaldılırdı. Beyinlər dumanlandıqca yeni sifarişlər verilirdi. Növbəti dəfə xidmətçi oğlan başını qapıdan içəri salanda İsaxan: — Dincəlmək üçün yeriniz





olacaqmı? — deyib oğlana bir göz vurdu. Xidmətçi hal əhli olduğundan: — Təşkil eləyərik, — dedi, sonra da gülümsünüb otaqdan çıxırdı ki, Atabala onun bir qədər tez təşkil olunmasını bildirdi. Xidmətçi qapıdan çıxanda geriyə döndü: — İki mənzil? — deyə İsaxandan soruşdu. Atabala dərhal: — Bu yaşda konsert, ya teatr düzəltməyəcəyik ki, a bala, — dedi. Aradan xeyli keçmişdi ki, oğlan başını içəri saldı. Hər şeyin öz qaydasında olduğunu bildirdi. Bayaqdan bəri özünü iynə üstündə oturan kimi hiss eləyən Atabala: — Bir az da həzmlə məşğul olaq,— dedi. Bunu gözləyirmiş kimi xanımlar da, İsaxan da ayağa qalxdılar. Atabala yaşına uyuşmayan hərəkətlərlə xanımların nəzərində özünü çoxbilmiş, bazlıq sənətinin görkəmli mütəxəssisi kimi canlandırmağa çalışırdı. Onun bu hərəkəti xanımların gözlərindən yayınmadı, onlar paltolarını geyinib həyətə çıxan kimi Tubu Nazaya xısıldadı: "Bu kaftarın başına bir oyun açmalısan ki, ömrü boyu unutmasın. Hər dəfə də yadına düşəndə yanıb yaxılsın". Naza gülümsünüb kirpiklərini qırpdı. Xidmətçi oğlan qabaqda, müştərilər də onun ardınca birmərtəbəli evə getdilər. Xidmətçi qapıya yaxınlaşıb bir neçə dəfə astadan döydü. Pəncərədən müştərilərinin gəlişini izləyən Səkinə xanım qapını açdı: — Buyurun, — deyib gələnlərin üzünə hırıldadı. Atabala: — Otaqlara baxmaq olarmı? — deyə soruşdu. Səkinə belələrini çox qəbul eləyib yola saldığından: — Söz ola bilməz — dedi və özü qabaqda, müştərilər də onun ardınca əvvəl sol, sonra da sağ tərəfdəki otaqlara baxdılar. Hər otaqda üstünə yun adyal çəkilmiş bir dəmir çarpayı vardı. Otaqlarda elektrik peçləri yandırıldığından içərinin havası isinmişdi. Atabala üzünü xanımlara tutaraq: — Necədi? — deyə soruşdu. Xanımlar ağızlarını açmamış Səkinə: — Əladı, qorxmayın, çarpayılar sizə darlıq eləməz, bunlarda o qədər... — dedi. Atabala özünü saxlaya bilməyib məntiqə məntiqlə cavab verdi: — Özünüz təcrübədən keçirmisinizmi?

Qadın Atabalanın səsindəki, sözündəki eyhamı dərhal başa düşdü və heç bir qəbahətə yol vermirmiş kimi: — Hə, özümüz də hər gün bu çarpayılarda dincəlirik, istirahət eləyirik, — dedi. Sözü uzatmağa ehtiyac yox idi. Olsa da, Hacıkənddə buradan yaxşı, buradan sakit və təhlükəsiz yer tapa bilməyəcəkdilər. Bir para vaxt itirəcəkdilər. O da xanımların uduşu ilə nəticələnəcəkdi.

İsaxanla Tubu sol, Atabala ilə Naza sağ tərəfdəki otağa keçdilər. Naza özünü çəkdi, yöndəmsiz, ürəkbulandırıcı sözlərlə qəsdən Atabalanı qıcıqlandırdı. Hirs, əsəb Atabalanı istifadəsiz alətə döndərdi. Zavallı kişi Gəncə çayının yekə qara bir daşına çevrildi. Özü-özünə nifrət eləyə-eləyə ayağa qalxdı. Bayaq dolabçanın üstə qoyduğu saatına baxdı. Naza soruşdu:

— Qadası, saat neçədi?

— Altıya qalır.

Bunu eşidən Naza tələm-tələsik ayağa qalxıb paltarlarını geyindi. Sonra:

— Atabala, onları da qaldır, gedəyin, gecdi. Gələn dəfə əvəzini çıxarsan.

Atabala xəcalətdən özündə deyildi. Əlacı kəsildiyindən cavanlıqdakı fədakarlıqları barədə Nazaya yığcam hesabat verdi. Bazlıq sənətinin bu görkəmli mütəxəssisi başa düşmədi ki, onu bu günə salan, başını aşağı, dilini gödək eləyən Nazanın özü idi. Əməliyyat planını Naza Tubu ilə birlikdə hazırlamışdılar. Atabala ondan da xəbərsiz idi ki, əsl mütəxəssis o yox, tərəf-müqabili idi.

İsaxanla Tubu da getməyə hazır idilər. Onlar otaqdan həyətə çıxıb "hesab məsələsini" həll eləyəndə Atabala suyu bulandırmalı oldu. Naza dərhal:

— Günah özündədi. Mənə nə?

Artıq söz deməyə ehtiyac yox idi. Qazdan ayıq, tülküdən bic Tubu üçün nəticə çıxarmağa bu, kifayət idi. Tubu gülümsündü.





İsaxanın qoluna girdi. Öz-özünə: — Deməli, əməliyyatın nəticəsi uğurlu alınmışdı, — deyə düşündü. Naza ilə Atabala arasındakı narazılıq getdikcə qızışırdı. Bunu görən İsaxan cibindən yüz dollar çıxarıb Tubuya verdi. Sonra da: — Qurtarın, hərənizə əlli dollar kifayət elər, — dedi. Tubu İsaxanın üzünə təəccüblə baxdı. Atabala dərhal:

— Özünüz bilin. Bütün günü xərcinizi çəkmişik. Gəncədən Hacıkəndə maşın sürmüşük. Bəyəm bunlar hesabdan deyil? Almırsız almayın. Özümüz də durub yarımçıq gedirik.

Naza:

— Sağ ol səni, Atabala! Benzin də bizim hesabımıza...

Tubu çiyinlərini çəkdi və fikirləşdi ki, əgər əlli dollara da qane olmasalar, İsaxanla Atabala onu da verməkdən boyun qaçıracaq, üstəlik özləri maşına oturub gedəcəklər. "Şər qarışıb. Gəl bu soyuqda, qarda Hacıkənddən Gəncəyə maşın tap görüm necə tapırsan". Ona görə də Tubu məsələni qabartmadı. Hərəsinə əlli dollarla kifayətləndi. Nazanın düşərini verdi. Astadan: — Gedəyin, — deyib Nazaya göz vurdu. Maşın kababxananın həyətindən çıxıb qarlı, şaxtalı, buzlu dağ yolu ilə Gəncəyə tərəf üz tutdu. Yüksək qazanc dalınca böyük həvəslə, sevinclə, fərəhlə gündüz Hacıkəndə gələn Naza indi əsəbi halda geri qayıdırdı. Yol boyu Naza da, Tubu da özlərindən otuz beş, qırx beş yaş böyük İsaxana, Atabalaya qazanclarının azlığına görə bir söz deməsələr də, daxilən bu gün keçirdikləri vaxtlarına heyfslənsələr də, yanıb-yaxılsalar da, yeri gəldi-gəlmədi deyilənlərə "hə, hə" ilə münasibət bildirir, kişilərin üzlərinə gülümsəyirdilər. Havanın qaranlıqlaşmasına baxmayaraq, dağları, meşələri, yolları qucuyan qarın işığı qarşıdan gələn gecəni bəyazıdırdı. Getdikcə şiddətlənən şaxtanın nəfəsi maşının buz bağlayan şüşələrini yalayır, içəridə yanan peçin istisinə tab gətirə bilməyən qar, qrov taqətini itirir, dolmuş gözlərdən yanaqlara axan yaşlar tək seləsuya dönüb üzüaşağı süzülürdü. Maşın Gəncəyə yaxınlaşdıqca

şəhərin çilçiraqlı görkəmi adamı özünə heyran qoyurdu. Tubu rəfiqəsinin qəlbini bir qədər ovundurmaq, gərilən əsəblərini yumşaltmaq üçün dedi:

— Anaş, bax gör şəhər necə də gözəl görünür? Lap adama aylı-ulduzlu açıq səmanı xatırladır. Həyat qəribə, təbiətsə gözəldi. Heyf, nə vaxtsa, ölüb gedəcəyik.

Atabala:

— Gərək həyatdan kamını ala biləsən. Onda həyat gözəl olur. Yoxsa...

Naza qəsdən:

— Yoxsa sənin kimi! Həm də əlli dollara.

Naza "Həm də" deməklə Atabalanın fəaliyyətsizliyinə də işarə vurdu. Salonu qəhqəhə səsləri bürüdü. Atabala bir balaca sıxıldı, İsaxan ayıq adam olduğundan söhbəti pulun üzərinə səmtləşdirdi.

— Pulsuz dünya cəhənnəmdi. Əzabdı. Pulun olmayacaqsa, bu dünyaya gəlməkdənsə, gəlməsən yaxşıdı.

Araya ani sükut çökdü. Qarşıdan gələn maşının işığı İsaxanın gözlərinə düşdü. Çaşdı. Maşını hansı tərəfə alacağını bilməyib onu yolun kənarındakı beton dirəyə vurdu. Səs aləmi götürdü. Gözlənilməz hadisədən özünü itirən Naza ilə Tubu ixtiyarsız halda qışqırdılar. Maşın söndü. İsaxan da, Atabala da, xanımlar da tələm-tələsik düşüb maşının qənşərinə keçdilər. Xeyli əzilmişdi. Tubu: — Şükür ki, yaxşı qurtardıq, — dedi.

* * *

Neçə gün idi ki, Tubu Şəfəqlə dalaşmaq üçün bəhanə axtarırdı. Şəfəqin xoş münasibəti, oturub-durması, gəzməsi onun əsəblərinə toxunurdu. Bunun səbəbini özlüyündə araşdıran Tubu bir nəticəyə gələ bilmirdi. O, öz-özünə bir neçə dəfə suallar da vermişdi: "Axı Şəfəq neyləyib ki, mənim ondan bu qədər zəhləm gedir? Mənimlə rəftarı xoş, anamla rəftarı olduqca səmimi, mehribandı. Hümməti insafən sevir. Ev canlı, ailəcanlıdı. Düşük, yüngül hərəkətlərdən uzaq, arını, ismətini, namusunu gözləyəndi. Qeybət, paxıllıq nədi bilməz... Axı mən niyə ona qarşı bu qədər insafsız, mürvətsiz olmalıyam?! Bunu Allah götürərmi?" Lakin bu hal uzun çəkmir. Tubu gözlənilmədən dəyişir, onda əvvəlki düşüncələrindən əsər-əlamət qalmırdı. Hər dəfə evə gec gələndə, ağzından siqaret, spirt qoxusu vuranda Tubuya elə gəlirdi ki, Şəfəq ondan qardaşına qeybət eləyir, onu alçaq, namussuz, pozğun qadın kimi Hümmətin gözündən salmaq istəyirdi. Şəfəqdən şübhələnən vaxtlarda Tubu qızışır, onu təhqir eləyirdi. Sonra da düşünürdü ki, heç vaxt qardaşı arvadının ürəyi onunla barışmayacaq, nə vaxtsa bacı-qardaşın arasını vuracaq. Onda da Tubu üçün gec olacaq.

Tubu axşam evə gec və kefli gəlmişdi. O, çimmək üçün vanna otağına keçirdi ki, ayağı sürüşdü. Yıxılmaqdan özünü gücbəla ilə saxladı. Qıçı vannanın kənarına toxunub qızardı. Həmin anda Şəfəqin ünvanına söyərək ucadan qışqırmağa başladı. Şəfəq səsə otaqdan çıxıb təəccüblə baldızının üzünə baxdı.

— Üzümə nə baxırsan? Sabunu ayaq altına atmısan ki, Tubu yıxılıb başı-gözü dağılsın? Utanmırsan, ifritə? Qızmış dəvə tək gözlərin ayağın altını görmür.

— Ay qız, ayıbdı. Səsin aləmi bürüyüb. Eşidib bilənlər də...

— Yalansa, sənin ciyərin yansın. İtin qızı it elə bil meşədən çıxıb. Ayıdı. Hər tərəf sabunludu. Yerə ayaq basmaq olmur.

Şəfəq Tubunun söyüş və təhqirlərinə dözməyib dedi:

— Bəsdi. Gəlib-gedib məni niyə təhqir eləyirsən. Nədi günahım? Yekə arvadsan. Özünü uşaq kimi aparırsan.

— Nə dedin? Arvad anandı! Nəslindi! Həyasız! Gör mənə nələr deyir?! Oğraş, biqeyrət qardaşımın ağzının kəsəri yoxdu! Olsaydı, sən belə danışmazdın. İndi ərin gələr, mən hər şeyi danışaram.

— Neyləmişəm? Çirkli paltarlarınızı yuyub sərmişəm də.

Bayaqdan söhbətin gedişini dinləyən Qəhmər sifətini bozartdı. Üzünü Şəfəqə tutub acıqlı-acıqlı dedi:

— A bala, Tubu düz deyir də. Yıxılıb baş-gözü dağılsaydı, dincələcəkdin.

— Ana, axı...

— Axı nədi yuyub sərdiyin?

— Alt-üst paltarlarımız.

— Unutma ki, sən bu evin itisən. Yuyub-təmizləmək borcundu. Yoxsa, sənə çörək verib saxlamazdıq ki? Axır ki yığışan deyilsən.

— Ana, bəyəm mən bu evdə itəm, nökərəm?

— Hə... Tula. Belə getsə, Hümməti də bəyənməyəcəksən.

Şəfəq söhbətin ardını uzatmaq istəmədi.

Tubu yenidən dilləndi:

— Belə getsə, özünə ər də axtarmalı olacaqsan.

Şəfəq cavab verməyə məcbur oldu.

— Utan danışığından! Mən sənin qardaşının, qardaşın balasının namusuyam!

Qəhmər:

— Yaxşı ki, uşaq oldu. Hümmət şübhədən çıxdı.

Şəfəq:

— Bununla nə demək istəyirsən, ana?

— Canına dərd, çor demək istəyirəm, həyasız! Gəmidə oturub gəmiçi ilə dava-dalaş eləyən nankor!

Şəfəq hönkürtü ilə ağlamağa başladı. Daha onlarla söz güləşdirməyib otağına çəkildi.

Qəhmər əvvəllər Tubunu tutduğu yoldan çəkindirməyə çalışırdısa, hər cür qəbahətinə görə məzəmmətləyirdisə, son vaxtlar qızından qorxduğundanmı, ona olan sevgisindənmi, ya nədənsə qəlbində ciddi çevriliş, təlatümlü böhran yaranırdı. Bəli! Qayınananın beyninə səpilən şər toxumlarının ilkin cücərtiləri,





rüşeymləri açıq-aydın görünməyə başlayırdı. Onsuz da qayınanasının indiyə qədərki ikili münasibətindən doğan hissiyyatı Şəfəqə çox şey diktə eləmişdi. Həmin vaxtdan da onun qayınanasına olan sevgisində sezilməz dərəcədə zəif ərinti yaranırdı. Ancaq Şəfəq özünü elə aparırdı ki, qayınanası onu heç cürə təsəvvür eləyə bilmirdi. Bu gün isə qayınananın iç üzü açıldı. Doğrudu, o bir müddət gizli mücrüsündə bir çox şeyləri saxlaya da bilərdi. Ancaq nə fayda. Gec-tez açılmalıydı, açıldı da.

Tubu anasını demək olar ki, tamamilə dəyişdirmişdi. Qəhmərin ağlı getdikcə öz şəffaflığını itirirdi. Qadının qızına olan məhəbbəti gəlinə olan istəyini üstələyirdi. Günbəgün onun fikri, düşüncəsi daha çox bulaşırdı. Apaydın görünürdü ki, ana qızının təsir dairəsindən heç cürə çıxa bilmir.

Qayınana kimi Qəhmər acınacaqlı vəziyyətə düşmüşdü. Sahibini qapan it, şikarını parçalamaqda olan canavar xislətli qızına kor məhəbbəti güclənmiş, quzu təbiətli gəlininə son vaxtlar yaranan münasibəti əməlli-başlı dəyişmişdi. Dinməsə də, bir başqa fikir söyləməsə də, qayınanasının belə dəyişkənliyi Şəfəqdə ona nifrət oyadırdı. Bunu duyan Tubu ona olan hücumlarını daha da kəskinləşdirir, onu gözümçıxdıya salırdı. Şəfəq isə cavan olsa da, nəciblik göstərir, deyilənlərin çoxunu qulaqardına vurur, qarşılaşdığı hər bir çətinliyi, söz-söhbəti hissə qapılmadan, əsəbiləşmədən aradan qaldırmağa çalışırdı. Fikirləşirdi ki, bir zaman gələr, ana da, bala da öz səhvlərini başa düşərlər. Ya da ki Hümmət onlara öz yerini göstərər. Bu düşüncələr içərisində Şəfəq vurnuxa-vurnuxa özünə çox təskinlik versə də, vəziyyəti getdikcə ağırlaşırdı.

Şəfəq başa düşə bilmirdi ki, ana qızının əxlaqi pozğunluğunu, namus, vicdan satıcısı olduğunu açıq-aydın bildiyi halda, nə üçün hər gün ona güzəştə gedir. O, dönə-dönə düşünürdü ki, ana Tubunu tutduğu yoldan çəkindirmək əvəzinə, niyə onun müdafiəsinə qalxır, oğlunun yanında qızının nalayiq hərəkətlərini

pərdələməyə çalışır? Aman Allah, bu nəyə bənzəyir? Səni öldürəcək caniyə minnətdarlığamı?! Günahın olmaya-olmaya qatı cinayətkarla məsuliyyəti bərabər bölüşməyəmi? Gözünü çıxardana, dilini kəsənə can-başla səcdəyə enməyəmi?!

Bəzən tale səni elə sıldırım uçurumlara aparıb çıxarır ki, özün də buna məəttəl qalırsan. Yaşantılı həyat sənin üçün əlçatmaz bir zirvəyə çevrilir. Bu dünyaya gəldiyinə də peşman olursan. Belə olduqda həyat, ömür sənin üçün bir girdaba, acı bir rüzigara çevrilir. Çevrildikcə də qəlbində gizli bir qiyam baş qaldırır. Sənin üçün matəm musiqisi çalınır. Onun ürək sızladan sədaları altında sənə sanki işgəncələr verilir. Durursan, dayanırsan, bu dərdə mübtəla olmağının səbəblərini araşdırırsan. Bəli, bunun hamısı sənin taleyindi, nəsibindi, qismətindi. Acı da olsa, bax beləcə, taleyini yaşamalı olursan...

Tubunun haqsız hücumlarından, Qəhmərin qızına göz yummalarından, sonra da iftiralarına, böhtanlarına qol-qanad verməlerindən, ərinin haqsız, ədalətsiz bacısını yersiz himayəsindən dəhşətə gələn Şəfəq gələcək müəmmalı həyatını düşünüb tir-tir əsirdi, soyuğa, qara, çovğuna dözməyən bala quş kimi donurdu. Belə hallarda o, hansı bir hissinsə özündən xəbərsiz oğrun-oğrun qəlbinə soxulduğunu da duyurdu. Bu, elə bir hiss idi ki, balasına görə Tubunun qarşısında baş əymək, ona təzim eləmək, onun dediklərini itaətkarlıqla üzərinə götürmək, yeri gələndə baldızı ilə əcaib, xarakterinə uyğun gəlməyən, özünə yad olan yolları birlikdə addımlamaq... Birdən o, öz-özünə sual verdi: bunlar mümkündürmü? O, hansı naməlum qüvvənin təsiri altındasa, bu yöndəmsiz düşüncələri üçün özünə nifrət eləyəcək bir tərzdə qəzəblə kükrədi: “Yox!” Sonra da əlavə elədi: iblis sifətli, gündə neçəsinin ağuşuna atılan bu mənfur ifritəyə, üzü üzlər görmüş, sıntarmış fahişəyə həmrəy olmaqdansa, yeri gəlsə, doğma, körpə, günahsız balamı da öz əllərimlə boğaram, sonra da özümü öldürərəm. Onda bu cəhənnəm yuvasından da xilas olaram.





Bu hisslər, ehtiraslar içərisində vəcdə gələn Şəfəq bir anlığa Tubunun üstünə atılmaq, saçını yolmaq, üz-gözünü cırmaq, gözlərini çıxarmaq da istədi.

Birdən gəlin hönkürtü ilə ağlamağa başladı. Heç kəsə bir söz deyə bilməyib otağına çəkildi. Aradan xeyli keçmişdi.

Tubu hamama keçib vannanı su ilə doldurdu, sonra da soyunub içində uzandı. Suyun istiliyi canına yayıldıqca, o, dincəlir, xoşhallanır, hərdənbir də əlini ağ qarı andıran şümşad budlarında, göbəyində, sinəsində gəzdirir, ətli döşlərindəki diş yerlərinə sığal çəkirdi...

Çöldəki şaxtadan, soyuqdan titrəyə-titrəyə evə gələn Hümmət arvadını səslədi. Şəfəq otağın qapısını açıb “gəlirəm“ dedi. Hümmət arvadının əsəbi, gözlərində yaş, yanaqlarında nəm olduğunu duydu və soruşdu:

— Xeyir ola?.. Yenə...

— Heç.

Hümmət tə’kid elədi, Şəfəq bildirdi:

— Ürəyim darıxır, sıxılıram.

— Niyə?

— Görünür, soyuq olub.

Tubuya elə gəldi ki, Şəfəq “açıb sandığı, tökəcək pambığı“, bayaqkı söz-söhbətin, qara-qışqırıqların hamısını bircə-bircə ərinə danışacaq. Hamamdan çıxan Tubu gəlib qardaşının yanındakı stulda əyləşdi. Hümmət bacısının üzünə mə’nalı-mə’nalı baxıb özündən razı halda dedi:

— Bayaq Seyranı gördüm. Kəbininizin e’tibarsız olması barədə məhkəməyə ərizə verib.

— Lap yaxşı. Ondan canım qurtarsa, elə bilərəm dünyanın xoşbəxtiyəm...

Şəfəqin yan otağa keçdiyini görən Tubu əlavə etdi:

— Qardaş, ikimiz də ailə sarıdan itirmişik.

Hümmət təəccüblə bacısının üzünə baxdı. Sonra:

— Niyə? — deyə soruşdu.

— Şəhər dolu qızdı. Lampa kimi yanırlar. Özləri də bomba ey. Bunun hələ bir uşağı olub belədi. Fikirləşirəm, ikisi, üçü olsa, necə olacaq?

— Bu, sakitdi. Təmizdi. Abırını, həyasını gözləyəndi. Məni, uşağını çox istəyir.

Tubu gülümsündü. Sonra dedi:

— Molla necə deyib? Mıxdakı buzov açılanda, o birilərindən bərk qaçır. Arvadının başı xarabdı. Bayaq onu o ki var danlamışam.

— Niyə?

— Arvadın mənim bu evdə yaşamağımı istəmir. Bəlkə mən kirayə mənzil tapım? Mənim namusuma, qeyrətimə yaxşı bələdsən. Kişi kimi şeyəm. Mən istəmirəm arvadının yanında sənin başın aşağı, dilin qısa olsun. Doğrudur, axşamlar evə bir az gec gəlirəm. Səbəb əsəbiliyimdi. Nə yaxşı ki, rəfiqələrim var. Dərdimi-sərimi onlarla bölüşürəm, fikrimi dağıdıram.

— Arvadım qələt eləyir. Gözünü çıxararam onun. Demişəm, indi də deyirəm, bu ev anamla sənindi. Qaldı gec gəlmənə. Uşaq deyilsən ki, səni öyrədəm. Rəva görmə ki, sənə elə otur, elə dur deyəm. Mənim bircə dərdim var. Evə, ailəyə üzüağ, alnıaçıq qayıtmaq. Bir də oğlumu böyüdüb, ürəyimcə tərbiyə eləmək.

— Gərək əməyini arvadın qiymətləndirməyi bacarsın.

— O da pis adam deyil.

* * *

Əmək intizamını pozduğuna və əxlaqsızlığına görə işdən qovulan Tubu bir neçə gün idi ki, kor-peşiman evdə otururdu. Anasının hər dəfə: — İşə niyə getmirsən? — sualına: — Xəstələnmişəm, özümü pis hiss eləyirəm, — deyə, cavab verirdi. Bu müddət də evə zəng vuran kişilərə cavab verməkdən boyun qaçırırdı. Bütün günü aramsız zənglərə cavab verən Qəhmər bir





söz deməsə də, özlüyündə qızına hiddətlənmişdi. Tubu evdə oturmaqdan bezmişdi, düşünürdü ki, nə qədər evdə oturmaq olar? Evdən çıxmaq, rəfiqələri ilə görüşmək istədi. Güzgünün qabağına keçdi. Bu neçə gündə özünə baxmadığından sir-sifətində, gözlərinin altında qırışlar yaranmışdı. Tubu bunu ilk dəfə görürmüş kimi: — Mənim nə yaşım var ki? — deyə heyrətləndi. Sonra da ətir-kirşanlanıb, geyinib-kecinib otaqdan çıxdı. Qaça-qaça pilləkənləri düşürdü ki, qonşu İslamla qarşılaşdı. Bu oğlanın otuza yaxın yaşı olsa da, hələ ailə qurmamışdı, subay idi. Uca boylu, üzügülər İslam Tubunu görən kimi gülümsündü, əl atıb onun çantasının qayışından tutdu: — Bizə baxmırsan, qonşu, — dedi. Onun yüngül əxlaqlı qadınların qəlbini ələ almaqda, onları əyləndirməkdə böyük təcrübəsi var idi. Tubu əvvəl İslamı başa düşmədiyindən "Necə?" deyə sual verdi. İslam bir qədər də irəli çıxdı və dedi:

— Deyirəm, kökəlibsən ha, qonşu?

Tubu da təcrübədə İslamdan geri qalmazdı. "Daş qayaya rast gəlmişdi". Gözləmək olardı ki, iki qonşu arasında kim kimi mübarizəsi başlanacaq. Ancaq belə olmadı. İslamın təklifi Tubunun ürəyincə olsa da, özünü o yerə qoymadı. Guya eşitdikləri xoşuna gəlmirmiş kimi üz-gözünü turşutdu, ağız-burnunu əydi. Sonra da naz-qəmzə ilə başını oynadıb arxaya çevirdi.

— Bu nə sözdü mənə deyirsən, İslam? Biz qonşu deyilik? Heç olmasa... Get adamını tap. Mən sən deyənlərdən deyiləm. Başına oyun açaram. Baxarsan işinə.

— Xox. Buna bax. Bütün şəhər tanıyırki...

— Adə, get tullan. Mənə bir də sataşma...

— Deyəcəksən aşnalarına?.. Get, müştərilərin gözləyir.

Tubu tutuldu. İstədi tutsun İslamın yaxasından. Üz-gözünü cırsın. Çantanın bağını onun əlindən çıxarıb vursun başına. Heç bir şeyin fərqinə varmayan İslam sözünə davam elədi:

— Səni bütün qonşular içərisində biabır eləyəcəm, hamıya

deyəcəyəm ki, Tubu qəhbədi.

Bunu eşidən Tubu tutuldu, bir az da çəkindi, əlacsız qalıb əsəbi halda gözlərini qıyaraq İslamın üzünə baxdı. Başını bulayıb dedi:

— Axı nə istəyirsən? Mən sənə nə pislik eləmişəm? Məni niyə biabır eləyirsən?

— Neçə vaxtdı atını belədən-belə çapırsan. Bircə dəfə mənə tərəf baxmırsan. Məni kişi saymırsan? Demirsən ki, balam, bu da cavan adamdı. Külfəti yoxdu. Özün demişkən, bəyəm qonşu deyilik? Sən ki belə deyildin. A daş ürəkli! Dünya qopmaz ki, bir dəfə də mənim barəmdə fikirləşsən? Bəlkə, ürəyin yumşala, insafa, mürvətə gələsən, məni də şadlandırasan, könlümü alasan.

— Ayıbdı, İslam, mən elə adam deyiləm.

— Mənə yox da. Mən sözümü dedim. Özün bilərsən. Fikirləş... Lazım olsa... Əks halda, bura gələ bilməyəcəksən... Bütün uşaqlar "O söz" deyə səni çağıracaqlar. Görən kimi fitə basacaqlar.

Tubu biabırçılıqdan qorxub yumşaldı və astadan dedi:

— Tələsirəm.

— Ötürüm.

— Başqa vaxtı.

— Konkret.

— Sabah saat 10-da evdən çıxacam.

— Danışdıq.

— Hə.

İslam çantanın bağını buraxdı. Tubu üzünü çevirib yola düzəldi. Oğlan öz-özünə:

— Bunun da Tubunun da açarı tapıldı.

Tubu taksiyə əyləşib birbaşa Zemagilə gəldi. İslamla olan macəranı rəfiqəsinə danışdı. Zema güldü, sonra da bir şey olmamış kimi dedi: — Yola sal. Hay-küy qopartma. İt aparan olsun. Özünü biabır eləmə. Gözünü yum, ver, getsin. Elə bilərsən ki,





təkcə sənin... Elə biz də... Tubu: — Mən də elə düşünürəm, — dedi. Rəfiqələr yeyib-içib evdən çıxdılar. Maşına əyləşib həmişəki tək Gülyagilə gəldilər. Gülyanın beşotaqlı mənzili doqquzmərtəbəli binanın birinci mərtəbəsində yerləşirdi. Bu qadın qapıbir qonşunun da evini aldığından bura gəlib gedənlərdən çox adam xəbər tuta bilmirdi. Bədən alqı-satqısı üçün nəzərdə tutulan bu otaqlarda gözəl şərait yaradılmışdı. Eyni vaxtda otaqların hamısından istifadə eləmək olurdu. Belə hallarda Gülya mətbəxə keçir, uşaqlarını başına yığıb sakitliyi təmin eləməyə çalışırdı. Dolu bədənli, ucaboy Gülyanın qırx beş yaşı ancaq olardı. O, saçlarına sarı rəng çəkmişdi. Girdə sifəti, yekə burnu, qara iri gözləri, qalın səsi vardı. Danışanda üzünü görməyənlər səsindən onu kişi hesab eləyə bilərdilər. Bu qadının əsl adı Güllü idi. Astadan, pıçıltılı səslə danışıb gülməyə adətkər idi. Bu vərdişə qadın alqı-satqısına başladıqdan sonra yiyələnmişdi. Xeyli vaxtdı ki, ərindən ayrılmışdı. O vaxtdan evində özünün dediyi kimi "Can bazarı" açmışdı. Cavan, gözəl, göyçək, şux, gözəgəlimli, cazibədar qadınları şorgöz kişilərə satırdı. Bu bazarda həm özünün, həm də satdığı qadınların ciblərini doldururdu. Can bazarına hər cür adam gəlirdi. Bu "baş tutan" mənəviyyatsız, əxlaq düşkünü böyük ustalıqla qadınların hər birinə yaşına, görkəminə, boy-buxununa, səriştəsinə görə qiymət qoyurdu. On beş-on səkkiz yaşlılar birinci, on doqquz-iyirmi dörd yaşlılar ikinci, iyirmi beş-otuz yaşlılar üçüncü, otuzdan yuxarılar isə dördüncü qrupa daxil edilirdilər. Hər qrupun da öz qiyməti, dəyəri vardı. Xarici görkəmlərinə görə bəzən yaxın qruplarda Gülya dəyişiklik də apara bilirdi. Kişilər də əlacsız qalıb Gülya ilə razılığa gəlirdilər. Əvvəlcədən şərtləşdirilən qaydalara hamı tabe olmalı idi. Şərti pozan cərimə verirdi.

Zema ilə Tubunun gəlişi Gülyanı çox sevindirdi. O, rəfiqələri qəbul elədi: — Görək bu günkü qismətimiz nə olacaq, — deyib dəstəyi götürdü. Bir neçə yerə zəng çaldı. Danışdığı kişilərə: —

Əla, — deyib müvafiq vaxtlar verirdi. Zema üzünü Gülyaya tutaraq: — Neçə gündü Tubunun sayğacı işləmir, — dedi. Gülya Zemanın nə demək istədiyini dərhal anladı və gülümsünərək: — Fikir eləmə, çalışarıq əvəzini çıxaq, anaş, — deyə cavab verdi. Gülyanın göstərişləri ilə Tubu ilə Zema onlar üçün ayrılan otaqlara keçdilər.

Qapı tez-tez döyülür, Gülya gələnləri qəbul eləyib düşərilərini əvvəlcədən alır, onları otaqlara ötürür, sonra da eyni əhvali-ruhiyyə ilə: — Tez-tez gəlin, — deyə yola salırdı.

* * *

Hümmətə soyuq dəymişdi. Halı özündə deyildi. Hərarəti vardı. İşdən gələndən çarpayısına uzanmışdı. İçdiyi həbin üstündən arvadı ona zoğal mürəbbəsi ilə çay verdi. Bədəni bir balaca yumşalmışdı ki, Şəfəq otağa gəlib yeməyin vaxtı olduğunu bildirdi. Hümmət astadan: — Yaxşı, gəlirəm, — deyə pıçıltılı səslə bildirdi. Çox çəkmədi ki, Hümmət mətbəxə gəldi, boşqabı qənşərinə çəkib xörəkdən bir-iki qaşıq götürdü, sonra da: — Əla, — dedi. Bişirdiyi xörək Hümmətin xoşuna gəldiyindən Şəfəq sevindi. Ərinin sözü ürəyinə yağ kimi yayıldı. Tubu ağzını büzdü. Hümmət dərhal dedi: — Yəqin ki, Tubu da xəstədi, ağzının dadını bilmir.

Bu söz Şəfəqin yanında deyildiyi üçün bacı daxilən əsəbiləşdi. Sifətini bozartdı: — "Sən canın axşamlar bir loxma gəlib çörək kəsirəm, onu da zəhər eləməyin mənə. Guya indiyədək nə xörək yemişəm, nə də bişirmişəm. Məni boğazıma yığmayın, durub xörəyi tökərəm çölə".

Tubunun gözlənilməz sözü Hümməti çaşdırdı. Qardaşla bacı arasındakı söhbətin gözlənilməz xarakter alması Qəhmərin də xoşuna gəlmədi. O, qızı ilə oğlu arasındakı ziddiyyəti götürmək üçün ürəyiyananlıqla bildirdi:





— Niyə fikir eləyirsən, qızım. Dünyada dərdsiz-sərsiz adam yoxdu. Nə olsun ki ərindən ayrılmısan. Dağ kimi qardaşın durub arxanda. Az yedin, çox yedin, belə geyindin, elə geyindin, tez getdin, gec gəldin demir ki sənə. Kaş hamının qardaşı səninki kimi başa düşən ola, qızım. Allah canını sağ eləsin qardaşının...

Anası danışdıqca Hümmətin kefi açılır, özündə fərəh, şadyanalıq, qürur duyurdu. Şəfəqsə Qəhmərin dediklərinin sözaltı mənalarını incəliklərinə qədər anlayırdı, başa düşürdü. Bilirdi ki, Qəhmər bu sözləri ilə oğlunun damarlarına "qeyrət", "namus", "vicdan" qanı vurur, qızının növbəti dava-dalaşlarını, əxlaqi pozğunluğunu pərdələməyə imkanlar açırdı. Oğlunda yüksək əhvali-ruhiyyə yaradırdı. Şəfəq getdikcə qayınanasının hiyləgərliyini dərk eləyirdi, elədikcə də bu qadına miskin adam kimi yazığı gəlirdi. Tubu isə öz səhvini başa düşdüyündən qardaşının qəlbini necə alacağı barədə düşünürdü.

Hümmət söhbətin səmtini dəyişdi:

— Bu gün İslam məni tutdu.

İslamın adını eşidən Tubunun sir-sifəti bozardı və bu oğlanı tanımırmış kimi soruşdu:

— İslam kimdi?

— Qonşudu. Bir şüşə araq alıb, düşüb üstümə. Deyir gedək içək. Dedim qalsın başqa vaxta. İnsafən, pis oğlan deyil. Deyir qonşuyuq, bir-birimizin evinə gedib-gəlmirik. Məncə, o, düz deyir. Yaxın qonşu olasan, tay-tuş olasan, bir-birindən bu qədər uzaq olasan. Dərdi-sərini bilməyəsən, halına acımayasan.

Şəfəq dərhal dilləndi:

— Bircə o qalmışdı. Səhər çıxıb axşam evə gəlirsən. Pisimizi, yaxşımızı, varımızı-yoxumuzu özümüz bilirik... Nəyimizə lazımdı, İslam. Düz demirəm, ana?

Qəhmər:

— Qonşudu, a bala. Qonşudan adama ziyan gəlməz. Atalar deyib: "Yaxın qonşu uzaq qohumdan yaxşıdı".

Şəfəq qayınanasının sözünün qarşısına söz demədi. Əlacsız qalıb çiyinlərini çəkdi. İslam barəsindəki söhbət bununla qurtarsa da, öz içinə qapanan Tubu qardaşının dediklərini, səhər İslamla olan söhbətlərini və Zemanın məsləhətlərini xatırladı, xeyli götür-qoy elədi, sonra, guya İslam onun da xoşuna gəlmirmiş kimi astadan bildirdi:

— İslam mənim də xoşuma gəlmir. Gözü-başı qaynaşır. Səninlə onun dostluğu tutmaz.

Bununla ilk dəfə idi ki, özü də bilmədən Tubu Şəfəqin fikrinə şərik çıxdı.

Hümmət qalxıb televizor olan otağa keçdi. Televizorun düyməsini basdı. Diktor qız ekranda göründü və elan elədi: Hörmətli tamaşaçılar, televizora yaxın əyləşin. "Ailələr və talelər" verilişinə baxa bilərsiniz. Verilişdə müxtəlif zümrədən olan kişilər və qadınlar: alimlər, müəllimlər, həkimlər, mühəndislər iştirak edirdilər. Aparıcı tamaşaçılardan aldıqları məktublar əsasında müasir şəraitdə Azərbaycanda ailə problemi mövzusunda söhbətə başladı. Məktubların əksəriyyətində ailələrin dağılması səbəbləri göstərilirdi. Bəzi gənclər də bu verilişdən məsləhət, kömək gözləyirdilər. Ailələrdə baş verən münaqişələrdə gah kişilər, gah da qadınlar günahkar çıxarılırdılar. Verilişdə fəal iştirak eləyən, ağ saçlı, qocaman alim ailələrdə gedən yersiz söz-söhbətləri, narazılıqları dinləyərək dedi: "Hörmətli tamaşaçılara bildirmək istərdim ki, son vaxtlar bir çox ailənin dağılmasına səbəb ərlə arvadın bir-birilərini başa düşə, qiymətləndirə bilməmələri, güzəştə getməmələri ilə bağlıdı. Biz yaşlı nəsil də bir zaman gənc olmuşuq. Böyük çətinliklərimiz olub. Ölkədə müharibə gedib. Doyunca yeməyə çörək tapmamışıq. Bir tikə tapdığımızı da ailəyə gətirmişik. Qadınlarımız qismətə qane olublar. Can deyib, can eşitmişik. Övladlarımız olub, əl-ələ verib onları böyütmüşük, tərbiyə eləmişik. Yavaş-yavaş çətinliklər aradan qalxıb...





Açığını deyim ki, keçmişdə bu qədər ailə dağılmayıb. Etiraf eləyək ki, bugünkü gənclər xeyli gözüaçıqdırlar. İntellektual səviyyələri yüksəkdi. Dünyada baş verən hadisələrdən xəbərdardırlar... Belə olduğu halda, təəccüblənirəm: — Bu problemi yaradan səbəb nədi? İqtisadiyyatmı? Yox... Bir zaman bizim iqtisadi imkanlarımız, bayaq dediyim kimi, sizinkindən zəif olub. Evsizlik? Yox, ailənin dağılmasına bu da əsas vermir. Məncə, ailədə mənəm, mənəmlik, ərköyünlük, sərbəst yaşamaq ehtirası, birinin sözünün digərinin boğazından keçməməsi... Azərbaycan xalqının ən ali, ən müqəddəs keyfiyyətlərindən biri onun ailə namusudu. Öz ləyaqətini, şərəfini, namusunu qorumağı bacarmayan, qiymətləndirməyi bilməyən cahilin, nadanın möhkəm təmələ əsaslanan saf ailəsi də ola bilməz. Ər-arvadın, arvad da ərin arxasında əzəmətli dağ, basılmaz qala kimi dayanmalıdı. Bu adamların hər şeydə təsadüfilik axtarmağa, yalnız "Mən deyən olmalıdı" deyə düşünməyə mənəvi haqları yoxdu. Onların hər biri el-oba, cəmiyyət içərisindəki məsuliyyətlərini anlamalıdırlar...

Dünyagörmüş qocaman alim sözünü qurtaran kimi Qəhmər özünü saxlaya bilməyib dedi:

— Kişi elmli, ağıllı adamdı.

Hümmət gülümsündü:

— Elə olmasa, onu televizora çıxarmazlar ki.

Tubu ağız-burnunu əyişdirərək:

— Boş şeydi. Adam dünyaya bir dəfə gəlir. Ömrü kiməsə qurban verməzlər ki. Gənclik ömrün əvəzolunmaz çağıdı. Gərək onu yaşamağı bacarasan. Onun qədrini biləsən, ətrini duyasan, ləzzətini çəkəsən...

Qızının sözləri Qəhməri açmadı. O bir az fikirləşdi, sonra da aramla bildirdi:

— Sən düz fikirləşmirsən. Adama ailə, övlad lazımdı, qızım. Sənsiz, Hümmətsiz, Hikmətsiz mən nəyəm. Quru bir ağac! Can-

sız dəmir! Ölü bir daş!

* * *

Səhər açılmışdı. Hava bərk soyuq idi. İşi-gücü olmayan Tubu isti, yumşaq yatağından qalxmaq istəmirdi. Birdən İslamla saat ona vədələşməsini xatırladı. Özlüyündə bərk narahatlıq keçirməyə başladı. O, indi iki yol ayrıcında qalmışdı. İslamın tələblərini ödəsəm, o, məni rahat buraxacaqmı? Yoxsa, yenə də "Səni biabır eləyəcəm" deyə qorxudacaq. Məni birdəfəlik özünün əsirinə çevirəcək?" Bu fikirlər içərisində çaş-baş qalan Tubu "gedim? getməyim?" suallarına cavablar axtardı. Elə bu vaxt rəfiqəsi Zemanın dedikləri yadına düşdü: "Ver getsin, özünü biabır eləmə, it aparan olsun"".

Tubu pəncərəyə yaxınlaşdı. Axşamdan yağmağa başlayan şiddətli qar kəsmək bilmirdi. Ağacların budaqları qardan əyilmişdi. Binalardan çıxan adamlar boyun-boğazlarını bükərək iti addımlarla dayanacağa tərəf qaçırdılar. Elə bu vaxt Tubu binanın çıxacağında dayanan İslamın əllərini dodaqlarına apararaq ona öpüş göndərdiyini gördü. Gülümsündü. Başını çevirib anasının yatdığı çarpayıya baxdı. Ana üzünü divara çevirib yatdığından Tubu da ona əvəz göndərdi. Yeyib-içib otaqdan çıxdı. Pilləkənləri enirdi ki, ikinci mərtəbədə İslamgil yaşayan evin qapısı astadan açıldı. İslam: — Tez elə, evdə təkəm, — dedi. Tubu gülümsünüb əvvəl çiyinlərini çəkdi. Sonra o tərəf-bu tərəfə baxdı. İslam bunun razılıq əlaməti olduğunu duydu. Dərhal da çantasından tutub onu içəri çəkdi. Qapını basıb örtdü. Tubu bir qədər narahat halda:

— Biabır olarıq.

— Qorxma.

İslam Tubuya ayaqqabısını, paltosunu çıxarmağa imkan verməyib onu yan otağa çəkdi. Bu otaq yataq üçün ayrılmışdı. Oğlan çarpayının üzlüyünü kənara sıyırdı. Özünün də, İslamın da ehtirasını tələm-tələsik söndürən Tubu bir neçə dəqiqədən sonra çölə çıxdı. Bir şey olmamış kimi pilləkənləri endi. Bu, qadının o evə ilk gəlişi olsa da, son gedişi olmadı.





* * *

Tubu evə girəndə Gülyanın beş yaşlı qızı Mina ucadan: — Tubu xala, — demişdi ki, anası bərk əsəbiləşdi: — Sakit ol, evdə qonaq var, — dedi. Uşaq dərhal səsini kəsdi, balaca, gombul əli ilə ağzını qapadı. Tubu üzünü Gülyaya tutaraq:

— Otaqların hamısında? — deyə soruşdu.

Bayaqdan növbə gözləyən Naza uzun kirpiklərini qaldırıb-endirdi, sonra da astadan, pıçıltılı səslə bildirdi:

— Biz gecikmişik.

Gülya soyuqqanlılıqla:

— Narahat olmayın, çıxan vaxtlarıdı, — dedi.

Axşama qədər otaqlar dolub-boşalır, Gülya isə rəfiqələrini növbələşdirir, vaxtı çatanı gələn qonaqlara ötürürdü. Qəribə idi, qonaqların ardı-arası kəsilmirdi. Bu evi şəhərin ən gur hamamlarına da bənzətmək olardı. İnsafən xidmətçilər müştəriləri böyük həvəslə qəbul eləyib can-başla yola salırdılar. Yorulmaq nədi bilmirdilər. Gülyanın bu işdə zəngin təcrübəsi, böyük səriştəsi vardı. O, hər görüşdən əldə olunanın yarısını özü götürürdü. Narazı qalanın, ya etiraz eləyənin bu evə gəlişi birdəfəlik kəsilirdi. Rəfiqələri də burdan etibarlı, qorxusuz yer olmadığını və çox müştəri tapa bilməyəcəklərini düşünüb Gülyanın dediklərinə qane olurdular.

Əməllərinin böyük məsuliyyətini aydın hiss eləyən Gülya işini elə qurmuşdu ki, ondan: "— Bu nə hərəkətdi?"" — deyə soruşmazdılar. Bu evə müdaxilə eləməyə qadir ola biləcək vəzifəli adamların düşərini vaxtlı-vaxtında ödəyər, artıq söz-söhbətə

yer qoymazdı. Kimin səsi çıxsaydı, o, dərhal qarşısını alar, hər iki tərəfi razı salmağa çalışardı. Gəlib-gedənlər çox olanda bəzən kiçik narazılıqlar da yaranardı. Çox vaxt da bu, rəfiqələri tərəfindən baş verərdi. Gülya onu bilirdi ki, qadınlar kişilər üçün vaxt tələbi qoyurlar. Onlar da razılaşırdılar. Narazılıqlar yarananda qadınlar bunu kişilərin iş əmsalının aşağı düşməsi və elədiklərinin keyfiyyətinin səmərəsiz olması ilə əlaqələndirirdilər. Gülya isə bunu qadınların ümumi əmək intizamını pozmaları, müştəriləri qaçırmaları kimi dəyərləndirirdi. Ona görə də bu qadın bəzən yeri gələndə özü də birbaşa xidmətə keçirdi. Diliacılıq, kobudluq onun aləmində yol verilməzdi. Mehriban, səmimi, ümumi tələblərə riayət eləyənlər bu evin daimi xidmətçilərinə çevrilirdilər. Bununla belə, Gülyanın yaratdığı bu iş yerinin dairəsi durmadan genişlənir, onun cızdığı xəritədə xeyli sayda qara nöqtələr sezilir və bu xəritədə yerləşdirilmiş böyüklü-kiçikli lampalar həmin qara nöqtələri zülmətdən ağlagəlməz dərəcədə ayırırdı. Gülyaya, Nazaya, Zemaya, Tubuya və belə talelilərə elə gəlirdi ki, dünyanın ən xoşbəxt adamlarıdılar. Seçdikləri yol, keçirdikləri yüngül həyat qibtə olunasıdı. Qazandıqları pullar ömürlərinin sonunadək onlara kifayət eləyəcək. Təsəvvürlərincə ailə də, ər də, uşaq da əldə etdikləri yanında heç bir şeydi. Ailələr dağılır, arvadlar ərlərindən ayrılır, ailəsizlər isə ərdən canlarını qurtardıqları, əl-qollarını açdıqları üçün ürəkdən sevinirdilər. Gülyanın "Can bazarı"nda bakirəliyini satanlardan bəziləri gələcəkləri barədə düşünmürdülər. Ancaq elələri də vardı ki, nə qədər qazansalar da, arabir aldandıqlarını anlayır, başa düşür, dərin peşmançılıq hissi keçirirdilər. Bir azdan bu hisslər də əriyib yox olur, ilk dəfə üzünü gördükləri "əmilərin" ağuşundan "dayıların" qoynuna atılırdılar. Səxavətlə möhüblərini düzənlərə bir də görüşmək üçün üstəlik öz ünvanlarını verirdilər. Onu da yaxşı bilirdilər ki, "əmi-dayılara" verdikləri ünvanlar hardasa, əziz xələfləri, "can bazarı"nın sahibinə xəyanətdi. Gülya bunu bilsə, onları burdan it kimi qovacaq, qapılarını başqaları üçün





açacaqdı. Ona görə də Gülya bu işdən xəbərsiz olsun deyə, belələri ünvan verdiklərinə yüz dəfələrlə yalvarıb-yaxarırdılar. Onlar da acizanə "Narahat olma" — deyib zavallıları inandırmağa çalışırdılar.

Hər gün acgözlüklə işləyən Tubu nədənsə bu gün özünü bir təhər hiss elədi. O, öz-özünə: "Əlimin üstünə elə bil it çıxıb əsnəyib", — deyə düşündü. Qonaqlarının yarıtmazlığındanmı, rəfiqələrinin növbələrini gözləmədiklərindənmi, Gülyanın ona laqeydliyindənmi Tubu əsəbiləşdi, alverə olan həvəsi söndü. Çox çəkmədi ki, bunu qazdan ayıq Gülya da duydu. O, Tubunun yanına gəlib onu qucaqladı. Qadın özünü o yerə qoymadı. Xəstələndiyini, gücünün tükəndiyini bəhanə gətirdi:

— Soyuqlamışam. Halım korlanır.

— Niyə, anaş? Bu saat masaj elətdirərik, yumşalarsan.

— Yox, qadası. Mən gedim. İndi mənə o qədər də ehtiyac yoxdu.

Gülya çox çalışsa da Tubunu inadından döndərə bilmədi. O təzə gələn qonağı yerbəyer eləmək üçün yan otağa keçdi. Gəlişini gözləməyən Tubu üz-gözünü qaydaya salıb ayaqqabılarını, paltosunu geyindi. Sabah üçün də ayaqyeri saxlamaq üçün qapı ağzında dayandı. Gülyanın yan otaqdan çıxmasını gözlədi. Çox çəkmədi ki, sahibə qapını açıb dəhlizə çıxdı. Tubunu geyinikli görüb təəccübləndi:

— Aa... demədim getmə?

— Sabah tez gələrəm, yorulmuşam...

— Bəlkə incimisən?

— Yox! Yox! Nə danışırsan? Səndən inciməkmi olar? Nə əcəb sən varsan, hamıya şərait yaradırsan.

Gülya gülümsündü. Sonra da Tubu ilə xudahafizləşdi.

* * *

Tubu üçün qardaş arvadı ilə qatı, qəddar düşmənçilik hissi bəslədiyi adamlar arasında heç bir fərq yox idi. Düşmən arabir

yada düşüb xatırlansa da, Şəfəq səhər-axşam onun gözləri qarşısında olurdu. Bu zavallının hər bir sözü, hərəkəti Tubunu qıcıqlandırırdı, təngə gətirirdi. Tubu özünü bəzən küçədəki kimi aparır, alçaldıcı kişi söyüşləri yağdırırdı. Hər dəfə də Şəfəq baldızının söyüşlərini eşitməsin deyə, ondan qaçır, yataq otağına qapanıb başını nə iləsə qatmağa çalışır, gah uşaqla məşğul olur, gah da paltarların, corabların yırtıq-söküyünü tikir, yamayırdı. Tubunun əxlaqı, tərbiyəsi, nəyə qadirliyi, hərəkətləri, davranışları ev, ailə çərçivəsindən çıxır, qonşulara, bu ailəni tanıyanlara məlum olurdu. Həyət-bağçada Tubunu görənlər "məndən uzaq olsun", deyə üzlərini yana çevirirdilər, onu görməzliyə vururdular. Bütün bunları aydın başa düşən Tubu tanış-bilişlərin, qohumların rəyindən nəticə çıxarmaq əvəzinə, onlara acıq verirmiş kimi birinin üstunə beşini də qoymağa çalışırdı. Qonşu arvadlardan Səltənət, Mərmər, Nəzirə bir neçə dəfə Qəhmərə qızının hərəkətlərini çatdırmışdılar. Ana da qonşuları axıra qədər dinləmiş, sonra da: — İndiki cavanlar belədi də, neyləyəsən? — demişdi. Ancaq o, özlüyündə sonralar da qonşuların dediklərini götür-qoy eləmişdi: "Allah pis övladın üzünü qara eləsin. Nə atmaq olur, nə də kəsmək. Mal deyil ki, satasan, canını qurtarasan. İlişmişəm... Qonşuların dediklərini xatırlatsam, yenə olmayacaq. Yığışmaq, nəticə çıxarmaq əvəzinə sürüb qonşuların üstünə gedəcək. Səsə hamı tökülüb gələcək. Nə var, nə yox bilməyənlər də, xəbərsizlər də çox şey eşidəcəklər. Bir az da o yan-bu yan eləsəm, üzümə qayıdacaq, məni bihörmət eləyəcək. Dostları ağladıb, düşmənləri güldürəcək. Nə utanan üzü var, nə də qızaran gözləri. Vallah, bu qonşular da birini bilirlər, birini yox. Nə olar qızım olanda. Ana, qardaş sayan deyil. El içində bizi rüsvay eləyir. Neyləyim? Ürək kitab deyil ki, verəsən bələlərinə. Deyəsən, aç, oxu... Ər evindən çıxıb gələli qara günüm başlayıb. Qonşular da elə bilirlər ki, hər şeydən xəbərsizəm. Daha fikirləşmirlər ki, onlar biləni mən də bilirəm. Tubu atını sağa da çapır, sola da. Gah deyir məni filankəs istəyir, ona ərə gedəcəm, gah da deyir ər mənim nəyimə gərəkdi. Ərə gedib paltarmı yuyacam? Onun hansı sözünə inanım? Bircə Allah ona bir qapı açsaydı, mənim də canım qurtarardı... Eh... Dəli olmuşam, nədi? Ər qədri bilən idisə, getmişdi də. Seyran qeyrətli oğlandı. Halal adamdı. Neyləsin, o, da Tubunun cilovunu yığa bilmədi. Özünü el-oba, tay-tuş içərisində biabır eləməyəcəkdi ki? Düz elədi".





Qəhmər çox fikirləşdi, çox götür-qoy elədi. Özlüyündə belə qərara gəldi ki, qızı ilə bu mövzuda bir söhbət eləsin. Konkret ad çəkməsə də, qonşulardan eşitdiklərini, bildiklərini qızına desin. Onu başa salsın ki, belə olmaz. Dünya beş günlük deyil. Sabah mən anan ölüb getsəm də, sizin barənizdə çox pis fikirləşərlər. Qəhmər bir qız böyütdü, o da belə çıxdı.

Axşam Tubu evə çox gec gəldi. Əhvalı gündəkindən daha yüksək idi. O, cibindən bir dəstə ABŞ dolları çıxarıb saydı. Sonra da onları çamadanda, paltarlarının arasında gizlətdi. Bunu anası da gördü. O, bu pulların nə ilə, hardan qazanıldığını soruşmasa da, başa düşürdü.

Tubu qapını açıb balkona çıxdı. Bu neçə gündə şiddətlə yağan qar kəsmişdi. Həyət-baca ağ yorğana bürünsə də, göyün üzü açıq idi. Parlaq ay da, sayrışan ulduzlar da yerə həsrətlə baxıb qımışırdılar. Ayazlı, şaxtalı gecə vahiməli, müdhiş nəfəsi ilə yeri dondurmağa çalışırdı. Tubu çiyinlərindən ağır yükü yerə qoyubmuş kimi dərindən ah çəkdi. Soyuq, şaxta iti caynaqlarını işə saldığından Tubu otağa qayıtdı və anasına dedi:

— Şəfəq sənsiz bu evə girməməlidi.

— Niyə?

— Az-çox olanımız bu evdədi. Dalına keçər. Sonra da gəl ölünü qoy, dirini ağla.

— Şəfəq elə gəlin deyil.

— Tulanı mənə az təriflə.

— Gəl otur, sənə deyiləsi sözüm var.

— Nə sözdü?

Tubu gəlib anasının yanındaca əyləşdi. Qəhmər əsəbi halda dedi: — İnsanı insan eləyən, onu başqa canlılardan fərqləndirən şüurudur, ruhudur, namusudur, vicdanıdır. İndiyəcən nə eləmisən, eləmisən. Daha bəsdi, yığış. Mənim ərim, sənin atan dünyasını tez dəyişib. Ancaq mən namusumu heç bir şeylə əvəz eləməmişəm, özümə, ailəmə, nəslimə xəcalət gətirəcək bir addım da atmamışam. Fikirləşəndə, lap başımı itirirəm. Axı sən kimə oxşamısan? Bizim nəsildə sənin kimisi olmayıb. Nə olsun ki, qardaşın arvadı bir söz demir. Şərəfsizliyini üzə vurmur. Özünü elə aparır ki, guya kişilərin sənə çaldığı telefon zənglərindən də xəbərsizdi. Yox, bu, belə deyil. Təkrar eləyirəm. Şəfəq hər şeyi bilir. Ancaq səninlə üzə gəlmək istəmir. Özü ilə sənin aranda pərdə, məsafə saxlayır. Etiraf eləyim ki, sənin söyüb-söylədiyin, ifritə sandığın Şəfəq çox ağıllıdı. Tərbiyəlidi. Ailəsini dağıtmaq istəmir. Hələm-hələm gəlin onun kimi hərəkət eləməz. Sənin, qardaşının zəhərdən də acı sözlərini götürməz. Nə olsun ki, o, kimsəsizdi, arxasızdı. Ola bilməz ki, iki əl bir başı saxlaya bilməsin. Şəfəq üçün namus, qeyrət hər şeydən üstündü. O, çox yaxşı bilir ki, sən ər evindən çıxıb gələli mən sənin tərəfini saxlamışam. Nahaq, ədalətsiz hərəkətlərinə rəvac vermişəm. Bax, bunun üçün Allahın da hüzurunda günahkaram, qəbahətliyəm, üzüqarayam. İnsafən, o gəlin heç vaxt mənə pis olmayıb. Elə indi də pis deyil. Hörmətimi, ehtiramımı saxlayır. Sən bunların heç birini nəzərə almadın. Cavan gəlinlə, ağlıdürək, məhdud düşüncəli qayınananı bir-birinə qarşı, üz-üzə qoydun. Başımın üstündəki Allahımı unutdum. Ədalətə xəyanət elədim. Bilirəm, nə vaxtsa, Allah cəzamı verəcək. Sənin gələcək taleyin mənə çox dumanlı görünür. Sən öz ailəni, öz evini, analıq hissini özün itirdin. Xörək yediyin qazanı vurub aşırdın. Nə ağılla, bilmirəm? Mənsə, bunları görə-görə, başa düşə-düşə güzəştə getdim. Üstəlik, sənə qol-qanad verdim. Qorxuram, nə vaxtsa, bizim qəbahətlərimizin cəzasını günahsız Hümmət çəkə. İnan mənə. Kimsə Hümməti tutacaq: — Sənin bacın pozğundu, əxlaqsızdı, onu şəhərdə hamı tanıyır, deyəcək. — Kişisən, al qabağını. Düşünürsənmi, qardaşının o kəsə verəcəyi cavabı? İnanmıram. Heyf! Çox heyf! Qayıt düz yola!





— Qulaq as, ana! Bayaqdan bəri danışırsan, dinləyirəm. Mən danışığımı da, hərəkətlərimi də yaxşı başa düşürəm! Kim nə deyir, desin. Özü bilər. Mən həyatımı belə qururam. Belə yaşayacağam. Onun kimə nə dəxli var? Məni doğmusan, böyütmüsən, çox sağ ol. Üstümdəki əməyini, zəhmətini də inkar eləmirəm. Hümmət kimə nə cavab verər, özü bilər. Mənə nə ər, nə də uşaq gərəkdir. Bundan sonra mənə bu barədə söz demə. Desən, səni də abırsız elərəm.

— Yaxşı, çamadana qoyduğun pullar hardandı?

— Sənə nə var?

— Anayam, bilmək istəyirəm. Bəlkə oğurluğa qurşanmısan?

— Lap tutaq ki, özümü satıram. Sənə nə var?

Qəhmər doğduğu qızın tərbiyəsizliyinə nə qədər bələd olsa da, doğrusu, bu cavabı gözləmirdi. Qadın Tubunun sözlərindən tutuldu, daha söhbəti uzatmayıb ayağa qalxdı.

* * *

Çəkinən yeri olmadığından Tubu atını sağa-sola çapırdı. Çapdıqca da quduzlaşır, yırtıcılaşırdı. Anası Qəhmər də, gəlinləri Şəfəq də, elə qardaşı Hümmət də onun üçün adi bir şeyə çevrilirdilər. Ona elə gəlirdi ki, biliyi də, düşüncəsi də yetərincədi. O, ən düzgün, ən etibarlı yolun ləyaqətli sakinidi. Namus, vicdan, ləyaqət, şərəf söz xatirinə deyilmiş gəlişi gözəl sözlərdi. Dönədönə anasına demişdi: Hər kəs öz həyatını özü qurur. İstədiyi kimi yaşayacaq. Ona mane olmağa heç kəsin haqqı yoxdu“. Tubu özü belə düşündüyü halda, Şəfəqə az qala kölə kimi baxır,

onu mənən əzməyə çalışırdı. Özünü yuxarıda hesab eləyərək başqalarını ayaqları altına salmaq, adam sanmamaq hissi onun məkrli sifətini, üfunətli iç üzünü günbəgün açıb tökürdü. Tubu qəbahətlərini, günahlarını azaltmaq, çatışmazlıqlarını islah eləmək əvəzinə, naqislik üstünə yeni, daha əcaib naqislik gətirirdi. Utanmadan, qızarmadan, xəcalət çəkmədən yolunu davam etdirirdi.

Adi günlərdən biri idi. Şəfəq öz otağında körpəsini əmizdirirdi, dəhlizdən Tubunun qışqırığını eşitdi. Ürəyi titrədi. Əvvəl nə olduğunu bilmədi. Sonra özünə ünvanlanan söyüş və təhqirləri eşitcək uşağı çarpayının üstünə qoydu. Özlüyündə düşündü ki, Tubu səfehdi. Belə nadanla ağız-ağıza vermək, mübahisəyə qalxmaq ədəbsizlikdi, öz-özünü alçaltmaqdı. Şəfəqin dəhlizə çıxmadığını görən Tubu Şəfəq olan otağın qapısını açdı: — İt qızının vecinə deyil, — dedi. — Dəli şeytan deyir, saçlarını yol, ağzını cır. Şəfəq laqeydcəsinə baldızının üzünə baxdı. Tubu onun gözlərindəki soyuqluğu, laqeydliyi duydu. Bundan daha çox hiddətləndi:

— Alçaq, axşamdan yatmısan. Ehtiyat su götürməmisən. İndi mən nə ilə yuyunum?

Şəfəq bərk əsəbiləşdi. İstədi desin ki, alçaq özünsən, lənət səni doğub böyüdənə. Sənin kimi qız böyüdüb ərsəyə çatdıran ananın yaşamağa mənəvi haqqı yoxdu. Sonra nə fikirləşdisə, çətinliklə də olsa özünü ələ aldı. “Ərimdən ayıbdı”, — deyə düşündü. Şəfəqin etinasızlığını görən Tubu səsini bir qədər də qaldırdı:

— Elə bil ayıdı. Meşədən çıxıb, tərbiyəsiz.

Şəfəq axır ki dözməyib baldızına cavab verməli oldu:

— Ayıbdı. Adamı bu qədər ayaqaltı eləməzlər. Mən bu evə zorla, yalvara-yalvara gəlməmişəm. Mənə hörmət eləmirsən, özünə hörmət elə, özünə qiymət ver. Qardaşından ayıb elə.

— İtdən doğulmusan.





— Necə? Mənim anamın günahı nədi, onu söyürsən?

— Günahı odu ki, səni doğub, bizə ürcah eləyib.

— Nə olar? Evin kişisi var, gəlsin, danışarıq.

— Nəyi, lotu?

— Öz adını mənə qoyma. Hamının kimliyi bilinir.

Səsə Qəhmər otaqdan çıxdı. Üzünü Şəfəqə tutaraq bildirdi:

— Nə adı var ki, Tubunun? Onu da sənə qoya.

Şəfəq hönkürüb ağlaya-ağlaya dedi:

— Sənin qızın niyə məni söyür, təhqir eləyir?

— Dilini kəs. İtdən əmələ gəlmə.

— Ana, sən də...

— Bəli. Gəmidə oturub gəmiçi ilə dava eləyirsən.

— Tubu sənə arxalanmasa, hər gün məni...

Tubu üzünü anasına tutaraq:

— Gördün, sənə nə dedi? Lotunu, çəngini oturub-durub müdafiə eləyirsən.

Şəfəq:

— Lotu, çəngi özünsən, iki də artıq.

— Lotu olmasan, kişilər sənə zəng çalmaz. Bu səhər də biri çalmışdı. Mən sənə imkan verməərəm ki, qardaşımı oğraş, biqeyrət eləyəsən.

Şəfəq ağlaya-ağlaya Qəhmərə çevrildi:

— Qızının ağzına niyə vurmursan?

Qəhmər qızının dediklərinin böhtan, iftira, qurama olduğunu açıq-aydın bilsə də, Tubunun sözünə qüvvət verdi:

— Ocaq yanmasa, tüstü çıxmaz.

— Mənim ürəyimi çatlatmayın.

— Soğan yeməmisən, niyə göynəyirsən?

İftira, böhtan Şəfəqi daxilən yandırıb-yaxdığından o, nə deyəcəyini bilmirdi. Gəlinin hirsdən, qəzəbdən sir-sifəti bozarmışdı. Hədəqəsindən çıxan gözlərindən yaş gilə-gilə olub yanaqlarından üzüaşağı süzülürdü. Danışarkən boğaz damarları çıxırdı.

Əlacsız qalan Şəfəq "Əcəb eləyirsiz"" deyib otağına qayıtmaq istəyirdi ki, Tubu gözlənilmədən əlini gəlinin saçlarına atdı. Var gücü ilə Şəfəqin başını aşağı çəkdi, bir göz qırpımındaca sağ dizini qaldırıb onun alnına qüvvətli zərbə endirdi. Şəfəq "Ay ana, öldüm" deyib döşəməyə yıxıldı. Bu azmış kimi Tubu onun başına, üzünə, qarnına bir neçə təpik çaldı. Bir andaca bina Şəfəqin başına hərləndi, özünü itirdi. Kənara çəkilib gəlinini qızının əlindən almağa cəsarət eləməyən Qəhmər əlləri ilə bir anlığa üzünü tutdu. Sonra: — Ölə bilər, — deyə qışqırdı. Tubu Şəfəqi buraxdı. Gəlinin ağız-burnundan axan qan üst-başına, döşəməyə töküldü. Tubu: — Qoy ölsün, kimə cavab qaytardığını bilməlidi. İki arvadı az qala basıb yeyəcəkdi. İndi get de ərin oğraşa".

Qəhmər daxilən peşmançılıq hissi keçirsə də, Tubuya "Neylədin?" sualını verməyə cəsarət eləmədi. Şəfəq haçandan-haçana əllərini döşəməyə dirəyib ayağa qalxdı. Su olmadığından əski parçası ilə üz-gözünü sildi. Qabaq dişləri içəridən dodağını kəsmişdi, vanna otağına keçib bir neçə dəfə tüpürdü. Heç bir söz demədən keçib yatağında uzandı. Ağrılar ara vermədiyindən o, ayağa qalxdı. Çantasından dəyirmi, balaca güzgüsünü çıxarıb üzünə baxdı. Gördüklərindən dəhşətə gəldi. Alnı, dodaqları şişmişdi. Gözlərinin altı qaralmışdı. Bunları görcək əvvəl qəhərləndi. Sonra tək-tənha, kimsəsiz, arxasız olduğunu fikirləşərək hönkürüb ağladı.

* * *

Hadisə baş vermişdi. Onu geri qaytarmaq mümkün deyildi. Qəhməri oğlunun məsələyə münasibəti düşündürürdü. O, Hümmətin kimin tərəfində dayanacağını bilmirdi. Qəhmər özlüyündə ona razı idi ki, bu hadisəyə, vur-çatdaya, dava-dalaşa görə oğlu onu günahkar çıxarsın, lap yeri gəlsə, məzəmmətləsin. Bacı-qardaş arasına təki narazılıq, iğtişaş, dedi-qodu düşməsin, aralarındakı səmimiyyətə, mehribançılığa xələl gəlməsin. Bəli, bu, ananın istəyi idi. Gəlinin vəziyyəti barədə Qəhmər bir kəlmə də düşünmədi. Aradan bir saatdan artıq vaxt keçirdi. Qəhmərin acığı, Tubunun qəzəbi bir qədər soyumuşdu. Divana uzanan Qəhmər nə fikirləşdisə, Tubuya astadan, pıçıltılı səslə dedi: "Yenə həngamə düzəltdin, qan tökdün, bircə bunu görməmişdik. İndi dincələrsən". Tubu anasının sözlərindəki istehzanı, kinayəni başa düşdü və dərhal cavab verdi:

— Əcəb elədim, su nədi, onu da götürmür?

— Yox, Tubu, su dava-mərəkə üçün bəhanə idi.

— Onu beləcə yığışdırmasam, başıma çıxar. Görmürsən, mənə söz qaytarır. Bu, qudurmuşluqdu, həyasızlıqdı.

— Sən onu nahaq vurdun. Sənə bunun üçün Hümmət də "sağ ol" deməyəcək.

— Əh... Hümmət də kişi olub. Onun arvadı məni...

— Dalaşan dalaşana qurban olum, başına dönüm deməz ki. Nə deyərsən, elə də cavabını alarsan. Ancaq yadında saxla, bu hərəkətlərini qardaşın sənə bağışlamaya bilər. Səndən qəlbi qırılar. Səni atar. Gərək adam həddini aşmasın. Sən Şəfəqlə dalaşanda hər dəfə həddini aşırsan. Qayınanan, baldızın sənə qarşı belə çıxsaydılar, neylərdin?

— Onları cırardım.

— Bəs Şəfəq bizi niyə cırmadı?

— Onu minib sürərəm.

— Tfu... Tfu...

Qəhmər söhbəti uzatmadı. Tubu özü üçün nahar hazırlayıb, yeyib-içib otaqdan çıxdı.

* * *

Bütün günü dilinin altından su keçməyən, loxma kəsməyən Şəfəq yataqdan halsız qalxdı. Pəncərəyə yaxınlaşıb pərdəni kə-

nara sıyırdı və çölə baxdı. Axşam qaranlığı çökürdü. Ətrafda nə varsa, hər şey öz vəziyyətini dəyişirdi. Səma buludsuz olduğundan tək-tək, adda-budda ulduzlar görünürdü. İkimərtəbəli binaların pəncərələrindən qaranlığı keçib deşən işıq seli dükan-mağazaların, kino-teatrların, ictimai idarələrin üstlərinə, qapıları ağzına vurulan rəngarəng reklamlar bu qocaman şəhəri bəzəyirdi. Bu mənzərə Şəfəqə ilk dəfə bu şəhərə gəldiyi çağları xatırladırdı. O zamanlar da Şəfəq qanadları sınmış quş kimi yaşadığı yataqxananın balkonundan bu şəhərə beləcə tamaşa eləmişdi. O vaxtlar şəhər ona olduqca cazibəli, ecazkar görünmüşdü. İndi nə qədər gözəl, baxımlı olsa da, Şəfəq üçün təfavütü yox idi. Qəm, kədər içində boğulan, qayınanasının, baldızının düşünülməmiş hərəkətlərindən təsirlənən, ümidini, inamını itirməkdə olan Şəfəqin gözlərində adiləşmişdi. Fərəh, sevinc doğuracaq bir duyğu yaratmırdı. Əksinə, qüruba çəkilən günəş şüaları tək hər şey sönürdü. Düşündü ki, ola bilsin səyyarələr aləmini xatırladan bu şəhərin bir azdan elektrik cərəyanı kəsilsin, onu qatı qaranlıq zülmət içərisində mürgüləyən tənha komaları andıran məntəqəyə çevirsin... Bu ağrı, sarsıntı gətirən duyğular zavallı Şəfəqin ruhundan doğurdu. Xeyli vaxt pəncərədən şəhərə tamaşa eləyən, inamını, ümidini itirən, mənəviyyatı zorlanan, təhqirlərə məruz qalan Şəfəq dərindən köksünü ötürdü və sonra da bu ailəyə gəlin köçməsinin peşmançılığını çəkə-çəkə pərdəni öz yerinə qaytardı. Otağın işığını yandırıb balaca Hikmətə atası barədə umu-küsü eləmək istəyirdi ki, Hümmət qapını açıb otağa girdi. Şəfəqin dodaqlarının şiş, gözlərinin altını qaralmış, alnının, üzünün, çənəsinin cırmaqlandığını görcək ciddi nəzərlərlə arvadının üzünə baxdı. Heç nə başa düşmədiyindən: “— Bu nədi?” — deyə soruşdu. Şəfəq əvvəl: “Heç” desə də, özünü saxlaya bilməyib kövrəldi. Dili təpidi, dodaqları səyridi. Hümmət əsəbi halda: — Soruşuram, bu nə haldı, düşmüsən? — deyə bir də təkid elədi. Şəfəq: — Anandan soruş, — deyərək, üzünü çevirib





mətbəxə getdi. Hümmət hissləri donuq halda anasıgil olan otağın qapısını açdı. Başını içəri salıb salam verdi. Sonra da anasına dedi: — Mətbəxə gəl, ana“. Qadın küskün halda ayağa qalxdı. Oğlunun əsəbiliyini görcək əvvəl çaş-baş qaldı. Hümmət stullardan birində əyləşdi. Anasına da: — Otur, — dedi. Şəfəqdən soruşdu:

— Bu gün nə mərəkə baş verdiyini aç görək.

— Qoy vəziyyəti anamız danışsın.

Hümmət üzünü anasına tutaraq:

— Eşidirəm, ana, — dedi.

Qəhmər çox pis, çıxılmaz vəziyyətdə qalmışdı. Ya həqiqəti deməli, ya da qızının hərəkətlərinin, söyüş və təhqirlərinin üstünə pərdə çəkməli idi. Ana onu da başa düşürdü ki, yalan danışsa, Şəfəq indiki halda ona güzəştə getməyəcək, oğlunun yanında açacaq sandığı, tökəcək pambığı, onu əməllicə-başlıca ifşa eləyəcəkdi. Hər nalayiq sözə görə Tubu da, ana da özü cavab verməli olacaqdı. Üstəlik, özlərinə olan inamlarını Hümmətin yanında itirəcəkdilər. Hümmət heç vaxt anasına da, bacısına da inanmayacaqdı. Düzdür, bu, Tubu üçün o qədər də əhəmiyyətli deyildi. Ancaq anaya ölümdən də betər idi. Həmişə tədbirli olan Qəhmər fikirləşdi. Çıxış yolları axtardı. Şəfəqin ilk sözü qayınanasına verməsi Qəhmərin əl-qolunu açdı. Deyəsən, o, bəhanə tapdı da:

— Oğlum, əsəbiləşmə. Söz-söhbətsiz ailə olmur. Mən anayam. Bu evin ağbirçəyiyəm. Mənim adım, sanım səninkidi, oğlum. Mən ayrılıqda bacının da, arvadının da dərsini vermişəm. Sən bu evin kişisisən. Bu söz-söhbət gərək olmayaydı...

Şəfəq ağlamsına-ağlamsına bildirdi:

— Ana, mənim günahım nədi ki, hər gün söyülüm, təhqir olunum. Həqiqəti niyə açmırsan? Hümmət, bəyəm məni bu ailəyə əsir kimi gətirmisən? Mən bu ailənin üzvüyəm, ya yox?

Qəhmər səbr və təmkinlə:

— Sən cavansan. Təcrübən azdı. Hər şeyi ərə deməzlər.

— Daha mən dözə bilmirəm. Tubunun hərəkətlərini də, mənə münasibətini də sən yaxşı bilirsən. Mən yola getmək, söz-söhbət yaratmamaq xatirinə hər gün Tubudan qaçıram. İstəmirəm onunla ağız-ağıza verəm. Qonşular arasında rüsvay olaq. Ana, məni Tubu ilə niyə eyniləşdirirsən? Axı mənim günahım nədi? Allahınızı başınız üzərində görüb danışsanız, qiyamət qoparmı?

— Bu nə dildi mənimlə danışırsan? Allahsız sənin valideynlərindi! Babandı! Nənəndi! Sənin yanında belə danışan arvadın gör sən olmayanda mənə nələr deyir! Belə olmaz, bala! Deyirsən, sənin günahın nədi? Bizi qanmaz sanma. Hamısını da olmasa, ucundan-qulağından, qulaq as, deyim. Baldızının bu evə gəlişini istəməməyin. Hər dəfə ona çəpəki baxmağın, ağız-burun büzməyin. Biz uşaq deyilik, bala. Sənin kimisinin yüzünü yola salaram. Ərinə demirik, özünü yığışdır. Ərinin dediklərindən də nəticə çıxarmırsan. Bir bacı, bir qardaşdılar. Onların kimləri var? Belə getsə, onları düşmən eləyəcəksən.

Qayınana danışdıqca Şəfəq açıq-aydın anlayırdı ki, dərin, qaranlıq bir uçurumun kənarındakı enişlə üzüaşağı yuvarlanmaqdadı. Ətrafa nə qədər əl-qol atsa da, bu uçurumdan xilas ola, yaxa qurtara bilməyəcəkdi. Kimsənin ona arxa, havadarlıq eləyəcəyini güman etmirdi. Bütün ümidini Tanrıya bağlamaqdan savayı özgə bir çarə tapa bilmirdi. Bu axırıncı zərbəni də udmağa məcbur oldu. Onun qəlbinin dərinliklərində ümidsizlikdən doğan acı bir istehza vardı. Şəfəqin özünün təsəvvürüncə bunu da acı göz yaşları adlandırmaq olardı.

Gəlin qayınanasının da, ərinin də səmimiyyətdən, mehribanlıqdan çox-çox uzaqlaşdığını anladı. Bir anlığa dəhşətə gəldi. Bu zavallı gəlinin ərindən və qayınanasından yeganə təmənnası elə məhz səmimiyyət və mehribanlıq idi. Təəssüf ki, get-gedə onu da itirirdi.





Qayınanasının iftiralarına məəttəl qalan Şəfəq danışmağa söz tapmadığından həqiqəti sübuta yetirmək üçün and-aman eləməkdən özgə çarəsi qalmadı. Hümmət tərs-tərs arvadının üzünə baxdı. Sonra dedi:

— Düz eləyiblər. Gərək səni öldürəydilər. Onda bilərdin baldızla yola getməməyin nəticəsi necə olur?

Günahkar çıxan Şəfəq için-için, yana-yana, başını bulaya-bulaya ayağa qalxdı: — Allah, bundan betərindən saxla, — deyib öz otağına getdi. Neyləyəcəyini, nə iş görəcəyini bilmədi. Şər, böhtan, iftira ilə üzləşən Şəfəq otağına qapanıb ağlayıb-sıtqamaqdan özgə çarəsi qalmadı. Haçandan-haçana özünə gəlib Qəhmərlə keçən günlərini, özünün ona münasibətini xatırladı. Sonra da böyük təəssüf hissi ilə dedi:

— Yox! Mən səni tanımamışam. Sən vicdanının səsini nəzərə almadan həqiqətin üstünə qara bir pərdə çəkən iblissən. Qızının kim olduğunu yaxşı bilə-bilə, əxlaqından xəbərdar ola-ola, onu tərbiyə eləmək, yoluna qaytarmaq əvəzinə, ona yollar açırsan. Həqiqətən də Tubu sənin qızındı. Məni də yerlə-yeksan elətdirirsən. Mən nə vaxt Tubunun bu evə gəlişinə etiraz eləmişəm? Mənə belə böhtan atmaqda məqsədin nədi? Məni bu evdən qovmaqmı? Əgər elədirsə, sözünüzü niyə açıq demirsiz?..

Bu düşüncələr içərisində Şəfəqi yuxu apardı. O, qorxulu bir röyaya atıldı. “Tubu onu döyür. Hümmət arvadını bacısının əlindən alır. Uşaq ağlayır. Əri ilə qayınanası onu evdən qovurlar. O, binanın girəcəyində ağı deyir. Səsə gələnlər də ona kömək əllərini uzatmırlar. Uşağından əlləri üzülən ana qalın kol-kosluq, cəngəllik içərisində ağlaya-ağlaya harasa tələsir...”

Axşamdan xeyli keçmiş Hümmətin otağa gəlişi onu yuxudan hövlnak oyatdı. Hümmət dərhal: — Mənim yatağımı aç, — dedi. Arvadı dinməz-söyləməz ərinin yatağını düzəltdi. Hümmət soyunub öz yerinə uzanaraq dedi:

— Şəfəq, qurtarın bu söz-söhbəti.

— Mən söz-söhbət yaratmıram. Ananın dediklərini indi də ayırd eləyə bilmirəm. Adam da evin gəlininə qul kimi, nökər kimi baxarmı? Axı...

— Heç kim səni nökər, qul hesab eləyə bilməz. Mənim başıma oyun açmayın.

— Günahım nədi?

— Bilmirəm.

— Bacınla da söhbət elədinmi bu barədə?

— O, hələ gəlməyib.

— Saat neçədi?

— İyirmi dördə qalır.

— Hər gün gəldiyi vaxta özün şahidsən. Bircə dəfə soruşmusanmı, ərsiz qadın bu vaxt hardan gəlir?!

— Yox!

— Cavab ver, kişisən. Başına oyun açan kimdi? Mən, yoxsa, bacın?

— Qurtardıq. Bütün günü əlləşib çörəyinizi zorla qazanıram. Heç olmasa, məni çərlətməyin.

Hümmət arxasını Şəfəqə çevirib yorğanını başına çəkdi. Şəfəq isə öz-özünə düşündü: "Sənin qeyrətin yoxmuş, Hümmət. Ona görə yox ki, bacının, ananın haqsız hərəkətlərini, iftiralarını təhlil eləyib həqiqəti üzə çıxarmırsan, onları məzəmmət eləmirsən... Təkrar eləyirəm, əsla yox. Məni dəhşətə gətirən odur ki, qardaş bacının pozğunluğunu apaydın bilir. Ona gözün üstə qaşın var demir. Bax, bu, dəhşətdi. Deməli, o yolları mən də getsəm, qəbul eləyəcəksən? Bunu özlüyümdə sənə bağışlaya bilmirəm. Sən kişi deyilsən! Sən gədasanmış! Mənim aləmimdə kişi təkcə ailənin dolanışığı barədə düşünməməlidi. Kişinin sözünün kəsəri olar. Kişi olan qeyrətini, namusunu qoruyar! Qeyrəti, namusu olmayanın ləyaqəti, şərəfi də olmaz! Sən də bacının tayısanmış. Onun damarlarında axan qan sənin də damarlarında axırmış... Məni bağışla, Hümmət! Namussuz kişi ilə qəhbə





qadın arasında elə bir ciddi fərq yoxdu! Özünü satan qadına qəhbə, qeyrəti olmayan kişiyə oğraş deyirlər! Oğraş kişinin arvadı olmaq istəməzdim! Səhv atdığım addımlarımın indi cəzasını çəkirəm! Bizimki heç vaxt tutmayacaq. Bircə şeydən qorxuram, oğraşlıq qanı Hikmətin də damarlarında cərəyan eləyə!.. Görək axırımız necə olacaq?!"

Bütün günü ac-yalavac qalan Şəfəq səhərədək yatağındaca qıvrıldı.

*   *   *

Şəfəqin döyülməsindən bir neçə gün keçmişdi. Günortaya az qalırdı. Telefon zəng çaldı. Dəstəyi götürdü. Mikrofondan cavan, naməlum kişi səsi eşidildi.

— Alo... Salam.

— Salam.

— Kim lazımdı?

— Şəfəq.

— Kim?

— Şəfəq.

— Kimdi danışan?

— Mənəm. Cana tanımadın?

— Alçaq, o nə danışıqdı?

— Əsəbiləşmə. Sənin üçün adam canını verər.

— Qələt eləyər.

Şəfəq dəstəyi telefonun üstünə çırpıb əsəbi halda: — Bircə bu işimiz qalmışdı", — deyə otağına keçdi. Telefon yenə zəng çaldı. Bu dəfə dəstəyi Qəhmər götürdü. Bayaq zəng çalan kişi: — Alo", — dedi. Qəhmər:

— Eşidirəm.

— Şəfəq, sənsən?

— Yox. Bu saat.

Qəhmər dəstəyi kənara qoyub ucadan Şəfəqi səslədi. Sonra da incə bir istehza ilə bildirdi:

— Bir kişi səni telefona çağırır.

Qayınanasının səsindəki istehzanı Şəfəq də duydu.

— O alçaq kimsə, ikinci dəfədi zəng çalır.

— Gör nə deyir.

Şəfəq dəstəyi bir də götürdü.

— Eşidirəm.

— Lap əla. Nə vaxt? Harda?

— İt oğlu, it. Bu nömrəni sənə kim verib? Bir də bura zəng çalsan...

Şəfəq dəstəyi yerinə qoyub onu ümumi xəttdən ayırdı. Qəhmər dərhal narazılığını bildirdi. Şəfəq etinasız halda dedi:

— O zənglər kimə lazımdı? — Ana, ayıbdı, bəsdi. Adamı bezdirməyin. Mərdi qova-qova namərd eləməzlər. Özün yaxşı bilirsən namərdlərə, alçaqlara nömrəni kimin verdiyini. Oğul qeyrəti, qardaş namusu çəkənlər siz görən işləri eləyərmi? Bir ayağın burda, o birisi gorda. O gün də mənə böhtan atırsan. Qızına da de. Qurtarın bu oyunu. Gərək Tubu məni vuranda, al qanıma qəltan eləyəndə, polisə şikayət eləyəydim. Məhkəmə günahkarı üzə çıxarardı.

— Xox, qorxduq ha.

— Sənin qızın iblisdi, şeytandı. Oğlunsa, maymaq.

— Gələndə soruşarıq, əgər sübut eləyə bilməsən.

— Nə sübut? Neçə vaxtdı burdayam. Evdən çölə ayaq basmışammı? Yox! İndi mənə kimlər zəng çalır? Mənə sizin hörmətiniz, qayğınız gərək deyil! Heç olmasa, Hümmətin, Hikmətin namusuna təcavüz eləməyin! Eşidən, bilən sizə nifrət eləyər! Məni bu evdən qovmaq istəyirsiz, adam kimi deyin! Mən özüm burdan rədd olaram! Adımı namussuz niyə qoyursuz?!

Qəhmər gəlinin dediklərindən çəkindi. Səsini yumşaltdı və astadan dedi:





— Adama zəng eləyərlər də. Niyə narahat olursan?! Tubuya gündə...

— Mən Tubu deyiləm! Namus, şərəf pulla alınmır! Özünüzü yığışdırın!..

Gün günortadan əyilmişdi. Qəhmər gəlib telefon aparatını xəttə caladı. Sonra da öz otağına keçib divanda uzandı. Axşama yaxın telefon yenə zəng çaldı. Qəhmər telefonun dəstəyini götürdü. Mikrofondan cavan qadın səsi eşidildi:

— Alo... Salam.

— Salaməleyküm, qızım, eşidirəm.

— Şəfəq evdədimi?

— Hə, bu saat.

Qəhmər Şəfəqi yan otaqdan telefona çağırdı. O, əlacsız qalıb otaqdan çıxdı. Dəstəyi götürüb: — Alo, — dedi. Mikrofondan naməlum qadın səsi eşidildi. Çoxlu alkoqollu içkilər qəbul elədiyindən, papiros çəkdiyindən bu qadının səsi kişi səsi kimi qalın və sərt idi. Əlacsız qalan Şəfəq: — Eşidirəm, — dedi.

— Tanımadın, köhnə rəfiqələrindənəm. Kef eləmək istəmirsən? Gəl yanımıza. Həm kef çək, həm də pul qazan. Necədi sənin üçün?!

— Ay alçaq! Müəlliminə de, özünə başqa tay axtarsın!

— Səninlə danışmaq istəyən var.

— Lazım deyil.

Şəfəq dəstəyi yerinə qoymaq istəyirdi ki, bir kişi: — Alo, — “ dedi. Zavallı gəlin dəstəyi yerinə qoydu. Öz-özünə fikirləşdi ki, bu dəfə də zəng çalınsa, bəhanə ilə telefon aparatını sındırsın. Başqası alınıncaya qədər müəyyən vaxt keçər, bura zəng çalan adamlar da bəlkə fikirləşib inadlarından dönərlər.

* * *

Hər dəfə müəmmalı düşüncələrdən özünə qayıdanda Şəfəq

böyük tərəddüd və qarmaqarışıq fikirlər içində təlatümlü hisslər keçirirdi. Belə hallarda bu zavallıya elə gəlirdi ki, anbaan üzərinə çökməkdə olan amansız bir təhlükə ilə qarşılaşır. Təhlükənin vahiməsindən dərin bir zülmət içərisində dəfn elədiyi keçmişini xatırlayır, gələcək taleyinə yeni zərbələrin endiriləcəyini güman edirdi və daxili titrəmə keçirirdi. Ağır dərddən, qəm, qüssə gətirici kədərdən varlığı sarsılan Şəfəq gül kimi solurdu. Halını bilmədiyi adamlardan, ağlına gətirə bilmədiyi təsirlərdən başında yaranan dağınıq, müəmmalı fikirlər, qarmaqarışıq düşüncələr ona düçar olduğu vəziyyətdən çıxmaq imkanı vermirdi. O, təkcə onu düşündü ki, bu təzyiqlər Tubunundur. O, bir hiylə işlədərək hər şeyi qardaşına çatdıracaq, Hümmət də onu ya möhkəmcə cəzalandıracaq, ya da ondan şübhələnməyə başlayacaq. Onda gec olacaq, o, özünə heç cürə bəraət qazandıra bilməyəcəkdi. Ona görə də Şəfəq telefon zənglərinin çalındığını təfərrüatı ilə ərinə danışmaq qərarına gəldi. Axşam şam naharından sonra Şəfəq Hümmətə dedi:

— Mən hər şeyi sənə açıq danışmalıyam. Bilirəm, onsuz da bunları sən də biləcəksən. Bunu sənə açmağa borcluyam. Bu gün iki dəfə naməlum kişi, bir dəfə də yenə tanımadığım, səsini ilk dəfə eşitdiyim bir qadın mənə zəng eləmişdi.

— Axı nə deyirlər?

— Hər üçü məni ələ salır. Təhqir eləyirlər.

— Nə danışırsan?

— Acı da olsa, həqiqətdi. Bəlkə telefon aparatını bundan sonra gündüzlər xətdən ayıram. Özün gələndə qoşarsan.

Hümmət üzünü anasına tutaraq:

— Bu nə danışır?

— Hə, oğlum, mən də eşitdim. Boş şeydi... O qədər axmaq, avara adamlar var ki... Atalar yaxşı deyib: "İtin axmağı qaysavadan pay umar". Hər hürənə ağac bulasan, səbrin qalmaz ki?

Hümmət əsəbi halda üzünü arvadına tutub soruşdu:





— Axı nə deyirlər. Açıq danış.

— Guya mənimlə çoxdan tanışdılar. Kişi məni görüşə, qadınsa öz iyrənc, pozğun yollarına çağırır.

— Hə, indi də fikirləş, baş sındır görüm, bu alçaqlar kimlərdi? Əşi, belə də iş olar? Evimizdə də rahat qoymurlar. Əvvəllər də belə şey olub?

— Heç vaxt.

— Bəs bizim telefon nömrəmizi kim bilir və onu başqalarına kim verə bilər?

Sualın qoyuluşu elə bil Qəhmərin ürəyini qırdı. Ona elə gəldi ki, olanların hamısına görə Hümmət bacısından şübhələnəcək. Qadın əvvəl udqundu, sonra boğazını arıtlayırmış kimi astadan öskürdü.

Hümmət öz-özünə düşündü: "Bu kişilər kimlər ola bilərlər? Onlar Şəfəqi hardan tanıyırlar? Şəfəq ərə gələndən heç vaxt evdən kənara tək çıxmayıb. Hə... Şəfəq gərək ki bir-iki dəfə Pəriyə zəng çalıb. O, məni də tanıyır. Pəri belə işə qol qoyarmı? Axı niyə? Yox! Pəri elə adama oxşamırdı. Heç vaxt elə şey eləməz. Qonşular ola bilərmi? Bəlkə Tubu üçün zəng çalıblar, Şəfəq götürüb? Bəs onda niyə Tubunu yox, Şəfəqi istəyirlər? Mənəmi sataşırlar? Bu, bəlkə İslamın işidi? Yox, ona da inanmıram... Axır ki, burda bir müəmma var".

Bu suallara cavab tapa bilməyən Hümmət ayağa qalxmaq istəyirdi ki, telefon zəng çaldı. O, dəstəyi özü götürdü: — Alo, eşidirəm, — dedi. Səs gəlmədiyindən Hümmət əsəbiləşdi. — Cavab versənə", — söylədi. Elə bu dəm mikrofondan qısa siqnallar gəlməyə başladı. Hümmət dəstəyi telefonun üstünə atdı. "Yenə zəng eləyəcək" — deyə düşündü. O, bacısı ilə də bu barədə söhbət eləmək qərarına gəldi. Ancaq Tubu həmin gecə evə gəlmədi.

* * *

Bir neçə gün idi ki, Şəfəq telefon aparatını gündüzlər ümumi xətdən ayırır, axşamlar əri evə gələndə xəttə qoşurdu. Şənbə günü Hümmət iş-gücünü qaydaya salıb evə bir qədər tez gəlmişdi. Yeyib-içəndən sonra cibindən bir maqnitofon kaseti çıxartdı. — Əla mahnılar yazılıb, — deyə kaseti maqnitofona qoydu və düyməni basdı. Otağı yüngül, oynaq, şən musiqi sədaları bürüdü. Dinlədikcə Hümmətin əhvali-ruhiyyəsi artdı. O, oğlunu qucağına aldı. Qəhmər: — Ehtiyatlı ol, uşağı əlindən salarsan, — dedi. Hümmət: — Yox, salmaram, istəyirəm oğlum da qulaq assın bu şən musiqiyə, — deyə cavab verdi və uşağın yanaqlarından öpməyə başladı. Sonra da əlavə elədi: — Oğul nəslin ən layiqli davamçısıdı.

Ərinin bugünkü hərəkətləri Şəfəqin ürəyincə olduğundan: — Bəs qız? — deyə soruşdu. Qəhmər: — Oğul da, qız da hər ikisi valideyn üçün övladdı. Qeyrətsiz oğuldan kor qız yaxşıdı, — dedi.

Şəfəq qayınanasının sözündəki kinayəni aydın başa düşdü. Deməsə də, "Əxlaqı ləkəli qızdan necə?" sualını başında dolandırdı. Hümmət anasının gözləmədiyi, ağlına gətirmədiyi cavabı verdi:

— Yox, ana! Tubu qızdı. Sənə gətirdiyi dərdi-səri sənin gözlərindən oxuyuram.

Qəhmərin üzündə məcburiyyətdən doğan acı bir təbəssüm doğdu. Əslində bu, ana üçün çox ağır mühakimə idi. Keçmişinə, gələcəyinə atılan ağır daş idi, oğul məzəmməti idi. Ona görə də oğlunun məzəmmətlərini ürəyindəcə, dilinə gətirmədən qəbul elədi. Ancaq gəlinin yanında özünü sındırmadı:

— Oğul da qeyrətsiz olanda üzünü görmə.

— Yəni necə?

— Ananı saymayanda, dediklərini eşitməyəndə, bacı qeydinə qalmayanda.

Şəfəq dərhal qayınanasının nə demək istədiyini anladı, onun





fikirlərini hiyləgərcəsinə ifadə eləməsinə mat-məəttəl qaldı. Sonra da Qəhmərin bir cürə düşünüb başqa cürə danışmaq istedadına ürəyində acı bir istehza ilə güldü.

Hümmət: — Yəqin o günkü söhbətdən anam narazı qalıb, — deyə düşündü. Sonra da öz-özü ilə danışırmış kimi pıçıltılı bir səslə bildirdi:

— Mən ki, elələrindən deyiləm, ana.

Qəhmər də eyni ahənglə:

— Səni demirəm ki, bala.

Lent yazıları sona yetincəyədək bütün mahnıları böyük həvəslə, acgözlüklə dinləyən Hümmət onların hamısına ayrılıqda münasibətini bildirdi. Sonra da oğlunu arvadına verdi. Gecədən xeyli keçirdi. Hümmət incik halda anasından soruşdu:

— Son vaxtlar, deyəsən, Tubu evə gəlmir?

— Niyə ki, dünən gəlmişdi.

— Saat neçədə?

Qəhmər saatı qəsdən demək istəmədiyindən çiyinlərini çəkdi. Hümmət anasının qızına olan güzəştli münasibətlərini açıqaçığına anlayırdı. İndiyədək fikirləşmişdi ki, Tubunu anası nə vaxtsa başa salar. Ancaq Hümmət yanılmışdı. Məsələ heç də o düşünən kimi olmadı. Hadisələr düşündüklərinin tam əksinə cərəyan eləyirdi. Hümmət də daxilən əsəbiləşirdi. Buna baxmayaraq, o, incikliyini, narazılığını, umu-küsüsünü, acığını, qəzəbini üzə vurmamağa çalışırdı. Artıq dözmək mümkün deyildi. Ona görə də Hümmətin indi verdiyi sual Qəhmər üçün o qədər də gözlənilməz deyildi. Ana haçandan-haçana saymazyana bildirdi: — Tubunun vaxtsız, gecədən xeyli keçmiş evə gəlməsində qeyri-adi bir şey yoxdu və buna təbii hal kimi baxılmalıdı. Əri yox, uşağı yox. Qəlbi sınıqdı. Görünür, rəfiqəsigilə gedib.

— Ana, bəsdi, Tubunu müdafiə elədiklərin. Mən istəmirəm onunla aramızdakı pərdəni götürüm.

İlk dəfə idi ki, Şəfəq ərinin anası ilə belə sərt danışığını eşi-

dirdi. Ona görə də öz-özünə dedi: — Sağ ol, Hümmət, səndə də qeyrət varmış. Aman Allah, xaşıl da daşarmış.

Hümmətsə səsini bir qədər də kəskinləşdirərək əlavə elədi:

— Yığışdır qızını. Belə getsə, ailəyə də bir ad qoyacaq.

Qəhmər astadan, bir qədər də laqeydliklə:

— Nə işinə qalıb? Özü bilər. Necə istəyir, elə də yaşasın.

— Xeyr, düz demirsən. Kişinin namusu olmalıdı. Qadının əməli salehliyi. Tubu ilə danış, yoxsa...

Elə bu vaxt telefon zəng çaldı, dəstəyi Hümmət gedib götürdü. Səs eşidilmədiyindən əsəbi halda dedi:

— Danış da, a namərd, niyə susursan?

Bir az keçmiş mikrofondan yad kişi səsi eşidildi:

— Alo...

— Eşidirəm.

— Mənə Şəfəq lazımdı.

— Nə sözün var, mənə de.

— O, mənimdi. Biz vaxtı ilə sevişirdik.

— Yalan deyirsən, alçaq. O, səni tanımır.

— Sən səhv eləyirsən. Qulaq as, deyim.

— De.

— Mən Şəfəqlə il yarım gəzmişəm. Onunla kef çəkmişəm. İndi də yadıma düşəndə az qalıram dəli olam. Üç il bundan əvvəl əsgəri xidmətə getmişəm. Bir müddət onunla məktublaşmışam... Sonra bizim aramızdakı əlaqə qırıldı. Bir ildi ki, əsgəri xidmətdən qayıtmışam, onu axtarıram. Bu yaxınlarda öyrənmişəm ki, Şəfəq səninlə ailə qurub. Bir oğlunuz da olub. İndi mən onunla görüşmək istəyirəm. Ona deyiləsi sözüm var. Məni aldadıb. İnamımı qırıb. İndi bildin?

— Sən alçaqsan. Onu sevsəydin, barəsində belə danışmazdın.

— Sizi rahat buraxmayacağam. Dəstəyi ver Şəfəqə.

— Adın nədi?

— Saleh.





Bayaqdan bəri ərinin telefon söhbətinə qulaq asan Şəfəq əlini dəstəyə uzatdı: — Ver mənə, — dedi. Hümmət fikirləşmədən, qeyri-iradi halda dəstəyi arvadına verdi. Şəfəq qəzəblə:

— Ay alçaq, məni hardan tanıyırsan? — dedi.

— Sən Hümmətdən ayrılmalısan. Mənim olmalısan.

— Oğraş, namussuz.

Şəfəq hönkürüb ağlamağa başladı. Hümmət dəstəyi arvadından aldı:

— Biqeyrət, sən onu görsən tanıyacaqsanmı?

— Niyə tanımıram ki? O qədər onunla...

— Sabah saat onda parkın tinində səni gözləyəcəyik.

— Yaxşı.

Dəstəkdən qırıq-qırıq siqnallar gəlməyə başladı. Hümmət dəstəyi yerinə qoydu. Üzünü Şəfəqə tutdu:

— Bu nədi, Şəfəq?

— Bilmirəm!

Elə bu vaxt Qəhmər də qapını açıb dəhlizə çıxaraq: — Bu nə səsdi? — deyə soruşdu. Hümmət əsəbi halda — Sən get yat, bu bizlik söhbətdi, — deyə cavab verdi. Hümmət dəstəyi aparatın üstünə atıb yumruğunu stola vurdu:

— Bu, çox müəmmalı məsələdi.

— O, sənə nə dedi?

— Guya siz sevişmisiz. Olmusuz...

— Nə?!

— Hə!.. hə!..

— Hümmət!.. Bəyəm sən...

— Biz sabah onunla görüşməliyik.

— Görüşək. Onu dişimlə-dırnağımla didəcəm, parçalayacam.

— Yox. Onunla mən özüm danışacam. Dərsini özüm verəcəm. Get, yat.

— Hümmət, mən and içib səni inandırmaq istəmirəm. Mən səndən savayı heç kəslə sevgi barədə bir kəlmə də kəsməmi-

şəm. Heç kəs barmağımdan tutmayıb. Əgər elə adam tanısaydım, mən ilk görüşümdə sənə deyərdim. Sən indi məni ata da bilərsən... Öz işindi. Unutma ki, burda araqarışdıran əl var. Zaman hər şeyə aydınlıq gətirəcək. Görəcəksən ki, mənim bu işdə günahım yoxdu.

— Baxarıq. Dur, get, yat. Mən də gəlirəm.

Şəfəq ərinin tələbi ilə ayağa qalxmaq istəyirdi ki, ürəyi sıxıldı. Oturduğu stuldan yıxıldı. Hümmət tez onu qucaqladı. — Şəfəq, Şəfəq, — deyə qışqırdı. Səsə Qəhmər də gəldi. Gəlinin sirsifətinin bozardığını, təntidiyini, bədəninin titrədiyini, əsdiyini görcək bərk qorxdu. Tələsik bir stəkan su gətirib gəlinin üz-gözünə, sinəsinə səpdi. — Bu nə işdi, biz düşdük? — deyə dilləndi. Şəfəq haçandan-haçana özünə gəldi. Hümmət nə qədər əsəbi olsa da, arvadının qoluna girib onu yatağına apardı. Özü də soyunub çarpayısına girdi. Ər-arvadı xeyli vaxt yuxu aparmadı.

* * *

Səhər yeməyindən sonra Hümmət paltarlarını geyindi və arvadına: — Hazırlaş, bizi gözləyəcəklər, — dedi. O, uzun tiyəli çörək bıçağını götürüb sol tərəfdən pencəyinin altında gizlətdi. Şəfəq ərinin əsəbini dərk eləsə də, "getməyək" sözünü heç cürə dilinə gətirə bilmədi. Uşağı qayınanasına tapşırıb ər-arvad evdən çıxdılar. Hümmətgil vədələşdikləri vaxtdan da qabaq görüş yerinə gəldilər. Bir saatdan da artıq Salehi gözləməli oldular. O, gəlmədi ki, gəlmədi. Əlacı kəsilən Hümmət o naməlum adamı söyə-söyə evə qayıtdı. Növbəti telefon zənginin nə vaxt çalınacağını gözlədi.

* * *

Saleh bir də axşam zəng çaldı. Hümmət dəstəyi götürdü.

— Alo... Eşidirəm.





— Hümmət, mənəm Saleh.

— Hə. Bəs niyə gəlmədin vədə yerinə?

— Mən yatıb qalmışam. Ona görə də gələ bilməmişəm.

— Bəlkə indi görüşək.

— Gecdi.

— Sabah nə vaxt?

— Görüş nəyə gərəkdi ki? Şəfəqdən qurtar. Vəssalam. Yoxsa, özündən küs.

— Bura zəng çalma. Adam kişi olar.

— Nə? Ha... Ha... Adam kişi olara bax ha! Başqasının məşuqəsini özünə arvad eləmisən. Mənə də kişilikdən dəm vurursan.

— Alçaq. Qeyrətsiz.

Hümmət əsəbiləşib dəstəyi ümumi xətdən ayırdı. Qəhmər evdəki narazılıqların, telefon zənglərinin qızı tərəfindən edildiyini yaxşı bilirdi. Hərdənbir Şəfəqə yazığı gəlsə də, qızına nə vaxtsa ondan xəta gələ biləcəyini düşünüb susurdu. Özünü elə hər şeydən xəbərsiz kimi aparırdı. Bunu özlüyündə Şəfəq də dərk eləyirdi. Ancaq əlində konkret bir faktı olmadığından məsələni Tubu ilə bağlaya bilmirdi. Odur ki, öz-özünə fikirləşdi: Qoy Hümmət özü "Bu oyunları düzəldən ifritə bacımmış" qənaətinə gəlsin. Şəfəqin aləmində bu ən yaxşı yol idi. O, sonra da öz-özünə dedi: Əgər belə olarsa, mənim and-aman eləməyimə ehtiyac olmayacaq, anasının da, bacısının da iç üzü açılacaq. Belə olarsa, Tubunun cəzasını ya kişi kimi özü verər, ya da ondan birdəfəlik üz döndərər. Tubu da bundan sonra mənə girişməyə cəsarət eləməz... Hər şey də aydınlaşar. Mən Allaha inanıram. Nə vaxtsa, hər şey açılacaq. Hümmətin gözlərindən qəflət pərdəsi özü-özündən qalxacaq. "Bunların hamısı bacının felidir" desəm, Qəhmər dərhal qızını müdafiəyə qalxacaq və oğluna deyəcək: gördünmü, oğul, arvadın bacının burda yaşamasını istəmir. Onda mən özümü inandırmaq üçün ya and-aman eləmə-

liyəm, ya da Qəhmərlə üz-üzə dayanmalıyam. Sözləşməliyəm. Bu da yaraşan iş deyil. Yaraşsa da, heç bir fayda verməyəcək. Üstəlik, Qəhmər də mənə növbəti iftiralarını atmalı olacaq. O günkü tək. Nə isə... Ağlı olan ağlamaz. Səbr! Səbr! Görək axırı nə ilə qurtaracaq?..

Eh, vallah bircə körpəmin dərdi olmasaydı, bu saatca baş götürüb gedərdim bu evdən... Neyləyim?.. Hikmət!.. Hikmət!.. Oğlum, deyəsən, mənim taleyim kimi səninki də qara günlüdü. Əgər belədisə, Allah bizi niyə yaradırdı?! Zülm verməyəmi? Əzablar içində yandırmağamı? Əritməyəmi? Onsuz da mən ağacın kövrək budağıyam, sənsə mənim yarpağım... Əgər budaq öz gövdəsindən qopursa, bəs onda yarpaq neyləsin? Onun taleyi necə olsun? Hər şeydən xəbərsiz, oğlum, mən ürəyimdəkiləri atana aça bilmirəm. Atansa, sapında durmayan dəhrə kimidi, nə ona etibar olunub söz deyiləsidi, nə də ər deyə arxa çevriləsidi. Mən demirəm mənim tərəfimdə dayansın. Məni tutsun. Qətiyyən yox! Atan evin kişisidi. O, haqqı, ədaləti nəzərə alıb hər kəsə qəti sözünü deməlidi. Hər kəsə öz yerini göstərməlidi. Atanın zəifliyi bax, burdadı, oğlum...

Bu və buna bənzər düşüncələr Şəfəqi yorub əldən salırdı. O, fikirləşdikcə, öz-özü ilə danışdıqca əsəbiləşirdi. Nə iş görəcəyini də düz, əməllicə-başlıca bilmirdi. Oturub-durub Allaha yalvarırdı ki, qansız, namərd heç olmasa, bundan belə evə zəng çalmasın, Hümmətin qanını qaraltmasın.

* * *

Hümmətin fikri bu gün dünənkindən, srağagündəkindən daha çox dağınıq idi. Ətrafında baş verənləri sanki görmürdü. Danışılanları eşitmirdi. Elə bil qulaqları tutulmuşdu. Dinmirdi, danışmırdı, sanki dili lal olmuşdu. Hissi, duyğusu sustalmışdı. Elə bil bədəni donmuşdu. Öz-özündən sanki xəbərsiz idi. Beyni kilidlənmişdi. Yanından ötüb keçənləri görmürdü, elə bil kor idi. Başqa sözlə, heç bir şeyin fərqində deyildi. Handan-hana ağlına bircə şey gəldi: hər şeyi gurultu ilə ifadə eləmək biz insanlarda güclüdü. Axı niyə? Çünki ağa qara, qaraya ağ deməyə adətliyik. Axı bu alçaq Saleh kimdi? İnanmıram ki, Saleh o alçağın, şərəfsizin adı ola. O, Şəfəqlə doğrudan da intim münasibətlərə girsəydi, belə danışmazdı. Qara əl var burda. Kimsə bizim ailəmizi dağıtmaq istəyir. Onu necə tapmalı? Onun haqqı-sayını necə verməli? Bu, elə məsələdi ki, şapdan-şupdan onu heç kəsə açmaq mümkün deyil. Onda özümü də, Şəfəqi də çıxılmaz vəziyyətdə qoymuş olaram. Təkcə onu bilirəm ki, Şəfəq bu işdə günahsızdı. Onun bu şəhərdə kimsəsi yoxdu. Olsaydı da, bu qədər müddətdə mən bilərdim. Anam, bacım mənim ailəmin dağılmasına heç vaxt razı olmazlar. Bəs bunu kim elətdirə bilər? Axı, insafən, Şəfəq pis cuvanəzən deyil. Heç kəslə əlaqəsi yoxdu. Onun üzündə mərhəmətli və rəhimdil Allahın səxavətlə bəxş elədiyi yaxşılıq ifadəsi parlayır. Belə adam heç kəsin pisliyini, bədbəxtliyini ağlına belə gətirə bilməz. Bu şey ailədən kənara çıxsa, tanıyanlar bilsə, gərək mən başıma papaq qoymayım. İntihardan başqa çarəm qalmır. Bəs sonrası? Cavan arvadım, körpə uşağım necə olsun? Dul bacım, əli işdən qalan, ömrünün qürub çağlarını yaşayan anam başlarına nə çarə qılacaqlar? Bu işə çarə qılmasan, onu aydınlaşdırmasan, sonuna çatmasan yaşamağa haqqın yoxdu, Hümmət. Bu nə işdi sən düşdün?! Mərd düşmən üz-üzə gələr, haqq-hesabını çəkərsən. Namərd düşmən arxadan kürəyə xəncər vurar. Bəli, mənim düşmənim namərddi. Siçan kimi qaçıb gizlənib. Təkcə telefonda səsini eşidirəm. Özünü görmürəm. Kimliyini bilmirəm. Çağırışa gəlmir. Vədəsinə xilaf çıxır. Axı mən neyləyim?! Onunla necə danışım? Eh... Çörəyimə zəhər qatan namərd! İt xasiyyətli, canavar təbiətli yaramaz. Eybi yoxdu. Sən sən ol, mən də mən! Nə vaxtsa, açılar sənin kim olduğun, məqsədin, məramın.

Neçə gündə ağır fikirdən, böyük dərddən, kədərdən başı çatlayan Hümmət şam yeməyinə oturmuşdu ki, telefon zəng çaldı. Hümmətin hirsdən bədəni titrədi. O, gedib dəstəyi götürdü. “Alo... Eşidirəm”, — dedi. Telefon susdu. Hümmət dəstəyi yerinə qoydu. Öz-özünə: “Yenə başlandı”, — deyə düşündü. Korpeşman gəlib yerindəcə oturdu. Əlini süfrəyə atmaq istəyirdi ki, telefonun səsi yenidən otağı bürüdü. Hümmət bu dəfə heç bir şey olmamış kimi gedib telefona cavab verməli oldu.

— Alo... Səsini çıxart da.

— Mənəm, Saleh.

Saleh sözünü eşitcək elə bil Hümmətin qanı coşdu. Bədəni bir an içərisində od tutub yandı. Əsəbini boğsa da, səsi xırıldadı.

— Eşidirəm.

— Şəfəqdən qurtar.

Hümmət nə edəcəyini bilməyib dəstəyi yerinə qoydu. Qeyri-iradi olaraq Salehin anasına da söydü.

*   *   *

Ərlə arvad yataqlarına uzansalar da, biri o birindən xəbərsiz heç cürə yata bilmirdi. Sanki yerlərinə qor dolmuşdu. Sanki çalınacaq növbəti telefon zəngini gözləyirdilər. Saat üç olardı. Hamı şirin yuxuda idi. Birdən otağı aramsız zəng səsləri bürüdü. Hümmət də, Şəfəq də yataqdan başlarını qaldırdılar. Az qala Şəfəqin ürəyi qırıldı. O: — Bu nə bəladı, biz düşdük? — dedi. Hümmət ayağa qalxıb, yorğanı bədəninə bürüdü. Söyə-söyə gedib telefona cavab verməli oldu.

— Alo.

— Eşit məni axıra qədər.

— Niyə, a namərd?

— Deyəsən, əsəblərin dözmür, pozulub. Mənim məşuqəmi qaytar, səndən əl çəkim.





— Böhtançı, iftiraçı, oğraş.

— Elə isə sənin üçün sürpriz. Mən deyənlərə inanmırsan. Sübut eləyim. Birincisi Şəfəqin yanındakı yara yerinə bax. Onda görərsən dediklərim həqiqətdi, yoxsa yox. İkincisi, Şəfəqin qasığında qara xal var. Buna nə deyirsən, Hümmət. Unutma ki, bir zaman məni atan Şəfəq, sənə də xəyanət eləyəcək.

— Alçaq.

— Alçaq olsam da, həqiqəti sənə deməli idim.

Hümmət daha danışa bilmədi. Tutduğu dəstəkdən qırıq-qırıq siqnallar eşidildi. Axır ki, dəstəyi yerinə çırpdı. Tonlarla yük altında qalmış, qol-qıçları şil-küt olmuş adam kimi yatağına qayıtdı. Onu əvvəl soyuq tər bürüdü. Nəfəsi daraldı. Ürəyində küt ağrı hiss elədi. Arvadına nə deyəcəyini bilmədi. Bütün diqqəti ərinin üzünə dikilən Şəfəq ona kəsərli, daha sarsıdıcı söz deyildiyini duydu: — Gərək ayağa qalxmayaydın“, — dedi. Hümmət arvadının sözünü eşitmirdi. O, çarpayısına uzandı. Bir az keçmişdi ki, Şəfəqi yuxu apardı. Hümmət öz-özünə düşündü: — Bu düşmənçilikdi. Mənə arxadan vurulan zərbədi. Saleh hər şeyi düz danışırdısa, bəs o günü görüşə niyə gəlmədi? Əgər Şəfəq doğrudan da onun məşuqəsi olubsa, o, niyə belə yol seçirdi? Yox, bu bir tələdi. Burda qara çirkablı adamların əli var. Mən Şəfəqlə ilk dəfə izdivaca girərkən, o, bakirə qız idi. Mən neçə illər onun ardınca düşmüşəm. Onun bir oğlanla qoşa addımladığını görməmişəm. Lap tutaq ki, elədi. Bəs, yanındakı yara yerini Saleh hardan bilir? Qasığındakı qara xaldan necə xəbər tutub? Bax, müəmma burdadı. Şəfəq mənə də yalan deyib. Axı niyə? Şəfəq mənə Salehlə cani-dildən oturub-durduğunu deyə bilməzdimi? Deməli, xəyanət!!! İnanmıram!!! Şəfəq!.. Yox!.. Salehin dedikləri danılmaz faktlardı!.. Fakt!!! Fakt!!! Fakt!!!

Qonşu evlərin pəncərələrindən, həyətdə basdırılan dirəklərin başında qoyulan elektrik lampalarından axan işıq selindən otaq ala-toran idi. Çarpayısında üzüaşağı qalan Hümmətin əsəb və

hiddətdən gərilən sifətində göz yaşlarının izləri parıldayırdı. Hissiz, duyğusuz, ölgün gözləri, bihuş nəzərləri tavanda ixtiyari nöqtəyə dikilmişdi. Gedib-gələn nəfəsi hiss olunmasaydı, sinəsi aramla qalxıb enməsəydi, onu ölmüş də bilmək olardı. Hümmət gözlənilmədən başını balıncdan qaldırdı, ala-toranda çevrilib arvadının üzünə baxdı. Şəfəq şirin yuxuda idi. Zavallı gəlin hər şeydən xəbərsiz yatırdı. Gecənin vahiməsi Hümmətin içində baş qaldıran tufanla birləşərək bir azdan açılacaq səhərə var gücü ilə meydan oxumaq istəyirdi. Hümmət biləyini o yan-bu yana fırlatdı. Dəmir kimi barmaqlarını bir neçə dəfə açıb yumdu. Əlini arvadının sivri boğazına keçirmək istəyirdi ki, gəlin yanı üstə çevrildi. İndi Şəfəq Hümmətlə üz-üzə dayanmışdı. Deyəsən, üz üzdən utandı. Hümmətin barmaqları boşaldı. Elə bil o barmaqlar üç-beş dəqiqə bundan əvvəlki barmaqlar deyildi. Hümmət arvadını boğa bilmədi. Gecə də öz vahiməli oyunundan əl çəkmək istəmirdi. Hümmət nə fikirləşdisə, ehtiyatla ayağa qalxdı. Mətbəxə gedib uzun tiyəli çörək bıçağını götürdü. Sakitcə qapını açıb otağa girəndə səsdənmi, anasına qəsd olunma narahatlığındanmı Hikmət yüngülcə hıçqırdı. Ata oğlunun beşiyinə yaxınlaşdı. Körpə mışıl-mışıl yatırdı. Uşağın məsum üzü ala-toranda sezildi. Hümmət: — Bağışla məni, oğlum, başqa yolum yoxdu, — deyib üzrxahlıq elədi. Üzünü çevirib Şəfəqin üstünə atılmaq istəyirdi ki, uşaq qorxunc, vahiməli yuxu görürmüş kimi qışqırdı. Bıçaq Hümmətin əlindən düşdü. Səsə Şəfəq oyandı. Hümmət divara söykəndi və arvadı görməsin deyə bıçağı ayağı ilə çarpayının altına itələdi. Uşaq dərhal səsini kəsdi. Heç bir şeyin fərqinə varmadan yarı-yuxulu Şəfəq başını yenidən balınca qoydu. Elə bil indi Hümmətin içində iki adam vardı. Biri "Nə durmusan vur, doğra, məhv elə deyirdi bu namussuzu, bu xəyanətkarı". İkincisi "Tələsmə, səbr elə, əlini saxla!" — deyirdi ona. Hansı qüvvəsə ona ikincinin dediklərini qəbul eləmək hökmünü verdi. O, keçib yatağına uzandı. Qərar tam qətiləşmədiyindən





Hümmət ziddiyyətli burulğan içində çabalamağa başladı. Onun üçün bircə şey aydın idi ki, bundan sonra Şəfəqlə birlikdə yaşaya bilməyəcək. Onunla qurtaracaq. Ancaq necə? Qonşusu Vəli arvadı Yetərdən ayrılan kimimi? Yoxsa, səninki səndə, mənimki məndə, xoş getdin! deməlidi. Ancaq bu ayrılıqda yeganə şərt o idi ki, oğlu Hikməti dünya dağılsa belə anasına verməsin.

* * *

Bütün günü bu gecəki telefon söhbətləri, arvadının bədənindəki nam-nişanlar barədə Salehin dedikləri Hümməti heç cür rahat buraxmırdı. Bununla belə o, özünü Saleh kimi təqdim eləyən bu adamın hərəkətlərinə alçaqlıqdan, yaramazlıqdan, qeyrətsizlikdən, namussuzluqdan savayı ad verə bilmirdi. Hümmət düşünürdü, yanırdı, çaş-baş qalmışdı. Nə iş görə bilirdi, nə də dərdi-sərini açıb məsləhət alası bir adamı vardı. Bir də ki o, kimə deyə bilərdi ki, gecə yarı birisi mənə zəng çalıb sənin arvadınla oturub-durmuşam, onun bədəninin yara yerlərini, qara xalını görmüşəm, — deyir. O, öz-özünə düşündü: "Öldürümmü onu? Yox! Əlimi qana batıra bilmərəm. Cani, qatil olmaq mənim işim deyil. Heç vaxt bir toyuq başı kəsməmişəm. Evdən qovummu? Lap tutaq ki, qovdum. Bəs, oğlum Hikmət necə olsun? Uşağın günahı nədi ki, bu yaşda yetim qalsın? O, böyüyüb ərsəyə çatanda: — Anam hardadı, o, bu evdən niyə getdi? — deyə soruşanda, mən ona nə cavab verəcəm? Fikirdən lap başım çatlayır. Şəfəq, mən səni sevirdim, lap çox. İndi sənə yazığım gəlir. O bir Allah bilir ki, sənə əl qaldıra bilmirəm. Ancaq səninlə bir yastığa baş qoymağa da gücüm çatmır. Bilirəm, bu ayrılıqdan sonra sən mənə nifrət eləyəcəksən. Gizlətmirəm. Sənə olan sevgim, məhəbbətim şüşə kimi çiliklənib ayaqlarım altına töküldü. Sevgimi, məhəbbətimi, sənə olan inamımı dəfn elədim. İndi soruşuram: nifrəti kim yaratdı, Şəfəq? İndi öz-özümə də düşünə

bilmirəm. Danışmağa dilim də söz tutmur, Şəfəq! Kaş mən öləydim, axşamkı telefon söhbətlərindən xəbərsiz olaydım. Atalar yaxşı deyib: "Cidanı çuvalda gizlətmək olmaz". Bu gün Salehin dediklərini mən bilirəmsə, sabah başqaları da eşidəcək. Mənə "oğraş, namussuz, qeyrətsiz" deyəcəklər. Eşidib bilənlər arxamca söyəcəklər. Məsxərəyə qoyub güləcəklər. Mən özümdən acizlərə, sarsaqlara da lağ hədəfi olacam.

Bu fikirlər içərisində Hümmət iş yerindən çıxıb yeməkxanaya gəldi. Yekə, bığıburma cavan xidmətçi oğlan ona yaxınlaşıb dedi: — Lələ, əyləşin. Hümmət oturdu və bildirdi:

— Yeməyə nə var?

— Cücə, balıq, qaban ətindən kabab.

— Balıq, turşu.

— İçməyə?

— Araq.

Xidmətçi sifarişi yerinə yetirdi. Hümmət tək-tənha yeyib içir, başı dumanlanır, dumanlandıqca da qəlbi kövrəlirdi. Hərdənbir axşamkı telefon danışığı dumana, çənə bürünmüş halda gözlərinin qarşısına gəlir, qeyzlənirdi. Öz-özünə gah Salehin, gah da Şəfəqin qarasına: "Yaxşı", "Nə olar?" — deyirdi.

* * *

Aprel ayının ortaları idi. Günəşin zəif, ılıq şüaları həyət-bacadan çəkildikcə yerini qaralmaqda olan üfüqün kölgəsi bürüyürdü. Oğlunun qığıltıları, üzündəki təbəssümlər Şəfəqə bir dünya sevinc gətirirdi. Ana uşağını yedirib-içirib rahatlayırdı ki, dəhlizdə: — Şəfəq, Şəfəq, — deyə ərinin səsi eşidildi. Gəlin uşağı öz yerinə qoydu və: — Gəlirəm — deyib tələm-tələsik dəhlizə çıxdı. Ərinə yaxınlaşmışdı ki, Şəfəqi spirt iyi vurdu. O, Hümmətdən harda içdiyini soruşdu. "Bura gəl" — deyib özü qabaqda, arvadı da onun ardınca Qəhmərgil olan otağa keçdilər. Hümmət





keçib divanda anasının yanındaca oturdu, arvadından da əyləşməyi tələb elədi.

Qəhmər:

— Bu nədi, Hümmət? Ayıbdı, dur ayaqqabılarını, paltonu soyun, sonra gəl görək nə deyirsən?

— Sonra, — deyib Hümmət gözlənilmədən yumruğunu stola vurdu. Şəfəq də, Qəhmər də, elə Tubu da nə hadisə baş verdiyindən xəbərsiz olduqlarından mat-məəttəl qaldılar. Hər biri özlüyündə "sərxoşdu" deyə düşündülər. Hümmətin bozarmış sirsifəti, dodaqları əsirdi. Demək istədiyi bəzi sözlərin də sonunu düzgün tələffüz eləyə bilmirdi. Şəfəq keçib ərinin tələbi ilə stulda oturdu. Gözləri hədəqəsindən çıxan Hümmət qəzəblə dedi:

— Şəfəq, sən niyə mənə həqiqəti deməmisən?

— Başa düşmürəm, Hümmət.

— Hələ qız ikən Salehlə eşq-məhəbbət dastanı yazmanı!

Tubu söhbətin nədən getdiyini anladı. Üzdə büruzə verməməyə çalışsa da, telefon zəngləri ilə hədəfə düz düşdüyünü fikirləşib daxilən sevindi. Əməlindən daxili bir qürur duydu, həzz aldı. Özünü hadisədən tam xəbərsiz kimi göstərərək:

— Aa... Bu nə söhbətdi?

Məsələdən tam xəbərdar olan Qəhmər qızının sualını bir başqa şəkildə verdi.

— Bircə bu çatışmırdı?

Şəfəq ərinin gözlərinin içinə baxdı. Əsəbi və üsyankar bir tərzdə:

— Məni biabır eləmə, Hümmət! Mən elə tərbiyənin sahibi deyiləm.

— Sən məni aldatdığını boynuna al, Şəfəq. Mən səni küçədən evimə gətirmişəm.

— Sən içmisən, piyansan. Sonra bu dediklərin üçün utanacaqsan. Peşman olacaqsan. Mən sənin namusunam. Oğlunun

anasıyam.

— Saleh sənin yanındakı yara izlərini, qasığında qara xal olduğunu hardan bilir?

Şəfəqi bu andaca soyuq tər bürüdü. Nə deyəcəyini bilmədi. Dili-dodağı səyridi. Gözlərinin yaşı sel kimi axmağa başladı. Hıçqıra-hıçqıra ərinə dedi:

— Bu nə deməkdi?

— Bilmirəm. Mən də səndən soruşuram.

Tubu:

— Qardaşımı barmağına dolayan ifritə!

Qəhmər:

— A bala, belə işin vardısa, bizi niyə?..

Hümmət:

— Alçaq! Binamus! Pozğun!

Deməyə söz tapa bilməyən Şəfəq ağlaya-ağlaya dizlərini, yanlarını didişdirməyə başladı. Hümmət ayağa qalxıb Şəfəqin ağzının üstündən var gücü ilə bir sillə vurdu. Gözlənilməz zərbədən Şəfəq yıxıldı. Sir-sifəti qanla doldu. Tubu araya girdi. Hümmət yan otağa qaçdı. Çarpayının altına axşam ayağı ilə itələdiyi uzun tiyəli bıçağı götürüb tez də geri qayıtdı. Bunu görən Qəhmər qızı ilə birləşərək "Öldürmə" — deyə Hümməti qucaqladılar. Şəfəq evin ortasındaca dayanıb ərinin qızaran üzünə, hədəqədən çıxan gözlərinə baxdı. Sonra da soyuqqanlıqla: — Günahım varsa, öldür, — dedi. Hirsdən, qəzəbdən titrədiyindən ayaq üstə çətinliklə dayanan Hümmət divana toxunub büdrədi. Müvazinətini saxlaya bilməyib yıxıldı. Tubu bıçağı qardaşının əlindən aldı. Hümmət ayağa qalxdı. Qəhmərlə Tubu Hümməti itələyə-itələyə mətbəxə apardılar. Tubu qapını bağladı və dedi:

— Otur stulda. Yekə kişisən. Bıçaq nədi? İt öldürənsən? Arvadın pozğundu, boşa getsin. Nə çox şəhərdə gözəl-göyçək qız.

Qəhmər səsi gərilə-gərilə:

— Az qala evimiz yıxılacaqdı. Gedib türmədə çürüyəcəksən?





Nə var, nə var, bir əxlaqsızı... Bəyəm mənə yazığın gəlmir? Səni bundan ötrü doğub-böyütmüşdüm?

Hümmət:

— Siz o ifritəni tanımırsız.

Tubu:

— Tanıyırıq. Niyə tanımırıq? Sənə demək istəmirdik.

Hümmət bağıraraq:

— Niyə?

Qəhmər:

— Qorxurduq, qan düşə!

Hümmət:

— Mən namus üstə heç kəsə güzəştə getmərəm. Canım qədər istədiyim bu Tubuya da.

Tubu istədi qardaşına "kişiləşmə" desin, sonra nəsə düşündü:

— Bilirəm, qardaş. Bircə dəfə gözümü qaldırıb bir kişinin üzünə baxmışam? Yox! Ola da bilməz.

Hümmət:

— Baxsan, səni də doğrayaram.

Qəhmər:

— Adı təmiz, özü təmiz ailəyə it qızı ləkə gətirdi.

Tubu:

— Özünə elədi. Hümmətə nə var? Kişi xeylağıdı. Sabah ondan da yaxşısını alacaq.

Hümmət:

— Ana, get o fahişəyə de, çıxsın evdən.

— Onda söz ver ki, onunla işin olmayacaq.

— Yaxşı.

Tubu:

— Mən deyərəm, qardaş.

Tubu mətbəxdən çıxıb Şəfəqin yanına getdi:

— Dur ayağa, qəhbə. Bura sənin yerin deyil. Rədd ol!

— Gedirəm, Tubu. Unutma ki, bilirəm. Mən qardaşın kimi

başıboş deyiləm. Bunların hamısı sənin işlərindi.

— Səni boğub öldürərəm. Dilini kəsərəm.

Şəfəq ayağa qalxıb asılqandan yun jaketini götürdü. Otağına keçib beşikdən oğlunu qucağına aldı. Qapıdan çıxırdı ki, səs-küydənmi, anasının ağlamasındanmı, üz-gözündəki əsəbi ifadələrindənmi Hikmət də ağladı. Mətbəxdə uşağın səsini eşidən Hümmət dərhal ayağa qalxdı, anası onun yolunu kəsdi. Hümmət: Uşağı aparmağa qoyma, Tubu, — dedi. Bunu eşidən Tubu Şəfəqə dedi:

— Uşaq bizimdi.

— Yox! Balamı verə bilmərəm.

— Çox danışma. Onu da öldürərəm, səni də. Gələndə bu evə uşaqla gəlməmişdin. Get aşnalarınla nə qədər görüşürsən, görüş.

Şəfəq qucağında uşaq qapıdan çıxmaq istəyirdi ki, Tubu onun üstünə atıldı. Uşağı qucaqladı. Şəfəq uşağın qucağından düşüb xəsarət alacağından qorxdu və oğlunu əlindən buraxdı. Tubu uşağı birbaşa mətbəxə apardı, anasına verib tez də geri qayıtdı. Şəfəq qapı ağzında: — Balamı verin! — deyə hönkür-hönkür ağlamağa başladı. Qonşular səsi eşitsələr də, heç kəs qapını açıb çölə çıxmadı. İki saata yaxın qapı ağzında qalan Şəfəq bir də qapını döyüb uşağını istədi. Bu dəfə də o, Tubunun təhqiredici, alçaldıcı söyüşləri ilə üzləşdi. Oğlunu ala bilməyəcəyini yəqin etdiyindən hara üz tutacağını bilməsə də, pilləkənlərlə üzü aşağı süründü. Binanın çıxacağına çatıb dayandı. Geriyə baxdı. Nə eləyəcəyini anlamadan yenidən pilləkənlərlə üzü yuxarı dırmandı. Ona qapı açan olmadığından pilləkənləri necə qalxmışdısa, elə də endi.

* * *

Körpəsindən qoparılan, ciyərparası əlindən alınan ana axşamın zil qaranlığında hara üz tutacağını düşünmədən, ətrafına





baxmadan baş götürüb gedirdi. İndi ananın daxilində güclü fırtına qopmuşdu. Qəlbində böyük yarğanlar açılırdı. O, heç nə görmürdü, heç nə eşitmirdi. Dərdin dözülməzliyindən boğula-boğula şəhərin küçələri ilə harasa irəliləyirdi. Qarşıdan gələn maşınların nəhəng projektorları xatırladan gur işıqları onun üz-gözünə düşdükcə görünməsin deyə gah yolunu dəyişir, gah da dayanıb kimsəni gözləyirmiş kimi arxaya çevrilirdi. Sonra da baş götürüb gedirdi... Getdikcə də gecənin qaranlığı içində dibsiz bir uçuruma doğru yuvarlanırdı. Ona elə gəlirdi ki, hansısa güclü bir qüvvə onu arxadan uçuruma itələyir. Hələ bu azmış kimi beynində doğan qarmaqarışıq fikirlər, varlığını çulğalayan ziddiyyətli ehtiraslar onu məchul gələcəyin qaranlıq girdabına sürükləyirdi. Ana yanırdı, ana çatlayırdı. O, dəhşətli sarsıntılar içərisində özü də hiss eləmədən çıraqbanlı şəhərdən çıxdı. Ətrafına baxdı. Heç nə başa düşmədi. Qaranlıqda tənha söyüd, yulğun, çərəyən, saqqızağac, qarağat və kol topalarının yanından ötüb keçərkən azçox duyduğu, hiss elədiyi, üz-gözünü yalayan zəif yel, sağ tərəfdə magistral yolla hərəkət eləyən, şütüyən böyüklü-kiçikli maşınların gurultusu, solda isə lap uzaqlarda dayanıb həsrətlə boylanan qocaman Kəpəzin başı üzərində qərar tutan təpələrin qəmli, kədərli siluetləri idi. Bunlar da onun şüurunda qəribə, əlavə xaotik fikirlər, ruhuna hakim kəsilən cansıxıcı, məşum və ələmli duyğular oyadırdı. Gecənin zülmətində, insan hənirtisindən uzaq bir məkanda zülm və istibdad ağuşuna atılan, orda çırtıq-çırtıq yanan, ilan kimi qıvrılan on səkkiz yaşlı qadının halı özündə deyildi. Hümmətlə olan sevgi çağları, ailə qurması, burada keçən əzab-əziyyətli həyatı düşündükcə Şəfəqə ağır bir dərd gətirirdi. Təəssüf və peşmançılıq hissi onu boğur, didir, parçalayırdı. O, beynində səpələnən həlqələri ümidsiz halda birləşdirməyə, sistemə salmağa çalışsa da, balasını əldə eləyə bilməyəcəyini düşünür və dəhşətə gəlirdi. Əlacsız qalıb Tubu ilə münasibətlərini qura bilmədiyinə görə gah özünü məzəmmətləyir,

tənbehləyir, gah da hiddətindən özünü boğmaq, intihar etmək istəyirdi. Hər dəfə fikirləşəndə ki, Tubu uşağa xətər yetirə bilər, Qəhmər uşağa baxmaz, körpəsi ac-susuz qalar, soyuqlayar, sətəlcəmləyər, tələf olar, az qala ağlını itirirdi, aləm sanki başına dolanırdı.

Şəfəq dayandı. Yerindəcə geriyə döndü. Çilçıraqlı şəhərdən xeyli uzaqlaşdığını duydu. O, düşünmədən istiqamətini dəyişdi. Bir az getmişdi ki, cığıra düşdü. Qaranlıqda gözləri ayaqlarının altını görmürdü. Addımlarını hara gəldi, necə gəldi atırdı. Bir neçə gün əvvəl yağdığından cığır sürüşkən, kiçik gölməçələr sulu idi. Şəfəq tez-tez sürüşür, ayaqları gölməçələrə düşürdü. Hər dəfə də onun köhnə, cındır, böyrü deşilmiş ayaqqabıları su ilə dolurdu. Yeriyəndə ayaqqabılarının içərisindəki su, çirkab yuxarı sıçrayır, zavallı qadının üst-başını isladırdı. Vaxt keçdikcə Şəfəqin hissiyyatı sanki donurdu. Soyuğu, şaxtanı hiss eləmədən, yorulmaq bilmədən gedirdi. Yenə dayandı. Yenə ətrafına baxdı. Əvvəl ona elə gəldi ki, özü də bilmədən, hansısa xarabalıqlardan birinə gəlib çıxmışdı. Şəfəq bir anlığa əyildi. Özünü əhatə eləyən qaraltılara diqqətlə baxdı. Bunların qəbir və başdaşı olduqlarını görcək dəhşətə gəldi. Ömrü-boyu qəbiristanlıqda bircə dəfə olmayan, qəbiristanı təsəvvürünə gətirəndə belə həyəcanlanan Şəfəqin bir an içindəcə bədəni uçundu. Tükləri biz-biz durdu. Qışqırmağa səsi çıxmadı. Qaçmağa ayaqları sözünə baxmadı. Ağlamağı bacarmadı. Zavallı Şəfəq dizləri üstə çökdü. Ürəyi qısıldı. Sonra da üzüqoyulu yıxıldı. Haçandan-haçana özünə gəldi. Soyuqdanmı, bədəninin islanmasındanmı, qorxudanmı tir-tir əsirdi. Buna baxmayaraq, getdikcə Şəfəqin canındakı qorxu hissi əriyirdi. O, düşdüyü vəziyyətə uyuşurdu. Şəfəqə elə gəldi ki, bu gecə qəbirlər arasında donacaq. O, qəbiristanlıqdan çıxmaq istədi. Ancaq nə qədər çalışdısa, hansı yana, hansı səmtə getdisə, bu, mümkün olmadı. Əlacı kəsilib dayandı. Yenə öz-özünə düşündü: “Başım elə bil xarab oldu. Gecə vaxtı gedib itqurdla, bir namərdlə qarşılaşmaqdansa, səhər açılıncayadək burda qalsam yaxşıdı“.





Bu aprel gecəsində zəif əsən külək getdikcə şiddətləndi. Göyün üzündəki seyrək, ala-tala buludları qovmağa başladı. Buludlar axışıb Cənub-Qərbə doğru uçuşurdu. Ay hərdənbir buludların arasından çıxır, xəcalətindən yana-yana, utana-utana sayrışan ulduzlarla birlikdə qəbiristana tərəf boylanırdı. Məlik-müşkül dayanıb, sakit-sakit göz yaşları axıdan Şəfəqə tamaşa eləyir, bu hadisənin nə ilə qurtaracağını sanki onlar da həsrət və intizarla gözləyirdilər. Qadına elə gəlirdi ki, bu pak, bu ülvi, hüznlü göylər şamı da, göz qırpmadan alışıb yanan ulduzlar da, heyrət doğuran gecə də, hissləri donduran vahiməli qəbiristanlıq da indi tək-tənha qıvrılan Şəfəqə baxıb təskinlik verirdilər. Şəfəq isə özündə deyildi. Nə itirdiyi xoşbəxtliyi, nə isti yuvası, nə də gələcək taleyi barədə düşünürdü. Onun yeganə istəyi məcburən əlindən alınan doğmaca ciyərparası, körpəsi idi... O, getdikcə inanırdı ki, doğma balasının taleyi də özününkü kimi qaragünlüdü. Hikmət də ana nəvazişinə, ana hənirtisinə birdəfəlik həsrət qalacaq.

Gecə-gecədən keçdikcə hava soyuyur, əsən külək əyniyalın Şəfəqi az qala qılınc kimi kəsirdi. Soyuqdan qorunmaq üçün o, yaxınlıqdakı qəbir daşının arxasına keçdi. Kürəyini baş daşına çevirdi. Soyuq Şəfəqin iliklərinə işləyirdi. O, nə eləyəcəyini düşünə bilmirdi. Şiddətlə əsən küləyin qəbirstanlıqda yaratdığı uğultusunu, qurumuş çərəyən topalarının, şah tikanların arasında yuvalarından çıxan siçanların, siçovulların, dovşanların öz yerlərini dəyişərkən arabir çıxardıqları səslərini, tülkülərin vaqqıltısını, bir qədər uzaqda çaqqalların ulaşmasını eşitdikcə Şəfəq sanki ölüb yenidən dirilirdi. Bunlar azmış kimi, bu zavallı öz-özünə beynində dözülməz şeylər, qorxunc hadisələr uydururdu. “Şeytanlar, cinlər, qulyabanilər indi gələr, bir saatdan gələr”, — deyə düşünürdü. Düşündükcə də özünü təsəvvürolunmaz dərəcə-

də ağır yüklərin altına salırdı. Sonra da vəziyyətdən çıxmaq üçün yollar axtarırdı. Çaşdığındanmı, başını itirdiyindənmi axtardığını da tapa bilmirdi. Ürəyinin aramsız guppultusu qulaqlarında eşidilirdi. Getdikcə ona elə gəlirdi ki, dəli olmağa başlayır. O, bütün gücünü topladı və öz-özünə dedi: "Yox, mən düz fikirləşmirəm. Qəbiristanlıq da insan məskənidi. Babam həmişə deyərdi: "Azdın, çətinliyə düşdün, özünə nəzarəti gücləndir. Dünyada hər şey insandan qorxur. Qorxdunsa, işləri korlayacaqsan". Səhərin açılmasını gözləmək üçün burdan münasib yer yoxdu". Elə bu vaxt ay buludların arasından çıxıb Şəfəqin üzünə gülümsədi. Qadın ətrafına baxdı. Özündən azacıq aralı ay işığında iki qəbrin arasında bir çökək gördü. O, küləkdən qorunmaq üçün bu çökəyə girdi. Külək tutmadığından bura nisbətən isti idi. Şəfəq arxası üstə uzandı. Başının üzərindəki göy qübbəsinə baxdı. Göyü o heç vaxt belə görməmişdi. Anaya elə gəlirdi ki, indi göy də, yer də onun dərdinə şərik olub qan ağlayır. Şəfəq göz yaşları içərisində xeyli düşündü: "Mən neyləyəcəm? Körpə balamı Qəhmərə, Tubuya verib hara gedə bilərəm? Görəm, sabah balamı ala biləcəmmi? Lap tutaq ki, aldım, onu hara aparacam? Gecələməyə yerim varmı? Yox! Tutalım ki, var onu kimə ümid olub, etibar eləyib işləməliyəm? Mənim üçün də, sənin üçün də çətin olacaq, mənim balam! Kaş mən öləydim! Ananın varlığı, yaşaması sənə qara ləkə olacaq! Ömrün boyu səni utandıracaq! Sənə xəcalət gətirəcək! Bilirəm! Böyüyəcəksən! Böyük kişi olacaqsan. Onda sənə mənim barəmdə çox söz deyəcəklər: əxlaqsız, məişət pozğunu, küçə qadını. Eh, nə bilim, nələr, nələr! Susacaqsan! Özlüyündə məni günahkar sanacaqsan! Mənə nifrət eləyəcəksən! İstəyirəm nə vaxtsa, biləsən, sənin anan heç vaxt qeyrətsiz olmayıb. Barəmdə deyilənlər yalan, iftira və böhtandır! Mən ömrüm boyu sənin təmiz adınla, ləyaqətinlə, şərəfinlə yaşayacam. Namusunu qoruyacam! Səni alçaldıcı, təhqireləyici hərəkətlərə yol verməzəm, oğul! Səni mənə verməsələr, üzünə,





baxışına, gülüşünə, nəfəsinə həsrət qalacam! Yanacam! Yaxılacam! Səni axtaracam, səni arayacam, hissinlə, duyğunla, xəyalınla yaşayacam"!

Aclıq, soyuq, əsəb, yorğunluq əldən saldığından Şəfəq çökəyə atılan daş kimi qaldı. Birdən hansısa ilğım onu yaxaladı. Bayıldı. Baş tərəfdən qapı açıldı. Çökək gur ağ işıqla doldu. Şəfəqin gözləri qamaşdı. Çox çəkmədi ki, gözləri işığa uyuşdu. Elə bu dəm o, sol və sağ tərəfində başı üzərində mələklər əyləşdiyini hiss elədi. Əvvəl sarsıldı. Bu, ona çox dəhşətli və əzablı göründü. Ona elə gəldi ki, ya huşu başından çıxıb dəli olur, ya da gəliblər ki, onu yaşadığı dünyanın əzab-iztirablarından birdəfəlik qurtarsınlar. Hər iki halın vahiməli təsirindən Şəfəq bir anlığa gözlərini yumdu. Çox çəkmədi ki, özünə gəldi. Gözlərini açanda onu təəccüb bürüdü. İndi o, bayaq başının üzərində dayanan mələklərlə üz-üzə durmuşdu. Özünü gözəlliyi təsəvvür olunmayan ecazkar, cazibəli, füsunkar bir məkanda duydu. O, böyük lütfkarlıqla nəzakət, ədəb-ərkan, təvazökarlıq göstərdi. Gözəllikləri heç bir ölçüyə gəlməyən bu mələklər gülərüzlü, xoş bənizli, müşk ətirli idilər. Sözlə ifadə eləmək mümkün deyildi. Onlar heç nə ilə, heç kimlə müqayisə olunmazdılar. Nə oxşarlıq, bənzərlik, nə də fərqlər onların gözəlliklərinə zərrə qədər təsir eləyirdi. İlahi gözəllik özü də hiss eləmədən Şəfəqi hayıl-mayıl eləmişdi. Şəfəq gah bu, gah da o biri mələyin gözlərinə baxdı. Dərhal anladı ki, bunlar onun yanına xoş niyyətlə gəliblər və onun gözlərini açmaq fikrindədilər. Bundan Şəfəq də çox məmnun oldu. Ürəyi atlandı. Sol tərəfində dayanan mələk Şəfəqə dedi:

— Əyləş. Biz sənin rəfiqələrinik. Sənə kömək üçün gəlmişik.

— Siz böyük Yaradanın mənə bəxş elədiyi mərhəmətsiniz.

Birinci rəfiqə:

— Özünü necə hiss eləyirsən?

Şəfəq:

— Şükürlər olsun Rəbbimə!

İkinci rəfiqə:

— Danışığa, ülfətə hazırsanmı?

Şəfəq böyük xoşhallıq və məmnunluqla:

— Hökm sizindi.

Birinci rəfiqə:

— Biz hökm eləyən deyilik. Hökm verən mərhəmətli və rəhmdil Allahdır. Özünü ələ al. Daha səhv eləməyə ixtiyarın yoxdur.

Şəfəq özü də bilmədən "təzə gəlin tək" sıxıntı və utancaqlıq hissi keçirdi. Sonra başı ilə deyilənləri təsdiqləmək istəyirdi ki, ikinci rəfiqə buyurdu:

— Baş düşünmək, saf-çürük eləmək, dil isə qəlb ilə idrakda hasil olunanları bəyan üçündür. Düşündüklərini dillə israr və iqrar elə. Tanrımız səni insaf və qəlb əqidəli yaratmışdı.

Şəfəq:

— Axı mən sizi heç vaxt görməmişəm. Siz məni hardan tanıyırsız?

Birinci rəfiqə:

— Sən ölmüsən.

— Nə? Bu ola bilməz.

— Şəkk gətirmə. Günah eləyirsən. Elə isə məni dinlə.

Birinci rəfiqə ikincini göstərərək:

— Sən indi onun məskənindəsən. O, böyük Yaradanın mərhəməti ilə fani dünyanın seyrinə dalmaq üçün getmişdi. O, qayıdanda səni öz mənzilində görüb. Onun sənə yazığı gəlib. Səni məskənində hörmətli qonaq sanıb. Onun üçün də məni bura dəvət eləyib. Deyə bilərsən, bəs sən kimsən? Mən sənin mənəvi güc və istedadınam. Ürək beşiyində insanlara bəslədiyin inamın, saf əqidən və xoş əməllərinəm... Allaha olan eşq və məhəbbətindən doğulmuşam. Biz səni yaşadığın dünyaya qaytaracağıq. Unutma ki, maddi və fani dünyada yaşayanların gözlərinin nuru





çox azdı. Haqq dünyasına gələnlərin görmə qabiliyyəti dəqiq və kəsərlidir. Ondan zərrələr belə yayına bilməz... İndi müvəqqəti düşdüyün bu mənəvi aləm yaşadığın fani dünyadakı davranış və rəftarına ayna tutandır. Fani dünyada hər nə düşünmüsənsə, nə törətmisənsə, yaxşı, ya pis, fərqi yoxdu, bu aynada əks olunur. Hazırkı məqamda tam ayıq-sayıqsan. Özünə də, bizə də aşkarsan. Xoşbəxt və səadətlisən.

Aram-aram, sözündə qətilik və kəsərlilik zühur eləyən birinci rəfiqə söhbətinə ara verdi. O andaca ikinci rəfiqə — məskən sahibi dilləndi:

— Sən bizim əziz-xələf qonağımızsan. Böyük əzab və əziyyətlə od-alov içindən keçərək bu aləmə təşrif buyurmusan. Allahın izni ilə bu aləmlə səni tanış eləməliyik. Vaxt keçir. Ayağa qalx.

Şəfəq elə bil yorulub əldən düşən, əsəbləri gərilən bayaqkı adam deyildi. O, indi tamam başqa qiyafədə görünürdü. Üz-gözündə bayaqkı kəsafətlərdən əsər-əlamət yox idi. Qəlbi kin-küdurətdən təmizlənmişdi. Sifətindən nur, gözlərindən qeyri-adi şəfəq yağırdı. Bütün vücudu paklaşmışdı. Şəfəqi yenə qorxu, təşviş, nigarançılıq hissi bürüdü. Bunu duyan rəfiqələri gülümsündülər. Birinci rəfiqə irəli çıxdı. Şəfəqin boynundan bir boyunbağı asdı. Şəfəq nura qərq oldu və dərhal da rəfiqələrindən fəhmlə soruşdu:

— Bu nədi?

Birinci rəfiqə:

— Əməl çələngi.

İkinci rəfiqə:

— Yaxşı və pis əməllərin üçün cavabdehsən.

Şəfəq:

— Təkcə mən?

Birinci rəfiqə:

— Hər kəsin kasası öz başında sındırılır.

İkinci rəfiqə:

— Tanış olacağın bu əbədi ruhlar aləminin iki məskəni var. Onların hər biri Allahın hökmü ilə yaranmışdır. Onun əqidə və iradəsinə tabedi. Mənzillərdəki qayda-qanunlar qətidi. Orada hər şey insana özü-özündən məlum olur. Bu aləmdə sorğu-sual nadanlıq nişanəsidi. Əqli kasadlıqdı. Sən burada qonaqsan. Bir azdan geri qayıdacaqsan. Hələ sən kəsirlisən. Ona görə də çox şeydən xəbərsiz olacaqsan. Bu səbəbdən sorğu-sual böyük Yaradanın mərhəməti ilə sənə qəbahət sayılmır. İstədiyini seçib öyrənə bilərsən. Yaşadığın, ömür-gün sürdüyün fani dünyadan fərqli olaraq, əbədi aləmdə ziddiyyət və düşmənçilik, paxıllıq, lovğalıq və həsəddən söhbət gedə bilməz... Gedək, əbədi ruhlar məskəni — cəhənnəm və cənnətlə səni tanış eləyək...

"Cəhənnəm", "Cənnət" sözlərini eşitcək Şəfəq bir anlığa özünü itirdi.

Birinci rəfiqə Şəfəqin solunda, ikinci isə sağında nurlu çöhrələrlə, əzəmət və izzətlə əbədi ruhlar aləminə üz tutmalı oldular. İlk baxış cəhənnəmdən başladı. Ucsuz-bucaqsız səhrada hisli-paslı nəhəng qala divarları. Görünüşü əjdaha ağzını xatırladan bir darvaza. Boyunlarına ağ kəfən keçirmiş adamlar bədbin, küskün, sarsıntılı görkəmdə bu qapıya yaxınlaşırlar. Qapı adamları sovurub özünə çəkir, qala divarlarının arasına — içəri atırdı. Bütün bunları qorxu və təlaş içərisində müşahidə eləyən Şəfəq qışqırmaq, dalın-dalın geri çəkilmək, — Məni ora atmayın, mənə yazığınız gəlsin", — demək istədi. Birinci rəfiqə gülümsündü. İkincisi: — Biz o qapıya yaxınlaşmayacağıq, narahat olma", — dedi. Şəfəq onun sözünə inandı. Bir an içərisində sakitlik, rahatlıq qəlbinə hakim kəsildi. İkinci rəfiqə Şəfəqə: — Gözlərini yum və tez də aç, — dedi. O, deyilənə əməl eləmək məcburiyyətində qaldı. Gözlərini yumdu, açarkən rəfiqələri ilə birlikdə özünü səmanın ənginliklərində gördü. Onu heyrət bürüdü. Şəfəq üçün hər şey möcüzə idi. Onlar səmada istədikləri səmtə uça bilirdilər...





Rəfiqələr uçub elə bir ənginliyə qalxdılar ki, qala divarlarının içərisi apaydın görünürdü. Qapının sovurub içəri atdığı adamlar bir-birilərinin üstünə qalaq-qalaq tökülür, handan-hana müvazinətlərini güc-bəla ilə düzəldirdilər. Sonra onların hər birinin qarşısında qəbahətlərinə, günahlarına uyğun yollar açılırdı. Hər kəs ətrafına baxmadan öz yolu ilə gedirdi. Hər kəs öz yolunu görürdü. Digər açılan yollardan tam xəbərsiz idilər. İstəsəydilər də başqa yola baxa, ondan xəbər tuta bilməzdilər. Hər atılan addımdan sonra geriyə qayıtmaq yolu bağlanırdı. Yollar cürbəcür, yollar min-min. Bunların hər biri Şəfəqə görə bir möcüzə, sirli-sehirli bir aləm idi. Qala divarları arasından hisli-paslı, tutqun hava, isti, qara tüstü layları səmaya doğru uçuşurdu. Yerdə hər növ ilanlar, əqrəblər, əcaib qurdlar, həşəratlar, milçəklər qaynaşırdı. Ölü leşlərə, onlara daraşan qurdlara, insan sümüklərinə baxmaq olmurdu. Qorxu, təlaş törədən qarma-qarışıq səslər, küləklərin əsəbləri korlayan vıyıltısı, heyrət doğuran xırıltılar insanı dəli olmaq dərəcəsinə gətirirdi. Üfunət qoxusu adamı dəhşətə salırdı. Şəfəqə yavaş-yavaş hər şey aydınlaşırdı. Rəfiqələri ona möhkəm olmağı, hər şeyi dəqiqliklə yadda saxlamağı tapşırırdılar. İnsafən, Şəfəq də bütün gücünü toplayır, baş verənləri yaddaşında saxlamağa çalışırdı. Baxış dərinləşdikcə vəziyyət gərginləşir, daha əzablı, iztirabverici hadisələrin şahidi olurdu. Tətbiq olunan cəzalar Şəfəqin əsəblərini gərginləşdirirdi. Nəfəsi sinəsində boğulur, bayıra çıxmaq istəmədiyindən təntidirdi, öskürdürdü onu.

Adamlar tikanlı yollarla dayanmadan ayaqyalın irəliləyirdilər. Batalqa göz qırpımındaca onları udurdu. Şəfəq soruşdu:

— Batalqa adamları niyə udur?

— Onlar maddi, fani dünyada şəhvət hissini boğa bilməyənlərdi. Arvadlarına xəyanət eləyən kişilər, ərlərinə xəyanət eləyən arvadlardı. Cəzalarını alırlar. Tubunun da aqibəti belə olacaq.

Yollar adamları od kürəsinə yaxınlaşdırırdı. Çatar-çatmaz kürə adamları özünə çəkir, yaşıl alov qalxıb onları bürüyürdü. Qışqırıq, bağırtı səsləri göylərə qalxır, yananların ətləri bir göz qırpımında sümükdən ayrılır, bədənlərinin yağı od kürəsinin üstünə tökülür, alovu şiddətləndirirdi. Adamlar yana-yana, cızdağı çıxa-çıxa Allahdan imdad istəyirdilər.

Şəfəq:

— Bəs bu yananlar kimlərdi?

İkinci rəfiqə:

— Böhtançılar, iftiraçılar, canilər, qatillər.

— Aman, Allah.

— Yananların içində sənin atan da var, Şəfəq.

— Nə?

— Hə... Ona yazığın gəlməsin. Hər kəs öz əməlinə mübtəladı, öz cəzasını çəkir. Bu, fani dünya deyil ki, ədalət mizan-tərəzisi əyilsin. Burda hər şeyin meyarı Allahın nəzərindədi. Çünki atan da qatildi. Ananı da o, belə yandırıb. Allahın verdiyi canı kimsə ala bilməz. Tələsmə, Qəhmər də cəzasını burda beləcə çəkəcək.

— Mənə pislik eləyənləri bağışlayıram. Təki oğlumu mənə qaytarsınlar.

Birinci rəfiqə:

— Sən bağışlasan da, Allah onları bağışlamaz.

Şəfəq burula-burula qalxan tüstü laylarının arasından aşağı baxdı. Bu dəfə adamlar nəhəng dəzgahlara aramsız yan alırdılar. Dəzgahlar onları doğrayır, əzirdi. Arxa tərəfdən insan bədənləri yoğrulub kolbasa şəklində çölə tullanırdı. Arıq, böyrü-böyründən keçən tazılara yem olurdular. Şəfəq bunu görcək soruşdu:

— Bunlar kimdi?

İkinci rəfiqə:

— Oğrular, dələduzlar, başqalarının varidatına göz dikənlər.

Şəfəq bir də aşağı baxdı. Başqa bir yolla gələnlər meymunlaşır, it kimi hürürdülər. Şəfəq yenə soruşdu:





— Bəs bunlar kimdi?

İkinci rəfiqə:

— Allahını dananlar, asilər, haqqı batil eləyənlər.

Bax, beləcə, Şəfəq qarşısında açılan yolları bircə-bircə diqqətdən keçirtdi. Dərindən ah çəkdi. Sonra yenə soruşdu:

— Fani dünyada belə nadanlarla möminləri necə ayırmaq olar?

Birinci rəfiqə:

— Çox asan. Adam öləndən yeddi gün sonra qəbiristana gəlib mərhumun baş daşı basdırılan torpaqdan bir ovuc götür. Qoxla. Ondan kəskin üfunət gəlirsə, deməli, o şəxs nalayiq əməllərinin qurbanıdı. Allahın qəzəbinə düçar olub, bax, bu məskəndə cəzasını çəkir. Yox, əgər torpaq öz ətrindədirsə, deməli, mərhum Allahın mərhəmət və inayətindədi. Ruhu sakitdi... Sən də burda gördüklərini unutma. Bir zaman sənə də gərək olacaq... İndi isə bir anlığa gözlərini yum. Əbədi dünyanın “Cənnət” adlı məskəninə gedək.

Şəfəq gözlərini yumub açdı. Göz qırpımında tükürpədici, vahimə doğuran bir aləmdən yeni, ruh oxşayan, qəlb ovsunlayan, qüdrətdən doğan sirli-soraqlı yeni bir möcüzələr dünyasına atıldı. Gördükləri Şəfəqdə hədsiz xoşhallıq, böyük sevinc, fəxranəlik yaratdı. O, dönüb həm solunda, həm də sağında dayanan mələklərin üzünə baxdı. İlahi nurdan heyrətlənən gözləri böyüdü. Onlar başı göylər dələn əzəmətli bir qalanın nəhəng qapıları önündə dayandılar. Qala divarları qızıl kərpiclərlə heyrətamiz təsir bağışlayan məharət və cazibadarlıqla hörülmüşdü. Bu hörgü insan zəkasının, insan ağlının məhsulu ola bilməzdi. Şəfəq şübhə eləmirdi ki, onun yaradıcısı böyük qüdrət sahibi ulu Tanrıdı. Kərpiclər hər an bir rəngə çalırdı. Bu rəng çalarlarının içərisində mavilik üstünlük təşkil eləyirdi. Ağ paltarlı adamlar mavi rəngə çalan nəhəng qapıya yaxınlaşanda o, öz-özünə açılır,

adamlar içəri keçir, sonra da qapı necə açılmışdısa, eləcə də bağlanırdı. Oradan geriyə qayıdanlar olmurdu. Rəfiqələr qapıya yaxınlaşdılar. Qapı açıldı, onlar Şəfəqi də özləri ilə içəri keçirtdilər. Gözəllikdən heyrətlənən Şəfəq dedi: — Aman Allah! Biz hara gəlmişik?! Belə də gözəlik olarmı?! Bunu ancaq ulu Tanrı yarada bilər.

Qalanın içərisində hamı — kişilər də, qadınlar da, qocalar da, cavanlar da, uşaqlar da tərtəmiz, təptəzə ağ paltarda idi. Adamların üzlərində sevinc, təbəssüm duyulmasa da, heç kim dinmirdi, danışmırdı. Qalada dərin bir sükut hökm sürürdü. Qala sakinləri müsahiblərinin üzlərinə baxmaqla bir-birilərini başa düşürdülər. Sakinlərin bəzilərini elə bil Şəfəq də görmüşdü, tanıyırdı. Ancaq harda, haçan, yadına sala bilmirdi. Fəhmlə "Bura sənin yerin deyil, geri qayıt", — deyirdilər. Şəfəq ətrafına göz gəzdirdi. Öz-özünə düşündü: — "Bura möcüzələr aləmidir ki?" Elə bu anda birinci rəfiqə:

— Gedək, bu məskənin də sirlərini sənə açaq.

Şəfəq rəfiqələri ilə yanaşı addımladı. Səliqə-sahmanlı meyvə bağları, tanıdığı və tanımadığı ağacların budaqlarından al-əlvan çiçəklər, bir də kal və yetişməmiş meyvələr görünürdü. Bağın qurtaracağında yol uzanıb uca minarələri göylər dələn qeyri-adi görkəmli, Allahın hökmü ilə yaranmış tikililərə tərəf gedirdi. Onlar gəlib binalardan bir qədər aralı dayandılar. Qızıl kərpicli binaların divarları ağ işıq saçırdı. Divarlarda sanki göy qübbəsi yerləşmişdi. Bir tərəfdə parlaq günəş, onun ardınca da bədirlənmiş ay binanın həndəvərində dövrə vururdu. Böyüklü-kiçikli ulduzlar günəşlə ayın ətrafında sayrışır, yanır, sönür, bərq vururdu. Ulduzların parıltısı qızıl kərpiclərin ağ şüalarına qarışır, divarlara böyük Yaradanın, ulu Tanrının şücaətindən kəlamlar yazılırdı: Allah yerin, göyün, bütün yaranmışların yaradıcısıdı... Adildi... Alidi... Təkdi... Vahiddi... Qadirdi... Əbədidi... Uludu... Şəfqətlidi... Mərhəmətlidi... Törəməyib... Törədicisi yoxdu...





Allahdan başqa Allah yoxdu... Heç kəs onun bərabərində ola bilməz... Quranda nə varsa, hamısı haqdı. Allahın, yalnız Allahın kəlamıdı... Mən gizli dəfinə idim, istədim ki, dərk olunam və varlıqları yaratdım ki, məni dərk eləsinlər...

Şəfəq öz-özünə düşündü: — Bu ki, "Qurani-Kərim"in "Eyzariyyat" surəsinin əlli altıncı ayəsidir ki.

İkinci rəfiqə onun üzünə baxdı və fəhmlə dedi:

— Bunların hamısı "Qurani-Kərim"in uyğun surə və ayələrində var.

Şəfəq:

— Şükür sənə, İlahi! Sənin böyük qüdrətinə inanmayan kafirdi.

Bu anda göylər dələn minarələrdən azan səsləri eşidildi. Bu heyrətamiz səslər Şəfəqin ruhuna süzüldükcə sanki damarlarında qanı donurdu...

Vaxt keçirdi. Geri qayıtmalı idilər. Şəfəqə elə gəldi ki, qayıdarkən onlar yolu dəyişdilər. Bir tərəfdə bol məhsullu dirrik, o biri tərəfdə bostan görünürdü. Gəlib möhtəşəm qala divarlarının əzəmətli qapıları önündə dayandılar. Ulu Tanrının göndərdiyi mələklər Şəfəqin üzünə böyük səmimiyyət və mehribanlıqla baxdılar. Sonra birinci rəfiqə:

— Buranın təbiəti həmişə bax belə olur, gördüyün kimi, nə külək, nə yağış, nə qar, nə isti, nə də soyuq. Burada həmişə eynidir təbiət. Buranın sakinləri ulu Tanrının əzizləridi. Şəfqət və mərhəmət hissi ilə əhatə olunan bu əzizlər gündüzlər də, gecələr də bu qala divarları arasında, əsrarəngiz gözəlliklər aləmində gəzir, səma rəngli qranit daşlara bənzər yumşaq oturacaqlarda iki-bir, üç-bir əyləşib dincəlirlər. "Qurani-Kərim"i öyrənirlər. Ulu Tanrının hökmü ilə yaranan qızıl vazalarda qoyulmuş meyvələrin ətri şamamaların, qovunların ətrinə qarışır. Bu qala sakinlərini qidalandırır. Ziyarət elədiyin uca minarəli binalarda Allaha ibadət eləyirlər.

Şəfəq mələklərin üzlərinə baxaraq:

— Cənnət necə də gözəldir?! — dedi.

İkinci rəfiqə:

— Hə, gözəldi. Anan da burdadı. Uzaqda dayanıb böyük fəxrlə sənə baxır.

— Nə?

— Hə... Tələsmə, vaxt gələndə görüşəcəksiz.

Birinci rəfiqə üzünü Şəfəqə tutaraq:

— Hələ ki icazəsi yoxdu. Ona görə də sənə yaxınlaşmır.

Şəfəq:

— Sizə qurban olum, anama...

İkinci rəfiqə:

— Günah işlətmə. İcazə verilmir. İndi sən öz dünyandan müvəqqəti qoparılmısan. Geri dönməlisən. Hələ ki, sənin də öz dünyan var. Vaxt gələndə səni də bura dəvət eləyəcəklər. Onda ananla da görüşəcəksən. Kal meyvələr dərilməz. Get, əməl işlədərkən Allahının başının üzərində olduğunu unutma. Paxıllıqdan, həsəddən, təkəbbürdən uzaq ol. Heç kəsə iftira, böhtan atma. Vicdanının səsinə qulaq as. Ləyaqətini, şərəfini, namusunu qoru. Bacardıqca yaranmışlara qayğı göstər. Qeybətdən, kimsəyə pislikdən uzaq ol. Nəfsini boğ. Ehtiyaclıya köməyini əsirgəmə. Mərhəmətli ol. Sənə pislik eləyənə çalış yaxşılıq elə. Bir müddət əzablı, iztirablı günlərini yaşayacaqsan. Tələsmə, oğlunla da birləşəcəksən.

Birinci rəfiqə:

— İndi qala qapısından çıx. Sonra gözlərini yum, aç. Öz dünyanda olacaqsan.

Şəfəq ulu Tanrının göndərdiyi mələklərlə xudahafizləşib qala qapısından çıxdı. Gözlərini yumub açdı. Özünü axşamdan uzandığı çökəkdə gördü. Ayağa qalxmaq istədi. Bu dəm onu dəhşət bürüdü. Başının üstündə xallı bir ilan dayanıb dil çala-çala, iti oynaq gözlərini oynada-oynada ona baxırdı. Bunu görcək





Şəfəq qorxub qışqırmaq istədi. Ancaq səsi çıxmadı. Əlacsız qalıb bir də gözlərini yumdu. Haçandan-haçana bədəni titrəyə-titrəyə gözlərini açdı. Başının üzərində dayanıb ona tamaşa eləyən ilan qeyb olmuşdu... Şəfəq çökəkdən hövlnak qalxdı. Gecələdiyi çökəyin köhnə, çökmüş qəbir olduğunu görcək heyrətləndi. Səhər üfüqdən çırtlayan yaz günəşi bu gecəki hadisənin xəcalətindən yerindəcə donub qalmışdı. İşıq saçmağa cəsarət eləmirdi.

* * *

Anasının qucağından alınan körpə ara vermədən ağlayır, anasına olan haqsızlığa qarşı sanki üsyan eləyirdi. Qardaşı oğlunu Tubu bir neçə dəfə atıb-tutdu, sonra da Qəhmərə ötürdü. Nənə nəvəsini qucağında yırğaladı və tez-tez: — Ağlama, can bala, anan ləyaqətsiz, əxlaqsız çıxdı, — deyə, dönə-dönə təkrarlamağa başladı. Bir an belə dincəlməyən uşağı atası Qəhmərdən aldı. Körpə səsini daha da qaldırdı. Qəhmər nəvəsi üçün yemək hazırladı. Uşaq yeməkdən də üz döndərdi. Tubu: — Körpə ağlamaqdan ölə bilər“, — dedi. Hümmətə elə gəldi ki, Şəfəqlə Tubu arasında gedən əlbəyaxa çəkişmədə uşağa xətər dəyib. Ona görə də Hikmət səsini kəsmir, dincəlmir. Hümmət üzünü bacısına tutaraq:

— Bəlkə, uşağı Şəfəqdən alanda sıxmacalamısan? Nə oldu, anası olanda ağlamadı, indi ağlayır?

— Hə, bircə bu qalmışdı. Bunda deyirlər də: — “Ölünü qoy, dirini ağla”.

Qəhmər çaşqın halda:

— Tubu, gəl bir az da sən...

— Əşi, o yana elə. Başına bir iş gəlsə, mən cavab verməli olacam. Uşaq saxlamaq istəsəydim, doğardım da.

Hümmət bacısına cavab verməsə də, duydu ki, Tubu onun uşağına heç vaxt baxmayacaq. Anasının da uşaq saxlamaq üçün

nə fiziki, nə mənəvi gücü var, nə də həvəsi. Deməli, Şəfəq yoxdusa, uşağa özü baxmalı olacaq. Bu, mümkündürmü? Əsla yox. Əvvəla, uşaq çox körpədi. Hümmətin isə belə bir təcrübəsi yoxdu. İkincisi, Tubu da işləmir. Anası çox az təqaüd alır. Özü işləməsə, qazanmasa, ailəni çörəklə təmin eləyə bilməyəcək. Şəfəqin bu evdən getməsi ilk çətinlikləri yaratdı. Neyləməli, günü sabahdan Hikməti uşaq evinə verməlimi? Axı, nə adla? Eşidənbilən deməz ki, a biqeyrət, bir uşağı saxlaya bilməyəcəkdinsə, başına papaq niyə qoyursan? Bəlkə, sabah gəlsə, Hikməti anasına qaytarım? Onda da uşaq heç vaxt mənim olmayacaq. Oğlumla görüşə bilməyəcəyəm. Heyf! Çox heyf! Ailəm dağıldı!

Qardaşının dərin fikrə getdiyini görən Tubu fikirləşdi: — Birdən Hümmət çətinliklərdən qorxar. Şəfəqi evdən qovduğuna peşman olar. Gedib arvadını geri qaytarar, evdəki dava-dalaşın, bu qalmaqalın səbəbkarı mən olduğumu başa düşər. Mənimlə düşmən olar. Şəfəq də ayağını qaldırıb qoyar çiynimə. İndi də gəl altından çıx görüm, necə çıxırsan? Bircə əlacım ona qalacaq ki, bu evdən birdəfəlik baş götürüb gedim. Onda anam da deyəcək: Yüz dəfə sənə dedim ki, yoluna qayıt“. Bəli, uşaq hamı üçün böyük problem yaradacaq. Bəs, bu problemi necə aradan qaldırmalı? Məncə, yeganə yol Hümmətin tezliklə kiminləsə ailə qurmasıdı. O, evə də baxar, uşağı da saxlayar. Bununla da Şəfəqin bu evə qayıtmasına birdəfəlik son qoyular, vəssalam. Beləliklə, iş bitər. Tubu uşağı qucağına aldı. Hiyləgərliklə üzündən öpdü. Guya uşaqla danışır kimi dedi: “Ağlama, qaqaş, bibin sənə qurban. Allah qoysa, ata bu yaxında sənə cavan, gözəl-göyçək bir ana alar. O, da sənə qayğı göstərər. Səni yedirər, içirər, çimizdirər, paltarlarını yuyar. Atanın da canı qurtarar uşaq saxlamaqdan...” Əslində Tubu bu sözləri uşağa yox, Hümmətə eşitdirirdi. Bunu Hümmət də başa düşdü. Tubuya bir söz deməsə də, bacısının sözləri ona zəhərdən acı, zəhlətökən qıcıq verdi. Sonra da öz-özünə dedi: — Tubu istədiyinə nail oldu. Necə deyərlər:





“Keçi can hayında, qəssab piy”. Gecədən xeyli keçmiş uşaq ağlamağına ara verdi. Qəhmər sevincək halda uşağın mürgülədiyini bildirdi və aparıb onu beşiyə qoydu. Yorğançasını üstünə sərib, o tərəf-bu tərəfini bərk-bərk basdırdı. Sonra keçib divanda əyləşdi:

— Mən xəyanəti Şəfəqə bağışlaya bilmirəm. Atalar yaxşı deyib: “Adamın yerə baxanı, suyun lal axanı”. Adam heç inana da bilmir ki, bu nədi?

Tubu bir qədər acıqlı halda:

— Oğurluqla xəyanət qırx gün gedər. Ancaq bu, çox getdi. Xəyanət gec-tez açılmalıydı, qardaş. Fikir eləmə. Nə çox cavan qız.

Qəhmər:

— Eh... Oğlum oğul olsun, ona qız tapılmasın. Məni məəttəl qoyan həyasızın özünü aparmaq, xəyanəti gizlədə bilmək bacarığıdı. Mənim az yaşım yoxdu. Dünyanın hər üzünü görmüşəm. Onu bilirəm ki, xəyanət olan yerdə sağlam ailədən söhbət gedə bilməz. İmkan düşən kimi oğru, xəyanətkar öz işini görəcək, oğlum. İstəyir sandıqda saxla. Qaldı uşağa, fikir eləmə, çölə atmayacağıq ki? İki uşaqdan vur-tut bir nəvəm var. Saxlayacam. Sən də evlənərsən, ailə qurarsan. Arvadın gələr. Mənə kömək eləyər, həm də sənin üçün doğar. Kişi arvad qabağında çökməz. Kişiyə kişi deyiblər, arvada arvad. Namussuz adamdan əl-həzər...

Bayaqdan bəri uduxa gedən Hümmət astadan dedi:

— Qurtardıq, ana.

Qəhmər qeyri-ixtiyari halda: “Hə” deyə cavab verdi. Hümmət: “Mən getdim yatmağa“, — deyib ayağa qalxdı.

* * *

Qəbiristanlıqdan çıxıb birbaşa evə gələn Şəfəq əsəbi halda indiyədək yaşadığı evin qapısını döydü. Hümmət də, Qəhmər

də, Tubu da yuxudan hövlnak qalxdılar. Tubu yataq paltarında gedib qapını açdı. Sir-sifəti bozaran, gözləri hədəqədən çıxan, dil-dodaqları təpiyən Şəfəqin qapı ağzında dayandığını gördü. Qadın bir gecənin içərisində elə dəyişmiş, elə qorxunc olmuşdu ki, Tubu özlüyündə xoflandı, bir anda nə edəcəyini bilməyib geri çəkildi:

— Nəyə gəlmisən?

— Balama.

Şəfəqin səsini eşidən Hümmətlə Qəhmər utandıqlarındanmı, həyəcandanmı, ya da onunla kəlmə kəsmək istəmədiklərindənmi yataq otağından çıxmadılar. Tubu səsini bir qədər ucaltdı. Təhqiredici sözlər, ifadələr işlətdi. Elə bil ki, onlar bir ailənin üzvü deyildilər. Bir süfrə başında çörək kəsməmişdilər. İndi də ilk dəfə qarşılaşıblar. Elə bil Şəfəq ən əxlaqsız qadındı, onunla ünsiyyətə girmək çox böyük qəbahətdi. Bu qəbahəti eşidib-bilənlər Şəfəqlə danışmağı Tubuya heç vaxt bağışlamazlar. Bununla da Tubu özünün mənəviyyatsızlığını tam mənası ilə açıb göstərdi:

— Axşamkı vəziyyətə düşmək istəyirsən, lotu?

— Lotu özünsən. Uşağımı almasam, heç hara getməyəcəyəm.

— Onu görməyəcəksən.

— Qoy anan, Hümmət gəlsin. Onlara deyiləsi sözüm var. Mənim evimi, ailəmi sən dağıtmısan. Allah sənin cəzanı verəcək. Əslində bunu anan da yaxşı bilir. Bu həngaməni sən düzəltmisən. Evə zəng çalanlar da sənin aşnalarındı. Telefon nömrəsini də o alçağa, dəyyusa sən vermisən. Mənim uşağımı yetim qoymusan.

— Rədd ol burdan. Allah varsa, qoy uşağını sənə qaytarsın. Sən mənim qardaşıma xəyanət eləmisən.

— Nə xəyanət? O, həngaməni sən yaratdın.

— Əcəb elədim. Qonşuları yığma bura.

Tubu qapını örtdü. Girəcəkdə Şəfəqin hönkürtü ilə ağlaması





eşidildi. Bu dəm Hümmət dəhlizə çıxdı.

Tubu dərhal:

— Xeyir ola, yoxsa, arvadının sözləri ürəyini yumşaltdı. Kişisən də. Sabah səni evdə qoyub, tində dayanacaq, parklarda oturacaq, maşınlarda gəzəcək.

Hümmət bacısının dediklərini qüruruna sığışdara bilməyib əsəbləşdi:

— Bəsdi, çərənlədiyin.

— Can sənin, cəhənnəm Tanrının. Get, o arvadın, o da sən. Belə getsə, kimdənsə doğub oturdacaq qucağında. Sən də kişiləşib başlayacaqsan o doğduğunu oynatmağa. O da sənin maymaqlığına baxıb güləcək. Öz-özünə də deyəcək: — “Sənə bu da azdı, Hümmət”.

— O alçaqlığı sən bacararsan.

— Elə oldu?

Qəhmər qızı ilə oğlu arasındakı söz-söhbəti eşidib xalatını geyindi, düymələri bağlaya-bağlaya dəhlizə çıxdı və əsəbi halda dedi:

— Nə fikirləşirsiz? Aləmi, dost-düşməni özünüzə güldürəcəksiz. Utanın danışığınızdan... Məni dərd götürüb, düşünürəm, qonşulara nə cavab verəcəm?

Tubu:

— Olanı.

Qəhmər:

— Ağlın çaşıb deyəsən.

— Yox, deyəcəksən ki, gəlinim namuslu, qeyrətli, ədəb-ərkanlı adamdı. Onda deməzlər ki, bu nə qələtdi eləmisiz?

— Axı mən necə deyim ki, il yarımdı, evimdə cani-dildən bəslədiyim, yedirib-içirdiyim gəlinim, oğlumun arvadı fahişə imiş, pozğun imiş. Ay həzarat, biz bilməmişik?

— Deyə bilməyəcəkdizsə, niyə qovurduz? Qovmayaydız, uzaqbaşı Hümmət də olardı oğraş.

Hümmət:

— Sənin bu evə gəlişin bizə fəlakət gətirdi, Tubu.

Tubu:

— Əcəb kişisən. Arvadını əxlaqsızlığı, pozğunluğu, fahişəliyi üstə evdən qovmusan. Kimin artığınasa sahib çıxmısan. Utanım yerinə. Bəs, sənin namusun, qeyrətin hanı?

Hümmət:

— Biqeyrət olsaydım, evdən qovmazdım.

Hümmət Tubuya bir sillə çaldı. Sillə bacısının üzündən tutdu. Tubu büdrədi. Ana oğlunu arxadan tutub itələdi. Qadın tez mətbəxə qaçdı. Hümmətə elə gəldi ki, bacısı qorxdu və qaçmaqda məqsədi canını qurtarmaqdı. Ona görə də o, bacısının ardınca getmədi. Üzünü anasına tutaraq: — Mən sizin əlinizdən bezmişəm, bu xarabada yaşamaq belə istəmirəm, — dedi. Elə bu dəm Tubu bir zaman anasının qayınanasından qalan uzunquyruqlu kəfgiri ilə Hümmətə yanaşdı, gözlənilmədən onu qardaşının gicgahına vurdu. Zərbədən Hümmət özünü itirdi, başı fırlandı və döşəməyə sərildi. Bunu görən Qəhmər qışqırmağa, üz-gözünü cırmağa, saçlarını yolmağa başladı. Tubu nə eləyəcəyini bilməyib çaşdı. O, əvvəl yerindəcə donub qaldı. Qəhmər dizləri üstə çökdü və oğlunun başını qucağına alıb ağlamağa başladı. Tubu əvvəl istədi evdən qaçsın. Sonra nə fikirləşdisə, o da anasının yanındaca oturub: — Qardaş, sənə əl qaldıran yerdə qollarım sınaydı, — deyə ağlamağa başladı. Bu dəm Qəhmər oğlunun uyuduğunu duydu. O, dərhal:

— Qalx, bir stəkan su gətir, — deyə qızının üzünə baxdı. Tubu tələsik mətbəxə keçdi, bir stəkan sərin su gətirdi. Ana stəkanı alıb oğlunun üz-gözünə, sinəsinə səpdi. Hümmət yavaş-yavaş özünə gəlirdi ki, ana: — Xatanız var, bacı-qardaş sizin, — dedi. Tubu guya qardaşının hirsi, qəzəbi soyusun deyə, paltarlarını geyinib evdən çıxdı. Əslində o, Gülyagilə gecikirdi.





* * *

Dünənki günorta naharından sonra dilinin altından heç nə keçməyən Şəfəq balasının ardınca bir də getdi. Gün günortadan əyilmişdi. Göydəki ala-tala buludlar getdikcə sıxlaşırdı. Şəfəqə elə gəlirdi ki, çox keçməyəcək şimşək çaxacaq, göy guruldayacaq, ağ şıdırğı yaz yağışı yağacaq, hər tərəf sel-su olacaq. Onda özü də ayaqdan başa islanacaq, sığınacaq üçün yer axtarmaq məcburiyyətində qalacaq. Çox güman ki, o da tapılmayacaq. Bu qarma-qarışıq, məntiqsiz, üzüntülü fikirlər içərisində Şəfəq binanın girəcəyinə daxil oldu. Soyuqladığındanmı, yorğunluq, əsəbilik əldən saldığındanmı, o, birinci mərtəbədə azacıq dayandı, sonra ayaqlarını sürüyə-sürüyə pilləkənləri qalxdı. Qapının zəngini basdı. Çox çəkmədən qapı içəridən açıldı. Hümmətlə Şəfəq üz-üzə dayandılar. Şəfəqin hirsdən, qəzəbdən alışıb yanan məsum gözləri Hümmətin gözlərinə dikildi. Bir an içərisində qəribə mənzərə yarandı. Qadının gözlərində ümidsizlik, inamsızlıq, məyusluq hissi duyulurdusa, Hümmətinkindən isə qəzəb, kin-küdurət oxunurdu. Ər-arvad tutulub qaldılar. Bir anlığa onlara elə gəldi ki, bir-birilərindən əlçatmaz, ünyetməz dərəcədə çox-çox uzaqdadırlar. Nə Şəfəq içəri girə bildi, nə də Hümmət onu evə dəvət elədi. Birdən dodaqları səyriyə-səyriyə, ağlamsına-ağlamsına, ürəkyaxıcı bir tərzdə dedi:

— Hümmət, mən balam üçün gəlmişəm... Yalvarıram sənə... Onu mənə ver. Axı, mən anayam. Onsuz da sən...

— Yox!

— Sənə and verirəm birlikdə kəsdiyimiz çörəyə, “Qurani-Kərim”ə“.

— Dedim yox! Azacıq da olsa, şərəfin, ləyaqətin qalıbsa, daha bura gəlmə.

— Allahdan qorx! Mən günahsızam! Çıxıb gedirəm! Heç vaxt səninlə üzləşməyəcəyəm! Ver mənim balamı! Məni yandırma! Mənim kimsəsizliyimi, imkansızlığımı ki bilirsən!

— Elə məni yandıran da odu! Sənə inandım! Mənə xəyanət elədin!

— Düz demirsən! Ver mənim balamı, rədd olum burdan!

Elə bu vaxt Qəhmər qapını açıb dəhlizə çıxdı. Şəfəqi görcək:

— Bizi el içində biabır elədiyin azdı, indi gəlmisən bura ki, səni bağışlayaq? Görməyəcəksən onu! İtil burdan, ifritə! Heyf! Çox heyf ki, sənə "Qızım" — deyə müraciət eləmişəm bir vaxtlar! Lülə-lülə gözündən gəlsin bu evdə yediklərin. Zəhərin olsun.

— Axı mən sənə həmişə "Ana" demişəm.

— Kəs səsini, it qızı, it. Bir də o sözü ağzına alma.

Şəfəqin gözlərindən axan yaş yanaqlarından üzüaşağı dığırlanırdı. Qəhmərlə Hümmətin ürəkləri yumşalmırdı ki, yumşalmırdı. Elə bu dəm pilləkənlərdə ayaq səsləri eşidildi. Şəfəq dönüb arxaya baxdı. Gələn baldızı idi. Tubu onu görcək əlindəki çantasını qapıdan içəri atdı, Şəfəqin saçlarından tutub "Fahişə" deyə-deyə, onu pilləkənlərlə üzüaşağı sürüdü. Səsə qonşular çıxdılar. Hadisənin mahiyyətindən xəbərsiz olduqlarından adamlar çaş-baş qalmışdılar. Tubu Şəfəqi birinci mərtəbəyədək beləcə sürüdü. Sonra onu buraxıb: — Bir də bu həndəvərdə görünsən, doğduğunu da bu əllərimlə boğub öldürəcəm", — dedi. Qonşulardan kimisi Şəfəqə, kimisi də Tubuya yaxınlaşıb soruşurdu: — Axı nə olub? Niyə dalaşırsız? Ortaq nəyiniz düşüb ki, qalmaqal yaratmısız? Gəlin-baldız belə hərəkət eləyərmi?" Hər şeydən əli üzülən Şəfəq bir daha bu evə gəlməyin Hikmət üçün qorxulu, fəlakətli olduğuna inandı. Əlacsız qalıb: "Mənim sənədlərimi verin", — dedi. Bunu eşidən Tubu otağa qayıdıb Şəfəqin şkafın gözündəki pasportunu, peşə məktəbindən aldığı vəsiqəni, axşam fəhlə gənclər məktəbindən aldığı orta təhsil attestatını, bir də əmək kitabçasını götürdü, sonra da tələm-tələsik pilləkənlərlə endi. Ona üç-dörd addım qalmış sənədləri Şəfəqin ayaqları altına atdı: — Götür, cəhənnəm ol. Şəfəq sənədləri götürdü. — Cəzanı Allah özü verər — deyib, əlləri ilə üzünü tutdu və ağlamağa başladı. Tubu isə qonşulardan utanmadan, çəkinmədən kişi söyüşləri söyürdü. Hərdənbir də "Qardaşıma xəyanət eləyib" — deyirdi. Tubunu eşidənlərdən kimisi, "Şəfəq elə cuvanəzən deyil", "Şəfəqə böhtan atırlar", "Şəfəqi də özünə bənzədir", kimisi də "Adamı tanımaq olmazmış?", "Nə desən çıxar", "Od olmasa, tüstü çıxmaz", "Adamın yerə baxanı, suyun lal axanı" deyirdi. Şəfəqsə: — Mənim balamı verin — deyib ağlayırdı. Tubu adamların yığışdığını görcək barmağı ilə Şəfəqi hədələyə-hədələyə dedi: — Sənə bu qədər adamın içində deyirəm. Bir də gəlsən uşağını öldürəcəm"... Onun sözündəki hökm, səsindəki qətilik Şəfəqi sarsıtdı. Onu dəhşət bürüdü, sonra da ürəyindən keçirdi:





— Aman Allah, bu, nə danışır? Tubu həqiqətən alçaqdı. Əxlaqsız olduğu qədər mərhəmətsizdi. Doğrudan da, uşağımı öldürə bilər. Onun qurduğu tordan nə Hümmət, nə də Qəhmər qurtarandı. Yaxşısı budur ki, Hikmətin salamatlığı xatirinə mən bir də bu xarabaya ayaq basmayım. Tubu nə qədər hiyləgər və əxlaqsızdırsa, Qəhmər ikiüzlüdürsə, Hümmət də, bir o qədər avam, kütbeyin və cahildir. Bu neçə vaxtda özüm də bilmədən nadanlarla yaşamışam, ömür sürmüşəm... Bu da mənim korluğumdu. Korların da aqibəti belə olmalıydı, oldu da.

Hara gedəcəyini bilməyən Şəfəq birdəfəlik bu evdən üz döndərdi. O, getdi, ancaq hissini, duyğusunu, döyünən qəlbini, çırpınan ürəyini doğma balasının yanında qoyub getdi...

* * *

Bütün bədənində bir gizilti var idi onun. Bir az oturmaq istədi. Belə qərara gəldi ki, yaxınlıqdakı parka getsin. Partalardan birinin üstündə oturub dincəlsin. Hara gedəcəyini orda qərarlaşdırsın. Gəncə çayının sahilinə gəldi. Üzü çaya baxan boş skam-

yalardan birində əyləşdi. Dağlardan baş alıb gələn çaya, çayın içindəki saysız-hesabsız, böyüklü-kiçikli daşlara, o daşların arasında qaralan tənha ağaca və onun dibindən süzülüb axan sulara tamaşa elədi. Ürəyi yumşaldı. Dərindən ah çəkdi. Əvvəl ona elə gəldi ki, ya günəş tutulur, ya da gözləri qaralır. Elə bu an ətraf başına dolandı. "Öldüm Allah" demişdi ki, xoşbəxtlikdən hər şey ötdü. Şəfəq dərindən nəfəs aldı. Sonra düşündü: Görəm, bu daşların da canı varmı? Var, yox, bilmirəm. Təkcə onu bilirəm ki, bu daşlar məskənsiz deyil. Onların da yuvaları var. Müqəddəs kitabələrdə deyilir ki, təkcə insanların yox, daşın da, kəsəyin də yanında Allahı zikr eləyin. Qiyamət günü onlar da sənin əməllərinə, düşündüklərinə şahidlik eləyəcəklər. Belə çıxır ki, Gəncə çayında bu saysız-hesabsız daşlar da, o daşların arasından çıxıb günəşə sarı boylanan balaca yaşıl ağac da — ətrafda nə varsa, hətta, çayın o tayında məskən tutan böyüklü-kiçikli, alçaqlı-hündürlü evlər də, arxa tərəfimdə dayanıb illərdən bəri ömür sürən ağaclar da, zəif meh əsdikcə pıçıldaşan yarpaqlar da mənim barəmdə çox şey danışacaqlar. Deməli, bizim cansız sandığımız şeylərin də dili varmış, yaddaşı varmış... Eh... Qoy olsun... Mən nədən çəkinirəm, nədən qorxuram, qaradan da tünd rəng varmı? Bundan sonrası ölümdü. Ac-yalavac, əyni yalın bu boyda şəhəri axşamdan dolaşıram. Halımı soruşan bircə kəsim varmı? Hara üz tutub gedəcəyimi bilirəmmi? Kaş mən də heç bir xiffət çəkməyən, dərdi-sərini özündə saxlaya bilən bu daşlara dönə biləydim. Görən, neçə min illərdi bu çayın yaşı? Neçə vaxtdı bax beləcə axır sular? Bəlkə bu qara daşlar da biz insanlar kimidi? Biz insanlar onları başa düşmürükmü?! Əgər başa düşmürüksə, heyf o zavallı daşların halına... Yox!.. Deyəsən, özümü yavaş-yavaş itirirəm. Dəli oluram, nədi?

Şəfəq fikirlər içərisində boğulurdu. Balaca, qanadları yaşıla, köksü sarıya çalan, xırda dimdikli, balaca pipikli bir quş daşların arasından çıxaraq uçub günəşə tərəf boylanan balaca yaşıl ağacda qurduğu yuvaya qondu. Yuvadan iki bala ağzını açıb civildəşə-civildəşə analarını qarşıladı. Quş dimdiyində gətirdiyi qurdu balalarından birinin ağzına dürtdü və yenidən yem dalınca uçub getdi. Çox çəkmədən o geri qayıtdı. Bu dəfə də gətirdiyini o biri balasına yedirtdi. Buna baxan Şəfəq evdə ac-yalavac qalan oğlunu düşündü. Qəlbi kövrəlsə də, ağlaya bilmədi. Yavaş-yavaş yaş da qəhətə çıxdı. Ananın döşləri südlə dolduğundan az qala çatlayırdı. O, döşlərini sıxıb balasının yeməyini hədər yerə axıtmaq istəmədi. Anaya elə gəldi ki, döşlərini sıxıb boşaltsa, ciyərparası ac qalacaq. Ağlamaqdan, göz yaşları tökməkdən özgə bir çarəsi qalmayan Şəfəq öz-özünə: — Bu boyda şəhərdə necə də tənhayam. Yorulmuşam... Acam. Eh... Mənim taleyim... Anam elə. Mən belə... Oğlum məndən də bitər. Bəlkə Pəriyə zəng çalım?.. Lap tutaq ki, çaldım. Axı o, mənə deməz ki, balam, sən kimsən? Qələt eləyib yarım gün səninlə bir palatada xəstə yatmadım ki? Yox! Bəs onda mən neyləyim? Bəlkə bir zaman oxuduğum peşə məktəbinin yataqxanasına gedim. Yataqxananın komendantı Fəridə xala ilə görüşüm. O qadın yataqxanada mənə həmişə ana kimi qayğı göstərərdi, məni doğma balası kimi istərdi. Məsləhətlərini verərdi. Dəfələrlə məni evinə qonaq dəvət edərdi. İsti çay, xörək verərdi. Yaxşı yadımdadı. Bir dəfə arxamca oğlan gəlmişdi. Onda Fəridə xala oğlanın qarşısını kəsib: — "Nə düşmüsən mənim qızımın arxasınca" — demişdi. Oğlan da: — "Sənə nə var?" — deyəndə Fəridə xala onu yaxşıca boğazlamışdı. Bunu qızlar mənə xəbər verəndə sevincimdən az qala qanad açıb uçacaqdım. Özümü saxlaya bilməyib Fəridə xalanın boynunu qucaqlamışdım. "Ana" — deyə üz-gözündən öpmüşdüm. Qəribədi bu dünyanın işləri. Mən Hümmətlə ailə quranda o, necə də sevinirdi. Məni yataqxanadan ər evinə yola salanda demişdi: — "Qızım, sən hələ cavansan. Çox şeydən xəbərsizsən. Səni qızım sanıram. Yadda saxla. Ər evi qəbir evidi. Getdin, geriyə dönən yolların bağlanır. Qayınananı ana, baldızını doğma bacın,

ərini də sahibin sanasan gərək. Ərsiz qadın ağzı açıq qab kimidi. Qabın yanından ötən pişik də, it də ona baş salıb dibini yalamağa çalışdığı kimi, ərsiz qadına da hər gələn bir söz atır. Ondan təmənna umur. Gərək ayıq olasan, qızım. Ürəyini hər kimsəyə açma. Dilini şirin elə. Ərini sev. Ailə üzvlərinə hörmət elə. Çörəyinin qədrini bil. Azına-çoxuna qane ol. Yalan danışma. Qiybət eləmə".

Eh!.. Mən səni özümə ana sanmışam. Məsləhətlərini, nəsihətlərini bir an belə unutmamışam, Fəridə xala. Dediklərini sırğa eləyib qulaqlarımdan asmışam. Nə demişdin, elədim. Necə demişdin, elə də oturub-durdum. Ancaq nə fayda?! Atalar yaxşı deyib: "Sən saydığını say, gör, fələk nə sayır". Sən demə, alın yazısı da varmış... Xəbərin yoxdu nələr çəkdiklərimdən. Hələ keçən gecə qəbirdə yatmağımı demirəm. Mələklərin əbədi dünyanın sirli-sehrli möcüzələri ilə məni tanış eləmələrindən danışmıram. Məni dəli-divanə eləyən doğma balamın əlimdən alınmasıdı. Məni yandıran heç bir günahım olmadan iftiralara, böhtanlara məruz qalmağımdı. Hər şeyə dözmək olar. Ancaq mənəviyyatını zəhərləyən, şəxsiyyətini alçaldan, ləyaqətinə, şərəfinə, namusuna ləkə gətirən təhqirlərə, "əxlaqı pozğundu" deyənlərə yox.

Şəfəq düşünür, düşündükcə için-için alışıb yanırdı. Aclıq, yorğunluq, soyuq getdikcə bu zavallını haldan salırdı. O, ayağa qalxıb pay-piyada birbaşa vaxtı ilə yaşadığı yataqxanaya getdi. Qapı ağzında bir qadın: — Kim lazımdı? — deyə soruşdu:

Şəfəq dedi:

— Mən vaxtı ilə burda yaşamışam. Fəridə xalanı görmək istəyirəm.

— O, bir ildən artıqdı ki burda işləmir.

— Niyə?

— Nə bilim niyə? Onu özü bilər.

Elə bu vaxt başqa bir qadın pəncərəyə yaxınlaşdı. Şəfəq dər-





hal onu tanıdı, özü də hiss eləmədən üzündə ötəri təbəssüm yarandı və ani də əriyib yox oldu. Astadan: — Afət xala, salam, — dedi. Qadının altmışa yaxın yaşı olardı. Əyninə köhnə xalat geymişdi. Həna qoyulmuş saçlarını köhnə lapar-lapar ləçəyi altına yığıb bağlamışdı. O, salamı alıb, Şəfəqlə qucaqlaşdı. Öpüşüb görüşdü. Afət üzünü yanındakı qadına tutaraq:

— Ay Allah, günəş hardan doğub, — dedi. — Gülnarə, Şəfəq bizim balamızdı. Tanış ol.

Gülnarə ilə Şəfəqin gözləri bir-birinə dikildi. Hər ikisinin üzündə xəfif bir təbəssüm yarandı. Gülnarə dərhal:

— Lap yaxşı. Deməli, mənim də balamdı. Xoş gəlib, səfa gətirib.

Afət qabaqda, Şəfəq də onun ardınca üstünə "Vaxtyor" sözü yazılmış qapıya yan aldılar.

— Otağa keçdilər. Afət: — Qızım, Fəridə xanım da, mən də səni özümüzə qızımız sanmışıq.

Şəfəq:

— Düz deyirsən, etibarsızam.

— Yox, mən elə deməzdim. Etibarsız olsaydın, indi gəlməzdin.

Afət üzünü Gülnarəyə tutaraq:

— Zəhmət olmasa, qalx çayı da, xörəyi də qızdır. Mən də acmışam. Qızımla neçə vaxtdı şam eləməmişik. Bu gün fürsətdi.

Gülnarə: — Bu saat, — deyib yemək hazırlamağa getdi. Çox çəkmədi ki, Gülnarə süfrə açdı və: — Bismillah eləyin, — dedi. Yemək başlandı. Şəfəq utana-utana, çəkinə-çəkinə bir tikə yemişdi ki, çeçədi. Afət: — Hamısı sənin, utanma, qızım, — dedi. Onlar yeyib-içdikcə Şəfəqə elə gəldi ki, Afət xala onun aclığından xəbərdardı. Tez də: "Ola bilməz", — deyə bu fikrindən yan keçdi. İndi Şəfəqin ürəyinə taqət, dizlərinə güc, gözlərinə işıq gəlirdi.

Gülnarə süfrəni yır-yığış elədi.

Afət dilləndi:

— Bayaq qəsdən hal-əhval tutmadım səndən. Evdə vəziyyət necədi? Qayınananla, baldızınla dolana bilirsənmi? Səni görəndə burda yaşadığın günlər yadıma düşdü. Bilirsən, nə qədər sevindim?!

— Ev-eşikdi də. Hamı necə, biz də elə. Doğrusu, sizin üçün, Fəridə xala üçün də burnumun ucu göynəyirdi. Ancaq bağışlayın ki, indiyədək sizə gəlib baş çəkə bilməmişəm.

— Bilirəm, qızım. Qız ki ər evinə düşdü, qayınananın, ərin, bir az da yumşaq olsa, ağzı xəmir kəsməsə, abırını, ismətini gözləsə, baldızının ixtiyarına keçir. Düzmü deyirəm, qızım?

— Düzdü, Afət xala.

— Oğuldan, qızdan nəyin var, a bala?

— Oğlum.

— Xoşbəxt olsun.

— Allah imanını kamil eləsin.

— Adı nədi?

— Hikmət.

— Gərək ki, ərinin də adı Hümmət idi, hə?

— Hə. Nə yaxşı yadınızda qalıb?

— Qızım, üzünə tərif eləmək nadanlıqdı. Sən yaxşı balasan. Ona görə də nə səni, nə də ərini unutmuşam.

— Təşəkkür eləyirəm.

— Uşağı kimə tapşırıb gəlmisən?

Şəfəq əvvəl udqundu, sonra da “Qayınanama” demək istəyirdi ki, sözünə ara verdi. Afət Gülnarənin yanında Şəfəqin danışmaq istəmədiyini duydu... Ona görə də söhbətə ara verdi. Gülnarə qab-qaşığı şkafa qoyub üzünü Afətə tutdu:

— Mən işimi qurtarmışam. Vaxtdı. Başqa sözün yoxdusa, bəlkə mən gedim evə. Uşaqlar da nigarandılar.

— Get, bayaq Sevilə də telefon eləmişdim. Qonağı var. Bir az gec gələcək.





— Sevil gələ bilməyəcəksə, mən qayıdım.

— Yox! Yox, get, sağ ol.

Gülnarə xudahafizləşdi. Şəfəq:

— Fəridə xaladan xəbərin varmı?

— Yaxşı idi, qızım. Bir ilə yaxındı ki, köçdü getdi Bakıda yaşayan qızının yanına. Xeyli vaxtdı ondan xəbərim yoxdu. Həyat belədi də. Yaş ötdükcə qocalırıq. Keçən ilki halım yoxdu, qızım. Dizlərim gücdən düşür.

— Nə qocalıq, Afət xala?

— Yox. Düzdü adam qocalığı boynuna götürmək istəmir. Ancaq yaş da öz işini görür.

— Uşaqlarınız sizə yaxşı baxırlarmı?

— Allah onlara ömür versin. Balalarının çörəklərini güclə qazanırlar. Növbəyə durmuşdum. Güman eləyirdik ki, hökumət bizə ev verəcək. Gözünə dönüm hökumətin də. Nəinki ev verdi, evlər paylananda bizi heç yada salan da olmadı. Kimin pulu, adamı var, evləri verdilər onlara. Yeddi baş ailə qalmışıq ikigözlü mənzildə.

— Mən tanıyan qızlardan yataqxanada qalan varmı?

— Yox!

— Qızlar sizi incitmirlər ki?

— Bu qızların işindən də keçmə. Hamısı yox, imanımı yandıra bilmərəm. Bəziləri incitmirlər nədi? Yoldan keçəndə, işə, bazara, ya dərsə gedəndə oğlanlara bir işarə vururlar. Onların da gözünə dönüm. Aman vermədən gəlib kəsirlər qapının ağzını. Bəzən də dayanırlar binanın tinində. Gözləyirlər onlara göz-qaş atan qızları. Elə ki tapa bilmədilər əlacları kəsilir, başqalarına söz atırlar. Bir kəlmə söz deyirsən, qayıdırlar üzünə. Nə yaxşı ki oğlanların hamısı belə deyil. İçərilərində təmiz niyyətlə gələnləri də var.

— Yataqxanada yaşayanlar çoxdumu?

— Çoxdu, qızım. Boş yerimiz yoxdu. Dünən bir qızı bura yer-

ləşdirmək üçün bütün otaqları gəzdik. Çox çətinliklə onu yerləşdirə bildik.

Şəfəqə hər şey aydın idi. Deməli, nə Afət xanımgilin evində, nə də yataqxanada gecələmək mümkün idi. Afət xanıma üz vurmaq yersizdi.

Elə bu vaxt qırx yaşı olar-olmaz uca boylu, qarayanız, qurğaz bir qadın içəri girdi. Salam verib şkafı açdı, göy rəngli xalatını geyindi. Afət ondan soruşdu:

— Sevil xanım, qonağını yola saldınmı?

— Hə, kənddən gəlmişdilər. Əşi, qəribə adamdılar. Yığışıb gəlirlər bazara. Kimisi toyuq, kimisi yumurta satmağa. Kimisi də bağdakı cir-cipdən yığıb doldururlar yeşiklərə. Gətirib satdıqlarını satırlar. Qalanını da çürüdüb tökürlər çölə. Axşam da ki yığışıb gəlirlər bizə. Əlləri ətəklərindən uzun. Fikirləşmirlər ki ev dolu uşaqdı. Uşaqlar onların əllərinə baxırlar.

— Əşi, hamının başına gələn şeydi, narahat olma.

— Məni başqa şey yandırır ey.

— Nə?

— Hamamı yandırtdırırlar mənə. Növbə ilə çimirlər. Üstəlik, alt paltarları da istəyirlər. Yeyirlər-içirlər. Səhər də çarpayılarını yığışdırmadan gedirlər. Nə isə, səni gecikdirdim deyəsən, Afət xanım. Qalx, get evə.

Afət üzünü Şəfəqə tutaraq:

— Qızım, gedək bizə.

— Yox, çox sağ olun.

— Nə əcəb gəlmisən?

— Heç, elə belə.

Şəfəq Afətə özü barədə heç bir söz deyə bilməsə də, Fəridə xanımla görüşə bilməməsinə təəssüfləndi. Sonra da Afət xanıma təşəkkürünü bildirdi və heç bir şey olmamış kimi ayağa qalxdı. Vəziyyətdən xəbərsiz, bir az da sadəlövh olan Afət Şəfəqin gəlişinə heç bir məna vermədi. Düşündü ki, o, həqiqətən onları





yad eləmək üçün gəlib. Ona görə də dedi:

— Hə. Sən də gecikə bilərsən, qızım. Evdə uşaq qoyub gəlmisən. Ərin, qayınanan danışar, səni məzəmmət elər. Vaxtın olanda, bərilərə yolun düşəndə, gəl. Afət xalanı da yoxla. Ölüm-itim dünyasıdı.

Harda gecələyəcəyini bilməyən Şəfəq Afət və Gülnarə xanımla xudahafizləşib yataqxanadan çıxdı.

* * *

Bir zamanlar isti qoynunda yatdığı, həmyaşıdları ilə deyib-güldüyü, qayğısız-qadasız günlər keçirdiyi, sevib-sevilib ər evinə köçdüyü yataqxanada bir gecəsini keçirmək imkanı tapmayan Şəfəq ayaqlarını sürüyə-sürüyə getməyə məcbur oldu. İndi hara gedəcəyini, kimə pənah gətirəcəyini bilməyən Şəfəqin üstünə elə bil dağ çökmüşdü. Nə qədər çalışırdısa dağ laylarının, qaya parçalarının altından çıxa bilmirdi. O, pərişan, ümidsiz, inamsız halda qonşu binanın tininə qədər gəldi. Bir anlığa ayaq saxladı. Düşündü: Hara gedim? Bəlkə qayıdıb qaçım Afət xalanın ardınca? Ona deyim ki, bu gecə yatmaq üçün mənə də bu yataqxanada imkan yarat. Otaq olmasa da bu dəhlizdə gecələyə bilərəm. Axı, necə deyim? Onsuz da bayaq vəziyyətimi ona aça bilmədim. Açsam da deməz ki, nə başa düşməz adamsan? Bayaq demədimmi ki, yataqxanada yer yoxdu. Bəlkə, bu dəfə də qəbiristanlıqda gecələyim? Yox, ora bir daha üz tuta bilmərəm. Qəbiristanlıqda keçirdiyim anlar, onun sarsıdıcı zəhmi, vahiməsi cəhənnəm zəbanələrini görmək ölümdən də betərdi. Yaxşı, bəs neyləməli? Yeganə ümid yerim Pəridi. Tutaq ki, Pəri bir söz demədi? Məni yaxşı qarşıladı. Onun əri, qayınanası deməz ki, balam, bu səfil kimdi, nəçidi? Deyəcək... Bəs, hara gedim? Bax, beləcə, öz-özü ilə danışa-danışa küçə yuxarı addımladı. Addımladıqca da taleyi üçün bədgümanlıq hissi keçirdi. Günəş qüruba

çəkilirdi. Onun şüaları üfüqə səpələnir, səpələndikcə də üfüq sarımtıl rəngə boyanırdı. Hava soyuyurdu. Şəfəq şəhərin mərkəzindəki parka gəlib çıxdı. Yaşı bilinməyən şah budaqlı çinar ağaclarının altında qoyulmuş boş skamyalardan birində əyləşdi və belə qərara gəldi ki, bu gecəni adamlar çəkiləndən sonra on beş-iyirmi addım kənardakı bəzək kollarının arasında keçirsin. Özü də hiss eləmədən: — "Qara bəxtim", — deyə pıçıldadı. Şəhəri gəzib-dolaşan, eyinlərini açmaq istəyən adamlar hər gün bu parka gəlir, gəzir, oturub-dincəlirdilər. Şəfəqin indi burada əyləşməsi sövqi-təbii hal idi. Heç kəsdə təəccüb doğura bilməzdi. Ona görə də Şəfəq burada sıxıntı keçirmədən əyləşmişdi. Dünəndən bəri sərsəri tək gəzib-dolaşan, hissi, duyğusu az qala kilidləşən gəlin oturduğu partada sanki donub qalmışdı.

Dəstə-dəstə uçan qarğalar bir yerdə qərar tuta bilmədiklərindən ağaclardan ağaclara, budaqlardan budaqlara qonurdular. Hər dəfə də onların qarıltısı səs-küyü aləmi başına götürürdü. Çinarların altından keçən adamları sarsaq qarğaların hər an peyinləyərək üst-başlarını batıra biləcəyi qorxudurdu. Şəfəq qarğaların bu ədəbsizliyini heç ağlına da gətirmirdi. Gətirsə də belə onun üçün elə bir təfavütü yox idi. Onun üçün yaşamaq da, gələcəyə ümid bəsləmək də puça çıxırdı... Şəfəqin diqqətini parkda o tərəf-bu tərəfə gəzən, qarnı böyrü-böyründən keçən itlər cəlb elədi. O, hardasa, özü ilə itlər, itlərin ac-yalavac həyatı ilə özünün keçirdiyi ömür-gün arasında bir oxşarlıq, bənzərlik duydu. Onun itlərə yazığı gəldi. Fikirləşdi ki, o, özü də bu itlərə gecəikən həmdəm olacaq. Görəsən, itlər mənə gecəni burda qalmağa imkan verəcəklərmi? Yoxsa, onlar da mənə qol-budaqları səliqə ilə vurulmuş bu bəzək kolları arasında qalmağı qıymayacaqlar? Özləri bilərlər. Qalarıq, görərik. Axı, niyə də verməsinlər? İndi onların məndən, mənim də onlardan artıq heç bir şeyimiz yoxdu. Hamımız sahibsizik! Hamımız eyni talelilərik! Hamımız acıq! Hamımız səfilik! Hamımızın da taleyi təsadüflərdən asılıdı. Təsadüfi burulğan hamımızı bir göz qırpımında məhv eləyə bilər. Hamımıza da cəmiyyətin münasibəti eyni olacaq! Ölümümüzə heç kəs heyfslənməyəcək. Hamımızı da qara torpaq udacaq.





Bayaqdan bəri düşüncələrini bir yerə toplaya bilməyən Şəfəq üç-dörd addım aralıda qol-qola girmiş iki xanımın dayandığını gördü. O, ağır-ağır başını qaldırdı. Xanımlardan biri: — Şəfəq!" — deyə, həyəcan içərisində təəccüblə dilləndi. Şəfəq qadını görcək gözlərinə inanmadı. Qarşısında dayanan, onu tanıyan bu qadın vaxtı ilə yataqxanada bir otaqda iki il yaşadığı rəfiqəsi Süsən idi. O, indi tamamilə dəyişmişdi. Onda cazibədar gəlinlik görkəmi vardı. Bir qədər ətə-cana dolmuşdu. Buna baxmayaraq, boyu ilə bədəni arasındakı mütənasiblik pozulmamışdı. Əksinə, onda qadınlıq şuxluğu özünü daha çox göstərirdi. Əyninə geydiyi boz yaşıl plaş ona çox yaraşırdı. Yanındakı xanım ondan üç-dörd yaş böyük olardı. Onun bəstə boyu, dolu bədəni vardı. Yastı burnu, qara kirpiklərlə haşiyələnmiş böyük, yaraşıqlı gözləri yumru sifətinə mütənasib idi. Uzun qara plaşı vardı. Xanımların hər ikisi şabalıdı rəngli ayaqqabı geymişdilər. Şəfəq Süsəni görcək onunla qucaqlaşdı, öpüşdülər. Sonra Süsən yanındakı xanımı göstərərək, Şəfəqə dedi: — Tanış olun, mənim qonşumdu. Adı da Güldanə. Şəfəqlə Güldanə bir-birilərinə əl verdilər. Süsən əlavə elədi: — Bu da neçə vaxtdı həsrətini çəkdiyim, ancaq üzünü görə bilmədiyim bacılığım Şəfəqdi. Şəfəqlə Güldanə gülüşdülər. Süsən böyük sevinc və şadyanalıqla Şəfəqin qoluna girdi. — Nə yaxşı görüşdük, səndən ötrü bilsən necə də darıxmışdım, — dedi. Rəfiqəsinin istiqanlılığı Şəfəqin üzündə zərif, ötəri bir təbəssüm yaratdı:

— Elə mən də.

— Nə yaxşı burda tək əyləşmisən? Hümmət qardaş hanı?

Şəfəqin əyin-baş paltarlarının səliqə-səhmansızlığı Süsənin gözündən yayınmasa da büruzə vermədi.

Şəfəq utandığındanmı, çəkindiyindənmi, onu qəhər boğaca-

ğındanmı, qorxduğundanmı susdu. Süsənə elə gəldi ki, Şəfəq onun verdiyi sualı ya eşitmədi, ya da başa düşmədi. Ona görə də o, sualı bir də təkrar elədi. Bu dəfə Şəfəq dodaqları səyriyə-səyriyə evdən çıxarıldığını açmağa məcbur oldu.

Süsən astadan:

— Burda nə gəzirsən?

— Burda qalacam.

— Harda?

— Kolların arasında.

— Dəli olmusan, nədi?

Süsən üzünü Güldanəyə tutaraq:

— Qayıtdıq evə. Gəzməyi sonraya saxlayaq.

Şəfəq:

— Süsən, axı...

— Mənə niyə zəng çalmırdın?

— O vaxtdan nömrəni itirmişəm.

— İndi də özünü itirəcəkdin.

Süsən Şəfəqin qoluna girdi. Onlar binaların arasından keçərək tramvay yoluna çıxdılar. Daş divarlı hasarın dibi ilə xeyli getdilər. Gəlib göy rəngli böyük dəmir darvazadan həyətə girdilər. Həyət kiçik idi. Sarı saxsı dibçəklərdə cürbəcür güllər əkilmişdi. Onlardan da bəziləri çiçək açmışdı. Həyətin baş tərəfində hündür ayaqlı birmərtəbəli köhnə ev vardı. Süsən pilləkənləri qalxıb qapını döydü. Qapını içəridən on beş-on altı yaşlı bir qız açdı. Süsən otağa daxil oldu. — Nərmin, Şəfəqlə tanış ol, mənim bacılığımdı, — dedi. Nərmin boy-buxunlu, üzügülər bir qız idi. Üz-gözündən səmimiyyət, mehribanlıq yağırdı. O, Şəfəqlə görüşdü. Evə keçdilər. Ev iki otaqlı idi. Onların qapıları şüşəbəndə açılırdı. Pəncərələrdən sarı rəngə çalan ipək pərdələr asılmışdı. Şüşəbəndin pəncərələrinə əks olan divara ağ kağız çəkilmişdi. Ev çoxdan təmir olunmadığından tavanın rəngləri bir neçə yerdən qopub sallanırdı. Tavandan səkkiz lampalı saya





çilçıraq asılmışdı. Otaqlardan birində Süsənlə əri Şəfi, o birində baldızı Nərmin qalırdı. Yemək, içmək, qonaq qəbulu üçün şüşəbənd nəzərdə tutulmuşdu. Döşəməyə salınan xalının rəngləri solmuşdu. Onun da ortasında stol, ətrafında stullar qoyulmuşdu. Şüşəbəndin yuxarı başında rəngli televizor vardı. Mətbəxə şüşəbəndin ayaq tərəfindən qapı açılırdı. Süsən üzünü Nərminə tutaraq:

— Anam, bir yaxşı çay qoy. Mən də paltarlarımı dəyişim, dadlı bir xörək hazırlayım.

Yemək hazır oluncayadək Güldanə Şəfəqin başını qatmalı oldu. Qadın şirin-şirin danışdıqca Şəfəqin ürəyi açılmasa da, üzündə məcburiyyətdən doğan təbəssüm ifadəsi vardı. Güldanə də açıq-aydın hiss eləyirdi ki, Şəfəqin qəlbi açılmır, onun bütün fikri-zikri dağılmış ailəsindədi. Bunu özünə olan etinasızlıq, laqeydlik, diqqətsizlik yox, Şəfəqin düşdüyü acınacaqlı vəziyyətlə əlaqələndirirdi. Güldanə gözüaçıq qadın idi, o, hər şeyə yerli-yataqlı qiymət verə bilirdi. Bilirdi ki, qadın üçün ailəsi dağılmaqdan böyük dərdi-sər ola bilməz. Ona görə də Güldanə astadan canıyananlıqla: — Fikir eləmə, bacı, biz qadınlar belə hallarla tez-tez qarşılaşa bilərik, — dedi. Şəfəq Güldanəni tanımadığından söhbəti uzatmadı. "Bəlkə də" deyib susdu. Süsənin işarəsi ilə Nərmin çörək qabını, salat boşqablarını stolun üstünə qoydu. Onun da ardınca Süsən xörəyi boşqablara çəkib gətirdi. O, gözaltı Şəfəqin çəkinə-çəkinə çörək kəsməsinə, ağzına qoyduğu yeməyi çeynəyib udmasına diqqət yetirdi. Axır ki, dözməyib: — Şəfəq, aclıq zəmanəsi deyil, ehtiyatla, qənaətlə yeyəsən, doyunca naharını elə, — dedi. — Narahat olma, Süsən, axı bilirsən ki, mənim yeməyim azdı, — deyə Şəfəq cavab verdi.

Nahardan sonra Güldanə xudahafizləşib evinə getdi. Sonra Süsən Şəfəqi öz otağına apardı. Evin ortasında yataq dəsti vardı. Onun da hər iki tərəfində stul qoyulmuşdu. O, stullardan birini Şəfəqə, o birisini də özünə götürdü. Şəfəq oturmaq istəyirdi ki,

sol divarda Süsənlə yoldaşının — Şəfinin böyüdülmüş şəkillərinin asıldığını gördü. Şəklə yaxınlaşdı. Diqqətlə baxdı. Qara kostyum, ağ köynək, qara qalstuk vurmuş, qapqara şəvə kimi saçlarını arxaya daramış bu oğlanın geniş alnı, o qədər də böyük olmayan burnu, qonur gözləri vardı. Baxanlardan heç kəs onda xeyirxahlıqdan savayı cizgi axtarmazdı. İnsafən, Süsən ona, o da Süsənə çox yaraşırdı. Hər ikisinin gözlərindən sevinc, məmnunluq duyulurdu. Şəfəq ixtiyarsız halda gülümsündü, sonra da gəlib stulda əyləşdi. Süsən ona baxaraq:

— Gülməkdə xeyir ola?

— Xeyir olmamış nə ola bilər ki? Yadındamı, sən həmişə yataqxanada qismətinə çıxacaq, ərə gedəcəyin adamın üz-gözündəki bəzi cizgiləri deyərdin.

— Necə bilirsən, varmı, Şəfəq?

— Var, bacım, var. Xoşbəxt olmağa layiqsiz. Ərinin kimliyini bilmirəm. Sən də çox əziyyət çəkmisən, Süsən.

— Atalar yaxşı deyib: “Kiminin əvvəli, kiminin axırı”. Görək axırımız necə olacaq?

— Eləyə qalsa, çətin günlərini yaşamısan, Süsən. Bundan sonrakı işıqlı günlərin olmalıdı.

— Allah ağzından eşitsin.

— Uşaq məsələsi necə?

Süsən əvvəl ucadan qəhqəhə çəkdi, sonra astadan qarnına işarə eləyərək: — təzə-təzə gözləyirik, — dedi.

— Sağ-salamat olsun. Xoşbəxtlik gətirsin.

— Sağ ol. Yaxşı. Keçək əsas məsələyə. Bayaq Güldanənin, Nərminin yanında özüm dərinə getmək istəmədim. Başına gələnləri bircə-bircə mənə danış görüm.

Şəfəq ağlamsındı.

Süsən:

— Çaya çatmamış çırmananlardansan. Bir şey olmamış ağlamaq köhnə peşəndi.





Şəfəq gözünün yaşlarını əllərinin içi ilə sildi. Baş verənlərin hamısını açıqlamasa da, evdən çıxmasında Tubunun, qayınanasının “xidmətlərini” və ərinin də onların fitvasına getməsini deməyə məcbur oldu. Söhbətin sonunda da: — Uşağımı əlimdən alıb məni evdən qovdular, — dedi. Süsən əvvəl tutuldu, handanhana sakit səslə soruşdu:

— Uşağın oğlandı, qız?

— Oğlan.

— Nə vaxt olub?

— Dekabrın iyirmi doqquzunda.

— Xoşbəxt olsun. Şəfəq, biz bir-birimizi yaxşı tanıyırıq, bacı. Deməsən də bilirəm. Deyilənlərin hamısı quramadı. Səni evdən çıxarmaq üçün bir bəhanədi. Şəfinin gələn vaxtlarıdı. Deyirəm, bəlkə onu da götürüb gedim sizə. Ərini, qayınananı, baldızını başa salaq. Deyəm, balam, Şəfəq o əxlaqın, tərbiyənin sahibi deyil. Onun yataqxana həyatı mənimlə birlikdə keçib. Burda düşmən əli var. Sizin ailənizi nahaq yerə dağıdırlar. Bir əlcə uşağı yetim qoyurlar. O uşağın günahı nədi ki, ana nəvazişinə, ana nəfəsinə həsrət qalsın.

— Yox, Süsən. Artıq aramızdakı hörmət, izzət pərdəsi götürülüb. Elə düşünmə ki, onu mən götürmüşəm. Əsla yox. Baldızım Tubunun təhqiramiz sözlərini götürə bilmirəm. Qayınanamın ikiüzlülüyünə, riyakarlığına dözmürəm. Ərimlə daha bir yastığa baş qoya bilmərəm. Məni təkcə oğlum Hikmətin taleyi düşündürür. Onu da mənə verməyəcəklər.

— Onların ağzı nədir? Qanun var, qayda var. Dəvədən böyük fil var.

— Var, bacım, var. Belə qərara gəlmişəm ki, gedim babamın yanına. Babamın təcrübəsi çoxdu. O, belə şeyləri həyatda çox görmüş, çox eşitmiş olar. Ondan məsləhət alım. Atalar deyib: “Məsləhətli don gen olar”.

— Mən sənə necə kömək eləyə bilərəm, Şəfəq?

— Özüm öz taleyimi bir yola qoya bilmirəm, sən neyləyə bilərsən? Allah sizi xoşbəxt eləsin, Süsən. Mən biləni Şəfi pis oğlan olmaz. Həyatınızı qurmusuz, əl-ələ verin, cani-dildən yaşayın. Bizim ailəmizi dedi-qodu dağıtdı. Etibarsızlıq, inamsızlıq, sədaqətsizlik dağıtdı. Kim istər ailəsi dağılsın? Pis günə qalsın? İnanırsanmı, bu iki gündə mən yüz dəfələrlə ölüb-dirilmişəm. Hadisələr elə gözlənilməz hal aldı, elə sürətlə dəyişdi ki, nə baş verdiyini özüm də bilmədim. Hümmətin axırıncı dəfə dediyi faktları özündən qondarması sanıram. Mənim bədənimdəki nişanələri ondan savayı kimsə görməyib axı. Sanıram ki, bu, böyük qeyrətsizlikdi, namussuzluqdu. Çox fikirləşirəm, sonunu bir tərəfə çıxara bilmirəm.

— Bir az da fikirləş, Şəfəq. İnsan nə qədər vicdanını itirsə də, onda yenə az-çox xeyirxahlıq, mərhəmət hissi qalır. Nə qədər girdaba batsa, həyatın dibinə yuvarlansa da, onda "mən" duyğusu olur. Heç bir kişi arvadına elə böhtan atmaz. Lap bərk ayaqda deyər ki, səninlə yaşamaq istəmirəm, bizimki tutmur. Səninki səndə, mənimki də məndə. Onda qalmışdı ki, siz xeyli müddət bir-birinizi sevmisiz, istəmisiz, bir yastığa baş qoymusuz, dediyin kimi, sənə diqqətli olub, qayğı, nəzakət göstərib, bir sözünə iki deməyib. İndi birdən-birə nə oldu? Yox, Şəfəq, yaxşı-yaxşı fikirləş. Həqiqəti üzə çıxara bilsən, hər şey öz qaydasına düşər.

— Daha çətin, mənim bacım.

— Yaxşı, onda sən de görək neyləyək?

— Səndən çox razıyam, Süsən. Məni görcək dərdimə şərik çıxdın. Məni evinə gətirdin, qayğı göstərdin. Sabah açılsın, babamın yanına gedim. Bəlkə o bir çarə qıldı.

— Gərək ki, bir zaman demişdin babanın arvadı sənin ögey nənəndi. Səhv eləmirəmsə bir oğlu, iki qızı var.

— Hə.

Süsən istədi desin ki, orada da vəziyyətin yaxşı olmayacaq.





Bir azdan ögey nənə sənə buynuzlar göstərəcək. Sonra da düşündü ki, Şəfəq fikrində qətidi. Dərd içində boğulan bu zavallının çiyinlərinə yeni yük endirməyim. Ümidini qırmayım. Ümidin qırılması yaşamaq arzusunun söndürülməsidi, insanın mənən öldürülməsidi. Həyatın ağır məngənəsindən qurtula bilməyən kəsin öz-özünə qəsd eləməsinə yönələn açıq-açığına bir çağırışdı. Şəfəqə özgə məsləhət verə bilməyən Süsən dedi:

— Bizim iki otağımız var, Şəfəq. Bəlkə siz Nərminlə o otaqda yaşayasız. Biz də Şəfi ilə burda. Nərmin çox yaxşı, ürəyiaçıq qızdı. Şəfini, doğrudu, sən tanımırsan. O, da sənin burda qalmana heç vaxt etiraz eləməz. Zaman hər şeyi həll eləyəndi. İnanıram ki, çox çəkməyəcək həqiqət üzə çıxacaq. Hər şey açılacaq. Günahkar ortaya çıxacaq. Hümmət səhvini anlayacaq. Əməllərinə görə böyük peşmançılıq hissi keçirəcək... Onda səni axtaracaq. O da övladını analı yetim qoymaq istəməz.

— Bəlkə də sən deyən olacaq, Süsən. Ancaq bu işi babamdan gizlin saxlaya bilmərəm, bacı. Bu dünyada bir ümidgahım, qibləgahım var. O da babamdı. Çoxdandı onun da üzünə həsrətəm, bacı. Onu görmürəm. Əli işdən qalıb. Son dəfə mən onu yoxlamağa, vəziyyətini öyrənməyə gedəndə yorğan-döşəkdə xəstə idi. Yazıq baba... Onun da dərdi böyükdü. Bəlkə də onun yorğan-döşəyə düşməsində mənim də payım var. İndi-indi anlayıram ki, valideynlər niyə oğlan arzulayırlarmış? Qız yükü, duz yükü. Hər addımı ata-anasına dərdi-sər, böyük möhnət. Oğlan olsaydım babama da arxa olardım, dayaq durardım. Bircə dəfə binəva babamın halına yana bilərdim. Qolundan tutardım. Evimə, ailəmə gətirərdim. Sevindirərdim...

— Yox, ay Şəfəq, mən elə düşünmürəm. Oğlan ya qız olsun. Fərqi yoxdu. Adamın gərək qeyrəti ola, bacım. Qeyrətsiz oğuldan, arı, namusu olan kor qız yaxşıdı.

— Süsən, elə bil ki, başım xarab olub.

— Adam əsəbiləşəndə, işi düz gətirməyəndə bəzən elə olur.

Fikirləşə-fikirləşə ümidsizliyə qapılır. Sonralar yavaş-yavaş işlər düzəlir. Hər şey qaydasına düşür.

— Təki sən deyən olsun.

— Görürəm, babanın yanına getmək qərarın qətidi.

— Hə.

— Şəfi Gəncə-Bakı marşrutu üzrə sərnişin avtobusunda sürücü işləyir. Gəlsin, görək Bakıya nə vaxt yola düşəcək. Bəlkə elə həmin avtobusla da səni yola salarıq. Ancaq səndən bir xahişim var, bizi unutmayasan. Onsuz da Hümmət arxanca nə vaxtsa gələcək. İnanıram, səni geri qaytaracaq.

— Yox, qayıtmayacağam.

— Övladın üçün hər şeyi eləməlisən, Şəfəq!

Elə bu dəm qapı açıldı. Şəfi otağa keçib salam verdi. Tanımadığı qadını evdə görcək üzündə təbəssüm yarandı. Süsən qonağın Şəfəq olması barədə ərinə bildirdi. İlk görüşləri olsa da, Şəfəq barədə Şəfi arvadından çox eşitmişdi. Ona görə də xoşhallıqla dedi:

— Nə yaxşı gəlmisiz?

Bu sözdən əvvəl Şəfəq tutuldu. Ona elə gəldi ki, Şəfi onun bura gəlişinin səbəbini soruşur. Elə ki o, sözünün ardını gətirdi: — Həmişə siz gələsiz! — dedi, onda Şəfəq başa düşdü ki, onun barəsində düz düşünmür. Məqsədi arvadının rəfiqəsinə olan hörmət və ehtiramını göstərməkdi. Bunu duyan Şəfəqin üstündən elə bil dağ götürüldü. Süsən ərinin ac olacağını düşünüb mətbəxə keçirdi ki, Şəfi yeyib-içib gəldiyini bildirdi. Sonra da bacısı Nərminin harda olmasını soruşdu. Süsən:

— Biz Şəfəqlə otaqda söhbət eləyirdik. O da gedib yatıb.

— Düşündüm ki, xəstələnə bilər.

Süsən üzünü Şəfəqə tutaraq gülümsündü. Sonra:

— Yataqxanada bir otaqda qalmışıq Şəfəqlə.

— Bilirəm.

— Hardan bilirsən?





— Azmı danışmısan Şəfəq barədə?

— Hə...

Hamı gülüşdü. Süsən:

— Bakıya nə vaxt qayıdacaqsan? Şəfəq Göyçaya getmək istəyir.

— Qapıdan girməmiş yola salırıq?

— Özü elə istəyir.

— Səhər saat 10-da yola çıxırıq. Siz hazırlaşarsız. Saat 10-a işləmiş gəlib evdən götürərəm.

Şəfəq böyük sevinc və xoşhallıqla:

— Allah sizi xoşbəxt eləsin.

Şəfi təşəkkürünü bildirdi.

* * *

Nə qədər yorğun-arğın olsa da, əsəb gərginliyi, daxili sarsıntı keçirsə də, axşam yatağa gec girsə də, Şəfəq yuxudan erkən oyandı. O, Nərminə tərəf çevrildi. Yeniyetməlik dövrünə qədəm qoyan, dərdi-sərdən, həyatın acı qovğalarından uzaq bu qız mışıl-mışıl yatırdı. Şəfəq Nərmin oyanmasın, onu narahat eləməsin deyə çox ehtiyatla yorğanın altından sıyrılıb ayağa qalxdı. Günəş doğmuşdu. Onun parlaq şüaları həyətdə dibçəklərə əkilmiş güllərin, çiçəklərin üzərinə səpələnmişdi. Pəncərənin nəfəsliyindən otağa axan təmiz, xoş havanın ətri öz-özündən adamın ciyərlərinə dolurdu. Dolduqca da adam özündə bir yüngüllük, sərməstlik duyurdu. Şəfəq — “Yəqin Süsəngil də hələ yatmış olarlar” — deyə düşündü və qayıdıb yatağında uzandı. Oğlu gəlib gözləri önündə dayandı. Axı hər gün bu vaxtlar o, uşağını yedirir-içirirdi. Düşündü: “Görəm, balam yuxudan qalxıbmı? Qalxıbsa, ağlamır ki? Körpə balama görəsən, vaxtlı-vaxtında yemək verirlərmi? Verilən yeməyi alırmı mənim balam?! Yoxsa, ağlayır? Mənim kürrüyümü eləyirmi mənim oğlum?“ Düşün-

dükcə, Şəfəqin hissləri coşdu. "Körpə balam oğlum" — deyib ağlamaq istədi. Özünü güc-bəla ilə ələ almağa çalışdı. Nə qədər çətin olsa da, Şəfəq hissini, emossiyasını axır ki boğa bildi. Bu dəm şüşəbənddən Şəfinin səsi eşidildi:

— Süsən, mən gedirəm, bir azdan maşınla gələcəm, Şəfəq xanım hazır olsun. Gələndə, qadası, biz ləngiməyək.

Süsən: — Yaxşı, — deyib ərini həyət qapısınadək ötürdü. Birdən Şəfi geriyə döndü. — İndi gəl səni..." — dedi. Süsən gülümsündü və astadan dedi: — Bayaqkılar bu günə bəsindi, qalanını da gələndə".

Süsən: — Şəfəq! Şəfəq! — deyə iki ağız çağırdı. O: — Gəlirəm" — deyib otaqdan çıxdı və Süsənin səhər naharı hazırlayıb stolun üstünə yığdığını gördü:

— Ay qız, sən bu axşam yatmamısan? — dedi.

— Yox, qadan alım, niyə ki? Yatmışam, lap doyunca. Dovşandan çox yatan yoxdu, qazancı nədi ki?

Hər ikisi güldülər. Süsən əlavə elədi:

— Hər gün Şəfi tezdən qalxır. Uşaq kimidi. Gərək onu yedirib-içirib yola salam. Mən qalxmasam, ac-susuz evdən çıxır. Bir də ki neyləyim ey, çörək ağacımdı. Başımın tacıdı. Allah eləməsin. Başına bir iş gəlsə, ağzıma daşlar, vallah, mən ölərəm.

— Mehriban olun.

— Dayanma, bir loxma kəs. Uzun yoldu. Bir azdan yola çıxacaqsız. Bayaqdan səni gözləyirəm. Mən də acam. Birlikdə səhər naharı eləyək.

Şəfəq təbi çəkmədiyini dedikdə Süsən qəti şəkildə etirazla:

— Bəsdi, az danış, — dedi. — Keçmiş adətlərin başındadı. Adam evdən çıxar da. Əsəblər soyuyanda hamı ayıq başla fikirləşəcək. Onda dava-dalaş öz təsirini itirəcək, tutulan işə hamı peşmançılıq çəkəcək. Yadında saxla, gec-tez uşaq sənindi. İndi Bismillah eləyək.

İki rəfiqə nahara oturdular. Yataqxana həyatı gəlib durdu hər





ikisinin gözləri önündə. Qayğısız-qadasız illər. Arzuların qanadlandığı çağlar. Keçən günlər bircə-bircə xatırlanır. Birdən Süsən dayandı. Şəfəqin üzünə baxdı və dedi: "Yadındamı fabrikdən qayıdırdıq ha. İki oğlan qarşımızı kəsdi. Tanış olmaq istədilər. Biz razılaşmadıqda gödək, gömbul oğlan dedi: — Adam ölər, ay qız, səninçün. — Sən də eləmədin tənbəllik, oğlanın sifətinə bir sillə çəkdin. Yazığın papağı düşdü. Əyilib papağını götürəndə yumşaq yerinə bir təpik də vurdun. Uzun arıq oğlan necə dedi: — Lələ, bunlar xuliqandılar. Gedək, özümüzü işə salarıq. — Mən onda yamanca qorxmuşdum, Şəfəq".

— Hə. Yadıma düşür. Heyf o günlər getdi. Bir də onu görməyəcəyik.

Süsən nahardan sonra ayağa qalxdı. Süfrəni yığışdırıb mətbəxə keçdi. Bayaq suda qaynatdığı bir neçə yumurtanı, çörəyi, istiotu, duzu qəzetə bükdü. Onu da salafan torbaya qoydu və şüşəbəndə gətirib Şəfəqə dedi:

— Yolda aca bilərsən. Atalar necə deyib: "Ehtiyatlı oğulun anası ağlamaz". Doğrudu, biz oğul deyilik. Əslində, oğuldan da betərik.

Şəfəq köksünü ötürdü:

— Uzun yol deyil, Süsən, iki saata evdə olaram.

— İndi keçək o biri məsələyə.

— Nə məsələdi o?

— Yadındamı? Yataqxanada qalanda qonşu otaqda yaşayan qızlarla kinoya gedəcəkdik. Mənimsə geyməyə nə təzə ayaqqabım vardı, nə də paltarım. Mən səninkiləri geyinib getdim. Kinodan çıxanda necə olmuşdusa, sənin paltarını cırdım. Otağa gəlib vəziyyəti sənə açanda dedin: — Eybi yoxdu, kefini pozma, zaman gələr, təzəsini alıb verərsən. — Bax, indi vaxtdı."

— Bununla nə demək istəyirsən?

— Dur gəl otağa.

Süsən Şəfəqin qoluna girib, onu otağa apardı. Əyilib çarpayı-

nın altından qara, böyük bir çamadan çıxartdı. Onu açıb içindən bir dəst boz rəngli kostyum, qırmızı rəngli yun jaket, bir cüt ayaqqabı çıxartdı. — Bunları geyin — dedi. Şəfəq imtina eləyərək geri çəkildi. Süsən böyük təkidlə:

— Qulaq as, Şəfəq, — dedi. Mən özgə deyiləm. Sən evindən-eşiyindən çıxıb gedirsən. Qohum var, qonşu var. Babanı istəyən, istəməyən də var. Hamı üst-başına fikir verəcək. Ola bilər ki, babanın yanında bir müddət ləngiməli oldun. Onda üstbaşını dəyişməli olacaqsan. Ayıbdı, belə olmaz.

— Axı...

— Qurtardıq.

Şəfəqin solğun yanaqları lalə kimi qızardı. Süsən təkidlə ondan paltarlarını dəyişməyi tələb elədi. Əlacsız qalan Şəfəq əynindəkiləri çıxarıb Süsən verənləri geyindi. Süsən dərhal Şəfəqin çıxartdıqlarını qəzetə büküb başqa bir salafan torbaya qoydu. Sonra da rəfiqəsini güzgünün qənşərinə çəkdi. Paltar Şəfəqə çox yaraşırdı. O, bu neçə gündə ilk dəfə idi ki, əlini darağa atırdı, pırpızlaşmış, qarışmış saçlarını darayırdı. Daraya-daraya da halına qəmlənirdi, kədərlənirdi, qəhərlənirdi. O, Süsənə dedi:

— Utanıram, Süsən. Sənin paltarında Şəfinin qarşısına necə çıxacam?

— Nədən utanırsan? Əvvəla, Şəfinin o paltarların alınmasından xəbəri yoxdu. Hələ ona bu barədə söz deməmişəm. İnsafən, özü də alıb-verdiyimə söz deyən deyil. İkincisi, dünən gəzməyə çıxmazdan əvvəl bu paltarları qonşu gətirmişdi. Ondan almışam. Qonşuda bu paltardan var. Deyərəm, bir dəst də gətirər. Üçüncüsü, Şəfi bilsə, onları mən sənə almışam, ya pay vermişəm, o, sevinəcək. Mən sevinirəm, fəxr eləyirəm ki, Şəfi ilə ailə qurmuşam. Xoşbəxtəm. Al bu pulları da, sənə lazım olacaq.

— Yox, yox, nə danışırsan?

— Çevirmə. Vaxt gələr, qaytararsan.

Şəfəqin susmaqdan, Süsənlə razılaşmaqdan özgə bir çarəsi





qalmadı. Onlar otaqdan şüşəbəndə çıxdılar. Stullarda əyləşərək Şəfinin yolunu gözləyirdilər ki, maşın siqnalı eşidildi. Süsəngil dərhal ayağa qalxdılar. Süsən selofan torbaları götürüb tələm-tələsik həyət darvazasının qarşısında dayanan avtobusa tərəf getdilər. Hər ikisi avtobusa qalxdılar. Süsən Şəfəqin boynunu qucaqlayıb üzündən öpdü. Sonra da bir-birilərinin gözlərinə baxdılar. Hər ikisinin gözlərində hədsiz nigarançılıq, təəssüf duyğuları parladı. Ürəklər yumşaldı, gözlər yaşla doldu. Dodaqlar səyridi. Süsən Şəfəqin hönkürtü ilə ağlayacağını düşünüb maşından düşdü. Bunu Şəfəq də duydu. Şəfi arxaya çevrilib: — Harda ürəyin istəyir, əyləş — dedi. Süsən maşının qabaq tərəfindən keçib Şəfiyə də uğurlu yol arzuladı. Şəfi arvadına təşəkkürünü bildirib maşını vağzala sürdü.

On dəqiqə keçər-keçməz radioda elan verildi: "Hörmətli sərnişinlər, Gəncədən Bakıya gedən sərnişin avtobusu üçüncü platformadan yola düşür". Bu dəm Şəfi artıq sükan arxasında idi və tezliklə maşını yerindən tərpətdi. Şəfəqə bir anlığa elə gəldi ki, ölüb, bu maşın onun cəsədini son mənzilə aparır. Bir daha o geri qayıtmayacaq. Neçə illər böyük arzularla, diləklərlə yaşadığı bu şəhərdən birdəfəlik vida eləyir. Bir zaman böyüyüb ərsəyə çatdığı babasının evindən köçərək hansı hisslərlə bu şəhərə gəlmişdisə, indi də ondan betər duyğularla kor-peşman geri qayıdırdı. Bir zaman qoca babasından, indi isə doğma, əziz balasından nigarançılıq keçirirdi. Geniş, hamar magistral yolda böyük sürət götürən maşında Şəfəq öz aləminə qapılmışdı. Maşın gedirdi, özü ilə dərd-səri yerə-göyə sığmayan Şəfəqi də aparırdı. Bəli, Şəfəq öz yalqız, tənha dünyasında idi. Elə bir dünya ki, orda yaşantılı həyat, sevda istəyi solmuşdu. Orda peşmançılıq, qəm, qüssə, kədər, ürək yandıran göz yaşları hökm sürürdü. Sevincdən, fərəhdən, qürurdan, rəğbətdən, arzudan, amaldan, yaşamaq eşqindən əsər-əlamət yox idi. Şəfəq ətrafa baxa bilmirdi. Ona elə gəlirdi ki, maşın hərəkət eləmir, sadəcə olaraq yüyrük

kimi öz yerində yırğalanırdı. Yırğalandıqca da qəlbinin dərinliklərindəki qəm-qübarı, acı ruzgarı üzə çıxarır, vaxtı ilə irinli-çirkablı, sonralar qaysaqlanan yaraların üzünü sürtüb açır, daha kəskin göynərti versin deyə üstünə duz səpirdi. Ağrı-acıları daha da şiddətlənən Şəfəq var gücü ilə gözlərini yumurdu. Halına-xislətinə hələ yaxşı bələd olmadığı, yaşadığı, ömür-gün sürdüyü həyatın çirkab və girdablı sifətinə baxmaq istəmirdi. O, sadəcə olaraq indi düşdüyü hala acıyırdı və heç vaxt inana bilmirdi ki, həqiqət bu dərəcədə öz məcrasından çıxar, haqq-ədalət mizan-tərəzisi əyilər. Şəfəq gözlərini bərk-bərk yumduqca yan-yörəsindən ayrılır, xəyalı onu əri Hümmətlə olan ilk tanışlığa, xoşbəxt sandığı o yalançı, göz qamaşdırıcı anlara aparırdı. Körpəsini dünyaya gətirdiyi və bəslədiyi keşməkeşli günləri xatırladı. Öz-özünə dedi: — Yadındamı, Hümmət? İlk görüşümüz? Mənim arxamca gecə-gündüz gəzdiyin çağlar? Qəlbini mənə açdığın anlar?! Dediyin xoş sözlər? Gəncə çayının sahilində çəkinə-çəkinə mənimlə yanaşı addımlamağın? Bağladığımız əhdlər? Verdiyimiz sözlər? Pak və təmiz duyğulu sevincdənmi, sevgidənmi, məhəbbətdənmi bədənimizin titrəməsi... İndi də yadıma düşəndə dəhşətə gəlirəm. Elə bilirdim səninlə birlikdə atdığım addımlarımın hər biri mənim xoşbəxtliyimin, səadətimin ayrı-ayrı məhək daşları olacaq. Mənə səni sevirəm, — deyəndə elə bilirdim yaşadığım dünyanı mənə sən bəxş eləyirsən, Hümmət. Mən o gecəsi yata bilmədim. Sən mənim gözlərimdən bir an belə kənara çəkilmədin. Oturub-durub, çarpayıda uzanıb sənin barəndə düşünürdüm. Bunun əvvəllər nə olduğunu bilməzdim. Açığını deyim ki, mənə əzab-iztirab verən duyğuların sevgi olduğunu mən lap sonralar bildim. Səni sevirdim, Hümmət, lap çox. Sən mənim ilk sevgim, ilk məhəbbətim olmusan. Allah özü şahiddi ki, səndən savayı qəlbimi kimsəyə verməmişəm. Ancaq sənin barəndə düşünmüşəm. Sənin üçün yanmışam, yaxılmışam. Elə bilmişəm, sən varsan, mənim üçün dünya var. Sən mənim





arxamda dayanan əzəmətli dağsan. Sənin yoxluğun mənim heçliyimdi, kimsəsizliyimdi. Xatirimdədi imkansızlığın ucbatından bir nişan üzüyünü barmağıma taxıb məni nigaha aparmağın. Evində cəmi-cümlətanı beş-altı adamla nigahımızı qeyd elədik. Düşünürdüm ki, işləyərik, qazanarıq, sonra hər şeyimiz olar. Var-dövlət, pal-paltar xoşbəxtlik deyil. Doğrusu, mən o zamanlar elə bilirdim ki, dünyanın ən xoşbəxtiyəm. Heç vaxt səndən ayrılmayacağam. Ağlıma da gəlməzdi ki, bacının yalanlarına, uydurmalarına, hiylələrinə aldanıb, inanıb üç ayı yenicə tamam olan balamı əlimdən alıb məni qapıdan qovacaqsan... Mən səni aldatmamışam, Hümmət, günahsızam. Məni canım qədər istəkli oğluma, körpə balama həsrət qoymağa sənin haqqın yoxdu! Allah bilir ki, mən haqlıyam, ədalətliyəm, safam, təmizəm. İnanmıram mənim ah-naləm yerdə qala. Günahkar cəzasına çatmaya. Mənim Allahdan və bir də qoca babamdan savayı kimsəm yoxdu. Güvənc yerim o böyük Yaradandı. Onun mərhəmət və qüdrətinə sığınıram! İnanıram ki, ulu Tanrım hər kəsə yerini göstərəcək, haqqı-sayını verəcək. Körpəcə Hikmətimin günahı nədi ki, əzab və iztirablar girdabına düşsün! Qaranlıq zülmətlər içərisində inləsin! Tufanlar qoynunda boğulsun! Ana nə olduğunu bilməyən körpə ana duyğusundan, ana hissindən, ana sevgisindən, ana məhəbbətindən məhrum olsun! Ana hissindən məhrum olan körpədən gələcəkdə insani keyfiyyətlər, insani hisslər gözləmək, ummaq haqdımı, ədalətdimi?

Mən hələ doğum evində ikən Hikmətimin üzünü görəndə az qala sevincdən ürəyim çatlayacaqdı. Onun gözlərinə baxanda bütün bədənim lərzəyə gəlirdi. Övladın nə olduğunu anadan yaxşı heç kəs bilə bilməz. Bunu ömrünün qürub çağlarını yaşayan, bir ayağı burda, bir ayağı o dünyada olan Qəhmər də biləydi gərək! Ananı övladdan ayıran insan Allah, cəmiyyət qarşısındakı məsuliyyətini dərk eləyəydi gərək! Heyf! Çox heyf! Anan da, bacın da, elə sən də o böyük qüdrəti başınız üzərində görmə-

diniz! Bircə dəfə vicdanınızın səsinə qulaq asmadınız! Kimsəsizliyim ucbatından mənə divan tutdunuz! Görək adil Allah onu götürəcəkmi? Ömründə bircə dəfə də olsun bircə misra şer yazmayan Şəfəq heç özü də bilmədən dərin düşüncələrə daldı, ağır dərddənmi, kədərdənmi, iztirabdanmı Hümmətə xitabən yandırıcı hisslərini şerə gətirdi:

Mənə könül açmışdın
Qəlbimi qırdın niyə?!
Hissim, duyğum dolaşıb
Həsrətəm ev-eşiyə!..

İnanmazdım heç kimə
Bilməzdim ki, nədir eşq.
Tez-tez yuxuma girdin
Məhəbbət şərbətini
Mənə heç kim yox, ancaq
Sən vəfasız içirtdin.

Səni sevirəm! — dedin
Sözlərinə inandım,
Varlığımla bağlandım
Adımı, ilk andımı
Sənsə neylədin, zalım?!
Ürəyimə dağ basdın.
Söylə buydumu qəsdin?!

Bu acı, zəhlə tökən, qəlb sızladan göz yaşları içərisində düşüncələrə qapılan Şəfəqə elə gəldi ki, başında qalın bir kitab var. Bu kitabın vərəqləri alın hissəsindən üzü kəllə tərəfə birdən-birə çevrildi. Onun düşüncələri qatış-bulaş oldu. Hər şey qarışdı. Yaddaş itdi. Nə eləyəcəyini bilmədi, əlləri ilə başını tutub bərk-bərk sıxdı. Ani olaraq "Dəli oldum", — deyə düşündü. Bir saniyə keçməmiş kitabın gicgaha tərəf çevrilən vərəqləri öz yerinə qayıtdı. Şəfəqin beynindəki pozğunluq ötüşdü. Yoxa çıxdı. Hər şey əvvəlki kimi bərpa olundu. Bu ani dəyişmə Şəfəqi yamanca qorxutdu. O, bütün olub keçmişləri unutdu. Öz-özünə dedi: "Belə getsə, deyəsən, dəli olacam. Aman Allah, özün mənə kömək ol. Xəstələnsəm, ağlımı itirsəm, halım necə olar? Küçələrdə avara-avara gəzib, ağzıbaşına danışıb adamların gülüş hədəfinə, qınağına çevrilərəm. Bu günümdə yaxın duranım, qolumdan tutanım yoxsa, elə vəziyyətdə arayanım, axtaranım, barəmdə düşünənim kim olar? Heç kim! Özünü ələ al, Şəfəq! İndən belə özün özünə arxa, dayaq olmalısan. Dərd-sərini özün çəkməlisən. Hansı aqilsə yaxşı deyib: "Hər kəsin taleyi öz əlindədi". Bəli, insan özü özünü yaşatmağı bacarmalıdı. Mən də artıq uşaq deyiləm. Yeni həyatın astanasındayam. Hələ qabaqda təsəvvür eləyə bilmədiyim nə qədər əzablı, iztirablı günlər görməli, yollar qət eləməliyəm. Nə qədər insanlarla üzləşməliyəm. Bədxahlarım da olacaq, xeyirxahlarım da. Gərək onları ayıra bilim. Vaxtı ilə ögey nənəm Şapərinin başıma açdığı oyunları, həngamələri indi də unutmamışam. Doğmaca babamın qazancından doyunca yeyə bilməmişəm. Ögey nənəm böyük qızı Elmiraya, kiçik qızı Kəbirəyə, oğlu Fərəcə bolluca xörək verəndə çox vaxt məni iş dalınca göndərərdi. Bəzən babama çatdırmayım deyə mənə xörəyin suyundan, bəzən də kiminsə artığından verərdi. Çox vaxt da gözüm yeməyin dalınca qalardı. Gündə neçə dəfələrlə bir şeyi bəhanə eləyib məni söyər, təhqir eləyər, ağladardı. Hərdənbir gecəyə-gündüzə salıb məndən babama deyərdi, qeybət qırardı. Babamı mənə qarşı çevirməyə çalışardı. Nə yaxşı ki, babam onun sözlərini qulaqardına vurardı. Hər dəfə də arvadına — "Uşağın üstünə az düş" — deyərdi. Heç yadımdan çıxmaz. Bir dəfə ögey nənəm məni "Əxlaqsız, pozğun" — deyə söyəndə babam onun sözlərini eşidib haqqı-sayını vermiş-

di. O gündən də arvad açıq-açığına mənə qarşı çevrilmişdi. “Gözüm onu görməsin” hissi ilə yaşamağa başlamışdı. Heç bir günahım olmadan məni evin küncünə salıb döymüşdü. Mən də hönkür-hönkür ağlayıb: — Bütün hərəkətlərindən xəbərdaram, — deyə uşaq sadəlövhlüyü ilə onu babamla hədələmişdim. Elə həmin vaxtdan da babama: — Ya mən bu evdə qalacam, ya da Şəfəq“, — demişdi. O vaxtdan babamın qara günü başlamışdı. O, hər dəfə təkliyə düşəndə: — Qızım, özünü gözlə, ona cavab vermə, qoy, nə deyir, desin, yaman günün ömrü az olar, — deyərdi. Doğrusu, o zamanlar babamın dediklərinin fərqinə də varmazdım. Sonralar mənimlə danışarkən onun səsinin titrədiyini, gözlərinin dolduğunu duymağa başladım. Bir dəfə babam dedi: — Qızım, ananın ətrini səndən alıram. Sənsiz yaşaya, dözə bilmərəm. Lap nə deyir-desin, hara gedir-getsin. Mən təəccüblə babamın üzünə baxanda o, əlavə elədi: — Allah insafsızın cəzasını verəcək. Mən bunu ağlıma belə gətirməmişdim. Bu söhbətdən neçə gün sonra babam mənə deyəndə ki, Gəncədə tikiş üzrə peşə məktəbi var. Oxuyanları yeməklə, geyimlə, yataqxana ilə təmin eləyir, bəlkə, qızım, səni o məktəbə aparım... Ölüm-itim dünyasıdı... Bu gün varam, sabah yox... Əlinə bir sənət alasan... Doğrusu, onda mən də sevindim. Lap sonralar başa düşdüm ki, babam arvadının mənə qəsd eləyə biləcəyindən qorxubmuş, bu səbəbdən məni Gəncəyə — məktəbə gətiribmiş...

Bir dəfə yay tətilində babamın yanına getmişdim. Şapərinin uzaq qohumlarından olan Salman qonaq gəlmişdi. Babam da xəstə yatırdı. Axşam yeyib-içdik. Gecə-gecədən keçənədək söhbət elədik. Qonağa yan otaqda yataq açıldı. Sonra biz də yatmalı olduq. Nə qədər çalışdımsa, o gecə yuxu məni aparmadı. Şapəri hamını yatmış bilib qonağın yanına keçdi. Sabah üzü, ilk xoruz banında öz otağına qayıtdı. Məni dəhşət bürüdü. Nə eləyəcəyimi bilməyib için-için ağlamağa başladım. Babama yazığım gəldi. Həmin vaxtdan Şapəriyə də, Salmana da nifrət oyandı...





Elə indi də nifrət eləyirəm. Qəribəyik biz insanlar. Bəzən kimliyini bilə-bilə, zəhləmiz gedə-gedə üz tuturuq nadanlara! Ağız açırıq nakəslərə! Mərhəmət diləyirik alçaqlardan!

Eh... Neyləməli?! Babamı üzümə tutub yenə Şapərinin yanına gedirəm. Yenə zavallı babamı dərdi-sərə salacam. Sinəsinə çalın-çarpaz dağlar çəkəcəm. Yox, baba! Sənə qurban olum. Yanında çox qalmayacağam. Sənin məsləhətlərinə ehtiyacım var. Sən mənimçün təsəvvürümə gətirə bilmədiyim həm anam, həm də...“

Öz dünyasına qapılıb boğunuq hisslər keçirən Şəfəq avtobusun Göyçaya nə vaxt çatdığını bilmədi. Şəfi arxaya çevrildi. — Şəfəq, — deyə səslədi. O, elə bil dərin bir yuxuda idi. Qeyri-iradi halda: — Hə, — deyə əyləşdiyi yerdən qalxdı. Avtobusun qabaq qapısına tərəf gəldi və diqqətlə Şəfiyə tərəf baxdı. Sürücü üzünü ona çevirmədən maşının sürətini bir qədər azaltdı və soruşdu:

— Şəhərin hansı tərəfinə gedəcəyik?

— Sizə əziyyət olar. Mən burda düşüb özüm gedə bilərəm.

— Yolu tanıyırsanmı?

— Hə.

— Onda yolu göstər.

— Bu küçə ilə düz axıra.

Şəfi maşını küçənin axırına qədər sürdü. Sonra yenə soruşdu:

— İndi hara?

— Düz sür, irəlidən sağa.

Şəfi maşını sürdü. Sahil küçəsi başlandı. Şəfəq dərhal:

— Şəfi qardaş, bu küçədə.

— Çox yaxşı.

Maşın bir az da getmişdi ki, Şəfəq dilləndi:

— Çatdıq, burda saxla.

Şəfi avtobusu saxladı və qapını açdı. Şəfəq balaca selofan torbaları götürdü. Şəfi də, Şəfəq də aşağı düşdülər. Əl verib xu-

dahafizləşdilər. Şəfi yenidən sükan arxasına keçdi. Əlli-altmış metr qabaqdan tini burulub gözdən itdi.

Uşaqlığı bu həyətdə keçən Şəfəq göy rəngli dəmir darvazaya yaxınlaşıb bir neçə dəfə qapını döydü. İçəridən kimsə — Gəldim — deyə dilləndi. Bir dəqiqə keçməmiş Şəfəq həyətdə ayaq səslərini hiss elədi. Qapı ağzında babasının böyük qızı Ema göründü. Qucaqlaşıb öpüşdülər. Şəfəq içəri keçdi. Eyvanda dayanıb gələn adamın kim olması ilə maraqlanan Şapəri Şəfəqi görcək ağız-burnunu əyişdirdi, guya onun gəldiyini bilməyib üzünü çevirib otağa keçdi. Bu Şəfəqin də, Emanın da nəzərindən qaçmadı. Ancaq Şəfəq Şapərinin xasiyyətinə yaxşı bələd olduğundan ondan bundan artıq hərəkət gözləmirdi. Gəlib eyvana çıxdılar. Şəfəq: — Evdə kim var? — deyə Emadan soruşdu. — Anam evdədi, Fərəclə Kibi dərsdədilər. Ata da indi gələr, harasa çıxıb, — deyə dilləndi. Evə keçdilər. Şəfəq əlindəki torbaları eyvanda divara söykədi, özü də Emanın ardınca içəri keçdi. Şapərinin boynunu qucaqlayıb öpdü. Vəziyyətlərini, güzəranlarını xəbər aldı. Şapəri ağır, etinasız halda cavablar verdi. Oturması üçün Şəfəqə yer göstərdi. O, üzünü Emaya tutaraq: — Qurban olum, hazır çayınız varmı, boğazım quruyub, — deyə soruşdu. O da başı ilə "hə" işarəsini verdi, özü də keçib bir stəkan çay süzüb gətirdi, Şəfəqin qarşısına qoydu. Çaydan bir-iki qurtum götürmüşdü ki, babasının həyətdə öskürək səsi eşidildi. Şəfəq eyvana çıxdı, oradan da tələm-tələsik həyətə düşdü. Xurma ağacının altında baba ilə nəvə qucaqlaşdılar. Görüşüb, öpüşüb hər ikisi kövrəldi. Babanın da, elə nəvənin də gözləri doldu. Bunu kənardan hiss eləyən Emanın da ürəyi yumşaldı. Haçandan-haçana eyvana çıxan Şapəri ərinin kövrəldiyini, qəhərləndiyini görcək dedi:

— Yekə kişidi, düşük-düşük indi oturub ağlayacaq. Bu, belə olduğu halda körpə uşağa necə başa salasan ki, bu həyətdə göz yaşları tökmə. Ağlamaq, sıtqamaq nifrinlik əlamətidi.

Şəfəq Şapərinin dediklərini sövq-təbiiliyi ilə qarşıladı. Baba





isə eşitmirmiş kimi arvadına etiraz etmədən üzünü Emaya tutaraq: — Uzaq yol gəlib, çay-çörək hazırla, — dedi. Sonra Şəfəqin qoluna girdi: — Günəş hardan doğub? — deyə düşündü. Baba ilə nəvə evə getdilər. Ema atası üçün də bir stəkan çay gətirdi. Şəfəqin bayaqdan stəkanda qalan çayı soyumuşdu. O, bərk susadığından isti-soyuqluğuna varmadan stəkandakı çayını içdi. Zeynal kişi gözlənilmədən soruşdu:

— Qızım, məktubda yazmışdın ki, oğlun olub. Adını da Hikmət qoymusan. Bəs uşaq hanı? Onu görmürəm. Yoxsa, qayınananın, baldızının yanında qoyub gəlmisən. Hə... Qızım, mən biləni o, çox körpədi.

— Hə, baba, elədi. Qoyub gəlmişəm. Özü də birdəfəlik.

— Nə?

Sanki Zeynal kişinin başına qaynar su töküldü. Nəvə məsələni təfərrüatı ilə danışdıqca baba ilan kimi qıvrılır, yanırdı. Şapəri də odlandı. Qadının odlanmasına da səbəb o idi ki, birincisi, əlqolu bağlanırdı. Şəfəq ona "nəzarətçi" olardı, ikincisi, nə vaxtsa ona da bu evdən yardım düşə bilərdi. Sanki babanın üstünə dağ çökdü. Dərindən ah çəkdi: — Sənin də taleyin ananınkına bənzədi, — dedi. Şapəri fürsəti əldən vermədi:

— Qızışıb ərə getmək asandı. Gərək özünü saxlaya biləsən. Od yanmayan yerdən tüstü çıxmaz. Gör, başına kül, a Zeynal, nəvən nə işlərdən çıxıb ki, üzüqara üstünə qaytarıblar. İndi biz qonşulara nə deyək? Başına necə papaq qoyacaqsan? Mənim iki qızım, bir oğlum var. Gəlmisən, babanın evidi. Bir gün, iki gün, beş gün, lap bir ay yaşaya bilərsən. Daha ordakı hikkələrini, qızışmalarını burda eləyə bilməzsən. Sənə o imkanı vermərəm ki, mənim balalarımın da üstünə sənin çirkablı suyun sıçrasın.

Şəfəq Şapərinin üzünə mənalı-mənalı baxdı. Özlüyündə dedi ki, sən də mənim kimi bədbəxtsən, Şapəri nənə. Sənə düçar olduğu üçün elə babam da bədbəxtdi. Sənin ucbatından mən də bədbəxtəm. Bu ağıl, mərifət səndə var, inanmıram ki, doğduq-

ların da bədbəxt olmasın...

Baba dərindən bir ah çəkdi. Əlini dizinə vurdu. Nə edəcəyini bilməyib cibindən tənbəki kisəsini çıxartdı, dəmisini doldurdu. Yandırıb çəkmək üçün həyətə düşdü. Özü ilə böyük dərdi-sər gətirən Şəfəqin də havası çatışmadı. O, da qalxıb babasının arxasınca otaqdan çıxdı. Onun gedişini müşahidə eləyən Şapəri: — Bircə qəhbəmiz çatışmırdı, — dilləndi. Şəfəqə yazığı gələn Ema dərhal: — Öyrənmisən hamıya ad qoymağa, bu dil ki səndədi, görək bizə nə ad qoyacaqlar, — dedi.

Şəfəq babasını həyətdə görmədi. Ancaq Şapərinin sözündən ona bir şey aydın oldu ki, bu evdə qalmasının da həddi var. Gec-tez, dava-dalaş salmadan o, özü üçün bir yer tapmalıdır.

* * *

Axşam qaranlığı çökürdü. Eyvanda yanan elektrik lampasının işığı qaranlığın qol-qanadını doğrayıb tökürdü. Qaranlığın tikə-parası, tör-töküntüləri canlarını qurtararaq həyətdəki gilas, xurma, pırnıq və darvazanın yanındakı böyük şah budaqlı, başınadək tənək sarmaşmış tut ağacının böyür-başında gizlənmişdi. Həzin əsən meh lampanı tərpətdikcə ağacların gövdəsini, budaqlarını üzlərinə sipər çəkən qaranlığın tör-töküntüləri də işığın qorxusundan oyun zamanı topun dəyməsindən çəkinən, qaçan, özünü o yan-bu yana atan uşaqlar kimi onlar da titrəşirdilər. Özünü çulğalayan bədbəxtlik, səfalət, rəzalət, əsarət və yaramazlıq batalqasında boğulan Şəfəq hansı yolla gedəcəyini düzəməllicə təsəvvür eləyə bilmirdi. Dərdi nə qədər ağır olsa da, Şapərinin yanında o, babasının bu axşam onunla söhbətə oturmasını heç cür istəmirdi. O, yaxşı bilirdi ki, söhbət açılan kimi Şapəri ərini ağına-bozuna baxmadan təhqir eləyəcək, onu abırdan salacaq. Zeynal kişi həyətdə dəmisindən bir-iki qüllab götürdü, Emaya parçı su ilə doldurmasını və vannanı eyvana qoymasını tapşırdı. Ema atasına başını qaldırıb endirməklə "yaxşı" cavabını verdi. Sonra qız nəsə fikirləşib evə keçdi. Şəfəq bunu görcək tələm-tələsik aşağı düşdü, babasının dediklərini yerinə yetirdi. Zeynal kişi ağır-ağır eyvana çıxdı. Corablarını, pencəyini çıxartdı. Köynəyinin qollarını dirsəyə qədər qatladı. Dəstəmaz aldı. Sonra da eyvanın yuxarı başında namaz qılmağa başladı. Çoxdandı Şəfəq babasının namaz qılmasını görməmişdi. Onun məlahətli səsini eşitməmişdi. Yazın mülayim havası adama ləzzət verirdi. Namazdan sonra baba dedi: — A bala, evdə adam sıxılır, çöldə yaz havası var, eyvanda oturmağın vaxtıdı". Sonra da üzünü Şəfəqə tutaraq: — Uşaqlarla stol, stulları eyvana çıxarın, — dedi və dərhal da: — Fəriş! Fəriş! — deyə çağırdı. Şapəri otaqdan qışqırdı: — A kişi, boğazının dərin yerinə salma, qonşular səsinə köçəcək. Zeynal kişi özünü saxlaya bilməyib arvadına cavab verməyə məcbur oldu: — Qudurmusan, nə böyük qanırsan, nə də kiçik, məni qoymusan uşaqların yerinə. Şapəri bunu gözləyirmiş kimi: — Səni dəli mən yox, əziz-xələf nəvən eləyib, — dedi. Zeynal kişi əlini saqqalına, bığına çəkdi, sonra da başı ilə nəvəsinə: — İşində ol, baş qoşub cavab vermə, — deyə astadan pıçıldadı. Atasının çağırışına Fərişin gəlmədiyini görən Şəfəqlə Ema stol-stulları eyvana çıxartdılar. Baba stullardan birində əyləşib dəmisini yandırdı. Şəfəq mənasız nəzərlərlə gözlərini babasına zillədi. Zeynal kişi tüstünü içəri çəkib ağzından, burnundan kapalla çölə buraxırdı. Deyirlər iztirab yaşlı adamlarda da uşaqlıq hissləri oyadır. Ürəyi muma dönən baba nəsə fikirləşdi. Sanki nəvəsinin ürəyindən keçənləri oxuyaraq dedi:

— Bunların yanında vəziyyətini danışma, qızım. Səni də, məni də hörmətsiz eləyir bu nadan. Nə sözün var, ikilikdə mənə de.

Babasının sözləri ürəyincə olan Şəfəqin gözlərində məşum, qeyri-adi bir işıq parladı. Nəvə səsini çıxarmadan əvvəl kirpiklərini qaldırıb endirdi, sonra da başı ilə razılığını bildirdi. Tənbəkinin iyi ətrafı bürümüşdü. Çay, şam naharı hazır olan kimi

hamı stolun başına yığışdı.

Şapəri ertədən qızartdığı kartofu stola gətirib qoydu. Uşaqlar əvvəlcə yeyib içdiklərindən heç kəs süfrəyə əl atmadı. Təkcə Şapəri süfrə arxasında əyləşdi. Bir neçə tikə kəsdi. Açıq-aydın hiss olunurdu ki, onun da yemək-içməyə ehtiyacı yoxdu. Baba təndir çörəyinin qıçalarını götürdü, ağzında bir dənə də dişi olmadığından qıçaların üzlərini soydu, içini yumurlayıb ağzına qoydu. Ağzının suyu və çay qurtumları ilə isladıb damaqları ilə çeynəyir, çətinliklə boğazından keçirirdi. Hərdənbir bitki yağında qızardılmış kartof qıçalarından da ağzının dadı dəyişsin deyə yeyirdi. Şəfəq bu mənzərəni müşahidə elədikcə insani hisslərini itirmiş Şapəriyə ürəyində lənətlər yağdırır, babasına yazığı gəlirdi. Süfrə yığışdıqdan sonra Şapəri üzünü ərinə tutaraq sakit bir tərzdə dedi:

— Zeynal, bayaq Şəfəq dedi ki, ərindən, uşağından ayrılıb. Doğrusu, bu mənə təsir eləyir. Əvvəla, cavan gəlindi. Bunun indidən dul qalması Allaha da xoş getməz.

Kişi Şapəriyə tərs-tərs baxaraq boğazını arıtladı. Fikirləşdi ki, bundan arvadı nəticə çıxarar. Söhbəti dəyişər. Artıq-əskik söhbət eləməz. Şapəri ərinin hərəkətlərindəki mənanı dərhal tutsa da, özünü o yerə qoymadı. O, fikrini tamamlamağa başladı:

— Kənddə Cabbar kişinin arvadı ölüb. Deyirlər dul arvad axtarır. Baxma, kişinin yaşı çox olsa da, canı hələ ki, suludu. Budu ha. Mən özüm hələ qız ola-ola yaşlı dul kişiyə gəlməmişəmmi? Eşitdiyimə görə, Cabbar uşaqlarından ayrı yaşayır. Yaxşı evi, malı-madarı. Sabah yıxılıb ölsə, hər şeyi Şəfəqə qalacaq. Gəl məni eşit, kişi. Cabbara arvadarası xəbər göndərim, gəlsin. Maşallah, Şəfəq də ki, gözə gəlimlidi.

Şəfəq özünü saxlaya bilməyib dedi:

— Xanım, ayıbdı sənə. Əvvəla, mən babamın evinə gəlmişəm. Babamın vəziyyətini öyrənmək istəyirəm. İkincisi, mən bura ərə getmək üçün gəlməmişəm. Üçüncüsü, mənə heç kəsin





varidatı gərək deyil. Dördüncüsü də...

Zeynal kişi dəmisindən bir qüllab götürdü. Arvadının üzünə baxmadan incik halda dedi:

— Allah qocalığın üzünü qara eləsin. Bu əli kəsib o ələ möhtac qoymasın. Kişinin evdəki nüfuzu itincən ölsə, yaxşıdı. Şapəri, Şəfəqə rəva bildiklərini qızlarına məsləhət görərdinmi? Ay imansız, məni kişilikdən, ləyaqətdən saldığın bəs eləmədi? İndi də düşmüsən bu tifilin üstə. Aç qulağını eşit, ölsən də, qalsan da Şəfəq burda, mənim yanımda qalacaq.

— Qoca kaftar, bax, onu görməyəcəksən. Bu sifətindi ki, Allah səni mənə möhtac eləyib.

— Xeyr. Düz demirsən. Allah eləməyib. Vaxtı ilə mənim ağılsızlığım eləyib.

Zeynalın bu sözünü eşidən Şapəri hikkəsindən nə eləyəcəyini bilmədi. Əlini stola vurub — Baxarıq burda kim yaşayacaq, — deyib ayağa qalxdı. Gedib işığı söndürüb çarpayısında uzandı.

* * *

Yatağına sanki qor tökülmüş kimi gecəni yuxulaya bilməyən Şəfəq yorğanı üstündən kənara itələyərək ayağa qalxıb eyvana çıxdı. Həyət-bacanın işıqları söndürüldüyündən gecə öz məşum sükutu və vahiməli qaranlığı ilə təkbətək qalmışdı. Bununla belə, səhərin ilk müjdələri kimi göyün üzündə xəfif, gizli işartılar da duyulurdu. Üfüq qızarmasa da, dan yerində ağartı hiss olunurdu. Bu mənzərə təbiətə yumşaq, mülayim bir görkəm gətirirdi. Ala-toranlıqda göyün üzündə özünün lacivərdliyi içərisində sayrışan tək-tək ulduzlar görünürdü. Onların ağ parlaq işıqları da getdikcə azalır, gözə görünməz olurdu. Sərin, zərif meh tut, xurma, gilas ağaclarının şeh düşmüş yaşıl yarpaqlarını yelpələyirdi. Gecə keçdikcə yaxınlaşmaqda olan səhərin sirli, bozartılı titrəyişi hiss edilirdi. Özləri görünməsə də, yarpaqların arasındakı

bülbüllərin qəmli, kədərli, qəlb sızladan, ürək ovsunlayan nəğmələri zavallı Şəfəqin qəlbini sanki didib parçalayırdı. Yaxınlaşmaqda olan səhərin sakitliyini ac, boşboğaz xoruzların banları, əbləh, sarsaq itlərin hürüşmələri, lap uzaqlarda şütüyüb keçən böyüklü-kiçikli maşınların gurultusu, bir də məscidlərin uca minarələrindən azançıların ruh titrədən, damarlarda qan donduran avazlı azanları pozurdu. Şəfəq pilləkənləri enib həyətin ortasında haçansa qoyulmuş kötüyün üstündə oturdu. Dərindən nəfəs aldı. Sərin, təmiz hava ciyərlərinə dolduqca bayaqkı sıxıntı, ürək döyüntüsü səngiməyə başladı. Çox çəkmədi ki, ağırlıq, sarsıntı gətirən hər şey ötüb keçdi. Yavaş-yavaş özünə gələn Şəfəq qurd kimi beynini eşən, didən, ona rahatlıq verməyən qarmaqarışıq, dərd üstünə əlavə dərd, kədər, qəm gətirən fikirləri başından çıxarmağa nə qədər çalışsa da, bacarmırdı. O, dərindən köksünü ötürməklə içini boşaldırdı. Beləcə, səssiz-səmirsiz kötük üzərində əyləşən Şəfəq yavaş-yavaş çıxmaqda olan günəşi unutmuşdu. Dərin düşüncələrə dalmışdı. Ona elə gəlirdi ki, indi yerin üstündə yox, hardasa alt qatlarındadı. Nə qədər çabalasa, çarpışsa da, üstünə qalaq-qalaq axıb tökülən toz-torpağın, yükün altından çıxa bilməyəcək. Dərdi-sər altında həyatı boyu inləyəcək, ömrünü bax beləcə, badi-fənaya verib gedəcəkdi. Şəfəq bu fikirlər içərisində dəli-divanə kimi vurnuxurdu ki, evin qapısı cırıltı ilə açıldı. Qapının səsi Şəfəqi boğucu düşüncələrin caynağından aldı. Baba gülümsündü və özünü elə göstərdi ki, nəvəsinin çəkdiyi əzab və iztirablardan guya xəbərsizdi. Bu kötüyün üstündə oturmağı da səhərin təmiz havasından udmaq istəyindəndi. Baba pilləkənə tərəf gələrək: — Bu gecə yatmamısan, qızım? — deyə soruşdu. Nəvə də öz növbəsində heç bir şey olmamış kimi gülümsəyərək: — Səhərin təmiz havası adamı xeyli yüngülləşdirir, baba, — dedi. Baba nəvəsinin çəkdiyi qəlb sızladan ağrılarından nə qədər xəbərdar olsa da, dediklərindən heç bir şey başa düşmürmüş kimi: — Səhərin havası sağlamlıqdı,





qızım, yaxşı eləyirsən, — deyə cavab verdi. Şəfəq babasının həyətə düşdüyünü görcək ayağa qalxdı. Axşamdan eyvanın qırağına qoyulmuş su dolu vedrəni götürdü, gətirib həyətin ortasında dirəkdən asılmış əl-üz yuyana tökdü. Sonra da parçı su ilə doldurdu. Baba həyətin aşağı başına keçdi. Çox çəkmədən də geri qayıtdı. Parçı götürüb dəstamaz almağa başladı. Şəfəq evə gedib dəsmal əlində geri qayıtdı. Dəsmalı sütuna vurulmuş mıxdan asdı. Baba dəstamazı alıb qurulandı. Axşam sütundan asdığı yun, köhnə, əlvan naxışlı heybəsini götürdü. Eyvanın yuxarı başında döşəməyə sərdi. Döş cibindən çıxardığı canamazını onun üstünə açdı. Xorasandan gətirilmiş möhürü canamazın cibindən çıxarıb xoş avazla səhər namazını qılmağa başladı. Babanın beyinlərə, iliklərə işləyən, ruhları ovsunlayan məlahətli səsi, ərəb dilinin ecazkar qüdrətini əks elətdirən ahəngdar ayələr, ilahi varlıq, duyğu kimi bayaq bülbülün avazla oxuduğu nəğmələri heçə endirirdi. Şəfəq sübh namazının hissləri çulğayan sehrinə dalmışdı. Səs-səmirini çıxarmadan babanın aydın və aramla dediyi hər sözün, hər ifadənin sanki hikmət və qüdrətindən donmuşdu. Şəfəq öz-özünə: Bu möcüzədi, — deyə düşündü. Mənasını başa düşmədiyi bu sözlər heyrətamiz musiqilərdən daha güclü və təsirli idi. Xoş avazla söylənilən bu ilahi, müqəddəs kəlamlar min ildən də çoxdu bax beləcə axır insan qəlbinə, insan ruhuna. Baba sübh namazının axırında əllərini qaldıraraq üzünü haqqın dərgahına tutdu. Gözünün ağı-qarası bircə nəvəsinə dualarını oxudu. Böyük Yaradandan ona imdad dilədi... Axırda möhürü canamazın cibinə qoydu və onu bir neçə yerə qatladı, səliqə ilə pencəyinin döş cibinə qoyub ayağa qalxdı.

Hələ namaz üstdə ikən Şəfəqin ağrı-acılarını ürəyindən keçirən babanın sinəsinə bu gün dünənkindən daha ağır yük enmişdi. Baba onu da düşünürdü ki, sabah özünün başına bir iş gəlsə, dünyasını dəyişsə, əlləri ilə qurub tikdiyi bu evdə bircə nəvəsinə yer olmayacaq. Şapəri onu heç bir şeyin fərqinə varmadan "Ba-

şımdan rədd ol!“ deyə qapıdan çıxarıb qovacaq. Onda zavallı Şəfəqin dözülməz, ağır, qara günləri başlanacaq. Olub-keçənləri təfərrüatı ilə yaddaşında çözələyən baba nəvəsi ilə açıq danışmaq qərarına gəldi: — Qızım, hələ ki hamı yatıb, söhbətimizdən heç kəs xəbərdar olmasın deyə səninlə təkbətək danışmaq istəyirəm. Gedək bağın aşağısına, arxın kənarına, su xoşbəxtlikdi, səadətdi — deyə bildirdi. Şəfəq çiyinlərini çəkdi, sonra da səhərin gözü əməllicə-başlıca açılmamış babasının ona təklikdə nə deyəcəyi barədə düşündü. O, heç bir söz demədən babası ilə arxın kənarına gəldi. Səhər dağlardan hay-harayla qopub gələn Qazyan arxının iti axan suyu qabağına düşən zir-zibillərdən əlavə də nə varsa, yuyub aparırdı. Bu arxda hirs, qəzəb aydın hiss olunurdu. Baba arxın qırağına çatcaq yandırmaq üçün yayda doğranmış, qışda yandırılmasına ehtiyac duyulmayan kötüklərdən birinin üstündə özü oturdu. İkincisinin üstə əyləşməyi Şəfəqə məsləhət bildi. Şəfəq də kötüyün üstündə əyləşdi. Nəvə əvvəl babasının gözlərinin içinə nigarançılıqla baxdı. Qızın sualdolu nəzərlərinin üzündə cəmləşdiyini duyan baba əvvəl iti axan suya, sonra da ağır-ağır başını qaldırıb möhtəşəm, əzəmətli dağlara baxdı. Pencəyinin yan cibindən uzun müştüklü dəmisini, tütün kisəsini və kibrit qutusunu çıxartdı. Dəmini tütünlə doldurdu. Kibriti yandırıb dəmidəki tütünə yaxınlaşdırdı. Alovun dili tütünü yaladıqca qoca dəmidən dərin qüllablar vurmağa başladı. Şəfəq isə səssiz-səmirsiz əyləşib babasının söhbətə başlayacağı anı gözləyirdi. Axır ki tütün közərdi. Qoca dərin bir qüllab vurdu. Dəmini ovcunun içinə alıb baş barmağı ilə tütünü bir neçə dəfə bastaladı. Aldığı tüstünü ciyərlərinə qədər çəkib əvvəl az-az, sonra da kapalla havaya buraxdı. Köks ötürdü. Sonra “Ömrüm-günüm” deyə titrək səslə sözə başladı. Şəfəq başını aşağı dikdi.

— Qızım, mənim bir ayağım burdadır, bir ayağım gorda. Ömrümün qürub çağlarını yaşayıram. Mən biləni bundan sonrakı





ömrüm də çox deyil. Bu gün, ya sabah, lap tutaq o biri gün... Bir də gördün ki, mən yoxam.

— Baba!..

— Sözümü kəsmə, qızım. Məni axıra qədər dinlə. Mən uşaq deyiləm. Xeyli yaşım var. Dünyanın hər üzünü görmüşəm, yaxşısını da, pisini də. Dünyaya gələn hər kəs ölüm təcrübəsini keçməlidi. Dünyanı hələ tutub duran olmayıb. Süleymana qalmayan dünya, şahlara, prezidentlərə, krallara, tacidarlara da qalmayıb. Bizə də qalmayacaq. Ona görə gərək sən də kədərlənməyəsən, qızım. Ölüm-itim zəmanəsidi. İstəyirəm bunları sən biləsən. Keçmişindən hali olasan. Yaxşı yadımdadı. Düz iyirmi iki ilin söhbətidi. Atan Bilalla anan Diləfruz bir-birilərini sevib ailə qurdular. El adəti, el ənənəsi ilə toy elədik. Diləfruzu Bilala verdik. Bir müddət çox mehriban yaşadılar. İnsafən, Bilal da özünü pis aparmırdı. Diləfruz da ondan çox razı idi. Bizə ancaq xoş sədaları çatırdı. Firavan həyatlarından məmnun idik. Xeyli müddət birlikdə yaşadılar. Ailə qurduqlarının üçüncü ili idi ki, sən dünyaya gəldin. Bilsən, nə qədər sevindik?! Rəhmətlik nənən Qətibə də, mən də qanad açıb uçmaq istədik. Özümüzü dünyanın ən xoşbəxti sandıq. Nənən elə bilirdi ki, sən varsan, yerin altı da, üstü də onundu. Səninlə nəfəs alırdı. Adın nənənin dilində bitmişdi, qızım...

Baba hərdənbir sözünə ara verir, köksünü ötürür, dəmisindən bir qüllab alırdı. Sonra da haçandan-haçana söhbətinin ardını davam etdirirdi. Şəfəqsə cıqqırını çıxarmadan babasını dinləyir, hissini, həyəcanını mümkün qədər cilovlamağa çalışırdı.

Babanın nəzərləri məchul bir nöqtəyə zilləndi. Səsi, sözləri arasındakı boşluqları Qazyan arxının axan sularının hay-harayı doldururdu. Qızın beynində düşüncələri də donmuşdu. O, heç bir şeyin fərqinə varmadan gücsüz halda babasının söhbətinin ardını gözləyirdi. Haçandan-haçana özünə qayıdan baba dəmidən bir qüllab alıb tüstünü kapalla buraxdı. Hava sakit olduğun-

dan, tüstü kişinin başı üzərinə qalxır, yavaş-yavaş dairələnir, lay-lay olub dağılırdı. Baba "hə", qızım, deyib kövrəldi. Səsi boğuldu. Sir-sifətində titrəyiş duyuldu. Araya yenə də dərin bir sükut çökdü. Nəvənin odlu-alovlu baxışları babaya dikildi. Kişi nəvəsinin qeyri-adi baxışlarından çaşdı. Nə deyəcəyini bilmədi. Çox çəkmədi ki, özünü ələ alıb söhbətin ardına başladı.

— Atanda son zamanlar qəribə hal yaranmışdı. O, tez-tez evə kefli gələr, evdə dava-dalaş salar, ananı yersiz təhqir edərdi. Sonralar məlum oldu ki, Bilalın başqa bir qadınla əlaqəsi varmış. Açıq danışdığım üçün məni bağışla, qızım. Mən bunu deməzdim, əgər atanın başqa qadından bir övladı — oğlu olmasaydı. Çünki ondan sən də xəbərdar olmalısan... O uşaq da günahsızdı, sənin qardaşındı. Üç yaşının tamam olmasına cəmi-cümlətanı üç gün qalmışdı. Axşamçağı gün qüruba çəkiləndə Bilal hardasa yeyib-içib evə yenə kefli gəlib. Anan mətbəxdə şama hazırlıq görürmüş. O, atanı bərk kefli görcək deyinir. İmanım Allah amanında. Bu yaşda dilimə yalan gətirə bilmərəm. Görünür, atana kobud söz də deyib. Kefli başda ağıl olmaz. Atan dərhal evdən çıxır. Çox çəkmədən əlində benzin vedrəsi evə qayıdır. Benzini ananın üstünə tökür. Ananı qaz plitəsindən od-alov alır. Alova bürünmüş anan evdən qaçıb həyətə düşür. Qonşulara səs yayılır. Ananı xilas eləmək mümkün olmur. Ev də alışır. Qonşu Kövsər kişi sənin evdə ağlamaq səsini eşidir. O, fürsəti əldən vermir. Həyatını təhlükəyə ataraq evə qaçır. Səni götürüb pəncərədən çölə atılır. İndi Kövsər kişi də dünyasını dəyişib. Ona min rəhmət... Qətibə ilə mən hadisəni eşidib sizə gələndə artıq gec idi. Anan dünyasını dəyişmişdi. Milisdən gələnlər də atanın əl-qolunu bağlayıb maşına basdılar. Doğrusu, əvvəl-əvvəl baş verən hadisəyə inana bilmirdim. Elə bilirdim gördüklərim bir yuxudu. Bir azdan yuxudan ayılacam. Hər şeyin yalan, uydurma olduğunu görəcəm. Heyf! Çox heyf! Mən yanıldım. O anlardan uzaqlaşdıqca hadisə mənə daha dərin təsir eləməyə başladı. Bir müddət





dəli kimi oldum. Uzun müddət qan axıdan, təzə-təzə qaysaqlanmaqda olan yaralarımın indi də üzünü qoparıb üstünə duz səpdin. İçim göynəyir, qızım. İnsan hər şeyə dözür. Mən də, rəhmətlik Qətibə də dağlar ağırlıqda dərdə tablaşdıq. Bircə şeyə şükürlər elədik, onda təskinlik tapdıq ki, doğma balamızın yadigarı sən sağ qaldın. Yanğından sonra səni özümüzlə gətirdik bu evə. Deyəsən, çox əlaqəsiz, adda-budda danışıram, qızım. Dərd adama güc gələndə belə olur. Həm də qocalmışam.

— Yox, baba, danışan dilinə qurban olum, danış. Çox yaxşı, yerli-yataqlı danışırsan.

Şəfəqi qəhər boğdu. Sözlər boğazındaca düyünləndi. Gözlərindən axan yaş yanaqlarından üzüaşağı dığırlandı. Nəvəsinin vəziyyətini açıq-aydın duyan baba da özünü saxlaya bilmədi. Onu da ağlamaq tutdu. Kişi əlini pencəyinin cibinə saldı. Cibindən köhnə bir dəsmal çıxarıb üz-gözünün yaşını sildi. "Uşağı yamanca kövrəltdim" — deyə düşündü. Sonra da dəsmalı qatlayıb cibinə qoydu. Dodaqları əsə-əsə danışmağa başladı:

— Dedim axı, atanı tutub apardılar. Onu on beş il azadlıqdan məhrum elədilər. Fikirləşdim, heyf yanıb-ölən balamın canından. Heç altı ay keçməmiş Bilalın da ölüm xəbəri gəldi. Kimi dedi onu türmədə öldürüblər, kimi də dedi ki, özü-özünü öldürüb, intihar eləyib... O, da getdi. Nə isə... Deyəsən, sübh tezdən qanını bərk qaraltdım, qızım.

— Yox! Yox, baba!

— İş bununla bitmədi. Heç bir il keçməmiş nənən Qətibə də əbədi dünyasına qovuşdu. İnanıram ki, nənən başımıza gələn bu müsibətə tab gətirmədi. O, ananın faciəli ölümünə, sənin yetimliyinə dözə bilmədi. Qətibə vicdanlı, əməli-saleh adam idi. Ancaq mən üzü pis qaldım. Görürsən, hələ də yaşayıram. Bircə təsəllim sənsən, qızım. Qarşında günahkaram. Qəbahətlərim böyükdü.

— Niyə?

— Niyəsini özüm bilirəm. İndi ki soruşursan deyim. Cəsarət-

sizliyim, dözümsüzlüyüm. Qabağı görə bilməməyim. Yenə deyim? Eh, dünya! Dünya! Sənin insafın, mürvətin yoxmuş. Bir qarış torpaq nədi, onu da məndən əsirgədin?! Mənim indi yaşamağımdan nə olar? Son zamanlar ürəyim tez-tez ağrıyır. Qıçlarım sözümə baxmır. Gözlərim işıqdan qalır... Mədə, bağırsaq da... Hansını deyim?! İndi başqalarına yükəm. Arvad-uşaq da sözümü eşitmək istəmir. İstəmirəm belə yaşamağı.

Kişi sol əlini dizinə vurdu. Sağ əlində tutduğu dəmisinin müştüyünü dodaqlarına birləşdirdi. Dərin bir qüllab götürdü. Tüstünü alıb sonra buraxdı. Bu dəfə tüstü kişini sanki ağ dumana bürüdü. Qocanın əsəbdən gərilən sir-sifəti bir qədər bəyazıdı. Şəfəq babasının keçirdiyi ağır sarsıntını duydu. O, istədi desin ki, söhbətin ardını başqa vaxtda danışarsan, bu günə bəsdi. Baba ona imkan verməyib sözünün ardını söyləməyə başladı:

— Nənən rəhmətə gedəndən sonra biz birlikdə yaşamalı olduq. Gecə-gündüz sənə mən baxdım. Uşaq saxlamağın, böyütməyin, ona qayğı göstərməyin nə olduğunu anlamağa başladım. Anaların əzab-əziyyətini, məşəqqətini, yuxusuz gecələrini gözlərim önünə gətirdim. Məni dəhşət bürüdü. Qonşu Əsəd kişi halıma acıyıb məni evinə dəvət elədi. Məsləhət bildi ki, evlənim, ailə qurum. Əvvəl etirazımı bildirdim. Təkidlə inandırmağa çalışırdı ki, evlənsən, ailə qursan, arvadın nəvənə baxar, ona analıq eləyər, uşaq da arvadına mehrini salar, yetimliyini unudar. Bu, sənin üçün də yaxşı olar, uşaq üçün də. Doğrusu, mən xeyli bu barədə düşündüm, götür-qoy elədim. Əsəd kişinin dediklərinə özlüyümdə haqq qazandırdım. Günlərin birində belə düşündüm ki, ailə quracağım adam nəvəmi doğma balası kimi sevər. Nəvəmə qayğı göstərər. Bunu əsas götürüb üzünü görmədən, halına-xislətinə bələd olmadan kimsəsiz, zidgirliklə dolanan, qarımış, yetim Şapəriyə Əsədlə arvadını elçi göndərdim. Fikirləşdim ki, kimsəsiz qıza dayaq durmaq, onu ev-eşik sahibi eləmək Allaha da xoş gedər, bəndəyə də. Mən də çalışdım ki, onun





üçün xoş güzəran yaradım. Hökumətdən də, molladan da kəbin kəsdirib, beş-on adamın iştirakı ilə onu evimə gətirdim. Özümə arvad elədim. İnsafən, təzə-təzə özünü yaxşı aparırdı. Mən də razı idim. Elə ki bir-birinin ardınca uşaqlar dünyaya gəldi, Şapəri də dəyişdi. Dönüb başqa adam oldu. Tanrısına bəndəlik eləmədi. O, sənə övlad yox, düşmən gözü ilə baxmağa başladı. Bildirməsəm də, doğrusu, səni onun yanında qoyaraq iş-güc dalınca getməyə qorxurdum. Fikirləşirdim ki, sənə xətər yetirə bilər. Onunla sənin barəndə çox danışdım. Bəzən onu hədələdim də, düşündüm bəlkə yola gələ. Bəzən də yalvardım, yaxardım. Xeyiri olmadı. Kor tutduğunu buraxmayan kimi, o, da bildiyindən əl çəkmədi. Tanrı deyir: "Sən saydığını say, gör mən nə sayıram". "Ot kökü üstə bitər". "Dad yarımçıq əlindən". "Əsli-zatı olmayandan arvad olmaz" — deyiblər. Qaldım çıxılmaz vəziyyətdə. Əsəd kişi ilə belə məsləhətləşdik ki, səni onun cəngindən qurtaraq. Aparım qoyum Gəncədəki tikiş üzrə texniki-peşə məktəbinə. Həm oxuyub bilik alasan, həm peşə öyrənəsən, həm də bu nadürüstün yumruğu altından çıxasan. Şapərinin zatı qırıqdı. Qanacağı, mərifəti yoxdu. Ağılsızlığından özünü də salıb bəlaya, məni də. Uşaqların da yeyib-içdikləri olub zəhər... Səni Gəncəyə apardım. Elə bildim sənin üçün yaxşı olacaq. Demə, öz əllərimlə əziz balamı tufanlara, zülmətlərə atmışam. Nəticəsi də bu oldu ki, xoşbəxtliyimi arayıb, bədbəxtliyimi tapdım. Sən Hümmətlə ailə qurarkən çox sevindim. Düşündüm ki, sənin də eveşiyin, ailən var. Uşaqlarınız olacaq. Əl-ələ verib rahatca dolanacaqsız. Bir-birinizə güzəştə gedəcəksiz. Doğrusu, indiki vəziyyətinizi ağlıma da gətirməzdim. Böyük hörmətsizlik olub. Bütün hədlər aşılıb. Bundan sonra sən o ailəyə qayıtsan, dolana bilməyəcəksən. Qaldı sənin uşağın. Neyləmək olar? Sən anasan, Hümmət ata. Oğlunun təki qeyrəti olsun. Sağlam böyüsün. İnan mənə. Oğlun nə vaxtsa, səni axtaracaq, tapacaq. Səndən nə gizlədim. Sən bu evə gələli Şapəri elə bil dəli olub. Ev-eşiyə

sığmır.

Şəfəq gözlərinin yaşını silə-silə astadan dedi:

— Bilirəm, baba.

— Mürtədin qızı mürtəd elə başa düşür ki, sən bu evə gəlməklə onun ev-eşiyinə şərik çıxacaqsan. Sənə yalvarıram, qızım, o deyənlərə baş qoşma. Eşitdiklərini ipə-sapa düzmə. Bura babanın evidi. Özünü də burda yersiz sanma. Yaman günün ömrü az olar. Mən öləndən sonra Allah Kərimdi.

— Narahat olma, baba.

Günəş çıxmışdı, şüaları həyət-bacaya səpələnirdi. Havada hənirti duyulurdu. Baba üzünü günəşə tərəf tutdu. Sonra da heç bir şey olmamış kimi: — Allahı olan ağlamaz, — deyib dəminin müştüyünü sovurdu. Elə bu vaxt evin Qazyan arxına baxan pəncərəsi şaqqıltı ilə taybatay açıldı. Səsə baba ilə nəvə eyni anda arxaya çevrildilər. Yenicə yataqdan qalxan Şapərinin pırpızlaşmış başı pəncərədən çıxdı. Əri ilə Şəfəqi səhərin bu vaxtında su başında şirin-şirin söhbət eləyən görcək, elə bil üstünə qaynar su töküldü. O, qışqırdı:

— Mütrüflə kimin qeybətini qırırsan, a üzünü mürdəşir yumuş?

Baba ilə nəvə ayağa qalxdılar. Nəvə heç bir söz demədən sakit, ağır addımlarla evin qənşərinə getdi. Baba isə arvadına yaxınlaşıb astadan bildirdi:

— Allahından qorx, qonşulardan utan. Bu səhər camaatı bizə güldürmə.

— Əcəb eləyib qışqırıram. Bu neçə ildə şəhərdə yüz oyundan çıxıb. İndi də gəlib burda uşaqları pozsun. Fərli zibil olsaydı, ər evində otarardı. Bunları sən özün qanmalısan, qoca köpək. Ölsəydin, canım əlindən qurtarardı.

Söhbətin uzandığını, arvadının nalayiq danışıqlarının çox çəkəcəyini görən kişi Şapəridən üz döndərib evə getdi. Nəvəsinin pilləkənin yanındaca dayanıb için-için ağladığını gördü. Əsəbdən kişinin bədəni əsməyə başladı. İstədi tez evə keçsin. Divardan asılmış köhnə ov tüfəngini götürüb güllənin birini arvadına, birini də özünə vursun. Bununla da indiyə qədərki səhvlərini yumuş olsun. Bu andaca Şapəridən olma iki qızı, bir oğlu və bir də Şəfəq, onların kimsəsiz, acı taleləri gəlib durdu kişinin gözləri önündə. O: — Lənət şeytana, gör məni nəyə vadar eləyir, bu qoca yaşımda, — deyə fikrindən yan keçdi. Şəfəqə yaxınlaşıb saçlarına əl çəkdi, bunu evin pəncərəsindən baxan Şapəri də gördü. Qadın hirsindən, qəzəbindən az qala partlayacaqdı.





Arvadının hələ səsini kəsməyəcəyini, sözünə davam eləyəcəyini bilən Zeynal eyvana çıxıb sarı qamışdan hörülmüş həsir səbəti götürdü, dinməz-söyləməz bazara yollandı. Şəfəqsə sakit addımlarla yan otaqda ac-susuz çarpayısına uzandı.

* * *

Zeynal kişi bazara getsə də, Şapərinin səsi kəsilmək bilmirdi. Onun haray-qışqırıqları, guya Şəfəqin əxlaqi düşkünlüyü barədə dedikləri bütün qonşularda eşidilirdi. Heç kəs gəlib ona — Haqlısan, düz deyirsən, ya haqsızsan, ayıbdı, yazıq gəlinə böhtan atma, o, sən düşünən, sən deyən qədər də öz yerini, oturuşunu-duruşunu bilməyən deyil, — deyə bildirmirdilər. Qonşuların sakitliyi, onun dediklərinə pis-yaxşı münasibət bildirməmələri Şapərini daha da qızışdırırdı. Barəsində deyilənlərə Şəfəq cavab verməsə də, babasının evdə olmamasına, arvadının indi dediklərini eşitməməsinə sevinirdi. Öz-özünə fikirləşirdi ki, indi o, hara getsin, kimdən sığınacaq istəsin. Doğulduğuna, dünyaya gəldiyinə peşimançılıq hissi keçirirdi. Ancaq nə fayda. Özünə qəsd eləməyə gücü çatsa da... Onun özünə qalsaydı, bu eybəcər, zəiflərə, kimsəsizlərə düşmən kəsilən, əzab-əziyyət verən, zəhlətökən dünyaya gəlməzdi. Ömrü boyu da təhqirlərə, kimlərinsə döyüş-söyüşlərinə məruz qalmazdı. Şəfəq baş götürüb hara getsin? Lap tutaq ki, getdi. Babasını, özünü tanıyanlar, lap elə bu insaf-

sız, iftiraçı, ifritə Şapərinin özü də deməzdimi ki, Şəfəq həqiqətən də fahişədi. Əldən-ələ ötürülməyə öyrənmişdi, adətkardı. Bu ağırlıqda yükün altına girmək olardımı? Yox! Qətiyyən. Düşüncələr onu yenə də çıxılmazlar girdabında məchul, anlaşılmaz "neyləməli? sualına cavablar tapmaq ardınca çəkib apardı. Bəlkə axşam hamı yatandan sonra özünü yandırsın? Bəlkə həyətin aşağısındakı böyük, şah budaqlı tut ağacından özünü assın? Bəlkə özünü zəhərləsin? Mənim bu hərəkətimə qoca babam dözərmi? Hikmətim nə vaxtsa məni axtaranda özümü öldürdüyümü bilsə, onda necə? Yox! Yox! Səbr! Səbr! Deyirlər, Allahın min bir adı var. Onlardan da biri səbrdi!

Şəfəqin özünə təskinlik verməkdən başqa çarəsi qalmadı. Şapəri isə səsini kəsmək bilmirdi. Bayaqdan bəri özünə səbr, təmkinlilik arzulayan, bununla belə əsəbləri gərilən Şəfəq istədi ki, durub Şapərinin abrını büksün ətəyinə: "Sən mənim babamı qonşular içərisində niyə rüsvay eləyirsən?" — desin. Elə bu vaxt eyvanda Fərişin səsi eşidildi:

— Bəsdi, səhərdən bəri bizi təngə gətirmisən. Yazıq atama olmazın sözlərin deyirsən. Yazıq Şəfəqi abırdan saldın. Bu ki, həyasızlıqdı. Sənin bayquş niyyətin nə vaxtsa bizim başımızda çatlayacaq. Atam düz deyir: "Allahın qəzəbinə gələcəksən".

Fərişin dedikləri həm Şəfəqin ürəyincə oldu, həm də onun Şapəriyə demək istədiyi sözün qarşısını kəsdi.

Şapəri oğlunun sözündən bir qədər tutuldu. Nə deyəcəyini bilmədi. Sonra acıqlı-acıqlı oğlunu süzərək ona yaxınlaşdı:

— Mən sizin üçün çalışıram, a biqeyrət.

— Xeyr, sənin bu hərəkətlərin bizə də ləkədi, təhqirdi.

— Qeyrətsiz oğul. Sənin kimi oğuldan bir kor qız yaxşıdı. Ədə, məni başa düşmürsən?

— Yox! Düşmək də istəmirəm! Yazıq Şəfəq gələndən elə bil dilotu yemisən! Səsindən bu xarabaya gəlmək istəmirəm! Axı o da bizim bacımız qızıdı.





— Kəs, yaramaz.

Fəriş anası ilə ağız-ağıza vermək istəmədi. Başını yelləyə-yelləyə eyvandan düşdü. Fərişin dedikləri Şəfəqə bir qədər təskinlik verdi. Öz-özlüyündə ona təşəkkürünü də bildirdi, Şəfəq. Bir an üstündən ağır yük götürülmüş kimi çarpayısında çevrildi. Gözləri qeyri-ixtiyari tavana zilləndi. Dərindən bir ah çəkdi: — Yaşamağa bəyəm mənim haqqım yoxdu? — deyə düşündü. Sonra da öz-özünə dedi: — Eh, Şapəri nənə, sən yanılırsan. Əbəs yerə özünə bu qədər əzab-əziyyət verirsən. Mən bura sənin qızlarının, oğlunun əmlakına şərik çıxmaq üçün gəlməmişəm. Babamı da hər gün mənə görə bihörmət eləyirsən. Unutma ki, məni alçaltmaqla balalarını da, özünü də alçaltmış olursan. Ər üzünə ağ olmağı Allah da arvada bağışlamır. Belələri insanların gözlərində ifritələrə, cinlərə, iblislərə çevrilirlər. Mən istəməzdim ki, canımdan da əziz istədiyim babamın arvadına belə damğalar vurulsun. Danışdıqlarını eşidənlər sənin qızlarına da sənə baxdıqları kimi baxacaqlar. Eşitməmisənmi: "Anası çıxan ağacı qızı budaq-budaq gəzər". "Anasına bax, qızını al", — demişlər. Eh, mənim qara bəxtim. Sən nələrlə qarşılaşmamısan? Hələ nələrlə üzləşəcəksən? Görünür, növrağım dönüb. Özümün ayrıca daxmam olsaydı bu qədər əzablara düçar olmazdım. İşlərdim, çörəyimi qazanardım, özümü də saxlardım, yazıq babama da əl tutardım. Lap Hikmət üçün də bir şey toplardım. Nə vaxta qədər Şapərinin əlinin altında qala bilərəm. Axı hər şeyin bir həddi var. Səbr kasası da bir zaman daşacaq. Onda, bəs necə olsun? Eh... Şapəri, Şapəri! Sən də mənim kimi bədbəxtsən. Fərqimiz ondadı ki, mən başımı girləmək üçün çalışıram. Sənsə heç nədən xoflanıb özün-özünü yeyirsən, didirsən, parçalayırsan, cəhənnəm əzabında yandırırsan. Ağıllı ol, Şapəri, Tanrına asi düşmə. Nədi sənin övladların üçün gecə-gündüz çalışan babamın günahı? Vicdanın varmı? Varsa, onun səsinə qulaq as, heç olmasa, bircə dəfə.

O gün axşamacan Şəfəq bax beləcə, için-için deyindi, acınacaqlı vəziyyətdən çıxmaq üçün çarələr axtardı.

* * *

Günortaya yaxın Zeynal kişi bazardan qayıtdı. Səbəti eyvanın qırağına qoyaraq sağ əlinin baş barmağı ilə alnının tərini sıyırıb yerə tökdü. Eyvanın qənşərindəcə dayanıb bir neçə ağız: — Ema, Ema! — deyə səslədi. Anasının bayaqdan bəri söyüşlərindən əsəbləşən Ema atasının çağırışına acıqlı və bir az da küskün halda yan otaqdan səs verdi. Sonra da kişi: — Səbəti götürün, səhər bir loxma da dadmamışam, acından başım hərlənir, az qala yıxılam, — dedi və öz-özünə deyinməyə başladı. "Əşi, belə də şey olar? Bir tikə çörək tapırıq, Allaha şükür eləmək əvəzinə onu da it, pişik kimi didişə-didişə yeyirik. Arvad əsəbi, qızlar əsəbi, oğul əsəbi... Bu da mən... Elə bil dəli olmuşuq, vallah". Kişi deyinə-deyinə qapını açıb Emadan: — Çay hazırdımı? — deyə soruşdu. Qız gözlənilmədən: — Get yetimçən versin, — dedi. Qızının belə köntöylü, ədəb-ərkana sığmayan sözləri atasını yamanca tutdu. İstədi qayıdıb qızının saçlarını əlinə dolasın, ona yerini göstərsin, özündən böyüklərlə, ələlxüsus da valideynlərlə necə danışmaq lazım olduğunu qandırsın. Sonra düşündü: "Qızı ana qız eylər". Bu yaşda qıza əl qaldırmaq, onu belə yaramazcasına cəzalandırmaq sənə yaraşmaz, Zeynal. Eşidib-bilən sənə deməz ki, qoca çağında bir ayağı burda, bir ayağı gorda, kişi dəli olub" deyə, o, bu fikrindən vaz keçdi. Küskün, incik, narazı halda gəlib eyvanın ortasında qoyulmuş boş stullardan birində oturdu. Şəfəq ata ilə qız arasındakı söhbəti eşitcək çox bədbinləşdi. Ümidi, qəlbi, inamı qırılmış kimi oldu. Sonra da təəssüf hissi ilə: "Belə yaşamaq nə qədər mənasızdı?" — deyərək ayağa qalxıb eyvana çıxdı. Nəvəsinin gəlişi kişinin düşüncələr selini dağıtdı. O, heç bir şey olmamış kimi onun üzünə baxıb gülümsünsə də, sifətində hədsiz əsəb gərginliyi, gözlərində dərin bir dalğınlıq duyulurdu. Şəfəqə elə gəldi ki, bu dalğınlıqda babasının insanlara olan ümidi, inamı da əriyib yox olurdu. Bu yaşa qədər yaşamaq eşqinin, ehtirasının yerini həyata, insanlara etibarsızlıq, əzab, nifrət tuturdu. Çox zaman normal insanların: — Belə şəraitdə yaşamağın mənası yoxdu, — deyə alışıbyanan qəlblərində zəhərdən də acı xatirələr rişələnir. Şəfəqdə heç bir şübhə yox idi ki, babası da hazırda həmin psixoloji halı keçirirdi. Onun gözündə hər şey adiləşmişdi. Adiləşdikcə də hər şey gözündə çılpaq, yekrəng görünürdü. Şəfəqə elə gəldi ki, babasının ona zillənən gözləri önündə özünün qəlbi açılır, orda özünə məskən salan sirləri kişiyə bütün aydınlığı ilə bəyan olurdu. Qəribədi. Qoca da yaxşı başa düşürdü ki, nəvəsi olduqca ayıqdı, həssasdı. Heç bir şey onun müşahidələrindən kənarda qala bilmir. Hiss elədiyini, duyduğunu məntiqi idrakın gücü ilə götür-qoy eləyir, ağıl süzgəcindən keçirir ıvə nəticələr çıxarır. Nəvəsinin bu keyfiyyətləri babasını çox sevindirsə də, onu büruzə verməməyə çalışırdı. Arvadının, qızlarının həqarətli baxışları altında Şəfəqin bu qabiliyyətlərini açıqlamaq nə babaya, nə də nəvəyə lazım idi. Ona görə də o, nəvəsi ilə əlaqədar bir çox şeylərdə "susmaq qızıldır" prinsipinə üstünlük verirdi. Başqa yol yox idi...

Səhərki dedi-qodudan sonra babasının ac-acına səbəti götürüb bazara yollandığını, bir az bundan əvvəl qızından çörək istədiyini və əvəzində köntöy cavab aldığını düşünən Şəfəq çox məyus oldu və babası üçün yemək hazırlayıb süfrəyə gətirdi. — Nuş olsun, baba, — deyib evə qayıtmaq istəyirdi ki, bütün bunları altdan-altdan müşahidə eləyən, him-cimlə qızına səs-küy salma görək axırı necə olacaq — deyən Şapəri özünü saxlaya bilməyib hirslə dilləndi:

— Sən burda qonaqsan, yoxsa, ev sahibi. Kişiyə çörək verərik-vermərik, özümüz bilərik. Fahişə, o qədər üzün açılıb, o qə-

dər sırtıqlaşmısan ki, heç nəyi vecinə almırsan. Sənin xasiyyətdə adamı hansı köpək oğlu saxlayar ki? Əcəb eləyib səni evdən qovublar.

Şapəri sonra da üzünü ərinə tutaraq:

— Ölmürsən, itmirsən, canımız qurtara əlindən, — dedi.

Nə baba, nə də nəvə Şapərinin sözünə cavab verdi.

* * *

Şəfəq bu evə gələli söyüşlər, təhqirlər həddini aşırdı. O, bu qırğın-qiyamətdən təngə gəlmişdi. Aydın idi ki, Şəfəq bir az da bu evdə çox qalsa, Şapəri qızlarını fitvalayacaq, babasının gözündən salmaq üçün ya üstünə oğurluq yıxacaq, ya da əxlaqi pozğunluğu barədə bir şey uyduracaq, böhtanlar, iftiralar yağdıracaq. Fikirləşdi ki, babam da bu yaşda barəmdə deyilənləri eşidəcək, onları da öz-özünə dərd-qəm eləyəcək. Yazıq kişinin ürəyi onda tab gətirəcəkmi? İnanmıram. Yaxşısı budur ki, babama deyim. Məsləhət bilsə, bu yaxınlıqdakı evlərdən bir otaq kirayə götürüm, işə düzəlim... Hər gün babam da yanıma gələr. Dərdimizi bölüşərik. Paltarlarını yuyub təmizlərəm. Çayını, xörəyini verərəm. Yazıq kişi də bir balaca özünə gələr.

Onsuz da babama burada evin sahibi kimi yox, çıxdaş adam, nökər kimi baxılır. Elə bil vaxtı ilə bu ev-eşiyi yaradan, quran babam olmayıb. Yazıq baba, bizim hamımız bədbəxt imişik. Qurban olum sənə, bu sözümə görə gərək məndən inciməyəsən. Anam yandırıldı. Bir zamanlar nələr çəkdiyini başa düşməsəm də, indi yaxşı anlayıram. Cinayətkar da olsa, atam elə. Ürəyi doğma balasının müsibətlərinə dözməyən nənəm belə. Bu sən! Bu da mən! İnanmıram ki, məkrli, hiyləgər, nəfsi iti Şapəridən olan uşaqların da xoşbəxt ola. Onların da gələcəkdə bizim kimi qəlbləri qan ağlamasın. Bədbəxtlər içərisində xoşbəxt olmaq mümkün deyilsə, biz özümüzə niyə bu qədər əziyyət veririk?





Allaha yalvarırıq. Bəyəm Allah bunları görmür?

Şəfəqin daxili sarsıntıları getdikcə artırdı. Gah oğlu Hikmətin, gah da babasının acı taleyi haqqında düşünürdü. Qəribə idi. Dərdin birini var gücü ilə qovur, özündən uzaqlaşdırmağa çalışırdı. Özündən asılı olmayaraq, ikincisi, üçüncüsü o yeri tutmağa çalışırdı. Dərd əlindən hara gedəcəyini, nə iş görəcəyini bilməyən Şəfəq bəzən intihar dərəcəsinə gəlib çatırdı. Daxili enerjisi, iradəsi hesabına zavallı Şəfəq yoluna yumalanan qadağaları, qalmaqalları, əsəblərini tarıma çəkən üzücü dərd-sərləri qırıb tökür, özü üçün cığırlar açırdı. O cığırlar da qaranlıq zülmətlər qoynundan keçdiyindən Şəfəqə işıq saçacaq, yol göstərəcək nöqtələr şəklində belə görünmürdü. Belə hallarda Şəfəqin gündüzü gecəsindən daha qorxulu, daha vahiməli olurdu. Ona görə də Şəfəq kirayənişin ev tutmaq və iş tapmaq fikrini qətiləşdirdi.

Son günlər Zeynal kişi tez-tez əsəbiləşirdi. Buludların göy üzünü alması da, küləyin əsməsi də, adicə toyuq-cücələrin həyət-bacadakı gəzişi də, qonşu itinin öz mıxında zingildəməsi də, uşaqların söhbəti də kişini haldan çıxarırdı. Bu əsəbiliyinin səbəbini kişi özü də bilmirdi. Bunu hamıdan tez Şəfəq hiss elədi. O, bir neçə dəfə babasına yaxınlaşmış, nə üçün belə tez əsəbiləşməsinin də səbəbini soruşmuşdu. Hər dəfə də babası başını yırğalamış, özündən narazı halda: — Son vaxtlar yamanca bir təhər oluram, qızım, — deyə bildirmişdi də. Bu gün arvadı ilə ağır-yüngül də elədi. Şapəri ona: — Qəhbəni götür, özün də burdan rədd ol, imkan ver yataq, — dedi. Arvadının dedikləri kişini hövsələdən çıxartdı. O, bir balaca özünə gəlmək, gərilən əsəblərini yumşaltmaq üçün bağa keçdi. Qazyan arxının vəsnəsi üstə çömələk oturdu. Dəmisini çıxarıb çəkməyə başladı. Şəfəq bu neçə vaxtda baş verənlərin şahidi olduğundan babasının halına bərk acıyırdı. O, bu evə gəlişi ilə babasına da ağır yük gətirdiyini dərin iztirab içərisində anlayırdı. Şapəri nə qədər danışsa da, dava-dalaş salmağa çalışsa da, Şəfəq ona cavab vermədi. Eyva-

nın qırağındaca oturub xeyli fikirləşdi: — Naqis şüur, naqis əxlaq iyrənc hərəkət, murdar söz-söhbət gətirər, — deyə ayağa qalxdı. Arxın üstə oturub dəmisinə güc verən babasına tərəf asta-asta addımladı. Ona çatar-çatmaz kişi ayağa qalxdı. Dərin iztirab içərisində nəvəsinə baxdı. Qəlbinin lap dərinliklərində Şəfəqə yazığı gəldi. Bunu deyəsən, nəvə də başa düşdü. Kişi dəmidən dərin qüllab götürüb tüstünü havaya buraxdı. Astadan başını tərpətdi. Bu tərpənişdə nə vaxtsa elədiyi hərəkətlərinə görə böyük peşmançılıq hissi hökm sürürdü. Baba ilə nəvə yanaşı otursalar da, heç bir kəlmə kəsməsələr də, hər biri öz içərisində qəmdən, kədərdən, əzabdan, nifrətdən yoğrulmuş dünyalarını yaşayırdılar. Hər ikisində ömür sürdükləri dünyaya etibarsızlıq, sədaqətsizlik fikirləri baş qaldırdı. Şəfəq: — Baba, — deyə səsinə ara verdi. Zahirən sakit görünən bu sükuta əvvəl baba o qədər əhəmiyyət verməsə də, birdən, gözlənilmədən kişinin qulaqlarında ölü bir sükut yaratdı. Ona elə gəlirdi ki, nəvəsinin nitqindəki bu qırıqlıqda, nitq kəsiyində ürəkləri vahiməyə salan, hissləri coşduran bir qüvalt zərbəsi var. Bu zərbənin intəhasız təsirinə ürəyi dözməyəcək...

Baba diqqətlə, iti nəzərlərlə nəvəsinin arıqlamış üzünə baxdı. Kişinin bərk həyəcan keçirdiyini anladı. Özünü ələ alıb sakit tərzdə: — Eşidirəm, ömrüm-günüm, — dedi. Babanın sözündəki qətilik, səsindəki səmimiyyət nəvəyə o andaca sirayət elədi. Şəfəq babasına hörmət və ehtiram əlaməti olaraq, çalışdı ki, fikrini elə ifadə eləsin, babasının qəlbinə o qədər də toxunacaq şey olmasın. Ona görə də neçə gündə götür-qoy elədiyi fikirlərini mehribanlıqla ifadə eləməyə başladı:

— Sənə qurban olum, izin ver qəlbimi, ürəyimdəkiləri sənə açım.

Nəvənin səsindəki səmimiyyət, sözlərindəki doğmalıq kişini əvvəlki sərt düşüncələrindən ayırdı. O: — Buyur, qızım, — dedi.





Şəfəq sakit tərzdə:

— Ailə çox əziyyət çəkir. Kasıblığın üzü qara olsun. Mənim bu evə gəlişim sizə də əlavə yükdü.

— Sən nə danışırsan, qızım. Gözümün ağı-qarası bircə nəvəmsən. Səninlə nəfəs alıram.

— Bilirəm, baba. İstəyirəm, sənin xeyir-duanla bu yaxınlarda kirayə bir daxma tutam. Bir yerdə işləyəm. Belə olarsa, həm darıxmaram, başım işə-gücə qarışar, həm də ağırlığım sizin üstünüzə düşməz.

— Mən ki, sənin yeməyinə, içməyinə daralmıram. Bəlkə Şapəri...

Kişi fikrini tamamlaya bilmədi. Şəfəq dərhal bildirdi:

— Yox! Yox! Baba!

— Keçənə güzəşt deyərlər, qızım. Hər səhvin də bir həddi var. Gərək həyatda mənim kimi səhv eləməyəsən. Allah verən xasiyyətdi, Şapəriyə belə verib. Qoca vaxtıma düşüb. Yığışdıra bilmirəm dilini. Bircə uşaqlara qıymıram. Nə isə... Sənə iş tapmağına taparıq. Qaldı sənin kirayə ev məsələnə. Bəs bura nə olub ki?

— Yox, mən ayrıca ev tutmaq istəyirəm. Bir əlim ola, bir başım. Qeyli-qalsız. Sən də hər gün gələsən yanıma. Doyunca danışaq, dərdi-sərimizi bölüşək. Kimsəyə yük olmaq, kimsənin işinə qarışmaq istəmirəm.

Baba xeyli fikrə getdi. Dərindən köksünü ötürdü. Əlini ağarmış saqqalına, qabağını tüstü, his saraltmış bığına çəkdi. Sonra da sönmüş dəmisini kibrit dənəsi ilə qurcalamağa başladı. Haçandan-haçana müştüyü ağzından çıxartdı. Tüstünü havaya buraxa-buraxa bildirdi:

— Qızım, imkan ver, mən də fikirləşim. Qonşu Əsəd kişi də Allah adamıdı. Onunla da məsləhətləşsəm, pis olmaz.

— Yaxşı. Məsləhət sizindi.

Şəfəq itaətkarlıqla sözünü deyib, ayağa qalxdı. Baba da onun

ardınca.

* * *

Yaxınlıqdakı mağazanın satıcısı yapalaq Kələntərlinin bu evə müxtəlif bəhanələrlə tez-tez gəlişi Şapəridə hədsiz sevinc, fərəh hissi doğururdu. O, bütün vüssü-vücudu ilə bu yöndəmsiz kişiyə vurulmuşdu. Onun qırx-qırx beş yaşı olardı. Dolu bədənli, gödək qıçları, yekə daz başı vardı. Gün vurub qaraltmış yumru üzü gec-gec qırxıldığından ona baxanda adam ürpəşirdi. Gözlərindən normal ağıl sahibinə oxşamırdı. Qarnı xeyli qabağa çıxdığından əyninə geydiyi kostyum az qala partlayacaqdı. Yeriyərkən tez-tez çiyinlərini atar, o yan-bu yanını basardı. Ər sarıdan arzu-kamını yapalaq Kələntərdən alan Şapəri aşnasının söz verib vədinə xilaf çıxdığı anlarda qəribə hisslər keçirər, ürəyində onu yüz dəfələrlə asıb kəsərdi. Bəzən onu da danlayıb-dansayıb ərinin gününə salmaqdan çəkinməzdi. Şəfəq artıq uşaq deyildi. O, qadınlıq təcrübəsi keçmişdi. Hər toxunulan simdən alınan rəqsi hərəkətlərin nəyə işarə olunduğunu, melodiyaların hansı hissləri oyatdığını açıq-aydın duyurdu, anlayırdı. Ürəyində Şapəriyə min dəfələrlə lənətlər yağdırsa da, hər dəfə də yapalaq Kələntərliyə nifrət, qəzəb hissi ilə baxsa da, bu sirləri o, heç kəsə aça bilmirdi. Bu sirlər yayından açılan ox kimi ürəyini parçalayırdı, yandırıb-yaxırdı Şəfəqi.

Hələ bu azmış kimi son vaxtlar qonşu dızzış Əlibala ilə Şapərinin dumanlı, dolaşıq, şit-şit hırıltılarını, müəmmalı hərəkətlərini sezməyə başlayan Şəfəq az qalırdı ki, "fahişə" deyə bu qadının boğazından yapışsın, onu mətbəx bıçağı ilə doğrasın, özünü də məhv eləsin. Ancaq türmə həyatı, bir də təmiz adını itirə biləcəyi onu qorxudurdu. Şapərinin əxlaqsız hərəkətlərini dərk elədikcə Şəfəqin gözlərindən babası da gün-gündən düşürdü. Ona bir anlığa elə gəldi ki, namusuna təcavüz eləyən adama oxşamaz yapalaq Kələntər, dızzış Əlibala kimi əxlaq düşkünlərinə





babası münasibətində mənəvi güzəştə yol verir. Şəfəq babasının sadəlövhlüyünü, insanlara olan inamını görəndə zavallı kişiyə yazığı gəlirdi. O, öz-özünə deyirdi: — Yazıq baba, doğrudanmı sən yapalaq Kələntərə, dızzış Əlibalaya inanırsan? Doğrudanmı, arvadının özünü də, uşaqlarını da, elə səni də alçaldan, ayaqlar altına atan hərəkətlərindən xəbərsizsən? Şapəri bircə dəfə vicdan, namus haqqında düşünübmü? Babamın dünənki, srağagünkü münasibətlərini yadına salıb xəcalət çəkirmi? Eh, inanmıram! Deyəsən, lap dəli oluram! Mən fanatikəm! Həyatı olduğu kimi görməyi bacarmıram. Təəssüf!.. Çox təəssüf! Bircə onu bilirəm ki, bu fahişə yazıq babamın başına oyun açır. Belə getsə, çox çəkməyəcək ki, nəinki, böyüklər, uşaqlar da, ağına-bozuna baxmadan birbaşa "oğraş" deyəcəklər babama. Bu adla dünyanı dəyişmək dəhşətdi! Fəlakətdi! Qazandığın hörmət və ehtiramın üstündən xətt çəkməkdi! Aman Allah, necə də ağır mühakimədi!

Təmiz adla ölmək insan üçün ən böyük şərəf, ləyaqət deyilmi? Eh... Baba! Baba! İncimə məndən, görünür Allah qarşısında sənin də günahların böyükmüş... Əgər belə olmasaydı, bizim hamımız dözülməz dərdi-bəlaya düçar olmazdıq. Son vaxtlar içimdə qəribə hisslər baş qaldırır. Gah sənə yazığım gəlir, istəyirəm canımı da sənə qurban verim, gah da sənə olan istəyim elə bil əriyir, gözümdən düşürsən. Belə hallarda donub qalıram. Özözümə düşünürəm: axı nədi babamın günahı? Ləyaqətini, şərəfini alçaldaraq arvadı ona xəyanət eləyirsə və babam bundan xəbərsizsə, o yazıq neyləməlidi? Xəbəri var, ya yoxdu?! Şəxsiyyətini özün alçaltdın, ya alçaltdılar, nəticəsi birdir — mənliyin ləkələndi... İndiki zəmanədə kimə sübut eləmək olar ki, mən təmizəm. Heç də sizin eşitdikləriniz tək, sizə təqdim olunan kimi deyiləm. Qəti şəkildə əminəm ki, arvadının hərəkətləri babama yuyulması mümkün olmayan qara bir ləkədi, əxlaqsızlıqdı. Bu ləkədənsə ölüm yaxşıdı, ölüm! Eşidib bilənlər heç olmasa deyəcəklər ki, bütün bu əxlaqsızlıqlar, fahişəlik kişinin ölümündən

sonra baş verənlərdi. Əgər kişi olsaydı... Amma, düzdü baba, sənin ölümün Şapərini sevindirəcək. Əl-qolunu açacaq. Sənsə cavabdehlikdən, məsuliyyətdən qurtaracaqsan.

Anlaşılmaz fikirlər içərisində Şəfəq başını qolları arasına aldı. Bu dəm qulaqlarına hardansa səs gəldi, kimsə diktə eləməyə başladı.

— Yox, sən düz demirsən, Şəfəq. Arı, namusu itə atıblar, it yeməyib. Şapərinin xəyanətlərindən babam qəbirdə də od tutub yanacaq. Cəhənnəm zəbanələrində alovlanacaq. Babamın yeganə günahı özündən yaşca kiçik olan, yaşına uyuşmayan Şapəri ilə ailə həyatı qurmasındadı. O, yaxşı bilməliydi ki, altmış yaşında ikən iyirmi dörd yaşlı qız almağın aqibəti nə olacaqdı? Yaxşı deyiblər: "Qadının nəsibi yağlı quyruq, kişininki isə xəyanət?"

Bilirəm, bu evdə, bu ailədə yaşamaq babam üçün də ağırdır. Belə olmasaydı, kişi oturub-durub özünə ölüm arzulamazdı. Kişi mənim dərdimi çox çəkir. Bunu onun gözlərindən duyuram. İnsanın gücü onun imkanındadı. İmkan zəif olanda, ya tükənəndə insanın da qol-qanadı qırılır. Bu fani dünyada özünün tənhalığını, kimsəsizliyini hiss eləyir. Gücü heç bir şeyə çatmayanda, əlacı hər şeydən üzüləndə intihar yolunu tutur. Vallah babamdan qorxuram. Üz-gözündən acizliyini duyuram. Ağzıma daşlar, birdən babam... Yox, ola bilməz. Mən lap ağ eləyirəm. Fikirləşməkdən az qalır başım çatlasın. Bircə babam gəlsəydi. Görən, Əsəd əmi ilə məsləhətləşdilərmi? Razılaşsaydılar, canım bu cəhənnəmdən qurtarardı.

* * *

Şəfəqin ağlına da gəlməzdi ki, onun həyatına gündən-günə yaxınlaşmaqda olan bir qaranlıq çökməkdədir. Canından əziz babasını tezliklə itirəcəkdir. Babasını düşündürən məsələ uşaqlarının və nəvəsinin taleyi, məşğuliyyəti isə tikinti idarəsində





gözətçilik eləmək, bir də gözəgörünməz Allaha ibadət idi...

Həmişə yuxudan erkən oyanan babanın bu gün yataqdan qalxmadığını görcək Şəfəq narahatlıq keçirməyə başladı. Hissiyyatının gücü onda babasının taleyi ilə bağlı qorxunc, təlaşlı duyğular oyatdı. Heç kəsə bir söz demədən qapını açıb babası yatan otağa keçdi. — Baba, baba! — deyə çağırdı. Çarpayıdan üzgün, sızıltılı səs eşidildi. Bu səslə babasının nə dediyini anlamadı. Əlini babasının alnında, sifətində gəzdirdi. Kişinin bədəni soyumuşdu, sir-sifəti bozarmışdı. O, çətinliklə də olsa, nəvəsini başa sala bildi ki, soyuqdur, titrədirəm, üstümü basdır. Şəfəq dərhal babasının dediklərini yerinə yetirib təlaş içərisində eyvana çıxdı: — Babam xəstələnib, həkim lazımdır, — dedi. Şapəri bir az etinasız, bir az da acıqlı halda: — Elə şeydən çox görmüşük, meşədə onunla həmyaş ağac da qalmayıb, həkim gəlib neyləyəcək ki? — dedi. Şəfəq qəzəbləndi. Onun gözlərindəki itilik, baxışlarındakı zəhm bu qadını çaşdırdı. Astadan, bir qədər də süni səmimiyyətdən doğan bir səslə: — Bayaq yaxşı idi ki? — dedi. Əlacsız qalan Şəfəq nə iş görəcəyini bilmədi. Babasının əllərini, çiyinlərini, ayaqlarını, qıçlarını yüngülcə ovuşdurmağa başladı. Baba hərdənbir öskürür, üşüdüyünü bildirirdi. Nəfəs aldıqca kişinin sinəsində güclə eşidiləcək xırıltı duyulurdu. Əvvəl Şəfəq düşündü ki, bu xırıltı babasının tənbəki çəkməsi ilə əlaqədardır. Bir azdan yavaş-yavaş xırıltı kəsdi. Babanı yenidən yuxu apardı. Günortaya yaxın oyandı. Onun alnında, sinəsində zəif tər hiss olundu. Onun tutqun üzü yavaş-yavaş bəyazıyırdı. Bunu diqqətlə müşahidə eləyən Şəfəqin ürəyinə çökən dərin qorxu, təlaş hissi azalır, onu sevinc, fərəh duyğuları bürüyürdü. Şəfəq dərhal: — Baba, sənə qurban olum, ürəyin nə istəyir? — deyə soruşdu. O, başını tərpədərək: — Heç nə, — dedi. Babasının yeyib-içməkdən imtina eləməsi, bu yaşda iştəhasının kəsilməsi Şəfəqin ümidini azaldırdı.

Zavallı qızın gözlərində giləlenən yaş ara vermədən yanaqla-

rına, oradan da çənəsinə doğru süzülürdü. Bu vaxt Şapəri otağa daxil oldu, Şəfəqi ağlayan görcək dedi:

— A bala, nifrin olma. Günün görüb, dövranını da sürüb. Allah torpağı sanı balalarına ömür versin.

— Hələ babam salamatdı.

Qohum-qonşuların söz-söhbətindən çəkinən Şapəri:

— Onda adam balası kimi özünü toxtat, sonra ağlayarsan. Bir də ki ağlamağın faydası olacaqsa, bu saat şəhəri çağırım yığım bura.

Şəfəq babasının başını qucaqlayıb üzündən öpdü. Əlini əlinə alıb sığallamağa, ovuşdurmağa başladı. Baba nəvəsinin üzünə baxdı. Bənizində zərif, incə bir təbəssüm oyandı. Qırıq-qırıq, xırıltılı, halsız bir səslə halallıq istədi.

Əvəzində Şapəri:

— Əşi, başımıza oyun açır, töküldük, dağıldıq ayaq altda. Nə ölən kimi ölür, nə də qalan kimi qalır. Bədbəxt oğlunun ölümü də zülm gətirir ailəyə, uşağa.

Şəfəq özünü saxlaya bilməyib:

— Çox darıxmısan?

— Hə, gözümüz aydın, bircə zurnamız çatışmırdı. Hələ tezdi, öləndə başlarsan.

— Bəsdi.

— Nə bəsdi az... Tələsmə. Sənin də vaxtına az qalıb.

Bu söhbətdən sonra uşaqlarını da götürüb yan otağa keçdi. Babası ağır-ağır nəfəs aldıqca Şəfəqin ürəyi şam kimi əriyirdi. Hərdənbir o: — Can baba“, sənə qurban olum, ağrın-acın mənə gəlsin,“ — deyirdi.

Getdikcə Zeynalın nəfəsi daralırdı. Daraldıqca da gözləri yan-yörəsinə dikilirdi. Şəfəq babasının gözlərinin dərinliklərində bir nigarançılıqla yanaşı meteor parçası kimi alışıb-yanan və sonra da tez ötüşən aydınlıq, istək və haradasa, bir sevinc də duydu. Ancaq bu hisslərin doğulması səbəblərini özü üçün heç





cürə aydınlaşdıra bilmədi. Sonuncu dəfə kişi bir də nəvəsinin üzünə baxdı... üzündə ötəri təbəssüm yarandı. Şəfəq istədi babasından sözü olub-olmamasını soruşsun. Zeynal kişi son dəfə pıçıltılı bir səslə: — “Şəfəq!..” deyə bildi. Bu, babanın təbəssümlü son sözü, son vidası oldu. Zeynal kişi getdi. Özü ilə dağlar ağırlığında dərd-səri də yığıb apardı...

* * *

Şəfəq babasından sonra bu evdə qala bilməzdi. İndi o, hara, necə gedəcəyi barədə düşünürdü. Lazımınca paltarı, əlində bəsincə pulu da yox idi. Süsənin verdiyi xərclik də beş-on günə ancaq çatardı. Yenə “Neyləməli” sualına cavab axtarırdı. Tapa bilməyəcəyini fikirləşib dərin, nəhayətsiz iztirab dənizində boğulurdu. Fikirlər onu çəkib lap uzaqlara aparırdı. Düşdüyü bu bəlanın səbəblərini və çıxış yollarını axtarırdı: Alkoqollu içkilərə qurşanan, narkomaniyaya meylli, əxlaqı pozğun, qatil ata! Sənin məhdud düşüncələrin yazıq anamı da, özünü də, məni də böyük faciələrə düçar elədi. İndi mən başımı götürüb hara gedim? Üzünü görmədiyim, səsini eşitmədiyim, sənin oğlunun, mənim ögey qardaşımın yanınamı gedim? Ona axı nə deyim? Ondan sığınacaqmı istəyim? Deməz, balam sən kimsən? Bəlkə o da sənin kimi... Yoxsa, babama xəyanət eləyən Şapərinin çirkin ayaqları altına atılıb ona yalvarım, ondan imdad istəyim? Bunların heç biri mümkün deyil. Həyatda belə hadisələr çox olub. Bədii əsərlərdə çox oxumuşam. Kinofilmlərdə çox görmüşəm — yaşamaq imkanını itirsələr də, ümidsizliyə qapılmayan qəhrəmanları, tufanlar, burulğanlar qoynundan, girdablardan çıxan mübarizləri! Onların hər biri yaşamaq uğrunda daim vuruşub-çalışıblar. Bəyəm, böyük sənətkar Cəfər Cabbarlının rəğbət və məhəbbətlə yaratdığı Sevil mənim kimi çətinliklər, əzab-iztirablar mühitindən çıxmamışdımı? Əgər Sevil qara çarşabını atıb,

nadanlara, cahillərə tüpürüb elm, təhsil, mədəniyyət ardınca gedirsə, nəticədə zülmətlər qoynunda idrakının gücü, əzəməti ilə ulduz kimi parlayırsa, ətrafına ziya saçaraq başqalarını da ardınca apara bilirsə, bəs, mən nədən qorxuram? Bəyəm Sevilin keçdiyi yol mənim üçün örnək deyilmi? Bəli! Mən də onun kimi olmaq istəyirəm! Sevil tək mənim idealım yox, mənim kimi kimsəsizlərin, arxasızların göstəricisidi. Sənin ruhunam, Sevil! Sən hələ neçə-neçə mənim kimilərə dayaq duracaqsan?.. Yol göstərəcəksən! Məsləhətlər verəcəksən! Sevil bacım!.. Sən nursan!.. İşıqsan!.. Vüqarı kürreyi-ərzə sığmayan əzəmətsən! Hünərsən!..

Məntiqsiz, sistemsiz düşüncələrini heç cür nizamlaya bilməyən Şəfəq stulda əyləşib başını qolları arasına almışdı. Yaşı az olsa da, ömür-gün sürdüyü dünyanın hər cür eybəcərliklərini görmüşdü, ən əziz adamını — babasını itirmişdi, doğmaca oğlunu əlindən vermişdi. İndi onun üçün yaşamağın özü də əzab-iztirab idi! Cəhənnəmdəki od kürrəsində yanmaq qədər dəhşətli idi!

Günortaya az qalırdı. Aydın, təmiz səmada parlayan yaz günəşinin ılıq şüaları oyanmaqda olan ağacların xırda, yaşıl yarpaqları arasından süzülüb həyət-bacaya, eyvana axırdı. Ağacların dibində ala-tala bir mənzərə yaradırdı. Bu mənzərə yağışlı-yağmurlu qışdan sonra nə qədər cazibədar görünsə də, füsunkar bir görkəm alsa da, dalbadal aldığı ölümcül zərbədən Şəfəqin buz bağlamış donuq qəlbini heç cürə isidə, yumşalda bilmirdi. Bu acizliyindən bəzən günəş də sıxılır, şüalarını yarpaqların üzərindəcə saxlamağa çalışırdı. Dünyaya həyat bəxş eləyən günəş Şəfəqin yaralı qəlbinə məlhəm qoya bilmədiyindən, abırından, həyasından, ismətindən qızaran nişanlı qız kimi xəcalətindən çəkinirdi, utanırdı. Şəfəq: — Nə qədər dərd çəkmək, ağlamaq, sıtqamaq olar? — deyib, əyləşdiyi stuldan qalxdı. Eyvanda yır-yığış eləyən Emaya dedi:

— Sabun, ya yuyucu tozu olsaydı, mən də paltarlarımı yuyardım.

Bunu eşidən Şapəri yan otaqdan dilləndi:





— Kefdən danışırsan, sabun var? Verdim babanın yuyulmasına.

Şəfəq özünü o yerə qoymadı. Çirkli paltarlarını götürüb vanna otağına getdi. Ema anası olan otağa girib acıqlı-acıqlı Şapərinin üzünə baxdı. Ana qızının baxışlarından nə demək istədiyini başa düşdü və dərhal bildirdi:

— Tərs-tərs üzümə baxma. Get öz işinlə məşğul ol. Mən nə dediyimi yaxşı bilirəm.

Ema söhbətin ardını uzatmadı. Şapəri Şəfəqi yanına çağırdı. Arvadın cod sifətində hiyləgərlikdən doğan ikrahedici gülüş ifadəsi sezildi. Ömrü boyu belə sırtıq gülüşdən zəhləsi gedən Şəfəq soruşdu:

— Nə xəbər var, təzə?

— Bilirəm məndən xoşun gəlmir. Özün bilərsən. Mən hamıya xeyirxahlıq eləmişəm. Qananları da olub, qanmayanları da. Dul qadınsan. Bundan sonra hamı sənə bir təhər baxacaq. Sənə yüz rəng vuracaqlar.

— Bilirəm.

— Lap yaxşı. O gün də dedim. Baban da, sən də narazı olduz. Elə bildiz pisinizi deyirəm. Gəl səni verək o kişiyə. Get, ziyanın olmaz.

— Kişi kimdi?

— Cabbarı deyirəm də. Nə tez yadından çıxdı?

— Mən bura ərə getməyə gəlməmişəm. Mənim oğlum var. Oğlu, qızı olan arvadın gərək vicdanı, namusu ola. Heç olmasa, övladlarına xəyanət eləməyə.

Şapəri qazdan ayıq adam idi. O, Şəfəqin hansı simə vurduğunu dərhal anladı. Ancaq o, məsələyə açıq münasibət bildirmədi. Qəsdən söhbətin səmtini dəyişdi.

— A... Sən od-alovsan ki? Mənə dərs verirsən nədi? Burda qala bilməyəcəksən. Təcili özünə yer tap.

— Mən bura sən düşündüklərinə görə gəlməmişdim. Narahat olma. Özüm gedəcəm.

Şəfəq söhbətin ardını uzatmadı. Qonşu Əsəd kişinin arvadı Qumru qarı yanında da qızı Mətanət xanım həyətə girdilər. Mətanət Şəfəqdən üç yaş böyük olsa da, baxan Şəfəqə ondan çox yaş verərdi. O, bir il olardı ki, xalası oğlu Cavadla ailə qurmuşdu. Boy-buxunlu, qəddi-qamətli gəlinin dolu, girdə sifəti vardı. Uzun kirpikləri ilə haşiyələnmiş qara gözləri, yenicə alınmış nazik qaşları, balaca pətənə burnu, sağ yanağındakı qara xalı, nazik dodaqları, o qədər də böyük olmayan ağzı, gülümsəyərkən ağ sədəf kimi dişləri ona çox yaraşırdı. Əyninə yaşıl kostyum, düm-ağ köynək geymişdi. Qara rəngli ayaqqabısı par-par parıldayırdı. Şəfəq Mətanəti görcək dərhal tanıdı. Yas içərisində olsa da irəli yeridi, onunla əl verib görüşdülər. Onları eyvanda qoyulmuş stola dəvət elədi. Şapəri ilə Ema da Mətanətgili xoşhallıqla qarşıladılar. Mətanət bir qədər astadan dedi:

— Şapəri xala, Şəfəq bacı, Allah rəhmət eləsin, Zeynal əmiyə. Çox yaxşı adam idi. Bircə dəfə sözündən inciməmişdik. Qonşu olmuşuq. Bizə öz balası kimi qayğı göstərərdi. Eşidəndə ki, kişi rəhmətə gedib çox pis oldum. Cavadı işdən buraxmadılar. O da gəlmək istəyirdi. Əlacımız kəsildi. Mən tək gəldim. Cavad dedi ki, onun da üzrxahlığını eləyim sizə.

Şapəri də, Şəfəq də Mətanətə təşəkkürlərini bildirdilər. Xeyli söhbətdən sonra Şapəri yan otağa keçdi. Bundan istifadə eləyən Şəfəq qəhərlənərək dedi:

— Mətanət, mənim ailəm dağıldı.

— Nə danışırsan?

— Uzun söhbətdi. İmkan olarsa, başqa vaxt danışaram. Mənim nə Gəncədə, nə də burda yaşamaq imkanım var... Bakıya getmək istəyirəm. Bəlkə orada işləyəm. Yataqxanaların birində qalam. Gələcəkdə bəlkə mənzil növbəsinə dura bildim. Mən də ev-eşik sahibi oldum.

Mətanət xeyli fikrə getdi. Sonra:

— Şəhərdə baş çıxarmaq çətindi, Şəfəq.





— Başqa çıxış yolum yoxdu.

Şəfəq qırıq-qırıq danışdıqca səsində əvvəl ötəri titrəyişlər yarandı, sonra dodaqları səyridi. Axırda da özünü saxlaya bilməyib gözlərində alacalanan yaş yanaqlarından sel kimi axmağa başladı. Dərhal Qumru qarının ürəyi yumşaldı. O, üzünü qızına tutaraq:

— Qızım, Şəfəq burda qala bilməyəcək. O, düz fikirləşir. Burda hər gün söyüşlər eşidəcək, təhqir olunacaq. Cavad kişi xeylağıdı. Onun əli uzun olar. İmkansıza əl tutmaq Həzrəti-Əlidən qalıb. Bunu da gedəndə apar özünlə. Mən anan deyirəm. Allaha da xoş gedər. Neçə gündə Şapərinin ona hücumlarından xəbərdaram. İstəyirsiz gedəndə kişini — Əsədi qoşum sizə. Kiminlə lazımdı getsin o, danışsın.

Mətanət:

— Atama əziyyət vermək lazım deyil. Yaxşı, gedərik. Cavadla köməkləşərik. Şənbə günü Cavad da gələcək. Hazırlaş. Bazar günü birlikdə gedərik.

Şəfəqin sevincdən gözləri parladı. Bir anlığa o, babasının ölümünü də, oğlunu da sanki unutdu.

Şapəri eyvana qayıdanda Qumru dedi:

— Allah qalanların canını sağ eləsin. Biz gedək. Uşaqlar da Mətanət üçün darıxırlar.

Şəfəq:

— Allah sizə ömür versin, xoşbəxtlik gətirsin.

Şapəri:

— Yaxşı yol.

Qumru ilə Mətanət xudahafizləşib getdilər. Şəfəq eyvandan düşüb Qazyan arxına tərəf getdi. Arxa çatıb onun göz yaşı kimi dumduru, iti axan suyundan ovuclayıb üzünə çırpdı. Sonra özözünə təəssüfləndi: — Babamdan qalan bu evə bir də gələ bilməyəcəyəm. Babamın əlləri ilə əkib-becərdiyi bu ağacları, onun əl izləri qalan nə varsa, heç birini bir də görməyəcəyəm. Qəribədi. Elə bil heç babam olmayıbmış burda. Mən indi hara baxı-

ramsa, babamın əl izlərini, özünü görürəm. Evin divarından, evdəki şeylərdən, həyətdə nə varsa, hamısından babamın ətrini duyuram. İndi isə babamsız hər şey mənə sönük və cansız görünür. Bu həyət də məni sıxır. Mənim üçün hər yer bumbuz kimidi. Qərar tuta bilmirəm. Bazar günü səninlə də vidalaşmalı olacam, haylı-küylü, sinəsi dağlı, gözləri yaşlı Qazyan arxı. Sən hər şeyə şahidsən, məğrursan, Qazyan arxı!

* * *

Şəfəq babasının evində fırtınalı, dalğalı-tufanlı bir aləm yaşayırdı. Elə bir aləm ki, orada qəlb ovsunlayan duyğulardan, fərəh gətirici hisslərdən əsər-əlamət yox idi. Əksinə, hər anı ona əzab verən ağrılar, ürəyi az qala susduracaq irin, çirkab dolu qansızmalar gətirirdi. Hər dəqiqə, hər saat bax beləcə, yüz dəfələrlə ölüb-dirilirdi Şəfəq. Bununla belə, düşdüyü, düçar olduğu girdabda heç kəsi günahkar çıxarmaq istəmirdi. O, hər şeyin səbəbini taleyində, acı, qovğalı qismətində axtarırdı. Ona görə də bu zavallı heç kəsdən imdad, mərhəmət diləmirdi. Onun üçün kimsəyə minnətli yaşamaq qul, nökər, əsir olmaqdı. Qul olmaqsa, ən böyük fəlakətdi, insanın özü-özünə qəsdidi, düşmən kəsilməsidi. Səhərə qədər gözünə yuxu getməyən, yerindəcə eşələnən Şəfəq öz-özünə düşündü: — Qəribədi, niyə belə oluruq biz insanlar? Şapəri niyə mənə yağı gözü ilə baxmalıdı? Qorxur ki, mən də bu evdə yaşayıb nə vaxtsa ona, onun balalarına — əziz yadigarlarına şərik çıxa bilərəm? Belə düşünürsənsə, səhv eləyirsən, Şapəri nənə! Unutma ki, bura mənim babamın əlləri, dırnaqları ilə qurduğu yuvadı. Mən bu yuvaya babamın yanına gəlmişdim. Mənim buna haqqım vardı. İndi babam yoxdu, deməli, mən də yoxam. Mən də getməliyəm. Ancaq Qəhmər kimi sənə də yazığım gəlir. Bircə fərqiniz var. Onda ikiüzlülük səndən daha çoxdu. Eynisiniz. İkiniz də böhtançı və iftiraçısınız. Heç ol-





masa, axirət dünyanızı düşünün. Şapəri nənə, indi üzümü sənə tuturam, Allah eşqinə. Bəlkə bu yaşda insanı alçaldan, qəlb qıran, könül sındıran əməllərindən əl çəkəsən. Oturub yaxşı-yaxşı düşünəsən. Allahınla olasan. Məndən yox, böyük Yaradanından umasan. Səni əmin eləyə bilərəm, bu mənim babamın evinə son gəlişim, son da gedişim olacaq. Ancaq unutma ki, babamın ruhu daim bu evə, bu həyətə gələcək. Vəfasızlığı, dəyanətsizliyi, vicdansızlığı, əxlaqi pozğunluğu sənə heç vaxt bağışlamayacaq.

Dünya görmüş babam Allahın itaətində dayanan, qeybətdən uzaq, nəfsi bütöv, insanlara qayğı göstərən mömin bir bəndə idi. Kimsəyə pislik eləməzdi. Paxıllıq nədi bilməzdi. Qonaq sevən, ürəyi açıq və yumşaq idi. Uşaq kimi hamıya inanırdı. Özü əyri olmadığı üçün də aferistlərə, ifritələrə tez aldanardı. Babam sənə ürəkdən inandı. Səni özünə arvad elədi. Evinə gətirdi. Ağlına da gəlməzdi ki, bir zaman ona xəyanət eləyə bilərsən. Doğrudu, mən bu sirri babama açmadım. Bu barədə bir kəlmə də danışmadım, onun qoca qəlbini qırmadım. Ömrünün qürub çağlarını yaşayan babamın ürəyinə çalın-çarpaz dağ çəkə bilməzdim. Açığını deyim ki, o zamandan sənə nifrət eləyirəm! Nifrət! Şəhvət hissini söndürmək üçün ərinə xəyanət eləyən qadın ölümə məhkumdu! Sən qonağın ağuşuna atılanda babama elədiyin xəyanətin ölçü-biçisinin nə olduğunu düşündünmü? Kəsdiyin duzçörəyi dəyərləndirdinmi? Doğma övladlarının — oğlunun, qızlarının namusunu, ləyaqətini, şərəfini başqalarının çirkin ayaqları altına atmanı ağlına gətirdinmi? Bircə dəfə öz hərəkətlərini düşünüb usanmısanmı? Yaşca məndən çox-çox böyüklüyünü bilirəm. Babamın yerli-yersiz sənə güzəştlərini də xatırlayıram. Bütün bunlar ərinin, övladlarının mənliyini alçaltmağa sənə haqq verə bilməz.

Babam dünyasını dəyişdi. Əbədi məskəninə qovuşdu. İnanıram ki, onun ruhu "Behişt" adlanan bir məkanda qərar tutacaq. Rahatlanacaq. Ancaq sən!.. Nə yaxşı ki, babam sənin işlərindən

xəbərsiz-ətərsiz getdi. Dünya yaxşıların çiynindədi... Onu nizamlayan var. Gec-tez hər kəs öz əməllərinin bəhrəsini dadacaq. Yaxşıdı — yaxşı, pisdi — pis. Səhər sizin də, Qumru xalagilin də, Mətanətin də üzünə xeyirə açılsın. Hamı salamat olsun. Mən gedirəm. Gəncədə qurduğum ailəm də, elə bura da mənə gözlərimlə gördüyüm cəhənnəmi xatırladır. Görək bundan sonrakı qismətim necə olacaq? Yaxşı bir şeylə qarşılaşmasam da, ümidim yenə yaşamaqdı. Yaşayarıq, görərik...“

Bu fikirlər, götür-qoylar içərisində Şəfəq heç cürə yata bilmirdi. O, yataqdan çox erkən qalxdı. Gecə də öz qara çadrasının ətəklərini yığıb tin-bucağa, çətirlənən ağacların qol-budaqları altına çəkirdi. Onun yerini ağaran dan yerindən boylanan dairəvi günəşin qızılı rəngə çalan zərif örpəyi tuturdu. Bu örpək getdikcə hansı qüvvənin təsiri iləsə yayılır, vahiməli gecədən qalan pərdənin sürünməkdə olan ətəklərini də tədricən əridib yox eləyirdi. Şəfəq çarpayısına qayıdıb qırağındaca əyləşdi. Otağa göz gəzdirdi. Pəncərələrdən asılan pərdələrdən də, divardan asılan xalçadan da, ayaq altına sərilmiş köhnə palazlardan da, lap axşamdan yataraq gözlərinin acısını almaq üçün uzandığı dəmir çarpayıdan da babasının ətrini duyurdu. Bir anlığa ona elə gəlirdi ki, indicə qapı açılacaq, babası gülümsünə-gülümsünə içəri girəcək, həmişəki kimi, “Mənim balam, mənim çiçəyim, ömrüm-günüm” deyəcək, alnından, saçlarından öpəcək. “Balamın əziz yadigarı” — deyəcək. Şəfəq özü də gülümsünəcək, babasının boynunu qucaqlayacaq. “Babama qurban olum”, “Babam yaxşı babadı” — deyib üz-gözündən öpəcəkdi.

Şəfəq axşamdan ütülədiyi paltarlarını geyindi. Rəfiqəsi Süsənin bağışladığı paltarları selofan torbaya qoydu. Eyvana çıxdı. Hələ ev sahiblərindən kimsə yataqdan qalxmadığından o, səssiz-səmirsiz həyətə düşdü. Babasının gəzdiyi yerlərə, əl-ayaq izlərinə bir də baxdı. Ürəyi qübar elədi... Yaz səhərinin təmiz rayihəsi nə qədər yüngül olsa da, qızın ciyərlərinə asanlıqla axsa





da, sanki Şəfəq dəhşətli zəlzələdən uçub tökülən dağ uçurumunun altında qalmışdı. O, bağın aşağısından axan Qazyan arxına yaxınlaşdı. Əyilib böyük sürətlə axan suyu ovucladı. Əllərini, üzünü yumağa başladı. Suyun soyuqluğu onun bədəninə yüngülcə üşütmə gətirdi. Sonra da bütün bədəninə elə bil ləziz bir duyğu səpildi. Haçandan-haçana qamətini düzəltdi. Pıçıltılı səslə dedi: — Əlvida! Əlvida, Qazyan arxı! Əlvida babamın əkib qulluğunda durduğu nar, xurma, tut ağacları! Əlvida babamın tikdiyi yurd-yuva! Babamsız mən də bura gələ bilmərəm...

Qəlbi qırıq Şəfəq həyətdən evə qayıtdı. Torbasını götürdü. İstədi hamı yuxuda ikən həyətdən çıxsın. Ancaq nə fikirləşdisə ayaq saxladı. Şapərigil yatan otağın qapısını döymək istədi. Elə bu dəm həyət qapısı döyüldü. Şəfəq  qapıya yaxınlaşıb: — Kimdi? — deyə soruşdu. — Cavadam, Şəfəqə deyin, gəlsin, gedirik, — dedi. Şəfəq: — Hə, qardaş, bu saat gəlirəm, — deyə cavab verdi və dərhal geri qayıtdı. — Ema, — deyə bir-neçə ağız çağırdı. Evdən Fərişin səsi eşidildi.

— Nədi?

— Mən gedirəm.

— Hə, get.

Səsə oyanan Ema ilə Kəbiş Şəfəqlə görüşüb onu yola salmaq üçün ayağa qalxmaq istəyirdilər ki, Şapəri dərhal:

— Yatın yerinizdə. Gedir, qoyun rədd olsun da.

Ema:

— Ana, sən lap ağ eləyirsən.

Fəriş:

— Bacım düz deyir.

Şapəri:

— Nəyi düz deyir? Üzünə xoş baxsan, sabah üstümüzə qayıdacaq. Üzü qara çıxan qız kimi.

Fəriş:

— Ana, o nə deməkdir?

— Böyüyəndə bilərsən.

Şəfəq kor-peşman pilləkənləri enib həyət qapısına getdi. Bir anlığa ayaq saxladı. Bir də geriyə — həyətə, evə baxdı. Dərindən köksünü ötürdü: — Bu həyətin yaraşığı babam imiş, — deyib bir dəfəlik qapıdan çıxdı.

* * *

Şəfəq Əsəd kişinin həyətinə yaxınlaşıb astadan qapını döydü. Qapını içəridən səkkiz-doqquz yaşlı bir oğlan açdı və dərhal:

— Salam. Xoş gəlmisiz, — dedi. — Bayaqdan hamı sizi gözləyir, keçin içəri.

Şəfəq həyətə girdi. Həyətin yuxarı başında hündür ayaqlı iki otaqlı, aynabəndli bir mərtəbəli ev vardı. Oğlanları, qızları ailə qurub ev-eşik sahibi olandan sonra bu evdən köçmüşdülər. Hazırda bu evdə Əsəd kişi qarısı ilə yaşayırdı. Evin pəncərələri və qapısı aynabəndə açılırdı. Şəfəq aynabəndə girən kimi səhər yeməyi hazırlayan Qumru: — Əyləş, qızım, indicə Mətanət də, Cavad da gəlirlər, — dedi. Şəfəq keçib aynabəndin ortasında qoyulmuş stullardan birində oturdu. Qumru stolun üstə ağ, təmiz süfrə sərdi. Şəfəq istədi desin ki, narahat olmayın, mən nahar eləməyəcəyəm, Qumru onu qabaqladı:

— Uşaqlar da acdılar. Nahar eləməyiblər. Xudahafizləşmək üçün əmisigilə keçdilər. Beş-üç dəqiqəyə gələrlər. Narahat olma, qızım. Əsəd əminlə Cavada da tapşırmışıq. Sənin üçün iş yeri, mənzil tapacaqlar. Nə sözün, çətinliyin olsa, Mətanətə de, utanma. O da sənin bacın. Qəriblikdi. Hər vaxt əlimiz çatmır. Verin əl-ələ, dolanın. Gözünüz bir-birinizin üstündə olsun. İnsafən, Cavad da pis oğlan deyil. Sənin rəhmətlik baban yaxşı adam idi. Alçaq Şapəri! Nə isə, özü bilər. Məsləhətim budur ki, qızım, sən də ona baş qoşmayasan.

— Yox, Qumru xala.





— Bilirəm. O, qorxur ki, ev-eşik iddiası qaldırasan. Səni uşaqlıqdan tanıyıram. Arı, isməti özündə olan balasan. Bakıya gedəndən sonra da gərək özünü it-qurd nəfsindən qoruyasan, qızım. Ərindən ayrıldığını bilsələr, sənə çox əllər uzanacaq. Səni aldatmağa çalışacaqlar, qızım. Ehtiyatlı ol. Büdrədinsə, özünü düzəldə bilməyəcəksən. Ən əziz adamlarının da gözündən düşəcəksən. Təkrar eləyirəm, Mətanətlə verin baş-başa, dolanın. Hərdən Əsəd əmini də göndərəcəm şəhərə. Getsin, sizə baş çəksin. Hal-əhval tutsun. Əsəd qeyrətli kişidi. Allah ona ömür versin.

— Amin!

— O olmasaydı, çoxdan düşüb itmişdim. Hə... Hə...

Söhbətin bu yerində qapı açıldı. Mətanətlə Cavad deyə-gülə otağa daxil oldular, salam verdilər. Şəfəq salamı alıb stuldan qalxdı. Mətanətlə qucaqlaşıb öpüşəndə birdən-birə doluxsundu. Sonra Mətanət anasına kömək eləmək üçün mətbəxə keçmək istəyirdi ki, Qumru hər şeyin hazır olduğunu bildirdi. Mətanətlə Cavad da məmnunluqla süfrə ətrafında əyləşdilər. Mətanət zarafatla ərinə:

— Görürsən də qayınananı? Maşallah, od-alovdu.

Qumru:

— Siz şəhərdə özünüzdən muğayat olun. Sözünüz bir-birinizin boğazından keçsin. Elə bilərəm dünya mənimdi. Günümü görmüşəm, dövranımı sürmüşəm.

Qumru səhər hazırladığı yeməyi süfrəyə gətirdi.

Cavad:

— Duzla istiot deyəsən, yaddan çıxıb — dedi.

Qumru kürəkəninin sözünü eşitcək dilləndi:

— Allah qocalığı kəssin. Görürsüz də?

Mətanət:

— Bu qocalıqdan deyil, ana. Tələskənlikdəndi. Bayaqdan bəri sənə hey deyirik: gedirik, gedirik. Sən də dözürsən. Bircə dəfə demirsən ki, əşi, gedirsiz, gedin də. Daha məni niyə incidirsiz?

— Allah eləməsin, a bala. Sizsiz məndən nə olar ki? Bir də ki, yeyib-içmədən yola çıxasız ha, bilirsiz Əsəd mənə neylər?

— Neylər?

— Canınıza and olsun mənimlə kəlmə kəsməz. Ağırdı kişinin xasiyyəti.

Cavad:

— Doğrudan, Əsəd əmi hanı? Bunda deyirlər də, molla halvanı gördü, Yasin yadından çıxdı. Biz də elə. Yeməyi görmüşük, Əsəd əmi barədə fikirləşmirik.

— Gəlir, qurban olum. Qonşu çağırdı. Niyaz da indi gələr. Maşına benzin tökdürmək üçün getdi.

Mətanət hərəyə bir stəkan çay süzdü. — Bismillah, — deyib süfrəyə birinci əl uzatdı. Qumru Şəfəqə:

— Hə, sən də başla, qızım.

Şəfəq başı ilə "Yaxşı" işarəsini verib stəkanı özünə tərəf çəkdi...

Cavadgil süfrədən yığışmışdılar ki, Əsəd kişi qapını açıb içəri keçdi. Salam verdi. Cavadgil ayağa qalxmaq istəyirdilər ki, Əsəd kişi dedi:

— Çörək üstən qalxmazlar. Narahat olmayın. Əyləşmək üçün stul var. Getmək üçün də tələsməyin.

Əsəd kişi səsinə bir az ara verdi. Papiros çıxarıb çəkməyə başladı. Kişi bir qüllab vuran kimi öskürdü. Mətanət:

— Əşi, sənə elə əziyyət verir çəkmə də.

Atası cavab vermək istəyirdi ki, Qumru ərini qabaqladı.

— Kişilərin yaraşığı papirosdu, a bala.

Çay içməkdə olan Cavad özünü saxlaya bilməyib çeçidi. Qumru dərhal əlavə elədi:

— Düz deyirəm də. Mənimlə onun nə fərqi olar, papiros çəkməsə.

Otağı gülüş səsləri bürüdü. Əsəd kişi də bığaltı gülümsədi. Sonra da düm ağ saqqalına əl çəkib astadan dedi:





— Cavad, oğlum, Şəfəqi sizə etibar eləyirik. Gərək ümüdimizi qırmayasız. Qumrunu da, məni də peşman eləməyəsiz. Ona iş tapın, yataqxanada yer eləyin.

Cavad:

— Narahat olmayın, Əsəd əmi, hər şey sizin də, Şəfəq bacının da ürəyincə olacaq.

Elə bu vaxt küçə qapısı ağzında maşın səsi eşidildi. Çox keçmədən Niyaz həyət qapısından içəri girdi. Onu pəncərədən görən Əsəd kişi dilləndi:

— Hə, gəldi.

Qumru:

— Kim?

— Niyaz.

Cavad:

— Qalxaq, yolçu yolda gərək.

Hamı ayağa qalxdı. Evdən çıxırdılar ki, Qumru dedi:

— A bala, bir dəfəlik getməyin. Heç olmasa, ayda bir dəfə gəlin. Qocaları yoxlayın.

Arvadın səsi titrədi. Bunu hamı başa düşdü. Əsəd arvadına dedi:

— Arvad, kövrəlmək niyə? Bəyəm mən ölmüşəm, nədi? Gəlməzlər, səni apararam onların yanına. Hə, buna nə deyirsən?

Niyaz gülümsünərək:

— Onlar dağa yaxınlaşmasalar, deməli, dağ onlara yaxınlaşacaq.

Əsəd kişi:

— Bə nədi?

Mətanətlə Cavad eyni vaxtda bir-birilərinin üzünə baxdılar, sonra hər ikisi eyni vaxtda bildirdilər:

— Yaxşı, gələrik.

Hamı ayağa qalxıb maşının yanına getdi. Öpüşüb-görüşüb ayrılırdılar ki, Şəfəq arxaya çevrilib mərhum babasının evinə tərəf

baxdı, sir-sifəti ağardı. Sonra da heç bir söz demədən maşına əyləşdi. Sanki içində bir tənhalıq, boşluq yarandı. Bu hisslər tez də ötüb keçdi. Onun keçirdiyi hissləri dünyagörmüş qocalar bir söz deməsələr də, aydın başa düşdülər. Övladlarını yola salan qocaların qəlbində hardasa xəfif bir həyəcan, kövrək bir qübar hissi də yarandı. Əsəd kişi çevriləndə arvadının nəmli gözlərini gördü. Kişi arvadının könlünü almaq üçün dedi:

— Gör, daha nə var da. Sevin, ay arvad, Allahına şükür elə ki, uşaqlar evlərinə, isti yuvalarına gedirlər. Deyəsən, bir az da dayansaq, küçədə ağlamalı olacaqsan, uşaqların ardınca göz yaşları tökəcəksən.

— Mənim yazığım Şəfəqə gəlir, kişi. Bədbəxtdi. Anadan olandan bir xoş gün görmədi. Yazığın uşağını əlindən alıb evdən çıxarıblar. Şapəri də onu burda çox pis qarşıladı. Onu adam yerinə qoymadı. Heç olmasa, Şəfəqin babasının ruhundan utanaydı. Gördün də. Yazıq qızın maşına minəndə nə hal keçirtdiyini? Babasının evinə, həyətinə həsrətlə, yana-yana baxdığını? Zavallını Şapəri yola da salmadı, "Xoş getdin" də demədi.

— Gördüm, arvad. Şapəri iblisdi! İfritədi! O uşaq burda qalsaydı, ona min cürə rəng yaxacaqdı. Yaxşı oldu, yola saldıq getdi. Görək Cavadgil neyləyəcək?!

— Şəfəq Bakıya getməsəydi, bilirsən nə fikirləşmişdim?

— Yox!

— Sənə deyəcəkdim ki, kişi, gəl razılıq ver. Şəfəq gəlib qalsın bizdə. Biz nə yeyərik, nə içərik, o da bizim kimi, yeyər-içər.

— Bəs niyə demədin?

— Gördüm şəhərə getmək istəyir. Sonra düşündüm ki, nə fərqi var. O da Mətanətin biri. Gedib yaşar şəhərdə. Ev alar, halal çörəyini çıxarıb yeyər. Heç kəsdən də minnət götürməz. Allah onu xoşbəxt eləsin. Cavan olsa da, Şəfəq ağıllı baladı. Dərdsər götürəndi, hər zəhmətə dözəndi. Allaha da qurban olum, deyəsən, o da dərdi çəkənə verir.





— Yox, arvad, Allaha asi düşmə. Dərdi hamıya verir. Gecitezi olur.

— Nə bilim, a kişi. Bu dünyanın qəribəliklərindən heç başım çıxmır.

— Keçək həyətə.

Ər-arvad həyətə keçdilər. Qumru dedi:

— Vallah ev elə boşaldı ki, ayaq basmağa heç üzüm gəlmir.

— Əşi, nifrin olma. Ürəyin darıxır, götür telefonu çağır gəlsin gəlinlərini, nəvələrini. Başın qarışsın söhbətə...

* * *

Ağ "Jiquli" markalı maşın Göyçaydan çıxıb dolambac dağ yolları ilə irəlilədikcə, yüksəklikləri qalxıb-endikcə Mətanət də, Cavad da, Niyaz da ordan-burdan danışır, yola körpü atmağa çalışırdılar. Şəfəq onlarla bir maşında getsə də susurdu... Dünyanın özü boyda, dağlar ağırlıqda dərd-sərini çiyinlərinə alıb aparırdı. Maşındakılar güləndə o da gülümsünürdü. Bu gülüş qəlb açıqlığından, fərəh hissindən deyildi; ürəyini göynədən, qəlbini parçalayan, damarlarda qanını donduran, beynini kütləşdirən, doğmaları ilə haçansa qovuşacağına olan ümidli həsrətindən doğurdu... Maşın Girdman çayının üstündəki körpüdən keçib Ağsu yoxuşuna qalxdıqca, təbiətin insanı vəcdə gətirən bu gözəl guşələrini ilk dəfə gördüyündən onu heyrətləndirirdi. Yamyaşıl otların, əlvan çiçəkli yamacların, donuz hızzasan girməsi mümkün olmayan meşələrin seyrinə daldıqca, dağın təmiz havası ciyərlərinə axdıqca, ona elə gəlirdi ki, yuxudadı. Çox keçməyəcək, ayılacaq. Qəmdən, kədərdən doğan anlaşılmazlıqlar aydınlaşacaq, bu yerləri xatırlayacaq. Onda hər şeyi, hər şeyi yenidən gözləri önünə gətirməyə çalışacaq. Gördüklərinin, duyduqlarının böyük bir hissəsini sözlə təsvir eləyə bilməyəcək. Bunun

üçün də özündə böyük peşmançılıq hissi duyacaq... Şəfəq bu fikirlər içərisində idi ki, Niyaz dilləndi:

— Necə bilirsiz, bəlkə burda bir çay içək? Təbiətin qoynunda bir az dincələk. Gözümüzün yorğunluğu çıxsın.

Mətanət:

— Əla.

Cavad:

— Bir halda ki, istəyirsiniz, mən də etiraz eləmirəm. Bəlkə, Şəfəqin də bir təklifi var?

Adının çəkildiyini eşidən Şəfəq yuxudan ayılan kimi oldu.

— Hə, nə deyirsən, Şəfəq?

— Fikrim dağınıq olduğu üçün sizi anlamadım, Cavad qardaş.

— Niyaz təklif eləyir ki, maşını saxlasın. Burda çay içək, bir az da nəfəs alaq, ayaqlarımızın qıcı açılsın.

— Məsləhət sizindi, qardaş.

Mətanət:

— Bu, o deməkdi ki, Şəfəq də etiraz eləmir.

Şəfəq:

— Hə...

Niyaz növbəti dağ yüksəkliyində qurulmuş evciyin yanında maşını saxladı. Hamı maşından düşdü. Niyaz evciyin yanında dayanan oğlandan soruşdu:

— Çayınız varmı?

— Bəli!

— Kabablıq quzu ətiniz necə?

— Var.

— Onda bir çaynik çiçək çayı. Adama bir şiş quzu ətindən kabab.

Sonra əli ilə dağın yüksəkliyində bitmiş ağacın dibində qoyulmuş stolu göstərərək əlavə elədi:

— Bax, özü də o stolda. Biz ordan bu dağları, dərələri, meşələri aydın görə bilək.





— Baş üstə.

— Tez elə.

Niyaz yaxınlıqdakı ağacdan asılan əl-üz yuyana tərəf getdi. Sonra üzünü Cavada tutaraq dedi:

— Gəlin, əlinizi yuyun.

Şəfəqlə Mətanət əl-üz yuyana yaxınlaşırdılar ki, dörd-beş addım aralıda ağaca bağlanmış qonur rəngli iki ayı balası gördülər. Ayı balalarının qənşərində sıyıqla dolu böyük bir boşqab vardı. Ayıların hərəsi bir tərəfdən boşqabdakı sıyığı dava-dalaşsız yeyirdilər. Onları təəccüb bürüdü. Ayı balalarını görcək elə bil Şəfəqin ürəyinə biz soxuldu. Gəlib gözləri önündə doğmaca Hikməti dayandı.

— Yəqin, mənim də balamı Qəhmər belə yedirir, — deyə düşündü. Mətanət qorxub geri çəkildi. Cavad irəli yeriyib:

— Nədən qorxursuz? Bunlar balalardı. Bir də ki görmürsüz ağaca bağlıdılar?

Mətanət:

— Bunları hardan tutublar?

Niyaz:

— Meşələrdən, bu dağlardan.

— Burda ayı olur?

— Niyə olmur ki. Olmasa, bu balaları hardan gətirə bilərlər ki.

— Yəqin ana ayı balalarını axtarır indi. Bilsə balaları burdadı, hücum çəkər.

Heç bir söz demədən Şəfəq əllərini yudu. Ağacdan asılmış qırmızı gülləri olan tüklü yumşaq dəsmalla quruladı. Sonra geri çəkildi. Dayanıb Mətanətin yuyunub qurulanmasını gözlədi.

Bayaqdan bəri təbiəti müşahidə eləyən Cavad əli ilə uzaqları göstərərək: — Baxın, o yanda, dərənin dibindən qalxan ağ, qatı dumana fikir verin. O tərəfdən də ala-tala buludlar dağların zir-

vələrinə doğru axışır. Hava da bulanır, dağlara bir azdan yağacaq.

Cavadgil söhbət eləyə-eləyə gəlib stullarda əyləşdilər. Xidmətçi oğlan sifarişləri stola gətirdi. Onlar həvəslə yeyib-içdilər.

Bütün fikri-zikri ayı balalarının yanında qalan Şəfəq soruşdu:

— Görən, ayı balalarını bura niyə gətiriblər?

Cavad:

— Gəlib-gedənlərə nümayiş etdirməyə.

— Mənim balalara yazığım gəlir. Bəlkə açıb buraxalar?

— Onları öldürmək gərəkdi, bacı, nəinki buraxmaq.

Şəfəq Cavada etiraz eləməsə də, ürəyində ona: — İnsafsız, — deyə düşündü.

Cavad:

— Göyün üzünü qara buludlar alır. Qalxın gedək.

Niyaz pulları xidmətçiyə verib maşına əyləşdi. Yolun sağ və solundakı yamyaşıl qarağat, böyürtkən kolları, kolların arasında, dağın yamaclarında uzanan yamyaşıl otlar, otların arasından boylanan çiçəklər göz oxşayırdı. Bu çiçəklərin bir-birinə qarışan ətirləri maşının açıq pəncərələrindən salona axıb ciyərlərə dolurdu. Bu, Şəfəq üçün nə qədər cazibədar görünsə də, qarşıdan gələn maşınların böyük sürətlə onlara yaxınlaşması, az qala üz-üzə gələ biləcəkləri onu çox qorxudurdu. Bu qorxu ötüşməmiş əyləşdikləri maşının yöndəmsiz döngələri böyük sürətlə qət eləməsi və bu zaman maşının əlçatmaz, ünyetməz dərələrə yumbalanması təhlükəsi canına güclü lərzə salırdı. Bu anda yaşamağa, ömür-gün sürməyə olan ehtirası nə qədər zəif olsa da, qəm, kədər, qüssə içərisində yaşasa da, hər gün göz yaşları töksə də, onu həyata bağlayırdı. Şəfəq öz-özünə düşündü: — Həyat niyə bu qədər şirindi? Dağlar ağırlıqda yükün altında ola-ola, addımbaşı həyat girdabına bata-bata yenə də yaşamaq istəyirəm. Zülmətlər içərisində sıxılan taleyimə hardansa işıq düşəcəyini gözləyirəm... Neyləməli? Onsuz da başqa yolum yoxdu. İnsan həyatı





doğrudan da müəmmalıdı. Qəribədi bu dünyanın işləri. Kimisinin qapısını xoşbəxtlik, səadət özü döyəcləyir. Kimisi də ömrü boyu xoşbəxtliyi, səadəti uğrunda dizin-dizin sürünür, ancaq nə fayda. Heyf! Çox heyf! Xoşbəxtlik, səadət yetişmiş meyvə deyil ki, ağacdan dərib bir dişdəm də sən götürəsən... O, çiçək deyildi ki, dərib dəstə bağlayıb qoxlayasan... Şamama deyil ki, tağdan üzüb ətrini çəkəsən...

Şəfəq düşündükcə Mətanət mürgüləyirdi. Niyaz bütün diqqətini maşının idarəsinə yönəltmişdi. Cavad arxaya döndü. Arvadını mürgüləyən görcək bir balaca qımışdı. Sonra da üzünü Şəfəqə tutub dedi: — Təbiət necə də dəyişdi“. Şəfəq çox qısa cavab verdi: — “Hə”. Bayaqdan bəri yolun şah damarını qırmaqda olan maşın Şamaxı yüksəkliklərindən yavaş-yavaş düzə enirdi. Endikcə hava da, dağlar da, dərələr də, yolun iki yerə böldüyü düzlər də görkəmini dəyişirdi. Çılpaq, gözyorucu bir qiyafədə görünürdü. Maşın şəhərə girhagirdə Mətanət gözlərini açdı: — Çatdıq? — dedi. Niyaz: — Hələ var, tələsmə, — deyə cavab verdi. Maşın yarım saat keçməmiş səkkizinci kilometr qəsəbəsinə daxil oldu. Binaların arasından keçib doqquz mərtəbəli binanın qarşısında dayandı. Onlar zənbilləri götürüb ikinci mərtəbəyə qalxdılar. Mənzil iki otaqlı idi. Qapıdan soldakı otaq yataq, onun da yanındakı dincəlmək üçün nəzərdə tutulmuşdu. Vanna otağı mənzilin girəcək qapısı ilə üz-üzə idi. Onun yanında mətbəx yerləşirdi. Dəhlizdə asılqan, ondan da yarım metr aralıda böyük güzgü qoyulmuşdu. Yataq otağında iki nəfərlik çarpayı, çarpayının sol tərəfində şabalıdı rəngli şkaf vardı. Divarlara tünd kağız çəkilmişdi. Pəncərə kəllə divarda idi. Ondan ağ tül pərdə asılmışdı. Tavana ağ rəng vurulmuşdu. Tavanın düz ortasından səkkiz lampalı çilçıraq asılmışdı. Taxta döşəməyə kilim sərilmişdi. İstirahət otağında divarlara çəkilən kağız ağ rəngdə idi. Girəcəkdən solda divan, onun da hər iki kəlləsində yumşaq oturacaqlar qoyulmuşdu. Qapıya əks divarın dibində

mebel dəsti düzülmüşdü. Evin kəllə divarında üzü cənuba baxan böyük bir pəncərə vardı. Pəncərədən də seyrək gülləri olan pərdə asılmışdı. Pəncərədən sağda rəngli televizor qoyulmuşdu. Döşəməyə təzə yaşıl rəngli ayaqaltı sərilmişdi. Onun ortasında stol qoyulmuş, ətrafına da stullar düzülmüşdü. Mətbəxdə sağ divar boyunca ağ mebel dəsti vardı. Sağ tərəfdə qaz plitəsi, mətbəxə girərkən çöl tərəfdə soyuducu qoyulmuşdu. Tavandan bir elektrik lampası asılmışdı. Mətanət Şəfəqlə zənbilləri götürüb mətbəxə apardılar. Anasının qoyduğu əti, toyuqları, yağı, pendiri, qatığı, mürəbbəni soyuducuya yığdılar. Meyvələri qablara yerləşdirdilər. Mətanət yemək bişirmək istəyirdi ki, Niyaz dedi:

— Zəhmət çəkmə. Toxam. Mən getməliyəm.

— Bəlkə yol üçün yemək hazırlayım?

— Yox... Ehtiyac yoxdu. Acsam, yol boyu yeməkxanadı. Özüm bir şey fikirləşərəm.

— Qardaş, əgər qalmayacaqsansa, onda gecikmə. Axşama düşə bilərsən. Ancaq səndən xahişim var.

— Nədi ki o?

— Əvvəla, beş-üç manata aldanıb tanımadığın adamı maşına götürmə. Televizorda gündə eşidirsən də. Maşına minirlər. Sonra da sürücünün başına oyun açırlar. İkincisi də, maşını çox sürətlə sürmə.

Niyaz başı ilə “Hə” işarəsini verdi və xudahafizləşib evdən çıxdı.

Şəfəq öz-özünə dedi: — Axı mən niyə cavan ailəyə əziyyət verməli idim, onların yerini evlərindəcə niyə daraltmalı idim, Cavad kişi xeylağıdı. İstədiyi kimi otura, uzana, danışa bilməyəcək...“ — O, bu fikirlər içərisində idi ki, Cavad dilləndi: — Şəfəq, bacım, gəl əyləş, sənə deyiləsi sözüm var. Mətanət, zəhmət olmasa, sən də gəl“. Mətanət: — Bu saat“ deyib, Göyçaydan gətirdiyi meyvələri yuyub stola gətirdi. Özü də, Şəfəq də əyləşdilər. Cavad gilaslardan bir-ikisini götürüb ağzına qoydu:





— Əla, — dedi.

Mətanət:

— Göyçayın çinarları,
Nə çoxdu heyvası, narı?

— Təkcə heyvası, narımı?

— Yox, əriyi, qara gavalısı, xurması, bir sözlə, torpağı.

— Qaldı.

Şəfəq gülümsündü. Mətanət dərhal:

— Nə?

— Gözəl, özü şirin, dili şirin, ləyaqət, namus, şərəf mücəssəməli qızları. Yenə deyim?

— Doğrudan da, Azərbaycan gözəldi. Hər qarış torpağının öz təravəti, hüsnü var. Qəribədi, hər bölgənin adamları da bir-birindən fərqlənirlər.

— Fikirləşsən, hərəsində bir qüsur, bir qəbahət taparsan.

— Əvvəla, yaxşısı barədə fikirləş. Onda görəcəksən ki, yaxşıları qüsurlarını üstələyir. Belə olanda çatışmayan cəhətlər haqqında düşünməyə ehtiyac qalmayacaq.

Mətanət üzünü Şəfəqə tutaraq:

— Düz demirəm, bacı?

Şəfəq bir balaca başını yana əyib çiyinlərini çəkdi. Mətanət fikrini tamamlamağa çalışdı.

— Bütöv bir xalq, millət oğru, quldur, dələduz ola bilməz. Tək-tək əxlaqı pozğunlar, yaramazlar, nakəslər hər cür eybəcər işlər görür, başqalarının da ad-sanını ləkələyirlər. Gərək hamı belələrinə qarşı mübarizə aparsın, onlara öz yerlərini göstərsinlər. Bax, televizorda göstərildiyi kimi. Kişi taksi sürücüsü işləyir. Gəlib maşına oturub deyirlər ki, məni filan yerə apar. Yazıq sürücü neyləsin? Onun vəzifəsi camaata xidmət eləməkdi. Müştərini mənzil başına apararkən arxadan sürücünün boynuna ip salıb boğurlar. Öldürüb atırlar kanala. Maşını da qaçırırlar. Yaxud da sürünün yanından günahsız çobanı oğurlayırlar. Aparıb

neçə gün xəlvəti yerdə saxlayır, sürünü satırlar. Sonra da gəlib zavallı çobanı öldürürlər. Məsələ açılır. Günahkarlar tutulur, həbs olunurlar. Bəziləri ömürlük, bəziləri də uzun müddətə azadlıqdan məhrum edilirlər. Bəyəm burda xalqın, millətin günahı var?

— Mən də demirəm ki, xalq günahkardı, Mətanət xanım! Səndən tibb işçisi yox, əla vəkil olardı. Heyf ki...

— Hələ ki gec deyil, oxutsun.

— Ağ eləmə.

Otağı gülüş səsləri bürüdü. Cavadın üzündə ciddi görkəm yarandı:

— Mənim Şəfəq bacıma deyiləsi sözüm var. Bayaqdan bəri aman vermirsən danışam. Düşmüsən üstümə, oğru belə gəldi, quldur, baş kəsən elə getdi.

— Buyur, cavan oğlan.

Mətanətin sözündəki əda Şəfəqlə Cavad üçün gözlənilməz oldu. Onlar özlərini saxlaya bilməyib gülüşdülər. Sonra Cavad dedi:

— Əziz bacım Şəfəq. İstəyirəm, səninlə açıq danışam. Biləsən ki, Bakı nə Göyçaydı, nə Gəncə. Bu şəhər onlardan çox-çox böyükdü. Əhalisi çoxdu. Üstəlik, hər gün bura yüz minlərlə qonaq gəlir, gedir. Şəhər qaynayır. Burda yaşamaq həm asandı, həm də çətin. Asandı ona görə ki, dolanacaq yeri çoxdu. Adam özünə istədiyi işi tapa bilər. Çətindi bu mənada ki, insanlar sıx olan şəhərdə adam aldatmalar da, oğrular da, dələduzlar da... nə bilim daha kimlər, kimlər də çox olur. Gərək hər an gözlərin açıq ola, deyilənləri yüz ölçüb, bir biçəsən. Elə adamlar var ki, istər qadın olsun, istərsə də kişi, iblisdən, şeytandan da hiyləgərdilər. Heç bir şeydən adam öldürməyə də, qan tökməyə də hazır olanlar var. Pis odu ki, belələri adama mələk sifətində yanaşırlar. Özlərini dünyanın xeyirxahı kimi göstərirlər. Elə ki, istəklərinə nail oldular, daha onlara lazım deyilsən... Bəlkə də mənim





bu dediklərim yersizdi. Sən mən deyənlərdən də çox bilirsən. Hərçənd bu söhbəti sənə deməyə borcluyam, bacı.

Şəfəq:

— Sağ ol, qardaş. Güman eləyirəm ki, bizim aramızda o qədər də yaş fərqi yoxdu. Mətanət xanımla uşaqlıqda həmişə bir yerdə olmuşuq. Oynamışıq. Dalaşmışıq. Bəzən də üz-gözümüzü cırmışıq. Heç yarım saat keçməmiş barışmışıq. Mən səni də o həyətdə görmüşəm. Bilirəm Qumru xala da, Əsəd əmi də səni oğlanlarından heç də az istəmirlər.

Mətanət:

— Doğrudu.

Şəfəq:

— Düşünürəm ki, mənim ən xoşbəxt çağlarım uşaqlığım olub. Rəhmətlik babamın himayəsində olub. Dərdimi heç kim bilməyib, heç kəsə açıb danışmamışam. İndi də danışmaq, sizin də qanınızı qaraltmaq istəmirəm. Təkcə onu biləsiz ki, sizinlə bu izdihamlı şəhərə gəlişimin məsuliyyətini aydın dərk eləyirəm. Hansısa nalayiq hərəkətlərimin sizin də adınıza ləkə gətirəcəyini, üstünüzə arzuolunmaz kölgə salacağını anlayıram. Cavad qardaş, mən sənə dönə-dönə çox sağ ol deyirəm ki, bu gün mənimlə açıq söhbət eləyirsən. Mənim bu şəhərdə Mətanətlə səndən savayı kimsəm yoxdu. Mənim güman, məsləhət yerim sizsiz. Qardaşım Cavad, bacım Mətanət, məni öz ailənizin üzvü sana bilərsiz. İstərdim, mənim qəbahətlərimi düz gözlərimin içinə deyəsiz. Yeri gəlsə, utandırmaqdan da çəkinməyəsiz. Adam günahlarını başa düşsə, əgər o doğrudan da adamdırsa, növbəti dəfə günah işlətməz, qəbahətə yol verməz...

Cavad:

— Bilirsən ki, Mətanət poliklinikada tibb bacısı işləyir. Mənsə müəlliməm. Universitet qurtarmışam. Bizim işlədiyimiz müəssisələrdə sənin üçün iş tapmaq müşkül məsələdi. Tapsaq da o, sənə əl verməz. Öyrənmək istəyirəm. Hansı sahədə, nə iş-

ləmək istərdin, bacı?

— Mən tikiş üzrə peşə məktəbini qurtarmışam. Bir müddət də tikiş fabrikində işləmişəm. Bu sahədə xeyli təcrübə toplamışam. Mənə elə gəlir ki, bu sahə daha əlverişli olar.

— Mən etiraz eləmirəm. Mətanət xanım, sənin fikrin.

— Məncə, Şəfəq yaxşı fikirləşir.

Şəfəq:

— Qardaş, elə yer seçək ki, gələcəkdə orda ev növbəsinə də dayana bilim.

Cavad:

— Şübhəsiz.

Cavadgil xeyli fikirləşib belə qərara gəldilər ki, şəhərdəki bir növbəli tikiş fabrikinə getsinlər. Sabah iş günü idi. Cavadın səhər iki saat dərsi vardı. Mətanət isə ikinci növbə işə çıxmalı idi. Cavad xeyli götür-qoy elədi:

— Mən səhər iki dərsimi deyib gələcəm. Ola bilərmi ki, Mətanət xanım, birlikdə gedək fabrikə? Vəziyyəti öyrənək.

Mətanət:

— Narahat olma. Sima xanıma zəng çalıb deyərəm ki, məni işdə əvəz eləsin.

Mətanət telefon aparatına yaxınlaşdı. Dəstəyi götürüb Sima xanımın ev telefonunun nömrəsini yığdı.

Çox keçmədi ki, dəstəkdən Simanın səsi eşidildi. Mətanət onun səsini dərhal tanıdı:

— Salam, Sima xanım!

— Salam, Mətanət, sənsən?

— Hə...

— Nə tez qayıtdınız. Ay qız, bir az qalıb dincələydin də.

— Dincəlmək üçün yayda gedəcəyəm.

— Zəng çalmaqda xeyirdimi?

— Mənim sabaha vacib işim var. Sən məni əvəz eləyə bilərsənmi?





— Baş üstə. Arxayın işini gör.

— Oldu. Təşəkkür eləyirəm.

— Hələlik.

Mətanət dəstəyi öz yerinə qoydu. Sonra da üzünü əri ilə Şəfəqə tutaraq dedi:

— Mənim işim düzəldi. Onda Cavad, Şəfəqlə səni evdə gözləyəcəyik. Dərsin qurtaran kimi gəl.

— Baş üstə.

Mətanət Şəfəqin eynini açmaq, onun gərilən əsəblərini yüngülləşdirmək üçün ərinə dedi:

— Yaxşı, Cavad, nə fikirləşirsən? Biz yatanacan evdəmi oturacağıq?

— Təklifin?

— Çıxaq şəhərə. Şəfəq də Bakıda olmayıb. Gəzək, bizim də eynimiz açılsın, onun da.

— Hara gedək?

— Dənizkənarı parka.

— Etiraz eləmirəm. Geyinin gedək.

Mətanət ayağa qalxdı. Şəfəq istədi desin ki, mənim həvəsim yoxdu“. Sonra da düşündü ki, gəldiyim ilk gündü, ev yiyəsinin istəyinə qarşı çıxmaq, ən azı onların daxili işinə qarışmaqdı. Nə qədər həvəsim olmasa da, deyilənləri qəbul eləməliyəm, onlarla birlikdə addımlamalıyam. Əks halda, deyilənlərin əleyhinə gedirəm. Bir də ki Mətanətin bu təklifi mənim xatirimə verdiyini anlayıram. İstəyir, özümə gəlim. Bir çox şeyləri unudum. Ancaq mənim dərdim unudulan deyil. Mən Hikmətimi bir dəqiqə də unuda bilmərəm. Övlad günəşdi, bacı. Allah sizə də qismət eləsin. Sizin də evinizə, ailənizə günəş doğsun. Özü aləm, nəfəsi bir dünya. Onun doğuluşu ilə nurlanasız, sevinəsiz. Körpə təbəssümü görəsiz, uşaq qəhqəhələri eşidəsiz. Sevinəsiz. Əziz bacım Mətanət, qardaşım Cavad. İndi hazırlaşıb gedək deyirsiz. Mən necə hazırlaşım. Əynimdəki əldən düşmüş, ütülənməmiş,

köhnə qırış-qırış, əzik-üzük paltarlarımı geyim? Ya selofan torbadakı Süsən verən paltarlarımı geyim?! Heç birisi ilə şəhərə çıxılası deyil... Məni sizin yanınızda görən tanış-bilişləriniz üzə vurmasalar da, arxanızca da olsa, deməzlərmi ki, bu dilənçi, bu səfil kimdi? Mən sizi onda utandırmayacağam ki? Yaxşısı budu, mən həqiqəti açım, düşündüklərimi deyim Mətanətə.

Şəfəq ayağa qalxdı. O, Mətanəti yan otağa çəkmək, düşündüklərini izhar eləmək istəyirdi. Mətanət onu qabaqladı:

— Şəfəq, asılqanda mənim təzə paltarlarım var. Hansını xoşlayırsansa, geyin. Birlikdə şəhərə çıxaq.

— Bəlkə mən...

— Nə danışırsan? Sənsiz mən də şəhərə ayaq basmaram. Bundan sonra elə şeylər barədə düşünmə. Mənim-sənin yoxdu. Hansı paltardan xoşun gəlirsə, ürəyinə yatırsa, gey. Tezliklə sən də işləyəcəksən. Qazanacaqsan. Özünə hər cür paltar ala biləcəksən. Unutma ki, biz də sənin kimi olmuşuq. Şəhərə siftə gələndə metro pulumuz da olmurdu. Yavaş-yavaş hər şey düzəldi. İndi Cavadı gözlətməyək. Xanımların geyinib kecinməsi, ənnik-kirşan çəkməsi çox vaxt apardığından kişilər qadınlarla gəzməyə çıxmaq istəmirlər...

Şəfəq utanıb çəkindiyindən asılqanın qarşısında çaşıb qalmışdı. Bunu hiss eləyən Mətanət paltarlarını bircə-bircə götürdü. Şəfəqin üstünə tutdu. Bədəninə, sir-sifətinin rənginə uyarını seçdi: — Al, bunu geyin, — deyə təptəzə, hələ əyninə almadığı mavi rəngli kostyumunu ona verdi. Şəfəq geyindi. Mətanət onu güzgünün qənşərinə çəkdi. Şəfəq özünü güzgüdə görcək gözlərinə inanmadı. Bir anlığa Mətanətə də, Şəfəqə də elə gəldi ki, bu kostyum Şəfəq üçün yüz dəfələrlə ölçülüb-biçilib tikilmişdi. Mətanət ətir şüşəsinin ağzını açdı. Şəfəqin də, özünün də üstünə ətir səpdi. Otaqdan çıxmaq istəyirdilər ki, Cavadın: — Nə oldu, bəzənib-düzənib qurtarmadız? — deyə, dəhlizdən səsi eşidildi. Mətanət: — Hə, biz hazır! — deyə cavab verdi. Cavad dəhlizə





çıxanda Şəfəq onu qara kostyumda, ağ köynək, qara qalstukda gördü. Şəfəq gülümsündü və: — Bu kostyum sizə çox yaraşır, maşallah, — dedi. Mətanət o kostyumu Cavada özü aldığını bildirdi. Cavad dərhal:

— Kimin pulu ilə?

— Əlbəttə, öz pulunla. Pulun olması azdı, əzizim. Gərək zövqün ola. Pulu hara, nəyə xərclədiyini də biləsən.

— Özünü az təriflə. Səni yaxşı bilməsəydim...

— Olanı deyirəm.

— Yaxşı, sən deyən olsun. Ayaqqabılarınızı geyinin, gedək.

Mətanət öz ayaqqabılarından bir cütünü də Şəfəqə verdi. O, sıxıntı içərisində ayaqqabıları geyindi. Əvvəl Mətanətlə Şəfəq, onların da ardınca Cavad otaqdan çıxdılar. Birbaşa “Azneft“ meydanı”na gəldilər. Şəfəq “Dənizkənarı park” barədə nə qədər eşitsə də, televizor ekranından ona dönə-dönə baxsa da, park ona indiki qədər təsir eləməmişdi. Mavi Xəzər, dənizdən sahilə axan xəzri, lap uzaqlarda lövbər salan gəmilər, mavi suların üzərində uçuşan gümüşü qanadlı qağayılar, ordan baxanda da Bayıl yüksəkliyi, Dağüstü Park, Hökumət Evi, neçə-neçə əzəmətli bina, Əhmədli yüksəkliyi apaydın görünürdü. Parkda skamyalarda əyləşib söhbət eləyən qocalara, iki-bir, üç-bir dincələn gənclərə, gəzişən adamlara baxdıqca Şəfəqin ruhu atlanırdı. O, hərdənbir ağacların dibində dodaq-dodağa öpüşən oğlan və qızları görəndə bədəni ürpəşdi, bütün əvvəlki təəssüratları birdən-birə əriyib yox oldu. Qeyri-iradi içini çəkdi. Bunu Mətanət də hiss elədi. Cavad onlardan bir neçə addım aralıda getdiyindən və öz aləmində olduğundan Şəfəqin “iç” çəkməsindən xəbərsiz qaldı. Şəfəq Mətanətə pıçıltı ilə dedi:

— Bəlkə, burdan gedək?

— Niyə?

— Sıntarmışları görmürsən?

— Bakı üçün o adi hala çevrilib, bacı.

— Cavaddan ayıbdı.

— Narahat olma, Cavad öz hayındadı. Nə onlara baxır, nə də bizə fikir verir. Bunlar evsizlərdi, imkansızlardı.

— Bu ki biabırçılıqdı.

— Hər gün televizorda göstərilənlərdəndi də. Tezliklə bu həyata alışacaqsan. Onda elələrinə təəccüblənməyəcəksən, onları görməyəcəksən. Görsən də, hər şey sənə adi hal kimi gələcək.

Mətanət birdən ayaq saxladı. Onun dayandığını görən Cavad soruşdu.

— Xeyir ola?

— Bəlkə adama bir dondurma.

— Sən dayananda nə deyəcəyini başa düşdüm.

— Cavan oğlan, sözünü de: "Hə" ya "Yox".

— Sənin kimi gözəl-göyçək xanımın sözünü yerə salmaq olar?

Şəfəq gülümsündü. Mətanət rəfiqəsinin gözlərində sevinc duydu. Heç bir söz demədən onlar yaxınlıqdakı kafeyə gəldilər. Dondurmanı yeyə-yeyə Şəfəq sözə başladı: — Heç ağlıma da gətirə bilməzdim ki, bir zaman Bakıya gələcəm. Burda sizinlə oturub dondurma yeyəcəm. Cavad qardaş, hərdən "İnsan həyatı qəribədi", deyə düşünürəm. Ömür hardan başlanır və sahibini hansı ağlagəlməz, təsəvvürolunmaz hadisələrlə qarşılaşdırır. Qabağı görmə qabiliyyətləri olmadığından insanlar düçar olacağı hadisələrə özlərini necə gəldi atırlar. Sonra da bu gözlənilməz burulğandan özlərini qurtarmağa çalışırlar. Mənim həyatım çox keşməkeşli olub. Düşünürəm bir zaman Gəncəyə getməsəydim, bəlkə də həyatım bu qədər zəhərli, acılı-iztirablı olmazdı. Kim bilir, bəlkə bundan da betər olardı?

Cavad daxili sarsıntı keçirərək astadan dedi:

— Bəlkə də xeyirlisi budu, Şəfəq.

— Məni yandırıb-yaxan Hikmətdi. Dilsiz-ağızsız körpəni qoyub gəlməyimdi.





Mətanət:

— Atasının yanındadı. Fikir eləmə. Ağlı söz kəsən kimi axtarıb səni tapacaq.

— Hamı elə deyir, Mətanət. Ancaq mən inanmıram. Böyüyüb yaşa dolduqca onun qulağını dolduracaqlar: anan səni atıb getdi; Cavad qardaş da bağışlasın, deyəcəklər anan səni özünə bala bilmədi; anan səfeh, ləyaqət və şərəfini itirmiş bir adamdı. Eh, bunları düşünəndə dəhşətə gəlirəm. Günahım olmadan məni evdən qovanlar balamda da mənə qarşı nifrət hissi aşılayacaqlar. Bilirsizmi, bu nədi? Mənim aləmimdə ən böyük cinayət.

— Eləməzlər, Şəfəq.

— Yox, siz Tubunu tanımırsız.

— Nə deyə bilər ki?

— Üzümə iftira, böhtanlar atanlar arxamca nə deməzlər ki? Mən Hikməti görə biləcəyəmmi? Ona həqiqəti çatdırmaq imkanım olacaqmı? Lap tutaq ki, çatdırdım. O, mənə inanacaqmı?

— Salamat böyüsün. Zaman qaranlıq mətləblərə işıq salandı, bacım. Dondurmamızı yedik, "Fanta"mızı içdik. Çox otursaq, çox da fikirləşəcəksən, Şəfəq. Bəlkə qalxaq. Bir az da gəzək.

Cavadgil stuldan qalxdılar. Gəzə-gəzə parkda nümayiş etdirilən quşlar, heyvanlar aləminə pavilyona gəldilər. Rəngbərəng quşlara, cürbəcür heyvanlara, müxtəlif növ ilanlara baxdılar. Şəfəq mat-məəttəl olub qalmışdı. Qızın qəlbində məskənindən, təbii həyat tərzindən ayrılan canlılara təəssüf hissi yarandı. Ona elə gəlirdi ki, insanlar canlıların ən qəddarıdı. Belə olmasaydı, insan insana öz mənafeyi naminə zülm eləməzdi. Bir-birini öldürməzdi. Ananı baladan, balanı anadan ayırmazdı. Niyə ayı balalarını isti yuvasından götürüb, ana himayəsindən, qayğısından ayırıb yol kənarında gəlib gedənlərə göstərməliydilər? Bu qədər quşları, dovşanları, ayını, meymunu, ilanları gətirib niyə nümayiş elətdirməlidirlər? Məqsəd nədi? Qazanmaq! Camaatdan bu yolla pul qoparmaq. Bizim kimi adamların ciblərinə girmək.

Başqa necə ola bilərdi ki? Soruşsan, hamı canlı aləmin mühafizəsindən geninə-boluna danışacaq. Bəzən elə əsaslar gətirəcəklər ki, özün də buna məəttəl qalacaqsan. Sonra da düşünəcəksən, yəqin mən səhv eləyirəm. Bir çox məsələni başa düşmürəm. Bəlkə bu doğrudan da belədi. Lap belə olsa da, məni qınamayın, heç kəsə rəva görməzdim ki, isti yuvasından, anasından, təbii həyat tərzindən canlıları ayırsınlar. Bax beləcə, Şəfəq için-için danışa-danışa nümayiş məskənindən çıxdı. Cavad saatına baxdı. Sonra üzünü arvadına tutub dedi:

— Gecdi, getməyin vaxtıdı.

Mətanət dönüb Şəfəqin üzünə baxdı. Şəfəq də başı ilə "hə" işarəsini verdi. Göyün üzünə dəniz tərəfdən ala-tala buludlar axışırdı. Qüruba çəkilən günəşin zəifləməkdə olan şüaları buludları sarımtıl rəngə boyayırdı. Şəfəq üçün maraqlı bu idi ki, gün daraldıqca, axşamın çökməkdə olan qaraltısı özünə saymazyana yer elədikcə şəhərdən parka axışan adamlar nəinki azalırdı, əksinə, daha da artırdı. Heç kəs şəhərin bu cazibədar mənzərəsindən ayrılmaq istəmirdi. Mətanət gülümsünərək dedi:

— Ay Cavad, gəzməkdən ayaqlarım ağrıyır. Ancaq burdan ayrılmaq istəmirəm.

— Nə fikirdəsən? Bəlkə gecəni də burda qalaq?

— Yox, gedək. Ancaq taksi ilə.

Cavad arvadının sözünə etiraz eləmədi:

— Yaxşı, siz yavaş-yavaş gəlin, mən taksi saxladım, — dedi və iti addımlarla parkın kənarı ilə uzanıb gedən "Neftçilər" prospektinə üz tutdu. Prospektə çatıb dayandı. Taksiyə əyləşib evə getdilər. Bir az dincələndən sonra Cavad sabahkı dərsinə hazırlaşmaq üçün yan otağa keçdi. Mətanətlə Şəfəq isə balkona çıxdılar. Hava qaralmışdı. Ona elə gəldi ki, səmadakı ulduzlar məhvərindən qopub köklü-köməcli yerə enmişdi. Küçədəki elektrik dirəklərindəki lampalardan, ictimai binalardan, dükan və mağazaların qapıları üstə vurulan bərbəzəkli reklamlardan





süzülən işıqlar bir-birinə qarışır, hər tərəf al şəfəqə boyanırdı. Mətanət dərindən nəfəs aldı və sonra dedi:

— Bakı gözəldi. Bu şəhərin axşamları lap heyrətamizdi, cazibədardı.

— Demək istəyirsən ki, bu şəhərdə yaşamaq ondan da gözəldi.

— Bəs nə bilmişdin? Sağlıq olsun. İşləyərsən. Yaşayarsan. Onda hər şeyi öz gözlərinlə görərsən. Bu gün keçdi. İşlərimizi qaydaya salaq. Sonra Cavada deyərəm bizi aparar teatra, kinoya.

— Eh, bacı, sən hardan, nədən danışırsan? Bəyəm mənə elə yerlərə getmək yaraşır? Burda sənin yanındayam. Bircə an balam yadımdan çıxmır, Allah yaxşısını bilir. Bəlkə o, indi acdı? Bəlkə mənim kürrüyümü eləyir? Bəlkə ona heç Qəhmər də baxmır? Əxlaqsız Tubudan şərəfsizlikdən savayı nə gözləmək olar? Bir qadın ki, ar-namusunu başqalarının çirkin ayaqları altına ata, ondan nə gözləmək olmaz? Hərdən düşünürəm: gərək insanınkı əvvəldən düz gətirsin. Məni düz qəbul elə, Mətanət. Mən ər üçün, ailə üçün danışmıram. Bundan sonra məni təkcə oğlum düşündürür. Onsuz da mən heçəm. Mənə oğlum gərəkdi, oğlum!

— Mən səni başa düşürəm, bacı. Dərdinə də şərikəm. Axı indi neyləmək olar?.. Səbr elə... Düzələcək...

Şəfəq kövrəldi. Gözlərində gilələnən damcılar birdən-birə yaz yağışı tək yanaqlarından süzülməyə başladı. Mətanət bunu görcək: — Soyuqdu, mən üşüyürəm, keçək otağa, — dedi və Şəfəqin də qolundan tutub evə apardı. Mətanət pultu götürüb televizoru işə saldı. Ekranda cavan diktor qız göründü və elan verdi: "Hörmətli tamaşçılar, televizora yaxın oturun, indi də görkəmli dramaturq Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" pyesinin tamaşasına baxa bilərsiz". Mətanət öz-özünə dedi: — Şəfəqin beynini didib tökən fikirlərini dağıtmaq üçün bundan yaxşısı yoxdu". — O, televizora səs verdi. Tamaşa getdiyini hiss eləyən Cavad da otağa qayıtdı. Aktyorlar böyük ustalıq nümayiş elətdirirdilər. Əsərin məzmunu açıldıqca, ziddiyyətlər kəskin-

ləşdikcə, başlıca qayə aydınlaşdıqca Cavad sakit dayana bilmirdi. Qüdrətli sənətkarın təsvir elədiyi aləmin, dediyi hər sözün, hər kəlmənin müasir həyatla bağlılığı onu heyrətləndirirdi. Adama elə gəlirdi ki, o böyük ədib indi də yaşayır, indi də yazıb yaradır. Cavad üçün Cəlil Məmmədquluzadə dünyanın ən görkəmli sənətkarlarından biridi...

Tamaşa qurtarandan sonra o, astadan dedi:

— Bu əsərə baxmaqdan doymuram. Böyük sənətkarın yazdıqları olduğu kimi bu günə də aiddir.

Mətanət:

— Həqiqətən də böyük sənətkardı.

— Qəribə millətik. Cəlil Məmmədquluzadənin, Sabirin zamanında necə vardıqsa, indi də eləyik. Bircə addım da irəli getməmişik. Cahillik, nadanlıq, özünü düşünmək əsrin əvvəlində necəydisə, vallah, indi də elədi. Xalqın, millətin barəsində düşünən yoxdu. Hamı deyir mənə ver.

Şəfəq:

— Mən elə deməzdim. İndi elə fırıldaqçılar, hiyləgərlər var ki, onlar əsrin əvvəlində ola bilməzdi.

— Hə, onu düz deyirsən. Həyat olduqca mürəkkəbdi. Bəzən işıqlı, aydın sandığın yel elə uçurumlu dərələrin üzərindən keçir, səni elə zülmətlər qoynuna atır ki. Nə üçün belə oldu? — deyə düşünəndə dəhşətə gəlirsən. Zənnim məni aldatmırsa, insanlar da belədi, bacım.

Mətanət:

— Vallah, Cavad elə danışır ki, elə bil dünyagörmüş, qocaman bir kişidi, el ağsaqqalıdı.

Cavadla Şəfəq güldülər. Sonra Cavad dedi:

— Gecədən keçir. Yatmağın vaxtıdı.

Mətanət yataqları açdı. Sonra da Şəfəqlə xudahafizləşib əri ilə öz otaqlarına keçdilər. Şəfəq soyundu. Yorğanın ətəyini qaldırıb yatağa uzandı. Evdən qovulandan Şəfəq bir gecə əziz rəfiqəsi Süsəngildə, bir də indi belə yumşaq, təmiz yorğan-döşəkdə yatırdı. O, başını balınca qoyan tək ciyərparası yadına düşdü. Uşağın mışıl-mışıl yatması, hərdən başını o yan-bu yana çevirməsi, tanıyırmış kimi gözlərini ondan çəkməməsi, dodaqlarını büzüb ağlaması, març-març döş əmməsi, qarnı doyandan sonra rahatlanıb yuxulaması kino lenti kimi gözləri önündən gəlib keçdi. Ana təngnəfəs oldu. Sonra da gözlərindən yaş axıb balıncının üstünə töküldü. Hönkürmək istədi. Mətanətgil eşitməsin deyə Şəfəq üzü üstə çevrildi. Ağzını balınca qapadı. Ağladı, ağladı, ürəyini boşaltdı. Nə qədər çalışdısa, səhərəcən yuxuya gedə bilmədi. Hərdənbir bədəninə istilik gəlir, onu halsızlaşdırırdı. Hərdən də bədənini soyuq tər bürüyürdü. Bu anlaşılmazlığın nə olduğunu və onu haradan tapdığını heç cürə ayırd eləyə bilmirdi. Çaşıb qalmışdı. Ona elə gəlirdi ki, geci-tezi var, dərd-sərə tab gətirə bilməyib nə vaxtsa ürəyi çatlayacaq, kimsənin xəbəri olmadan səssiz-səmirsiz dünyasını dəyişəcəkdi. O gün uzaqda deyil, — deyə oturub-durub fikirləşirdi. Fikirləşdikcə də həyata, yaşamağa olan ümidi qırılırdı.

Gecə yarıyadək yata bilməyən, çarpayısında bala həsrətinə, övlad nigarançılığına tablaşmayan Şəfəq qeyri-iradi düzüb-qoşduğu bayatıları dilləndirdi:

Görən gözüm, can balam,
Anadan uzaq balam.
İstəyirəm hər zaman
Sən yanımda olasan
Bu nisgilli, iniltili,
Təşnəli ürəyimi
Baxışın, gülüşünlə
Oxşayıb ovudasan.
  Gülüm, gecə uzunu
  Ol yanımda sən mənim!

Gözüm gözünə baxsın.
Üzüm üzünə dəysin!
Sənsizliyim, təkliyim,
Sıxır, üzür qəlbimi,
Bilirsənmi, heç necə?!
Dözə bilmirəm daha
Ümidim yox sabaha
Körpə balamsız mənə
Hər axşamım, səhərim
İşgəncədir, işgəncə.
Anayam ürəyimin
Sevinci sənin olsun,
Yat, yuxuna gələcəm.
Qoy, yuxun şirin olsun.
Məndən uzaq olsan da
Ürəyim səninlədi.
Sən ilk arzum, kamımsan,
Diləyim səninlədi.
Şirin-şirin yat, balam.
Anan qurban gözünə.
Tanrı səni qorusun,
Tale sənə yar olsun
Gülsün bəxtin üzünə.

Lap dərinliklərdən süzülüb gələn zərif, qubarlı duyğular gəlinin bədəninə aldadıcı yüngüllük gətirirdi. Hərdənbir ürəyində övladına qovuşacağı anları düşünüb, nəhayətsiz zaman axarında qaranlıq zülmət içərisində ümid qığılcımlarını alışdırırdı. Bəzən anlaşılmaz hisslərin təsiri altında o, qığılcımları da üfürüb söndürür, özünə, taleyinə, Ulu Tanrısına qarşı amansızcasına asi düşürdü. Sonra da göz yaşları içərisində yenə Tanrıya üz tutur, ondan mərhəmət diləyirdi.





Ağır fikirlər, xəyallar içində üzülüb əldən düşən Şəfəqi dan üzü yuxu apardı.

* * *

Cavad yuxudan erkən oyandı. Hava küləksiz və mülayim idi. Göyün üzündə tək-tək, seyrək, ala-tala buludlar uçuşurdu. O, yuyunub qurulananda səhər naharı hazır idi. Bunu görcək Cavad arvadına dedi:

— Əla.

— Nə əla.

— Süfrənin açılışı.

— Bəyəm hər gün belə olmur?

Cavad arvadının gözlənilməz sualından tutuldu, sonra da düşündü ki, doğurdan da burda gündəkindən savayı elə bir möcüzə baş verməmişdi. İşlətdiyi "əla" sözü də çox yersiz idi. Ona görə də vəziyyətdən çıxmaq üçün Cavad arvadının sualına: — Ay qız, sözdü dedim də, qiyamət qopmadı ki.

— Bu, başqa məsələ.

— Şəfəq yuxudan qalxıbmı?

— Yox, yatıb. Neçə günkü narahatlığı bir aya da canından çıxmaz.

— Yazığım gəlir ona. Alçaqlar uşağını əlindən alıb özünü də evindən çölə atıblar. Bəyəm, bunu Allah götürərmi?

— Eh, Allahın da səbri böyükdü.

— Qismət.

— Uşağını əlindən alıb səni çölə atsınlar ki, deyəsən, bu da qismətdi...

Cavad keçib süfrə arxasında oturdu. Arvadının səhər bişirdiyi qayğanaqdan iştaha ilə yeyib ayağa qalxdı. Mətanət: — Ləngimə, səni gözləyəcəyik, — dedi. Cavad geri döndü. Arvadının belini qucaqlayıb öpüşlərə qərq elədi. Mətanət ərinin atəşin öpüşləri altında uyudu. Handan-hana onun qolları arasından çı-

xıb: — Bütün gecəni Allah əlindən alıb da, — dedi. — Bəsdi, Şəfəq oyanmış olar, qapını açar, biabır olarıq.

— Yaxşı, dərs qurtaran kimi gəlirəm. Siz də hazır olun, gələn kimi gedək. Vaxt itirməyək.

— Oldu — deyib xudahafizləşdi. Mətanət qapını arxadan bağlayıb geri qayıdanda Şəfəq dəhlizə çıxırdı. Mətanət salam verib ondan soruşdu:

— Hə, bacım, bu axşam necə yatmısan?

— Çox pis.

— Niyə?

— Yatağa uzanan kimi çağa gəlib durdu gözlərimin önündə.

— Çox fikirləşirsən, Şəfəq. Belə getsə, özünü xəstələndirərsən, bacı. Hiss eləyirəm, uşağını unuda bilmirsən. Əslində, unutmaq barəsində düşünməyi mən də sənə rəva görmürəm. Ancaq hər şeyin də həddi var. Unutma ki, həyat davam eləyir. Allah eləməsin, xəstələnsən, çox pis olar. Sən bundan sonrakı həyatını qurmalısan. İnsan kimi yaşamalısan. Bunun üçün də mübarizə aparmalısan...

— Uşaq barədə düşünməməkmi olur?! O, mənim həyatımdı. Yaramazlar balamın da həyatına qəsd elədilər, mənimki kimi. Ömrümüzə-günümüzə zəhər qatdılar! Zəhər!.. Bunu Yezid də eləməzdi, onlar elədilər.

— Danışdıqca əsəbiləşirsən. Qorxuram səndən, Şəfəq!

— Ağıllı, ailəcanlı kişi qadının ən böyük xoşbəxtliyidi. Sən xoşbəxtsən, bacı. Çalış xoşbəxtliyini qoru. Ərsiz qadın sahibsiz əşyadı. O da çox zaman çirkin ayaqlar altında qalar. İt-qurd ağzında sümük kimi çeynənər. Allah Cavadın da, sənin də canını sağ eləsin. Mənim də burda sizdən başqa kimsəm yoxdu.

—Tələsmə, işlərsən, təzə rəfiqələrin də olar, tanışların da. Başın qarışar. Onda indiki kimi darıxmazsan. Hər şeyə alışarsan, özünü tək, tənha sanmazsan.

— Təki sən deyən olsun.





— Hə, az qala unudacaqdım. İşə qəbul olunmaq üçün pasport lazım olacaq.

— Götürmüşəm. Torbadadı. Hələ üstəlik peşə məktəbini qurtarmam barədə vəsiqəni də, bir zaman tikiş fabrikində adıma açılan əmək kitabçasını da gətirmişəm.

— Nə yaxşı?

— Qovulanda ürəyimə dammışdı ki, mən o evdən bir dəfəlik gedirəm. Ona görə də sənədlərimi...

— Hissiyyat...

Cavad evə qayıdanda günortaya az qalırdı. O, Mətanətlə Şəfəqi götürüb şəhər bir nömrəli tikiş fabrikinə apardı. Kadrlar şöbəsinə girdilər. İçəridə sarıbəniz bir qadın əyləşmişdi. Onun saçlarına təkəm-seyrək dən düşmüşdü. Uca boyu, boyuna mütənasib bədəni, girdə sifəti, qonur gözləri vardı. Üz-gözündən nuranilik yağırdı. Qayğıkeşliyi, mehribanlığı gözlərindən hiss olunurdu. Qadın Cavadı görcək gülümsündü: — Oğlum, xoş gəlmisən, — dedi. Cavad təşəkkürünü bildirdi və utana-utana dedi:

— Bağışlayın, mənə tanış gəlirsiz.

— Nəvəmin müəllimisən. Hərdənbir səhərlər səninlə məktəbdə qarşılaşıram.

— Hə... Hə, yadıma düşdü. Siz Allah məni bağışlayın. Fikirliyəm. Burda işlədiyinizi bilmirdim.

— Olan şeydi. Bura gəlməkdə xeyirdimi?

— Şəfəq xanıma iş axtarırıq. Gəldik, bəlkə sizdə...

— Şəhərə qeydiyyatı varmı?

— Yox.

— Heç işləməyib?

— Qabaqlar. Gəncədə tikiş üzrə texniki peşə məktəbini qurtarıb. Bir neçə ay da ixtisası üzrə işləyib.

— Bizə də belə işçi lazımdı. Yataqxanaya ehtiyacınız varmı?

Şəfəq dərhal:

— Bəli.

— Sənədlərinizi verin, görüm.

Qadın sənədləri alıb bircə-bircə nəzərdən keçirtdi. Sonra dedi:

— Cavad müəllim, xanımı işə qəbul eləyəcəyik. Ancaq bu sənədlərdən əlavə bizə sağlamlıq haqqında arayış, altı-doqquz ölçüdə iki ədəd şəkil və bir ərizə də lazımdı. İndi ərizəni yazın. Biz qeydə alaq. Burdan çıxan kimi bir tin aşağıda fotoatelye var. Orada şəkil çəkdirin. Həkimdən arayışı nə vaxt gətirə bilərsiz?

Mətanət:

— Elə bu gün.

Qadın:

— Tələsməyin. Şəkillə birlikdə sabah gətirərsiz.

Cavadgil:

— Oldu, deyib kabinetdən çıxdılar.

Onlar gəzə-gəzə gəlib dəmir yol vağzalına çıxdılar. Vağzalın qarşısında adamlar qaynaşırdı. Hər on-on beş addımdan bir dilənçilər oturub əllərini yuxarı qaldıraraq yoldan ötənlərə yalvarır, nəzir-sədəqə yığır, dilənirdilər. Kimisinin qolu, kimisinin qıçı yox idi. Kimisi kordu. Kimisinin bədəni əsirdi. Kimisi otura bilmirdi. Kimisinin də bütün əzaları sağ-salamat olsa da, özünü yazıq sifətinə salıb yoldan ötənlərin qarşısına qaçırdılar. Adamlar da ürəklərinin yumşalmasındanmı, başlarından eləmə xatirindənmi, böyür-başda dayananların baxışlarından utanıb çəkinmələrindənmi, ya nədənsə, bu dilənçilərə para verirdilər. Metronun girəcəyinə çatanda Şəfəq gözlərinə inanmadı. Dörd-beş yaşlı oğlanı asfaltın üstündə uzandıraraq sahibləri harasa çəkilmişdilər. Vaxtı ilə bədəni yanan bu oğlanın sağ tərəfinə baxmaq olmurdu. Oğlan danışmağı da bacarmırdı. Qarşısında dəmir mis kasa qoyulmuşdu. Adamlar oğlana yaxınlaşır, əllərini cibinə salır, kasaya pul atıb, ürək ağrısı ilə çəkilib gedirdilər. Haqq-hesabını çəkən olsaydı, bu balaca oğlanın gündəlik qazancı qalan bütün dilənçilərinkindən çox olardı. Şəfəq uşağın yanındaca da-





yandı. O, da cibindən Süsən verən puldan çıxarıb kasaya atdı. Özünü bir təhər hiss elədiyindən Mətanətin qoluna girdi. Bədəni titrədi. Bunu Mətanət də duydu və dərhal:

— Sənə nə oldu, Şəfəq?

— Yanan oğlana baxanda Hikmət yadıma düşdü. Elə bilirəm ki...

— Sən dəli olmusan, nədi? Harda əcaib şey varsa, ağlına gətirirsən.

— Nə Tubudan, nə Qəhmərdən, nə də Hümmətdən mənə uşaq saxlayan olacaq, bacı. Qorxuram Hikmətdən. Hikmətin gələcək taleyindən. Allah özü ona kömək olsun.

Şəfəqin keçirdiyi hissləri Cavad da duydu. Bu barədə söhbəti dərinləşdirmək, onun üstü örtülməmiş yaralarının üstünə duz səpmək istəmədi. Təkcə arvadı ilə Şəfəqin yanındaca səssiz-səmirsiz irəliləməklə kifayətləndi. Şəfəq astadan Mətanətə bildirdi:

— Bəlkə evə gedəyin?

— Yorulmusan?

— Hə.

— Deyəsən, dilənçini görüb halın yaman dəyişdi.

— Hə, mənə pis təsir elədi. Görən, atası, anası sədəqə üçün uşağı bura niyə gətiriblər? Bunu Allah götürərmi?

— Fikirləşsəydilər, niyə gətirib burda oturdardılar ki.

Cavadgil metroya düşdülər. Onlar vaqonlarda yerlərini rahatlamışdılar ki, Mətanət gözlənilmədən dedi:

— Cəmiyyət tör-töküntülərlə doludu.

Şəfəq:

— Necə bəyəm?

— Yaxşı valideyn öz şikəst övladını küçədə əyləşdirib “başqalarından sədəqə yığ” deyərmi? Belələrinə bəs nə deyəsən? Bunları görəndə adam xəcalət çəkir.

Çox keçmədi ki, qatar “Qara Qarayev” stansiyasında dayandı. Cavadgil tələm-tələsik vaqondan düşdülər. Şəfəqə elə gəldi ki,

tunel bir əjdahadı. O, vaqonları da adamlar qarışıq udur... Bir anlığa Şəfəqin gözləri önündə qaranlıq zülmət içərisində evdən qovulduğu müdhiş gecədə didərgin düşdüyü şəhər, ələk-vələk elədiyi vahiməli düzlər, tükürpəşdirici qəbiristanlıq, yatdığı çökmüş qəbir və bir də cəhənnəmin əjdaha ağzına bənzər qapılarının sovurub içəri atdığı adamlar canlandı. Heç özü də bilmədən bədənindən bir gizilti keçdi. Elə bu dəm Mətanət onun qoluna girdi. Cavadla bərabər metronun mərmər döşəmələri üzərində addımladılar. Metrodan çıxanda göyün üzündə tək-tək seyrək ağ buludlar görünürdü. Onlar günəş şüalarının qənşərini kəsmək istəməsələr də, mümkün olmamışdı. Şüalar bulud laylarının aralarından, böyür-başlarından keçib böyük şövqlə yerə səpələnirdi. O yan-bu yana axışan, iş-güc dalınca gedən adamlarsa heç bir şeyin fərqinə varmadan öz işlərində idilər. Dilənən şikəst uşağı görəndən sonra Şəfəqin sinəsinə sanki ağır yük çökmüşdü. Bunun ağırlığına dözə bilmədiyindən ürəyi sıxılırdı... Nəfəsi təngişirdi. Əslində, bu gördükləri Şəfəqin yaşadığı dünyanın eybəcərlikləri idi. Bu eybəcərliklər hər gün baş verdiyindən və ya adiləşdiyindən adamlar heç onu görmür, görənlər də özləri üçün dərd-sər eləmirdilər. Ona çox vaxt adi hal kimi baxırdılar. Belələrinin hissləri, duyğuları görə biləcəkləri, şahid olacaqları hər cür hadisələrə əməlli-başlı alışmışdı. Şəfəqi təəccübləndirən, haldan-hala salan öz oğlu ilə bu dilənçi oğlan, onların ağrılı-acılı taleləri arasındakı bənzərlik, oxşarlıq yaratması idi. Cavan olsa da, Cavad olduqca həssas idi. Adamı tez anlayırdı. O, Şəfəqin büllur qab kimi çiliklənən, qırma kimi ətrafa səpələnən düşüncələrini yaxşı başa düşürdü. Ancaq nə fayda. Bir-birinin ardınca suallar verib Şəfəqin ürəyindəkiləri nə öyrənə, nə də ona öz məsləhətlərini verə bilirdi. Bu iki gündə az tanıdığı, çox təmasda olmadığı bu qadının yaralarına qardaş kimi məlhəm qoymağa gücü çatmırdı. Şəfəqə yazığı gəlirdi. Ona elə gəlirdi ki, Şəfəqin qəlbi ilə səma arasında hardasa bir yaxınlıq, bənzərlik vardı.





Hərdənbir Cavad dolub-boşalan, gah ağ, boz, qara buludlarla çətirlənən səma ilə, gah da parlayan, ılıq, parlaq şüaları ilə qəlblərə sevinc, fərəh bəxş eləyən günəşlə Şəfəqin daxili aləmi arasında bir uyarlıq axtarırdı. Bütün bunlar iki günlük müşahidələrinin nəticələri idi...

Cavadgil gəzə-gəzə evə gəldilər... Axşam yaxınlaşdıqca günəş də qüruba çəkilirdi. Yavaş-yavaş qalxan külək göydəki buludları belədən-belə qovurdu. Hava getdikcə soyuyurdu. Cavada elə gəldi ki, çox keçməyəcək, yağacaq, şəhəri sel-su alacaqdı. O, nəsə fikirləşdi. Gözləri bir nöqtəyə zilləndi. Bunu duyan arvadı dilləndi: — Nə zaman duyuğa getdin, ay Cavad.

— Hərdənbir qayğısız-qadasız təhsil aldığım illəri xatırlayıram. Deyib-güldüyümüz, oynadığımız, atılıb-düşdüyümüz çağlar gəlib durur gözlərim önündə. O zamanlar elmə, məktəbə, müəllimə böyük hörmət vardı. İndi isə...

Mətanət:

— Heyf o günlərdən. Elə bilirdik həmişə belə olacağıq: azad, sərbəst, xoşbəxt. Düzdü, o illərin də çətinlikləri olub.

Şəfəq:

— Nə vaxt çətinlik olmayıb ki.

Cavad:

— Təhsil böhranlı çağlarını yaşayır. Mən istəməzdim belə olsun! O, dövlətin mənəviyyatıdı. Bir zamanlar təhsil sovet ideologiyasının təbliğinə xidmət eləyirdi. Hamıya eyni cür düşünmək, eyni formada oturub-durmaq öyrədilirdi. Qapalı bir sistemə çevrilən ölkədə xalqı dünyadan xəbərsiz saxlayırdılar. Ölkədən kənarda nə baş verdiyini bilmirdik. Guya belə də olmalıymış.

Mətanət:

— Axı onun da yaxşı cəhətləri vardı.

Cavad:

— Hə, hamılıqla pulsuz təhsil. Nizam-intizam. Elmi kadrlara yüksək qiymət. İnternat məktəblər. Uşaqlar üçün istirahət guşə-

ləri... Nələr... Nələr... Bəs indi? Guya dünya təhsil sisteminə inteqrasiya olunuruq. Keçmiş təhsil sistemini, dəyərləri dağıtdıq. Oturub fikirləşirik: hansı ölkənin təhsil sistemindən nəyi, necə götürək? ABŞ-ın təhsil sisteminin nüvəsində azadlıq və demokratiya dayanır. Hədsiz azadlıq və demkoratiyada anarxiya ola biləcəyini heç təsəvvürümüzə də gətirmirik. Yaponiyanınkında isə insani məsuliyyət. Nə bilim kimlərinkində nə, nə?.. Əcəb işə düşmüşük. Özümüzü şikəst edəcəyimizi düşünmədən başqalarının çəkmələrini geyinirik. Nəticədə görün nə baş verir? Ayaqqabıları, paltarları olmadığından uşaqlar məktəbə gəlmirlər. Gələnlərə də müəllimlər müxtəlif bəhanələrlə dərs demirlər. Yüz cür fırıldaqla uşaqlardan pul yığılır. Savadsızlar məktəbi qurtarırlar. Gedib ali məktəblərə rüşvətlə daxil olurlar. Beləcə təhsillərini formal başa vururlar. Sonra da işləyə bilmədiklərindən qalırlar küçələrdə. Təsəvvür eləyirsiz? Elmsiz müəllim, savadsız həkim, cahil mühəndis. Hələ alimi də bundan betər.

Mətanət:

— Cavad danışanda matım-qutum quruyur. Elə bilirəm dünyanın axırıdı.

Cavad:

— Təhsili düzgün qurulmayan cəmiyyətdə savadsızlıq, cahillik, nadanlıq baş alıb gedər. Mənəviyyat zəhərlənər. Gələcəyə uzanan yollar zülmət qaranlıqlar qoynunda əriyər. Ölkə girdaba düçar olar. Məncə xalq, millət üçün bundan böyük faciə ola bilməz. Üzümüzü tutmuşuq guya Avropaya. Ordan nə götürürük? Əslində heç nə! Böyük mədəniyyət əxz eləmək əvəzinə... Təsəvvür eləyirsiz, narkomaniya, fahişəlik, mavilik... Nələr, nələr... O günü televizorda görün nəyi müzakirəyə çıxarıblar: orta məktəblərin yuxarı sinif şagirdlərinə cinsi tərbiyə ilə əlaqədar dərslər keçirilsin, ya keçirilməsin. Adını mütəxəssis qoyan biriki nəfər də çıxıb televizora bu məsələnin məktəblərə gətirilməsinin zəruriliyini əsaslandırır...





Bu söhbətdən sonra Cavad sabahkı dərslərə hazırlaşmaq üçün yan otağa, Mətanətsə mətbəxə keçdi. Nə edəcəyini bilməyən Şəfəq çantasından kiçik dairəvi güzgünü çıxarıb üz-gözünə baxdı. Son vaxtlar o, indiki kimi özünə diqqət yetirməmişdi. Sir-sifəti bozarmışdı. Arıqladığından üzünün sümükləri çıxmışdı, boyun-boğazı nazildiyindən damarları apaydın görünürdü... O, dərindən köks ötürdü... Sonra düşündü: — Hələ başıma çox işlər gələcək. Hələ o qədər əziyyətlər çəkəcəm ki. Bəlkə də indiyəcən gördüklərim, qarşılaşdıqlarım onların yanında toya getməli olacaq. Eh, nə olur-olsun, təkcə körpə balamın canı sağ olsun. Görəm, mən bir də Hikmətimə qovuşa biləcəyəmmi? Hümmət məni evdən qovmasına, doğma balamdan ayırmasına, ananı balaya, balanı anaya həsrət qoymasına peşman olacaqmı? Allah bilir. Görəm, Hikmət yuxudan qalxıbmı? Onu yedirib-içiriblərmi? Ağlamır ki, mənim balam? Qonşular barəmdə nə düşünürlər? Onlar Tubu, Qəhmər deyənlərə inanırlarmı? Eh... Mən də lap ağ eləmişəm. Lap tutaq ki, inansınlar. Onun bir əhəmiyyəti varmı? Məncə, yox... Əhəmiyyəti olsa da, mən kimi inandıra bilərəm ki, barəmdə deyilənlərin hamısı yalandı. Mən heç vaxt heç kimlə görüşməmişəm. Mən adımı, ləyaqətimi qorumuşam. Barəmdə deyilənlərin hamısı yalandı, böhtandı. Eh, elə şeylər var ki, onları ağıza alıb danışmaq belə xatadı. Danışsam, özümü rüsvay elərəm. Bir də kimi inandıra bilərəm ki, mən düzəm. Üzüm ağ, alnım açıqdı. Mənim barəmdə ədalətsizlik eləyiblər... Deməzlər ki, balam, od olmayan yerdən tüstü çıxmaz. Eh, dünya, dünya! Gör nə günə qalmışam ki, özüm barədə həqiqəti deməyə qorxuram, utanıram. Bunun günahı məndədimi? Yoxsa, məni bu vəziyyətə salanlarda? Mən də qəribə adamam. Ya xır-xıradan, ya zır-zıradan. Nə fərqi var günah kimdədi? Dərd odu ki, doğma balamdan ayrılıb küçələrə atılmışam. İmanları kamil olsun Qumru xalanın, Əsəd əminin. Cavadla Mətanət xoşbəxt olsunlar, Allah onlara da övlad qismət eləsin. Nə əcəb onlar var-

mış... Evdən çıxmağımın səbəbini soruşmayan, təskinlik verməyə dili gəlməyən Şapərinin mənə ərə getmək təklifini nə adlandırmaq olar? Bu təkliflə çıxış eləyən adamda insan qanı varmı? Görəsən, onun doğma qızı mənim vəziyyətimə düşsəydi, ona ərə getmək təklifini verənlərlə barışardımı? Məncə, yox! Babamın sağlığında hələ Şapəri, mən sənə nənə demişdim. Səni nənə gözündə görmüşdüm. Doğma nəvənə mənə elədiklərini qıyardınmı? İnanmıram. Daim övladlarının da gözündə məni alçaltmağa çalışmısan. Mən alçaq deyiləm! Mən namussuz deyiləm! İnsanlığa ləkə gətirəcək hər şeyə nifrət eləyirəm. Ölüm diləyirəm. Mən daha dünənki müti Şəfəq olmaq istəmirəm. Mütilik acizlikdi! Aciz insan daim çirkin ayaqlar altında tapdanar. Acizlər mütilərdi, ölülərdi. Daha mən ölü ola bilmərəm. Mənim varlığımı sarsıdan, məni dəli olmaq dərəcəsinə gətirən oğlumdan ayrı düşməyimdi. Balamın taleyindən xəbərsizliyimdi...

Öz-özünə danışan, için-için özünü yeyən Şəfəq kövrəldi. Ağlamsındı. Övlad dərdi əlindən hara baş götürüb qaçacağını bilməyən bu zavallı güzgünü qaytarıb çantasına qoydu. Oturduğu yerdəcə nə vaxt yuxuya getdiyini bilmədi.

* * *

Fabrikdə işə düzələn, yataqxanada otaq alan Şəfəq sevinə-sevinə Cavadla Mətanətə dedi:

— Allah sizi muradınıza çatdırsın. Sizsiz mən...

Cavad:

— Biz borcumuzu eləmişik Şəfəq.

Onlar gəzə-gəzə metroya gəldilər. Mətanət çantasını açıb bir neçə jeton çıxartdı, birini kassaya atıb Şəfəqə — Keç, — dedi. O, keçmək istəyirdi ki, sanki metro başına dolandı. Büdrəyib yıxılacaqdı ki, Mətanət onu tutdu. Şəfəq dizləri üstə çökdü. Sifəti





ağardı. Mətanət ərinə: — Tut qızın qolundan, — dedi. Ər-arvad hərəsi Şəfəqin bir qoluna girdi. Xidmətçi qadın isə onun qıçlarından tutdu. Köməkləşib polis otağına apardılar. Otaqda gödək, yekəqarın, qara, dazbaş, yekəburun, codsifət, qabaq dişləri tökülmüş bir polis nəfəri telefon nömrələrini yığırdı. O, otağa xəstə gətirildiyini görcək: — Ölüb? — deyə soruşdu. Cavad tərs-tərs bu polis nəfərinə baxdı, sonra da başını o yan-bu yana yellədi. Polis işçisi sözünün yersiz olduğunu başa düşdü. Sözünə düzəliş vermək istəyirmiş kimi: — Axşam birini də belə gətirmişdilər, — deyə cavab verdi. Xidmətçi qaçıb bir stəkan su gətirdi. Şəfəqin üzünə səpdi, əlini isladıb sinəsinə qoydu. Xeyli keçmiş Şəfəq özünə gəlməyə başladı. Polis nəfəri — Əşi, camaatı yamanca qorxutdun, bura ürək getmə yeridi? — deyib hırıldadı. Axır ki Mətanət dözmədi:

— Allah sənə boy-buxun verib də.

Polis nəfəri:

— Kimə?

— Sənə. Yekə kişisiz, özünüzü körpə uşaq kimi aparırsız.

— Məni təhqir eləyirsən?

— Gözünüzü...

— Xanım, məni əsəbiləşdirmə, haqqında tədbir görərəm.

Mətanət əsəbi halda ayağa qalxdı. Polis işçisi dərhal geri çəkildi. Xidmətçi qadın işə qarışmalı oldu:

— Bacım, əsəbiləşməyin. O, pis adam deyil. Şeytana lənət. Ağzından çıxdı.

— Söz ağızdan çıxar da.

— Allaha şükür, xəstənin halı yaxşıdı. Qurtarın söhbəti.

Arvadının sözləri Cavadın ürəyincə olsa da, istəməzdi ki, polis otağında onun səsi qalxsın. Ona görə də astadan pıçıltılı səslə bildirdi:

— Mətanət, daha bəsdi.

Sonra da üzünü Şəfəqə tutaraq:

— Özünü necə hiss eləyirsən?
— Yaxşıyam.
— Gedə bilərikmi?
— Hə.
— Onda qalx, gedəyin. Qalsaq, başımıza çox iş gələcək. Hələ gedib məhkəməyə də çıxmalı olacağıq.

Şəfəq qabaqda, Cavadla Mətanət də onun ardınca polis otağından çıxdılar. Xidmətçi qadın və polis işçisi eskalatora minənədək səssiz-səmirsiz dayanıb onları müşaiyət elədilər. Polis işçisi xidmətçi qadına:

— Yaxşı qurtardıq.

Qadın:

— Dilini qoy dinməz yerinə. Nə olsun ki, polis formasındasan. Belə getsə, səni yortacaqlar. Öz əcəlinlə ölməyəcəksən.
— Necə yəni.
— Sataşdığın arvadların ərləri, qardaşları bir də gördün ki, böyük bir qəməni yortdular böyrünə. Bağırsaqlarını doladılar əllərinə. Elədilər səni o dünyalıq.
— Ölüb xankişi. Qarnı da şor motalı. Hər gələn barmaq eləyə.
— Deyirəm, canın üçün, biri çıxacaq qabağına. Onda görəcəksən qarın nə olan şeydi.

* * *

Evə gələndən sonra Şəfəqin halı ağırlaşmağa başladı. Mətanət gəlinin qolundan tutub divanda uzandırdı. Qan təzyiqini, ürək döyüntüsünü yoxladı. Heç bir söz demədən Şəfəqə sakitləşdirici dərman içirtdi. Çox keçmədi ki, Şəfəqin vəziyyəti yaxşılaşmağa başladı.

Mətanət:

— Özünü için-için yeyir, həlak eləyir. Əsəbləri pozulub.





Bilmirəm, özünü üzməklə nə fikirdədi?! Yıxılanda biz olmasaydıq, nəticəsi necə olacaqdı? Belə getsə, əməlli-başlı xəstələnəcək. Xəstəxanaya düşəcək. Xəstəxanayla dəlixana arasında o qədər də fərq yoxdu. Mən hər gün həkimlərlə birlikdəyəm. Soyuqdəymədən həkimlərə müraciət eləyən kimi sənə bir diaqnoz qoyurlar ki, gəl görəsən. Ya deyirlər ciyərin xəstədi, vərəmsən, ya deyirlər öd kisən, böyrəyin, bağırsağın kəsilməlidi, ya da deyirlər ki, xərçəngsən. Ağrımayan başına bir yaş dəsmal bağlayırlar, sarımsaq qatırlar ki, özün də məəttəl qalırsan. Nə var, nə var, pul verəsən. Ciblərini doldurasan. Sağaltmaq əvəzinə dərman-dava ilə sağalmaz günə salırlar səni. Kimə neyləyəcəksən? Döy başına, döy gözünə. Cavad canlı şahiddi. Bir ilin söhbətidi. Qonşumuz Rəhman müəllim rayondan gələrkən maşında qəzaya uğrayaraq qolu sınmışdı. Dərhal da onu dostları şəhər Mərkəzi Xəstəxanasının təcili yardım şöbəsinə gətirirlər. Kişinin qolunu rentgen eləyirlər. Gips qoyurlar. Üç gündən sonra yenidən rentgendən keçirirlər. Səhv olub deyə gipsi açırlar. Şöbənin müdiri dosent Mərəzli, baş həkim Şərikli məsləhət bilirlər ki, “samalyot” deyilən cihazdan istifadə eləsinlər. Fikirlərini Rəhman müəllimə çatdırırlar. Yazıq kişi düşünür ki, əgər bir həkim, bir dosent, bir professor məsləhət bilirsə, deməli, onların dediklərinə əməl eləmək lazımdı. Rəhman müəllim razılıq verir. Arxasına fikir ver. Kişini aparırlar cərrahiyyə otağına. Elektrik drelini götürüb deşmək istəyirlər dirsəkdən qolunu. Heç bir yardım göstərmədən, iynədərman vermədən işə başlayırlar. Yarıda elektrik cərəyanı kəsilir. Drel kişinin bədənində qalır. Aləmə səs düşür. Xəstə özündən gedir. Xoşbəxtlikdən bir azdan xəttə elektrik cərəyanı verilir. Həkimlər, tibb işçiləri sevinirlər. Handan-hana əməliyyatı sona yetirən həkimlər kişinin qolunun altından “samalyot” adlanan cihazı qoyurlar. Ömrü boyu qazandığını professora verən Rəhman müəllim nə az-nə çox düz doqquz gündən sonra

xəstəxanadan gecə ilə çıxıb qaçır. Həkimlərdən canını qurtarmasına sevinir.

Şəfəq heyrətlənərək soruşur:

— Bəs sonrası necə oldu Rəhman müəllimin?

— Necə olacaq, yazıq kişi başqa xəstəxanada "samalyotu"nu açdırıb qaçır ara həkimlərinin yanına. Olan-qalanını da onlara verib ölümdən zor-bəla ilə qurtarsa da, axırı şikəst qalır. Bacım, çalış xəstələnmə, həkimlərin əlinə düşmə. Qarışqanı fil, çibanı sağalmaz yara eləyirlər. Necə deyərlər, qarpızı bomba, hambalı general sanırlar bizim həkimlər. İndi bildin həkimlər necədilər?! Bunu mən sənə deyirəm. Sırğa elə qulağından as. Puldan ötrü sağ adamın da ürək-böyrəklərini, içalatlarını çıxarmağa hazırdılar. Düzdü, həkimlərin də vicdanlısı var. İnsani hisslərini itirənlərisə daha çoxdu.

Mətanətin dedikləri Şəfəqin gözləri önündən elə bil qara pərdəni qaldırdı. O da özlüyündə düşündü: — Doğrudan, xəstələnsəm vəziyyətim necə olacaq? İşə gedib-gələndə, ya iş yerində yıxılsam, onda mənə kim baxacaq? Mətanət düz deyir. Mən dərin bir uçurumun kənarındayam. Xəstəyəm. Özüm-özümü müalicə eləməsəm, uçurumdan qurtarmasam, yeni dəhşətlərlə, qaranlıq zülmətlərlə qarşılaşacam... Mən səninlə razıyam, Mətanət bacı. Məsləhətlərini qəbul eləyirəm. Ancaq neyləyim ki, düşünməməyi bilmirəm. Nə qədər yadımdan çıxaracam desəm də, yenə burulğanın içində oluram.

Axşama yaxın Şəfəqin halı yaxşılaşdı. Bayaqkı əhvali-ruhiyyədən onda demək olar ki, əsər-əlamət qalmamışdı. Mətanət söhbətin istiqamətini, məzmununu tez-tez dəyişir, Şəfəqin başını qatmağa çalışırdı. Sabahkı dərslərinə hazırlaşmaq üçün Cavad yan otağa keçdi. Mətanət albomu gətirib Şəfəqin qarşısına qoydu: — Al bax, mən də gəlirəm, — deyib mətbəxə keçdi. Şam naharı hazırlamağa başladı. Şəfəqsə albomdakı şəkillərə baxır, hərdənbir vərəqləri çevirirdi. Cavadla Mətanətin toy şəkillərini





gördükdə Hümmətli günləri gəlib durdu gözləri önündə. Xatirələrini dərinləşdirməyə başlamışdı ki, Mətanətin verdiyi məsləhətlər yadına düşdü. O, dərhal rəfiqəsinin dedikləri kimi acılı-şirinli xatirələrinin oyanışının qarşısını aldı. Şəfəq vərəqləri çevirib bütün diqqətini Mətanətin geyimlərinə yönəltdi. Bununla da o, üzücü, ürəkbulandırıcı, sarsıdıcı düşüncələrindən müvəqqəti də olsa, yaxa qurtara bildi.

Şam naharından sonra Mətanət televizoru açdı. Otağı musiqi sədaları bürüdü. Gənc müğənni qızlar oynaq mahnıları ilə bir-birilərini əvəzləyirdilər. Musiqi Şəfəqin ruhu ilə həmahəng səslənməsə də, o, səssiz-səmirsiz musiqiyə qulaq asırdı. Mətanət əziz rəfiqəsinin keçirdiyi hissləri duyurdu; nə fikirləşdisə, Şəfəqin diqqətini müğənni qızların geyimlərinə yönəltdi. Hər kəs geyimlərə öz münasibətini bildirirdilər. Bəzən onlar yüngülcə mübahisələrə də atılırdılar. Bu mübahisələrə kişi sözü ilə Cavad son qoyurdu. İnsafən, hər ikisi Cavadla razılaşmağa məcbur olurdular. Verilişin sonunda cavan, ucaboy, qəddi-qamətli, gözəl bir müğənni qız ekranda göründü. O, məlahətlə oxumağa başladı:

Hardan düşdün sən yadıma bu gecə?
İkimiz də xoşbəxt idik bir zaman.
Yaşayardıq ömrümüzü beləcə.
Hardan düşdün sən yadıma bu gecə?!

Duyğularım yenə yaman qarışır.
Xəyallarım oda düşüb alışır.
Dedim bəlkə xatirələr yan keçə,
Hardan düşdün sən yadıma bu gecə?!

Necə dözsün ayrılığa bu ürək?
Gözlərimdə yaş donacaq bu gecə.

Qəsd edəcəm mən özümə beləcə,
Hardan düşdün sən yadıma bu gecə?!

Mahnının niskilli sözləri Şəfəqi sarsıtdı. Sanki damarlarında qanı dondu, beyni kilidləşdi. Nə deyəcəyini bilməyən Şəfəqin ürəyi sıxıldı. Stuldan yıxıldı. Cavadla Şəfəq özlərini itirdilər. Əlacsız qalan Mətanət Şəfəqin əllərini, bədənini ovuşdurmağa başladı. Cavad isə tələm-tələsik mətbəxə qaçdı. Stəkanı su ilə doldurub geri qayıdanda yavaş-yavaş Şəfəq özünə gəlirdi. Şəfəqin etirazlarına baxmayaraq, Mətanət tanışı nevropatoloq Qənirəyə məsələni açıqladı və onu evə dəvət elədi. Yarım saat keçər-keçməz qapı döyüldü. Mətanət dərhal: — Həkim olacaq, — deyib Cavadın üzünə baxdı, sonra da özü gedib qapını açdı. Qapı ağzında dayanan Qənirə Mətanətlə salamlaşıb içəri keçdi. Qənirə bir-birinin ardınca Şəfəqə suallar verdi. Həkim onun təzyiqini, ürək döyüntülərini müayinədən keçirtdi, sonra dedi:

— Cavan qızsan, ancaq nədənsə güclü əsəb gərginliyi keçirmisən. Sənə bir neçə gün dincəlmək gərəkdi. Əhvalını özün yaxşılaşdırmalısan. Çalış təmiz havada çox ol. İndi resept yazacam. Dərmanları al iç. Belə getsə, özünü korlaya bilərsən... Həkimlər sənin vəziyyətində olanları xəstəxanaya köçürürlər.

Qənirə xanım resept yazdı.

— Həkim deyənləri eşitdinmi? Dedi, əsəbisən. Şəfəq, sən işləyəcəksən. Yataqxanada qalacaqsan. Bəlkə hələ işə çıxmayasan? Evdə yat, dincəl, sənə bir az qulluq eləyim, möhkəmlənəsən. Cavad da sənin qardaşın, utanmaq lazım deyil.

— Yox, işə nə qədər tez çıxsam, o qədər yaxşıdı. Başım qarışar adamlara. Onda bəlkə.

Mətanət Cavadın üzünə baxdı. O, çiyinlərini çəkdi, sonra da arvadının dediklərinə şərik çıxdı. Şəfəq inadından dönmədi. Mətanət:

— Elə uşaqlıqda olduğun kimisən. Düşünürdüm ki, bu neçə





ildə...

Şəfəq də, Cavad da gülüşdülər. Elə bu vaxt telefon zəng çaldı. Cavad telefona yaxınlaşıb dəstəyi götürdü. Dəstəkdən Əsəd kişinin səsi eşidildi:

— Alo... Alo... Salaməleyküm.

— Salam, Əsəd əmi.

— Hə... Oğlum, necəsiz?

— Lap yaxşıyıq.

— Şəfəqin işi necə oldu?

— Tikiş fabrikində işləyəcək. Yataqxanada bir otaq düzəlib.

— Çox sağ ol, oğlum. Narahatlıq yoxdur ki?

— Yox.

— Oğlum, onun üçün zəng çalmışdım. Qızlara da məndən salam söylə.

— Baş üstə.

— İndi Qumru sizinlə danışmaq istəyir.

Əsəd kişi dəstəyi arvadına verdi. O, kürəkəni, qızı və Şəfəqlə danışdı.

Telefon danışığından sonra Şəfəqin üzündə təbəssüm, gözlərində sevinc parladı. Ona baxan heç vaxt inana bilməzdi ki, günortadan sonra üç dəfə ürəyi qısılan, üstünə həkim çağrılan bu Şəfəqdi. Cavad düşündü: — Qəribədi bu dünyanın işləri. Xoş sözün qüdrətinə bax!.. Bir az əvvəl can hayında olan adam bir kəlmə xoş sözlə hər şeyi unudaraq sanki uçmaq istəyir. Niyə biz insanlar bir-birimizə xoş sözlər deməklə, özümüzü sevindirmirik. Fərəhləndirmirik“.

Bir müddət sakit oturan, ani fikrə qərq olan Şəfəqin dodaqları arasından pıçıltılar səsləndi:

— Xeyirxah adamlar olmasaydı, mənim kimi bədbəxtlər küçələrdə it, pişik ömrü yaşayardılar. Məhv olardılar. Kimlikləri də bilinməzdi.

Bunu eşidən Mətanət qəhqəhə çəkdi:

— Dəli olmusan nədi? Öz-özünə danışırsan? Bayaqdan bəri

— Fikirləş, — deyə məsləhət verirəm. Nəticəsi də bu?

Cavad:

— Sən də qəribə danışırsan, fikirləşməmək olarmı?

Mətanət:

— Fikirləşməyən yalnız ölülərdi. Ancaq bu fikirləri yüngül əhval yaradan şeylərin üzərinə yönəltmək olardı?

* * *

Şəfəq evdən çıxalı Hikmətin günü ağlamaqla keçirdi. Onu gah Qəhmər, gah Hümmət, gah da hərdənbir Tubu qucağına alır, ağlamağını kəsməyə çalışırdılar. Çox keçmədi ki, Qəhmərlə Tubu haqsız, düşünülməmiş hərəkətlərinin peşmançılığını çəkməli oldular. Uşağın ac-susuz ağlamalarına dözməyən, dayandıqca fikirləri, düşüncələri bulaş-bulaş olan, vəziyyətdən çıxış yolu tapa bilməyən, belə getsə, uşağı xəstələndirib tələf eləyəcəklərindən qorxan Hümmət daxilən sarsılırdı. O biri tərəfdən də Şəfəqin xəyanətini götür-qoy eləyib yanırdı, yaxılırdı. Ürəyi darıxdığından, hövsələsi daraldığından o, yerindən qalxdı. Pencəyini götürüb otaqdan çıxdı. Yeməyə məhəl qoymadan ağlayan, az qala özünü həlak eləməkdə olan Hikmətdən kənarlaşmaq istəyirdi ki, Qəhmər Tubuya: — Bir az da sən al, saxla, bəlkə səndə dayandı, dincəldi, — dedi. Tubu əsəbi halda bildirdi:

— Sözün qurtarıb deyəsən? Özgə dərdim-sərim yoxdu? Kiməsə uşaq saxlayacam? At yerə, ölür-ölsün, qalır-qalsın. Özü cəhənnəm olub getsə də, ifritə camaatı bəlaya saldı.

— Qardaşın balasıdı, saxlasan qiyamət qopmaz ki. Atası hər gün sənə çörək dalınca qaçır.

— Mənə heç kəsin çörəyi lazım deyil. Kül o adamın başına ki, iki əli ilə bir başını saxlaya bilməsin!

Qəhmər sözü uzatmadı. Mətbəxə gedib bayaq hazırladığı yeməyi şüşəyə tökdü, ağzına əmziyi keçirtdi. Sonra da uşağı qucağına alıb şüşədəki əmziyi onun dodaqlarına sürtdü. Səhər açılandan dilinə bir şey dəyməyən uşaq ağlamasına ara verib əmziyi aldı, marça-març əmməyə başladı. Yemək yarıdan keçmişdi ki, o, əmziyi ağzından çıxartdı, narazılığını bildirirmiş kimi ağız-burnunu büzüşdürdü, bir neçə dəfə hıçqırdı. Zəif halda inlədi, sonra da səsini xırp kəsdi. Narahatlıqdanmı, bədəninin ağrımasındanmı, ya nədənsə Hikmət yuxuya getdi. Qəhmər sevinə-sevinə onu beşiyə qoydu. Uşaq oyanmasın deyə ayaqlarının ucunda otaqdan çıxdı. Yan otağa keçib sevincək halda Tubuya dedi:





— Yeməyini yeyib yatdı. Uşaq axşamdan narahatdı. Allahın böyüklüyünə şükür. Ana nəfəsi, ana hissi axtarır elə bil. Duyumlu, hissiyyatlı uşaqdı.

— İfritə anası da elə çox bilmiş idi.

— Şəfəq pis gəlin deyildi. Onu sən bədbəxt elədin, sən şərlədin, Tubu. Mən də səni haqsız yerə müdafiə elədim. Allah qarşısında da günahkaram.

— İmansızın danışığına bax. Bir ayağı burda, bir ayağı gorda. Nə danışdığını bilirsən? Doğrudan da, günahın yox idisə, nə tumanını atmışdın başına. Bəlkə fikirləşirsən ki, oğraş oğluna da mən demişəm get arvadını boşa. Arvadının yanındakı yara izlərini, qasığındakı qara xalı kim görə bilərdi. Hə... Sualıma cavab ver, imansız, axirətsiz. Əri oğraş deyənləri qulaqlarınla eşitmədin?

— Hamısını eşitmişəm. Arğac səndən keçib. Yadında saxla, mən deyənlər həqiqətdisə, Allah cəzanı verəcək.

— Əziz-xələf gəlininin ardınca həmişə danışmırdın, iblis?

— Biz insanlar beləyik. Çox zaman işi görürük, sonra fikirləşirik. Nəticədə peşmançılıq çəkirik.

— Ana, axırıncı dəfə deyirəm. Məni bu işə qatma. Yoxsa, sənə güzəştə getməyəcəyəm. Qurtardıq.

Axşam düşür, şər qarışırdı. Həyətdəki şam, küknar, qovaq,

əbrişim, enli yarpaqlı çinar ağacları axşamın saymazyana gəlişindən qüssələnir, kədərlənirmiş kimi mürgüləyirdi. Bir qədər aralıda — dəmir setkalar arasına alınmış söyüdlər utancaq, yetim uşaqlar kimi başlarını aşağı salmışdılar. Təbiətin bu qüdrəti ilə Hümmətin küskün qəlbi arasında bir yaxınlıq vardı. Belə ki, axşamın düşən qaranlığı onun da ruhuna çökürdü. Həyətdə tək başına xeyli gəzən Hümmət hara gedəcəyini bilmirdi. O, yavaş-yavaş şam ağacına yaxınlaşdı, həmişəyaşıl ağaca baxdı. Sonra da dedi: — Dünyanın xoşbəxti sizsiz, nə dərd-səriniz var, nə dedi-qodunuz, nə də kimsəyə paxıllığınız. Sakitcə öz ömrünüzü yaşayırsız. Əgər biz insanlar sizə zaval yetirməsək. Onu da hələ bilmək olmaz. Budu gördüz bir dəli-qudurmuş əlinə bir balta alıb gəldi yanınıza. Qolunu çırmalayıb başladı sizi dibinizdən kəsməyə. Nə var, nə var, bu ağac mənə lazımdı. Heç onu düşünməyəcək ki, bu ağacı vaxtı ilə bura kim əkib, kim becərib. Bircə onu bilir ki, ağac ona gərəkdi, vəssəlam. Yiyəsi var, ya yoxdu, heç fərqinə də varmır. Bax, beləyik biz insanlar. Təki niyyətimizi həyata keçirək, arzumuza nail olaq... Ey yazıq, zavallı ağaclar, qəm eləməyin, bilin və siz də agah olun, özümüzə elədiyimiz sitəmi vəhşi də eləməz. Ən böyük vəhşi, yırtıcı özümüzük. Fakt soruşursuz? Deyim. Salehin hərəkətləri. Onun baisliyi. Mən nadanın götür-qoy eləmədən yaratdığı həngamə. Vəziyyətə baxın: mən belə; uşaq elə; Şəfəq də bizdən betər. Yalvarıram sizə, yaz başı çətirlənən məsum ağaclar! İnciməyin biz insanlardan! Özünə düşmən kəsiləndən sizə nə olar ki. Dediklərimlə heç də sizi qorxutmaq fikrində deyiləm. Etibarsızlığımızın, dəyanətsizliyimizin çox şahidi olacaqsız. Xidmətlərinizi nəzərə almadan, onu dəyərləndirmədən zaman gələcək sizə də yağı kəsiləcəyik. Günlərin birində kökünüzü kəsəcəyik, gövdəniz üzərində çırpılarınızı doğrayacağıq, lazım gəlsə, sizi yandırıb odunuza isinəcəyik, gününüzü qaraldacağıq, sizi yerlə-yeksan eləyəcəyik.

Hümməti öz aləmindən elektrik dirəklərindəki lampaların





yanması ayırdı. Qatılaşmaqda olan gecənin bağrını yerbəyerdən yaran şüalar şam, küknar, çinar, əbrişim, qovaq, söyüd ağaclarının yarpaqları arasından süzülərək ətrafa səpələnirdi. Hümmət bir müddət tək qalmaq, özü ilə danışa-danışa ürəyini boşaltmaq istəyirdi... O, Şəfəqlə tanışlığının ilk günlərini xatırladı: həsrətli görüşlər, şirin vədlər, Gəncə çayının sahilində dayanıb tamaşa elədikləri axar sular. Park boyunca şirin arzuların qanadlarındakı gəzişmələr. Oturduqları skamyalarda bir-birilərinə qısılaraq balaca quşların oynaq, şən nəğmələrini dinləmələri. Ürək açmaları. Coşqun xəyalları... Birgə düşüncələri. Toy günləri. Qurduqları ailənin qayğısız-qadasız anları. Hər şey, hər şey gəlib durdu gözləri önündə. Ürəyi yumşaldı. Özü də hiss eləmədən gözləri doldu. Elə bil hardansa Hümmətin qulağında “Sizdən heç nə istəmirəm təkcə balamı verin”, “Bir də bura ayaq basmayacağam” sədaları səsləndi. Bunun da dalınca Şəfəqin yanaqlarından yaz yağışı kimi süzülən göz yaşları. Qanı çəkilmiş sir-sifəti. Əsən dodaqları. Qızarmış gözlərinin lap dərinliklərindəki kin, qəzəb, nifrət... Yaxşılı-pisli bircə-bircə hamısı, hamısı gəlib kino lenti kimi ötdü gözləri önündən onun. O, düşündü: istəyi, sevgisi kimi nifrəti də dərindi Şəfəqin. Onu sakitcə də yola sala bilərdim. Sakitcə çıx get desəydim, insafən, gedərdi də Şəfəq... Mən onunla oturub danışa bilməzdimmi? Onu al qana boyayıb evdən çıxaranda gecə vaxtı harda qalacağı barədə düşündümmü heç? Yox, Hümmət! Vicdansızsan! Nakişisən! Arvadının harda gecələyəcəyi barədə düşünməyənin: — Kişiyəm, — deməyə haqqı yoxdu. Bundan sonra ləyaqətdən, şərəfdən, namusdan gərək danışmayasan. Zavallı oğlumun günahı nə idi ki, anası olaola nənənin, bibinin himayəsində yaşasın? Tubu onu bəsləyəcəkmi? Yox! Ömrünün qürub çağlarını yaşayan nənə necə? O da yox! Yaxud nənə sabah dünyasını dəyişsə, onda nəvənin taleyi nə olacaq? Böyüyəndə anasının bu evdən qovulduğunu bilsə, Hikmət məni — doğma atasını bağışlayacaqmı? Yox!..

Hümmət bu fikirlər içərisində boğulurdu ki, Qulamrza kişi binadan həyətə düşdü. O tərəf — bu tərəfə baxdı. Əlindəki əsasını yerə vura-vura ağacların altında asta-asta gəzişən Hümmətin yanına gəldi. Salam verdi. Sonra: — Necəsən, oğlum? — deyə Hümmətin vəziyyətini soruşdu. Hümmət təşəkkürünü bildirib Qulamrzaya yaxınlaşdı. Kişi əvvəl boğazını arıtladı, astadan, böyük qayğıkeşliklə: — Hümmət, — dedi:

— Oğlum, mən sənin xatirini çox istəyirəm. Bir neçə gün bundan əvvəl evdə arvad-uşaqdan bir söhbət eşitdim. Sən ağıllı oğlansan. Deyilənlərə, doğrusu, əvvəl inanmaq istəmədim. Sonra məni inandırdılar. Təəssüflənirəm. Səndən gözləməzdim. İndi evdə idim. Pəncərədən çölə baxırdım. Səni burda gördüm. Paltarlarımı geyinib düşdüm aşağı ki, vəziyyəti olduğu kimi öyrənim.

— Qulamrza əmi, mənim də sizin ailəyə böyük hörmətim var. Mərhum atamla da dost olmusuz. Bir-birimizin evinə gəliş-gedişimiz olub. Ancaq bu biabırçılıq nədi, heç əməlli-başlı özüm də bilmirəm. Başım qızışdı. Anam da, bacım da mənə səbr vermək əvəzinə tonqalın üstünə elə bil benzin səpdilər: — Öldürmə, qov evdən getsin, — dedilər. Nə qədər and-aman eləsə də, Şəfəqə qulaq asmaq, səsini eşitmək istəmədim. Acıqlı başda ağıl olmaz, — deyib atalar. Uşağı Şəfəqin əlindən alıb axşam evdən qovduq.

— Axşam?

— Hə...

— Bəs o bütün gecəni harda qaldı?

— Bilmirəm.

— Sonra da maraqlanmadın?

— Yox!

— Bunu sənə heç kəs bağışlamaz, Hümmət.

— Hirsim soyuduqca əməllərimin nalayiqliyini özüm də anlamağa başlayıram.





— Oğlum, el gözü tərəzidi, — deyirlər. Eşitdiyimə görə, sənin arvadın namuslu, tərbiyəli adamdı. O, ev qadınıdı. Abrı, isməti olan uşaqdı, balam olsun. Bəlkə sizin ailəyə qəsdən dava-şava salmaq istəyənlər var. Ailənizi dağıtmaq istəyirlər.

— Bəlkə də.

— Düşünülməmiş addım atmısan, oğlum.

— Özüm də məəttəl qalıram.

— Məndən olsa, get arvadınla barış, bala.

— Şəfəq heç vaxt məni bağışlamayacaq. Kimsəsiz olsa da, çox qürurludu.

— Qürurlu adam sən deyən səhvləri eləməz, Hümmət. İstəsən, birlikdə gedək, Şəfəqin özü ilə də, ağsaqqaları ilə də mən danışım. Ailə dağıtmaq Allaha xoş getməz. Aranızda şeytan var. Şeytan olan yerdə Allah olmaz.

Hümmət: — Fikirləşərəm, — deyərək Qulamrza kişi ilə xudahafizləşib evə gəldi. O, qapıdan gircək uşaq yuxudan oyanıb ağlamağa başladı. Qəhmər dərhal:

— Sən gedəndən yatmışdı, indicə oyandı, — deyib uşağı beşiyindən götürdü. Başı bərabərinə qaldırdı. Sonra əlavə elədi:

— Hə, sənə nə oldu? Quyruğunu kim tapdadı? Məni tanımırsan, nənəyəm də? Qəhmər nənən. Ataya gedirsən? Ata da, nənə də, bibi də səni çox istəyirlər. Adam ağlamaz. Ay Allah,

Balama qurban inəklər
Balam haçan iməklər

Balama qurban ilanlar.
Balam haçan dil anlar.

Qəhmər uşağı atasına tərəf uzatdı. Hümmət oğlunu qucağına alırdı ki, uşaq ağlamsındı. Qəhmər dərhal dedi:

— Hə, hə, ağlama, nənən sənə qurban. Səni heç kəsə vermə-

rəm. Sən nənənin balasısan. Hə... Mənim balamdı, quzumdu. Yarısı balam balası, yarısı ilan balası.

Anasının axırıncı sözləri Hümmətin xoşuna gəlmədi. O, dərhal narazı halda dedi:

— Yarısı ilan balası“ nə deməkdi? İkibaşlı sözləri qurtarın. Bu nə oyundu, bilmirəm. Təkcə onu bilirəm ki, od içərisinə atılmışam. Bu belə uzağa gedə bilməz.

Bunları altdan-altdan müşahidə eləyən Tubu heç bir günahı yoxmuş kimi dilləndi:

— Anan nə deyir, a qardaş. Tutduğun işdən peşmansan, get qaytar geri arvadını. Uzaq başı tanış-bilişlər, qohumlar, qonşular sənə bir təhər baxacaqlar. Yox, gətirmək istəmirsən, get evlən, təzə arvadın uşağını da saxlasın, sənə də qulluq eləsin.

Hümmət:

— Keçi can hayında, qəssab piy. Başqa dərdim-sərim yoxdu arvad almaqdan savayı.

— A qardaş, arvadı ölən, arvadından ayrılan arvad alar da. Burda nə var ki? İstəsən, sənin üçün əla arvad taparam. Rəfiqələrim o qədərdi ki. Eləsi var ərindən də boşanıb, bəxtindən uşağı da yoxdu. Toma, İra, Seva... Hansını deyirsən, barmağını üstə qoy. Özləri də görüb götürmüş, hər şeydən də başları çıxır. Dəyirmanın boğazına ölü atsan, diri çıxarlar.

Bunlardan başqa Tubu bir neçə hərəmxana həmdəmlərinin adlarını da sadaladı. Hümmət əsəbi halda:

— Onlar da sənin ağıldadı da.

— Mənə nə olub ki?

— Heç sözdü deyirəm də. Biz də belə bədbəxtik.

Tubu qardaşının əsəbi olduğunu görcək sözün ardını qovmadı. Çiyinlərini çəkdi. Qəhmər dedi:

— Mənim üçün çox çətin olacaq, Hümmət. Bu yaşımda kür uşaq saxlaya bilməyəcəm. Bu barədə fikirləşməlisən, oğlum.

— Yəni necə? Tubu deyənlərdən alım, ya Şəfəqi geri qaytarım?





Tubu dərhal:

— Şəfəqin əxlaqsız, pozğun olduğunu hamıya açıb demişik. Bu ki biabırçılıqdı. İndi də gedib ona yalvaraq ki geri qayıt?! O, bura qayıtsa, ayağı yer alacaq, bildiyini eləyəcək. Bayaqdan gizlin idisə, indi də açıq-aşkara... Onda da gərək qardaşım şalvarını götürüb evdən çıxsın. Hələ özümüzü demirəm. Danışığından onu da görürəm ki, sıyılmısan, qardaş. Tutduğun işə peşmansan. Onda camaata arvadının pozğun, əxlaqsız olmadığını inandırasan gərək. Bu, mümkündürmü? Yox! Onda da hamı sənə oğraş, dəyyus kimi baxacaq. Həyətdə tanış-biliş yanında səsini çıxara bilməyəcəksən. Hamı üzünə çırpacaq arvadının qəhbəliyini.

— Bəsdi, Tubu!!!

Elə bu dəm qapı döyüldü. Tubu: — Yəqin Şəfəqdi, — deyə düşündü. Gedib qapını açdı. Üzbəüz qapı qonşuları Şikar kişi və onun arvadı Gülzar qapı ağzında dayanmışdılar. Tubu onları görcək gülümsündü, sonra da: — Buyurun, — deyə onları içəri dəvət elədi. Şikargil salam verib içəri keçərək stullarda əyləşdilər. Şikar kişi dedi:

— Hə, qonşu, az-az görüşürük. Gərək belə olmaya. Atalar necə deyib, “Yaxın qonşu uzaq qohumdan yaxşıdı”.

Kişinin sözünü hamı təsdiqlədi. Hümmət bacısına astadan pıçıltılı səslə dedi:

— Qalx, çay-çörək hazırla.

Tubu hamının eşidə biləcəyi bir səslə:

— Aa... Yekə kişisən. Hər işə qarışma. Get öz işinlə məşğul ol. Bəlkə heç yeyib-içməyəcəklər. Bunda deyiblər də: “Çaya çatmamış çırmanır, yaz gəlməmiş qızışır”. Qoy görək hələ bir niyə gəliblər də?!

Şikar kişi ayıq adam idi. Tubunun dediklərinin hamısını eşitdi. Əvvəl Şikar, sonra da arvadı Gülzar bildirdilər:

— Zəhmət çəkməyin. Ehtiyacımız yoxdu. Gəldik bir az söh-

bət eləyək, gedəcəyik.

Şikar kişi əlini pencəyinin yan cibinə saldı. Təsbehini çıxardıb bir iki dəfə o tərəf-bu tərəfə çevirdi. Sonra sakit, astadan, təmkinlə sözə başladı:

— Oğlum, sizin ailədə olan söz-söhbəti eşitmişəm. Arvada dedim ki, gəl keçək qonşuya. Hirslənəndə adam səhvə yol verir. Hamının ailəsində narazılıq, söz-söhbət olur. Gərək onları sapa düzməyəsən. Bir qismini güzəştə gedəsən. İkinci qismini heç nəzərə almayasan. Daha ciddi qüsurları nəzərinə çatdırasan. Vallah, cavan vaxtı biz də qırırdıq bir-birimizi. Uşaqlarımız oldu. Onlara başımız qarışdı. Hər şey yoluna düşdü... Ailə belədi, oğlum! Bir əlində od olanda, o biri əlində su olmalıdı. Yoxsa, dünyada nə yaşamaq olar, nə də xoşbəxtlik, səadət? Gəlmişik ki, sizinlə də danışaq, izin versəniz Şəfəqlə də. Mən biləni Şəfəq də yaxşı baladı. Neçə vaxtdı qonşuyuq, onun barəsində bir kəlmə də artıq-əskik söz eşitməmişik. Həmişə də evdə öz aramızda demişik: — Qəhmərgilin ailəsi sözsüz-söhbətsizdi. Halal olsun onlara. Doğrusu, indi eşidəndə ki, sizdə də narazılıq var, qulaqlarıma inanmaq istəmədim.

Şikar kişini axıradək dinləyən Hümmət ağzını açıb danışmaq istəyirdi ki, Tubu dilləndi:

— Şikar əmi, Gülzar xala, sizin gelininiz əxlaqsız, pozğun olsaydı, saxlardız onu?

Söz altda qalmayan Gülzar çox ustalıqla bildirdi:

— A bala, sən deyən damğanı adama vurmaq çox asandı. Bu dəqiqə onu mənim barəmdə də deyə bilərsən. Gərək, Allahını başının üstündə görəsən. Özünə rəva bilmədiyini başqalarına da yapmayasan. Qaldı Şəfəqə. Bilirsiz ki, biz onu sizinlə tanımışıq. Onun barəsində deyilənlərin heç biri düz deyil, yalandı, böhtandı.

— Əşi, boş-boş danışmayın. Aşnası özü zəng çalıb əri ilə danışıb. Ondan ötrü gərək gəlməyəydiz.





Şikar səbrlə dedi:

— Qızım, biz bura səninlə danışmaq üçün gəlməmişik. Bu, çox pis, fitvalı oyundu. Quramadı. Zaman gələcək hər şey açılacaq. Yoluna qoyulacaq. Hümmət onda dost-düşmənini tanıyacaq. Anan, qardaşın olan yerdə sən ağzını açmasan yaxşıdı.

Tubu narazı halda:

— Onu özümüz bilərik. Sizi hələ vəkil tutmamışıq. İndiyədək onu bu evdə qonşular saxlamayıb. Həyasızın sifətinə bax, düşüb indi də qonşuların qapısına.

— Səhv eləyirsən, qızım. Biz onu bu evdən qovulandan sonra görməmişik. Nəzərə alın ki, biz qonşuyuq. Sizinlə bu barədə söhbət eləmək borcumuz idi. Gəldik, sözümüzü dedik. Eşidərsiz-eşitməzsiz, öz işinizdi. Mənə Hümmətin, Qəhmərin sözü lazım idi.

— Mən bu evdən deyiləm?

— Qız, bu evin ya kişisi danışmalı idi, ya da ağbirçəyi.

— Mən hər ikisiyəm.

Qəhmər:

— Şikar qardaş, biz hələ siz deyən kimi fikirləşmirik.

Şikar əsəbi halda:

— Hə!!!

Hümmət:

— Lazım olsa, özümüz bir çarə qılarıq.

Şikar:

— Özünüz bilərsiz.

Şikar kişi arvadının üzünə baxdı. Çaş-baş qalan arvadın çiyinlərini çəkməkdən özgə əlacı qalmadı. Şikar arvadına: — Qalx, gedək, — dedi.

* * *

Şəfəq evdən çıxarılandan Hümmət özündə deyildi. Bunu Hümməti tanıyanlar, onunla ünsiyyətdə olanlar da açıq-aydın duyurdular. Ancaq Qulamrza, Şikar və Gülzardan savayı ona heç kəs bir söz demirdi. Hümmət çaşıb qalmışdı. İndi onun qarşısında keçilməz ziddiyyətli sədlər yaranmışdı. Bu sədlərdən biri digərini vurub aradan çıxarırdı. Bir səddə dilsiz-ağızsız, hər şeydən xəbərsiz məsum bir uşaq, Şəfəqə olan istək, sevgi, digərində isə yalan, namussuzluq, hər an, hər zaman toqquşan, mübarizə aparan hisslər, ehtiraslar. Hansı qalib gələcək? İnsan səbrinin də hüdudu var. Həqiqət nə qədər ki, üzə çıxmır, sirr olaraq qalır, adam istəsə də, istəməsə də yalanların əcaib ağuşunda rahatlanmağa, yalanlar qoynunda həqiqətlər axtarmağa can atır. Yalan həqiqət doğa bilərmi? Bəlkə də bu mümkündü?! Ona görə ki, şirin, insanın beynini dumanlandıran yalanın əksi acı həqiqətdi. Yalan dumanı çəkildikcə həqiqətin üzü bəyazıyır. Görünməyə doğru gedir. Hümmət hadisələrə, bacısının, anasının dediklərinə, hərəkətlərinə diqqət yetirsəydi, danışılanların mahiyyətini açmağa çalışsaydı, yalanlar içərisində həqiqətin göz çıxaran işartılarını görə bilərdi. Təəssüf ki, Hümmət belə bir qabiliyyətdən məhrum idi. O, yalnız çılpaq həqiqətləri görmək imkanına malik idi. Ona görə də başındakı fikirlər arasında məntiqi əlaqə yarada bilmirdi. Düşüncələri beynində səpəli, xaotik bir vəziyyətdə idi. Düşdüyü vəziyyətdə ağır ruhi böhran keçirirdi. Beləcə davam edən daxili mübarizə hər dəfə onu öz qəmli, kədərli, qüssəli fikirlərinə qayıtmağa məcbur eləyirdi... İş vaxtının sonu idi. İşçilər çəkilib gedirdilər. İş çiyindaşı Nəbi ona yaxınlaşdı: — Çoxdandı vurmuruq, — dedi. Hümmət kədərli nəzərlərlə onun üzünə baxdı. İstədi desin ki, mən nə hayda, sən nə hayda. Nəbi onun üzünə baxıb gülümsündü. Sonra bildirdi:

— Narahat olma, hər şeyi özünə dərd eləmə, xeyli irəliyəm. Lələ, səninlə vuranda mənə nuş olur.

— Həvəsim yoxdu.





— Vurarıq, düzələr.

Hümmət fikirləşdi ki, Nəbi nədənsə xəbərdardı. Üstünə çox düşüb suallar versəm, o, bir çox şeyləri gizlədəcək, bir çox şeylərin də üstünə pərdə çəkəcək. Mənim fikrimi əsas məsələdən yayındırmağa çalışacaq. Yaxşısı budu ki, onunla yeməkxanaya gedək, yeyib-içək, başı dumanlandıqca Şəfəq barəsində eşidib-bildiklərini özü açacaq. Bu fikirlə də Hümmət yeməkxanaya getməyə razı oldu. Onlar işlərini qurtarıb özlərini yaxınlıqdakı bağın kənarındakı yeməkxanaya verdilər. İçəri keçib yeməkxananın baş tərəfində qoyulmuş stolun ətrafındakı boş stullarda əyləşdilər. Xidmətçi qadın onlara yanaşdı və Nəbinin üzünə baxıb göz-qaşını oynadaraq:

— Eşidirəm, — dedi.

Nəbi:

— Yeməyə nə var?

— Cız-bız, toyuq, piti, dolma, lülə, tikə-kabab.

— Adama bir-bir lülə, dalısınca da tikə kabab. Soyuq qəlyanaltı nəyiniz var: xiyar, pomidor, bir şüşə mineral su, ”fanta”, bir şüşə də araq gətirin. Qalanına sonra baxarıq.

Xidmətçi qadın: — Oldu, — deyib yerindəcə fırlandı. Nəbi Hümmətə göz vurub: — Bu da ondandı, — dedi. Hümmət Nəbinin hansı simə vurduğunu başa düşüb gülümsündü. Çox çəkmədi ki, xidmətçi sifarişləri yerinə yetirdi. Nəbi öz qədəhini götürərək dedi:

— İçək hər ikimizin sağlığına. Qardaşım, sən təmiz, incimə, bir qədər də sadəlövh adamsan. Hamıya tez inanırsan. Hiyləgər adamlar səni istədikləri vaxt aldada bilirlər. Kobud da çıxsa, deyəcəm. Üzünə gülərək başına ip salıb səni istənilən yerə aparmaq, hətta öldürmək də olar. Niyə? Çünki, xəyanətkar, hiyləgər deyilsən. Hamıya özün kimi baxırsan, inanırsan. Səni tora salmaq çox sadə işdi. Mən istəyirəm bir qədər ayıq olasan, insanlara münasibətini dəyişəsən. Lap yeri gələndə mənə də inanma-

yasan. Eşitdiyini, gördüyünü yüz dəfələrlə yoxlayasan. Məsləhətim budu. Hələlik bunu içək. Qalanını danışarıq. Onsuz da arağımız hələ boldu. Sağ ol!

Hər ikisi qədəhləri axıra qədər içdilər. Nəbi növbəti dəfə qədəhləri araqla doldurdu. Bu dəfə Hümmət qədəhə birinci əl atdı. Nəbinin ürəyini ələ almağa çalışdı. O, dedi:

— Qardaşım, sən deyənlərlə tamamilə razıyam. Neyləyim ki, məni də anam belə doğub. Ən yaxın adamlarım sadəlövhlüyümdən istifadə eləyərək mənə xəyanət eləyirlər. Mənim də Allahım var. Sənin kimi etibarlı dostum var, qardaşım var və ömrüm boyu da səninlə səmimi, mehriban olacam. Açığı səninlə dostluğu, qardaşlığı özüm üçün fəxr sanıram. Odur ki, bu qədəhi şəxsən sənin sağlığına qaldırıram. Dostlarımsız məndən nə çıxar?

Qədəhlər boşaldı. Yavaş-yavaş içilən araqlar da öz işini gördü. Arağın od-alovu Nəbinin hissinə, düşüncəsinə elə bil hakim kəsilmişdi. Bu dəfə qədəhi Nəbi götürdü: — Qardaşım, — deyə üzünü Hümmətə tutdu:

— Lələ, gəl açıq danışaq. Neçə gündü özündə deyilsən. Doğrusu, bu sözü mən sənə çoxdan demək istəyirdim. Sonra fikirləşdim ki, bəlkə deməyim. Ancaq indi görürəm ki, səhv eləyirəm. Biz bir-birimizin evində oluruq, qardaşlaşmışıq, çörək kəsirik, gərək dərdimizə də şərik olaq. Mən susa da bilərdim. Ancaq susmağı bacarmıram, Hümmət. Ailədə iki övlad olmusuz. Gərək bacın sənə də, anana da, atanın ruhuna da hörmət eləyəydi, qiymət qoyaydı. Heyf ki, qoymadı. Qardaşım, Tubunu bu şəhərdə çox kişi tanıyır. Həmkarlarımız da onun barəsində çox məlumata malikdilər.

— Aha... Deməli, belə.

— Şəhərdə qadın bədəni alveri gedən gizli yerlər var. Bu işinə görə o, ərindən ayrılıb. Bu yerlərdə çox olduğundan o, işə də vaxtlı-vaxtında getmirdi. Buna görə də onu işdən çıxardılar. Tubu İra, Toma, Zema, Seva kimi bir çox əxlaqı pozğun qadınlarla





əlbir olub Gülyanın evində özünü satmaqla məşğuldu.

Hümmət İranın, Tomanın, Sevanın adını eşitcək dünya başına dolandı. Öz-özünə düşündü: — Deməli, bacım bu əxlaq pozğunları ilə mənə ailə qurmağı təklif eləyirmiş. Nəbi boğazını arıtladı. Hümmət yenidən diqqətini Nəbiyə yönəltdi:

— Sən Tubunun özünü satdığını dəqiq bilirsənmi?

— Hə... İnanmırsan özün yoxla. Buna nə var ki.

— Bu işdə mənə kömək edə bilərsənmi?

— Eləyərəm, əvvəlcə de görüm neyləyəcəksən?

Hümmət nə deyəcəyini bilmədiyindən çaşıb qaldı. Xeyli fikrə getdi. İstədi desin: — Onu öldürəcəm, — sonra nə fikirləşdisə əlindəki çəngəli yerə qoydu. Diqqətlə Nəbinin üzünə baxdı. Handan-hana dedi:

— Nəbi, birdən sən deyən yalan oldu.

— Olmayacaq, qardaşım. Təkrar eləyirəm, bunu sənə deməyə də bilərdim. Namus ağır məsələdi. Onu hamıdan sonra yiyəsi eşidir. Sənin indiyədək xəbərsiz olmağın da təbiidi.

Hümmət boş qədəhi əlinə aldı, sonra da qaytarıb stolun üstünə qoydu: — Doldur, — dedi. Ürəyi darıxdığından köynəyinin yuxarı düyməsini açdı. Ağır yük götürmüş kimi dərindən nəfəs aldı. Elə bil bir andaca qol-qanadı sınıb yanına düşdü. Gözlərinin dərinliyində intəhasızlıq duyuldu. Nəbiyə elə gəldi ki, bir göz qırpımındaca Hümmət qocaldı. O susdu, susdu... Nəhayət, sonuncu qədəhi də qaldırıb Nəbinin qədəhinə vurdu, axıra qədər içdi və dərhal da ayağa qalxdı. Nəbi istədi desin ki, yeməyi yarımçıq qoyub hara gedirsən? Sonra fikirləşdi ki, yəqin əsəbiləşib. Oturmayacaq. Özü də ayağa qalxdı. Xidmətçi qadının pulunu verib onun ardınca getdi.

* * *

Son günlər Hümmət cana doymuşdu. Başında qara fikirlər

dolaşmaqda idi. Onun daxili aləmini boşa çıxmış ümidlər, inamlar, təşviş, məhrumiyyət, üfunət, cəhalət, nadanlıq və gird-abdan doğan qasırğa və tufanlar dalğası bürümüşdü. Düşüncələri hiss və ehtiraslar xaosu içərisində bulaş-bulaş olurdu. Ağlına təkcə o gəldi ki, Nəbinin dedikləri düzdüsə, Tubunun yaşaması artıqdı. Tutaq ki, Nəbi düz deyir, yaxşı, Tubu bu yolu hansı ağılla seçib? Niyə özünü başqalarının çirkin ayaqları altına atıb mur-darlayır? Niyə anamı, məni binamus, bihörmət eləyir? Əgər Tubu bu yolu seçibsə, hər gün bədənlərini satan rəfiqələri İra, Toma, Zema, Seva ilə mənə ailə qurmağı məsləhət bilirsə, deməli, o, hər cür alçaqlığa yol verə bilər? Tubu nəyə görə Şəfəqə qənim kəsilib? Bəlkə mən bilmirəm, Şəfəq həqiqətən də Tubunun bədən satmalarından xəbərdar imiş? Bəlkə, Şəfəqi də öz yoluna çəkmək istəyib? Təklifini qəbul eləmədiyinə görə, bəlkə, Tubu ona qarşı çevrilib? Şəfəq bəlkə də hardasa, onun qarşısında bir əngələ çevrilib? Yaxşı, bu Saleh kimdi? Şəfəqin bədənindəki nişanları o, hardan bilirdi? Tutaq ki Şəfəq vaxtı ilə, doğrudan da, Salehi tanıyıb, onun dediyi kimi aralarında intim münasibətlər olub. Saleh bir zaman yaxın olduğu qadına belə intiqam hissilə yanaşardımı? Bəlkə, Salehlə Şəfəq arasında bir əlaqə yoxdu? Bütün bu həngamələrin, hoqqaların səbəbkarı Tubudu? Vallah, heç nə anlamıram. Heç nə başa düşmürəm. Dayan! Dayan! Şəfəq Tubunun hərəkətlərindən xəbərdar idisə, Tubu ona qarşı niyə tədbir görürdü? Yox! Məni çaşdıran təkcə Salehin Şəfəqin bədənindəki nişangah yerlərini deməsidi. Əgər bu olmasaydı... Görünür, Şəfəq də bir çox şeyləri məndən gizlin saxlayıb. Bəlkə o, fikirləşib ki, dediklərinə mən inanmayacam. Belə olanda özü pis vəziyyətdə qalacaq. Axı o, tez-tez deyərdi ki, narazılıqların törədicisi Tubudu. Deyəsən, xoruzun quyruğu görünür. Deməli, qızının ləyaqətsiz əməllərindən ana da xəbər-dardı. Sadəcə olaraq, o, qızını müdafiə mövqeyi seçib. Deməli, belə. Yaşayarıq, görərik. Qarşıda duran başlıca məsələ Tubunun





fəaliyyətinə nəzarət eləmək, onun haralara gedib-gəldiyini, kimlərlə oturub-durduğunu öyrənməkdi. Nəbi necə dedi? “Tubunu şəhərin bir çox kişiləri tanıyır”, “Qadın bədəni satan”, “Gülyagildə olur”. Yaxşı, bu Gülya kimdi? Aman Allah, bu, həqiqətən də belədirsə, deməli, mənim də yaşamağa, başıma papaq qoymağa haqqım yoxdu.

* * *

Bazar günü idi. Səhər yeməyindən sonra Hümmət balkona çıxdı. Səmada tək-tək buludlar görünürdü. Yüngül, zəif mehin təsiri altında buludlar lay-lay axışıb günəş şüalarının qarşısını kəsir, dənizdəki xırda adalar tək yerə qaramtıl kölgələr salırdı. Hümmət həyətə düşmək, bir az gəzmək, təmiz hava almaq istə-di. Bu məqsədlə də o, otağa qayıtdı. Kostyumunu geyinirdi ki, telefon zəng çaldı. Tubu tələm-tələsik yan otaqdan çıxıb dəstəyi götürdü:

— Salam, ...Mənəm... Eşidirəm... Yaxşı... Bir saatdan... Elə orda... Hələlik...

Qırıq-qırıq işarəli cavablardan heç bir şey anlamayan Hüm-mətə bir şey apaydın idi ki, Tubu görüşə dəvət olunur. Tubu da gedəcəyinə söz verdi. Bir saatdan sonra o, gedəcək. Onu izlə-mək olar. O, belə qərara gəldi ki, bir şeyi bəhanə eləyib evdən tez çıxsın. Bir tərəfdə dayanıb onu gözləsin. Hara gedəcəyini iz-ləsin. Bu fikirlə də Hümmət dəhlizə çıxdı. Anasını səslədi. Qəh-mər mətbəxdən oğlunun səsinə səs verdi. Hümmət mal dalınca gedəcəyini və bir də axşam evə qayıdacağını anasına ucadan bil-dirdi. Bunu Tubu da eşitdi. O, heç bir şeyin fərqinə varmadan otaqdan çıxdı. Gəlib qonşu binanın tinində dayandı. Oradan ya-şadıqları binanın giriş qapısı açıq-aydın görünürdü. Bir saata ya-xın vaxt keçmişdi ki, Tubu geyinib-keçinib binadan çıxdı. İti addımlarla yaşadığı binanın qarşısındakı maşın dayanacağına gəldi. Hümmət bacısını yaxşı müşahidə eləyə bilsin deyə yaxın-

lıqdakı böyük çinar ağacının arxasına keçdi. Tubu o yan-bu yana baxdı. Əlli-altmış addım aralıda dayanan minik avtomobilinə yaxınlaşdı. O, çatar-çatmaz maşının qabaq qapısı içəridən açıldı. Tubu maşına əyləşdi. "Qaz-24" yerindən tərpəndi. Hümmət Tubunun evin yaxınlığında maşına minəcəyini ağlına gətirmədiyindən yerində donub qaldı. Hara gedəcəyini bilməyib kor-peşman evə qayıtdı. Qapını açıb içəri keçdi. Anası oğlunun gəlişini görcək təəccübləndi:

— Nə tez qayıtdın? — deyə soruşdu.

— Gedəsi olmadıq, qaldı başqa vaxta.

— Gəl, kömək elə uşağı çimizdirək.

— Bəlkə, Tubu ilə çimizdirəsiz?

— Tubu gec gələr.

— Hara getdi ki?

Ana oğlunun sözünü eşitmirmiş kimi sualı qəsdən cavabsız qoydu. Bunu oğul da başa düşdü. Ancaq özünü o yerə qoymadı. Dilləndi:

— Uşağı çimizdirmək üçün mən neyləməliyəm ki?

— Su hazırlamışam, sən uşağı tut, yıxılmasın, mən də su töküm, sabunlayıb çimizdirim. Yazıq uşaq neçə vaxtdı çimmir. Bədənindən üfunət iyi gəlir. Qucağa götürəndə az qalır adamın zəhri çatlasın. Evlənsəydin mənim də canım qurtarardı.

— Mənim evlənməyim işləri düzəldəcəkmi?

— Mən bu yaşda nə vaxtadək uşaq saxlamalıyam? Uşaq əskisi, uşaq dalı yumalıyam.

— Sən niyə? Tubu yusun da. İşinin-gücünün adı nədi. Səhər çıxır, axşam gəlir. Allah bilir hara gedir?

— Hara gedəcək ki? Rəfiqələri ilə dərdini dağıdır. Cavan qadındı. Həmişə evdə oturmaycaq ki.

— Bacım, maşallah, çox ayıqdı. O qədər də aciz deyil. Papaq günə yandırana da oxşamır. Mən biləni şəhərin bütün yırtıq-söküklərini tanıyır, dəlmə-deşiyindən xəbərdardı.





— Oğlum, sən bununla nə dediyini bilmirəm. Ancaq onu bilirəm ki, o, səninlə nəfəs alır. Elə hey deyir, qardaşımı evləndirək, əziyyət çəkməsin.

— Mən hələ arvad almaq üçün darıxmıram.

Qəhmər Hümmətlə köməkli uşağı çimizdirməli oldu. Hərdənbir uşaq səsini qaldırır, gözlərinin yaşı yanaqlarından süzülürdü. Qəhmər tez-tez "Hə", "Hə", "Can", "Nənə sənə qurban", "Bu saat", "İndicə qurtarırıq", "Adam çiməndə ağlamaz", "Axı sən kişisən", — deyirdi. Oğlunun qalxıb-enən səsləri, ağlartısı içərisində Hümmətin hissləri cuşa gəlirdi. Axır ki, o, oğlunun ağlamasına, qışqırtısına dözə bilməyib anasına: — Əşi, bəsdi, çox incitmə, — dedi. Qəhmər: — Qoy yaxşı-yaxşı çimizdirək, uşağın bədəninə qaşınma düşə bilər, — deyə cavab verdi və ona təzə-təmiz paltar geyindirdilər. Qəhmər dedi:

— Sən uşağı saxla, mən şirin təhər çay düzəldim. Uşağa verək içsin. Həm susuzluğu varsa kəsər, həm də bədəni qızar.

— Di tez elə.

Qəhmər tələm-tələsik mətbəxə getdi.Çox keçmədi ki, əlində ağzına əmzik keçirilmiş şüşə geri qayıtdı. Əmziyi uşağın dodaqlarına toxundurdu. Uşaq o andaca əmziyi əmməyə başladı. Qəhmər:

— Yazıq uşaq susuzmuş.

İsti sudan çıxan uşağın yanaqları qızarmışdı. O, rahatlandığından qığıldayırdı. Oğlunun bu hərəkəti Hümməti sevindirirdi. O, uşağı anasına verib yan otağa keçdi və öz-özünə dedi:

— Uşağı Tubuya usbut olmaq ağılsızlıqdı. Anamdan da mənə axıracan uşaq saxlayan olmayacaq. Bəs, neyləməli? Uşağı özümmü saxlayım? Bəs, onda kim işləsin? Ailəni kim dolandırsın? Bəlkə, doğrudan da, Şəfəqlə mənim arama giriblər? Mən qərar verməkdə tələsmişəm. Axı o it oğlu Saleh kim idi? Mənim faciələrimdən biri odu ki, bacımı indi-indi tanımağa başlayıram. Heç şübhə yoxdur ki, Tubunu Seyran namussuzluq, xəyanət üstə

qovubmuş. Bunu mənə nə anam, nə də Seyran açıqladı. Yaxşı yadımdadı, Şəfəq sussa da, Tubunu anam müdafiə eləyirdi. Elə indiki kimi. Mən hər dəfə Tubunun ailəsi ilə danışmaq istərkən anam mənə imkan vermirdi, mane olmağa çalışırdı. Bunlar əbəs deyilmiş. Mən də hər dəfə anamla razılaşardım. Deməli, torbada pişik varmış. İnsafən, Tubu ər evindən çıxıb bizə gələnədək heç vaxt Şəfəqdən anam da, mən də narazı qalmamışıq. Hər şey Tubunun gəlişindən sonra başlandı. Əcəb işdi. Mən ilmələrini Tubu hördüyü tordayam. Ancaq necə? Mən Tubu ilə söhbətə otursam, o, heç bir şey boynuna almayacaq. Sinəsini irəli verib özünə məxsus əda ilə "fakt göstər" deyəcək. Onda mən də əsas gətirə bilməyəcəm. Maddım-maddım üzünə baxmaqdan savayı özgə çarəm qalmayacaq. Bəs, neyləməli?! Gözləməli! Ancaq və ancaq gözləməli!.. Səbr eləməli!

* * *

Tubu evə gələndə axşamdan xeyli keçmişdi. Hümmət də yeyib-içib öz yatağında uzanmışdı. Qəhmər uşağı yatırmaq üçün xoş avazla astadan layla oxuyurdu. Anasının laylalarına Hümmətin də qəlbi kövrəlirdi. Sonra da doğma balasının ana laylasından məhrum olub nənə laylasının təsiri altında necə yuxuya gedəcəyini düşündü. Bir anlığa ona elə gəldi ki, oğlu yuxulamayacaq. O, laylaların həzin, ruh ovsunlayacaq, qəlbə məlhəm qoyacaq duyğuları Hümmətin özü üçün doğma ola bilərdi. Hardasa nənənin dediyi laylalarda nəvə bir anlaşılmazlıq, ötərilik, boşluq duyacaqdı. Danışmağa dili söz tutsaydı, bəlkə deyərdi: — Bəsdi, nənə, laylanı saxla, dayandır, çaldığın layla ruhumu oxşamaqdan, yuxu gətirməkdən daha çox mənə əzab-əziyyət verir. Əgər məni istəsəydiz, gələcək taleyim barədə düşünsəydiz, mənə anamın laylası altında yatmaq imkanı verərdiz. Siz də atama qoşulub məni ana laylasına həsrət qoymazdız, nənə?..





Düşüncələr Hümməti ağuşuna alıb aparırdı. Birdən layla kəsildi. Əvvəl o, oğlunun yatdığını fikirləşib sevindi. Yavaş-yavaş anası ilə bacısının danışıq səsləri eşidildi. Hümmət diqqətini cəmləşdirsə də, söhbətin kimdən və nədən getdiyini heç cürə ayıra bilmədi. Üzünü divara çevirib mürgüləməyə başladı. Elə bu dəm Tubunun ucadan əsəbiliklə dediyi qarmaqarışıq sözlər Hümmətin qulaqlarında guyuldadı. O, başını balıncdan qaldırdı. Ana ilə qızın səsi getdikcə yüksəlirdi, deyilənlər açıq-aydın eşidilirdi.

Qəhmər:

— Səhər evdən çıxıb gecə gəlirsən. Nə vaxtadək belə olacaq? İşin yox, gücün yox. Hərə də barəndə bir söz deyir. Hər dəfə də özümdən bir şey uydurub qardaşına deyirəm. Bəsdi, mən də utanıram axı.

— Axı barəmdə kim nə deyir?

— Əxlaqsız, pozğun.

— Desinlər də. Əcəb eləyirəm.

— Axı, qardaşın...

— Hər kəs özünə cavabdehdi.

Söhbətin uzandığını görən Hümmət ayağa qalxdı. Paltarlarını geyinib otaqdan dəhlizə çıxdı. Qəhmər dərhal astadan:

— Qurtar söz-söhbəti. Qardaşın eşidər, sonra danışarıq.

Hümmət onlar olan otağa keçib, heç bir şey eşitməmiş kimi dedi:

— Deyəsən, Hikmət yatıb.

Qəhmər:

— Yox, ondan çıxmayan iş, baxır.

Tubu:

— Hümmət, anana yazığın gəlmir?

— Nə olub ki?

— Ananın bu yaşda uşaq saxlayan vaxtıdı?

— Fikrini açıq söylə.

— Az qala evdən qaçaq düşmüşük.

— Niyə?

— Evdə uşaq ağlartısından başqa heç nə eşitmirik. Anamın da başı qarışıb uşağa. Nə vaxt bu xarabaya gəlirəmsə, içməyə bir stəkan çay tapmıram.

— Hə, belə de. Yaxşı, sənin təklifin nədi?

— Neçə dəfə demək olar? Evlən. Uşağına arvadın baxsın.

— Etiraz eləmirəm. Kimi məsləhət bilirsən?

Bunu eşitcək Tubunun üzündə təbəssüm yarandı. Sonra dedi:

— Bu başqa məsələ. Sənin üçün elə şey tapacam, gəl görəsən. Özün də məəttəl qalacaqsan.

— Mənə şey lazım deyil, bacı.

— Ədə, şey deyəndə arvad nəzərdə tuturam da.

Hümmət iki mənalı dedi:

— Onu hardan gətirəcəksən?

— Başa düşmürəm.

Hümmət əsəbi halda:

— Qurtar söhbəti, qanacaqsız.

Axırıncı söz Tubunu tutdu. İstədi o da qayıdıb Hümmətin cavabını versin. "Alçaq", "Qanacaqsız sənsən" desin ona, Qəhmər oğlunun əsəbiliyini görüb göz-qaşı ilə Tubuya: — Səsini kəs, danışma — işarəsini verdi. Tubunun hikkədən gözləri alacalandı. O, çılğın, əsəbi halda soruşdu:

— Mən hansı qanacaqsızlığı eləmişəm, Hümmət?

— Sən bu evə gələndən biz faciə içərisindəyik. Sən hər gün bu evə dava-dalaş gətirdin. Ailəm dağıldı. Oğlum yetim qaldı. Bunların hamısı sənin işindi Tubu. İndi də evdən çıxa bilmirəm. İşə getməyə ayağım gəlmir. Hamı mənə həqarətlə baxır. Anamız da hər gün sənin üstünə qanad sərir. Guya mən də, Şəfəq də sənə düşmən idik. Gündə neçə dəfə deyirsən evlən. Arvad al. Sənə qadın tapım. Hardan tapacaqsan, alçaq? Gülyanın evindən? Gündə neçəsi ilə oturub duran İranı, Tomanı, Sevanı, Zemanı?





— Mənim dərdimi çəkmə. Barəmdə danışanlar da, elə sən də qələt eləyirsiz. Bir də ki, otur uşağını saxla. İndi bildin, nə üçün deyirəm? Uşaq saxlasaydım, özüm doğardım.

— Uşağı özüm saxlayacam. Onu uşaq evinə verməyə razı olaram, sənə etibar eləmərəm. Sən ləyaqətini, şərəfini, ar-namusunu çoxdan itirmisən. Sənin adın gələndə xəcalətimdən ölürəm. Sən mənim papağımı çoxdan yerə soxmusan Tubu. Yaddan çıxarma ki, hər şeydən xəbərdaram.

— Bil də. Onsuz da mən heç kəsdən gizli iş görmürəm. Bayaq anama da demişəm. Sən də aç qulağını, eşit. Mənim hərəkətimin heç kəsə dəxli yoxdu. Hər kəs özünə cavabdehdi.

Hümmət özünü saxlaya bilməyib, Tubunun üstünə atıldı. Onun saçlarından tutub özünə tərəf çəkdi. Tubu: — Öldüm, — deyə var gücü ilə qışqırdı. Səs-küyə uşaq diksindi və qışqırıb ağlamağa başladı. Qəhmər Tubunun saçlarını oğlunun əlindən almağa çalışdı. Ananın ayağı ilişib yıxıldı. Hümmət Tubunun üz-gözünə bir neçə dəfə vurdu. Qəhmər ayağa qalxıb yenidən oğlu ilə qızının arasına girdi. Bu dəfə Hümmət Tubunu buraxdı. O, tələm-tələsik qapını açıb balkona çıxdı. Baş-gözünə döyə-döyə qışqırdı:

— Ay camaat, köməyə gəlin. Hümmət öldürür məni. Qoymayın, doğradı məni. Yaxın gəlsən, özümü balkondan atacam. Oğraş, arvadının öhdəsindən gələ bilməyən mənim üstümə bıçaq çəkir. Oğraş, elə qeyrətin varsa, get arvadını öldür.

Hümmət çaş-baş olub qalmışdı. İndi o, aydın başa düşürdü ki, bacısı onu şərləyib həbs elətdirmək fikrindədi. O, əlacsız qalıb üzünü anasına tutdu:

— Bu nə danışır? Mən onu doğrayıram? Nə bıçaq? Məni rüsvay elədi ki, bu alçaq, yaramaz.

Elə bu vaxt qapı döyüldü. Hümmət gedib qapını açdı. Qulamrza kişi içəri girdi:

— Bu nə həngamədi, a bala? Özünüzü niyə biabır eləyirsiz?

Axı indiyədək sizin ailədə belə söz-söhbət olmayıb.

Hümmət:

— Balkona çıxıb qışqırır ki, polis gəlsin.

— Axı niyə?

— Hərəkətlərini ona xatırlatdığım üçün.

Qəhmər Hikməti qucağına alıb kiritməyə çalışdı:

— A bala, qadına əl qaldırmazlar.

Qulamrza:

— A Qəhmər, bəyəm bunların ikisi də sənin övladın deyil? Üzümə baxma! Qızı balkondan çağır içəri! Ağzını da yum. Kişinin kişi yeri var, qadının da qadın. Tubu qan-qan deyir. Gərək oğlunu da aparıb soxsunlar qoduqluğa?

Qulamrza kişi məcbur olub özü balkona keçdi. Kişi Tubuya yaxınlaşmışdı ki, o, qışqıra-qışqıra dedi:

— Gəlmə, gəlsən özümü balkondan atacam.

— Ağıllı olun, a bala, özünüzü yığışdırın. Eşidib-bilənlər sizə yaxşı deməyəcəklər.

— Yox, Qulamrza əmi, siz bilmirsiz, iki gündən bir gəlib məni döyür, söyür, təhqir eləyir, mənə qəhbə deyir. Qulamrza əmi, de görüm, mən qəhbəyəm?

— A bala, onu mən hardan bilim?

— Yox, bilərsən.

— Allahu-Əkbər də. İşə düşmədik. Bu nə qanacaqsızlıqdı?

— Sən də mənə qanacaqsız deyirsən? Utan yaşından! Saqqalından! Özün də rədd ol burdan!

— Tubu, səni götürüb balkondan özüm ataram ha. Mən sənə nə Hümmətəm, nə də Qəhmər.

Tubu qorxdu. Səsi yumşalmağa başladı.

— Qulamrza əmi, axı Hümmət mənə əxlaqsız deyir.

— Düz deyir, əxlaqsız olmasan, bu hərəkətləri eləməzsən. Sənin kimi övladım olsaydı, onu əllərimlə doğrayardım. Biqeyrət, binamus adını üstümə götürməzdim. İndi at özünü balkon-





dan. At da, niyə atmırsan? Utanmırsan? Xəcalət çəkmirsən, danışdıqlarından? Qonşular içərisində qardaşının dilini gödək eləyirsən! Başını aşağı salırsan! Həyasız!

Qulamrza kişinin ötkəm sözündən, amiranə məzəmmətindən sonra Tubunun səsi bir qədər də endi. Haçandan-haçana içəri keçdi. Hümmət bacısının üzünə mat-mat baxdı. Qardaşının təəccüblü, hirsli baxışlarının üstündə cəmləşdiyini hiss eləyən Tubu dedi:

— Budu deyirəm. Qoy o, mənə bir də ayağın yandı, geri çək desin. Onu həbs elətdirməsəm, atamın qızı deyiləm. Anamın südünü əmməmişəm.

Qulamrza:

— Tubu, özünü yığışdır. Sən yolunu azmısan. Əgər bilmirsənsə, deyim. Bütün qonşular səni yaxşı tanıyırlar. Bir yolla səni burdan qovdurmağa çalışırlar. Ya özünü yığışdır, ya da bu binadan rədd ol. Camaatın arvadı, gəlini, qızı var. İndi bildin?

Bu sözləri eşidən Tubu nə deyəcəyini bilməyib çaşdı. Handan-hana özünə gəldi:

— Qulamrza əmi?

— Nədi?

— Siz də belə?

— Bə nə bilmişdin? İndi bildin kimliyini? Dəvə başını soxur pambıq kollarının arasına, elə bilir, dağ boyda dalını görən yoxdu.

Qulamrza kişi təklif olunmadan stul çəkib oturdu. Sonra: — Siz də əyləşin, — dedi. Qəhmərlə Hümmət oturdular. Tubu ayaq üstə dayanıb Hümmətə hədə-qorxu gəlirdi. Qulamrza kişiyə də, Hümmətə də bir şey aydın idi ki Tubu bu hərəkətləri ilə qardaşının ağzını bir dəfəlik yummağa çalışırdı. İstəyirdi ki, Hümmət ona bir də söz deməyə cəsarət eləməsin. Eyni zamanda onlar yaxşı bilirdilər ki, Tubu hər an qardaşını həbs elətdirməyə hazırdı. O, bu cür hərəkətləri ilə Hümməti aradan götürüb

öz fəaliyyətini daha da genişləndirə bilər. Ona görə də Tubu ilə bir qədər ehtiyatlı olmaq lazım gəlirdi...

Gecə-gecədən keçənədək Qulamrza oturub onlarla söhbət elədi, hər birinin əsəblərini yumşaltmağa çalışdı. Qapıdan çıxıb gedərkən Qulamrza Hümmətə: — Çölə çıxaq, — dedi. Hümmət qapını örtüb onunla pilləkənin başınadək getdi. Qulamrza dayandı:

— Oğlum, bacın yolunu azıb, həddini aşıb. Qonşular vəziyyəti sənə qəsdən açmırdılar. Çəkinirdilər ki əlindən xəta çıxar. Mən görürəm, sən heç də bizdən az bilmirsən. Səni də başa düşürəm. Oğlum, ehtiyatsız, düşünülməmiş hərəkət eləsən, ona bir sillə vursan, səni həbs elətdirəcək. Yaxşısı budu, ondan bir qədər uzaqda dayanasan. Ona salam verməsən yaxşıdı. Başında bir çanaq qan var onun. Allah əzabını verəcək.

— Aydındı, Qulamrza əmi. Uşaq olmasaydı...

— Allah pis övladı, nankor bacı-qardaşı adama verməsin. Nə öldürmək olur, nə də satmaq. Udmaqdan, göz yummaqdan özgə çarən qalmır. Ağıllı adam odur ki, səbr eləyir, dözür.

— Nə vaxtacan, Qulamrza əmi?

— Allah məsləhət bilənədək. Uzaq gedə bilməz. Hər şey yoluna düşəcək. Tələsmə, uşağından muğayat ol. O gün də sənə dedim. Arvadını get götür gəl, oğlum. Adama ailə qalır. Ailəsiz insanın ömrü heyvan ömrünə bənzər.

Hümmət bir söz deməsə də, başı ilə kişinin dediklərini təsdiqlədi.

Qulamrza ilə xudahafizləşən Hümmət evə qayıtdı. Öz otağına keçib soyundu və yatağına uzandı. Özlüyündə bacısının hərəkətlərini götür-qoy eləməyə başladı. Düşdüyü vəziyyətdən çıxış yolları aramağa çalışdı. Nə qədər çalışdısa, sonunu bir tərəfə çıxara bilmədi. Hər dəfə də oğlu atacağı addımların yolunu kəsdi. O, düşündü: Tutaq ki, mən Tubunu öldürdüm, özüm də tutuldum. Ən azı on il azadlıqdan məhrum edildim. Sonrası necə





olacaq? Ömrünün qürub çağlarını yaşayan anam Tubunun ölümünə, mənim həbsimə dözməyəcək. Ürəyi çatlayacaq. Sonra da uşaq ortalıqda qalacaq. Hərə vurub bir tərəfə atacaq. Acyalavac qapıları gəzəcək, söyüləcək, döyüləcək, şikəst qalacaq, sətəlcəm olacaq... Fikirləşəndə, az qalıram dəli olam.

Dolaşıq, qarmaqarışıq fikirlər içərisində Hümmət yuxuya getdi.

* * *

Bazar günü idi. Gün günortadan əyilmişdi. Cavad balkonda dayanıb təmiz hava alırdı. Topa-topa o yan-bu yana axışan buludlar hərdən bir günəşin qabağını kəsirdi. Çox çəkmir ki, günəş bulud topalarının arasından çıxır, öz ılıq şüalarını ətrafa səpirdi. Sonra da bu buludların arasında elə bil yoxa çıxırdı. Havada bir sərinlik duyulurdu. Nazik geyindiyindən Cavad özündə üşütmə hiss elədi. O, soyuqlaya biləcəyini düşünüb otağa qayıtdı. Qapını bağlayıb arxadan cəftəsini vurdu. Şəfəqin etirazlarına məhəl qoymayan, bayaqdan bəri mətbəxdə yır-yığış eləyən Mətanət yataqxanada lazım ola biləcək qab-qaşığı, stəkan-nəlbəki dəstlərini, qazançanı, saplıcanı, axşam və səhər naharı üçün hazırladığı yeməyi böyük bir zənbilə qoyub əri olan otağa keçdi. Yataqxanaya getmək üçün hazırlıq gördüyünü bildirdi. Sonra da dedi ki, dükan-bazara getmək, qənd, çay, duz, yağ, soğan, düyü almaq gərəkdi. Sonra əlavə elədi:

— Gec olar. Gedək otağa da baxaq. Başqa şey də lazım ola bilər. Məncə, Şəfəqlə bir otaqda qalacaq qızlarla da görüşsək pis olmaz.

Cavad paltarlarını dəyişdi. Zənbili götürüb: — Getdik, — deyə otaqdan çıxdılar. Taksiyə əyləşib birbaşa yataqxanaya gəldilər. Komendantla görüşdülər. Hal-əhvaldan sonra Buta dedi:

— Sizin yeriniz dünəndən hazırdı.

O, Mətanətlə Şəfəqi otağa apardı. İçəridə stolun ətrafında

hər birinin iyirmi iki-iyirmi beş yaşları olar-olmaz iki qız əyləşib çay içirdilər. Qızlardan biri ucaboy, qəddi-qamətli idi. Onun balaca sarıbəniz üzü, kiçik burnu, mavi gözləri vardı. Çiyninə tökülmüş sarı saçlarının altından qulaqlarına taxdığı balaca qızıl sırğalar parıldayırdı. Güləndə sədəf kimi dümağ balaca dişləri görünürdü. Sakit baxışları, aydın gözləri vardı. İncə, məlahətli səsi adama xoş gəlirdi. Asta danışığı, xoş təbəssümü adamda ilk baxışdan bu qız barədə xoş təəssürat oyadırdı. Onun adı Məfkurə idi. O birisi qızın boyu bir qədər qıvraq idi. Zil qara saçlarını düz yarıdan iki yerə ayırıb hörmüşdü. Hörüklərinin hər ikisini döşləri üstən üzü aşağı buraxmışdı. Geniş alnı, uzun sifəti, sifətinə mütənasib burnu, uzun kirpikləri ilə haşiyələnmiş qara gözləri, çox da böyük olmayan ağzı vardı. Boynundan asdığı nazik qızıl zəncirin ortasındakı kulon sinəsində ap-aydın görünürdü. Bunun da adı Billurə idi. Diqqətlə fikir versən, bu qızların hər ikisinin üz-gözündən utancaqlıq, abır-həya, ismət yağırdı. Gənclik təravəti bu qızları bürümüşdü. Onlarla ünsiyyətdə olan hər kəs barələrində yalnız xoş sözlər deyə bilərdilər. Onlar Butanı görcək ayağa qalxdılar. Komendant əvvəlcə onlara salam verdi, sonra da başını arxaya çevirərək: — Gəlin, gəlin, — deyə Şəfəqlə Mətanəti içəri dəvət elədi. Qızlar Şəfəqgili hörmət və izzətlə qarşıladılar. Dərhal Buta Şəfəqi göstərərək dedi: — Bu otağın yeni sakini, sizə dediyim kimi Şəfəq xanım olacaq. Tanış olun. Mən istərdim ki, səmimi, mehriban olasız. Bir-birinizə tez isinişəsiz.

Qızlar əl verib Şəfəqlə də, Mətanətlə də tanış oldular. Sonra da Butaya: — Rahat ola bilərsiz, — dedilər və Şəfəqlə Mətanəti stola dəvət elədilər. Bu yüngül tanışlıqdan sonra Buta otağı tərk elədi. Şəfəqlə Mətanət boş stullarda əyləşdilər.

Qızlarla ilk tanışlıq Şəfəqi də, Mətanəti də məmnun elədi. Səkkiz-on dəqiqəlik söhbətdən sonra Mətanət qalxıb zənbili açdı. Gətirdikləri qab-qacaqları qızların köməyi ilə şkafa yığdılar.





Sonra da Şəfəqlə Mətanət onlarla xudahafizləşib otaqdan çıxdılar. Birinci mərtəbədə onları gözləyən Cavadın yanına gəldilər. Mətanət ərinə Şəfəq üçün heç olmasa on günlük bazarlıq eləmək lazım olduğunu bildirdi. Şəfəq: — Siz narahat olmayın, pulum var, — demək istəyirdi ki, bunu başa düşən Mətanət əlini Şəfəqin çiyninə qoydu: — Hələ özünü düzəldincəyə qədər sənə kömək gərəkdi, — dedi və ərinə də göz-qaşı ilə getmək him-cimini elədi. Cavad dərhal arvadını başa düşdü. Heç bir söz demədən çıxış qapısına tərəf addımladı. Şəfəq utandığından addımlarını atanmırdı. Hətta danışmağa söz də tapanmırdı. Mətanət Şəfəqin qoluna girdi: — Səni təbrik eləyirəm, bacı, işin də, mənzilin də çox asanlıqla düzəldi, — dedi. Şəfəq Cavadla Mətanətə utana-utana, çəkinə-çəkinə minnətdarlığını bildirdi. Onlar yataqxananın qapısından çıxıb gəzə-gəzə, söhbət eləyə-eləyə bazara gəldilər. Mətanətin məsləhəti ilə lazım olan bazarlığı — ərzaqları alıb geri qayıtdılar.

Gətirdiklərini yerbəyer eləyən Mətanət üzünü Məfkurə ilə Büllurəyə tutdu:

— Sizinlə bir neçə kəlmə kəsmək istəyirəm. Taleyin qismətidi. Hərəniz bir tərəfdən gəlmisiz. Elə biz də. Bu mənzil, bu yataqxana həyatı şəhərə gələn adamların çoxunu öz qoynuna alır. Qaynar, izdihamlı həyatın çətin, keşməkeşli yolları ilə addımlamağı, yaşadığımız cəmiyyəti dərk eləməyi, onunla davranmağı öyrədir. Kimisinə az, kimisinə çox. Qismətinə qane olanlar, ləyaqət və şərəflərini, ar və namuslarını qoruyub saxlamağı bacaranlar sonralar şəhərdə böyük nailiyyətlər qazana bilirlər. Çətinliklərdən qorxmaq lazım deyil. Kasıblıq, pulsuzluq pis şey deyil. Yataqxanada hamı bir ailənin üzvləri kimi dolana bilir. Can deyib can eşidirlər. Hamı bir-birinin dərd-sərinə şərik çıxa bilir. Bu həyatın da öz gözəlliyi, öz dərsləri var. Mən də üç ildən artıq bu həyatı yaşamışam. İndi tale elə gətirib ki, mənim ən yaxın rəfiqəm Şəfəq də sizinlə bir mənzildə qalmalı olur. Onu da yaxın

rəfiqə kimi qəbul edin. Vaxtım olandan-olana mən də sizinlə gəlib görüşəcəm.

Məfkurə dilləndi:

— Nə danışırsız, bacı? Əmin ola bilərsiz. Bu andan Şəfəq də bizim rəfiqəmizdi. Süfrə yoldaşımızdı.

Büllurə gülümsünərək:

— Bunu bizə demək artıqdı. İki gündü Şəfəqin yolunu gözləyirik. Buta xanım bizə bu barədə məlumat verib. Üz-gözündən də görünür ki, Şəfəq bizdən yaxşı qızdı. Belə qızla yola getməmək olarmı?

Otağı gülüş səsləri bürüdü. Mətanət Məfkurə və Büllurə ilə xudahafizləşib otaqdan çıxdı. Dərd-səri nə qədər böyük olsa da, Şəfəq bir anlığa özünü rahatlanmış hiss elədi. İndi onun üçün yeni həyat, yeni ümid qapıları açılırdı...

Şam naharının vaxtı yaxınlaşırdı. Məfkurə üzünü Büllurəyə tutaraq: — Yeməyə nə hazırlayaq? — deyə soruşdu. Büllurə yemək hazırlamaq üçün ayağa qalxırdı ki, Şəfəq dedi: Narahat olmayın, axşam naharı üçün mən yemək gətirmişəm“. Məfkurə ilə Büllurə etiraz eləmək istəyirdilər ki, Şəfəq təkidlə dedi: — Əgər bir otaqda yaşayırıqsa və məni də özünüzə rəfiqə hesab edirsizsə, məncə belə etiraza ehtiyac yoxdu. Bundan sonra nə Məfkurə, nə də Büllurə Şəfəqin sözünü çevirdilər. Şəfəq ayağa qalxıb bayaq zənbildən çıxarıb şkafın gözünə qoyduğu ağ süfrəyə bükülü çörəyi və bişmiş toyuq əti ilə dolu balaca qazançanı gətirib stolun üstə qoydu. Rəfiqələr ilk dəfə duz-çörək kəsməli oldular. Şam yeməyi qurtaran kimi Məfkurə süfrəni yır-yığış elədi. Qabları yumaq üçün mətbəxə aparmaq istəyirdi ki, Şəfəq: — Gedək, mən də həm tanış olum, həm də sənə kömək eləyim, — dedi. Məfkurə etiraz eləmədi. Onlar mərtəbənin ümumi mətbəxinə gedib birlikdə qab-qaşığı yudular. Otağa qayıtdılar. Qadın cinsi qurddan-quc olur. İnsanın kimliyini, keçmişini, vəziyyətini, ələlxüsus da ailəli olub-olmamasını öyrənməyə çalışır.





Şəfəq bir çox suallara cavab versə də, ailəli olması, oğlu barədə bir kəlmə də söz demədi. Şəfəqin gəldiyini eşidən qonşu otaqların sakinləri də hərəsi bir bəhanə eləyərək 65-ci otağa gəlirdilər. Danışıb gülürdülər. Şəfəqsə yalnız verilən suallara öz ruhuna uyğun cavablar verirdi. Bu cavablardan bir çoxu qızlardan bəzilərini təmin eləməsə də, onlar dərinə getmirdilər. Bunu Şəfəq də başa düşürdü. Onu bir məsələ maraqlandırırdı. Sabah bu qızlardan kimlər fabrikə işləməyə gedəcəklər? Şəfəq maraqlandıqda Məfkurə dedi: — Narahat olma, səhər hamımız birlikdə fabrikə gedəcəyik, axşam da iş qurtaranda qayıdacağıq“. Bunu eşidib çox məmnun olan Şəfəq onu da öyrəndi ki, bu qızlar respublikanın müxtəlif şəhər və kəndlərindəndilər. Onların çoxu gündüz fabrikdə işləsələr də, axşamlar orta ixtisas və ali məktəblərdə təhsillərini davam etdirirlər. Məfkurə filologiya, Büllurə iqtisadiyyat, Nərgiz aktyorluq, Solmaz jurnalistika, Qızqayıt elektron cihazların təmiri və istismarı, Pakizə psixologiya, Sevinc sosiologiya fakültələrində oxuyurlar. Şəfəq rəfiqələrinin hamısının oxuduğunu, təhsil aldıqlarını eşitcək bir qədər sıxıldı. Özlüyündə onların dediklərini yalnız dinləmək, eşitmək, danışmamaq qərarına gəldi. Onun utanıb sıxıldığını sezən Büllurə dedi:

— Şəfəq, narahat olma, bacım. Bir ət ki, girdi qazana, oldu yeməli. İstəsən də, istəməsən də səni ali məktəbə qəbul olunmaq üçün imtahanlara hazırlaşmağa məcbur eləyəcəyik. Bu yataqxanada qoyulan qayda belədi.

— Axı mənim hazırlığım...

— Səhv eləyirsən. Əvvəla, heç kəs anasının qoynunda ali məktəbə qəbul imtahanlarına hazır gəlməyib. İkincisi, hazırlaşmaq üçün oxumaq, öyrənmək gərəkdi. Aç qulağını, eşit. Biz səni buna məcbur eləyəcəyik. Başqa yolun yoxdu. Ya oxumalısan, ya da...

— Bacararam?

Məfkurə gülümsünərək:

— Balacasan? Sənin tayların...

Otağı gülüş səsləri bürüdü. Şəfəq çiyinlərini çəkdi. Sonra da astadan bildirdi.

— Hə, işə çıxaq. Sonrasına baxarıq.

— Nə baxarıq? Bu gün bazardı deyə hamı yataqxanadadı. Sabah iş günü başlanır. Hamı gündüz işdə, axşam da məktəbdə. Tək-tənha qal görüm, burda necə qalırsan.

Təzə rəfiqələrinin söz-söhbəti Şəfəqi məmnun elədi.

Axşamdan xeyli keçmiş qonşu otağın sakinləri öz otaqlarına çəkildilər. Məfkurə: — Səhər işə gedəcəyik, tezdən qalxmalı olacağıq, yatmağın vaxtıdır, — deyib, ayağa qalxdı. Sağ tərəfdəki çarpayını açdı. Paltarlarını soyunub yatacağı çarpayının başına atdı. Büllurə üzünü Şəfəqə tutaraq: — Hansında istəyirsən, yata bilərsən, — dedi. Şəfəq təşəkkürünü bildirərək əlavə elədi: — Baş tərəfdəki çarpayı səninkidi, mən sonra gəldiyim üçün ayaqdakı çarpayı mənim olmalıdı“, — deyə cavab verdi. Büllurə işığı söndürdü. Onlar da soyunub yataqlarına girdilər. Şəfəq düşündü: — Yenə də yataqxana həyatı. Yenə də evdən, ailədən uzaq. Yenə də sonu görünməyən gələcək. Oğlumdan uzaq, sirli-sehrli bir aləm. Özün mənə kömək ol, İlahi!

* * *

Şəfəq səbəbini özü də bilmədən yuxudan hövlnak oyandı. Əvvəl harda yatdığını bilmədi. O, qalxıb yerinin içindəcə oturub yan-yörəsinə baxdı. Haçandan-haçana yadına düşdü ki, yataqxanada ona ayrılan çarpayıda yatıb. Məfkurənin, Büllurənin dünyadan xəbərsiz yatdıqlarını görcək, ağır-ağır nəfəs aldıqlarını duycaq özünə gəldi. Sakitcə adyalını kənara itələyib çarpayıdan qalxdı. Rəfiqələrini yuxudan oyatmasın deyə ayaqlarının ucunda pəncərəyə tərəf addımladı və pərdəni sıyırıb çölə baxdı. Hava ala-toranlamışdı. Qarşıdakı binaların bir çox mənzillərində





işıqlar yanırdı. Yarımqövsi ayın da, sayrışan ulduzların da işıqları getdikcə öləziyirdi. Şəfəq təbiəti, xüsusən də gecənin öz qara çarşabını tələm-tələsik belə yığıb getdiyini heç vaxt görməmişdi. Uzaqda üfüqlərin ağartısı, yavaş-yavaş bu ağartının da qızarması, mis rəngə boyanması onda qəribə hal yaradırdı. Yeni görürmüş kimi təbiətin böyük qüdrətinə heyran qalmışdı. Şəfəq baxdı, baxdı. Sonra nə fikirləşdisə, ayaqlarının ucundaca ehmalca geri qayıtdı. Paltarlarını geyindi. Balkonun qapısını açıb çölə çıxdı. Səhər obaşdan yaz havasının rayihəsi yaxınlıqdakı bağçalarda açan əlvan güllərin, yasəmənlərin ətrinə, iydənin iyinə qarışıb ciyərlərinə dolurdu. Şəfəq çiynindəki ağır yükünü yerə qoyurmuş kimi, ürəyindəki qəmi, kədəri, qüssəni, əzabı, iztirabı boşaldırmış kimi dərindən köks ötürdü. Sanki vüssü-vücudunu yanğıdan xilas eləyəcək bir ah çəkdi. Havada meh o qədər hiss olunmasa da, səhərin yaxınlaşmaqda olan bu çağında balkonun lap yaxınlığındakı uca əbrişim ağacının yarpaqları pıçıldaşırdı. Pıçıldaşdıqca da elə bil Şəfəqin qulaqlarına dərin yuxuda olan ciyərparasının ağır-ağır mışıltılarını gətirirdi. Pıçıltıları səssiz-səmirsiz dinləyən Şəfəq öz sirli-sehrli aləminə qapıldığından dan yerindən çıtlayan günəşin şüalarının ətrafa səpələndiyindən tam xəbərsiz olmuşdu. Küçədən sürətlə ötüb keçən maşının qəflətən verdiyi siqnal olmasaydı, o, Allah bilir, öz aləmindən nə vaxt qopacaqdı. Gözlənilməz siqnal Şəfəqi diksindirdi. O, səhərin açıldığını, dan yerindən boylanan, gülümsəyən günəşi görcək qayıdıb içəri keçdi. Məfkurəni, Büllurəni səsləyib yuxudan oyatmaq istəyirdi ki, onların çarpayılarının yığışdırıldığını gördü. Əvvəl ona elə gəldi ki, rəfiqələri onun balkonda olduğunu hiss eləmədən tezdən qalxıb işə gediblər, onu səsləməyi unudublar. Otağın dəhlizə açılan qapısının bir qədər aralı qaldığını görcək bu fikrindən daşındı. Özü də dəsmal, sabun, diş fırçası və pastasını götürüb dəhlizin aşağı başındakı vanna otağına getdi. Yuyunub, qurulanıb otağa qayıdanda rəfiqələrinin səhər yeməyi

hazırladıqlarını gördü: — Sabahınız xeyir, — deyib utana-utana əlindəkiləri şkafın gözünə qoydu və dedi:

— Sizin nə vaxt yuxudan qalxdığınızı bilməmişəm.

Məfkurə:

— Səhərin təmiz havasına çıxdığın üçün səni narahat eləmədim.

Büllurə:

— Niyə narahatsan ki? Nə böyük iş görmüşük? Gündə bəyəm bunları sən eləyirdin? Bu otaqda, bacım, sənin-mənim yoxdu. Nə varsa, hamımızındı.

Şəfəq özü üçün nəticə çıxardığından daha söhbəti uzatmadı. Rəfiqələr səhər naharına oturdular. Yeyib-içib birlikdə otaqdan çıxdılar. Məfkurə otağın açarlarından birini də çantasından çıxarıb Şəfəqə verdi. Onlar avtobusa minib birbaşa fabrikə gəldilər. Sex rəisi Nuridə qapıda dayanıb işçilərin gəlişini gözləyirdi. Şəfəq salam verib soruşdu:

— Nuridə xanım, bu gün mən işə çıxa bilərəmmi?

— Niyə çıxmırsan? Gedək yerini sənə göstərim. Nə iş görəcəyinlə tanış eləyim.

Nuridə qabaqda, Şəfəq də onun ardınca birinci tikiş sexinə gəldilər. Nuridə tikiş maşınını göstərərək dedi:

— Sən tikiş üzrə məktəb qurtarmısan. Əmək kitabçandan görünür ki, xeyli işləmisən. Bu sahədə təcrübə toplamısan. Sənə usta təhkim eləməyə ehtiyac varmı?

— Yox, o zamanlar da bu tipli maşınlarda işləmişəm.

— Çox yaxşı, işlə, baxarıq. Özünü də qorxuzma. Hər şey yaxşı olacaq. Bu qızların hamısı əvvəl sənin kimi olub. Elə mən də.

Şəfəq ilk andan Nuridədə səmimilik, mehribanlıq, qayğıkeşlik duydu. Təzə işçi rəisin də, ustaların da, briqadirin də, elə köhnə işçilərin də diqqətindən yayınmırdı. Bu xanımları Şəfəqin işindən, işi bacarmasından daha çox onun ağlı, tərbiyəsi maraqlandırırdı. Qarışqanı fil eləyən qadınlar Şəfəqə daha çox diqqət yetirirdilər. Onun üçün isə bunların heç bir əhəmiyyəti yox idi. O, öz işində-gücündə idi.





İşin axırına az qalırdı. Nuridə sexi gəzir, əməkdaşların gördükləri işlərə diqqət yetirirdi. Bu qadın adamların hərəkətində, işində qüsur tutmağa bir növ adətkar olmuşdu. Bunu Şəfəqdən savayı hamı yaxşı bilirdi. Ona görə də Nuridənin iradları kimsə tərəfindən o qədər də ciddi qəbul olunmurdu. Bütün işçilərdə belə bir fikir formalaşmışdı ki, onsuz da Nuridə xanım işimdən razı qalmayacaq. Haqlı-haqsız öz narazılığını bildirəcək. Nuridə sexi gəzə-gəzə gəlib Şəfəqin maşınının qənşərində dayandı. Onu diqqətlə nəzərdən keçirdi. Şəfəqin solğun, arıqlamış üzündəki cizgilərdənmi, rəisinə olan səmimi baxışlarındanmı, ya maşınla işləmək bacarığındanmı Nuridədə ona qarşı rəğbət hissi oyandı. O, astadan, pıçıltılı səslə, böyük qayğıkeşliklə Şəfəqə dedi:

— Xanım, sən maşınla əməllicə-başlıca işləməyi bacarırsan ki?

— Hə.

— Lap əla! Xahişim budur ki, işin keyfiyyətinə yaxşı diqqət eləyəsən.

— Narahat olmaya bilərsiz, xanım.

Nuridə bu söhbətdən sonra ötüb başqa işçilərin işlərinə diqqət yetirməyə başladı. İlk gün sex rəisinin onunla belə səmimi söhbəti və işindən razılığı Şəfəqi çox sevindirdi.

Rəislə Şəfəq arasında bu söhbəti eşidən qonşu maşınlarda işləyənlər bir söz deməsələr də, onlara aydın oldu ki, Şəfəq bu işdə naşı deyil. O da görülən işlərin texnologiyasından xəbərdardı.

İşin sonunda xəbərdarlıq zəngi çalındı. Maşınların arxasından qalxan xanımlar yerlərini yır-yığış eləyərək briqadirə təhvil verir, hər kəs çantasından güzgüsünü çıxarıb elə maşının arxasındaca üz-gözlərini qaydaya salır, pudralanır, pərdə arxasına keçib iş paltarlarını dəyişib səhər əyinlərindən çıxardıqlarını ge-

yinirdilər. İşçilərdən bəziləri getmişdilər. Şəfəq əlindəki işini qurtarırdı ki, qonşu sexdə işləyən rəfiqələri — Məfkurə ilə Büllurə onun yanına gəldilər:

— Hələ işin çoxdumu? — deyə soruşdular. Şəfəq: — Hə, bu saat, — deyib qayçı ilə sapı kəsdi, ayağa qalxıb yır-yığış elədi. Sonra da pərdə arxasına keçib xalatını soyunub asılqandan asdı. İşini briqadirə təhvil verib sexin aşağısında dayanan Nuridəyə yaxınlaşdı. Nuridə də gülümsünərək soruşdu:

— Yorulmusanmı?

— Yox.

— Xoşuna gəlirmi?

— Hə. Mənə başqa sözünüz varmı?

— Yox, Şəfəq, sənə yaxşı yol.

O, Nuridə ilə xudahafizləşib rəfiqələri ilə qapıdan çıxdı.

* * *

İşdən çıxan rəfiqələr birbaşa yataqxanaya gəldilər. Yüngül nahar hazırlayıb bir-iki loxma kəsdikdən sonra Məfkurə ilə Büllurə dəftər-kitablarını götürüb oxuduqları ali məktəbə getmək üçün: — Axşam saat 10-dək — deyib, tələm-tələsik otaqdan çıxdılar. Şəfəq süfrəni yığışdırdı, stəkan-nəlbəkiləri, boşqabları aparıb mətbəxdə yumağa başladı. Başqa otaqların sakinlərindən kimisi çay qoyur, kimisi şam üçün nahar hazırlayır, kimisi də onun kimi qab-qaşıq yuyub-yaxalayırdı. Şəfəq heç kəsə fikir vermədən işini görüb öz otağına çəkildi. Otaqda tək qalan və nə edəcəyini bilməyən Şəfəq şkafı açdı, yuxarı gözündə "Qoşa qanad" romanını görcək sevindi. O, kitabı götürüb ayaqüstü o yanbu yana çevirdi. Gəlib çarpayısının qırağındaca əyləşdi. Bir neçə səhifə oxumuşdu ki, Hikməti xatırladı. Sanki beyni kilidləndi. Hissi, duyğusu bulaşdı. Handan-hana fikri duruldu. Məfkurə də, Büllurə də pis qızlara oxşamırlar. Düzdü, hələ ki mən də onları





yaxşı tanımıram. Elə onlar da məni. Biz bir yerdə qalırıqsa, bir süfrədə çörək kəsiriksə, gec-tez bir-birimizi tanımalıyıq. Pasportumda ərdə olmağım, oğlum barədə qeyd var. Mən nə qədər bunları gizləməyə çalışsam da, onlar eşidib-biləndən sonra mənə inanarlarmı? Etibar eləyərlərmi? Lap tutaq ki, insanlıq naminə üzümə vurmadılar. Yalanımı açmadılar, axır ki biləcəklər. Onda düşünməzlər ki, Şəfəqi ilk gündən yalan danışmağa məcbur eləyən nədi? Mən onsuz da bir şey düşünüb başqa şey danışa bilmirəm. Belə bir təcrübəyə yiyələnməmişəm. Məcburiyyət qarşısında yalan danışanda üz-gözüm qızarır. Danışdığım adamın gözlərinin içinə baxa bilmirəm. Müsahibim məni dərhal başa düşür. Lap indi yalan danışsam da bir saatdan sonra öz yalanımı özüm açacam. Ona görə də yalan danışmaqdansa — bu qızlardan soruşarlarsa, mənimlə yerli-yataqlı maraqlanarlarsa — həqiqəti deyərəm.

Təbiətən hər cür bayağılıqdan, pula hərislikdən, əndazəsiz geyimlərdən, əxlaq, davranış barədə çeynənmiş təsəvvürlərdən çox-çox uzaq olan Şəfəqin hər şeyə öz baxışı vardı. O, düşündü ki, mən daha əvvəlki ərli qadın deyiləm, qız da deyiləm. Belə qərara gəldi ki, bütün hiss və instinktlərində, hərəkətlərində, danışıqlarında, gülüşlərində düzəlişlər eləməlidi. Açıq qaba it baş soxduğu kimi dul qadına da hər yolunu azan ixtiyari söz deyə bilər. Şəfəq rəngarəng, dolğun həyat axtaran qadınlarla bir sırada dayanmağı heç vaxt özünə rəva görməmişdi. Əslində, buna onun imkanı da olmamışdı. Yoxsul və səfil olmaq nə qədər kədərlidisə, mənəvi boşluq, kasadlıq, korluq ondan da faciəlidir. Yoxsulluq, cır-cındır içində yaşamaq, başqalarında yazığı gəlmə, heyfsilənmə hissləri yaradır, mənəviyyatsızlıq isə özgələrdə acıq, hirs, qəzəb, nifrət ehtirasları coşdurur. Kasıblıq səfalət deyil. Mənəviyyatsızlıq isə səfalətdi. Şəfəq mənəviyyatsız deyildi, səfil deyildi. O, kasıb idi. Varidatı əlindən çıxmışdı. Ailəsi dağılmışdı. Tək, bircə balası əlindən alınmışdı. Ancaq mənəviy-

yatı, insanlığı özündəydi, Şəfəq təkcə yaşıdları üçün yox, özündən çox-çox yaşlılar üçün də örnək ola bilərdi. O, sözün həqiqi mənasında ismət və bəkarət dəfinəsidi. Dağ çiçəyi kimi ülviydi. Bulaq suyu qədər safıydı. O, insandan daha çox, mələkiydi. Başqalarının sevincindən ləzzət alan nəcib məxluquydu. Ancaq nə fayda? Üzərinə tökülən qalaq-qalaq dağlar ağırlıqda dərdi-sərin girdabında əzilirdi. Və bu sıxıntının sonu görünmürdü...

Məfkurə ilə Büllurə dərsdən qayıdanda gecə saat 12-ə qalırdı. Onlar birlikdə çay içəndən sonra Məfkurə üzünü Şəfəqə tutaraq bildirdi:

— Bacım, biz hər axşam dərsdə olacağıq. Otaqda tək qalmaq səni darıxdıracaq. Bezikəcəksən. Məsləhətim budu ki, sən də hazırlaşasan. Qarşıdan ali məktəblərə qəbul imtahanları gəlir. Özünü sınasan, pis olmaz.

— Qorxuram qəbul olunmayam.

— Burda qorxulu nə var ki. Otaqda işsiz-gücsüz niyə oturmalısan ki? Elm öyrənmək, oxumaq heç vaxt gec deyil. Bizim qrupda məndən nə az, nə çox, on-on beş yaş böyük qadınlar, kişilər var. Sənin nə yaşın var ki? Bizdən də uşaqsan. Şkafda kitablar var. Götür, oxu. Nədə çətinliyin olsa, soruş. Biz də bildiyimizdən...

Büllurə Məfkurənin dediklərinə qüvvət verərək:

— Rayondan, kənddən şəhərə hamı oxumaq, elm dalınca gəlir. Sən də gəlmisən. Nə vaxtadək fabrikdə işləməli olacaqsan. Sabahın işini bilmək olmur. Oxumaq mütləq lazımdı.

— Düz deyirsiz. Doğrusu cəsarət eləmirəm. Amma.

— Nə amma?

— Ədəbiyyatı lap uşaqlıqdan çox sevirəm. Deyirlər orda müsabiqə böyük olur.

Məfkurə:

— Olsun da. Bir halda ki, ədəbiyyatı xoşlayırsan. Səni o sahə üzrə hazırlamaq mənim boynuma.





Məfkurə ayağa qalxıb şkafın qapısını açdı. Oradan orta məktəb üçün “Azərbaycan dili”, “Ədəbiyyat”, “Tarix” və “İngilis dili” dərsliklərini götürdü. Stolun üstə qoydu. Şəfəqə həmin kitabları oxumağı tapşırdı. Bildirdi ki, hər bazar günü həftə arası oxuduqlarını Şəfəqdən soruşacaq. Əgər yaxşı hazırlaşmasa, tənbəllik eləsə... Şəfəq çiyinlərini çəkib gülümsündü. Sonra: — Oldu, — dedi.

Oxumaq, öyrənmək Şəfəqin də arzusu idi. Rəfiqələrinin təkidi, hər bazar günü onunla aparacaqları sorğu-sual ağlına da gəlməzdi.

* * *

Nəbinin dedikləri, Tubunun o günkü hərəkətləri, əxlaq pozğunluğunu qorxub-çəkinmədən, utanıb-qızarmadan, abır-həyasını, ismətini gözləmədən etiraf eləməsi Hümmətin gözlərində bacısının ən ağır, vicdansız, cinayətkar obrazını yaratdı. Öz-özünə düşündü: — Bir daha Tubunu toyuq kimi güdməyə, onun kimlərlə görüşüb haralara getməsini öyrənib qətiləşdirməyə ehtiyac varmı? Qətiyyən yox. Onun haqqı-sayını vermək üçün ağzından çıxanlar da kifayət elər. Bəs necə? Onu öldürməkmi? Necə? Harada? Anam buna imkan verəcəkmi? Yoxsa, anamın gözləri qarşısındamı? Aman Allah! Övladı ananın gözləri qarşısında doğramaq anaya qarşı xəyanət və cinayət deyilmi? Yox! Mən belə eləyə bilmərəm! Bəs harda?! Yaxşı tutaq ki, onu aradan götürdüm. Öz ayağımla özümü hüquq-mühafizə orqanlarına təhvil verdim. Bəs, ömrünün son çağlarını yaşayan anam?! Bəs, dilsiz-ağızsız oğlum necə olsun? Aman Allah! Öldürmək, fəlakət! Əl saxlamaq, papağı yerə soxmaq ondan da fəlakət! Neyləməli? Hümmət hara gedirdisə, nə iş görürdüsə, Tubunun hərəkətlərini heç cürə unuda bilmirdi. Üstəlik, heç harda işləməyən avara, tüfeyli həyat sürən bu qadın gələcəyini, anasını, qardaşı-

nı, atasının ruhunu düşünmədən səhər evdən çıxır, axşamlar evə qayıdırdı. Bəzən də elə gecələr olurdu ki, evə də gəlmirdi. Evə gələndə də telefondan asılı qalır, ananı, qardaşı adam saymadan kimlərləsə açıq-saçıq danışırdı. Özü də çalışırdı ki, Hümmət əsəbiləşsin. Hümmət içində götür-qoy eləsə də, daxilində planlar cızsa da, Tubuya heç bir söz demirdi. Oğlunun bu süst, söz-söhbətsiz münasibətlərindən, anlaşılmaz hərəkətlərindən ana da şübhələnirdi. Onun da ürəyinə dammışdı ki, ağır bir faciə bu ailəyə yaxınlaşmaqdadı. Bütün bunları duyan Qəhmər bir neçə dəfə qızına xəbərdarlıq da eləmişdi. Hər dəfə də Tubu "vaşş" eləmiş, "o, nə kişidi?", "adam öldürənə bax", — deyə istehza ilə gülmüşdü də.

Hümmət yorğun-arğın işdən gəlmişdi. Anasının hazırladığı şam naharını eləyib öz otağına keçdi. Paltarlarını soyunub çarpayısında uzandı. Nə vaxt yuxuya getdiyini bilmədi. Gecənin bir aləmində çalınan telefon zəngi onu yuxudan oyatdı. Çarpayısından qalxdı. Şalvarını geyinib dəhlizə çıxırdı ki, Qəhmər dəstəyi götürdü.

— Alo... Alo... Kim lazımdı?

— Hümmət.

— A bala, gecə saat üçdü. Hamı yatıb. Bu vaxt xeyirdimi?

— Bilirəm. Vacib sözüm var.

Elə bu vaxt alt paltarında Tubu da dəhlizə çıxdı. Qəhmər qızını belə görcək ona gözlərini ağartdı. O, anasının göz ağartmasını saya salmadan həyəcan içərisində soruşdu:

— Kimi istəyirlər?

Qəhmər dəstəyi Hümmətə verdi. Hümmət:

— Alo... Alo... Eşidirəm, — dedi. Mənəm, Hümmət.

Onu dərhal səsindən tanıdı və əsəbi halda dedi.

— Eşidirəm, qurtarmadıq, Saleh?!

Tubu Saleh sözünü eşitcək sanki ürəyi qırılıb ayaqları altına düşdü. O, bütün diqqətini Hümmətin danışığına yönəltdi. Zəng





çalan dedi:

— Hümmət, mənim adım Saleh deyil. Mən neçə vaxtdı vicdan əzabı çəkirəm.

— Səndə vicdan olmadığı halda, necə əzab çəkə bilərsən?

— Haqlısan, Hümmət. Mən sənə yalan demişəm. Mən Şəfəqi heç vaxt görməmişəm. Tanımıram. İndi sənə hər şeyi necə var elə də danışmaq istəyirəm. Məni axıra qədər dinlə.

— Eşidirəm.

Söhbətin uzandığını görən Tubu gedib xalatını əyninə çəkdi. Hümmət telefon danışığını dinləməyə başladı.

— Sənin ailənin dağılmasının baisi mənəm. Arvadının bədənindəki nişangahları, izləri mənə bacın Tubu demişdi. O zamanlar mən Tubu ilə təzəcə tanış olmuşdum. Onunla yaşayırdım, hər gün kef çəkirdim. Bacın məni məcbur elədi, sənə zəng çaldım. Vicdanımı satdım. Mənliyim ləkələndi. Heysiyyətim öldü. Bilirəm, bunu mənə Allah da bağışlamayacaq. Bir zaman qardaşına, qardaşı arvadına xəyanət eləyən, böhtanlar yağdıran Tubu indi də mənə xəyanət elədi. Hər gün neçə...

— Yaxşı. Tubu mənim arvadımın bədənində olan nişangahları hardan bilirdi?

Bu sözləri eşitcək Tubunu da, Qəhməri də vahimə bürüdü. Hümmət sözünə davam elədi:

— Düzünü de.

— Şəfəq xəstəxanadan gələndən sonra hamamda çimərkən bacın sənin arvadının kürəyinə kisə çəkib. Onda görüb Şəfəqin bədənindəki yara izini, xalı. Mən bunları sənə deməliydim gec-tez Hümmət. Yazıq Şəfəq günahsızdı.

— Aydındı. Sonra nə demək istəyirsən?

— Vicdanımı...

Artıq hər şey aydın idi. Neçə vaxtda Hümmət üçün gizli olan bir məsələ indi onun qarşısında öz-özündən açılıb tökülürdü. Əsəbdən, qəzəbdən Hümmətin gözləri az qala hədəqəsindən çı-

xacaqdı. Onun sərt, iti, nifrət dolu gözləri Tubunun gözlərinə dikildi. Əlindən iş gəlməz, kor-kəsməz sandığı qardaşı indi yırtıcı vəhşidən betər gəldi ona. O, biixtiyar qorxub geri çəkildi. Hümmət dərindən köksünü ötürdü. Bayaqdan bəri baş verənləri müşahidə eləyən, dayandığı yerdəcə tir-tir əsən, qorxudan dili-dodağı təpiyən Qəhmərə elə gəldi ki, bir an içərisində oğlu ölü bir cəsədə çevrildi. Ananın oğluna yazığı gəldi. Tubunun qışqırmağa, çığırıb-bağırmağa halı olmadı. Hümmət dərd-sərdən yana-yana, qəzəbdən qaynaya-qaynaya çılğın bir ehtirasla:

— Tubu! Gecənin bu vaxtında bizə zəng çalan Saleh kimdi?

— Hə... Hi... İi...

— Soruşuram səndən? Şəfəqin yanındakı yara izlərini, bədənindəki xalı ona deyən kimdi? Mənə zəng çaldırmaqda məqsədin nə idi?

— Saleh?.. Mən tanımıram. Bilmirəm.

— Şəfəqin kürəyinə bir dəfə kisə çəkməklə ailəni el içində rüsvay elədin. Çörəyimizə zəhər qatmaqla, bircə körpəmi yetim qoymaqla istəyinə nail oldunmu? Alçaq! Əxlaqsız bacı! İndi mənə baxa-baxa nə gözlərini döyürsən? Hansı üzlə mənimlə danışırsan? Yox, Tubu belə getməz. Sən ərindən də fahişəlik üstündə boşanmısan. Anam da hər şeyi bilə-bilə məndən gizləyib. Səni müdafiə eləyib. Üstünə qanadını çəkib. Şəfəqi günahkar sanıb. Sən demə, Şəfəqin günahları yoxmuş. Sən öz həyasızlığınla, alçaqlığınla mənim inamımı, həyata, yaşamağa olan ümüdimi sarsıtdın! Ədalətdən, həqiqətdən uzaq sözlərini eşitməkdən, ikili, maskalanmış hərəkətlərinə baxmaqdan bezmişəm! Bilirsən, ya yox?! Bezmişəm! Boynuna al ki, məni aldatmısan! Mənə yalan demisən! Sənin gedib-gələn nəfəsin də riyakarlıqdı, yalandı! Sən fəlakətsən! Sənə nifrət eləyirəm! Bax budur, sənin ləyaqətsizliyin! Şərəfsizliyin! Xəyanət cəzasız qala bilməz! Yox! İndi mənim əlimdən salamat qurtara bilməyəcəksən, Tubu! Sənin görən gözlərin çıxarılıb tökülməlidi! Danışan dilin kəsilməlidi! Sən bu gecə al-qan içərisində çabalamalısan, Tubu! Lənət sənin doğulduğun günə, min lənət!





Qəhmər titrəyə-titrəyə, dil-dodağı təpiyə-təpiyə:

— Hümmət! Oğlum! Başıma daş salma! And verirəm sənə, atanın ruhuna! Get arvadını da gətir, oğlum!

— Yox, ana! Tubu yaşamamalıdı! O gün Qulamrza kişi dediklərini eşitdinmi? Nəbi deyənlərdən də xəbərsizsən, ana! Ya mən, ya Tubu! Oğlumu sənə tapşırıram.

Hümmət söhbətin ardını gözləmədən iti addımlarla mətbəxə keçdi. Uzun tiyəli çörək bıçağını götürüb geri qayıdırdı ki, Qəhmər oğlunun yolunu kəsdi. Vəziyyətin ağırlığını başa düşən Tubu nə eləyəcəyini bilmədi. Heç bir şey fikirləşmədən qapını açıb evdən çıxdı. Hümmət anasını kənara itələyib onun ardınca qaçdı. Tələm-tələsik pilləkənləri enən Tubu yaxınlıqdakı dayanacağa üz qoydu. Orada kimsənin olmadığını görcək heç bir şey düşünmədən özünü yola atdı. Elə bu an sürətlə gələn xarici markalı minik avtomobili bir göz qırpımındaca onu vurdu. Tubu havada mayallaq aşıb maşının kapotu üstünə düşdü. Sürücü cəld əyləci basdı. Qadın bu dəfə sürüşüb avtomobilin altına düşdü. Maşın bir neçə metr onu sürüdü. Hər tərəf al-qan içində idi. Tubu artıq keçinmişdi. Sürücü hövlnak maşından düşüb Tubunun cəsədini qucaqladı. Hümmətlə Qəhmər sürücünün başı üstündə dayanmışdı. O: — Nə bəlaya düşdüm, İlahi? — deyə ani düşünüb ətrafına göz gəzdirdi.

Oğlunun ardınca qaçan Qəhmər qəfləti faciəni gözləri ilə görəndə qışqırmaq istədi, bacarmadı. İstədi gedib qızının meyitini qucaqlasın, oğlundan çəkindi. Bir an içərisində baş verən hadisədən Hümmət də özünü itirdi. Yerindəcə donub qaldı. İçindəki qasırğa, tufan hələ ötüb keçmədiyindən az qalırdı gedib bacısının meyitinə qəddarlıqla bir neçə bıçaq da vursun. Nə yaxşı ki, Hümmət tez özünə gəldi. Əlindəki bıçağı var gücü ilə yaxınlıqdakı ağaclığa tərəf tulladı. Bunu Qəhmərdən savayı heç kəs gör-

mədi.

Artıq hadisə baş vermişdi. Cinayət törənmişdi. Maşın qəzası nəticəsində Tubu ölmüşdü. Oğula, anaya o da aydın idi ki, bu cinayətdə Hümmət birbaşa olmasa da, günahkardı. Bu işin bircə şahidi vardı. O da ölənin, öldürmək istəyənin, başqa sözlə mərhumun, qatilin anası Qəhmər idi. Tubu nə qədər günahkar olsa da, ana indi iki yol ayrıcında qalmışdı. Ya günahkar, əxlaqı pozğun qızının qatilinin səbəbini açıb söyləməliydi, ya da ürəyinə daş bağlayaraq hər şeydən xəbərsizliyini deməliydi. Belə olanda, ana qızının qatilinin tərəfinə keçir, doğma balasının qanının batırılmasına bais olurdu. Neyləməli? Tale elə gətirmişdi ki, ananın iki övladından biri digərinin qatilinə çevrilmişdi. Hadisənin, qəzanın səbəbini açsa, səbəbkar övladı mərhum övladının ardınca getməli olacaqdı. Yox! Ana buna gedə bilməzdi. Ziyanın yarısından... Ana vəziyyəti anladıqca, hadisənin mahiyyətinə vardıqca, qəlbində iki hiss baş qaldırdı. Birincisi məmnunluq, ikincisi qəm, kədər hissi idi. Məmnunluq oradan gəlirdi ki, qızını bıçaqla doğramağa oğluna imkan verməmişdi. Qardaş əlləri doğmaca bacı qanına batmamışdı. Qəm, kədər isə ordan doğurdu ki, qızı qəza nəticəsində ölmüşdü. Ananı o da sıxırdı ki, qızının ölümünə bais günahsız sürücüdü. Hüquq-mühafizə orqanları həmin günahsıza cinayət işi açacaq, onu Tubunun qatili kimi cəzalandıracaqlar.

Hümmət anasını qucaqladı. Özünü itirmiş qadına yazığı gəldi. Sonra da: — Neyləyək, ana? — deyə soruşdu. Ana ümidini, inamını itirmiş kimi: — Meyidin sahibi bizik, — deyib çaşqın oğlunun qolları arasından çıxdı, tez də qızının al-qana boyanmış cəsədini qucaqladı. Hönkür-hönkür ağladı. Sürücü Hümmətə yaxınlaşdı:

— Qardaş, mənim bu işdə günahım yoxdu. O, özünü maşının qabağına atdı. Nə qədər çalışdımsa, maşını dayandıra bilmədim. Vurun boynumu! Öldürün məni!





— Yaxşı, yaxşı. Sonra...

Elə bu vaxt arxadan və qabaqdan tək-tək gələn maşınlar dayanır, sürücülər vəziyyətlə tanış olur, başlarını bulaya-bulaya, peşmançılıq hissi ilə geçirdilər. Beş dəqiqə keçməmiş polis maşını beş-altı addımlıqda dayandı. Maşından iki nəfər düşüb irəli gəldi.

Ucaboy polis kapitanı dedi:

— Meyidə dəyməyin. Üstünü örtün, çəkilin kənara.

Qəhmərdən savayı hamı kənara çəkildi. Polis kapitanı ratsiya ilə idarəyə və xəstəxanaya məlumat verdi. On-on beş dəqiqədən sonra təcili tibbi yardım maşını, cinayət axtarışı işçiləri gəldilər. Həkimlər Tubunu ölmüş görüb meyidi tibbi maşına qoyub apardılar. Hüquq-mühafizə işçiləri maşını, sürücünü dərhal yoxlamadan keçirtdilər. Avtomobilin Tubunu hansı məsafədən, necə vurduğunu müəyyənləşdirdilər. Sonra maşını da, sürücünü də götürüb özləri ilə apardılar. Hümmətlə Qəhmər evə gələndə Hikmətin səsi otağı götürmüşdü. Hər şeydən əli üzülən Qəhmər: — Ürəyimə dammışdı. Tufan baş verəcəyini bilirdim. Balam özünə elədi, — dedi. Qəhmər uşağı yatağından götürdü, onu adyala bükdü, sonra da Hümmətə üzünü tutdu:

— Belə də olmalıydı. Şəfəqin ahı tutdu onu. Yəqin ki, müstəntiq bizdən də soruşacaq. O, hardan gəlirdi, yaxud hara gedirdi? Başqa söz ağzından çıxarma. Bizə onsuz da olan olub. Soruşan olsa, deyək ki, guya şəhərdən gəlirmiş. Bizə zəng çalmışdı yoluna çıxaq. Biz də çıxdıq. O, yolu keçərkən təsadüfən hadisə baş verdi. Onu maşın vurdu.

— Ana, axı onu mən qovdum. Nəticə də belə oldu.

— Yox, oğlum. Bizim bir sözümüz olmalıdı. Tubu öldü, sən də həbs olundun. Sonrası necə olsun? Qurtardıq! Uşağı götür, gedək!

Hümmət körpəni qucağına aldı. Ana-bala qapıdan çıxdılar. Taksiyə əyləşib şəhər xəstəxanasına getdilər. Qəza yaradan

sürücünü həyətdə dayanan gördülər. Yavaş-yavaş, çəkinə-çəkinə onlara yanaşdı. Astadan, yalvarıcı tərzdə bildirdi:

— Mənim adım Şəmildi. Qoca anam xəstədi. Onun üstə həkim gətirmək üçün gedirdim. Arvadım işləmir. Üç azyaşlı uşağım var. Böyük bəlaya düşdüm.

Başı dumanlanan Qəhmər dedi:

— Biz şikayətçi deyilik. Səndə də günah görmürük. Kimlərsə çalışıb dərini soyacaqlar. Get, çalış özünü qurtar.

Hümmət:

— Bu, Allahdan gələn bəladı. Elə bizə də, sizə də. Anam düz deyir. Get, başına çarə qıl.

Səhərə az qalırdı. Hava yavaş-yavaş işıqlaşırdı. Qəhmərin xahişi ilə Tubunun meyidini tibbi yardım maşınına qoyub evə aparmağa razılıq verdilər. Maşın binanın girəcəyinə çatanda qonşulardan kimisi işə, kimisi dükan-bazara gedirdilər. Onlar qucağında uşaq Qəhmərlə Hümməti maşından düşən görcək təəccüblənirdilər. Hər səhər yataqdan qalxıb həyətdə təmiz hava alan Qulamrza kişi onlara yanaşıb soruşdu:

— Xeyir ola, a Qəhmər?

— Başıma daş düşüb. Axşam evə gələrkən Tubunu maşın vurub.

— Nə?

— Hə...

— Vəziyyəti necədi? Yoxsa, tibbi yardım maşını onun üçün gəlib?

— Hə. Tubunun meyidini gətirib. Maşındadı, götürmək lazımdı.

Qulamrza kişi: — Hə, bu saat, — deyib yaxınlıqdakı yaşıl meydançada səhər idmanı eləyən qonşu kişiləri səslədi. Sonra da işə, dükan-bazara gedən qonşulara bildirdi ki, Qəhmərgilin ailəsində ağır hadisə baş verib. Tubu maşın qəzası nəticəsində həlak olub. Onu evə qaldırmağa kömək eləyin. Qonşuların köməyi ilə Tubunun cəsədi evə aparıldı. Həmin gün axşama yaxın Tubu dəfn olundu. Hüzrdə iştirak eləyən adamların hər birinin başında təqribən eyni məzmunlu fikirlər dolaşırdı. “Bu, belə də olmalıydı”, “Həddini aşmışdı”, “Allahına bəndəlik eləmirdi”, “Belə övladın olmasından olmaması yaxşıdı”, “Tubunun əməllərini ancaq ölüm yuya bilərdi”, “Tubu bu binaya qara ləkə idi”, “Şəfəqi də o böhtanlayıb qovdu...”





Tubu getdi. Özü ilə “əməllərini” də apardı. Adamların onun barəsində yalnız təəssüratları qaldı.

* * *

Tubunun ölümündən bir neçə gün keçsə də, ana ilə oğul matəmli günlərin acı təəssüratlarından ayrıla bilməmişdilər. Ana da, qardaş da, bu böyük itki üçün yanıb-yaxılırdılar. Hər ikisi faciənin törənməsində özlərini günahkar sanırdılar. Qəhmər qızının tərbiyəsindəki qüsurları vaxtında görə bilmədiyi üçün özünü qınayırdı. “Qızını döyməyən, dizinə döyər”, “Döyülməyən düyüdən aş olmaz” kəlamlarını yüz dəfələrlə özlüyündə xatırlayırdı Qəhmər. Hümmət düşünürdü ki, mən Tubunu bacım olsa da, tanımamışammış. Əxlaqı naqis Tubu hansı oyunlardan çıxmadı? Aman Allah, onun hərəkətlərinə nə ad vermək olardı?! Tubu məni də, anamı da, özünü də məhv elədi. Niyə belə olmalıydı? Günahkar kimdi? Mən Tubuya qardaşam! Mən Qəhmərə oğulam! Nə olsun?!. Axı həqiqət də var. Bu işdə mən də, anam da günahkarıq. Təkrar eləyirəm. Anam qızını tanımalıydı. Qəbahətlərinin üstünə pərdə çəkməli deyildi. Günahlarını məndən gizlətməməliydi. Haqlı-haqsız o, Şəfəqə qarşı çevriləndə anam onu yığışdırmalıydı. Əksinə, mənim yanımda mübahisə olanda anam qızına dil verdi. Onu haqlı çıxardı. Düzünü desəydi, ana-bala ağa-qara yaxmasaydılar, mən Tubuya neyləyəcəkdim ki? Yox, ana, indi yanıb-yaxılırsan, dərin peşmançılıq hissi keçirir-

sən, özündə deyilsən, bilirəm. Dərd-sərin özünə bəsdi. Əlavə qəm-qüssə gətirsəm, Allah onu mənə bağışlamaz. Mənim günahımsa, daha böyükdü, ana! Əməllicə-başlıca onunla üz-üzə, diz-dizə oturub halı ilə, vəziyyəti ilə bircə dəfə maraqlanmadım. İşindən xəbər tutmadım. Hara, kiminlə getdiyi barədə düşünmədim. Xarakterindəki kobudluğu nəzərə almadım. Ona çox sərbəstlik verdim. Bu güzəştlərimizlə də onu bədbəxt elədik, ana! İndi də sən başlamısan göz yaşlarınla qəm-qüssəni, dərd-kədərini yumağa. Yox, ana, nahaq yerə elə fikirləşmə. Heç vaxt günahını yuya bilməyəcəksən. Mənim bacım, sənin qızın özünün ağılsızlığı, bizim səhlənkarlığımız ucbatından dünyasını ləkəli vicdanla, arsız, namussuz, ləyaqətsiz, şərəfsiz bir adla dəyişdi. Ana! O ləkəli adlar həm də bizimdi. Valideyn övlad tərbiyəsində məsuliyyət daşıyır. Atam yoxdu. Sanırdım ki, ona mənəvi ata ola bilərdim. Heyf! Çox heyf! Atalıq, qardaşlıq öhdəliyini yerinə yetirə bilmədim. Üstəlik, bir arvadımı da qoruyub saxlamağı bacarmadım. İnsan mənəviyyatındakı boşluğun doldurucusu yalnız vicdan dəfinəsidi. Hər hansı mənəvi boşluğu tıxacla qapamaq olmaz. İndi Şəfəqin ardınca mən necə gedim? Necə deyim ki, barəndə səhvə yol vermişəm, məni bağışla? Lap tutaq ki, getdim! Ondan üzr istədim! Şəfəq məni bağışlayacaqmı? O, bacımın əxlaqı pozğunluğunu yaxşı bilirmiş! Məni qeyzləndirməmək, evdə söz-söhbət yaratmamaq üçün o da hər şeyi məndən gizlədib! Yəqin düşünüb ki, Hümmət Tubunun qardaşıdı! Elə Hümmət də qeyrətsizdi! Hümmət də namussuzdu! Bəlkə də mənimlə ailə qurmasına, bir yastığa baş qoymasına yüz dəfələrlə peşman olub? Allah bilir. Axı, sən neylədin, Tubu? Bədən alverini özünə necə qıydın?! Anamıza, mənə necə rəva bildin?! Bunlar azmış kimi qardaşın arvadının bədəni barədə aşnalarına söz deməyi dilinə necə gətirdin? Gecə yarı mənə zəngləri hansı ağılla vurdurdun, Tubu?! Günahsız Şəfəqin ailəsinin dağılmasına hökm verəndə qardaşın balasının taleyini düşündünmü?!





Əməllərinin sonu barədə bircə dəfə fikirləşdinmi barı?! Yox! Sən şikəstsənmiş, Tubu. İndi mən ona yanıram ki, gözlərimin korluğundan sənin şikəstliyini görməmişəm. Bax, bunu özümə bağışlaya bilmirəm, bacı...

Mən həmişə Şəfəqə böyük sevgi, məhəbbətlə baxırdım. Ona olan mehribanlığımı, səmimiyyətimi sən hiddətə, nifrətə elə çevirdin ki, özüm də bilmədim! Mən alçaldım və alçaltdım! Bu nankorluğun, əxlaqsızlığın baisi sən oldun, Tubu! İnsafən, Şəfəq pis gəlin deyildi! Hissimi, duyğumu, istəyimi bildirməsəm də, mən onu sevirdim. Lap çox! İnsafən, o da məni sevirdi. Mənə olan məhəbbətini düzgün qiymətləndirmədim! Onu adam yerinə qoymadım! Elə bilirdim sevgi, məhəbbət həmişə yaşayacaq! Sevginin hüdudu aşılmazmış. Aşıldısa, sevgi öz-özündən xəyanət, nifrət doğurur. Xəyanət vicdan itkisidi!

Eh, fikirləşəndə dəli oluram. Yaxşı yadımdadı. Gəncə çayının sahilində Şəfəqin mənə dedikləri sevgi kitab deyil ki, oxuyasan; mahnı deyil ki, eşidəsən; musiqi deyil ki, duyasan. O, insandan çox-çox yüksəkdə dayanan pak duyğudu, ölməz ruhdu. Bu, doğrudan da beləymiş, Şəfəq. Heyf ki, bunu mən indi duyuram. Qadın həyatın özü imiş. Axırıncı dəfə sən evdən ayaq çəkib gedəndə, “Balamı verin, bir də bura gəlməyəcəm” deyəndə sənin gözlərində kin-küdurət, nifrət hissi alışıb-yanırdı. O nifrəti ancaq ölən sevgi, ancaq ölən məhəbbət doğura bilərdi. Hər dəfə yadıma düşəndə, o baxışları xatırlayanda dəhşətə gəlirəm. İndi sənə yaxınlaşa biləcəmmi? Səninlə kəlmə kəsməyə üzüm, iqtidarım olacaqmı?! Danışmağa gücüm çatacaqmı? Yox! O təmiz hissləri, pak, ülvi duyğuları özüm də bilmədən, anlamadan murdarladım. İndi sən yoxsan, Şəfəq. Allahım başımın üstündədi. Nə qədər peşmanam?! Nə qədər səni də, özümü də alçaltdım, Şəfəq?! Bağışla məni, əzizim! Bağışla!

Öz-özünə danışa-danışa, düşünə-düşünə ürəyi yumşaldı, qəlbi kövrəldi, gözləri yaşardı.

Qara çarşaba bürünən Qəhmər səssiz-səmirsiz divanda oturaraq öz aləminə dalmışdı. Onun üçün həyat qaranlıq bir zülmətə çevrilirdi. Ömrünün qürub çağında balalarına baxa-baxa yaşamaq arzusu gözündə qalan Qəhmər dünyadan da ağır dərd-sərin girdabında boğulurdu: — Sən doğulanda mən də bütün analar tək "qızım olub" deyə sevindim. Səni sinəmin üstündə böyütdüm. Sən ər evində olanda heç kəsə bir söz deməsəm də, oğuldan, gəlindən gizli saxlasam da, mənə ağır bir yük idin. Sən ər evindən çıxanda dünya elə bil başıma dolandı. Ananın nələr çəkdiklərini bilmədin. Evə vurulan kişi zəngləri hər dəfə məni əsəbiləşdirirdi, hiddətləndirirdi. Deməyə, danışmağa dilim söz tutmurdu. Qardaşın arvadını gecənin bir aləmində evdən çölə atdırdın... Yanıram. Hansını deyim? Birdimi? İkidimi? Üçdümü? Qəbahətlərini indi də dilimə gətirə bilmirəm. Günahsız, kimsəsiz Şəfəqə elədiyimiz sitəmlər çıxdı qarşımıza. Allahına bəndəlik eləmədin, qızım. Yaxşı, lap tutaq ki, əri gedib yalvarıb-yaxarıb Şəfəqi gətirdi. O, məndən səni soruşsa, nə deyəcəyəm? Hümmət arvadına nə deyəcək? Onun üzünə baxa biləcəyikmi? İnanıram ki, bu yaşda Allah məni də cəzalandıracaq! Hələ bu, nədi ki! Özün getdin, məni də ailə, qohum-əqraba, tanış-bilişlər içərisində xar elədin! Günümü görmüşəm, dövranımı sürmüşəm! Ələyim ələnib, xəlbirim göydə fırlanır. Məni düşündürən indi Hümmətin taleyidi. Ailəsinin, uşağının güzəranıdı. Allaha yalvarıram, məni də öldürsün. Bu fani dünyadan bir dəfəlik canımı qurtarım. Bundan sonrakı ömrüm heç kəsə, heç nəyə lazım deyil. Qoy, Allah qurtarsın məni bu bəladan...

Uşağın yan otaqdan gələn səsi Hümməti də, Qəhməri də öz aləmlərindən ayırdı. Qəhmər Hümmətə dedi:

— Qıçlarım ağrıyır. Özüm də yaxşı deyiləm. Qalx, uşağı gətir. Yəqin narahatdı. Neçə gündə yazıq uşağa düz-əməlli baxmamışıq.

Hümmət uşağı gətirib anasına verdi. Uşaq səsini xırp kəsdi.





Qəhmər sözünə davam elədi:

— Oğlum, sabah get arvadını gətir. Ayıbdı, günahsız gəlin qalıb qapılarda. Nə olar babasının evi olanda. Mən də yorulmuşam. Qalxıb otura bilmirəm.

— Gələcəkmi?

— Uşağı var, gələr.

— İnanmıram.

— Günahı nədir? Gəlməsə də, gətirməliyik. Minnətçi də düşməliyik.

Hümmət əvvəl çiyinlərini çəkdi. Sonra astadan pıçıltılı səslə — "Sabah gedərəm" — dedi.

* * *

Neçə müddətdi ki, böyük sarsıntı keçirən Hümmət yuxudan erkən oyandı. Olduqca əzgin idi. İdman edirmiş kimi əllərini böyürlərinə dirəyib bir neçə dəfə o yan-bu yana çevrildi. Göyün üzü tutqun olduğundan günəş görünmürdü. Hava da bulaş-bulaş olmuşdu. O, Göyçaya gedəcəyini axşamdan qərarlaşdırdığından fikirləşdi ki, gecikməyim, tez gedim, axşama da evə qayıdım, anam təkdi; qəm, qüssə, dərd, kədər içərisindədi. Bu məqsədlə də o, səhər naharını eləyib evdən çıxarkən anası yatan otağın qapısını astadan döydü. Anası: — Hə, bu saat, gəlirəm, — deyib ayağa qalxırdı ki, Hümmət: — Mən getdim, Şəfəqin ardınca, — dedi və otaqdan çıxdı. Avtobusa oturub birbaşa Göyçaya yollandı. Handa-bir Zeynal kişigilə gəlməyi olardı. Yol uzunu onu xəcalət təri bürüyürdü. O, Şəfəqin gözlərinin içinə necə baxacaqdı? Zeynal kişi deməyəcəkmi ki, bu nə ağıldı, bu nə hərəkətdi eləmisiz? Yaxşı, hər deyilən sözlə arvadı evdən çıxararlarmı? Tubu hərəkətlərindən utanıb-qızarırmı? Bəs, ağbirçək anan ailənizin dağılmasını necə rəva bildi? Arvadını gecənin bir aləmində çöllərə atan kişinin başına papaq qoymağa

haqqı varmı? Qovurdun-qovurdun, bizə niyə gətirmədin? Pulsuz-parasız, ac-susuz, əyni yalın arvadı qapıdan çıxararlarmı, a qansız?! Mən indi bu suallara necə cavab verəcəm? Birdən Şəfəq mənimlə barışmaq istəmədi. Bəs, onda neyləməliyəm? Keçmişimizi xatırlatsa, danışmağa dilim olacaqmı? Bəli, deyəcək! Özü də çox şey. Vicdanın ləkələnib, ləyaqətin, şərəfin alçalıb. Bacısının namusunu çəkə bilməyən kişidən mənə ər olmaz! İtil gözlərimin önündən! Rədd ol burdan! Mənə o ailədə gəlin kimi yox, nökər, qul kimi baxmısınız. Çox güman ki, Şəfəq bu və bundan da artıq sözləri mənə deyəcək. Belə olduqda üzüqara gerimi qayıtmalıyam?! Allah bilən yaxşıdı. Deyəsən, yenə Şəfəq barədə bədgüman fikirləşirəm. O, çox qürurludu. Düşünmədən danışan deyil. Başqalarının yanında məni sındırmağı özünə rəva bilməz...

Bu və buna bənzər fikirlər içərisində avtobusun Göyçaya nə vaxt çatdığını bilməyən Hümmət maşından düşüb pay-piyada xəcalət çəkə-çəkə, utana-utana gəlib Şapərigil yaşayan evin həyət qapısını döydü. Haçandan-haçana: — Gəlirəm, — deyə içəridən yetkin qız səsi eşidildi. Çox çəkmədi ki, qapını Şapərinin böyük qızı Ema açdı. Hümmətin üzünə utancaqlıqdan doğan zərif, xəfif bir qızartı çökdü. O, salam verib içəri keçmək üçün icazə istədi. Ema kənara çəkilərək: — Buyurun, — dedi. Hümmət həyətə keçdi. Həyətdə Emadan savayı kimsə yox idi. Bir anlığa ona elə gəldi ki, burda neçə vaxtdı heç kəs yaşamır. Şəfəq də bura gəlməyib. Sükunət və qayğısızlığa düçar olan həyət onu bir qədər sıxan kimi oldu. O, astadan: — Evdə kim var? — deyə soruşdu. Qız Hümmətin gəlişinin səbəbini aydın başa düşdüyündənmi, ona artıq-əskik söz demək istəmədiyindənmi çiyinlərini çəkdi. Hümmətə elə gəldi ki, qız onun dediklərini anlamadı və ona görə də sualını təkrarladı. Ema yalan danışmağın, Hümmətə cavab verməməyin mənasızlığını başa düşdü: — Qalxın eyvana, stulda əyləşin, anamla bacım qonşudadılar, xəstə yanına gedib-





lər, indi gələrlər, — dedi. Qız Şəfəqin adını çəkmədi. Hümmətin sanki ürəyi qırıldı. Öz-özünə fikirləşdi: — ”Bəlkə Şəfəq heç bura gəlməyib? Gəlməyibsə, o, hara gedib? Aman Allah, Şəfəqin başına bir iş gəlmiş olar? Əcəb işə düşmüşəm! Qara çuxam necə də yatıb, İlahi!“ Bu fikirlər içərisində əlacsız qalan Hümmət eyvana çıxdı. Stullardan birini çəkib oturdu. Cibindən papiros qutusunu çıxarıb bir dənəsini dodaqları arasına aldı, alışqanla yandırıb ürəyi yanırmış kimi sümürməyə başladı. Onun siqareti acgözlüklə çəkməsi Emaya qəribə göründü. Bir an içərisində qıza elə gəldi ki, o, papirosu çəkmir, dəlicəsinə sovurur. Bütün kamını, istəklərini, arzularını papirosdan alır. Qız istədi qəhqəhə çəkib gülsün. Ancaq özünü güc-bəla ilə ələ aldı. Sonra da: — Gözləyin, mən anamgili çağırım gəlsinlər, — dedi. Hümmət: — Hə, bir az tez elə, — deyə cavab verdi. Qız həyət qapısından çıxırdı ki, Şapəri qabaqda, Kəbiş də onun ardınca həyətə girdilər. Hümməti eyvanda görən Şapərinin üzündə məcburiyyətdən doğan təbəssüm sezildi. Onlar eyvana çıxdılar. Hümmət ayağa qalxdı. Əl verdilər. Şapəri dərhal Emaya çay hazırlamaq tapşırığını verdi. Özü də boş stullardan birində əyləşdi. Hümmət vəziyyəti soruşduqda Şapəri üz-gözünü turşutdu.

— Elə bilirəm, başımıza gələndən xəbərdarsan, ay Hümmət. Özüm də səndən bərk incimişdim. Fikirləşirdim ki, Zeynalın ölümünü eşidib Hümmət niyə gəlməsin?

— Nə? Zeynal əmi... Ölüb?! Vallah, indi eşidirəm.

— Hə... Allah rəhmət eləsin. Qəbri nurla dolsun. Kişi dünyasını dəyişəndən özümdə deyiləm. Allah gerisindən saxlasın, hər axşam mən də rəhmətliyi yuxuda görürəm, elə uşaqlar da. Şəfəq də yasda iştirak elədi.

Hümmətin sir-sifəti bozardı:

— Bəs, Şəfəq hanı?

— Dedi dalaşıb evdən çıxmışam. Bilmirəm, yalandı, ya gerçəkdi onun sözü.

— Düz deyir. İndi o, hardadı?

— Nə qədər elədimsə, xeyri olmadı. O, uşaqlıqdan tərsdi. Nə ağlına gəlir, onu da eləyir. Çox dedim, a bala, adam dalaşar da, evdən çıxar da, sözümə baxmadı. Nə deyəsən, beləsinə? Qonşuluqda bir yetimçə, dələduz oğlan var. Qoşuldu ona getdi.

Hümmət ilan vurmuş kimi atıldı.

— Hara? Nə oğlan?

— Bakıya. Eh, cəhənnəmə getsin.

Yalançılığın, ikiüzlülüyün, riyakarlığın bütün mahiyyətinə, cizgilərinə mükəmməl yiyələnmiş Şapəri elə ürəklə, elə səmimi, elə canıyananlıqla danışırdı ki, ona inanmamaq olmurdu. Heç bir tərəddüd, heç bir ümid yeri qalmırdı. Hümmət əvvəl qulaqlarına inanmadı. Başında gurultu duydu. Qanı coşdu. Bədəni titrədi. Bunu görən Şapəri təskinlik verirmiş kimi böyük hiyləgərliklə əlavə elədi:

— Özünü ələ al, ürəyini sıxma. Sənə nə var? Sən kişisən. Atalar deyib: "Oğlum oğul olsun, ona qız tapılmasın". Sən də elə. Cavan oğlansan. Onun acığına sən də get evlən.

— Bakıdakı ünvanlarını bəlkə biləsiz?

— Yox! Allah üzünə tüpürsün. Bizi də xəcalətə verdi el-oba içində.

Hümmət Şapərinin dediklərini daha eşitmirdi. Əslində, heç dinləmək də istəmirdi. O, qəflətən ayağa qalxdı. Pilləkənləri enə-enə nəsə donquldandı. İti addımlarla həyət qapısından çıxdı. Vağzala gedib Gəncəyə qayıtmaq üçün avtobusa oturdu. Əlləri ilə başına açdığı müsibətlərdən, atıldığı ünyetməz dərənin zülmətindən çıxış yolu tapmayan, keçmişinə qayıtmaq ümid və inamını itirən Hümmət nə düşündüyünü bilmirdi. Sakit, donuq halda oturan Hümmətin qəflətən içərisində "Mən alçağam", "Mən başıma öz əllərimlə oyun açdım", "Mən sərsəriyəm", "Mən dəliyəm", "Mən nifrət və lənətə layiqəm", "Eh, mənfur bacı", — deyə dəhşətli tufan qopdu. Bu tufanda yaranan iç titrəmələri





Hümmətin bədənini ürpədirdi. İçəridən gələn səslər əsəbdənmi, daxili yanğıdanmı getdikcə gərilirdi. Hümmətin sir-sifəti bozarırdı. Gözləri hədəqədən çıxırdı. Adama elə gəlirdi ki, için-için yanan Hümmət ilan kimi qıvrılırdı. O, çox çəkməyəcək yanında oturanlardan birinin üstünə atılacaq, öz yanğısını çıxarmağa çalışacaqdı. Ancaq nə fayda? Bunların heç biri başına gələn müsibətlərdən, faciədən çıxmaqda ona kömək eləyə bilməzdi. Şapərinin çox soyuqqanlıqla, hədsiz biganəliklə söylədikləri Hümməti dəhşətə gətirirdi. Bu qadının insan taleyinə, özü də ögey də olsa, nəvəsinə qarşı bu qədər etinasızlığı Hümmətin gözləri önündə davakar, namus və vicdan oyunbazı, fahişə bacısı Tubunun iyrənc obrazını yaratdı. Şəfəq barəsində dediyi sözlərə görə istədi avtobusdan düşüb qayıdıb Şapərinin üzünə "tüpürsün, sən də əclafsan, iftiraçı və böhtançısan", — desin. Onu bolluca təhqir eləsin, itə ünvanlanacaq sözləri ona söyləsin, onu lənətləsin.

Hümmət yanırdı, alışırdı, için-için əriyirdi.

Ədalətli, alicənab, səviyyəli olmaq hələ qəbahətsiz, günahsız və bacarıqlı olmaq deyil. İnsan bəzən elə qəbahətlər törədir ki, onu heç bir vəchlə yumaq, təmizləmək olmur. Belə hallarda insan əgər həqiqətən də insandırsa, vicdanı qarşısında çökür, alçalır. Özü-özünü vicdanının mühakimə kürsüsünə qaldırır. Özü mühakimə eləyir, hökm çıxarır. Hələ bu, vicdani təmizliyə tam dəlalət eləmir, gərək çıxarılan hökm tətbiq olunsun. Cinayətkar cəzasını alsın. Belə bir vicdan Tubuda, Şapəridə ola bilməzdi. Onlardan belə bir əxlaqi dəyər ummaq üfunətli suda şəffaflıq, təmizlik axtarmaq kimi bir şey idi. Tubunun faciəli ölümü bütün qəbahətlərini, günahlarını özü ilə çəkib əbədi dünyasına apardı.

Hümmətin ümidi qırılırdı. İnsanlara inamı itirdi. Mənfur yalanlar bəzən ürəkdən inandığı, cani-dildən pərəstiş elədiyi Allaha olan etiqadına da tərəddüd yaradırdı. Sonra da Allahdan asiliyi üçün özündə peşmançılıq duyur, öz-özünü danlayır, məzəm-

mətləyirdi.

*   *   *

Hümmət tək-tənha qalmışdı. Dumana, çənə bürünmüş halda hara getsin, nə iş görsün, dərd-sərini kiminlə bölüşdürsün, heç özü də bilmirdi. Evə gələndə onu qapı ağzında anası qarşıladı. Hümmətə bıçaq vursaydın, bir damcı qanı çıxmazdı. Sir-sifəti bozarmışdı. Qəhmər oğlunu heç vaxt belə görməmişdi. Hümmət ayaqqabılarını soyunub öz yataq otağına keçdi. Oğlunu otaqda görməyib tez də geri qayıtdı. Anası olan otağa keçib oğlunun beşiyi yanındaca dayandı. Uşaq ağlamasa da yatağında oyaq idi. Yatmamışdı. Hümməti görcək uşağın diqqəti ona dikildi. Atanın ürəyi yumşaldı. Oğlunu qucağına aldı. İlk dəfə görürmüş kimi sir-sifətinə tamaşa eləməyə başladı. Ağzı, burnu öz ağız-burnuna oxşasa da, alnının genişliyi, balaca ağzının böyüründəki cizgilər, yastı çənəsi eynən anasınınkına bənzəyirdi. Şəfəq bu evdən gedəli uşaq böyüdüyündənmi, nənəsinə, atasına isinişdiyindənmi, anasını unutduğundanmı o qədər də ağlamırdı. Əksinə, adama irişir, üz-gözündə zərif, xırda təbəssümlər duyulurdu. Bu, Qəhməri də, Hümməti də sevindirirdi. Ata uşağın yanaqlarından öpdü. Üzünün xırda, gödək cod tükləri uşağın yanaqlarını daladığındanmı, ya nədənsə ağız-burnunu büzüşdürdü. Elə bu vaxt Qəhmər bir əlində çay dolu stəkan, o biri əlində qənddan içəri girdi: — Uzaq yol gəlmisən, gəl iç, indicə yemək də hazır olar, — dedi. Hümmət anasına nə “hə”, nə də “yox” — deyə bildi. Anası məcbur olub bir də dediklərini təkrarladı. Hümmət uşağı anasına verdi. Keçib stulda əyləşdi. Qəhmər bir az ara verəndən sonra astadan soruşdu:

— Şəfəqin ardınca getmişdinmi?

— Getmişdim.

— Bəs nə oldu? Gəlmədi?





— Zeynal kişi dünyasını dəyişib.

— Allah ona rəhmət eləsin. Pis kişi deyildi. Şəfəqi də çox istəyirdi. Heyf! İş elə gətirdi ki, kişi nəticəsini görə bilmədi. Yaxşı, demədinmi ki, balam, xəbərimiz olmayıb?

— Dedim, ana, niyə demədim ki.

— Yəqin Tubunun da qəzaya düşməsini səndən eşitdilər. Uzaq yoldu, xəbər aparıb-gətirən kimdi ki. Yaxşı, Şəfəqin gəlməsi nə vaxta qaldı?

— Tubu barədə söhbətimiz olmadı. Şəfəq daha gəlməyəcək.

— Niyə? Gərək uşağını aparıb göstərəydin ona. Anadı dözməyəcəkdi, özü gələcəkdi. Eybi yoxdu, Zeynal kişinin də, Tubunun da qırxı çıxsın, bir gün uşağı da götürüb gedərik. Mən də minnət elərəm.

— Ehtiyac yoxdu, ana.

— Axı nə deyir?

— Şapərinin deməsinə görə, babasının ölümündən sonra qonşuluqda yaşayan bir yetimçəyə qoşulub gedib.

Qəhmər tutuldu, səbirsizliklə:

— Hara? Niyə?

— Mən nə bilim hara? Ərə.

— Ola bilməz. Mən inanmıram. Əvvəla, Şəfəq səni çox istəyirdi. İkincisi, o babasının ölümündən sonra belə tez ərə getməz. Üçüncüsü də o, anadı oğlum, uzun müddət körpə balasını başından çıxara bilməz. Onun yadına ərə getmək düşməz. Mən inanmıram. Bu da Şapərinin bir hiyləsidi. Üzünə baxanda adamı vahimə bürüyür. İnsanlıqdan çox iblislik yağır onun sir-sifətindən.

— Tubu kimi, eləmi?

Ana tutuldu. Sifəti pambıq kimi ağardı. Dodaqları səyriyə-səyriyə dilləndi.

— Hümmət, Tubu nə qədər nanəciblik, nadürüstlük eləmiş olsa da, gərək barəsində mənim yanımda danışmayasan, oğlum!

Axı mən anayam! Mənim də analıq hissim, analıq duyğum var, oğul!

— Məni bağışla, ana! Tubunun ailəsi dağılanda sən gördün ki, mən onu nə qədər hörmətlə, izzətlə qəbul elədim? Onunla sözləşməsinin üstündə Şəfəqi nə qədər danladım-dansadım, ağlatdım. Onu məcbur eləyən nə idi ki, başqasını öyrədib gecə yarı mənə dəfələrlə zənglər çaldırsın? Adı təmiz, özü təmiz Şəfəqin ləyaqətinə, şərəfinə toxundu! Onun mənliyini tapdaladı! Bəxtimi, taleyimi qara gətirdi! İnsanlara inamımı qırdı! Bəlkə o, Şəfəqi də öz ardınca çəkmək istəyib? Şəfəq razılaşmayanda, onu böhtanlayıb, evdən qovulmasına nail olub?

— Tubu ölüb, haqq dünyasındadı. Şəfəq də burda yoxdu. Mən nə deyə bilərəm ki?

— Eh, ana! Bu işdə sənin də günahların böyük oldu.

Söhbətin bu yerində qapı döyüldü. Hümmət gedib qapını açdı. Pəri ilə orta yaşlı bir qadın qapı ağzında dayanmışdılar. Hümmət əvvəl Pərini tanımadığından diqqətlə onun üzünə baxdı. Pəri gülümsündü və: — Olarmı? — dedi. Hümmət onu indicə tanıdı. Onun da üzündə yüngülcə təbəssüm yarandı. Dərhal: — Niyə olmur, Pəri bacı, həmişə siz gələsiz, keçin, keçin içəri, — deyə cavab verdi. Qonaqlar otağa daxil oldular. Pəri əlindəki selofan torbanı qapıdan içəri girən kimi divarın dibinə qoydu. Gələnlər Qəhmərlə də tanış oldular. Pəri onunla gələn qadını göstərərək: — Qaynanamdı, — deyə bildirdi. Sonra da Şəfəqi soruşdu. Qəhmər də, Hümmət də eyni anda: — Babası rəhmətə gedib, rayonda yasdadı, — deyə cavab verdilər. Onları ötəri təəssüf hissi bürüdü. Sonra da dedilər:

— Bilməmişik. Yoxsa, elə biz də...

Qəhmər gəlininin evdən çıxmasını gizlətdi. Anasının bu hərəkətindən Hümmət də məmnun oldu. Elə bu vaxt Hikmət yan otaqda ağlamsadı. Pəri dərhal:

— Aa, Şəfəq körpə uşağı evdə qoyub gedib? Ağıla bax ey.





Siz buna necə razı olmusuz?

Hümmət öz-özünə dedi: Biz də belə ağıl sahibiyik. Südəmər uşağı əlindən alıb ananı çölə atmışıq. İndi də ikisifətlilik, riyakarlıq eləyərək yalan danışmalı oluruq. Görəm, bu yalanlarla kimi aldadırıq? Pəri və onun qayınanasını, yoxsa, ana-bala özümüzü? Hümmət gedib oğlunu yan otaqdan qucağında gətirdi. Pəri uşağı aldı. O üzündən, bu üzündən öpdü. Gətirib qayınanasına göstərdi. Bu qadın da uşağı qucağına aldı. Uşaq nabələd adamlarda qalmaq istəməyib ağlamağa başladı. Qəhmər uşağı qadından aldı: — Yamanca kürdü, — deyə ayağa qalxdı, onu divana qoydu. Oyuncaqlarını yanına yığdı. Uşaq oyuncaqları görən kimi ağlamasını kəsdi. Ayını götürüb atı, keçini, qurbağanı qoyurdu. Pəri Hikmətin hərəkətlərinə baxaraq:

— Ay Allah, buna xalası qurban. Nə yaxşı oğlandı. Atasının-anasının balasıdı. Qoy, ana gəlsin, Pəri xalan onun başına oyun açacaq. Onu "ak" eləyəcək. Görüm səni niyə evdə qoyub gedib.

Qəhmər çay hazırlamaq üçün mətbəxə keçirdi ki, Pəri ona aman verməyib dilləndi:

— Qəhmər xala, zəhmət çəkməyin, yeyib-içib gəlmişik, heç bir şeyə ehtiyacımız yoxdu, indi gedirik. Gəldik görək Şəfəq də, körpə də necədilər. Allah qoysa, zəngləşərik, Şəfəq yasdan qayıdandan sonra gələrik. Həm ona başsağlığı verərik, həm də hal-əhval tutarıq.

— Axı...

— Narahat olmayın. Başqa vaxtı.

Nə Qəhmər, nə də Hümmət Tubunun ölümü barədə söz açdılar. Şəfəq evdə olmadığından Pərigil çox oturmağı yersiz sandıqlarından tez də ayağa qalxıb getməli oldular. Xudahafizləşərkən Pəri Hümmətə zarafatla bildirdi:

— Hümmət qardaş, unutdum, oğlun barədəki sözümüz sözdü, Şəfəq də bilir. Qız Hikmətindi.

— Allah xoşbəxt eləsin.

Otağı yüngülcə gülüş səsləri götürdü.

* * *

Bir neçə gün idi ki, müstəntiq Tubunun ölüm işi ilə əlaqədar gah evə gəlir, gah da Hümmətlə Qəhməri öz otağına çağırırdı. Hər dəfə də "Gecə yarı Tubu hardan gəlirdi?", "O nə əməlin sahibi idi?", "Necə olmuşdu ki, siz onun yoluna çıxmışdınız?", "Sürücü Şəmi onu qəsdən vurmayıb ki?", "Son zamanlar Tubu kimlərlə əlaqə saxlayırdı?" və başqa suallara cavablar axtarırdı. Hər dəfə də qoyulan suallara eyni cavabları alırdı. Axır ki, sonuncu dəfə müstəntiq üzə durdu: "Sürücüdən şikayətçi deyilsiz ki?" Əslində, bu gedib-gəlmələr, aparıb-gətirmələr bircə şeyə xidmət eləyirdi — Şəmidən doyunca pul qoparmaq. Hümmət əsəbi halda dedi:

— Qardaş, yüz dəfə eyni suallara cavab vermişik. Adamımızın qəzaya düşdüyünü az qala bizə unutdurduz. Yüz dəfə mısmıs eləyincə bir dəfə kişi kimi "Mustafa" deyə bilməzsiz? Yoxsa, ona kişiliyiniz çatmır? Deyirik ki, biz Şəmidən şikayətçi deyilik. Qəza təsadüf nəticəsində baş verib. O kişidə günah yoxdu. İndi qandınızmı?

Müstəntiq dərin fikrə getdi. Əlini keçəl başına çəkdi və bildirdi:

— Gedə bilərsiz...

Bu Hümmətlə Qəhmərin müstəntiqlə son görüşü oldu.

* * *

Hüzn yerinə gəlib-gedənlərin ayağı evdən çəkilmişdi. Yeni söz, yeni fikir yox idi. Çox zaman da ana-bala arasında söhbətin yaranmasına səbəb uşaq olurdu. "Acdı", "Susuzdu", "Bələyi açılmalıdı", "Yuyulmalıdı", "Yatmaq istəyir", "Çimizdirmək





vaxtıdı" kimi cümlələrlə fikirlərini bir-birilərinə çatdırırdılar. Sonra da yenə hər kəs öz otağına çəkilir, ruhlarına uyğun dastanlarını yaradırdılar. Hər ikisi də bir-birindən xəbərsiz. Qəhmər də, Hümmət də özlüklərində bilirdilər ki, bu hal uzun çəkə bilməz. Bunun sonu olmalıdı. Adi günlərdən biri idi. Səhər naharından sonra Qəhmər astadan oğluna:

— Hümmət, oğlum, ölənlə ölmək olmaz. Sənin məndən xəbərin yoxdu. Vallah, gücüm, taqətim tükənib. Dərd-sər də məni için-için yeyir. Hər gün səhər-axşam səni görəndə tutqun, küskün üzünə, çatılmış qaşlarına baxanda yüz dəfələrlə ölübdiriliрəm. Bilirəm, bu işdə mən də günahkaram. Yaxşı, vur məni öldür. İtirdiklərimiz yerinə qayıdacaqmı? Yox. Mən məsləhət bilirəm bir də arvadının ardınca gedəsən. Bəlkə, Şapəri də o zavallıya nağara qoşub? Bədbəxt qızı bədbəxt. O da dərd-sər üçün doğulub. Haranın şər işi var, qan-çirkabı var, hamıdan tez onun üstünə axır. Get, oğlum, get, arvadını gətir.

— Yox, ana! Yox!.. Şəfəq gedibsə, geri qayıtmaz. Qab düşdü, ya sındı, nə fərqi var — eyni səs çıxarır. Eşidənlər üçün hər ikisi bir şeydi, ana! Vallah, onu böyük Yaradan da adama bağışlamaz.

— Yaxşı, indi fikrin nədi?

— Nə olacaq? Oturmuşuq öz evimizdə. Bir tikə tapdığımızdan yeyirik, yaşayırıq.

— Yox, oğlum! Bu, yaşamaq deyil. Ömrümün sonuna az qalıb. Bu gün varam, sabah yox. Mənə rəhmin gəlsin. Kimi deyirsən gedək, "hə", "yox"unu kəsək. Axşamların birində də qolundan tutub gətirək evə. Bu iş təkcə bizim başımıza gəlməyib ki?

— Ana, bilirəm, uşaq səni bezdirib. Bu yaşda onu yedirtmək-içirtmək, alt-üstünü təmizləmək, yuyundurmaq, yatırtmaq, oynatmaq sənin üçün çətindi. Mənə fikirləşməyə imkan ver.

Qəhmər söhbətin ardını uzatmadı. Otağa sanki qəbir sükunəti

çökdü. Bir azdan Hümmət ayağa qalxdı. Paltarlarını geyib iş yerinə yollandı.

* * *

Tubunun ölümündən altı aydan artıq vaxt keçirdi. Qəhmər qızının yoxluğuna yanıb-yaxılsa da, Hümmətin bacısına olan hissiyyatı getdikcə korşalırdı. Onu sarsıdan bacısının ölümündən çox, bu qadının insani hisslərini itirməsi idi. Ən yaxın adamlarına belə utanmadan, çəkinmədən, qorxmadan, vicdanının səsinə qulaq asmadan böhtan və iftiralar yağdırması idi. Hümmətin aləmində yalan danışmaq, böhtan atmaq nəinki qadın, elə kişi üçün də bağışlanmaz idi. Onda qala bədən alverinə qurşanmaq. Beləlİəri tək özünə, ailəsinə deyil, bütövlükdə yaşadığı cəmiyyətə qara bir ləkədi. Onun kimilərə güzəştə getmək böyük fəlakətlərə gətirib çıxarır. Nəticə də göz qabağındadı. Allah bilir, Tubu hələ neçələrini yoldan çıxarıb, arvadları ərsiz, ərləri arvadsız qoyub. Neçə-neçə uşaq yetim qalıb. Bütün bunları götür-qoy eləyən Hümmət heç cür Tubuya güzəştə gedə bilmirdi. Əksinə, fikirləşdikcə bacısının ölümünə zərurət kimi baxırdı. Qızının ölümünə oğlunun münasibəti ananın da nəzərindən qaçmırdı. Ana bəzən özlüyündə oğlundan küsür, inciyir, bəzən də Hümmətin münasibəti ilə barışırdı. Elə olurdu ki, Qəhmər evdə oturub öz-özünə doğulduğu, bu dünyaya gəldiyi üçün nifrin yağdırırdı. Bəzən Allahdan da şikayətlənirdi:

— Bu vəziyyətə salacaqdınsa, məni niyə yaradırdın, İlahi? Mən gözümü açandan əzab-əziyyətlərə qatlaşaraq halalca çörəyimi çıxarmışam. İki övladımı dolandırmışam. Vəziyyət elə gətirib ki, bu yaşımda danışmağa dilim yoxdu. Başım aşağıdı. Adamların üzünə baxa bilmirəm. Yaşamaq istəmirəm. Özüm-özümü hər gün yeyirəm, didirəm, parçalayıram. Nədi bu ağrı, nədi bu acı...

Son günlər balaca Hikmət yavaş-yavaş iməkləyirdi. Hikmətin bu hərəkətləri Qəhmərə də, Hümmətə də böyük sevinc gətirirdi. Onların neçə vaxtda çəkdikləri ağrı-acılarını xeyli yüngülləşdirir, dərd-sərlərini götürürdü, evə gülüş gətirirdi.



Ağarəhim Rəhimov Əsərlər

* * *

Səhər yatağından qalxanda Hümmət anasının yatdığı otaqda xırıltılı səs eşitdi. Əvvəl ona elə gəldi ki, anası yatıb. Bu səs də xorultudu. O, yuyunub qurulanırdı ki, anasının “Hümmət... oğlum” deyə sözlərini eşitdi. O, dərhal anası yatan otağa keçdi. Ana əllərini ürəyinin üstə qoyub uzanmışdı. Onun alnını, üzünü soyuq tər damcıları bürümüşdü. O, istədi anasını qucaqlasın, Qəhmər zarıltılı, xırıltılı səslə: — Qaldırma, ürəyimdi, — dedi. Anasının vəziyyətinin ağırlığını görcək o, telefona tərəf qaçdı. Dəstəyi götürüb təcili yardıma zəng çaldı. Yarım saat keçmiş ağ xalatlı iki qadın evə gəldi. Qəhmərin qan təzyiqini, ürəyinin döyüntüsünü yoxladılar. Ürəyinin kardioqramını çıxartdılar. Həkim təcili yardım göstərdi. Sonra da Hümməti dəhlizə çəkərək: — Artıq gecdi, yerdən tərpətmək olmaz, — dedi. Hümmət sanki qulaqlarına inanmadı. İstədi həkimə desin: “Sən nə danışırsan, sən yaxşı müayinə eləməmisən”. Ancaq həkimin üzündəki ciddiyyət, səsindəki səmimiyyət onu düşündüyünü deməkdən çəkindirdi. Qadın Hümmətin həyəcanlandığını görüb dedi:

— Oğlum, özünü aldatma. Mən anana təcili yardım göstərdim. Bu yaxınlıqda xəstə var. Onu da yoxlayım. Qayıdan baş burdan gələcəm. Sən qohum-əqrabana xəbər ver. Özün də hazırlaş.

Həkim məsləhətini verib otaqdan çıxdı. Hümmət qonşuların qapılarını döydü, anasının xəstələnməsini onlara çatdırdı. Sonra da qayıdıb özünün iş yerinə zəng çaldı, işə gedə bilməyəcəyinin səbəblərini açıqladı.

Günortaya az qalırdı. Qonşular yığışıb gəldilər. Qəhmərin yanındaca oturdular. Qəhmər: — Hümmət, — deyə çağırdı.

Hümmət anasının əlini əllərinə aldı. “Can”, — deyə anasının gözlərinin içinə baxdı. Anasının iti, həsrətli, nigaran baxışlarından yaşamağa olan həvəsini duydu. Sonra anası xırıltılı səslə qonşulardan halallıq istədi: — Şəfəqlə barış, bala, — deyə oğluna son vəsiyyətini elədi və gözlərini əbədi yumdu.

* * *

Ömür yolunu addadıqca qara bir kölgə, gözə görünməyən anlaşılmaz bir maneə qəflətən yolunu kəsir, səni başqa cür düşünməyə, başqa cür fəaliyyət göstərməyə məcbur eləyir. Bəzən necə hərəkət eləmək lazım gəldiyini bilmədiyindən çaşıb qalırsan. Çox fikirləşib ən pis, yaramaz, sarsaq yolu tutursan. Bu dəfə Hümmət də öz yolunu dəyişdi. Ağlagəlməz səhv addımını atdı. Anasının ölümündən sonra Hümmət bir yaş iki aylıq oğlunu uşaq evinə verdi və yaşadığı evi satıb özü də şəhərdən çıxdı.

* * *

Xeyli müddət idi ki, Şəfəq gündüzlər fabrikə işləməyə gedir, axşamlar universitetin filologiya fakültəsinə qəbul imtahanları vermək üçün ciddi hazırlaşırdı. İşdə də, yataqxanada da qızlarla cani-dildən əlaqə saxlayır, rəfiqələri ona bacardıqları qayğını göstərirdilər. Onu tanıyanlar tərəfindən rəğbətlə qarşılanırdı. O, indi açıq-açığına dərk eləyirdi ki, ömrün yolları qarma-qarışıqdı. Hər yolun da öz hamarlığı, narahatlığı, sərt dolanbacları, dar künc-bucağı, qaranlıq döngələri, ağlagəlməz, təsəvvürolunmaz ayrıcları var. Onlardan da çoxlu sayda cığırlar uzanıb gedir. Bu nabələd yolları, cığırları keçərkən adam nələrlə qarşılaşacağını heç ağlına da gətirmir. Yatanda yuxusuna da gəlmir. Qəribədi, getdikcə gedir, addadıqca addayır. Hər yol, hər cığır bir adamın ömür yoludur. Bu yol kimisinə hamar, kimisinə də uçurumlu qayaların zirvəsindən addayan dəhşətli qorxu, dəhşətli təlaş, dəhşətli təşviş, dəhşətli vahimə kimi görünürdü. Şəfəq öz yolunu addadıqca onu gah qaranlıqlar içərisində təlatümlü bir qasırğa, tufan, gah da zülmətlər qoynunda işıldaquş böcəyinin işartısına bənzər ümid işığı yaxalayırdı. Oğlu barədəki əzab-iztirabları nəzərə alınmazsa, indi onun həyatının, ömrünün işartılı dövrləri başlanırdı. O, heç bir şeyin fərqinə varmadan həyata ümid, insanlara inam dolu ömür yolunu qürurla, cəsarətlə addımlayırdı. Şəfəq az müddət ərzində Bakı kimi böyük, izdihamlı, qaynar bir şəhərdə yaşayış məskəni və iş tapdığı üçün Əsəd kişiyə, Qumru qarıya, Mətanətə, Cavada özlüyündə dönə-dönə təşəkkürünü bildirirdi. O: — Allah bir tərəfdən bağlayanda, o biri tərəfdən açır, — deyə düşündü. Əslində, Şəfəqin keçmiş həyatı ilə indiki həyatı arasında o qədər də fərq yox idi. Yeganə fərq keçmişdə uşaq idi, özünün uşaqlıq aləmini yaşayırdı, baş verənlərə sadəlövh eynəkdən — uşaq düşüncələrindən baxırdı. O zamanlar arxalandığı şəxs qoca, kasıb babası idi. İndi isə o, böyümüşdü, ana olmuşdu, dərrakəsinin açıq gözləri ilə baxmağı bacarırdı. Ətrafında cərəyan eləyənləri, qarşılaşdığı hadisələri hiss və idrakının gücü ilə təhlil eləyə, nəticələr çıxara bilirdi. Özü üçün böyük arxa, dayaq sandığı, məsləhətkeşi əzizxələf babasını itirmişdi. Bu itki onu həddən-ziyadə sarsıtmışdı. Bunun üçün o, yanıb-yaxılırdı. Özünü kimsəsiz, tənha sanırdı. Şəfəqə elə gəlirdi ki, o, ucsuz-bucaqsız səhrada hər gün üzü boz, sərt küləklərlə, acı qovğalarla üz-üzə təkcə dayanan qol-budaqları qırılmış köksüz-filansız içi boş bir ağacdı. Taleyi təsadüflərin burulğanında o yan-bu yana çırpılır, nə vaxtsa, məhv olacaq, ömür karvanı hardasa, çox çəkməyib dayanacaq, yaşadığı bu əzabkeş, fani dünyası ilə bir dəfəlik vidalaşacaqdı. Ümidsiz, inamsız yaşadığı həyat gənc Şəfəqin mənəviyyatını, iradəsini az qala qırırdı. Gənc olsa da, ona yüngül, yelbeyin məhdud ağıl sahibi demək olmazdı. Bütün mənəvi gücünü, iradəsini bir yerə toplamadan, yüz ölçüb bir biçmədən qərar verməyi heç cürə xoşlamırdı. O,

özünə təskinlik verməyi də bacarırdı. Şənbə və bazar günlərindən savayı, hər axşam rəfiqələri dərsə gedəndən sonra otaqda tək qalardı. Tez-tez özü-özünə qapılardı. Mərhum babası, doğma balası haqqında hey düşünər, düşünərdi. Hərdənbir isə zülmətlər qoynunda tənha işıldaquşlar kimi parlayan işıqlı anlarını xatırlayanda bu zavallı qadın qəlbində səmavi sevinc hissi duyaraq öz-özünə deyərdi: "Ölənlə ölmək olmaz. Bu dünyaya gələn gec-tez, nə vaxtsa dünyasını dəyişməlidi. Sənə min rəhmət, baba... Hikmət də böyüyəcək, mənli-mənsiz. Allah yaratdığı bəndəsini naümid qoyan deyil. Hər şey yaxşı olacaq. Yaman günün ömrü az olar. Yəqin ki, çətinliklər arxada qalır. Xoşbəxtlik də, səadət də uğrunda daim mübarizə aparanlarındı..." Bax beləcə, Şəfəq keçmişi ilə indiki həyatını bir tam, bütöv halda birləşdirir, sınmış, donuq qəlbində doğan ümid, inam ehtirası ilə keçmişini öldürür, öz əlləri ilə dəfn eləyir, yeni həyata kövrək qədəmlərini basırdı. Ona da inanırdı ki, hardasa, irəlidə onu sakit, dinc bir həyat gözləyir. İndi Şəfəqin üç arzusu vardı: "Necə olur-olsun gözünün ağı-qarası doğma balası ilə qovuşmaq; hökumətdən bircə otaqlı da olsa ev almaq; pak, təmiz, firavan ömür sürmək". Əslində, bu üç arzu bir istəyə çevrilirdi. Hər üçü Şəfəqin bütün varlığına hakim kəsilirdi. Uzun bir zəncirin ayrı-ayrı həlqələri tək beyninə səpələnmiş düşüncələrini birləşdirirdi. Həsəd və paxıllıqdan, kimsəyə pislik hisslərindən uzaq gənc qadın halallıq, zəriflik, sadəlik mücəssəməsi olduğundan fikri, düşüncəsi böyük Yaradanın hökmünə tabe olmaq, əməllərini də onun buyurduqlarına uyğun qurmaqdı. O, tez-tez insanlardan qaçmağa, öz-özü ilə danışmağa çalışır, Allahın dərgahına üz tuturdu...

Şəfəq tutqun dumana, çənə bürünmüş uzaq keçmişini — uşaqlıq illərini tez-tez xatırlardı. Zəhərdən də acı xatirələri onu yandırıb-yaxardı. Həyatında fərəh doğuracaq, sevinc gətirəcək bir şey olmadığından bədbinləşərdi, bəzən də acı göz yaşları tökərdi. Heç kimə bir söz deməsə də: — Bu, mənim taleyimdi — deyərdi. Keçmişi ilə barışmaqdan savayı özgə çarəsi də qalmazdı. Ömrünün tək-tənha anları, həyatı dərk elədiyi qayğısız-qadasız uşaqlıq çağları, babasının əzizləyə-əzizləyə başına sığal çəkdiyi anları, Hümmətlə sevişdiyi illər, gözünün ağı-qarası Hikməti dünyaya gətirdiyi vaxtlar və bir də övladını bəslədiyi darmacallı günlər nəzərə alınmazsa, taleyində qürur, fərəh, sevinc doğuracaq nöqtələr sezilmirdi. Keçmişini nə qədər xatırlasa da, ömür xəritəsinə hər bir vəchlə nə qədər işıq salmaq istəsə də, düçar olduğu tale həyat girdabı tək, qaranlıq zülmətlər qoynuna açılan qapı kimi görünürdü. Onun az yaşantılı həyatında zil qaranlıq içərisində işıq axtarmaq xam xəyaldan başqa bir şey deyildi.

Heç vaxt unudulan deyil. Hələ dörd-beş yaşı olarkən babası ilə bir yorğan-döşəkdə yatması... Balasının qolları arasına alıb onu bərk-bərk bağrına basması... Tez-tez "Gözlərini yum, yat" deməsi... Hərdənbir başını balıncdan qaldıraraq babasının üz-gözündən öpməsi... Üzünü babasının düm ağ saçlarına, yenicə təraş olunmuş üzünə sürtməsi... Onu uşaq məsumluğu ilə sevməsi... İndi oturub-durub o günləri düşünəndə, özünün uşaqlıq düşüncələrini götür-qoy eləyəndə sanki dünya başına dolanırdı Şəfəqin.

Düşüncələr, xatirələr onu ağuşuna alıb lap uzaqlara aparırdı ki, qapı döyüldü. Şəfəq diksindi. Tez də özünə gəldi. Qalxıb otağın qapısını açdı. Gələn Buta xanım idi. Onu görcək özünü itirən kimi oldu. Sonra da Şəfəqin üzündə bir təbəssüm yarandı. Buta onun vəziyyətini soruşdu və otağa göz gəzdirərək dedi:

— Şəfəq, sən halal qıza oxşayırsan. İstəyirəm sizin otağa bir televizor verəm. Rəfiqələrin axşam dərsə gedəndə sən ona baxasan, darıxmayasan. Bu şərtlə ki, səsini yüksəkdən qoymayasız. Qonşu otaqdakı qızların istirahətini pozmayasız.

— Təşəkkür eləyirəm. Çalışaram, Sizin tələblərinizi yerinə yetirim.

Buta gülümsündü. Sonra əlavə elədi:

— Xidmətçi Nəcəfdən göndərəcəm.

Buta getdi. Beş dəqiqə keçməmişdi ki, yataqxananın elektrik işlərinə baxan orta yaşlı, qara saqqallı Nəcəf gəldi. O, əvvəl televizor altlığını gətirib pəncərənin sağ tərəfində yerləşdirdi. Sonra da gedib televizoru gətirdi. Elektrik xəttinə caladı. Necə göstərməsini yoxladı. Televizor güzgü kimi göstərirdi. Nəcəf üzünü Şəfəqə tutaraq dedi:

— Televizora söz ola bilməz. Əla göstərir. Onu Butadan çoxları istəyib. Nədənsə, Buta onu sizin otağa məsləhət bildi. Bu mərtəbədə yeganə televizor sizin otaqdadı. Çalışın, yaxşı işlədin.

Şəfəq gülümsünərək:

— Baş üstə, narahat olmayın, — dedi.

Nəcəf getdi. Televizorda verilən konsert Şəfəqin küskün qəlbi, qəmli-sarsıntılı ruhu ilə səsləşmədiyindən o, televizoru söndürdü. Qalxıb şkafdan "Ədəbiyyat" kitabını götürdü, sakit oxumağa başladı. Başı oxuya qarışdığından rəfiqələrinin gələcəyi vaxtı unutdu. Bir də qapı döyüləndə yadına düşdü ki, Məfkurə ilə Büllurənin gələn vaxtıdı. Düşündü ki, qızlar yorğun olduqlarından gələn kimi: — Çay hazırdımı? — deyəcəklər. Belə də oldu. Şəfəq qapını açan kimi rəfiqələri içəri girdilər: — Hə, adama bir stəkan çay, — deyə Şəfəqin üzünə baxdılar. O, gülümsündü, üzrxahlıq eləyərək: — Başım kitaba qarışıb, — deyə cavab verdi və çaydanı götürüb mətbəxə getdi. Qızlar paltarlarını dəyişdilər. Büllurə stulda oturmuşdu ki, gözləri küncdə qoyulmuş televizora sataşdı. O, qəflətən: — Ura! — deyə qışqırdı. Məfkurə diksindi və həyəcanlı halda Büllurəyə tərəf döndü: — Televizor, əla, — deyə rəfiqəsinin üzünə baxdı. Onun sevinci dərhal Büllurəyə də sirayət elədi. Hər ikisinə elə gəldi ki, televizoru Şəfəq ya alıb, ya da rəfiqəsi Mətanət darıxmasın deyə, onun üçün gətirib. Hər iki hal rəfiqələr üçün məqbul idi. Az keçmiş Şəfəq bir əlində böyük çaydan, ikincisində dəm çayniki otağa qayıtdı. Qızlar təşəkkürlərini bildirdikdə o, gülümsündü.





— Bu, mənlik iş deyil. Buta xanım gətirdi. Təşəkkürü üçümüz də ona bildirməliyik.

Məfkurə:

— Buta bizə verirdisə, neçə vaxtdı bu otaqda qalırıq, bircə dəfə də olsun bizə televizor verəcəyini ağzından çıxarmayıb.

Büllurə üzünü Məfkurəyə tutaraq:

— Sən əyri danışmağa öyrəncəlisən. Kişinin qızı indi ki verib. Allahımıza şükür eləyək.

Şəfəq:

— Xahiş elədi ki, televizorun səsini qaldırıb qonşu otağın sakinlərini narahat eləməyək.

Büllurə ilə Məfkurə eyni anda dedilər:

— Oldu.

Məfkurə televizoru açdı. Şəfəq hərəyə bir stəkan çay süzdü. Dəm yaxşı aldığından ətri otağı bürüdü. Səsi nə qədər aşağıdan qoyulsa da, qonşu otağın sakinləri buraya televizor qoyulmasından xəbər tutdular. Beş-on dəqiqədən sonra əyləşmək üçün boş yer qalmamışdı. Bunu görən Büllurə bildirdi:

— Qızlar, məndən inciməyin. Hamınızın gəlişinə sevinirik. Hər axşam gəlin televizora birlikdə tamaşa eləyək. Bu şərtlə ki, Şəfəqin qəbul imtahanlarına hazırlaşmasına mane olmayaq.

Qızlar təklifi sözsüz qəbul elədilər. Şəfəq alt dodağını dişləri ilə sıxaraq başını yellədi. Sonra da üzündə işıqlı bir təbəssüm yarandı. Rəfiqəsinin təklifi əslində Şəfəqin ürəyincə oldu, məsuliyyətini bir az da artırardı. Bir saata qədər televizora baxan qızlar yavaş-yavaş öz otaqlarına dağılışdılar. Rəfiqələrin hər biri kitablarını götürüb sakitcə oxumağa başladılar.

Gecə saat birə işləyirdi. Məfkurə ilə Büllurə yataqlarını açıb çarpayılarına uzandılar. Şəfəqin yuxusu gəlmədiyindən otağın işığını söndürüb balkona çıxdı. Hava xoş idi.

Gecənin qaranlığı çökdüyündən çoxmərtəbəli binaların pəncərələrindən süzülən, küçələrdə basdırılan elektrik dirəklərinin başındakı lampaların yayğın, kino-teatrların, mağazaların qapıları üstündəki al-əlvan reklamların şəffaf işıqları şəhəri çıraqbana çevirirdi. Sirli-sehrli qalaktikanın yenilməz, danılmaz təcəssümünü nümayişkaranə bəşəriyyətə çatdıran parlaq ayın, böyüklü-kiçikli, uzaqlı-yaxınlı sayrışan ulduzların insanlara səxavətlə, təmənnasız bəxş elədiyi şövqünü, nurunu çiraqbanlı şəhərin yanıb sönən, cilvələnən işıqları nə qədər soldurmağa çalışsa da bacarmırdı. Ay da, ulduzlar da bu mənzərəyə baxıb rişxəndlə gülümsəyirdilər. Bunu varlığı ilə müşahidə eləyən Şəfəq bir anlığa özünü unutdu. Ovsunlanmış halda tamamilə yeni bir vəziyyətə düşdü. Böyük bir vəcdlə özündə daxili bir qürur, coşğunluq, fərəh hissi duymağa başladı. O, baxdıqca gözəlliklər səltənətinin bu cazibəsindən riqqətə gəlirdi, tükənməz arzular oyadırdı onda. Uşaqlıq çağlarında yuxusunda gördüyü zəngin dəbdəbəli saraylar, əfsanəvi qalalar canlanırdı onun gözləri qarşısında. İndi isə Şəfəqin qəlbini nə bu gözəllik, nə uşaqlığında təsəvvüründə yaratdığı əsrarəngiz məskənlər ovsunlayır, nə də başqalarının gələcək həyat barədəki yağlı vədləri, təmtəraqlı sözləri ona təsir eləyirdi. Gənc də olsa, artıq onda həyat fəlsəfəsi barədə bitkin fikir formalaşırdı.

Başında dolandırdığı bu ötəri düşüncələr, ruhuna tam zidd olan anlaşılmaz hisslər birdən-birə əridi. Eh həyat, sən nə qəribəsən? — Şəfəq tanış mahnının sözlərini təkrar etdi: — Bu dünyada yaxşı yaşamaq üçün gərək bəxtin ola. Qismətinə yaxşı yazıla. “Haqdan yanan çıraq batilən sönməz” — deyib aqillər. Necə də düz deyiblər. Əgər belə olmasaydı, dünyanın qara günləri mənim bəxtimə, qismətimə düşməzdi. Gecə yarısı yataqxananın balkonunda oturub keçən ağrılı-acılı günlərimi xatırlamazdım. Körpə balamdan uzaqlarda onun üçün alışıb-yanmazdım. Yəqin ki, Hikmətim indi mışıl-mışıl yatır. Yat mənim ömrüm-





günüm, yat. Mən səni atmamışam. Bu qəzavü-qədərin hökmüdü!

Düşündükcə Şəfəqin gözlərindən yaş süzüldü. O, əllərinin içi ilə yanaqlarındakı yaşı sildi. Sabah erkən işə gedəcəyini düşünüb otağa qayıtdı.

* * *

Şəfəq qəribə hal keçirirdi. Onu diqqətlə müşahidə eləyən olsaydı, əsəblərinin pozulduğuna, psixi sarsıntı keçirdiyinə heç bir şübhəsi qalmazdı. O, hər dəfə fikirləşirdi ki, uşaq tezliklə böyüyəndə, həmyaşıdlarını analı görüb nənəsinə, bibisinə, atasına suallar ünvanlayanda kim necə cavab verəcək. Yəqin ki, özlərini, hərəkətlərini pərdələməyə çalışacaqlar. “Əziz balam da onlara inanacaqmı, inanmayacaqmı, bilmirəm. Təkcə onu bilirəm ki, xaliqin lütfkar nəzəri altında balamın bəsirət gözü açılanda hər şeyi öz rəngində görə biləcək, onların rəzilliyinə hiyləgərliyinə nifrət eləyəcək...”

Zərif, kövrək qəlbi qaranlıq zülmətə dönmüşdü. Ağlamaqdan, sızlamaqdan özgə bir çarə tapa bilmirdi. O, tam əmin olmuşdu ki, yüzlərlə bakirə qız, minlərlə övladsız qadın bir ananı əvəz eləyə bilməz. “Ana” anlamı onun üçün ilahi varlıqdı. Ana olan yerdə Böyük Qüdrətin özü var! Ona görə də bu gənc qadının qəlbinin qaranlıq guşələrini yalnız analıq hissləri, analıq duyğuları işıqlandırırdı. Bu ali hisslər hər dəfə onun qəlbinə süzüləndə gözləri önündə fantastik kaşanələr yaranırdı.

Şəfəq anasını yadına sala, onun boy-buxununu ağlına gətirə bilmirdi. Əslində, bu, mümkün də deyildi. Təkcə babasından, hərdənbir də qonşulardan anası barədə bəzi şeyləri eşitmişdi. Öyrəndikləri də anası haqqında bitkin, tam təəssürat yaratmırdı. Axşam-səhər hey arzulayırdı: — Kaş mənim də anam sağ olaydı. Mən də başqaları kimi ana nəvazişi, ana qayğısı görəydim, ana hissi duyaydım. O, tək bircə dəfə uşaqlıq çağlarında anasını

yuxuda görmüşdü. İndi də həmin yuxunu yana-yana xatırlayır. Babam... Onun da yanında boylu-buxunlu gözəl, cavan, gülərüz, mehriban, səmimi bir qadın. Onun qıçlarından bərk-bərk tutdum. Babamın üzünə baxdım. Bu qadının kimliyini soruşdum babamdan. Onun nurani çöhrəsində zərif bir təbəssüm yarandı. O, mənə: — Qorxma, qızım, o, anandı: — dedi. Mən Allahın qüdrətindən yaranan bu qadının qucağına qaçmaq istədim. Elə bu vaxt yuxudan oyandım. Yatağımdaca hönkürüb ağlamağa başladım. O gecəsi səsimə yan otaqda yatan babam gəldi. Ağlamağımın səbəbini soruşdu. Yuxuda gördüklərimi ona bircə-bircə danışanda məni bağrına basdı. Hiss elədim ki, kişinin bədəni titrədi. Çox keçmədi ki, səsində gərilmə, nəfəsində təntimə duydum. Bunu görcək mən bala quş kimi babama sığındım. Onu qucaqladım. Heç özüm də bilmədən, fərqinə varmadan: — Sən niyə ağlayırsan, baba? — deyə soruşdum. O, ağlamasını, halının dəyişməsini gizlətməyə çalışsa da, bir damcı dumduru yaş yanaqlarından üzü aşağı süzüldü. Babam əli ilə gözlərinin yaşını silib: — Yat, ömrüm-günüm, yat, yuxu görmüsən, olan şeydi, — deyib məni sakitləşdirməyə başladı. Nə vaxt yuxuya getdiyimi bilmədim. O vaxtdan bəri çox arzulasam da, Tanrıma çox yalvarsam da, anamı heç vaxt yuxuda görə bilmədim. Ancaq öz mehrimi qoca babama saldım...

Yaşadığı illər ərzində zavallı anamın ətrini babamdan alırdım. O da mənə həm ata, həm də ana olardı. Çalışardı ki, ataanasızlığımı, kimsəsizliyimi heç vaxt duymayım, qəlbi sınıq böyüməyim, yetimliyimi hiss eləməyim.

Bu yuxu hər dəfə yadına düşəndə az qala Şəfəqin ağlı başından çıxırdı. Keçmişin dumanı içərisində ala-toran sezilən görüntülər təsəvvüründə qırıq-sökük, rabitəsiz, anlaşılmaz izlər salırdı. O izlər də sönük, ayrı-ayrı cızmaqaralar olduğundan və heç bir kökə, fakta əsaslanmadığından Şəfəqin şüurundan silinib yox olurdu. Əlacsız qalan bu qadın özü üçün yeni bir gələcək, əsrarəngiz aləm uydururdu. O, öz aləminə qapanıb təsəvvüründə anasının obrazını yaradırdı. Yaratdıqca da anası ilə, özü ilə oğlunun taleyində bir oxşarlıq, bənzərlik axtarırdı. Tapa bilməyəndə az qala qan başına vururdu. Beyni sanki ifliçləşirdi.





Böyük zəhmətə, zəlalətə düçar olan Şəfəq ağlagəlməz sürətlə acı göz yaşları doğuran keçmişinə qayıdırdı, yaşadığı ömrün hər anı onu qaranlıqlar mühitinə, cəhalət və iztirablar dünyasına aparırdı. Ancaq zaman öz işindəydi. Olanı geri qaytarmaq mümkün deyildi. Qəribədi bu dünyanın işləri. Dərdlər də bəzən bir-birinin üstə qalaqlanır. Belə hallarda düşüncələr zənciri çox zaman qırılır. Adam başını itirir. Bəzən də elə olur ki, insan bütün mənəvi gücünü, qüvvəsini toplayaraq yaşadığı mühitin qaranlıqlarından, zülmətlərindən özünə lazım olan gərəkli şeyləri çıxarır, özü öz çətinliklərini həll eləmək qüdrətinə qadir olur. Onun aləmində bu fəlakətdən geri qayıtmağın bircə yolu vardı: o da ölüm! Əslində, ölüm də çıxış yolu deyildi. — Mən bir daha oğlumu görə bilməyəcəyəm — fikri onu dəhşətə gətirirdi. İndi o, öz taleyi ilə barışmaq məcburiyyətində qalmışdı. Buna baxmayaraq, Şəfəq tez-tez acı xatirələrinin dərinliyinə baş vurmağa məcbur olsa da, fərəh, sevinc doğuran o idi ki, onun daxilində tədricən mənəvi dönüş duyğusu alışırdı. Bu duyğular ilk baxışda vəhy kimi də dəyərləndirilə bilərdi. Belə olan təqdirdə ruhu Şəfəqi əlçatmaz, ünyetməz bir zirvəyə qaldırır, orada məskən salmaq, qərar tutmaq həvəsi ilə yaşadırdı. Yataqxana və fabrik mühiti Şəfəqi xeyli dəyişmişdi. Qaraqabaqlığı, qaradinməzliyi, ağlayıb-sıtqamağı xeyli azalmışdı. Onun aləmində adamın, xüsusilə də qadının özünə aid olan ailə sirrini başqalarına açması ən böyük qəbahətdir. Belələri özlərinə nə qədər haqq qazandırmağa çalışsalar da, ətrafdakılar tərəfindən yaxşı qiymətləndirilə bilməz. Ona görə də Şəfəq yalnız özünə ünvanlanan sualların bir qisminə cavab versə də, lazım bilmədiklərini çox incə şəkildə: — “Onu məndən soruşma“, o mənlik iş deyil“, — deyə özündən

uzaqlaşdırırdı. Ancaq Məfkurə ilə Büllurədən özünün ərdə olması, oğlunun varlığı və ailəsinin dağılmasını gizlətməmişdi. Onlar da aralarında belə qərara gəlmişdilər ki, nə yataqxanada, nə də fabrikdə kimsəyə bir kəlmə də söz deməsinlər. Rəfiqələrinin bu qərarı Şəfəqi çox sevindirdi. O, hər bazar günü vaxt tapıb Mətanətgilə gedir, onların vəziyyətlərini öyrənir, Əsəd kişi və Qumru qarıdan hal-əhval tuturdu. İnsafən, Mətanət də ona qayğı göstərir, əyər-əskiyini təmin eləməyə çalışırdı. İndi onun üçün Mətanət bacı, Cavad isə qardaş missiyasını yerinə yetirirdi.

Şəfəq yataqxana həyatından çox məmnun idi. Buranın sakinləri deyib-gülür, dərd-sərlərini bir-biriləri ilə bölüşürdülər. Bir kimsənin başı ağrısaydı, səhərədək qızlar yatmazdılar, onun dərdinə çarə axtarardılar.

Şənbə Büllurənin ad günü idi. Rəfiqələr belə qərara gəldilər ki, axşama süfrə açsınlar. Məfkurə Şəfəqin maddi imkanının olmadığını nəzərə alaraq: — Şəfəq, sən narahat olma, gələn ad günlərində, bacım, sən də fəal iştirak eləyərsən, — dedi. O, qəti etiraz eləyib çantasını götürdü. Bir dəstə pul çıxardı, xeyli miqdarda ayırıb stolun üstünə qoydu. Şəfəqin inciyə biləcəyini düşünüb Məfkurə pulu götürdü və: — Özün də hazırlaş, bazar-dükana gedək, — dedi. Səhər naharından sonra rəfiqələr bazara getdilər. Alma, armud, üzüm, qoz, fındıq, plov bişirmək üçün lazım olan ərzaq, meyvə şirəsi aldılar. Evə qayıdanda Büllurə ayaq saxladı: — Qızlar üçün şampan, — deyib mağazaya qayıtdı. İki şüşə şampan, bir ədəd də konyak götürdü. Məfkurə gülümsünərək: — Hamımızı kefləndirəcəksən, biabır olacağıq, — dedi. Büllurə əvvəl gülümsəməklə cavab verdi, sonra dedi:

— Qorxmayın. Əvvəla, gündə ad günü keçirmirik ki. İkincisi, bəyəm qızlar, qadınlar içə bilməzlər?

Məfkurə:

— İçərlər, niyə içmirlər? Gərək, keflənməyək. Canın üçün keflənənlər Butanın yumruğu, kötəkləri altına düşəcəklər. Buta





elə həyasızdı ha, başladı, keflənənin ölüsünü atacaq.

Şəfəq təəccübləndi, sonra:

— Aa... Nə danışırsız? Bəyəm Buta xanım...

Məfkurə:

— İç, keflən, dəhlizdə səs-küy sal, onda görərsən, bizim Buta neyləyir.

Büllurə:

— Sən narahat olma. Butanı otuzduracam başda. Konyakdan içirdəcəm ona. Kefləndirib aparıb yatızdıracam çarpayısında. Sonra öz işimi görəcəm. Yazıq qızlar gündüz işə, axşam dərsə gedirlər. Şənliyə getməyə vaxtları var ki.

Məfkurə:

— Elə et ki, Buta bizi otaqdan çıxarmasın. Canın üçün qalarıq küçələrdə.

Rəfiqələr deyə-gülə avtobus dayanacağına gəldilər. Avtobusun gəlməsini gözləməyə Büllurənin səbri çatmadığından dedi:

— Gəlin, bu gün taksi ilə gedək. Narahat olmayın xərci mənim boynuna.

Onlar belə də etdilər. Ad gününü qonşu otaqdakılardan sirr saxlayan Büllurə yalnız axşam qaş qaralanda bircə-bircə otaqlara girdi, ürəyi istəyən qızları dəvət elədi. Buta xanım soyuqladığından və şənbə günü yataqxanaya gəlmədiyindən Büllurə onu məclisinə çağıra bilmədi.

Gələnlər zəngin süfrə açıldığını görcək təəccübləndilər. Məsələnin mahiyyətini öyrənəndə hər biri narazılıqla deyindi. Həmişə deyib-gülən, çatana-çatan, çatmayana bir daş atan Qəmər dedi:

— Hamı özü üçün danışır. Ad gününü əvvəlcədən xəbər verməməkdə lap düz eləmisən. Gülə-gülə əllərində bir kiçik hədiyyə gətirəcəkdilər. Sonra da ürəklərində o ki var deyinəcəkdilər. Hamısı xəbisdi. Odu ha. Götürək, mənim ad günümü. Mən bir həftə qabaq dedim. Nə oldu? Gətirdiklərinin biri də işə yaramır.

Nə baxırsız üzümə? Bəlkə yalan deyirəm? Hə, niyə dinmirsiz? Mən də qarşıma məqsəd qoymuşam, bundan sonra heç kəsə hədiyyə almayacam. Yeyib-içib, rəqs eləyib, gedib yatacam. Düz demirəm, Şəfəq?

Şəfəq gülümsündü. Çiyinlərini çəkməklə kifayətləndi. Həcər:

— Bundan sonra heç kəs səni məclisə dəvət eləməz.

Qəmər:

— Əşi, eləməzlər, canları sağ olsun. Həyasızlığıma salıb özüm gələrəm. Sinəmə vurub geri qaytarmayacaqlar ki?

— Nə bilirsən vurmayacaqlar?

— Sən də ağ eləmə.

Məfkurə ucadan gülərək:

— Yaxşı yadıma düşdü. Keçən il 62-ci otaqda Gülər adında bir qız yaşayırdı. Özünə ad günü keçirirdi. İnsafən, yaxşı da yeməklər hazırlamışdı. Süfrə zəngin idi. Qızlar onun ad gününə bilsəniz nə gətirmişdilər?

Hamı Məfkurənin üzünə baxdı. Məfkurə sözünə davam elədi.

— Biri kibrit qutusu boyda maşın, ikincisi balaca tapança, üçüncüsü dovşan, dördüncüsü meymun, nə bilim nə... nə... Yazıq qız əvvəl özü də tutuldu. Sonra hamısının zarafat olduğunu başa düşüb qəhqəhə çəkdi. Otaq yoldaşı canı yanmış Səlimə, alma-salma Gülərə deyəsən ki, hədiyyələri yığ çamadana, gələndə verərsən nişanlına, işsiz-gücsüz adamdı, aparıb oynatsın.

Elə bu vaxt qapı döyüldü. Günəş, Aytən, Çinarə, Aidə, Zenurə otağa daxil oldular. Süfrəni görcək onlar da otaq sahiblərinin üzlərinə baxdılar. Büllurə dərhal:

— Narahat olmayın. Qəsdən belə eləmişəm. Sizin də ad gününüzə mən əliboş gələcəm. Əlacı kəsilən Günəş: — Eybi yoxdu, səhər əvəzini çıxarıq, — dedi. Bu söz qalan qızlara da vəziyyətdən çıxmaq imkanı verdi.





Bu söhbətdən sonra Məfkurə plov qazanını açdı. Böyük buludlarda düyü, aş qarası yığıb süfrəyə qoydu: — Hə, bismillah, — deyə birinci özü süfrəyə əl atdı. Adama bir-iki qaşıq yemişdilər ki, Büllurə konyak, şampan şüşələrini açmağı Məfkurəyə həvalə elədi. Bununla da o, özü də bilmədən tamadaya çevrildi. Qədəhlərin kiçiyinə konyak, böyüklərinə isə şampan süzdü. Sonra sözə başladı:

— Xanımlar, bilirsiniz ki, Büllurənin ən əziz günüdü. Hamımız isti yuvamızdan, əziz ailəmizdən uzaqdayıq. İş elə gətirib ki, Büllurə ad gününü bizimlə birlikdə keçirməli olub. İnanıram ki, onun ailəsində də şadlıq, sevinc süfrəsi açılıb. Bir zaman gələcək, bizim heç birimiz burda olmayacağıq. Etiraf eləyək ki, biz qızlar köçəri quşlar kimi bir şeyik. Müəyyən vaxt eyni qanadlı quşlar kimi beləcə bir yerə toplaşırıq, deyirik, gülürük, sonra da yavaş-yavaş uçub öz mənzilimizi dəyişirik. Ailə, uşaq... Bu günlərdən bizə şirin, xoş xatirələr qalır. Mən inanıram ki, bu gecə, bacım Büllurənin ad günü bizim yaddaşımızda ömür boyu yaşayacaq. Biz qızlar qəribə məxluqlarıq. Yaşımızın elə bir dövrüdü ki, hər birimizin qəlbində bir həyat qaynayır. Sevgi hissləri, duyğuları qanadlanır. Mənə elə gəlir ki, həqiqi sevgi vəsfəgəlməz həyatdı, pərəstişkarlıqdı, kürreyi-ərzi lərzəyə salan tufandı. Həyatın iki üzü vardır: işıq-qaranlıq; xeyirxahlıq-bədxahlıq, yaxşılıq-pislik; gözəllik-çirkinlik; sevinc-kədər; yaşamaq — ölüm. Sevgi bax, belədi. O, adamı həmişə gözlənilməz vəziyyətə salır. Sevgi birincilərdisə, məskəni cənnətdi. Yox, ikincilərdisə, məskəni cəhənnəmdi, onun içində əriməkdi, his-pasa çevrilməkdi. Əziz bacım, insan yeganə məxluqdu ki, qəlbinin iki üzü var. Bir üzü işıqsa, o birisi qaranlıqdı. İşıq sevginin, qaranlıqsa nifrətin təcəssümüdü. Mən bu qəlb kövrəldici, niskil gətirici sözləri deməyə də bilərdim. Mən həyatı necə var, elə də görmək istəyirəm. İstərdim ki, həyatı necə var — siz də elə görəsiz. Gənclikdə atdığımız səhv addım bizlərə sonralar çox baha

başa gəlir. Ömrümüz boyu bəzən onu düzəldə bilmirik. Yanıb-yaxılırıq. Deyəsən, məqsəddən çox uzaqlaşdım. İçək, bacım Büllurənin şərəfinə. Xoşbəxt olsun. Ağ günlü olsun. Həmişə sevincli günlər yaşasın.

Qədəhlər bir-birinə vurulduqca otağı cingilti səsləri bürüyürdü. Hamı Bülluraəyə: — Sənin şərəfinə, — deyib qədəhləri dodağına apardı. Şəfəq içmək istəmirdi ki, Məfkurə göz-qaşı ilə ona: — Saxlama, iç, — işarəsini verdi. O da qədəhi dodaqlarına aparıb bir qurtum götürdü. Sonra da ağız-burnunu büzüşdürə-büzüşdürə qaytarıb süfrəyə qoydu. Xiyar turşusundan bir qıça götürdü, dişlədi, qalanını da boşqabının qırağına qoydu.

Qəmər üzünü Məfkurəyə tutaraq:

— Ay qız, canım üçün sən danışanda, sağlıq deyəndə mən ölürəm.

— Niyə?

— Necə niyə? O sözləri hardan tapırsan?

— Tost deməyi vuran adamlar yaxşı bacarar. Ay yazıq Qəmər, sən harda görmüsən belə şeyləri. İşdən aldığın pulları da həmin gün nişanlın gəlib alır əlindən.

— Yalan danışma. Yazıq hələ gəlib məndən pul istəməyib.

Büllurə:

— Yəni istəməliydi də?!

Otağı gülüş səsləri bürüdü. Bir qədər yeyəndən sonra Məfkurə qədəhlərə ikinci dəfə konyak süzdü. Sonra da Şəfəqin üzünə baxdı. Şəfəq gülümsünərək başı ilə tost deyə bilməyəcəyini bildirsə də Məfkurə onunla razılaşmadı və: — İndi də söz Şəfəqindi, — dedi. Naəlac qalan Şəfəq əvvəl nə deyəcəyini bilmədi. Sonra böyük bir auditoriyada ilk dəfə çıxış eləyirmiş kimi utana-utana, çəkinə-çəkinə, udquna-udquna astadan pıçıltılı səslə dedi:

— Məfkurədən sonra söz tapıb demək mənim üçün çox çətindi. Ancaq onu da deməliyəm ki, sizinlə tanış olduğum, birlikdə yaşadığım müddətdə hər birinizin mənə olan diqqətini duy-





muşam. Bir dəfə də olsun sizdən yersiz söz, hərəkət görməmişəm. Açığını deyim ki, səmimiyyətinizə, mehribanlığınıza heyranam. Zənnimcə, istər qız olsun, istərsə də qadın, fərqi yoxdu, ləyaqət və şərəf hissini qorumalıdı. Mən, əziz bacılarım, sizinlə fəxr eləyirəm. Bacım Büllurə, sənə sağlamlıq və gələcəkdə ailə səadəti arzulayıram. Sənin şərəfinə!

Qədəhlər boşalmışdı ki, yenicə ali təhsilini tamamlayan Çinarə dilləndi:

— Balam, bir bizə də söz verin də. Bəyəm, bizim səsimiz alınıb?

Günəş dərhal:

— Aa... Bunun da dili varmış? Mən elə bilirəm...

— İndi mən tost deyərəm, sən də eşidərsən, balası.

Hamı gülüşdü. Konyak şüşədən qurtardığından Çinarə tostu şampanla deməli oldu. O, qədəhini qaldıraraq ayağa qalxdı. Oğlansayağı görkəm alaraq sözə başladı.

— Xanımlar, biz hamımız eyni cinsdənik. Gərək Büllurə xanım məclisimizin şuxlu keçməsi üçün heç olmasa qaçaqar Abas kişini bura dəvət eləyəydi. Həm bizə nuş olardı, həm də kişi konyak, şampan içib təbiətin yanaqları qızaran bu "xuliqanlarına"" baxıb ləzzət çəkərdi.

Otağı gülüş səsləri bürüdü. Çinarə səsinə ara verib sonradan sözünə davam elədi:

— Bəli! Bəli, mən nə dediyimi yaxşı bilirəm. Dediklərim hamınızın ürəyindəndi. Rica eləyirəm, bundan sonra Abası unutmayasız. İndi keçək əsas mətləbə.

Hamı qəhqəhə çəkdi. Mən biləni kişi namuslu, qadın əməlisaleh olması ilə fəxr eləyə bilər. Kimsənin çərçivədən çıxması cinayətdi. Bu, heç də o demək deyil ki, qızlar, sevməyəsiz. Mən sevgiyə qadağa qoymuram. Yox! Əsla! Əgər elə olsaydı, Abasın bura təşrif buyurmasını heç də təklif eləməzdim. Güman eləyirəm, məni düz başa düşərsiz.

Otağı gülüş səsləri bürüdü. Çinarə əlini qaldıraraq gülüşün dayandırılmasına işarə elədi. Sonra sözünün ardını deməyə başladı.

— Bayaq Məfkurə sevgidən çox danışdı. Təcrübəli adamlar kimi. Guya biz uşağıq. Baş aldadır.

Hamını yerbəyerdən gülmək tutdu.

— İndi məni yaxşı-yaxşı dinləyin. Sual verə bilərsiz. Sevən ürəyi zorlamaq əxlaq normasına uyğun gəlirmi? Belə halda insan xoşbəxt ola bilərmi? Qızılgül olmasaydı, bülbülün xoş nəğmələri kimə və nəyə lazım idi? Yaxud əksinə! Bülbül cəhcəhini, iniltisini, naləsini duymayan qızılgül açılardımı? Qızılgül bülbül, bülbül qızılgül üçündüsə, Allaha rəvadımı ki, sevən ürəklərin qarşısında tikanlar sipər çəksin? Dediklərim düzdü, ya əyridi, deyə bilmərəm. Hansısa gözəgörünməz bir qüvvə mənə diktə eləyir, qulaqlarıma pıçıldayır ki, ülvi, pak insani duyğular həmin əxlaq normalarının mahiyyətindədi. Sadəcə olaraq, onu görmək, duymaq gərəkdi. Düzdü, ya əyridi?

Yerdən səslər:

— Düzdü, düzdü.

Həcər:

— Bəsdi, qalanını da sonra.

— Qulaq asın qızlar. Bu Həcər mənə danışmağa imkan vermir. Ona görə ki, onun işi düzəlib. Bir neçə gün əvvəl əzizxələfinə zəng çalan Həcər adaxlısından əla bir məktub alıb. İstəklisi məktubu ona şeirlə yazıb. Mən tələb eləyirəm, Həcər burda, Büllurənin ad günündə həmin şeiri oxusun.

İçib hallanan qızlar hamısı bir ağızdan:

— Həcər şeiri oxumalıdı.

Şərabdan əhvalı düzələn Həcər adaxlısından təzəcə aldığı şeiri ayağa qalxıb oxumağa başladı:

Bu axşam zəng çaldı Həcərim mənim.





Sevincdən ürəyim alışıb, yandı.
Əllərim titrədi, əsdi bədənim
Od düşdü dəstəyə, duyğum oyandı.

Eşqin taleyimə qoy nur çiləsin,
Eşit sən, Həcərim, bil sən, Həcərim.
Hər axşam, hər səhər arzular səni
Ürəyim, Həcərim, gözüm, Həcərim.

Arzumsan, eşqimsən, məhəbbətimsən,
Həyatım, inamım bağlı adına.
Sən mənim ömür-gün səadətimsən,
Qoyma ki, alışam həsrət oduna.

Yenə də yada sal, yenə də zəng çal,
Sevindir qəlbimi, güldür qəlbimi
Gül kimi ətir saç, xəyal tək ucal
Açılsın bəxtimiz bir səhər kimi!

Həcər şeri deyib qurtarmışdı ki, qızlar əl çalmağa başladılar. Ara bir balaca səngidi. Qəmər yerində donquldanmağa başladı.
— Mən neçə vaxtdı məktub yazmışam. Hələ məktubuma cavab yazmayıb. Başqasınınkı bir zəng çalan kimi əvəzində o boyda şeir də yazıb göndərir. Darıxma, görüşərik. İndidən bəxtim qara gətirib. Ondan mənə çətin ki...“ Çinarə bütün diqqətini onun nə deməsinə yönəltdi. Özünə lazım olanı götürdü. Sonra da üzünü Büllurəyə tutaraq:

— Maqnitofonun düyməsini bas, oynayaq.

Büllurə düyməni basdı. Otağı şən, oynaq musiqi sədaları bürüdü. Çinarə qollarını açıb bir neçə dəfə süzdü, sonra da gəlib qızları bircə-bircə ayağa qaldırdı. Şəfəq oynamaq istəmədi. Onu Məfkurə arxadan qucaqlayıb ayağa qaldırdı. Qızların xatirinə

toxunmamaq üçün Şəfəq də qollarını qaldırdı, bir-iki addım atdı, əllərini-ayaqlarını oynatdı. Sonra da keçib yerindəcə oturdu. Büllurə: — Nə yaxşı ki, Çinarə bu məclisdə iştirak eləyir, o, bu tədbirə böyük sevinc, şadyanalıq gətirdi, — deyə düşündü. Şəfəqin başı qızların zarafatlarına, şadyanalıqlarına elə qarışmışdı ki, bu neçə vaxtdakı dərd-səri, çəkdiyi əzab-əziyyətləri az qala unutmuşdu.

Kaset qurtaran kimi hər kəs keçib öz yerində oturdu. Rəfiqələr tövşüyə-tövşüyə deyib-gülürdülər. Məfkurə qədəhlərə şampan süzdü. Sonra da: — Söz azaddı, — dedi. Çinarə böyük şuxluqla: — Bir az yeyək, şampanımızı içək, sonra da Aytəndən xahiş eləyək, oxusun. Sizi bilmirəm, mən onun oxumasına vurğunam. Aytən etiraz eləmək istəyirdi ki, Çinarə onun sözünü ağzında qoydu:

— Özünü naza çəkmə. Səni tam əmin eləyə bilərəm ki, özün də bizdən ağıllı deyilsən. Xörəyini ye, şampanını iç. Büllurənin də bu əziz günündə mahnını oxu, canın qurtarsın. Yoxsa, səni bu axşam yatmağa qoymaram.

Əlacsız qalan Aytən Çinarə ilə razılaşmaq məcburiyyətində qaldı. — Qoy bir az fikirləşim, həm də özümə gəlim, — deyib bir-iki qaşıq xörək yedi. Sonra Məfkurə qədəhi əlinə alaraq: — Eşidirsiz, qızlar? — deyə dilləndi.

Yerbəyerdən: — Hə, sözünüzü deyin, — deyə bildirdilər. Məfkurə davam elədi.

— Fəlsəfə öyrədir ki, insan iki mərkəzli ellipsdi.

Şəfəq dərhal:

— O nə olan şeydi, bacı?

Otağı qəflətən qəhqəhə səsləri bürüdü. Aytən də özünü saxlaya bilməyib qızlara qoşuldu. Haçandan-haçana gülüşünü dayandırıb sözünə davam elədi:

— Filosoflara görə, ellipsin bir qatı “hadisədirsə”, o birisi “ideyadır”.





Qızlar bir ağızdan.

— Heç nə başa düşmürük.

Günəş:

— Bacı, adam dilində danış, biz də qanaq. Bizə burda fəlsəfə açmaq gərək deyil. Mahnını oxu, vəssalam.

Məfkurə:

— Elə isə qulaq asın. Altı aylıq deyilsiz ki? Yox, nə demək istədiyimi sizə qandırım sonra. Əvvəla, yadda saxlayın hadisə nədi? Bir zaman Büllurənin atası ilə anası sevişiblər. Sonra onlar evləniblər. Ailə qurublar. Bir müddət keçəndən sonra Büllurə Allahın hökmü ilə doğulub, dünyaya göz açıb. Bu gün də toplaşıb onun ad günün keçiririk. Görürsünüzmü qızlar, burda dörd hadisə var: sevişmə, evlənmə, doğuluş və toplanış. Bildinizmi, Büllurənin bu məclisi hadisələrin hadisəsidi. Qaldı “ideya” məsələsinə. Bizim bura toplaşıb dediyimiz xoş sözlər, sizin yalvarışınızla Aytənin oxuyacağı mahnı, elədiyimiz rəqslər ideyadı. İndi qandız, bacılar? Gəlin, bu badələri səbəbkarın sağlığına qaldıraq. Toyuna bizi çağırmağı unutmasın. Aytən də mahnını orda ona hədiyyə eləyər.

Aidə:

— Filosofların dedikləri ilə başımızı qatmayın. Aytən mahnısını oxusun. Yoxsa, onun canını alaram.

Aytənin nəzərləri əvvəl tavana dikildi. Bir az fikirləşdi. Nisgilli, kövrək, ürək sızladan, qəlb ovsunlayan bir mahnının sözləri yadına düşdü və astadan, yanıqlı səslə oxumağa başladı.

Taleyim başıma bir oyun açıb,
Ürəyim yamanca sıxılıb qalıb,
Yoluma işıq yox, qaranlıq çöküb,
Sən yoxsan, gözlərim yolunda qalıb,
Gücüm gözlərimin yaşına çatıb.

Bilirəm, bir daha dönməyəcəksən,
Bilirəm, ömürlük gəlməyəcəksən,
Gözümün yaşını silməyəcəksən,
Sən yoxsan, səbrim yaman daralıb,
Gücüm gözlərimin yaşına çatıb.

Mahnının sözləri qızların qəlbinə həlim, kövrək bir duyğu gətirsə də Şəfəqin bağrını dəldi. Ona bir anlığa elə gəldi ki, Aytən onun keçirdiyi hisslərdən, başına gələn bəlalardan xəbərdardı və qəmdən, kədərdən, qüssədən yoğrulan bu mahnını onun üçün oxuyurdu. Öz qəlblərində üzə vurmasalar da Məfkurə də, Büllurə də mahnının səslənməsindən o qədər də xoşlanmadılar. Ona görə də Məfkurə: — Bir əla ərəb rəqsi, — deyə ayağa qalxdı, maqnitofonun kasetini dəyişib düyməsini basdı. Otağı oynaq ərəb musiqisi sədaları bürüdü. Günəşlə Aidə ayağa qalxdılar. Musiqinin sədaları altında oynamağa başladılar. Bu qızlar elə məharətlə bədənlərini əsdirir, çiyinlərini, qol-qıçlarını, göbəklərini oynadırdılar ki, adama elə gəlirdi onlar ərəbdilər, özləri də belə bir rəqs üçün xüsusi təlim keçmişdilər. Qızlar yorulub əldən düşüncəyə qədər beləcə şənləndilər. Heydən düşən qonşu otaqların qızları xoruzların ilk banında xudahafizləşib getdilər.

* * *

Şəfəq otağa girəndə stolun üstə yazılı vərəq gördü. Orada yazılmışdı: "Şəfəq, biz təmiz hava almaq, eynimizi açmaq üçün yaxınlıqdakı parka gedirik. Geciksək, narahat olma. Bir azdan biz də gələcəyik". Hörmətlə Büllurə və Məfkurə. Şəfəq doqquzuncu sinif üçün ədəbiyyat dərsliyini rəfdən götürüb oxumağa başladı. Nə fikirləşdisə, gözləri məhcul bir nöqtəyə dikildi. Elə bu dəm dəhlizi səs-küy, söyüş-qışqırıq səsləri bürüdü. Şəfəq ayağa qalxdı və marağını gizlədə bilməyib dəhlizə çıxdı. Gözlərinə inanmadı. Otuz yaşı olar olmaz dolu bədənli, saçlarına sarı rəng çəkilmiş bir qadın özündən xeyli kiçik, arıq, çəlimsiz bir qızı döşəməyə yıxıb təpikləyir, saçlarından tutub sürüyürdü. Sakinlər yaşadıqları otaqların qapısı ağzında dayanıb bu hadisəni kənardan sakitcə müşahidə eləyirdilər. Sanki bu belə də olmalıydı. Bu vaxt pilləkənləri qalxan Çinarə ilə Həcər bunu görcək dözməyib irəli atıldılar. Çinarə döyən qadını arxadan tutdu və:





— Zoya, bəsdi, — deyə qışqırdı. Elə bu dəm yıxılan ayağa qalxdı. Həcər isə dalaşanların arasına girdi. Zoya (Şəfəq onu ilk dəfə görürdü) kişi söyüşləri söyür, dartınıb əldən çıxmağa çalışırdı. Arabir də: — Səni doğruyaram, öldürərəm, qəhbə, lotu, — deyirdi. Döyülən isə abır, həyasına qapanıb hönkür-hönkür ağlayırdı. Zoyanın hərəkətləri Şəfəqin gözləri önündə Tubunu və özünün döyülüb-söyülüb evdən qovulduğu anları canlandırırdı. O da bir söz deməsə də, təhqir olunan, döyülən qızın qolundan tutdu. Həcərin köməyilə onu Zoyadan ayırdılar. Şəfəq: — Lalə, bacımsan, gedək bizim otağa — dedi. Lalə isə hönkürüb için-için ağlaya-ağlaya bildirdi:

— Axı mənim günahım nədi? Hər gün gedib-gəlib məni təhqir eləyir: — Paltarlarımı yu, ütülə, xörək hazırla, çay qoy, — deyə hökmlər verir. Aldığım maaşın da yarısını ona xərcləyirəm. İndi də mənə böhtan atır ki, guya onun koftasını oğurlamışam. Üstümə düşüb ki koftamı gətirməsən, ya əvəzində təzəsini almasan, səni polisə verəcəm. Mən deyəndə ki sənin elə koftan olmayıb, onda o, məni küçə söyüşləri ilə bu günə saldı.

Bunu eşidən qonşular Lalənin başına toplaşdılar. Zoya qışqırdı.

— Lotuları başına yığma. Səni öz əllərimlə doğuzduraram, həyasız. Gəl, keç otağa.

Heç kəsdən söz götürməyən və kimsənin qabağından qaçmayan Çinarə gözlənilmədən Zoyanın ağzının üstündən bir sillə çəkdi və dedi:

— Ud nəfəsini, alçağın, yaramazın qızı.

Gözlənilmədən açılan sillədən Zoya səndələdi. Əlini divara verib özünü yıxılmaqdan güc-bəla ilə qurtardı. Elə bu vaxt burnundan açılan qan üst dodağını bürüdü. O, əli ilə qanını sildi və Çinarənin üstünə atıldı. Qız yana çəkildiyindən əli boşa çıxan Zoya döşəməyə yıxıldı. Çinarə onun niyyətini başa düşdüyündən fürsəti əldən vermədi. Yıxılmış Zoyanın belində oturub birneçə dəfə başına-başına vurmuşdu ki, qızlar irəli qaçıb onları bir-birindən ayırdılar. Zoya ağız-burnunun qanını silə-silə, ucadan qışqıra-qışqıra, boğaz damarları çıxa-çıxa söyüşlər yağdırır, kişi dostları ilə sabah onları cəzalandıracağını bildirirdi.

Əsəbdən sir-sifəti ağaran, gözləri hədəqədən çıxan Çinarə astadan deyirdi:

— Tələsmə, hələ bu harasıdı, Lalənin qisasını səndən özüm alacam, həyasız. Adam kimsəsiz, cansız, əlsiz-ayaqsız olanda onu alçaldarlarmı? Sənə xidməti azmış kimi indi də üstünə böhtan atırsan, ifritə. Dediyin kişilərin dərsini də özüm verəcəm.

— Lalə ilə özümüz bilərik. Sən kimsən? Haranın küçüyüsən?

Çinarə Zoyanın üstə yeriyirdi ki, qızlar ona imkan vermədilər. Əlacı kəsildiyindən o, Zoyaya:

— Keç otağına. Səsin çıxmasın. Çıxsa, mən sənə Lalə deyiləm, dilini kürəyindən çıxaracam.

Qızlar Lalə ilə Çinarəni çəkə-çəkə Həcərgilin otağına gətirirdilər ki, Buta dəhlizin aşağı başında göründü. Hadisəni və onun səbəblərini dərindən öyrənən komendant elə həmin gecə Lalənin yerini dəyişdi. Zoyanı isə qadınlığa yaraşmayan hərəkətlərinə görə yataqxanadan qovdu.

* * *

Bir neçə gün idi ki, Çinarə otaq rəfiqəsi Qəmərin söz-söhbətindən, dedi-qodusundan cana doymuşdu. Qəmər gedib-gəlib nişanlısı İsmətdən, neçə gündə məktubuna cavab verməməsindən şikayətlənirdi. Axır ki cana doyan Çinarə ondan soruşdu:





— İsmətə məktubu nə vaxt yazmısan?

— Beş gün olar.

— Nişanlın harda yaşayır?

— Kənddə.

— Aman ver, məktub gedib çatsın zavallıya da.

— Yəni indiyə çatmaz?

— Ay qız, sənin İsmət qardaşa məktubun bir həftəyə ancaq çatası, o, məktubu alası, oxuyası, sənə cavab yazası, poçta salası, məktub Bakıya gələsi, sən də onu burda alası. Bir ay vaxt lazımdı.

— Sən də ağ eləmə. Təzə-təzə nişanlananda hər gün ondan məktub alardım. İndi bir əlcə məktub yazmağa ərinir. Eybi yoxdu. Vaxt gələr.

— Neyləyəcəksən? O yan, bu yan eləyəcəksən, nə çox səndən də yaxşı qız.

— Aaa... Sən nə danışırsan? Ürəyimi partlatma!

— Tələsmə. Məktub alarsan.

Çinarə söhbəti uzatmadı. Öz-özünə düşündü: — Bu qədər səbrsizlik olmaz, Qəmər. İndi mən sənin başına bir oyun açaram, özün də məəttəl qalarsan. Sevincinə bütün qızlar yığışar başına. Ancaq gərək məni qınamayasan, məndən küsməyəsən, Qəmər...

Çinarə şkafdan “İkili dünyam” romanını götürüb çarpayısında uzandı. Oxumağa başladı. Qəmər ayağa qalxdı: — Ürəyim yamanca darıxır, Çinarə, mən gedirəm Şəfəqgilin otağına, televizora baxmağa, — deyib, otaqdan çıxdı. Qız çarpayıdan qalxdı, qapının cəftəsini keçirtdi, sonra da gedib dəftər-qələm götürdü. İsmətin adından Qəmərə bir məktub yazdı. Çinarə məktubu konvertə qoydu və çantasında gizlətdi. Səhər işə

gedəndə poçt qutusuna atdı. Sonra da onun Qəmərə nə vaxt çatacağını izləməyə başladı.

Çinarə məktubu poçta atdığının ikinci günü idi. İşdən qayıdarkən o, aşağıda — birinci mərtəbədə poçtu yoxladı. Məktubun yataqxanaya daxil olduğunu gördü. Ancaq özünü o yerə qoymadı. Pilləkənləri qaça-qaça qalxıb otağa gəldi, yır-yığış apardı. Səbirsizliklə Qəmərin gəlişini gözlədi.

Yarım saat keçməmiş Qəmər üzündə təbəssüm, gözlərində parıltı qapını açıb içəri girdi. Hər şeydən xəbərsiz kimi özünü aparan Çinarə otaqdan çıxdı. Tələm-tələsik qonşu otaqlara girdi, vəziyyəti təfərrüatı ilə qızlara çatdırdı və onlardan da xahiş elədi ki, beş-on dəqiqədən sonra bir-bir onların otağına gəlsinlər. Aşağıda Qəmərə məktub olduğunu söyləsinlər. Bundan sonra Çinarə otağa qayıtdı. Keçib çarpayısında uzandı. Onun ardınca Həcər, Məfkurə, Şəfəq, Günəş hərəsi bir bəhanə ilə onların otağına gəldilər. Hər biri gün ərzində görüb-eşitdiklərindən, özlərinin quramalarından, uydurmalarından danışdılar. Gözlənilmədən Günəş üzünü Qəmərə tutaraq soruşdu:

— Sənə məktub gəlib. Anandandı?

— Yox, İsmətdən!

Qəmər özünü saxlaya bilməyib gülümsündü. Çinarə tərs-tərs rəfiqələrinin üzünə baxdı. Sonra dilləndi:

— Ay qız, utanmırsan, gündə baş-beynimi aparmısan ki, İsmət məktub yazmır. Bəs bu nədi? De görək, nə yazır.

Qəmər əvvəl məktubda yazılanları demək istəmədiyindən bir balaca yalan danışmalı oldu:

— Salamatlıqdı, hamınıza salam söyləyir.

Həcər:

— Konkret kimə?

— Sənə, Çinarəyə.

— Yalan deyirsən. İsmət sənə yazdığı məktubda bizə salam göndərməz.





Çinarə:

— Əşi yazar, mübahisə eləməyin. Biz də onun bacıları. Görürsən ki, inanmır, çıxar oxu, öz qulaqları ilə eşitsin.

— Lazım deyil.

— Məktub hardadı?

— Çantamda.

Məfkurə ayağa qalxdı. Qəmərin çantasından məktubu götürdü. Qəmər istədi məktubu Məfkurənin əlindən alsın. Sonra da düşündü ki, məktubda elə ciddi şey yazılmayıb, əksinə, nişanlısı onu o ki var tərifləyir. Ona görə də Məfkurəyə imkan verdi ki, məktubu oxusun, yazılanları rəfiqələrinə çatdırsın.

Həyatın qəribəliklərini insanlar yaradırlar. Elə adamlar var ki, özünün sirlərini gizli saxlaya bilmir. Fürsət düşən kimi üzünə gülənlərə, bəzən lap fərqinə varmadan hırıldayanlara yanaşır, ehtiyac olmadan belə, ev qapısının açarının yerini onlara deməli olurlar. Ürəyinin təmizliyindənmi, qəlbinin açıqlığındanmı, hamıya olan inamındanmı Qəmər də belələrindən idi. Onsuz da bir saat keçməmiş özü bu gün nişanlısından məktub almasından, məktubda deyilənlərdən, yazılmış şeirdən ağız dolu danışacaq, yataqxanada ona salam verənləri, az-çox onunla ünsiyyətdə olanları hər şeydən xəbərdar eləyəcəkdi. Məfkurə məktubu əvvəl ucadan oxumaq istədi. Sonra nə fikirləşdisə, onu Qəmərə verdi: — Özün oxu, — dedi. Qəmər məktubu alıb böyük sevinc, fərəh hissi ilə, şövqlə ucadan oxumağa başladı.

— Salam, Qəmər! Əzizim, məktubunu aldım. Bilsən nə qədər sevindim?! Doğrusu, uçmağa qanadım olmadı. Səndən uzaqlarda olsam da, elə bilirəm ki, bu dağlar qoynunda səninləyəm. Bu dağların təmiz havasını da səninlə birlikdə alıram. Tələsmə, hər şey yaxşı olacaq. Təki sən təhsilini başa vur... Gələcək toy günümüz barədə fikirləşəndə ürəyim köksümə sığmır. Hər şey sənin istəyinlə olacaq. Dünən anam da deyirdi ki, Qəmər məktəbi qurtarsaydı, xeyir işimizi eləyərdik. Anamın da, bacımın da

sənə salamları var. Ürəyimdən gələn hisslərimi sənə şeirlə çatdırmaq istədiyim üçün məktubu geniş yazmıram. Məncə, bu şeirdə sənə olan istəyimi, həsrətimi, duyğularımı ifadə eləyə bilmişəm.

Əzizim, gül ətrin, gül sorağınla
Dünyanı eşq ilə gəzib dolannam.
Məhəbbət oduna, sevgin oduna
Pərvanələr kimi alışıb yannam.

Sən mənim ilk andım, ilk növrağımsan,
Daim fikrimdəsən, xəyalımdasan.
Varlığın qəlbimdə, adın dilimdə
Taparsan nə zaman məni axtarsan.

Taleyimdə doğan aysan, günəşsən
Həyatım da sənsən, baxtım da sənsən
Eşqsən, məhəbbətsən, sönməz atəşsən,
İncəsən, zərifsən güldən, çiçəkdən.

Bahar təravəti var nəfəsində,
Qəlbimi titrədən, bil, həsrətindi.
Səndən savayı yox, bircə kəsim də
Mənə ilham verən məhəbbətindi.
Hörmətlə: Can-ciyərin İsmət

Qəmər məktubu oxuduqca ürəyinə yatdığı sözlərin, ifadələrin üzərinə xüsusi vurğular salırdı. O, məktubu oxuduqca özünü dünyanın ən xoşbəxt adamı sanırdı; xəyalən yerdə yox, fəzanın ənginliklərində qanad açıb uçurdu. Qızlar gözaltı bir-birilərinin üzlərinə baxır, oğrun-oğrun gülümsəyirdilər. Məktub oxunub qurtardıqdan sonra Qəmər onu qaytarıb çantasına qoydu. Çinarə





dərhal:

— Bəs deyirdin İsmət Həcərlə sənə salam yazıb? Hanı həyasız?

— Gündə yüz yalan danışırsan, heç mən bir söz demirəm. İndi də birini mən demişəm. Dünya qopmadı ki?

Həcər:

— Yaxşı, yalan danışmağından keçirik bu dəfə, Qəmər. De, görüm, indi də adaxlından narazısan? Elə şeiri şahların, kralların qızlarına yazarlar.

— Bəyəm, mən şah, kral qızlarından əskikəm?

Bayaqdan bəri hadisələrin gedişini diqqətlə izləyən Şəfəq gözlənilməz bir sual verdi:

— Qəmər, İsmət qardaşa sən necə məktub yazacaqsan?

— Nə yazacam? Deyəcəm, məktubunu aldım. Şeirinə görə sənə təşəkkürümü bildirirəm.

— Aaa...

Otağı gülüş səsləri bürüdü. Zarafatının pis nəticə verə biləcəyini düşünən Çinarə məsələni yerli-yataqlı açmağa məcbur oldu. Aldandığını görən Qəmərin gülməkdən savayı özgə çarəsi qalmadı. Elə həmin gecə rəfiqələr Qəmərə ünvanlanmış şeiri əzbərləməli oldular.

* * *

Yataqxana həyatı Şəfəqə çox şey diktə eləyirdi. Şəfəqsə onlardan yalnız özünə lazım olanlarını seçib götürürdü. Sakinlərin yarıdan çoxu ərsiz, dul qadınlar idi. Onların da bir qismi həyatlarını yüngül keçirməyə meylli idilər. Bir çoxu da adətlidi. Bunu da özləri üçün fəxr bilir, açıq-saçıq hərəkətlər eləyirdilər. Bir qarın yemək, beş manat pul üçün abır-həyalarını, ismətlərini kimlərə gəldi satırdılar. Hələ bu azmış kimi sadəlövh, yüngüldingil, kütbeyin qızları da aldadıb öz ardlarınca çəkirdilər. Çox

zaman da istəklərinə nail olurdular. Aldanıb səhvlərini başa düşənlər acı göz yaşları içərisində günlərini keçirirdilər.

Park yataqxananın beş-on addımlığında idi. Hər axşam parkdakı partalarda əyləşərək kişilərlə qol-boyun olan, dodaq-dodağa öpüşənlərin çoxu yataqxana sakinləri idi. Doğrudur, bunu hamıya şamil eləmək olmazdı. Hər halda, günlərini keçirən, həyatının mənasını eyş-işrətdə görənlər üstünlük təşkil eləyirdi. Şəfəq bütün gücü və qüvvəsi ilə belələrindən qaçmağa, onlarla imkan daxilində qarşılaşmamağa, ünsiyyətə girməməyə çalışırdı. İnsafən onun ünsiyyətdə olduğu qızlar da belə şeylərdən çox-çox uzaq idilər. O, bunun üçün Tanrısına şükürlər oxuyurdu.

Bazar günü idi. Məfkurə ilə Büllurə rayona getdiklərindən Şəfəq həmin gün otaqda tək qalmışdı. Bütün günü yır-yığışla, paltar yuyub-ütüləməklə məşğul olduğundan çox yorulmuşdu. O, gəlib çarpayısında uzandı. Oğlu gəlib gözləri önündə dayandı. Fikirləşdi ki, indi əziz Hikməti yeriyir, yəqin ki, nənə, ata, bibi sözlərini deyir. Görən "ana" sözünü də bilirmi? Bilirsə... Üst-başına yaxşı baxırlarmı? Heç olmasa, həftədə, on gündə bircə dəfə onu çimizdirirlərmi? Aman Allah! Oğlumu əzizləyə-əzizləyə qucağına alanı, şirin sözlərlə qəlbini güldürəni, başını sığallayanı varmı? Tubunun ümidinə qalsa, çox pis. Əl-ayaq altda itəcək mənim balam.

Şəfəq için-için özünü yedikcə, zəhərdən də acı keçmiş xatirələri oyandıqca, ürəyi kövrəlirdi. Sakitcə, səssiz-səmirsiz gözləri bulud kimi dolub-boşalırdı. Ürəyi darıxdığından qalxıb çarpayısının qırağındaca oturdu. Dirsəklərini dizlərinə dirəyib başını qolları arasına aldı. Beləcə xeyli dayandı. Gözləri bir nöqtəyə dikildi. Gedib-gələn nəfəsi sinəsini hərdənbir qabardıb endirməsəydi, çiyinləri tez-tez qalxıb düşməsəydi, arabir burnunu çəkməsəydi, adama elə gələrdi ki, bu çarpayıdakı Şəfəqin ya cəsədidi, ya da heykəli. Bir azdan ayağa qalxıb pəncərəyə yaxınlaşdı. Günəş qüruba çəkilirdi. Qızılı şüaları yollardan,





cığırlardan hiss olunmadan yığışıb gedirdi. Yerini yaxınlaşmaqda olan gecənin qara tül pərdəsi tuturdu. Bir az bundan əvvəl parlaq görünən şeylər utanıb-xəcalət çəkirlərmiş kimi rənglərini dəyişirdilər. Qapqara, anlaşılmaz bir görkəm alaraq adamda qorxu, təlaş, vahimə yaradırdılar. Şəfəq düşündü: "Tubu, Şapəri, Zoya kimi əxlaq sahiblərini hər cür alçaqlığa, namərdliyə, düşkünlüyə vadar eləyən görəm nədi? Belələri bircə dəfə öz nalayiq hərəkətlərini düşünüb peşmançılıq hissi keçirirlərmi? Şəhvət hisslərini öldürmək, ehtiraslarını söndürmək üçün onlar hər cür əxlaqsızlığa niyə getməliydilər? Həyatın girdabına yuvarlanmalıydılar? Görəm, belələrini insan hesab eləmək olarmı? Əgər onlar insandırlarsa, bəs Əsəd əmini, Qumru xalanı, Süsəni, Pərini, Mətanəti, Cavadı, Məfkurəni, Büllurəni, Çinarəni necə adlandıraq? Vallah, qəribədi bu dünyanın işləri. Baş açmaq olmur yaratdığı, qurduğu oyunlardan. Nə deyəsən? Dünyanın tərəzisi bəlkə əzəldən əyri qurulub ki, biz insanlar pisi-yaxşıdan ayıra bilək? Qəribədi. Mən indi gündüzlə gecənin vidalaşdığı anları müşahidə eləyirəm. İşıqla zülmət arasında gedən mübarizəyə şahidəm. Gecə gündüzün eləyə, deyə bilmədiklərinin vədini verir. Ancaq unudur ki, hər ikisinin xilqəti milyard, milyon illərdi insanlara bəllidi. Ey yaxınlaşmaqda olan gecə, sən yaxşı bilirsən ki, qoynundakı bu otaqda mən tək-tənha qalacağam. Öz içimə qapanmışam. Güman eləmə ki, sirlərindən, xislətindən xəbərsizəm. Sən nə qədər qorxuncsan?! Sən nə qədər vahiməlisən?! Sən nə qədər müdhişsən?! Sən nələr demirsən?! Sən nələrdən danışmırsan?! Hər dəfə sənin qaranlıq qoynuna atılaraq çarpayıma uzanıb gözlərimi yumuram. Keçmiş xəyallarım, ümidlərim gözlərim önündə canlanır. Hər şey tutqun! Hər şey dolaşıq! Hər şey qaranlıq! Artıq qorxuram səndən! Qorxuram rəhmsizliyindən! Açılan səhərin də mənə yaxşı vədlər verəcəyinə inanmıram! Sən də bəzi insanlar kimi ikiüzlüsən! Qəddarsan! Mərhəmətsizsən!.."

* * *

Yataqxana, fabrik həyatı nə qədər qızğın, başqarışdırıcı olsa da, uşaqsızlığı Şəfəqə can üzücülük gətirirdi. O, özünü qəm, qüssə, kədər gətirici fikirlərdən heç cürə azad eləyə bilmirdi. Hərdən az qalırdı ki, iş-gücünü atıb minsin qatara, ya avtobusa, yollansın Gəncəyə. Sonra da bu düşüncələrinin tam əksinə olaraq fikirləşirdi: — Bir də o cəhənnəm ocağına gedimmi? Orda cinayətmi törədim? Qisasmı alım? Yaxşı, lap tutaq ki, elədim. Sonrası necə olacaq? Balama sahib dura biləcəmmi? Deməyəcəklər ki, bu qadın dəli olub? Yox! Mən daha pis vəziyyətdə qalacam. Bir tərəfdən tanıyanlar məni qınayacaq. Məni əxlaqsız, ləyaqətsiz, şərəfsiz adlandıracaqlar. O biri tərəfdən də həbs olunacam. Cani tək türmələrə atılacam. Yenə balamdan əllərim üzüləcək. Ondan uzaqlarda qalacam. Eh... Başım çatlayır... Cinayət törətsəm, sonralar balam mənə haqq qazandıracaqmı? Cinayətləri eləməkdə məqsədim sənə qovuşmaq olub desəm, oğlum mənə inanacaqmı?.. Bu suallara cavablar axtardıqca zavallı Şəfəqin müvazinəti pozulurdu. Ağlının gücü sanki tükənirdi. Bəzən donuq kimi qalırdı. Onun çaşqınlığını fabrikdə sex rəisi Nuridə də, qonşu maşınlarda işləyən rəfiqələri də duyurdular. Ancaq bu çaşqınlığın səbəblərindən xəbərsiz idilər. Nuridə hər dəfə: — Sənə nə olub? — deyə ona hər şeyin mənasız, ötəri olduğunu anlatmağa çalışırdı. Fabrikin rəhbərliyi tərəfindən işinə nə qədər yüksək qiymət verilsə də, fəxri fərmanlarla təltif olunsa da, onların sanki Şəfəqə heç bir təfavütü yox idi. Az müddət ərzində Şəfəq əxlaqına, davranışına görə bir çoxlarının rəğbətini qazanmışdı. Onun nailiyyətlərinə, sevilməsinə ağız büzənlər də, həqarətlə baxanlar da vardı. Şəfəqsə bütün bunları görməməzliyə vurur, onlara təbii hal kimi baxırdı. Onun bu hərəkətləri əleyhdarlarına da əməllicə-başlıca təsir eləyir, getdikcə bəziləri səhvlərini başa düşür, əvvəlki fikirlərindən əl çəkirdilər. Onunla öz münasibətlərini yaxın rəfiqə çərçivəsinə salırdılar. Bir zaman ondan uzaqda dayanan, qısqanclıq hissləri ilə baxanların özünə yaxınlaşdıqlarını görəndə sevinirdi. Şəfəqin ən gözəl xüsusiyyəti adamlarla tez dil tapmaq, onlarla ünsiyyətə girə bilmək bacarığı idi. Şəfəq Tubu kimi dar, məhdud düşüncəli bir qadını özünün təsir dairəsindən kənarda qoyduğunu özünə heç cürə bağışlaya bilmirdi. Bunun üçün o, özünü tez-tez məzəmmətləyirdi.





* * *

Bir neçə gün idi ki, fabrikin mühəndisi Rəsul sexi gəzirdi. Onun otuz yaşı olardı. Yağ vurduğundan arxaya daranmış qara saçları par-par parıldayırdı. Qara, qalın lopa bığları vardı. Üzünə qadın kimi pudra da çəkmişdi. Qarnının böyüklüyündən az qala əyninə geydiyi kostyum partlayacaqdı. Maşınların yanında dayanır, qızların əl işlərinə fikir verirdi. Mühəndisin gəlişinin məqsədini qızlar apaydın başa düşürdülər. Bəzən də onlar: — Xeyir ola, nə yaxşı gəlibsən? — deyə, ondan soruşurdular. Rəsul qızların atmacalarını başa düşsə də, özünü o yerə qoymurdu. Hər dəfə də Şəfəqə çatanda o, nəzərlərini maşından çox Şəfəqin üzgözünə yönəldir, düz gözlərinin içinə baxmağa, ona nə isə bir şey anlatmağa çalışırdı. Bunu tam aydınlığı ilə başa düşən Şəfəq heç bir reaksiya vermirdi. Rəsula elə gəlirdi ki, o çox avamdı. Him-cim başa düşməkdə təcrübəsi yoxdu.

İşin axırı idi. İşçilər iki-bir, üç-bir sexdən çıxıb gedirdilər. Şəfəq də yır-yığış eləyib getmək istəyirdi ki, çıxacaqda mühəndisin dayandığını gördü. Şəfəq əvvəl düşündü ki, geri qayıtsın. Sonra da fikirləşdi ki, əgər sözü varsa, onsuz da əlverişli məqam tapacaq, məni yaxalayacaq, ürəyindəkiləri deyəcəkdi. Yaxşısı budur, nə sözü varsa, indi söyləsin, mən də cavabını verim. Şəfəq bu məqsədlə də geri dönmək fikrindən yan keçdi. Söz demək üçün Rəsula əlverişli şərait yaratdı. Şəfəq qapıya yaxınlaşdı. O, xudahafiz, — deyib ötürdü ki, Rəsul astadan, titrək səslə

dedi:

— Şəfəq, sənə deyiləsi sözüm var.

— Nə sözdü ki? Buyur.

— Bəlkə mənim otağıma gedək.

— Sözünü de.

— Sən gəncəlisən?

— Necə bəyəm.

— Mən də gəncəliyəm. Mən sənə hər cür kömək eləyə bilərəm.

— Səbəb?

— Bilirsən, mənim çox xoşuma gəlirsən. İstəyirəm səninlə.

— Ünvanını dəyişik salmısan. Get, adamını tap.

— Fikirləş, Şəfəq. Eybi yoxdu, sonra cavab verərsən.

— Yox! Mən sənə sözümü dedim.

Şəfəq üzünü çevirib iti addımlarla ondan uzaqlaşdı.

Aradan bir neçə gün keçmişdi. Şəfəq işdən çıxıb avtobus dayanacağına çatmışdı ki, arxadan "Şəfəq!" "Şəfəq!" — deyə səs eşitdi. Geri döndü. Rəsulu gördü. Şəfəqin sifəti bozardı. Ciddi, sərt bir görkəm aldı. — Eşidirəm, — dedi.

Şəfəqin səsindəki əsəbilik, sözündəki sərtlik Rəsulu əvvəl çaşdırdı. O, yan-yörəsinə baxdı. Sonra dilləndi:

— Şəfəq, mən o günü sözümü sənə dedim. İnadkarlıq eləmə. Mən o sexdə kimə söz desəydim, etiraz eləməzdi.

— Alçaq! Tüpürüm sənin üzünə! Bir də mənə yaxın gəlsən...

Şəfəq üzünü çevirib qaça-qaça yenicə dayanmış avtobusa minib yataqxanaya getdi. Əsəbdən sir-sifəti alışıb yanırdı. Üzünə baxan olsaydı, əsəbiliyini dərhal sezəcəkdi. Şəfəq otağa keçdi. Əlini stolun üstündəki dəm çaynikinə vurdu. Çaynik isti olduğundan dərhal Məfkurə ilə Büllurənin dərsə getdiklərini anladı. Öz-özünə dedi: — Yaxşı oldu ki, qızlar da dərsə gediblər. Mənim bu halımı görmədilər. Əclaf Hümmət, bunların hamısının günahı səndədi. Evsiz-eşiksiz, dul qadına hamı söz deyə bilər. Onda qalmışdı ki, əclaf Rəsul kimilər. Namərdlər! Nakəslər! Əxlaq düşgünləri. Yəqin ki, kişilər də qadınlar kimidilər. Onların da əxlaqsızları olmamış deyil. Əgər belə olmasaydı Tubular, Şapərilər, Zoyalar, nə bilim kimlər hardan olardı? Yoxsa, tanımadığı, halıma, xislətimə bələd olmadığı halda, Rəsul mənə o sözləri necə deyə bilərdi ki?! Ərsiz qadının ləyaqəti, şərəfi, namusu bəyəm olmur? Başqa cürə düşünməkdənsə, mənə ölüm yaxşıdı. Mənim namusum mənliyimdi, şəxsiyyətimdi, qürurumdu, oğlum Hikmətin namusudu!





Şəfəq bu fikirlər içərisində çırpınırdı ki, qapı döyüldü. Şəfəq: — Gəl, — dedi. Elə bu dəm ikinci mərtəbədə yaşayan Zülya içəri girdi. Onun iyirmi beş-iyirmi altı yaşı olardı. Şəfəq diqqətlə onun üzünə baxdı. Zülyanın səsi titrəyirdi. Bir az qorxu, bir az həyəcan içərisində dedi.

— Şəfəq, məni bağışla... Sənə deyiləcək sözüm var.

Şəfəq:

— Gəl əyləş. Eşidirəm.

— Bilirsən... Mənə bu sözü demək çətindi. Bəlkə də elə düşünəcəksən ki, mən əxlaqsızam.

Şəfəq təəccüblə Zülyanın üzünə baxdı.

— Mən eşitmişəm ki, Rəsul sənin ardınca düşüb.

Şəfəqin rəngi pambıq kimi ağardı. Səsi gərildi. İti gözləri Zülyanın gözlərinin içinə dikildi.

— Nə Rəsul? Rəsul kimdi? Onu hansı alçaq deyir? Bəyəm mən kiməm? Şəhərə bunun üçünmü gəlmişəm?

— Fabrikin mühəndisini deyirəm, Şəfəq. Xahiş eləyirəm məndən incimə. Mən şəhərə gələli o, ardımca çox düşdü. Çox yalvardı. Mənə yağlı vədlər verdi. Dedi, səni sevirəm, səni alacam. Mən başı boş da ona inandım. Həyatımı korladı, məni bədbəxt elədi.

— Nə?!

— Hə... İndi də eşidirəm... Səninlə... Əvvəllər hər gün görü-

şərdik. Guya, mənə şeirlər yazır. Mənə deyərdi: — Bu şeiri sənə həsr eləmişəm. Mən ölmüş də inanardım. Sən demə, hamısı yalanmış. Mənə xəyanət eləyirmiş.

— O şeirlərdən səndə qalanı varmı?

Zülya əlinin içində bükələdiyi kağızı açdı. Sonra da göz yaşları axıda-axıda Şəfəqə uzatdı. Şəfəq kağızı alıb onu səssiz oxumağa başladı:

Yanıram odlara səni görəli,
Xəyalım hüsnünün xəyalındadı.
Birləşdirmiş bizi taleyin əli
Hopsun dodağıma sevginin dadı.

Ürək deyənləri dil deyə bilmir,
Arzum çox, sözüm az, necə söyləyim,
Varlığım titrəyir, qəlbim titrəyir,
Əlacım səndədir, yoxsa, neyləyim?

Ürəyin nə açıq, qəlbin nə təmiz,
Hər səni görəndə qaynayır qanım.
Dünyaya baxışın dərin bir dəniz
Məndən uzaq qaçma, sən mənim canım.

Şəfəq xeyli fikrə getdi. Sonra dərindən bir ah çəkdi. Zülyanın sual dolu gözləri ona dikildi. Şəfəq başını yellədi. Sonra dilləndi.

— Bu şeiri sənə nə vaxt yazıb?

— Təzə görüşlərimizin birində.

— Onu indi də sevirsənmi?

— Hə.

— Şeiri oxuyanda onun xəyanətini hiss eləmədin?

— Yox! Gözüm elə tutulmuşdu ki, ondan savayı heç kəsi görmürdüm.

— O, sənə xəyanəti indi eləməyib, bacım. O şeiri yazanda





eləmişdi. Sənsə onu duymamısan, başa düşməmisən. İstəyirəm məni düz qəbul eləyəsən, mənimlə onun arasında başqa söhbət ola bilməz. Mənim öz əxlaqım, öz dünyam, həyata öz baxışım var. İstəməzdim ki, mən kiminləsə belə söhbətlərə oturum. Sənə yalvarıram, alçaqların sözü ilə mənim barəmdə bədgüman olmayasan.

Zülya gözlərinin yaşını silə-silə: — Məni bağışla, Şəfəq, — deyib, otaqdan çıxdı. Şəfəq Zülyanın başına açdığı oyunlara görə Rəsula lənət oxuya-oxuya çaydanı götürüb mətbəxə getdi.

* * *

Rəsul bir müddət Şəfəqin arxasınca düşsə də, heç bir nəticə vermədiyini görüb ondan uzaqlaşmağa məcbur oldu.

* * *

Son günlər Şəfəq tez-tez Süsəni yuxularında görürdü. Ən pis günündə Süsənin qoluna girib Şəfəqi evinə aparması, özü üçün təzəcə aldığı paltarı ona hədiyyə verməsi, ayrılarkən cibinə pul qoyması bir an da çəkilmirdi zavallının gözləri önündən. Hər dəfə Gəncəni xatırlayanda əziz Hikmətini itirməsi və Süsəndən ayrılığı onu haldan-hala salırdı. Bu qədim şəhər bəlkə də ona ikicə adama görə doğma idi: Hikmətinə və Süsəninə görə. Şəfəq çox düşündü, çox götür-qoy elədi. O, öz-özünə dedi: — Həqiqətən də Süsən xoşbəxt olmağa layiqdi. Mən neçə müddət onunla bir otaqda yaşadım. Bir dəfə də olsun ondan incimədim, küsmədim. O zamanlar biz hələ çox şeydən xəbərsiz idik. Həyatın dolanbac yollarını keçməmişdik. İnsanları yaxşı tanımırdıq. Hər üzümüzə gülənə əziz adamımız kimi baxırdıq. Elə bilirdik, bundan yaxşı adam yoxdu. Sadəlövhlüyümüzdən, insanlara inamımızdan çox vaxt başımız ağrı çəkərdi. Əlimizə düşən bir tikə

çörəyi yarı bölərdik, bir-birimizə dayaq olardıq, can deyib-can eşidərdik, hara getsək, birlikdə gedərdik. Heç yadımdan çıxmaz. Yaz vaxtı idi. Günortaya yaxın Süsənlə şəhərə çıxdıq. Yüz ildən artıq yaşı olan nəhəng çinar ağacları ilə sıralanmış parka gəldik. Boş skamyalardan birində əyləşdik. Təzə-tər yarpaqlar bu qocaman çinarlara cazibədarlıq, valehedici görkəm verməkdə idi. Yaxınlıqdakı fəvvarələrin hay-küyü aləmi başına götürmüşdü. Çinarların başında yuva quran, budaqdan-budağa atılan qarğaların qarıltıları, bir az aralıda — gölməçələrin kənarında dayanıb ağ yelkənli oyuncaq gəmilərini suya buraxan uşaqların çal-çağırına qarışırdı. Bəzək kolları, onlardan da bir az aralı əkilən gül-çiçək adamı özünə cəzb eləyirdi. Parkın düz ortasında böyük Mirzə Şəfinin əzəmətli məbədi ucalırdı. Parkın qurtarha-qurtarında isə rus generalı qəddar Sisianovun nadanlığı, ermənilərin xəyanəti və o zamankı qan qardaşları olan xanların dar, məhdud düşüncələri nəticəsində böyük bir ordu ilə üzbəüz vuruşda həlak olan Cavad xanın ağ mərmərdən qəbri vardı. Ömrünü Gəncə camaatının firavanlığına, xoşbəxtliyinə sərf eləyən bu adam ölümündən sonra xalqın oğlu adını almışdı. Əslində, bu adı ona sadə adamlar vermişdi. Şəninə, şöhrətinə mahnılar qoşulan Cavad xan.

Parlaq, oynaq, ılıq yaz günəşinin təsiri ilə vəcdə gələn sərçələr, sarıköynəklər, sığırçınlar civildəşə-civildəşə atılıb-düşürdülər. Parkın kənarı ilə uzanıb gedən yolda sürətlə şütüyən balaca maşınların gurultusu, siqnalları eşidilirdi. Məscidin uca minarəsindən çəkilən azan səsi həzin, qəlb ovsunlayan musiqi kimi ətrafa yayılırdı. Elə bu vaxt iki cavan oğlan bizə yaxınlaşdı. İcazə istəyib yanımızdaca əyləşdilər. Mənim gözlərim oğlanlardan bir şey almadı. Süsəni dümsükləyib, ayağa qaldırmaq istəyirdim ki, Süsənin yanında əyləşən oğlan üzünü ona tutaraq dedi: — Bu gün mənim ad günümdü, icazə ver səni öpüm. Mən çaşdım. Bir anlığa nə eləyəcəyimi bilmədim. Oğlan sırtıqlıqla





əli ilə məscidi göstərərək: — And verirəm bu məscidə, sözümü yerə salıb ürəyimi qırma, — dedi. Süsən: — Buyur, — deyə cavab verdi. Məni dəhşət bürüdü. Oğlan dodaqlarını Süsənin üzünə yaxınlaşdırmışdı ki, qız gözlənilmədən onun üzünə var gücü ilə bir sillə çəkdi. Səsinə mən də, yanımda sırtıqlıqla əyləşən o biri oğlan da dik atıldıq. Yanımızdan ötüb keçənlər dönüb bizə baxdılar. Sillə yeyən oğlan ayağa qalxdı: — Bu ki xuliqanmış, — deyib bir qədər geri çəkildi. Süsən: — Bu da sənin ad gününə hədiyyə, — deyə cavab verdi.

Şəfəqin xatirələri çözələndi. O, özünün yadda qalan maraqlı anlarını, yataqxanada yaşadığı illəri, eyni qanadlı quşlar tək ağız-ağıza verib nəğmələr oxuduqları vaxtları, Hümmətlə ilk görüşlərini, Gəncə çayının ətrafında oturduqları, parkda gəzdikləri çağları xatırladı. Keçən şirin, qayğısız anlarını geri qaytarmaq istədi. Ancaq bacarmadı: Xatirələrin iti qanadlarında o, Süsənə məktub yazmaq qərarına gəldi.

*"Əziz bacım Süsən! Salam! Məktubu sənə Bakı şəhərindən yazıram. Xatırladım ki, səninlə Şəfi qardaşın mənə olan diqqəti heç zaman unudulan deyil. Qızlar dərsdədi. Otağıma qapanıb sənə məktub yazıram.*

*Mən səndən ayrılalı ikicanlı idin. Qızın, ya oğlun olmasından xəbərsizəm. Oğul, qız hər ikisi şirindi. Xoşbəxt olsun. Uşağın barədə mənə ətraflı yaz. Mən Göyçaya gələndən bir müddət sonra babam rəhmətə getdi. Həyatımda bu, mənim üçün ən böyük itki oldu. Neyləmək olar? Görünür, qismət beləymiş. Hazırda Bakıda tikiş fabrikində işləyirəm. Yataqxanada qalıram. Mənə bu şəraiti bir zaman uşaqlıq rəfiqəm Mətanət və onun ömür-gün yoldaşı Cavad yaradıblar. Bunun üçün onlara borcluyam. İndi bütün işlərim qaydasındadı. Otaqda üç nəfər qalırıq: mən, Məfkurə, Büllurə. İnsafən, yaxşı qızlardır. Yüksək ailə tərbiyəsi görüblər. Onlarla bir otaqda qaldığım üçün şadam. Onlar gündüz işləyir, axşam ali təhsil alırlar.*

*Mən də il yarımdır ki, qəbul imtahanlarına hazırlaşıram. Rəfiqələrim oxumaqda mənə çox böyük kömək göstərirlər. Arxı tullanmamış bərəkallah demək istəmirəm. Çaya çatmamış çırmanmaqdan özün bilirsən ki, zəhləm gedir. Nəticə ilə öyünərlər. Əziz bacım, iki nigarançılığım var: biri Hikmətim, o birisi sən. Nə gizlədim, oğlum üçün hədsiz darıxıram. Gecəm-gündüzüm yoxdu. Dilim-ağzım təpiyir. Görən, bir də balamla görüşə biləcəmmi? Qanını qaraltmayım. Nə isə... Hər ikinizə can sağlığı arzulayıram. Şəfi qardaşa da salamımı yetir.*

*Telefon nömrənizi unutmuşam. Onun üçün də sənə zəng çala bilməmişəm. Bağışla məni. Məktubunu gözləyirəm.*

*Hörmətlə, bacın Şəfəq".*

Məktubu yola saldı. Səbirsizliklə cavabını gözlədi. On beş gün keçməmiş Süsəndən məktub aldı:

*"Əziz bacım Şəfəq, salam. Məktubunu aldım. Çox sevindim. Doğrusu, keçən müddət ərzində məktubunu çox gözlədim. Elə bildim, daha məni unutdun. Sevinirəm ki, yanılmışam. Əziz bacım, soruşursan oğlun, ya qızın olub. Biləsən ki, qızım dünyaya gəlib. Adını da atası Arzu qoyub. Uşaq körpə olduğundan bütün günü evdə oluram. Şəhərdə baş verən bir çox məsələlərdən xəbərsizəm. Allah sənin Hikmətini də salamat eləsin. Nə isə... Sənin vəziyyətinin düzəlməsi və ali təhsil almaq üçün qəbul imtahanlarına hazırlaşman mənim də ürəyimcədi. Xatırladım ki, bu, böyük inam, dözüm və müntəzəm çalışmaq tələb eləyir. Mübarizlər daim qələbə qazanırlar. Bu yolda sənə uğurlar diləyirəm. Babanın dünyasını dəyişməsi bizi də kədərləndirir. Dərdinə şərik oluruq. Allah babana rəhmət eləsin. Qəbri nurla dolsun.*

*Qaldı sənin Hikmətlə bağlı narahatlığına, onun üçün tələsmə. Övladı anadan heç kəs ayıra bilməz. Bu günlərdə Şəfini götürüb Hümmətgilə gedəcəm. Oğlunu da görəcəm. Onun barəsində sənə geniş məlumat verəcəm. Mənim salamımı Məfkurəyə də, Büllurəyə də çatdır. Allah onları da xoşbəxt eləsin.*





*Mən Şəfi ilə danışacam, o, Bakıya gedəndə vaxt tapıb səninlə də görüşəcək. Hal-əhval tutacaq. İşini elə qur ki, onunla gələ biləsən bizə. Əziz bacım! Unutma ki, Gəncə təkcə Hümmət, Tubu, Qəhmər demək deyil. Bu şəhərin təmiz havasından, sağlamlıq bəxş eləyən suyundan biz də — əziz yadigarın Hikmət də, mən də, elə qardaşın Şəfi də qəbul eləyir. Hə, az qala unudacaqdım, bizim telefon nömrəsi: 00...0-dır.*

*Hörmətlə: bacın Süsən"*

Şəfəq məktubu aldı. Əvvəl gözlərinə inanmadı. Otağına qapanıb onu dönə-dönə oxudu. Gözlərinin yaşı selləmə axmağa başladı. O, heyrət və sevincdən kütləşmişdi. Danışa bilmirdi. Məktubdakı mehribanlıq və mərhəmət hissləri onu məst eləmişdi, dondurmuşdu. O, haçandan-haçana özünə gəldi. — Süsənin qızı olub, adı da Arzu, — deyib, məktubu ürəyinin başına qoydu. Sonra da: — Xoşbəxt olsun, — dedi.

Deyirlər, böyük bir sevgi pərişanlığı keçirən adam ən iztirablı, ən dərdli halda belə öz problemlərini götür-qoy eləyib nəticələr çıxarmağa, qərar qəbul eləməyə qabildir. Belələri hədsiz ehtiraslar qasırğasına məntiqinin gücü ilə müdaxilə eləyə bilir, qəzəbini, kədərini, çılğınlığını sakitləşdirməyi bacarır, böyük soyuqqanlılıq göstərirlər. Şəfəq də buna qadiriydi.

* * *

Ali məktəblərə qəbul imtahanlarına az qalırdı. Şəfəq filoloq olmaq arzusunda idi. O, yataqxanaya gələndən otaq sanki ədəbiyyat, incəsənət, musiqi beşiyinə çevrilmişdi. Qızların böyük həvəs və ilhamla Şərq və Qərbin korifeylərindən dedikləri şeir, söz-sənət nümunələri, əsərlərindən söylədikləri monoloqlar hər gün onun ədəbiyyata olan hədsiz məhəbbətini artırırdı. Məfkurə də, Büllurə də şirin yuxuda idilər. Gecə yarıdan keçsə də, Şəfəq yata bilmirdi. Zəhərdən də acı xatirələri onu öz ağuşu-

na almışdı. Sevinc doğuracaq hal o idi ki, keçirdiyi dumanlı hisslər içərisində güclə də olsa, seçilə biləcək işıqlı nöqtələr yaranır və onlar da Şəfəqi xoşbəxt gələcəyə doğru çəkib aparırdı. Şəfəq astadan yataqdan qalxdı. Büllurənin dünən aldığı radioqəbuledicini götürüb qulağına taxdı. Sonra da qayıdıb yatağında yenidən uzandı. Qəbuledicinin düyməsini basdı. Qaboyun ürək ovsunlayan ecazkar, həzin, niskilli səsi Şəfəqi öz narahat dünyasından qoparırdı. Onu kimsəsiz, tənha, üfüqləri görünməyən bir aləmə çəkib aparırdı. Bu anda görkəmli mərhum aktyor Əli Zeynalovun lent yazısında böyük Füzulinin ağıl və hisslərdən yoğrulmuş, qüdrət və kamillik mücəssəməsi olan qəzəlləri aramla səslənməyə başladı. Bülbüllərin ah-naləsinə, gül-çiçəklərin ətrinə qarışan musiqinin sədasından, sözlərin bal dadan şirəsindən Şəfəq uyumuşdu. Musiqinin, sözün qüdrəti bu xanımın filologiya fakültəsinə daxil olmaq ehtirasını yüksəldirdi...

Şəfəq sənədlərini hazırlayıb universitetin filologiya fakültəsinin axşam şö'bəsinə verdi. O, böyük həyəcan keçirirdi. Gündüz işləsə də, gecə yarıyadək kitablar üzərində çalışır, özü üçün qeydlər götürürdü. Məlum olmayan bir çox məsələləri Məfkurənin, Büllurənin köməyi ilə araşdırırdı. İmtahanların keçiriləcəyi ilk gün yaxınlaşdıqca Şəfəqin səbri də tükənirdi.

İlk imtahan günü idi. Səhər hava sərin olsa da, bir azdan bərk isti olacağı gözlənilirdi... O, otağa qayıdıb imtahan üçün hazırlıq görməyə başladı. Məfkurə ilə Büllurə Şəfəqlə birlikdə kitabları araşdırdıqlarından axşam gec yatmışdılar. Kitab Şəfəqin əlindən döşəməyə düşdü. Səsə Büllurəylə Məfkurə də oyandılar. Şəfəq dilləndi:

— Siz qalxmayın. Axşam onsuz da gec yatmısız. Mən özüm gedərəm. Mənim yerimə imtahan verməyəcəksiz ki? Nə qismətdi, o da olacaq.

Büllurə:

— Qorxma, hər şey yaxşı olacaq. Səhər bir loxma kəsək.





— Ürəyim istəmir.

— Bəsdi. Qarın ac olanda, baş yaxşı işləməz.

Məfkurə:

— İmtahanda gərək qorxmayasan. Qorxdun, heç, koman dağıldı.

Şəfəq:

— Komam var ki, dağıla?

— Mən koma deyəndə kəsilməyi nəzərdə tuturam. Bax, deyirəm, ha, əgər kəsilsən, binadan çıxma.

Şəfəq güldü. Sonra da üzünü Büllurəyə tutaraq:

— Deyəsən, mən universitetin binasında qalmalı olacam.

Büllurə:

— Qorxma.

İmtahan zalına gələn Şəfəq bərk həyəcanlanmışdı. Ancaq bu həyəcan da çox çəkmədi. Bir nəfər ağ saçlı kişi, bir nəfər də cavan qadın otağa gəldilər. İmtahan biletlərini stolun üstə tökdülər. Əvvəl özlərini abituriyentlərə təqdim elədilər: — Sizdən imtahan qəbul eləyənlər mən — professor Fərrux Ramazanzadə, dosent Gülçöhrə Quluzadədi. Professor imtahanın qaydasını açıqladı. Sonra da imtahan başlandı. Abituriyentlər bilet çəkməli oldular. İki qız bir-birinin ardınca əlini qaldırdı. Bilet çəkib fikirləşmədən danışmaq istədiklərini bildirdilər. Müəllimlər bir-birlərinin üzlərinə baxıb gülümsündülər. Qadın çiyinlərini çəkdi. Professor: — Buyurun, — dedi. Qızlardan biri gəlib bilet çəkdi. Quluzadə: — Hə, başla görək, — deyə üzünü abituriyentə tərəf tutdu. Qız biletin birinci sualını oxudu, ancaq qəribə bu idi ki, o, suala dəxli olmayan tamamilə başqa bir şey danışdı. İmtahan götürənlər pıçıldaşdılar, özləri üçün bu qızın kimliyini müəyyənləşdirdilər. Professor dərhal: — Hə, aydındı, keç ikinci suala, — dedi, sonra da ayağa qalxıb partalar arasında gəzməyə başladı. Qızın danışıqlarına fikir vermədən: — Keç, üçüncü suala, — dedi. Qız iki-üç kəlmə demişdi ki, kişi bildirdi:

— Abituriyent belə olar. Həm əla hazırlığı, həm də cəsarəti var. Müəllimə, sizin sualınız yoxdu ki?

— Xeyir.

— Elə isə "əla" yazın, getsin.

Quluzadə vərəqə əla yazdı. Müəllim ikinci qızı bilet çəkməyə dəvət elədi. Həmin qız da eyni vəziyyətdə — biletin suallarına əhəmiyyət vermədən öz bildiklərini danışdı. O da "əla"sını alıb qapıdan çıxdı. Professor dörd nəfərə "iki" yazdı. Növbə Şəfəqə çatanda qapı açıldı. İki yaşlı adam otağa daxil oldu. Müəllimlər ayağa qalxdılar. Şəfəq fikirləşdi ki, bu adamlar imtahana nəzarətçidirlər. Nəzarətçilərdən biri üzünü Şəfəqə tutaraq: — Buyur, qızım, — dedi. Şəfəq çəkinə-çəkinə danışmağa başladı. Xeyli danışmışdı ki, ondan ikinci suala keçməyi tələb elədilər. Şəfəq danışarkən əlində tutduğu vərəq titrəməyə başladı. Nəzarətçi gülümsündü: — Tələsmə, qızım, özünü ələ al, — dedi. Bu adamın səsində Şəfəq bir səmimiyyət duyduğundan özündə cəsarət hiss elədi. Fikrini bir qədər də əsaslandırdı. Onu diqqətlə dinləyən nəzarətçi: — Məncə, kifayət eləyər, — demişdi ki, qalanlar da onun sözünə qüvvət verdilər. Şəfəqin biliyini "dörd" qiymətləndirdilər. Həmin gün Şəfəqin sevincinin həddi-hüdudu yox idi. Bu günkü qələbə sonrakı imtahanlar üçün böyük əsas verdi. İyirmi gün müddətində Şəfəq qəbul imtahanlarından "on altı" bal toplayıb müsabiqədən müvvəffəqiyyətlə keçdi.

* * *

Universitetdə təhsilə başlamazdan əvvəl Şəfəq qərara gəldi ki, uşaqlı, vaxtı ilə ərli qadın olduğunu gizlətsin və özünü, ismətini, ləyaqətini qoruyan bakirə qız kimi göstərsin. Öz-özünə düşündü: bu, mümkündürmü? Sirr açılsa, tələbə dostları ona necə baxacaqlar? Ona hansı qiyməti verəcəklər? Əks halda, vəziyyəti necə ola bilər? O gün Çinarə necə dedi? Şorgöz müəllimlər! Sırtıq oğlanlar! Axı mən niyə belə düşünürəm? Kim mənə nə deyə bilər ki?! Günah özümdə olmasa, kimin nə sözü olar ki?! Vəziyyəti heç kəsə açıqlamamaq. "Qarğa məndə qoz var" deməmək. Elə bunun özü və bir də özümü düzgün aparmağım məni hər cür söz-söhbətdən uzaq saxlaya bilər. Bir zaman ərli qadın olduğumu bilsələr, məni bezikdirəcəklər. Onda heç nədən özümə də, ətrafdakılara da nifrət eləməli olacam. Yox... Yaxşısı odur ki, bu məsələ sirr qalsın. Danışığımla da, davranışımla da kimsədə yersiz fikir oyatmayım. Bir də ki, axı kimə nə dəxli var, mən kiməm? Hansı məzhəbə qulluq eləyirəm? Nəyim var, nəyim yox, özüm bilərəm. Hər şeyə ağlımın gözü ilə baxım. Həm işdə, həm də təhsildə istəyimə nail olum... Şəfəq qarmaqarışıq fikirlər içərisində çabalayırdı ki, birdən yadına Cavadın o gün dedikləri düşdü: "Hər şey insanın öz əlindədi. İstəsə, hər şeyə nail olar. Bu şərtlə ki, əqidəsi sağlam, məqsədi aydın ola. Daim yaxşı şeylər barədə düşünə. Ötəri hisslərin, ehtirasların təsiri altına düşməyə. Ləyaqətsiz, şərəfsiz, binamus adamlardan uzaq ola, nəfsini bütöv, əlini düz eləyə. Qeybətdən, yalandan, paxıllıqdan uzaq ola. Necə ki, həyat, ömür həqiqətlər üzərində qurulur. Fikirləri saf-çürük eləyə-eləyə əsl həqiqəti tapmaq mümkündür. Həqiqətin güzgüsü vicdandı. Lampa qaranlıq otağı işıqlandırmağa, vicdan zülmətli qəlblərə nur saçmağa qabildir. Ülvi, pak olan ruh həqiqətə meyllidir. Qəribədi. Bir anlığa düşünürsən. Həqiqət Allahın hökmü ilə yerə gəlibsə, onda hərc-mərclik, yalan elə-belə deyil. O da göydən nazil olub. Həqiqət böyük Yaradanın qüdrətindən doğursa, yalan, hərcmərclik şeytanın, iblisin fitvasından törəyir. Həqiqət vicdan məhkəməsində sınanılmış hakimsə, yalan qəbahətlər kürsüsündə mühakimə olunan müttəhimdir. Həqiqət kəsən, yalan kəsilən, doğranandı. Sənin ali məktəbə qəbulun öz varlığını təsdiq eləməyə yönəlmiş ciddi-cəhdlərindi, fədailiyindi. Allahın bəxş elədiyi fədakarlıqdı, amma hamıya müyəssər olan şey deyil".

Bunların hamısı hikmətamiz sözlərdi. Cavadın dediklərinin hər biri sanki dahilərin nəsihətidi.

*     *     *

Universitetdə neçə gün idi ki, dərslər başlanmışdı. Qrup yoldaşlarının hamısı gündüzlər müxtəlif müəssisələrdə işləyirdilər. Axşam təhsili alanlardan otuz-otuz beş yaşlıları da vardı. Ancaq gənclər çoxluq təşkil eləyirdi. Şəfəq hər gün səhər yataqxanadan çıxır, dərsə gecikməsin deyə işdən də universitetə yollanırdı. Bir dəqiqə də olsun dərsə gecikməməyə çalışır, müəllimlərin mühazirələrini dinləyir, qeydlərini götürürdü. Axşamlar da evə gəlir, naharını eləyir, yorğun-arğın olsa da, seminarlara hazırlaşırdı. İntizamına, məsuliyyətinə görə tezliklə müəllimlərinin də, dekanın da, tələbə dostlarının da böyük hörmətini qazanan Şəfəq şənbə və bazar günləri də kitabxanaya gedir, lazım olan kitabları alıb oxuyur, qeydlər götürürdü. Axşamlar universitetdə tələbələr, yataqxanada qızlar arasında gedən elmi müzakirələrə girişir, mülahizələrini söyləyir, bilmədiklərini rəfiqələrindən öyrənməyə çalışırdı. Bəli! Şəfəqin qarşısında tamamilə yeni bir aləm açılmışdı. Elə bir aləm ki, o, Şəfəqə elmdən, ədəbdən yoğrulmuş mənalı bir həyat, ləyaqət və şərəfli bir ömür vəd eləyirdi. O, indi açıq-aydın başa düşürdü ki, tərəddüd eləmədən getdiyi bu yol qaranlıq zülmətlər qoynundan keçsə də, dolanbacları nə qədər keçilməz olsa da, sonu işıqdı, rahat, sakit bir yaşantıdı. Oxuduqlarından, özündən yaşlılardan, eləcə də müəllimlərindən eşitdikləri, öyrəndikləri əsasında onda belə bir qənaət hasil olmuşdu ki, həyat düşərgədi, məskəndi. Hərə bir cürə: harınlamış krallar da, piylənmiş şahlar da, "xalq", "xalq" deyə hayqıran, yalnız özünü görən xaqanlar da, güc-bəla ilə qarnını doyduran kasıblar da, bütün günü sədəqə toplayan dilənçilər də, ağzından su ifraz eləyən, gözləri künc-bucaq axtaran, əldə-göz itlər tək





sülənən oğrular da, insan qanına susamış cəlladlar da onun sakinləridi. Həyat dəhşətdi. İnsanın hər addımı möcüzədi. O, insanı gah yerdən göylərə meylləndirən, yaxınlaşdıran, uçuran sirli-sehirli aləmdi, gah da göydən yerə endirən, əzab və iztirablar, zülm və dəhşətlər kabusudu. Şəfəq öz-özünə düşündü: — İşə bir bax. Bəzən özünü unudub yaxın adamının taleyi ilə bağlı həyəcan keçirirsən. Birdən qarşılaşdığın gözlənilməz hadisə sənə hər şeyi unutdurur, canından qorxmağa başlayırsan. Yaxud ömrünün bir parçasını götür. Onun ağ-qara, dərdli-dərdsiz, işıqlı-qaranlıq anlarından hansının çoxluğuna diqqət yetir. Onları sıralamaq, ipə-sapa düzmək mümkün deyil. Təkcə onu bilirsən ki, pis, qara, qaranlıq ömrə kədər, qəm, qüssə gətirir. Ağlagəlməz xəstəliklər yaradır, bədbəxtliklər törədir. Bunların əksinə olaraq yaxşı, ağ, sevinc, işıq sənin qəlbinə ümüd, fərəh işığı salır, könül açır, ruhu qidalandırır, səni səadətə qovuşdurur. Birinci halda sən taleyini, qismətini düşünüb vicdan əzabı çəkirsən, ikincidə isə xoş xatirələrin ümmanına atılırsan. Bəzən öz-özümə deyirəm: bədbinləşmə, Şəfəq. Hələ sən cavansan, yaxşı, xoşbəxt günlərin qabaqdadı. Yadda saxla ki, bulud göy üzündə əbədi dura bilməz. O, dağılanda günəş parlayır. Bütün aləm nura boyanır. İnanıram, insan da belədi. Mənim xoş günlərim hələ qabaqdadı. Ola bilməz ki, mən ömrüm boyu dəhşətlər, əzablar içərisində yaşayım. Bu əzablı, iztirablı, zəlalətli anlarım sevincli, fərəhli, şükranlı günlərlə əvəzlənməsin. Mənə elə gəlir ki, insanların hamısı eyni materialdan yoğrulub. Onların arasında fərq yoxdu. Xoşbəxtlik və bədbəxtlik sözləri də nisbidi. Ömrü tam, bütöv xoşbəxt adam ola bilməz. Xoşbəxtlik qəlbimizin güldüyü, iftixar hissi ilə dolduğu anlardı, dəqiqələrdi. Cəhalətdə, nadanlar mühitində xoşbəxtlik, səadət axtarmaq əbəsdi. Oxumaq, öyrənmək, elmə sahib olmaq, ədəb-ərkana yiyələnmək böyük fəzilətdi. Fəzilət sahibinin nəsibi səadətdi. Səadətlilər pakdı, ülvidi, mömindi, Allahın sevimli bəndəsidi. Bu səviyyə-

yə qalxmaq, qəlbdə nur şöləsi alovlandırmaq ağlın, idrakın möcüzəsidi. Bu möcüzəni ancaq oxumuş, elmə sahib olmuş xalq, millət fədailəri yarada bilərlər.

İnsanlar barədəki düşüncələrim heç də birmənalı deyil. Axı necə də ola bilərdi ki? Bir tərəfdə yalnız öz mənafeyini düşünən cahillər, nadanlar, əxlaqsızlar, o biri tərəfdə ümumin mənafeyini hər şeydən üstün tutan, insana insan münasibəti bəsləyən əxlaq mücəssəməli aqillər, bəsirətlilər, müdriklər.

Nə əcəb ki, bu həyatda yaxşı adamlar çoxdu. Onlar da olmasaydı, bəlkə də insanlar bir-birini didərdilər, yeyərdilər".

Fikirlər, düşüncələr içərisində Şəfəq ayağa qalxdı. Balaca, qara, meşin çantasını şkafdan götürüb açdı. Qırmızı göy sapla hörülmüş, haşiyələnmiş dəsmalının altından kiçik dəyirmi güzgünü çıxartdı. Üz-gözünə baxmağa başladı. Hansı hissin təsiri altındasa bir anlığa özünün füsunkar gözəlliyini, əsrarəngiz cazibədarlığını duydu, sonra da: — Qızlar düz deyirlər: "Mən həqiqətən də gözələm", — deyə düşündü. Birdən eyni tövr ilə gözəlliyinə nifrət eləyirmiş kimi dodaqları arasından hiddət və qəzəblə: — "Yox, istəmirəm belə parıltılı, gözqamaşdırıcı zahiri gözəlliyi" — nidaları eşidildi. Pıçıltılar otağın daş divarlarına quvalt kimi çırpılaraq Şəfəqin qulaqlarında guyultulu əks-səda doğurdu. O, bir an özünün hədəqədən çıxan gözlərinə baxmaqdan və səsinin qulaqlarında yaratdığı vahiməli əks-sədasından üşünərək özü də bilmədən əlindəki güzgünü taxta döşəməyə saldı. Güzgü çilik-çilik oldu. O, handan-hana özünə gəldi: — Deyəsən, dəli oluram, — deyə düşündü, sonra da əyilib döşəmədəki güzgü qırıqlarını ovcuna yığmağa başladı. Böyük, üzü yuxarı düşən güzgü qırıqlarında onun əsəbi üzü, hirsdən titrəyən sifəti görünürdü.

Şəfəq anlayırdı ki, bu parıltılı gözəllik içərisində onun analıq isməti, analıq ruhu qətrə-qətrə əriyirdi, yox olurdu. Bu qadını düşündürən yeganə şey gələcəkdə qarşılaşa biləcəyi, ehtimal





olunan əzab və iztirablardan daha çox onun analıq hissləri idi. O, hər dəfə doğma Hikmətini düşünəndə qadınlıq ruhunu — şivə, şəhvət və sevgi hisslərini öz qəlbində dəfn eləyirdi. Ona elə gəlirdi ki, bununla da düçar olduğu bəlaları ayaqları altına alıb tapdalayırdı. Qadınlığa xas olmayan, ləyaqət və şərəfdən uzaq hər şeyə, hər şeyə qəzəb və nifrətini bildirirdi.

* * *

İzdihamlı şəhər həyatı öz qaynarlığı, ab-havası, hadisələri ilə Şəfəqə böyük təsir eləmişdi. Bu təsir təkcə fiziki, zahiri görkəminə deyil, habelə mənəviyyatına da (ətrafında cərəyan eləyən hadisələrə açıq-aydın münasibət bəsləməsinə də) təkan vermişdi. İndi Şəfəq iki-üç il bundan əvvəlki Şəfəq deyildi. Universitet həyatı ona xüsusilə böyük dərs vermişdi. Bunu yataqxanadakı rəfiqələri də, fabrikdəki həmkarları da başa düşürdülər.

Ucaboy, qəddi-qamətli Şəfəq bu gün dünənkindən daha qürurlu görünürdü. Onun mehriban, qəmgin, iztirabla baxan gözləri çox şeydən xəbər verirdi. Üzündəki zərif və incə cizgilər, yanaqlarındakı xəfif qızartı, yaşantılı gözlərindəki parıltı onun cazibədarlığını artırırdı. Hərəkətlərindəki nəciblik onun ətrafındakı adamlar arasında xətir-hörmətini yüksəldirdi. İkinci kursun ikinci semestri yaxınlaşırdı. İl yarımdan artıq Şəfəqə göz qoyan, Şəfəqdən xəbərsiz hər axşam onu uzaqdan-uzağa izləyib yataqxanaya yola salan, hərəkətlərini daim nəzarətdə saxlayan, danışdığı sözləri yüz dəfələrlə özlüyündə təhlil eləyən iyirmi altı yaşlı Ceyhun axır ki, özündə cəsarət taparaq dərsdən sonra dəhlizdə Şəfəqə təklikdə yanaşdı:

— Şəfəq xanım, sənə bir söz demək istəyirəm.

— Buyur, eşidirəm, Ceyhun.

— Açıq danışdığım üçün məni bağışla. Universitetə qəbul olunduğumuz ilk günlərdən ta indiyədək səni izləyirəm.

— Bilirəm, Ceyhun. Hər axşam məni yataqxanaya ötürməyindən də xəbərdaram.

Ceyhunun üzünə xəfif bir qızartı çökdü. Təmiz, aydın gözlərinin dərinliklərində, ülvi, pak hisslərdən doğan sevinc parladı. Şəfəq əvvəl sözünə ara verdi. Sonra da çox qısa və konkret cavab verdi:

— Gecikmisən.

Ceyhun tutuldu. Dərindən bir ah çəkdi. Sonra bildirdi:

— Şəfəq, bağışla məni! Bundan sonra qardaşın kimi mənə etibar eləyə bilərsən.

— Sağ ol, Ceyhun.

Şəfəq üzünü çevirib getdi. Haçandan-haçana özünə gələn Ceyhun ayaqlarını sürüyə-sürüyə pilləkənləri düşüb həyətə çıxdı. Xəfif əsən meh qızarıb-pörtən Ceyhunun üz-gözünü yaladıqca onun gərilən əsəbləri yavaş-yavaş boşalırdı.

* * *

Şəfəq dərsdən qayıdıb paltarlarını dəyişmişdi ki, Məfkurə əlində məktub otağa girdi. Salam verib: — Sənə məktub var, Şəfəq, — dedi və məktubu ona uzatdı. O, məktubun üstündəki xətdən onun Süsəndən gəldiyini dərhal başa düşdü. Elə bu dəm Büllurə də qaynanmış çaydanla otağa daxil oldu və öz-özünə deyinməyə başladı:

— Belə də şey olar? Qəribə qızlardılar. Qaynanmış çaydanın suyunu da boşaldırlar öz çaydanlarına. Bu gün iki dəfə çaydanı doldurub qoymuşam qazın üstəki qaynasın. Gedib görürəm, suyunu boşaldıb özünü də qoyublar kənara. Gərək bundan sonra çaydanın yanındaca dayanıb qaynamasını gözləyək.

Məfkurə gülümsünərək:

— Əvvəllər belə şey olmazdı. Yataqxanaya gələn təzə qızlar çoxbilmişdilər.





— Bu çoxbilmişlik yox, qanacaqsızlıqdı, ədəbsizlikdi.

Büllurə adama bir stəkan çay süzdü. Şəfəq çarpayısının qırağındaca oturdu. Məktubu açıb oxumağa başladı.

*"Salam, Şəfəq! Hikmətdən hal-əhval tutmaq üçün Şəfi ilə Hümmətgilə getdik. Evdə heç kim yox idi. Qonşularla əlaqə saxladıq. Məlum oldu ki, sən evdən çıxandan bir neçə ay sonra Tubu maşın qəzası nəticəsində ölüb. Qəhmər də dünyasını dəyişib. Hümmət evi satıb, uşağı da götürüb gedib. Hara getməsi barədə heç kəsə məlumat verməyib. Çalışıb yerini öyrənəcəm. Narahat olma, tapan kimi dərhal da sənə məlumat verəcəm.*

*Hələlik bu qədər.*

*Hörmətlə: bacın Süsən"*

Şəfəq məktubu oxuyub tutuldu. Nə eləyəcəyini bilməyib hönkür-hönkür ağlamağa başladı. Məfkurə də, Büllurə də təəccüblə: — Məktubda nə yazılıb? — deyə soruşdular. Şəfəq məktubu stolun üstünə atdı: — Özünüz oxuyun, — dedi və gedib qapını açıb balkona çıxdı. İndiyədək: — Hikmət evdədi, — deyə özünə təskinlik verən Şəfəq oğlunun harda olması, ona kimin baxması barədə düşündü: mənim balam hardadı, İlahi? Bəs anasının, bacısının ölümündən sonra evi niyə satırdı Hümmət? Balamı hara aparması barədə məni niyə xəbərdar eləmədi? Deməli, balamı məndən uzaqlaşdırır? Məndən qaçırır? Yəqin düşünüb ki, Tubunun, Qəhmərin ölümünü eşidib mən o evə qayıda bilərəm? Yox, sən səhv eləyirsən, Hümmət? Heç vaxt biz bir yerdə ola bilmərik! Mən özümə nifrət eləyirəm, çünki səni vaxtında tanımamışam. Səninlə bir yastığa baş qoymuşam...

Məfkurə ilə Büllurə Şəfəqin ardınca balkona çıxdılar. Təskinlik verə-verə onun qolundan tutub otağa gətirdilər. Məfkurə səsini bir qədər sərtləşdirərək:

— Bəsdi, sən Allah. Atası uşağı bəyəm, səndən az istəyir? Başlamısan göz yaşları tökməyə. Əgər uşağını istəməsəydi, səni

çoxdan gəlib burda tapmışdı. Balanı da üstünə atıb getmişdi. Nə böyük qəbahət eləyib ki? O evdə yaşamaq istəməyib, köçüb başqa evə, uşağını da özü ilə aparıb. Hamı helə eləyərdi də. Yox! Bəlkə sən uşağı satdığın evdə qoyub gedəcəkdin?

Şəfəq toxdadı. Büllurə araya söz qatmaqla onun fikrini yayındırmağa çalışdı:

— Dünyanın qəribəliklərinə bax. Biz insanlar ətrafımızda baş verənləri əməllicə-başlıca müəyyən eləyə bilmədiyimiz halda...

Məfkurə:

— Budu ha, Şəfəqi götür. Oturub Bakıda, Gəncədəki işləri də uyarlayır. İnsan dünyanın ən mükəmməl varlığıdı, o, hər şeyə qadirdi, — deyirlər. Yalandı. İnsanlar özlərini daim aldatmaq, şişirtməklə məşğuldular. Hardansa oxumuşam: — Bir anlığa adicə ov itini götürək. O, izə düşüb canini, qatili tutmağa qabildi. Unutmayaq ki, cani də, qatil də insandı. İndi mən soruşuram: insan necə? O da izi ilə iti tapa bilərmi? Əlbəttə ki, yox!

Büllurə:

— Heç uzağa getmə. Götürək özümüzü. Milyon, milyard illərdi özümüzü aramaq, tapmaq, dərk eləmək uğrunda mübarizə aparırıq. Bir addım qabağa gedə bilmədiyimiz halda, böyük Yaradanı dərk eləmək üçün dəridən-qabıqdan çıxırıq. Bu oyunlar, bu əyləncələr kimə lazımdı?! Bu, insanların öz başlarına açdıqları mahiranə bir kələk deyilmi?

Məfkurə:

— Uşaq deyilsən ki, ağlayıb-sıtqayıb gündə qan qaraldasan. Otur çayını iç. Allahına şükür elə ki, Süsən hər şeyi dəqiqliklə öyrənərək sənə məktub yazıb. Yazıq qız onu da yazıb ki, onları axtarıram, tapan kimi məlumat verəcəm. Nə istəyirsən?

Rəfiqələri Şəfəqi düşüncələrindən ayırmağa çox çalışsalar da, mümkün olmuşdu. O, başında güclü ağrı hiss elədi. Qalxıb asılqandan kiçik, nazik güllü-güllü ipək yelcəyini götürdü və alnından çəkdi, uclarını boynunun dalında bərk-bərk bağladı: — Başım ağrıyır, — deyib çarpayısını açdı. Soyunub yatağına girdi. Həmin gecə nə Məfkurə, nə də Büllurə sabahkı dərslərinə hazırlaşdılar. Onlar da Şəfəq rahat olsun deyə yatmalı oldular. Şəfəq çarpayısına uzansa da xeyli müddət yata bilmədi. O, için-için özünü didməyə başladı:





— Nə qədər ağlasığmazmış, təsəvvürolunmazmış insan qəlbi, İlahi?! İnsan qəlbi necə də ölçüyəgəlməzmiş?! Onun hüdudlarını müəyyənləşdirən varmı? Ağzıgöyçəklər hər cürə sözlər uydururlar. Əzəməti, dərinliyi barədə düşünəndə adam az qalır havalansın. Həm də şübhəli sirlərlə dolu bir mücrüdü insan aləmi. İnsanlara dəhşətli fəlakətlər gətirən adamlar görəsən, bircə dəfə öz vicdanlarının səslərinə qulaq asırlarmı? Balanı anadan ayırmaq ən böyük cinayət deyilmi? Belələri törətdikləri cinayətlər barədə düşünürlərmi? Əməllərini düşünüb əzab, iztirab hissi keçirirlərmi?

Təmiz, pak vicdan fəzilətlərin, ülvi xəyalların, arzuların, ali məqsədlərin toplusudur. Ləkəli vicdan sahibinin qəlbində ilanlar, əjdahalar, əqrəblər, divlər cövlan eləyir. İnsanı için-için yeyir, didir, parçalayır, əzazil bir varlığa çevirir. Şəfəq: düşünür "Axı niyə belə olmalıydıq biz insanlar?! Eh, vallah belələrini düşündükcə, insani hisslərini itirmişlərin əməllərinin şahidi olduqca, məni dəhşət bürüyür. Dünyanın ən böyük xeyirxahları gəlib durur gözlərim önündə. Zaman-zaman bəşəriyyət üzərinə gətirilən ölüm kabuslarını xatırlayıram... Dəhşət və fəlakətlər törədən insanların fəaliyyət dairəsi genişlənir beynimdə. Eh, insan! İnsan! Nə qədər ucsuz-bucaqsızmış sənin qəlbin?! Nə qədər qaranlıqmış sənin daxili aləmin?! Orda ən qiymətli incilər yata bildiyi halda, nəyə gərək idi başqlarına əzab-əziyyətlər gətirəcək alçaq, xəbis, rəzil xislətlər?! Niyə biz vaxtında duya, ayıra bilmirik bu ölçüsüz-biçisiz, zülmətlər qoynundakı acı həqiqətləri, göz yaşları axıtdıracaq nanəcib hissləri?! Böyük zülm! Böyük işgəncə! Fələk də bu qədər zalım ola bilərmi?! Mən hara

gedim? Necə gedim? Kimi köməyə çağırım? Çağırdıqlarıma nə deyim? Allah məni bu bəlaya salıbsa, bəndə mənə kömək eləmək iqtidarındadımı? İmdad dilədiyim, Tanrım, yalvarıram sənə, aç gözlərimi. Göstər mənə nurundan doğan həqiqətləri. İstəyirəm anlayım. Düçar olduğum bəla göylərin ənginliklərindən qopub gələn, ölüm saçan meteor parçasıdımı? Yoxsa, bədxah niyyətli şeytanın hiyləsi? Bəlkə gecənin bətnindən doğulan zülmətdi?! Bu gün acizanə bir halda üzümü sənə tutaraq, imdad diləyirəm, ey böyük Yaradan!

Mənəviyyat səmasının hüdudsuz üfüqlərindən səbr və təmkinlə bizə tamaşa eləyən, Allahım, yetir mənim balamı!!!"

Aldığı mənəvi zərbədən Şəfəqin qəlbində doğan dəhşətli fırtına sanki onun beynində qərarlaşdırdığı sistemi nəhayətsiz okeanların şahə qalxan qudurmuş dağları tək vurub dağıdırdı, batırırdı. Bəzən də dalğalar yatır, okean ani də olsa sakitləşir, o, qurduğu sistemin səpələnmiş həlqələrini bir yerə toplamaq üçün özündə ümid və inam yaratmağa çalışırdı. Nə qədər çalışsa da, iradə və ağlını sarsıdan dağıdıcı dalğalar onda əzabverici bir təlaş, qorxu hissi oyadırdı. Oğlunun harda saxlanmasından xəbərsiz olan Şəfəqin bir neçə gün ərzində bənizi solmuşdu. Gözəllik və təravəti elə bil ərimişdi. O, başqa qızlar, qadınlar kimi özünə baxmağı tamamilə unutmuşdu.

Soyuq payız günlərindən bir idi. Kefsizlədiyindən fabrikə də getməmişdi. Zəng çalıb rəisi Nuridədən icazə almışdı. O, yatağından qalxdı. Dil-dodağı qurumuşdu. Şkafdan innabı rəngli yun, isti jaketini götürüb çiyninə atdı. Sonra da umu-küsü hissi ilə deyinməyə başladı: "Eh... Dünya, Dünya! Sənin nə qədər qəribəliklərin varmış. Birisini sevirsən, ona hədsiz qayğı göstərirsən. Yüz dəfələrlə o yan-bu yanına keçirsən. O, sənə gözünün ucu ilə də baxmır. Sənin sevimlin olmaq nə qədər səadətlidir?! Ancaq eləsi də olur ki, o, səni sevir. Sənə fəda olur. Səninsə ondan zəhlən gedir. Bəyəm bu sənin etibarsızlığın, dəyanətsizliyin





deyilmi? İnsanlara belə ögey-doğmalıq münasibəti bəsləmənə nə ehtiyac vardı? Sevdiklərin, zəhlən gedənlər də hamısı sənin deyildimi?! İncimə məndən, dünya! Ona görə də insanlar sənə inanmırlar, sənə etibar eləmirlər. Adını fani qoyublar, dünya!.."

Dəhliz boyu hərəkət eləyən addım səsləri Şəfəqi düşüncələrindən ayırdı. O, özünə gəldi. Fikirləşdi ki, aptekə düşsün, hərarətinin qarşısını ala biləcək dərman götürsün. Çiyninə atdığı jaketini geyindi. Qara, köhnə böyürləri ağarmış, üstü cadar-cadar olmuş, arxası sökülüb tapdalanmış ayaqqabısını ayağına çəkdi. Çantasından dərman üçün pul götürüb qapıdan çıxdı. Binanın çıxacaq qapısına çatar-çatmaz başı hərləndi. Müvazinətini saxlaya bilməyib yıxıldı. Bunu görən yataqxana işçiləri ona tərəf qaçdılar. Hərə bir tərəfdən tutub onu ayağa qaldırdılar. O, yavaş-yavaş özünə gəldi. Xidmətçi Zinətin köməyi ilə otağa qayıtdı. Çarpayısına uzandı. Nə vaxt yatdığını bilmədi. Hümmətlə oğlunu yuxuda gördü: "Hümmət oğlunun əlindən tutub uşaqlarla dolu olan bir bağçaya gəldi. Parlaq günəş, hər tərəf gül-çiçək. Bağçanın ortasında fəvvarələr. Uşaqlar üzlərində təbəssüm, gülüş, gözlərində sevinc əl-ələ tutub rəqs eləyirlər. Mahnı oxuyurlar. Yanlarında da gülərüzlü, mehriban baxışlı mələklər. Yuxuda ona elə gəlirdi ki, balasını parlaq bir şəfəq bürümüşdü. Ətrafında mələklər gəzir. Onlar uşaqları hər cür təhlükədən, ələmdən hifz eləyir, başlarına sığal çəkirlər. Uşaqlar da onlara "Ana" deyə müraciət eləyirlər. Hümmət mələklərdən birinə yaxınlaşır. Hikməti ona verib tələm-tələsik bağçadan çıxır. Hikmət əvvəl atasının ardınca ağlamsınır. Uşaqlar onun ətrafına toplaşırlar: — Ağlama, biz də sənin kimiyik, — deyirlər. Çox keçmir ki, Hikmətin də üzündə təbəssüm yaranır. O da uşaqlara qoşulub rəqs eləməyə başlayır".

Şəfəq yuxudan qan-tər içərisində hövlnak oyandı. Dərhal da dedi: — Hümmət oğlumu uşaq evinə verib. Mənim balam uşaq

evindədi. Əgər belədisə, lap yaxşı. Mən də balamı gedib görə bilərəm. Onu uşaq evindən götürə bilərəm. Balamla bir yerdə qalaram. Ona analıq hissimi, analıq duyğumu andıraram. Balamın ətrini alaram. Nəfəsini duyaram. Əgər, doğrudan da, Hikmət, əziz balam uşaq evindədisə, gördüklərim yuxu deyilsə, möcüzədi!.. Möcüzə! Yuxuda gördükləri ilə real həyat arasında nə qədər uyarlıq yaratmağa çalışsa da, dəhşət və iztirablar burulğanında boğulurdu, sarsılırdı Şəfəq. Onun tez-tez çuxura düşən gözləri hissiz, duyğusuz bir nöqtəyə dikilirdi. Bir cüt ulduz kimi parlayan gözləri sanki lal olmuşdu.

Şəfəq bütün gücünü, qüvvəsini toplayıb ayağa qalxdı. — Ölsəm də gedib danışıq məntəqəsinə Süsənə zəng çalacam, Hikmətimin uşaq evində olmasını ona çatdıracam, qoy öyrənsin, — deyə paltarlarını, ayaqqabısını geyinib otaqdan çıxdı. İki kilometrdən artıq yolu pay-piyada danışıq məntəqəsinə gəldi. Talon götürüb üstünə “Gəncə” yazılmış kabinəyə girdi. Nömrələri yığdı. Bir neçə saniyə keçmişdi ki, dəstəkdən Süsənin səsi eşidildi:

— Alo, eşidirəm, kimdi?

— Salam, Süsən, əziz bacım, mənəm Şəfəq.

— Hə, salam. Nə yaxşı, səsini eşidək. Necəsən?

— Özüm lap yaxşıyam. Zəng çaldım həm sənin vəziyyətini öyrənim. Həm də sənə deyim, imkanın olsa, uşaq evi ilə əlaqəyə gir. Elə bil ilahi bir səs qulaqlarıma pıçıldayır: “Hikmət uşaq evindədi”.

— Şəfəq, bacım, narahat olma. Əvvəla, mən yaxşıyam. Sonra Şəfini götürüb uşaq evinə gedəcəm. Mütləq xəbər tutacam.

— Elə isə sabah axşam sənə zəng çalacam.

— Yaxşı.

— Məndən Şəfi qardaşa da salam söylə.

— Oldu.

— Hələlik.





Şəfəq dəstəyi yerindən asdı. — Ya haqq olan Allah, — deyib kabinədən çıxıb birbaşa otağa qayıtdı.

* * *

Səhəri gün “Uşaq Gəncədə yoxdur” cavabını alan Şəfəq özözünə düşündü: Ola bilməz. Cani-dildən Hümmətə xidmət göstərəcək elə bir qohum-əqrəbası yoxdu ki, onun uşağını saxlamağı, böyüdüb ərsəyə çatdırmağı boynuna götürsün. Bəlkə Hümmət kiminləsə ailə qurub? Ailə qurmuşdusa, tələm-tələsik, darmacalda evi niyə satırdı? Yox, ola bilməz! Dünən gördüklərim yuxu idimi? Yox, Şəfəq! Belə yuxu da ola bilməz! Dünən gördüklərim açılması, yozulması mümkün olmayan sirdi. Ancaq o adi sirr də deyil. O, yuxudan çox reallıqdı. O inanıram ki, həqiqətdi. Bəlkə uşaq evinin rəhbərliyi Süsənə həqiqəti demək istəməyib. Mən bilmirəm. Uşaq evinə verilənlərin kimlər tərəfindən gətirildiyi bəlkə gizli saxlanmalıdı?..

Yenə heç bir nəticə verməyən məntiq! Yenə suallar! Yenə düşüncələr! O, heç ağlına da gətirə bilmirdi ki, neçə vaxtdı oğlu ilə bir şəhərdə yaşayır. Hər ikisi eyni şəhərin havasını udub, suyunu içirlər.

Dərin fikirlərə qərq olan, az qala özünü unudan Şəfəq otağa necə gəldiyini bilmədi. Qapını açıb içəri keçdi. Çinarə də, Həcər də, Qəmər də otaqda idilər. Şəfəq onları görcək gülümsündü, sonra da heç bir söz demədən keçib paltarlarını dəyişdi. Məfkurə:

— Bayaqdan səni gözləyirik, narahatıq. Deyirik: — Görən, harda qaldı, gəlib çıxmadı. Büllurə qalxıb Şəfəq üçün də bir stəkan çay süzdü. Sonra:

— Xörək hazırdı. Biz bərk acmışdıq. Gecikdiyinə görə gözləyə bilmədik, — dedi.

— Eybi yoxdu. Hələ mənim də təbim çəkmir. Yolüstü danı-

şıq məntəqəsinə döndüm. Süsənlə danışdım.

— Vəziyyəti yaxşıdımı?

Şəfəq "Hə" cavabını verəndən sonra da özündən: — "Sizə də salam söyləyirdi", — dedi. Sonra da yalan dediyi üçün içində özünü məzəmmətlədi. Qonşu qızlar otaqlarına çəkildilər. Büllurə üzünü Şəfəqə tutaraq soruşdu:

— Axı sənə nə olub? Dünən də xəstələnmisən. Səhər biz evdən çıxanda da deməmisən. Bayaq otağa qalxarkən Zinət mənə dedi ki, dünən qapı ağzında baş hərlənməsindən yıxılmısan. Belə olmaz, bacım! Biz burda bir ailənin üzvləriyik. Dərdi-sərimiz də bir olmalıdı. Çətinliklərimizi də birlikdə aradan qaldırmalıyıq.

Məfkurə ciddi nəzərlərlə Şəfəqə baxdı. Şəfəqin üzünə zərif bir qızartı çökdü. O, sıxıla-sıxıla dilləndi:

— Qanınızı qaraltmaq istəmədim.

Məfkurə:

— Yıxılıb üz-gözünü dağıtsaydın onda necə? Bu qədər fikir eləmək, bu qədər dərd-sər çəkmək səni bir təhər eləyəcək.

— Düz deyirsiz. Fikirləşdikcə haldan-hala düşürəm. Belə dərd-sər verəcəkdisə, Allah məni yaradıb neynəyirdi ki?

Büllurə:

— Biz insanlar yalnız dərd-sər üçün doğulmamışıq. Yaşamaq, həyat sürmək, dünyada izimizi qoymaq üçün yaranmışıq. Onsuz da yaranmışlar gec-tez öləcək. Bu dünya hamını dəyirman kimi üyüdəcək. İnsanlar başqa canlılardan fərqlənirlər. Ancaq biz onların fövqündəyik, onların hamısından üstünük. Heç bir yaranışa bənzəmirik, oxşamırıq. İftixar hissi ilə deyə bilərik ki, bir hissəsi olduğumuz təbiəti ram eləyə, onu nüfuz dairəmizə çevirə bilirik.

— Eh, bacı, danışmağa nə var ki? Fikirləri başdan qovub çıxarmaq olmur. Bunun üçün mən də çox zaman təəssüflənirəm. Ancaq o da var ki, insan zəkası kainatı fəth eləyə bildiyi bir za-





manda, bir çox hadisələrin doğuluş səbəblərini nöqtəbə-nöqtə müəyyənləşdirmək, onların nəticələrinin hüdudunu cızmaq imkanımız olmur. İnsanlar öz aralarında qarşılıqlı münasibətləri qoruyub saxlaya bilmir. Bir-birilərinə düşmən kəsilirlər. Qanlarını içməyə hazırdılar. Elə götürək baldızım Tubu ilə məni. Bəyəm bizim bir-birinə toxunan mənafelərimizmi vardı? Açığını deyim mən o evin qulu idim, nökəri idim.

Məfkurə təəssüf hissi ilə:

— Ona görə də başına belə işlər gəldi. Unutma ki, hər şeyin öz həddi var. Hədd-hüdud aşılanda həmişə fəlakət baş verər, bacım. Biz təbiətin törəməsiyik. Orta məktəbdə təbiət fənlərindən, ali məktəbdə fəlsəfədən öyrənmişik ki, təbiətdə böyüklü-kiçikli yaranmışların hamısı ölçülü-biçilidi, nizamlıdı. Bir-biri ilə qarşılıqlı əlaqədədi. Biri digərinə xidmətdədi. Belə çıxır ki, təbiətin bu ali qanunu biz insanlara aid deyil. Bax, fəlakət burdadı. Hər şeyi öyrənməyə cəhd elədiyimiz halda, çox zaman özümüzə nəzər salmırıq. Özümüzü təkmilləşdirmirik. Hər şeydə özümüzü görürük. Şəxsi mənafelərimizi güdürük. Qəlbimizi zənginləşdirmirik, ətir saçan qızılgüllərlə doldurmuruq. Bu təqdirdə şübhəsiz ki, hisslərimiz, ehtiraslarımız ağlımızı idarə eləməli olur. Belə olanda ağlın qüdrəti, əzəməti, möhtəşəmliyi əriyir, yox olmaq dərəcəsinə gəlib çatır. Unutmayaq ki, təbiətdə hər şey nisbidi, zərurətdən doğan müvazinətdədi. Maraqlıdır ki, bu yaşadığımız dünyada şeylər arasındakı əlaqələr nifrətdən yox, istəkdən doğur. Milyon-milyard illərdi yer işıq saçan günəşin ətrafında dövrə vurur. Yerin sərvəti, göylərin cəlalı yaranış tarixindən Allahın qüdrətindən doğan insanlara hədiyyə olunur. Ətir saçan çiçəklər gündüzlər nur püskürən günəşin, gecələr parlayan ayın, sayrışan saysız-hesabsız ulduzların çöhrəsini canına çəkir. Qəribədi insan mənəviyyatı. O, dərindi, hüdudsuzdu, zəngindi. Yeganə şeydi ki, təbiət qanunlarına tabe olmur. Çünki insan anlamının məzmununu ruh müəyyən eləyir. İdrakı onu

əzəmətli bir mexanizmə, nəhəng bir sistemə çevirir. İnsanın mənəviyyatının hüdudunu müəyyənləşdirmək, dərinliyini ölçmək, nə düşündüyünü əvvəlcədən bilmək qeyri-mümkündü. Ancaq bir şey aydındır ki, əxlaqını təkmilləşdirən, mənəviyyatını zənginləşdirən, vicdanının səsinə qulaq asan, Allahını başının üstündə görən kəs qəbahətə, nadanlığa yol verə bilməz. Başqasının mənəviyyatının, şəxsiyyətinin tapdalanmasına nə rəvac verər, nə də ona razı olar...

Ali təhsillərini tamamlayan Məfkurə ilə Büllurə Şəfəqdən ayrılıb doğma evlərinə köçüb gedirdilər.

Ürəkdən bir-birilərinə bağlandıqlarından hər biri görüşüb-öpüşüb acı göz yaşları içərisində ayrıldılar. Bu ayrılıqdan bir neçə gün sonra da Şəfəq özünə gələ bilmirdi. Tək-tənha qaldığı otağın divarları elə bil uçub üstünə töküləcəkdi. Axşam dərsdən otağa qayıdanda vaxtyor Şəfəqlə dəhlizdə qarşılaşdı. O, gülümsünərək dedi:

— Şəfəq, sizin otağa Yaqut adlı bir xanım vermişik. Pis xanıma oxşamır.

— Lap yaxşı. Mən də təkəm. Mənə də həyan olar.

Şəfəq pilləkənləri qalxıb otağa gəldi. Yaqutla görüşdü. Onun otuza yaxın yaşı olardı. Dolu bədəni vardı. Xurmayı saçlarını başının ortasına yığıb sancaqlamışdı, sarı bəniz, gülərüz bir xanımıydı. Əyninə dar cins şalvar, qırmızı ipək parçadan kofta pərçimləmişdi. Kənara çıxan iri yançaqları, xeyli qabarıqlı sinəsi vardı. Gülümsünərkən qalın dodaqları arasından qızıl dişləri parıldayırdı. Alınmış nazik qaşları, uzun kirpikləri ilə əhatələnmiş qonur gözləri sifətinə yaraşırdı. Şəfəq paltarlarını dəyişdi. Şam naharı hazırladı. Üzünü Yaquta tutaraq bildirdi:

— Gəl əyləş. Bundan sonra biz özgə deyilik. Çörək kəsək.

— Mən nahar eləmişəm.

— Nə vaxt?

— Ertədən şəhərdə nahar eləmişəm.





— Onda çay iç.

— Hə, çay olar.

Yaqut çay içə-içə:

— Bu vaxtı hardan gəlirsən? — deyə soruşdu.

— Dərsdən.

— Hə, belə de. Mən də fikirləşirəm ki, cavan qızsan. Yəqin sənin də oğlanın var.

Yaqutun sonuncu sözlərini eşitcək Şəfəqin sir-sifəti bozardı. Guya eşitmirmiş kimi özünü o yerə qoymadı. Yaqut axırıncı qurtumu içib stəkanı stolun üstünə qoydu. Özü də keçib çarpayısının qırağında oturdu. Qıçını qıçının üstünə aşırdı. Balaca göy rəngli çantasını açdı, içərisindən bir dəstə pul çıxardıb saymağa başladı. Sonra da pulları çantasına qoyub balıncının altında gizlətdi. Üzünü Şəfəqə tutaraq:

— Burda oğurluq-zad olmur ki?

— Yox. Ancaq ehtiyat yaxşı şeydi. Otaqdan çıxanda qapını bağla. Nə bilmək olar? Son vaxtlar yataqxanaya çoxlu təzə qız gəlib.

— Yaxşı par-parça, ayaqqabı var. Sən bilən qızlar almazlar ki?

— İnanmıram. Burdakı qızların çoxu mənim kimi tələbədilər. İşləyib öz başlarını güc-bəla ilə dolandırırlar. İmkanlı qız, qadın yataqxanada qalmaz.

— Bu otaqda qalmaq üçün nə qədər pul verirsən.

— Heç nə qədər. Məni bura fabrikdən göndəriblər. Bəs sən fabrikdə işləmirsən?

— Yox. Mən Buta xanımla danışmışam. Hər ay haqqını verəcəm. Özüm də ayda bir-iki həftə burda olacam. Mən alverlə məşğulam. Sən burda da, işdə də, universitetdə də qızlardan soruş. Bəlkə bir şey alan oldu. Sənin də xeyrin olar. Sənin üçün də bir şey eləyərəm.

— Çox sağ ol. Mənə heç bir şey gərək deyil.

— İndi Tolik Moskvadadı. Musiq İstanbulda. Görək onlar nə gətirirlər? Deyərəm, səni də nəzərə alarlar. Pul alverdədi. Maaş yeməyə-içməyə çatmır. Bilirsən də, geyinib-keçinməyənin üzünə də baxmırlar.

Yaqutun dediklərini dinlədikcə Şəfəq öz-özünə: — Bu ki Tubunun tayıdı, — deyə düşündü. Fikirləşdi ki, bu, heç də əməlisaleh adama oxşamır. Halımı-xislətimi öyrənmədən gah "sənin də oğlanın var?", gah da "sənin üçün də bir şey elərəm", — deyir. Beləsindən uzaq olmaq yaxşıdı.

Şəfəq şkafdan kitab-dəftərlərini, qələmini götürdü. Stolun üstünə qəzet sərib gecə-gecədən keçincəyədək oxuyub-yazmağa başladı.

* * *

Qaş qaralmışdı. Hava olduqca soyuq idi. Şəfəq əlində çanta binanın giriş qapısından tələm-tələsik girdi. Üstünə "komendant" sözü yazılmış otağın qapısı ağzından keçirdi ki, qarşıdan Butanın gəldiyini gördü. Gülümsündü. Salam verib komendantın vəziyyətini soruşdu. Buta təşəkkürünü bildirdi, sonra da dedi:

— Səninlə söhbətim var. Deyəsən, özün də bərk üşümüsən?

— Eşidirəm.

— Get otağa bir az dincəl. Özünə gəl. Sonra gələrsən yanıma.

Şəfəq: — Oldu, — deyib, otağına getdi. Bir az dincəldi. Sonra da öz-özünə: "Xeyir ola, Butanın mənimlə nə işi ola bilər", — deyə düşündü və stolun üstünü yır-yığış eləyib komendantın otağına getdi. Qapını ehtiyatla açıb: — İcazə olarmı? — deyə dilləndi. Buta dərhal: — Gəl, gəl, — deyə cavab verdi. Masanın yuxarı tərəfindəki yumşaq arxalı kresloda Buta, aşağı tərəfdə qoyulan stulda isə otuz-otuz beş yaşlı, dolu bədənli, sarışın, qıvrım saçlı, mavi gözlü bir kişi əyləşmişdi. Şəfəq otağa girən tək kişi onu ayaqdan-başa süzdü. Sonra da gülümsündü. Ayağa qalxıb: — Əyləşin, — deyə stulunu Şəfəqə təklif elədi. Kişinin hərəkətlərindən daxilən narazı qalan Şəfəqin üzündə bir ciddiyyət duyuldu. Bunu görən Buta da, kişi də özlərini başa düşməməzliyə vurdular. Buta yanında stul göstərərək dedi:





— Sən əyləş, bibi oğlu. Şəfəq mənim yanımdaca...

Şəfəq dərhal bildirdi:

— Eybi yoxdu, mən gedim. Bir azdan gələrəm.

Buta:

— Cana, narahat olma. Manaf indi gedəcək.

Buta sonra üzünü Manafa tutaraq dedi:

— Şəfəq gözəl, ağıllı qızdı. Mən onun xatirini çox istəyirəm. Burda qızlar var atlını atdan salırlar. Anasının südü Şəfəqə halal olsun, onu kimsə ilə gəzən görməmişəm. Barəsində başqa söz də eşitməmişəm. Bilirsən də, mən tanımadığım qız haqqında hələm-hələm söz demirəm.

Şəfəq:

— Lazım deyil, Buta xanım. Mənə başqa sözünüz varmı?

— Yaxşı, Manaf, sən get. Bir azdan gələrsən. Məni də evə apararsan.

Manaf: — Hələlik, — deyib otaqdan çıxdı. Buta əli ilə yanındakı stulu göstərərək: — Otur, — dedi. Şəfəq əyləşdi. Buta ayağa qalxıb qapının cəftəsini arxadan vurdu. Ertədən soyuducuya qoyduğu yarımçıq tortdan iki qıça kəsib hərəsini bir boşqaba qoyaraq birini Şəfəqə verdi, o birini də özü üçün götürdü. Sonra da keçib yumşaq kürsüsündə əyləşdi və heç bir şey olmamış kimi dilləndi:

— İşlərin necə gedir?

— Yaxşıdı.

— Nəyə ehtiyacın olsa gəl mənə de. Bayaq da dedim: — Mən sənin xatirini çox istəyirəm, Şəfəq.

— Elə mən də.

— Bayaqkı oğlan mənim bibim oğludu. Mən onu çox istəyi-

rəm. Özüm hələ sənə demək istəmirdim. Manaf səni xeyli vaxtdı izləyir, bir neçə dəfə də mənə deyib ki, sizi tanış eləyim. Yaxşı oğlandı, pulu çoxdu, xarici markalı maşını var. Nə desən, sözündən də çıxmayacaq. Yerini-yurdunu biləndi.

Müsahibini axıra qədər səbr və təmkinlə dinləyən Şəfəq sakit bir tərzdə soruşdu:

— Bu sözləri mənə niyə deyirsən, Buta xanım?

— İstəyirəm, Manaf cavan oğlandı, sən də cavan qadın. Nə vaxta kimi yataqxana divarları arasında özünü çürüdəcəksən? Ağlın olsun, sən də qız deyilsən ki, izi qala.

— Əvvəla, Manafın mənə heç bir dəxli yoxdu. Yaxşıdı, pisdi özünə. İkincisi, sən hardan bildin ki, mən...

— Mənə yox da, cana. On ildi burda işləyirəm. Sənin kimi qadınları da, qızları da qəbul eləyib yola salmışam. Tort bərəkətdi, ortada qalması günahdı.

— Tortdan uşaqlıqdan xoşum gəlmir. İndi mən gedə bilərəmmi?

— Şəfəq, get fikirləş. Sənə yazığım gəlir.

— Qurtardıq. Yaşlı qadınsan. Gərək özünə qiymət qoyasan.

— Sağ ol, Şəfəq. Səndən gözləmirdim.

Şəfəq ayağa qalxıb xudahafizləşmədən otaqdan çıxdı.

Şəfəqin əsəbi halda otaqdan çıxıb getməsi Butanı açmadı. O, öz-özünə dedi: “Get, bala, get. Sənin kimilərdən çox görmüşəm. Burda yumşaltmadığım, muma döndərmədiyim olmayıb. Mənə də Qoçəli qızı Buta deyərlər”.

Aradan bir saat keçmişdi ki, qapı açıldı. Manaf içəri girdi və dərhal soruşdu:

— Hə, nə oldu?

— Nə olacaq? Özünü naza çəkir.

— Necə yəni?

— Başa düşmürsən, gərək minnət eləyək.

— Bir şey çıxar, deyirsən?





— Çıxar, gərək, cibini geniş açasan. Canına and olsun, təmiz şeydi. Burda beləsi yoxdu.

— Düzəlt, mən hazır.

— Onda bir neçə gün mənə imkan ver. Onu yumşaldım, hala gətirim. Özün bilirsən ki, bu, elə-belə iş deyil. İndi sən get. Arada mənimlə əlaqə saxla.

Manaf Buta ilə xudahafizləşib böyük inam, ümid hissi ilə otaqdan çıxdı.

* * *

Şəfəq işdən çıxıb tələm-tələsik avtobus dayanacağına tərəf getməyə başladı. Elə bu vaxt qara rəngli xarici maşın arxadan gəlib onun yanındaca dayandı. Sürücü qapını açıb astadan: — Şəfəq!“, Şəfəq!“ — deyə çağırdı. O, qeyri-ixtiyari maşına tərəf döndü. Maşının sürücü tərəfdən şüşəsi aşağı salındığından Manaf başını çıxarıb ona: — Gəl əyləş, — dedi. Şəfəq maşını görcək sanki qanı beyninə vurdu. Əsəbiləşdiyindənmi, ətrafdan keçənlərdən utandığındanmı Manafa heç bir söz demədən Şəfəq sürətini artırdı. Manaf maşını ona yaxınlaşdırdı. Arxa qapını açdı. Şəfəq bunu görmürmüş kimi dayancağa tərəf getdi. O, yanından keçənlərin diqqətini cəlb etdiyini fikirləşib yolunu dəyişdi. Yaxınlıqdakı binaların arasından keçmək qərarına gəldi. Manaf da bunu gözləyirmiş kimi maşını yolun kənarında saxlayıb yerə düşdü. İti addımlarla Şəfəqin ardınca getdi. O, Şəfəqə yanaşıb: — Bir dəqiqə, Şəfəq, məni eşit, sonra get, — dedi. Şəfəq əsəbi halda: — Yox, — deyə cavab verdi. Əlacsız qalan Manaf xanımın qənşərinə keçib yolunu kəsdi və bildirdi:

— Mən neçə vaxtdı sənin arxanca düşmüşəm. Mənim xoşuma gəlirsən.

— Çox nahaq. Aralan məndən. Məni biabır eləmə. Yekə kişisən, özünü uşaq kimi aparırsan. Heç olmasa özünə qiymət qoy.

— Mən səni sevirəm, Şəfəq.

— Boş-boş danışma. Çəkil yolumdan.

— Bu, mümkün deyil. Açığını deyim ki, mən arvadımla ayrılmaq fikrindəyəm.

— Özün bilərsən.

— Sənin üçün hər cür şərait yaradacam.

— Dedim, çəkil yolumdan. Məni məcbur eləmə ki...

— Neyləyəcəksən?

— Neyləyəcəyimi özüm bilirəm.

— Məni zor işlətməyə vadar eləmə, Şəfəq.

— Alçaqsan! Nadansan! Bu yaşda gör nə danışırsan?! Dedim, çəkil yolumdan! Yoxsa, polisə...

— Ha... ha... Polis. Polis mənə neyləyəcək? Onlara pul lazımdı. O da məndə. İstəsəm...

— Nə?

— Özün fikirləş.

— Manaf, mən ölərəm, sənin kimi kişilərin üstünə ayaqqabılarımı silməyi belə özümə rəva görmərəm. İndi başa düşdün? Rədd ol burdan. Bilirəm, bu oyunların hamısının törədicisi, o, ifritə Butadı. Mən istəmirəm ondan gedib fabrikin direktoruna şikayət eləyim.

Şəfəqin üz-gözündəki ciddiyyət, sözündəki qətilik Manafa irəli çıxmaq imkanı vermədi. Ancaq Şəfəq onu da fikirləşdi ki, Buta hiyləgər və mənəviyyatsızdı. Bu söz-söhbətin nə vaxtsa, qisasını ondan alacaq. Sonra da düşündü ki, hər şey özümdən asılıdı. Mən imkan verməsəm, ona yaxın getməsəm, nə edə bilər ki?

* * *

Tez bir zamanda yataqxanada alverçi kimi tanınan Yaqut Tolikin, Musikin gətirdikləri paltarları çarpayıların üstə sərib nümayiş elətdirirdi. Nəinki yataqxana sakinləri, hətta, kənardan da qızlar, qadınlar Yaqutun yanına gəlir, kofta-yubkalara, palto-plaşlara, köynəklərə, ayaqqabılara baxırdılar. Xeyli çənə döydükdən sonra beş aşağı, beş yuxarı lazım olan şeyləri alıb gedirdilər. Otaq mənzildən çox zəngin mağazanı xatırladırdı. Şəfəq: — Bu, nə vaxtacan belə olacaq? — deyə düşündü. O, Yaquta bir söz deməsə də özlüyündə fikirləşdi ki, Buta xanımla danışsın. Yaqutun hərəkətlərinə son qoydursun, ya da özünün başqa otağa köçməsi üçün razılıq alsın. O, bu məqsədlə də birinci mərtəbəyə düşüb qapını bir neçə dəfə döyməyə başladı. İçəridən: — Buyur, — deyə Butanın amiranə səsi eşidildi. Şəfəq utana-utana, çəkinə-çəkinə içəri keçib, Butaya təzim elədi. Buta:

— Hə, eşidirəm, nə baş verib ki?

— Heç. Buta xanım, gəldim bir məsələ barədə sizinlə söhbət eləyim. Ancaq məndən inciməyin.

— Sözünü de.

— Bizim otaqdakı vəziyyəti bilirsiz. Yataqxananın bütün qızları hər axşam ordadı. Kənardan da gələnlər var. Mümkünsə, ya Yaqutu başqa otağa keçirin, ya da məni. Mən dərslərimə hazırlaşa bilmirəm. Axşamlar istirahətim pozulur. Yatmadığımdan gündüzlər işdə, axşamlar da dərsdə mürgü döyməli oluram.

— Ağ eləmə. Neçə vaxtdı yataqxanada qalırsan. Bircə manatlıq mənə hörmət eləmisənmi? Yox! Ancaq bu yataqxananın bilirsənmi nə qədər dərd-səri var? İşıq yanmır, elektrikə pul ver. Qaz gəlmir, qazda işləyənlərə pul ver. Su gəlmir, pul ver. Ver... Ver. Ver. Hardan alım? Ya get orda başını aşağı sal, dinməz-söyləməz yaşa, ya da kirayənişin qal. Belə şeydən ötrü bura gəlmə. Əvvəlki vaxtlar deyil, dünya dəyişib. İndi müstəqil ölkəyik.

— Müstəqil olanda...

— Hə, bə nə bilmişdin? Bəlkə sən də "Demokratiyadı" deyəcəksən? Avropa Şurasına, Qərb ölkələrinə şikayət eləyəcəksən? Sənə gül kimi şərait yaratdım. Onu da başa düşmədin. Manafı

bəyənsəydin, özü sənin üçün...

— Bağışlayın.

Şəfəq kor-peşman Butanın otağından çıxıb öz otağına qayıtdı. Özü üçün şam hazırladı. Otaqda xanımlar çox olduğundan bir kənara çəkilib nahar eləməyə başladı. Yatmaq vaxtına az qalırdı. O, qapını açıb balkona çıxdı. Öz-özünə düşündü: "Artıq bu otaqda qalmaq mümkün olmayacaq. Universiteti qurtarmağıma altı aydan da az qalır. Bircə vaxt gəlib keçsəydi, yüngülləşərdim. Burda qala bilməsəm də, gedib kirayə ev tutardım. İndi mümkün deyil. Aldığım az məvacib dolanacağıma güclə çatır. Yaxşısı budu ki, dilimi şirin eləyim. Donuzun burnunu özümdən kənara itələyim. Gərək bayaq gedib Buta ilə danışmayaydım. Yəqin ki o da danışdığımızı sabah Yaquta çatdıracaq... Çox pis, mən deyəsən, satqınlıq elədim. Yaqutun məndən inciyib-küsməyə haqqı var... Gərək belə olmayaydı. Nə isə, oldu, keçdi. Mən özüm çalışıb onunla yola getməliyəm..."

Belə bir qənaətlə balkondan otağa qayıdan Şəfəq Yaqutu yatmış görüb çarpayısını açdı, soyunub yatağına girdi.

* * *

Son günlər Şəfəq Yaqutun yöndəmsiz, kor-kobud, əxlaq normalarından uzaq hərəkətləri ilə barışmağa məcbur olmuşdu. O, özü də bilmədən yataqxanada Yaqutun buyruqçusuna çevrilirdi. Zavallı Şəfəqin başqa yolu da yox idi. Əks halda, o, pulla, müxtəlif hədyanlarla yataqxana sakinlərindən də bəzilərini onun üstünə qaldıra bilərdi. Bu, mümkün olmasa da, Şəfəqin üstünə oğurluq yıxaraq, onu biabır eləyə, polisə verə bilərdi. Şəfəq maska taxmağa məcbur olmuşdu. O, Yaqutun üzünə gülür, içində isə ona dərin nifrət eləyirdi. Ona dəhşətli təxribat ünsürü kimi baxırdı və inanırdı ki, bu qadının ölçüyəgəlməz hərəkətləri çox gedə bilməz. Belə qadınlarda şivə, naz-qəmzə satmaq, qaşgöz oynatmaq güclü olsa da, onlardan vəfa, etibar, sədaqət ummaq olmaz. Ona görə də Yaqutla ehtiyatlı olmaq lazımdı. Şəxsi mənafeyini, pulu hər şeydən üstün tutan Yaqut qürurunu hər an ayaqlar altına atmağa, ar-namusunu qurban verməyə hazır idi. Abır-həyasını gözləmədiyindən, ağına-bozuna baxmadan danışır, özünün də, başqalarının da sirlərini açıb tökürdü. Onun aləmində mənəvi dəyərlər, insani hisslər puldu.





Hərdənbir axşamlar əlli-əlli beş yaşlı bir qadın dolu zənbillərlə Yaqutun yanına gəlir, gətirdiklərini ona verir, satdığı malların pullarını alıb gedirdi. O, bir neçə dəfə bu otağa gəldiyindən özünü çox sərbəst aparır, istədiyini Şəfəqin yanında danışmaqdan da çəkinmirdi. Son dəfə gələrkən: — Uşaqların səndən ötrü yamanca darıxıblar, — dedi, sonra da yersiz danışdığını başa düşərək gətirdiklərini otaqda qoydu, pulları alıb qapıdan çıxarkən: — Bir saatdan sonra səni aşağıda gözləyəcəklər, — dedi. Yaqut: — Yaxşı, — deyib otağa qayıtdı. Güzgünün qabağına keçdi. Üz-gözünü qaydaya salmağa başladı. Bəzənib düzənməsindən Şəfəqə aydın olurdu ki, Yaqut bu görüş üçün çox məmnundur. Nə fikirləşdisə, Yaqut güzgü qarşısında bəzənə-bəzənə Şəfəqə dedi:

— Qalx geyin, gedək. Tolik gəlib. Sənin üçün də bir nəfər təşkil elərik. Narahat olma, xərci özləri çəkəcəklər.

Bu sözləri eşitcək Şəfəq tutuldu. Nə deyəcəyini bilmədi. Yaqut sözünə davam elədi:

— Bir az kefimizi çəkək.

— Nə dedin? Yox! Yox!

— Yaxşı, yaxşı özünü naza çəkmə! Mən bu həyatı səndən az dərk eləmirəm. Nə olsun ki, ərim də var, uşaqlarım da. Onlara da pul gərəkdi.

— Bəs namus?!

— Namus kişilərin uydurmasıdı. Əgər belə olmasaydı, addımbaşı onlar arvadlarına xəyanət eləyərdilərmi?

— Yox! Sən belə danışanda mən dəhşətə gəlirəm.

Yaqut üzünü Şəfəqə tərəf çevirdi. Onun ehtiraslı gözləri zavallı Şəfəqə dikildi. Sonra astadan dilləndi:

— Qulaq as, Şəfəq. Mənim də ali təhsilim var. Oxuyarkən həmişə yüksək qiymətlər almışam. Ancaq bir şeyi başa düşdüm ki, həyat çox mürəkkəbdi. İstəsək də, istəməsək də biz onun axarından kənarda qala bilmərik.

— Mən əxlaqı pozğun bir qadınam! Mən lap gəncliyimdən elə vəziyyətə salınmışam ki, kişilərə fərq qoymadan hamısının boynuna sarıla bilərəm.

Bunu eşitcək Şəfəqin əti çimçəşdi və öz hissiyyatına uyuşmayan bir ciddiliklə Yaqutun gözlərinin içinə baxdı. İstədi ona desin: "Sən fahişəsən?" Yaqut dərhal sözünə davam elədi:

— Hissiyyatım çox zaman ağlımı boğur, məhdudlaşdırır, məni yüngül, yelbeyin bir adama çevirir. Adi vaxtlarda, ehtiraslarımın söndüyü bir zamanda özüm də elədiklərimi incəliklərinə qədər başa düşürəm. Allahın ən bədbəxt bəndəsi olduğumu duyuram. Adətkar olduğumdan şərait dəyişən kimi ehtiraslarım tüğyana gəlir, ağlım öz gücünü, qüvvəsini, funksiyasını itirdikcə, ayaqlar altına düşmək dərəcəsinədək enirəm. Yaxın və uzaq adamların gözlərində özümün fırıldaqçı, nadürüst, yalançı, böhtançı, fahişə obrazımı yaradıram. Bu dəhşətdi, Şəfəq. Bu gün sənin tam haqqın var ki deyəsən, Yaqutun xəyal dairəsi ancaq pulla, zahiri görünüşlə, bəzək və zövq aləmi ilə məhdudlaşır. Onu nə yaxın adamları, nə ailə üzvləri, nə əxlaq normaları, nə də namus, vicdan, ləyaqət, şərəf hissləri maraqlandırır. O, həyata yüngül münasibət bəsləyir. Deyəcəklərində, hardasa, bir həqiqət var. Mən heç cürə bu gün özümü yuyub təmizə çıxara bilmərəm.

Gözlənilmədən Yaqut hönkürüb ağlamağa başladı. Dalbadal aldığı zərbələrdən ayılan, özünə güc-bəla ilə gələn Şəfəqin beynindən ani sürətlə belə bir fikir keçdi: "Şiddətli ehtiraslar alovlananda ağıl cilovlanır, hər hansı hadisənin çözümü ilə əlaqədar tətbiq olunan nəzəriyyə və dəlillər məhvərindən çıxır, məntiqi təfəkkürü acizləşdirir. Təzadlı hisslər təzadlı fikirlərdən doğur..."





Şəfəqin Yaquta yazığı gəldi. Əyləşdiyi stuldan qalxıb ona yanaşdı. — Bəsdi, qurtar söhbəti, danışdıqca əsəbiləşirsən, — dedi. Yaqut gözlərindən yanaqlarına selləmə süzülən yaşı sildi. Üzünə çəkdiyi pudra, krem bir-birinə qarışdı, sarışın, girdə sifətini qaramtıl bir rəngə boyadı. Haçandan-haçana özünə gəldi, sonra yenidən sözə başladı:

— Neçə vaxtdı səni müşahidə eləyirəm, Şəfəq. Sən olduqca ağıllı, dərrakəlisən. Bayaq özüm qəsdən sənə görüşə getməyi təklif elədim. Bilirdim getməyəcəksən. Mən və mənim kimi əyri yola düşənləri kütbeyinliyimizdən, əxlaqımızın dürəkliyindən cavan vaxtdan pozublar. Düzdü, burda mənim də qəbahətim böyükdü. Mən özüm də buna hardasa aludəçilik göstərmişəm. Ancaq bu işdə yaşadığımız cəmiyyət də, yaranmış mühit də günahkardı, Şəfəq. Bəzi kişilər mənim kimi qadınlardan da betərdi. Neçə vaxtdı hər axşam televizorda adamları qarşılaşdırırlar. Vahid xalq, millət adından çıxış eləməkdənsə, vətənin dərd-sərindən danışmaqdansa, onlar bir neçə yerə, qrupa parçalanıb hər gün bir-birilərinə böhtanlar, iftiralar atırlar. Deyə bilərsən, niyə? Şəxsi mənafelər, şəxsi ambisiyalar üçün. Guya bunların niyyətini xalq başa düşmür. Vəzifə, mənsəb üçün hər cür alçaqlıqlara gedən kişilərlə ar-namusunu satan mənim kimi ayağı sürüşkən qadınlar arasında nə fərq var? Məncə, heç nə. Hər ikimiz mənafeyimiz üçün, pul, var-dövlət üçün özümüzü cırırıq.

Bəyəm, məni bu yola o "kişi" deyilən ərim" salmadımı? Məni fəlakətə uğratmaqla özünə "şərik" tapmadımı? İndi kimlərdənsə doğduğumu alıb qucağına "oğlum", "qızım" — deyə evdə saxlayır. Məni də pul qazanmaq üçün şəhərlərə salıb. Bakıdan batıb Moskvadan, Moskvadan batıb İstanbuldan, oradan da batıb

Dubaydan çıxıram. O səfeh, alçaq başa düşmürmü ki, mən də qadınam, xoş sözə, xoş gülüşə, tərifə, komplimentə ehtiyaclıyam. O yoxsa, deməli, tələbimi kimsə ödəməlidi. Məni bağışla, Şəfəq. Ölübsə, eybi yoxdu, qadınlıq hissiyyatımı, qadınlıq ehtiraslarımı ona qurban verim. Yoxsa, özü məni küçələrə atıb get, pul qazan desin? Qazanıram. Onun alt-üst paltarlarını da, papağını da şorgöz türk, ərəb, rus, azərbaycanlı kişilərindən qopardığım pullarla alıram. Qoy bunun xəcalətini yaşadığımız dövran, zaman, bir də məni bu yola salan ərim çəksin. Kimdi günahkar? Ayağı sürüşkən qadın, yoxsa, qeyrətsiz kişi?

Danışdıqca bədənim alışıb yanır. Bu axşam görüşə də getməyəcəyəm. Nifrət eləyirəm özümə. Nifrət eləyirəm başqalarını fəlakətlərə sürükləyənlərə! Nifrət eləyirəm ar-namus satqınlarına! Nifrət eləyirəm mənəviyyat zorlayanlara! Nifrət eləyirəm ləyaqətsiz ambisiya düşkünlərinə!

— Özünə gəl, Yaqut!

— Xəstə insanı müalicə eləmək olar. Çürüyən hissəsini kəsib atmaqla bədəni sağaltmaq mümkündü. Korlanmış mənəviyyat sahibi ölümə məhkumdu. Xəstə cəmiyyəti sağaltmaq üçün əsrlər gərəkdi, Şəfəq. Neçə nəsil dəyişməlidi ki, cəmiyyət düçar olduğu xəstəlikdən qurtula bilsin. Yox! Düzələcəyinə inanmıram!.. İnanmıram!.. İnanmıram!..

Yaqut qalxıb otağın havasını dəyişmək üçün pəncərəni açdı. Özü də soyunub yatağına girməyə hazırlaşdı. Açıq pəncərədən axan zəif meh onun yarıçılpaq bədənini yaladıqca əsəbilərinə ruhu sakitləşdirən bir duyğu, bir məlhəm qoyurdu.

* * *

Universitetdə ali təhsilini başa vurmasına üç aydan da az vaxtı qalan Şəfəq gecə-gündüz diplom üzərində işləyirdi. O, həftədə iki-üç dəfə diplom rəhbəri professor Cəmalə xanımla əlaqə





saxlayır, ondan lazımı məsləhətlər alırdı. Şəfəqin oturuşu-duruşu, danışığı, hadisələrə açıq, doğru-düzgün münasibəti Cəmalə xanımın çox xoşuna gəlirdi. O, Şəfəqə yalnız tələbəsi kimi yox, həm də əziz qızı, bəzən də yaxın rəfiqəsi kimi baxırdı. Professor biləndə ki, Şəfəq gündüz işləyir, yataqxanada qalır, kimsəsizdi, arxası yoxdu, onun tələbəsinə olan hüsn-rəğbəti bir qədər də artmışdı. Bir neçə dəfə demişdi ki:

— Qızım, utanma, bilmədiklərini soruş, öyrən. Sənə inanıram. Yaxşı cəhətin odur ki, sən oxuduqlarına, işə şüurlu münasibət bəsləyə bilirsən. Əgər gələcəkdə də təhsilini davam elətdirmək istəsən, səndən ümid verən yaxşı alim ola bilər...

O zaman Şəfəq gülümsünərək: — İmkanım yoxdu, Cəmalə xanım, — deyə cavab vermişdi. Professor Şəfəqə demədən özlüyündə belə qərara gəlmişdi ki, rektorla danışsın, Şəfəqin universitetdə saxlanılmasına nail olsun. Əziz tələbəsini elmi-tədqiqata cəlb eləsin. Özünün rəhbərliyi altında Şəfəqi yetişdirsin.

May ayının ortaları idi. Şəfəq məsləhətlərini alıb kafedradan çıxanda Cəmalə xanım Şəfəqdən soruşdu:

— Altıncı, bazar günləri işin varmı, qızım?

— Professor, diplom işi üzərində çalışmaq fikrindəyəm.

— Gəl belə danışaq. Diplom işinlə bağlı ədəbiyyatı seçək. Altıncı gün gedək bağa. Mən də təkəm. Darıxıram. Həm bağda təmiz hava alaq, şəhərin səs-küyündən, hay-harayından uzaqlaşaq, əsəbilərimiz sakitləşsin, həm sən işləyəsən, həm də mən sənin işlərini bir daha nəzərdən keçirim. Qızım, bezmişəm bu şəhərin maşınlarının səsindən. Maşınların, zavodların, fabriklərin buraxdığı tüstülər havaya qarışaraq həyat üçün elə problemlər yaradıb ki, bu yaşda dözə bilmirəm.

Şəfəq əvvəl gülümsündü, sonra çiyinlərini çəkdi, utana-utana, çəkinə-çəkinə bildirdi:

— Bağa getmək üçün nə lazımdı, professor?

— Nə lazım olacaq, qızım?! Heç bir şey. Bizə lazım olacaq

hər şey evdə var. Səhər saat 10-da bizə gələ bilərsənmi? Oğlumla danışaram. O, bizi maşınla aparar bağa. Orda sən mənə, mən də sənə həyan olarıq.

Şəfəq professorun dediklərini çevirmədi. Əksinə Cəmalə xanımın mehribançılığı, qayğıkeşliyi onu çox sevindirdi. O, yataqxanaya necə gəldiyini bilmədi.

* * *

Şənbə günü Şəfəq bazarlıq eləyib Cəmalə xanım yaşayan ünvana yollandı. Binanın girəcəyinə yaxınlaşırdı ki, o, başını qaldırıb yuxarı mərtəbənin balkonlarına baxdı. Cəmalə xanım üçüncü mərtəbənin balkonundan gülümsünə-gülümsünə: — Evə qalx, — dedi. Şəfəq yuxarı çıxıb evə keçmişdi ki, professor dərhal soruşdu:

— Gətirdiklərin nədi?

— Heç elə-belə, professor. Fikirləşdim ki, lazım olar.

— Yox, qızım, lazım olmayacaq. Hər şey var. Gətir onları qoyaq soyuducuya, xarab olmasın. Sabah axşam qayıdanda apararsan.

— Yox, nə danışırsız, professor.

Cəmalə xanımın sifətində ötəri bozartı, səsində güclə seziləcək amirlik duyuldu. Bunu Şəfəq də hiss elədi. Ona görə də söhbəti uzatmadı. Aldıqlarını soyuducuda yerləşdirdi. Heç beş dəqiqə keçməmiş qapı açıldı, qırx yaşı olar-olmaz, ucaboy, qarayanız, üzü yenicə təraş olunmuş, çallamış saçlarını arxaya daramış bir kişi içəri girib salam verdi. Şəfəq ayağa qalxmaq istəyirdi ki, Cəmalə: — Mənim oğlumdu, adı da Şöhrət, — dedi. Sonra da professor oğluna: — Barəsində danışdığım, həmən ağıllı qız Şəfəq budu, — deyə bildirdi.

Şəfəq də, Şöhrət də məmnunluqla bu görüşdən razı olduqlarını bildirdilər. Cəmalə:





— Adama bir loxma kəsək.

Şəfəqlə Şöhrət eyni anda:

— Yemişəm, — dedilər.

Cəmalə:

— Bu olmadı ki? Yaxşı, mən sizin üçün də nahar nəzərdə tutmuşdum. Bir halda ki, yeyib-içmirsiz, Şöhrət, sən zənbilləri maşının baqajına qoy. Şəfəqlə biz də gəlirik.

Şəfəq:

— Axı siz nahar eləmədiz.

— Yarım saatdan sonra bağa çatacağıq. Orda eləyərəm.

Şöhrət qapının yanında divara söykənmiş dolu qara zənbillərin hərəsini bir əlinə götürdü:

— Ay ana, zənbillərə daş doldurmusan nədi, bu qədər ağırdılar?

— Ağırdı tək-tək apar.

Şəfəq:

— Şöhrət qardaş, birini mən götürərəm.

Cəmalə:

— O qadın işi deyil, qızım.

Şöhrət zənbilləri götürüb aşağı düşdü. Az sonra Cəmalə xanımla Şəfəq də gəlib "Jiquli" markalı qırmızı rəngli maşının arxa salonunda əyləşdilər. Maşın yerindən sürət götürdü. Otuz beş-qırx dəqiqədən sonra Bilgəhdəki iki otaqdan ibarət bağ evində oldular. Şöhrət zənbilləri baqajdan düşürüb evə apardı. Şəfəq Bakı bağlarında ilk dəfə olurdu. Ona elə gəlirdi ki, bu bağlarda da uca, nəhəng, çətirlənən ağaclar vardır. Fikirləşdiklərinin əksini görəndə Şəfəqi təəccüb bürüdü. Yerə yatmış meynələr, onların təzə, tər yaşıl yarpaqları, bir qədər aralıda mavi Xəzər, dənizdən qopub gələn sərin meh, tər-təmiz hava. Yüngül, təmiz havadan ciyər dolusu alan Şəfəq özlüyündə Cəmalə xanıma dönə-dönə təşəkkürünü bildirdi.

Cəmalə:

— Şəfəq, həyətdə dayanma, qızım, gəl içəri.

O, Şəfəqi əvvəl mətbəxlə, sonra da otaqlarla tanış elədi. Otaqlarda təmirə ciddi ehtiyac duyulurdu.

Cəmalə:

— Qızım, professor olmaq, hələ maddi cəhətdən təmin olunmaq demək deyil. Görürsən də...

Şöhrət:

— Ana, mən meynələri sulayıb gedəcəm. Sabah nə vaxt gəlim sizi aparmağa.

— Nə vaxt imkanın olsa, gəl. Bir az da sən dincələrsən. Axşam tərəfi gedərik. İndi yüngülvari yemək hazırlayaq, sən də nahar elə.

— Narahat olmayın. Yemək sabah.

— Özün bil.

Meynələri sulayıb qurtaran kimi Şöhrət maşına əyləşib həyətdən çıxdı. Cəmalə ilə Şəfəq çay-yemək hazırlayıb yüngülcə nahar elədilər. Bağda xeyli gəzdilər, oturub dincəldilər. Cəmalə dedi:

— Qızım, günorta naharından sonra gedərik Xəzərin sahilinə. Oranın havası alahıdı.

Şəfəq deyəsən “alahı” sözünü başa düşmədi. O, dərhal Cəmalənin üzünə baxdı. Professor onu dərhal başa düşdü, “Əladı”, — dedi. Onlar belə də elədilər. Günorta qızartdıqları toyuq ətindən nahar eləyib dənizin sahilinə getdilər. Universitet həyatından, fabrikdən, yataqxanadan, gündəlik gördükləri, qarşılaşdıqları şeylərdən söhbət açdılar. Heç özləri də bilmədən söhbət əxlaq və mənəviyyat problemi üzərinə gəldi. Bir qrup əxlaqı pozğun adamların ölkəni soyub talaması, imkansız adamların alçaldılması, mənəviyyatlarının zorlanması məsələlərindən danışan Cəmalə dərindən köksünü ötürdü. Sonra sakit bir tərzdə dedi:

— Əxlaq və mənəviyyat zaman-zaman, nəsil-nəsil insanları düşündürən problemdi, qızım. Əxlaqi təkmilləşmə, mənəvi saflıq uğrunda mübarizə cəmiyyətin özünü şərtləndirir, ictimai həyatda normal davranış qaydalarını nizama salır. Cəmiyyət dəyişdikcə, haldan-hala düşdükcə əxlaqın, mənəviyyatın təkmilləşməsinə, inkişafına da böyük ehtiyac duyulur. Geniş mənada hər yaranan cəmiyyətin öz əxlaqı, mənəviyyatı olur. Bununla yanaşı, hər bir cəmiyyətdə ayrı-ayrı xalqların, millətlərin tarixi kökləri, dini, adət-ənənələri, başqa sözlə, ruhu da danılmazdı. Bəşəri duyğular ayrı-ayrı xalqların əxlaqi xüsusiyyətləri əsasında formalaşır. Xalqlar yoxsa, bəşəri dəyərlərdən də söhbət gedə bilməz. Bugünkü əxlaqımız, mənəviyyatımız başlanğıcını minilliklərin dərin laylarında məğrur, cəfakeş qəvvasların, bir-birini əvəzləyən nəsillərin zəka nurunda büllurlaşaraq, kristallaşaraq kvint-essensiya forması almışdır. İndiki böhranlı məqamda zaman-zaman yaşadan, yaradan fəzilətlilər tərəfindən ləl-cəvahirat zərrələrinin toplandığı “qızıl külçə” xalqımıza ləyaqət və şərəflə ötürülmüşdü. O, bir-birini əvəzləyən milyonlarla insan nəsillərinin misilsiz xəzinəsidir, zəngin dəfinəsidir. Qeybdən doğulmayan, heçdən yaranmayan, lakin hər birimizin şahidinə çevrildiyimiz tarixi cahanşümul qələbələr — əxlaqi sərvətlər, mənəvi dəyərlər bəşəri ideyalara, özündən əvvəlki mütərəqqi fikirlərə əsaslanır.

Əxlaqi sərvətlər, mənəvi dəyərlər zəka nurundan doğur və o, insanı insan eləyən mühüm vasitəyə çevrilir. Sağlam düşüncə, gözəl əməl, başqalarına xeyir verən fəaliyyət insanın əxlaqi sərvətləri, mənəvi dəyərləri üzərində qurulan mənalı həyatdır. “Balıq suda üzmək, quş uçmaq, insan mənalı həyat üçündür” — deyənlər, heç də səhv eləmirlər.

Əxlaq, mənəviyyat insana məxsusdur. Bu keyfiyyətlərə yiyələnməyənlərin idrakı da kordur. İdrakın nurunda parlayan hər şey gözəldir, məftunedicidir. Gərək onu duya biləsən, görə biləsən, dərk eləyəsən.

Ulularımızın bizə bəxş elədikləri kamal dünyası, əxlaqi

“igidlikləri”, mənəvi sərvətləri, dəyərləri ilə bu gün geninə-boluna öyünməyə, fəxr eləməyə dəyər. İnanıram ki, əsrlərin dərinliklərindən süzülüb gələn fəzilətlilərin vicdan səsi dünya durduqca nəsillərin ruhunda əks səda verəcək. Vətən, xalq, millət qüruru, vüqarı olanları daha da zəfərlərə səsləyəcək. Əxlaqi sərvətlərə, mənəvi dəyərlərə hörmət və ehtiram bəsləyəcək.

Əxlaqı saflıq, mənəvi zənginlik hər bir insanın həyat normasına çevrilməlidi. Azərbaycan xalqı xoşbəxtdi ki, zaman-zaman onun müdrikləri olub, böyük mütəfəkkirləri olub, dahiləri olub. Nə yaxşı ki, xalqımız indi də belə görkəmli dühalarından xali deyil.

Əxlaq və mənəviyyat ləyaqətə, şərəfə, namusa, haqqa, ədalətə, vicdana əsaslanır. Bunlarsız nə əxlaqi təkmilləşmə, nə də ülviləşmə mümkündür. İndiki böhranlı məqamda xalqımıza yaraşmayan, əxlaqımıza, mənəviyyatımıza zəhərli təsirini göstərən əcaib amillər olsa da, nə yaxşı ki xalq öz qürurunu, vüqarını qoruya bilir, əxlaqının korşalmasına, mənəviyyatının aşınmasına imkan vermir. Azərbaycan xalqı böyükdür, qüdrətlidir. Əxlaqı saf, mənəviyyatı təmiz xalq hər şeyə qadirdir. Belə bir xalqın övladı olmaq böyük bəxtiyarlıqdır, misilsiz fəxarətdir.

İdrakın işığında parlamayan əxlaq, fəaliyyət eybəcərlikdi, yırtıcılıqdı, heyvani hisslərlə yaşamaqdı. Bax, bu faciədi, qızım. Diri ikən ölməkdi. İnsanlığa qara bir ləkədi! Belələrindən nə vətənə vətəndaş, nə də xalqına, millətinə, valideyninə övlad ola bilər. Xainlər, nakəslər, biqeyrətlər üçün nə əxlaq, nə də mənəviyyat var.

Son illərdəki əxlaqi pozğunluqlar, mənəvi aşıntı məni dəhşətə gətirir. Oğurluq, dələduzluq, vətənə, xalqa xəyanət, düşgünlük... nələr, nələr baş alıb gedir. Əksər adamlar üçün ləyaqət də, şərəf də, namus da, vicdan da şəxsi mənafedi, puldu, qazancdı. Belələri üçün əxlaq, mənəviyyat boş şeydi. Onlara bu barədə mühazirə oxumaq gülüncdü. Qəribədi ki, bütün əxlaq normala-





rının pozucuları, mənəviyyat düşgünləri, qəssabları başdakılardan bəziləridi, xalqın guya oxumuşlarıdı. Yaxşı deyiblər: “Balıq başdan iylənər”. Heyf, çox heyf! Biz hara gedirik belə?

Cəmalə xanım ayaq saxladı. Üzünü səmaya tutdu. Şəfəqə əvvəl elə gəldi ki, professor başının üzərində qıyhaqıyla uçuşan gümüşü qanadlı qağayılara baxdı. O, istədi desin ki, professor, bu quşlar da dənizə gözəllik verir, Cəmalə xanım başını bir balaca yellədi, dərindən “ah” çəkib sözünə davam elədi:

— Qızım, həyatda ən çətin şey insanın öz yerini görməsidi. Cəmiyyətdə baş verənləri dərk eləməsidi. Öz hüququnu anlamasıdı. Anlamaz özünə olunan ədalətsizliyi qanmır. Hər şeyə başqalarının yazdığı hüquq civarından baxır, hər cür mühakimələri, ittihamları ədalət, haqq güzgüsündə görür. Belələri tətbiq olunan zülmü müticəsinə qəbul eləyirlər. Bununla da zalımlar, dələduzlar, quldurlar, mafiozlar kasıbların, imkansızların, məzlumların boş damarlarını bacarıqla tuturlar. Yerli-yersiz çirkin, hiyləgər, iblis niyyətlərini həyata keçirirlər. Düşünəndə dəhşətə gəlirəm, qızım. Həm də bu xalqa yazığım gəlir. Axı nədi xalqın günahı? Ömrü boyu azadlığımızı düşünmüşük. Azadlığımızı aramışıq. Şükürlər olsun əldə elədik. İndi də “milli dələduzlarımız”, “milli quldurlarımız” xalqı talan eləyirlər. Xalqın düz alnının ortasına, gözünün içinə elə yalanlar, elə iftiralar deyirlər ki, özün də buna məəttəl qalırsan. Bir anlığa düşünürsən ki, yəqin mən bilmirəm, mən başa düşmürəm, mən dərk eləmirəm. Məni qınama, qızım, bəzən özüm də çaşıb qalıram. Belələrinin danışdıqlarını dinləyəndə, bir çoxlarının hərəkətlərini müşahidə eləyəndə, araşdıranda acı, kinayəli, rişxəndli gülüşlərdən savayı başqa əlacım qalmır.

Onlar narın qumlar üzərində gəzə-gəzə gəlib çoxdan sahili bəzəyən böyük bir qaya parçasının yanına çatdılar. Üzü dənizə əyləşdilər. Meh dənizdə xırdaca ləpələr yaradırdı. Ləpələr sakitcə sahilə yaxınlaşır, sarı, boz qum dənələrinə səcdəyə enib,

sonra da yavaş-yavaş öz məcrasına çəkilirdilər. Vurğunu olduğu dənizə heyranlıqla tamaşa eləyən Cəmalə gözlərini yumdu. Dənizin təmiz, sərin havası canına yağ kimi yayılırdı. Heç vaxt dənizlə belə yaxından təmasda olmayan Şəfəqdə şairanə bir hal yaranmışdı. O da dinməz-söyləməz bu mənzərəyə heyranlıqla baxırdı. Haçandan-haçana özünə gələn Cəmalə astadan, pıçıltılı səslə dedi:

— Topladığı zəngin sərvətlər harınlamışların, piylənmişlərin gözlərini necə tutubsa, özlərinin üfunətli hərəkətlərindən həzz almaqdan doymurlar. Bu kef onların iştahalarını nə qədər artırsa da, qulaqlarını o qədər karlaşdırır. Bu zavallılar barələrində başqalarının dediklərini nəinki eşitmirlər, heç eşitmək, dinləmək də istəmirlər. Bu əcaib hal o zamanadək davam eləyir ki, onlarda duyğusuzluq yaranır, idraklarının nuru, işığı zəifləyib sönmək dərəcəsinə çatır, mənlik ölür. Təəccüblüdü. Belələrinin hədsiz iddiası, şiddətli arzusu, ehtiraslı həsədi onları nalayiq və sadəlövh bir cəhalətə yuvarladır. Nəfslərini cilovlaya bilməmək kimi ikrahedici, heyvani hisslər doğurur. Belələrinə məzlumlar, əlsiz-ayaqsızlar daim nifrətlə baxırlar, onları məhv eləmək, parçalamaq, dağıtmaq məcburiyyətində qalırlar. Belə olanda çətinləşir vəziyyət, qızım. Qardaş qardaşla, ata oğulla üzbəüz dayanmalı olur. Xalq parçalanır, zəifləyir, düşmənsə bundan bacarıqla istifadə eləyir. Ola bilməzdi ki, xalq birliyi yaranaydı? Hamı ələlə verəydi? Çəkici bir yerə vuraydı? Onda xalq da istəyinə nail olardı. Qüdrətli dövlət də qurulardı. Mənim tanrım Vətəndi. O, mənimdi. Sənindi. Bütöv bir xalqındı. O, müqəddəsdi. Onu qorumaq gərəkdi. Yolunda fəda olmaq gərəkdi. İndiki acı həqiqətləri görəndə təəssüflənirəm. Küçələrdə avtomat, tapança səsindən qulaq tutulur. Hər gün adam oğurluğu baş alıb gedir. Belələri minilliklərdən bəri qətrə-qətrə toplanan mənəvi dəyərləri çirkin ayaqları altında tapdaladılar. İmkansızların ailələrinə təcavüz elədilər, ar-namuslarını zorladılar. Vətəni, torpağı, xalqı





hərraca qoyurlar. Qızım, bu cür düşünmək, bu cür hərəkət eləmək dəhşətdi. İnanıram ki, xalq dələduzlara xəyanətlərini bağışlamayacaq.

Düşmən vətənə soxulanda bu adamlar nəinki ordu yaradır, övladlarını da bir bəhanə ilə aradan çıxarırlar. Vətənin, torpağın müdafiəsini də atırlar kasıbların üstünə. Yuxarıların hiylələrini başa düşən aşağılar bir balaca narazılıq salan kimi bu zavallıların da adlarını qoyurlar fərari, satqın, vətən xaini... Adlarını ziyalı qoyan bəzi dələduzlar hər gün televizor ekranlarından, radio dalğalarından, qəzetlərdən böhtan, iftira yağdırırlar namuslu adamlara. Sonra da hərəsinin bir yolla ağzına daş basırlar. Susmayanları da ustalıqla aradan götürürlər.

Yaltaqlıq, mədhiyyəçilik, yalan baş alıb gedir. Şarlatanlar xalq adından elə danışırlar ki, adamın matı-mutu quruyur. Elə bilirsən ürəkdən danışırlar? Yox, özlərini gözə soxurlar. Nə var, nə var, çirkin məqsədlərinə çatsınlar! Atalar yaxşı deyib: "Yalan ayaq tutar, yeriməz". Məni ağrıdan odur ki, gəncləri yaltaqlıq, mədhiyyəçilik, yalançılıq ruhunda tərbiyə eləyirlər. Yalanlar qoynunda mürgüləyən xalqın, mədhiyyələr ağuşunda çimən millətin libası kəfəni olar. Yaltaqlardan, yalançılardan təvəqqəm budur ki, əvvəla el, oba içində, adamlar arasında başlarını qaldırmasınlar. İkincisi, xalq adından danışmasınlar. Axı yalançının, yaltağın nə ləyaqəti, nə şərəfi, nə də qeyrəti olar. Qeyrətsiz adam ailə, vətən, xalq qədrini bilməz. Onun üçün mənəvi dəfinələrdən daha çox başqasından çırpışdırılan qəpik-quruş qiymətlidi.

Gör, nə vəziyyətə gəlib düşmüşük. Qanan da, qanmaz da "Mən" deyir. Axı, sən də varsan, "O" da, "Biz" də, "Siz" də, elə "Onlar" da. "Mən"in əqidəsincə altı və üstü zəngin dəfinələrlə dolu olan yer də, cah-cəlallı göylər də onun olmalıdı. Nə qədər acı da olsa, nə qədər dəhşətli də olsa, "Ölüm" adlı həqiqəti unudurlar beləri. Bu, yerdə insanlığa, göydə Allaha qarşı xəyanətdi.

Hər gün, hər an zəlalətə, müdhiş zülmətlərə doğru irəliləyirik. Düşünən varmı ki, hara gedirik?! Nicatımız olacaqmı?!

Adam taleyi ilə, düşdüyü qorxunc faciə ilə təkbətək qalanda üzünü haqq olan göylərə tutur. Yaradanından imdad diləyir. Düşünür: indi mən üst-üstə qalaqlanan nəhəng daş kəsəklərin altındayam. Zir-zibil arasında itib-batan işıldaquşam. Güc-bəla ilə orada nəfəs almağa qadirəm. Bütün imkanları itən, mənəviyyatı zorlanan adam bu dünyada insan kimi yaşaya bilərmi? Məncə, yox! Təsəvvür eləyirsənmi, qızım, saxta, bədbin, xudbin ideya sahiblərinin çaldıqları qamçılar da, tətbiq elədikləri xeybərlənmiş hüquqi aktlar da əlsiz-ayaqsızlara, kimsəsizlərə, kasıblara, gündəlik çörəyini güc-bəla ilə tapanlara yönəldilmiş, səmtləşdirilmiş qanlı cinayətlərin tərkib hissələridi. Ürəyimi boşaltmaqla səni yormuram ki qızım.

— Yox, yox! Xoşdu, professor!

Mərdi qova-qova namərd eləyən əhatəsindəkilərdi, içərisində yaşadıqları cəmiyyətdi, mühitdi, qızım. İnsanı o qədər alçaltmazlar, o həddə çatdırmazlar, dərənin dibinə atmazlar ki, bataqlıqda qalıb iyrənc yollar seçsin. Hədsiz alçalma böyük namus sahiblərini də, vicdanın zəngin dəfinələri gizlənmiş bəsirətliləri də cinayətə sürükləyə bilər. Ləyaqət və şərəfi ayaqlar altına atmaq dərəcəsinə çatdırılanlar tonqala atılmışlar kimi alışıb-tutuşub yanırlar, cəhənnəm əzabına qatılırlar. Oğrular, dələduzlar, alçaqlar, özgə malına susayanlar, hər gün qara yollarla milyonlara sahib olanlar özləri də hər cür alçalmalara, cəzalara layiqdilər, Şəfəq. Zalım hər cür alçaqlığa yol verəndə məzlumun əl-qolu bağlanaraq girdaba atılır.

İnsan qəlbinin ən ali hissi, ölməz ruhu özünün başqalarına sevgisi, məhəbbəti olmalıdı. O ilahi hisslər insan qəlbində əbədidi, ölməzdi. O insanla doğulub, insanla ölür. Ancaq bu ali hisslərin təsiri altında insan yaradır, qurur, özündən sonra iz qoyub gedir... Ondan qalan insanlığa əbədi nəğmələrini oxuyur, qızım.





Bayaqdan bəri dinməz-söyləməz professora qulaq asan Şəfəq: — Mən bu gün xoşbəxtəm, professor, — dedi.

— Niyə?

— Çünki sizin dediklərinizi indiyə kimi mən heç kəsdən eşitməmişəm.

Professorun bənizi ağardı. Susdu. Təəssüf hissi ilə yana-yana bildirdi:

— Bu mənim xalqıma, millətimə olan sevgimdən, məhəbbətimdən doğan acı göz yaşlarımdı, qızım. Bir ovuc millətik. Allah bizə çox şey verib. Di gəl ki, qədrini bilmirik. Arxaya, sağa, sola səpirik. Niyə? Niyəsini heç özümüz də anlamırıq. Fəlakət budu.

— Cəmalə xanım, gərək ziyalılar...

— Diplomlu çoxdu. Kimi dindirsən, mal dili boyda diplomunu verir qabağa. Az qalır adamın gözünə soxa. Deyir, ziyalı mənəm. Özü də qurşanır yığmağa: rüşvətə, oğurluğa, cib kəsməyə, adam öldürtdürüb qan içməyə, başqalarına böhtanlar yağdırmağa. Adam belələrinə baxanda xəcalət çəkir. İstəyir onun əvəzində ölüb yerə girsin. Bu bədbəxt başa düşmür ki, diplom adamı ziyalı eləməz. Ziyalılıq gərək adamın canında ola, ruhunda ola. Əməlində, fəaliyyətində görünə.

Qəribədi bu dünyanın işləri. Xalqın bu günü barədə düşünəndə, çıxış yolları tapa bilməyəndə elə bilirəm üstümə dağlar uçub tökülür. Atırlar məni zindanlara, düşürəm zil qaranlıqlara. Böyük mütəfəkkirlərə görə, bir qəlbin keçirdiyi çoşğun həyəcan bəzən böyük bir izdihamın keçirdiyindən yüz dəfələrlə çox olur. Ayrıca bir fərdin daxili mənəvi dərinliyi xalqın dərinliyindən qat-qat dərindi. Bilirsən niyə? Xalqın böyük missiyası tək-tək adamların üzərinə keçəndə həmişə belə olur, qızım. Deyəsən, qızışıb danışıram. Danışdıqca lovğalıq, təkəbbürlük, mənəm-mənəmlik hissləri də məndə özünü büruzə verir. Belə alçaldıcı hisslərə nifrət eləyirəm, qızım.

Xalqın mənəviyyatına təcavüz eləyən adamın o xalqın övla-

dıyam deməyə haqqı yoxdu. Övlad valideyninə qarşı çıxan kimi, o şəxs də vətəninə, xalqına xəyanət eləmiş olur. Xəyanətin sonu fəlakətlə nəticələnən cinayətdi. Ağlamasan ağlada, gülməsən güldürə bilməzsən. Ona görə də gərək xalqı düşünəsən, vətəni düşünəsən, qızım. Belə olan tövrdə ziyalı fikir və düşüncələrinin, qəlbinin heyrətamiz dərinliyi ölçüyə sığmaz olur. Yaxşı deyirlər, hələ dünyada elə bir cihaz kəşf olunmayıb ki, bu dərinliyi ölçsün, onun nədən qaynaqlandığını, nədən qidalandığını, bəhrələndiyini dəqiq və düzgün müəyyənləşdirə bilsin. Baş vermiş hadisələr öz cildini, məzmununu, axarını elə tez-tez dəyişir ki, binəva ziyalı qorxu, təlaş, anlaşılmaz hisslər içərisində çox zaman donub qalır. Hadisələrin rəngdən-rəngə çalması, rənglərin əlvanlığı onu çaşbaş salır, bəzən vicdanına qaranlıq çökdürür.

Cəmalə xanım sözünə ara verdi. Dənizin üzərində gümüşü qanadlarını açıb şığıyan qağayılara, onların bir-biri ilə bəhsə girirmiş kimi suya baş vurmalarına, balaca balıqları tutaraq böyük həvəslə havaya qalxmalarına baxdı, baxdı. Dərindən bir ah çəkib təmkinlə sözünə davam elədi:

— Bir acı həqiqət var. Xalq özünün başı üzərində duranlardan bəzilərinə inanmır. Tək-tək içərisindən çıxanlara da şübhə ilə yanaşır. Tərəddüdlü günlərini yaşayır. Geriyə baxır. Boz qatı duman çöküb. Heç hara, heç nə görünmür. Bu duman boz olsa da, tam mənası ilə zülmətin missiyasını yerinə yetirir. Xalqın qabağa baxmaqdan başqa çarəsi yoxdu. Gələcək də ala-toran. Özünə qayıdan xalq gələcəyinə doğru boylanır. Qəlbində ümid, gələcəyə inam işığı yandırır. Öz içərisindən çıxan xainləri, xudbinləri göstərəcək ümid, inam işığı zəifləyir. Nə yaxşı ki, sönmür. Beləliklə, qəlbdə doğan işıq və qaranlıq! Bunlar arasında hökm sürən mübarizə! Əlbəyaxa vuruşma! Hücum və müdafiə! Mübarizə hansının qələbəsi ilə qurtaracaq?! İşıqla qaranlıq uyuşandımı?! Əsla yox! İşıq və qaranlığın nöqtələri bir-birinin üzərinə düşəndimi! Yox! Paralellikləri varmı? Yox! Bəs





nə var?! Onların tam ziddiyyətləri! Biri digərini ölümə, məhvə məhkum eləyən barışmaz mahiyyətləri! Mahiyyətlərin barışmazlığı ədalətlə ədalətsizliyin, haqla-haqsızlığın, vicdanla-vicdansızlığın toqquşmasıdı! İnsanlıq o zaman mahiyyət kəsb eləyir ki, əvvəlincilərin qələbəsi ikincilər üzərində bərqərar olsun! Əks təqdirdə, nadanlıq, cəhalət baş alıb gedəcək. Qaranlıq, zülmət öz neştərlərini məxluqatın şah damarına keçirəcək. Bununla da insanlıq ruhu, onun zərrin şəfəqi sönəcək!

Əlsiz-ayaqsızlar, kasıblar, kimsəsizlər qismətlərinə qane olurlar. Dünyanın var-dövlətinə puç, mənasız, əl çirki kimi baxırlar. Onları heç bir şey maraqlandırmır. Əllərinə düşəni ağızlarına qoyub, Yaradanlarına şükürlər diləyirlər. Heç kəsə pislikləri dəymir. Sadəliyi, mehribanlığı, səmimiliyi, təmizliyi, paklığı, xeyirxahlığı, başqalarının sevinci ilə yaşamaq hissləri, fədakarlıqları, xalq, millət vətənsevərliyi onları insanlığın fövqünə qaldırır. Əhatəsindəkilərə örnək olacaq bir şəxsiyyətə çevrilirlər. Var-dövlət üçün mənliyini verən manqurtlar, kələkbazlar, hiyləgərlər yalnız özlərini görürlər. Qəlbləri üfunət saçır. Belələri xainlik, xudpəsəndlik, paxıllıq, mərdimazarlıq, bədxahlıq kimi lənətə layiq hisslər içərisində boğulurlar, inləyirlər. Lacivərd göylərə də sahib olmaq arzusu ilə yaşayırlar. Bütün yaranmışlara etinasızlıq göstərən belə adamlar bircə dəfə də olsun cır-cındır içərisində tir-tir əsən ac-yalavacları, fəqir-füqəraları, xəstələri, şikəstləri düşünmürlər. Yumşaq kresloda əyləşib yalnız ciblərini pulla, boş qəlblərini qəbahətlərlə doldurmaq barədə düşünürlər. Ac-yalavaca, xəstəyə rəhm eləməyin nə olduğunu bilmirlər. Xəstə ölür ölsün, mənə nə? Uşaq can üstədi — mənə nə? Deməli, belə “mütəfəkkirlər” üçün sevgi də, məhəbbət də boş şeydi. Heyvanla insan arasında o qədər də fərq yoxdu. Ruhu dumanlanmış mücərrəd fikirli bu adamlar əzab-iztirablar qoynunda, zülmətlər içərisində inləyənlərin, canverənlərin laqeyd müşahidəçiləridilər. Onlar üçün gülüşlər də, qəhqəhələr də, danı-

şıqlar da, qışqırıqlar da, ağlamalar da, canvermə xırıltısı da insanın çıxardığı adi səslərdi. Onların arasında heç bir fərq yoxdu. Varsa da, o səs sahibinə özünəməxsus bir şeydi. Hər kəs nəyə qabilsə, onu da eləyir. Belə hal üçün bu "mütəfəkkirlər" məsuliyyət daşımırlar.

Gülmək də, ağlamaq da hərəsi insanda bir duyğu oyadır. Ancaq o duyğunun dərinliyini sahibindən savayı heç kəs başa düşə bilməz. Deyirlər, ağrının təsir qüvvəsinin dərinliyi sahibinə bəllidi. Böyürdə dayanan kəs ağrının dərəcəsini nə ölçə, nə də bədənin hansı hissələrinə təsirini müəyyən eləyə bilər. Düşünürəm. Düşündükcə də fikirlər zənciri məni alıb özü ilə lap uzaqlara aparır. İnsanın yüksəlişinin həddi varmı? O nə qədər yüksəklərə qalxsa da, Tanrı səviyyəsinə qalxa bilməz. Bəs enişi? Aşağı dığırlanması necə? Məncə, bu, hüdudsuzdu. Alçaldıqca alçalır insan! Çirkaba batdıqca batır insan! Mənasızlaşdıqca, mənasızlaşır insan! Nəticədə insanlıq mənəvi göz yaşları içərisində çökür, əriyir, yavaş-yavaş heçliyə çevrilir. Bax, bu, dəhşətdi. Doğmaqda olan günəşin birdən-birə geri qayıtmasıdı...

İndi hamı hər yerdə: küçədə də, toplanışlarda da, televiziyada da, mətbuatda da demokratiyadan danışır. Onun nə olduğunu bilənlər də, bilməyənlər də. Unudurlar ki, söz demək, fikir söyləmək hələ demokratiya ola bilməz. Mətbuatda, televiziyada açıq söz demək plüralizm, azad fikir xalqı demokratiyaya hazırlamaqdan başqa bir şey deyildir. Əslində, demokratiya sözlə əməlin vəhdətidir.

Cəmalə xanım ayağa qalxdı. Suyun qırağına gəldi. Şəfəq də onun ardınca. Professor əyilib təmiz, göz yaşı kimi dumduru su ilə ovcunu doldurdu. Üzünə çırpdı. Suyun soyuqluğu onun bədəninə yayıldı, sərməstlik gətirdi. Əsəbləri bir balaca sakitləşdi. Cəmalə qamətini düzəldib nəhayətsiz dənizə baxdı, sonra dedi:

— Qızım, son vaxtlar qəzet, kitab oxuya bilmirəm. Radionu dinləməyi bacarmıram. Televiziya verilişlərinə baxdıqca, əsəbiləşirəm.





— Niyə?

— Nə qədər ağa qara demək olar? Adamları nə qədər aldatmaq olar? Axı biz belə tərbiyə almamışıq. Gənclərə də belə tərbiyə verməmişdik. Düşünürəm. Nə yaxşı ki, iyirminci əsrin otuzuncu illərinin represiya dövrü deyil. Neçə onilliklərdi Stalin rejimini pisləyirik. O zamankı haqsızlıqlardan, adamların fəlakətə düçar edilməsindən gileylənirik. Ancaq unuduruq ki, repressiyaya uğrayan adamlara da özümüz donos vermişik. Ziyalılara, xalqın baş bilənlərinə özümüz böhtan atmışıq. Onlara olan-olmazın iftiraları biz yağdırmışıq. Həbsləri, sürgünləri, məhv edilmələri üçün əsas vermişik.

Qızım, adam var fiziki əlildi. Burda xəcalətli bir şey yoxdu. Belələri tarixən də olub. Ancaq yaltaqlar, mədhiyyəçilər, ambisiyalılar mənəvi şikəstlərdi. Bunlar sağalması mümkün olmayan iddialı xəstələrdi. Bunlar öyrəncəlidirlər. Ömürləri boyu xalq, millət, vətən adından utanmadan, çəkinmədən danışacaqlar. Bircə dəfə qayıdıb öz hərəkətlərinə diqqət yetirsələr, eybəcər sifətlərini görəcəklər. İnanıram ki, öyrəncəli olduqlarından usanıb nəticə çıxarmayacaqlar. Bax, bu, fəlakətdi. Bu, insanlığın amansız ölümüdü. Başqalarının mənəviyyatını ayaqlar altında tapdalayanların, vicdan güzgüsündən məhrum olanların qüruru da, vüqarı da olmaz. Beləlari pul, var-dövlət, vəzifə, gözqamaşdırıcı, saxta nüfuz üçün gecə-gündüz barəsində hayqırdığı vətənini də, xalqını da göz qırpımında satmağa hazırdılar.

Gərək insanın imanı ola. İmansız insan şeytandı, iblisdi, qülyabanıdı, qızım. İman əslində ləyaqətdi, şərəfdi, namusdu, insafdı, vicdandı. Allahın bizə hökmüdü. Peyğəmbərimizin buyruğudu. İnsani hisslərimizdi, duyğularımızdı. Belə getsə, az-çox olan imanımızı da itirəcəyik. Vicdansız adamın Allahı, dini olmaz. Aqillər yaxşı deyib: "Vicdan mənim Allahımdı". "Vicdan insanın içində Allahın səsidi". "Vicdanı olanın Allahı olar". Ya-

nıb-yaxılıram vicdanı ləkəlilər, qəlbi qaralar, xainlər, riyakarlar, özlərini düşünənlər barədə fikirləşəndə...

Professor sözünə bir balaca ara verdi. Dayanıb üzünü dənizə tərəf tutdu. Nəzərləri nəhayətsiz dənizin mavi suları üzərində ani olaraq dövrə vurdu. Sonra da dolmuş ürəyini boşaldırmış kimi dərindən “ah“ çəkdi. Qanrılıb Şəfəqin üzünə baxdı. Onun məhzun baxışları professorun gözlərinə dikildi. Professorun çöhrəsində zərif bir təbəssüm yarandı və tez də qeyb oldu. Dərhal da gözlərinin lap dərinliklərində çətin sezilən acı, istehzalı gülüş ifadə olundu. Bu, həssas qəlbli Şəfəqin diqqətindən yayınmadı. O, səssiz-səmirsiz dayanıb qadının daha nə deyəcəyini gözlədi. Haçandan-haçana professor başını yellədi. Təəssüf hissi ilə söhbətinə davam elədi:

— Qəribə adamlarıq. Allahın, peyğəmbərin, imamın, "Qurani-Kərim"in adlarını çəkən kimi İslam təməlçiliyi damğasını vururuq özümüz-özümüzə. Nədən qorxuruq, doğrusu, bilmirəm. Deyən, başa salan, yoxdu ki, a balam, bu İslamda axı nə var qorxulu? İzah eləyin biz də bilək. Onda İslamın mahiyyətindən, onun böyük dəyərlərindən xəbərsizlər başlayırlar düz gözünün içinə marıtlamağa. Mən səmavi kitabları oxumuşam, qızım. İlahiyyat elmindən də xəbərdaram. Yadda saxla ki, böyük İslam təkcə xürafat deyil. İslam büsbütün bəşəri dəyərlərdi. İnsanın xoşbəxtliyi, səadəti, axtarsan onun bətnindədi. İslam yaranışından bəşər mədəniyyətinə misilsiz incilər bəxş eləyib. İslam dini dinlərin, "Qurani-Kərim" səmavi kitabların ən mükəmməlidi. Təəssüf ki, biz öz dinimizi lazımınca qiymətləndirməyi bacarmırıq. Gör nə günə qalmışıq ki, adamlara deyirik: biz müsəlmanıq. Dinimiz də İslamdı. Guya bu aksiomanı heç kim bilmir. Xristianlar neyləyirlər? Onlar bütün dövrlərdə böyük İslama qısqanclıq, paxıllıq hissi ilə yanaşıblar. Ona həqarətlə baxıblar. Acı həqiqətdi ki, bu eybəcər, əcaib münasibət indi də davam etməkdədi.





Bayaq dediyim kimi, İslami dəyərlərdən bəhs eləyərkən, müsəlmanlıqdan söhbət açarkən hamı hay-haray qaldırır ki, Azərbaycanda İslam fundamentalizmi var. Bəzilərimiz hələ də başa düşmürük ki, xristian fundamentalizmi xristian dövlətlərinin başlıca ideologiyasıdı. Bu ideya onların bütün fəaliyyətinin mahiyyətindədi... Unutmayaq ki, xristianın da, müsəlmanın da Allahı birdi. Hər ikisi bəşər övladıdı.

Qəribəyik biz müsəlmanlar! Arayıb, axtarıb özümüz üçün problemlər yaradırıq... Fikirləşəndə, az qalır adamın başı çatlaya. Qoluzorlular özlərindən zəifləri, imkansızları yeyirlər, didirlər, parçalayırlar. Mənəvi terrora uğradırlar. İmkansızın şikayətinə baxan da tapılmır. Belə olanda dərdini kimə deyəsən, özün də bilmirsən...

Cəmalə xanım sözünə bir balaca ara verdi. Əli ilə saçlarını geri daraqladı. Sonra sözünə davam elədi:

— Qərb ölkələrində insana lazımı qiymət verirlər. Şərq ölkələrində təəssüf ki, belə deyil, qızım.

— Başa düşmürəm.

— Burda anlaşılmazlıq nə var ki? Amerika Birləşmiş Ştatlarının bir vətəndaşı burda qətlə yetirilir. Qərbdə hay-küy qopur. Amerikadan bura istintaq qrupu gəlir. Təhqiqat aparılır. Cinayətin motivləri araşdırılır: hansı şəraitdə; nə məqsədlə; kimlər tərəfindən törədilməsi barədə müfəssəl məlumat toplayırlar. Ölkə rəhbərliyindən, hüquq-mühafizə orqanlarından hesabat tələb eləyirlər. Sonra da öz ölkələrinə qayıdıb müxtəlif informasiya vasitələrində bizim “əlvan” obrazımızı yaradırlar. Guya biz sivil xalq, sivil millət deyilik... Biz də günahkar uşaqlar kimi başımızı aşağı salıb susuruq.

İşə bir bax. Hər il Rusiyada eləcə də digər xarici ölkələrdə yüzlərlə Azərbaycan vətəndaşı öldürülür, qətlə yetirilir. Onlardan soruşan yoxdu ki, a balam, bu qətlə yetirilənlərin axı günahı nədi? Qəbahətləri varsa, açıqlayın, biz də bilək... Öldürülənlərin

validеynlərinin, doğmalarının əllərindən göz yaşlarından savayı bir iş gəlmir. Onlar özləri deyib, özləri də eşidirlər. Belə olmaz, qızım. Biz hər bir vətəndaşımızın qeydinə qalmalıyıq. Onu da unutmayaq ki, xarici ölkələrdə qətlə yetirilənlər, al-qanına qəltan edilənlər bizim gənclərdi. Gənclərsə, ölkəmizin qızıl fondudu... Bu fonda qayğı göstərmək, onu qorumaq gərəkdi...

Professor səsinə ara verib yenidən sözünə davam etdi:

— Səni də yordum, qızım, özümü də. Gedək evə, bu günlük bəsdi.

Cəmalə xanımla Şəfəq bağ evinə qayıdanda günəş qüruba çəkilirdi. Günəşin parlaq şüaları, hənirtisi çəkildikcə, dənizdən sahilə axmaqda olan qara bir pərdə və onun nəfəsi ətrafı bürüyürdü. Çox çəkmədi ki, günəş də yox olub getdi. Onun batdığı üfüq də görünməz oldu. Əvəzində qaranlıq çökdü. Dəniz hissləri boğan vahiməli div kimi yerindəcə dayanıb mürgüləyirdi. Təkcə alçaqlı-hündürlü bağ evlərinin pəncərələrindən boylanan elektrik lampalarının ulduzvari işıqları gecənin bağrını dəlirdi. Bilgəh bağlarının bu şairanə mənzərəsi Şəfəqə qeyri-adi görünürdü. O, üzünü göylərə tutdu. Səmada hilali ayın, sayrışan ulduzların şöləsi yer adlı insan məskənində qurulmuş elektrik lampalarının işıqlarına qarışır, ecazkar, füsunkar bir aləm yaradırdı. Şəfəq bir anlığa düşündü: — Görəm, bu xəyaldımı? Röyadımı? Yoxsa, həqiqət?! Bu təsəvvürolunmaz görkəm, ilahi gözəllik hardan doğur?! Bu, əsl möcüzədi. Təbiətindimi? İnsanlarındımı? Yoxsa, təbiətlə cəmiyyətin möcüzəsi? Qəribədi. İnsan təbiətin tərkib hissəsi olsa da, ona nə qədər möcüzələr bəxş eləmək iqtidarındadı. Yaşa, bəşər övladı. Sən hər şeyə qadirsən! Təkcə qəbahətlərin olmayaydı. Kaş özün-özünə qənim kəsilməyəydin?!...“ Şəfəq xəyallar, arzular aləmində idi ki, Cəmalə xanım dedi:

— Gəl, bir loxma çörək kəsək, sonra sənin diplom işini oxuyaq...

Cəmalə tədqiqatın mövzusunu oxumağa başladı: “Səfalət” romanında “Yazıçı və zaman”. Başlığa əlavəsi olmadığından Cəmalə xanım hazır materialları nəzərdən keçirməyə başladı. Vərəqlərin kənarında “Fikrini bir qədər də açıqla”, “Yeni faktlar əlavə elə”, “Ümumi fikirlərdən qaç”, “Fikrini əsaslandır”, “Qərəzçilikdən qaç”, “Ziddiyyətlidi”, “Dediklərini ümumiləşdir” cümlələrini yazdı. Sonra xeyli düşünüb dedi:

— Qızım, işi yüngül redaktə ilə belə də Müdafiə Şurasına qaldırmaq olar. Ancaq istərdim ki, mənim də qeydlərimi nəzərə alasan. Tədqiqatın elmi dəyərini bir qədər də artırasan.

Şəfəqlə Cəmalə xanım arasında yüngülcə elmi mübahisə də oldu. Şəfəq öz fikirlərini əsaslandırmağa çalışdı. Cəmalə xanım özlüyündə tələbəsinin intellektindən, mütaliə mədəniyyətinin yüksəkliyindən, fakt toplamaq, onları təhlil-tərkib eləyərək ümumiləşdirmə bacarığından və sərbəst qələm işlətmə qabiliyyətindən razı qaldı. Şəfəq barədəki fikrində yanılmadığını görüb sevindi. İftixar hissi keçirən, məmnunluq duyan Cəmalə əllərini stolun kənarına dayayıb ayağa qalxdı:

— Yatmaq vaxtımıza az qalır. Çıxaq həyətə. Bir az təmiz hava alaq.

Şəfəq ayağa qalxdı. Cəmalə xanımın ardınca getdi. Sonra bildirdi:

— Füsunkar gecədi. Belə gecədə adam yatmaq istəmir.

— Hə, qızım. Bəxtindən hava sakitdi. Külək olsaydı, dəniz bir həngamə çıxaracaqdı gəl görəsən.

— Necə yəni?

— Külək olsaydı, bu gün dənizin sahilinə gedə bilməzdik. Şahə qalxan dalğalar dənizdə tufan yaradacaqdı. Gurultu aləmi bürüyəcəkdi. Külək göyün üzünə də qara, boz buludlar gətirəcəkdi. Onda bu füsunkar, ecazkar aylı, ulduzlu gecədən də bir əlamət olmayacaqdı.

Şəfəqlə Cəmalə həyətdə xeyli əyləşib dincəldikdən sonra otağa qayıtdılar.

* * *

Şəfəq yataqdan erkən qalxdı. Çöldəki qulaqbatırıcı gurultu onu dəhşətə gətirdi. Ona elə gəldi ki, yatdığı ev çox çəkməyəcək uçulub dağılacaq. Dəhşətli bir vəziyyət yaranacaqdı. Külək həyətdəki ağacları o tərəf-bu tərəfə çırpırdı. Hava boz-bulanıq idi. Şəfəqin yuxudan oyandığını görən Cəmalə dedi:

— Sabahın xeyir, Şəfəq.

— Sabahınız xeyir, professor.

— Belə havada bağın, dənizin ləzzəti qaçır, qızım.

— Hə, çox pis, cansıxıcı havadı.

Şəfəq çarpayısını düzəldib həyətə çıxdı. Şiddətlə əsən külək az qala adamı götürüb gedəcəkdi. Şəfəq dənizə tərəf baxdı. Şahə qalxan boz dalğalar bir-birinə çırpılırdı. Az qalırdı ki, dəniz məcrasından çıxsın. O, uzaqdan-uzağa dənizə tamaşa eləməyə başladı. Belə havada dənizə çıxmağın çətinliyi, dənizçilərin əzab-əziyyətləri, məşəqqətləri barədə düşündü. Canında üşütmə hiss elədi.

Cəmalə dedi:

— Çox yaxşı. Külək işləri korladı. Şöhrət gəlsəydi, yığışıb gedərdik. Dünənki istirahətimizi bu günkü hava gözümüzdən tökəcək. Görürsənmi? — Qızım, dəniz tərəfdən sahilə qara buludlar axmaqdadı. Yağacaq. Uzağa getsək, islana bilərik. Otaqda oturmaq da bizə bir şey verməyəcək. İşsizlik məni çox darıxdırır.

Günortaya az qalırdı Şöhrətin maşını həyət darvazasından girdi. Maşını eyvanın yanındaca saxlayan Şöhrət yerə düşdü. Salamlaşdıqdan sonra oğlan soruşdu:

— Hə, necədi, dincələ bildizmi?

Cəmalə bildirdi:

— Pis olmadı, oğlum.





— Havanın dəyişdiyini görüb özüm tez gəldim. Qorxdum sizə soyuq ola. Gedəyinmi?

— Hə.

Yır-yığış edib yola düzəlmişdilər ki, yağış yağmağa başladı. Maşının şüşələrinə tökülən yağış danələri biri-biri ilə birləşir, üzü aşağı axırdı, silgəclər isə bu danələri sıyırıb kənara tökürdü. Neçə vaxdı yağış yağmadığından asfalt yol da sürüşkən idi. Cəmalə bunu görcək: — Ehtiyatlı ol, oğlum, — dedi. Şöhrət: — Narahat olmayın, — deyə cavab verdi. Maşın qırx dəqiqə keçərkeçməz Cəmalə xanımın yaşadığı evin qarşısına çatdı. Onlar maşından düşüb evə getdilər.

Şöhrət: — Ana, mənə sözün olacaqmı? — deyə soruşdu.

Cəmalə oğluna demək istəyirdi ki, Şəfəqi də maşınla apar. Şəfəq göz-qaşı ilə etirazını bildirdi. Cəmalə dərhal:

— Yox, oğlum, sən gedə bilərsən. Hələ bizim işimiz var, — dedi.

Şöhrət xudahafizləşib otaqdan çıxdı. Şəfəq utana-utana dilləndi.

— Professor, məni bağışlayın.

— Niyə?

— Mən Şöhrət qardaşın maşını ilə yataqxanaya getsəydim, sonra onun kimliyini heç kəsə inandıra bilməyəcəkdim. Hərə bir söz deyəcəkdi, bir rəng yaxacaqdı.

— Doğrudu, qızım. Sən yaxşı fikirləşmisən. Belə də olmaq lazımdı. Təmiz ad, təmiz vicdan, namus hər bir qadının ləyaqət və şərəfidi.

Xeyli söhbətdən sonra Şəfəq getmək üçün ayağa qalxdı. Dünən Şəfəqin alıb gətirdiklərini soyuducudan götürən Cəmalə dedi:

— Bunları da apar, qızım. Görürsən, təkəm. Soyuducuda hər şey var. Şöhrətgilin də heç bir şeyə ehtiyacı yoxdu. Narahat olma.

Şəfəq Cəmalənin sözünü çevirmədi.

* * *

Şənbə günü idi. Səhər naharından sonra Şəfəq geyinib-kecinib Yaqutla xudahafizləşdi. Pilləkənləri enib binadan çıxırdı ki, onu arxadan "Şəfəq!" "Şəfəq!" — deyə Buta xanım çağırdı. Şəfəq ayaq saxlayıb geriyə döndü və: — Eşidirəm, — dedi.

— Hara belə?

— Mərkəzi kitabxanaya.

— Nə ilə gedəcəksən?

— Metro ilə.

— Çox yaxşı.

Buta əlindəki balaca kağız bükülünü göstərərək bildirdi:

— Burda iş çoxdu. Özüm də xəstəyəm. Metroda qatarların hərəkət meydançasında Nəcəf məni gözləyir. Bayaqdan burda dayanıb neçə qızdan soruşmuşam. Metro tərəfə gedən yoxdu. Başqa vaxtı əl-ayaqdan çıxmazdılar. Bu kağız bağlamasını elektrik Nəcəfə verə bilərsənmi?

—Niyə vermirəm? Baş üstə, nə ağırlığı var ki? Birdən Nəcəf orda olmasa?

— Yox, orda gözləyir.

Şəfəq bükülünü Butadan alıb çantasına qoydu və binadan çıxdı. Yaz səhəri olsa da, hava bir az tutqun idi. Zəif meh adamın üz-gözünü yalayırdı. O, yolunu parkın içindən saldı. Analar uşaqlarını, nənələr nəvələrini parka gəzməyə çıxarmışdılar. Şəfəq daxilən xəyalının uzaq-uzaq ənginliklərində xoşbəxtliyini arayırdı. Onun üçün bütün sevgilərin ən etibarlısı, dəyanətlisi ananın övladına olan məhəbbəti idi. Övlada olan məhəbbətin həddi-hüdudu idrakla ölçülən deyil. Şəfəq özünə qapanıb parkın içərisi ilə addımlayırdı. Ona elə gəlirdi ki, tezliklə universiteti qurtaracaq, özü üçün yeni iş yeri tapacaq, oğlu ilə də yaxından əlaqə saxlaya biləcək. Ona qazancından ürəyi istəyən paltarlar





alıb geyindirəcək. Oğlu güləcək, gəlib üzündən də öpəcəkdi. Bəli, Şəfəq gedirdi. Ancaq ağlına da gəlmirdi ki, o getdikcə dərin bir uçuruma yaxınlaşır. Qabaqda onu xoşbəxt bir məkan, nurlu sabah, işıqlı gələcək yox, qaranlıq zülmət, nəhayətsiz, əzab-əziyyətdən, məşəqqətdən yoğrulan anlar, zülmü ərşə çatan zindan gözləyir... O, metro stansiyasına çatdı. Qatarların hərəkət meydançasına düşdü. O yan-bu yana baxdı. İrəli yeridi. Yenicə dayanmış qatar sərnişinlərini alıb apardı. Meydanda adamlar bir an içərisində seyrəldi. Şəfəq bir az da irəli yeridi. Birdən dirəyin arxasında dayanmış Nəcəfi gördü. Şəfəq gülümsündü. Çantasını açıb kağız bükülünü çıxartdı. Nəcəfə yaxınlaşıb salam verdi, sonra da bükülünü ona uzadaraq:

— Buta xanımdandı sizə çatacaq, — dedi.

Nəcəf bükülünü aldı, xudahafizləşib gedirdi ki, onu kənarda dayanan mülki geyimli adamlar saxladı. O, əvvəl qaçmaq istədi, mümkün olmadı, sir-sifəti pambıq kimi ağardı. Elə bu vaxt iki nəfər də Şəfəqə yanaşıb özlərini təqdim elədilər:

— Bizimlə polis idarəsinə getməlisiz.

— Niyə?

— Özün bilirsən niyə? Qalanını da orda sənə başa salarıq.

Şəfəq tutuldu. Qarşılaşdığı hadisədən o, əvvəl heç cürə baş açmadı. Bir də israr elədi:

— Mən neyləmişəm ki?

— Sən cinayət eləmisən. Cinayətkarsan.

Şəfəqin gözləri böyüdü. Bütün bədəni titrədi. Öz-özünə: — Yenə böhtana düşdüm, — deyə fikirləşdi. Polis nəfərləri Nəcəflə onu əvvəl metrodakı polis məntəqəsinə gətirdilər. Şəfəq Nəcəfin üzünə baxdı. Nəcəf üzünü yana çevirdi. O, Nəcəfdən şübhələndi. — Bu nə olan şeydi, Nəcəf? — deyə soruşdu. Nəcəf quru ağac kimi dayanmışdı. Hərdənbir yanını, qıçlarını didişdirirdi. Çox keçmədi ki, qollarına qandal vurub hər ikisini maşına mindirərək birbaşa polis idarəsinə gətirdilər. Onların hərəsini

bir otağa saldılar. Aradan bir saat keçmişdi ki, otuz yaşı olar-olmaz, qəddi-qamətli, qalın qara saçlarını yana daramış, ağ girdə sifət, qonur gözlü cavan oğlan içəri girdi. Bayaqdan bəri ayaq üstə dayanıb tir-tir əsən Şəfəqin gözləri ona dikildi. Oğlan: — Müstəntiq mayor Vahabov, — deyə özünü təqdim elədi. Sonra da Şəfəqə stul göstərərək: — Gəl, əyləş, — dedi. Şəfəq çəkinə-çəkinə keçib stulda əyləşdi. Sorğu-sual, izahat başlandı:

— Bu kağız bükülüsünü Nəcəfə verdiyini təsdiqləyirsənmi?

— Bəli.

Müstəntiq bükülünü açaraq:

— Tiryəki kimdən almısan?

— Nə?!

— Tiryək satmaqla məşğul ola-ola bizi də ələ salırsan. Guya sənin heç bir şeydən xəbərin yoxdu?

Müstəntiqdən eşitdikləri Şəfəqi sanki yuxudan oyatdı. O: — Mənim heç nədən xəbərim yoxdu, — deyə heyrətləndi. Bu vaxt otağa başqa bir polis işçisi gəldi. Onun gözlərindən sevinc yağırdı. Müstəntiq dedi:

— Təkrar eləyirəm. Tiryəki kimdən almısan?

— Metroya gələrkən bükülünü mənə yataqxananın komendantı Buta xanım verdi. Ancaq içərisindəkinin tiryək olduğunu bilməmişəm.

— Harda yaşayırsan?

— Yataqxanada.

Müstəntiq yanındakı polis nəfərinə Butanı da gətirməyi tapşırdı. Həmin şəxs əlini üzünün bərabərinə qaldırıb: — Oldu, — deyə otaqdan çıxdı.

Artıq Şəfəq hər şeyi anladı. Onu dəhşət götürdü. Böyük bir fəlakətin içərisində olduğunu dərk elədi. Nəfəsi daraldı. Ürəyinin gubbultusunu eşitdi. Öz-özünə düşündü: — Allah, bu nə işdi mən düşdüm? Axı bu bükülünü mən niyə götürdüm? Sən necə də xəyanətkarsanmış, Buta? Alçaqsanmış. Onsuz da mən qəlbi





qırıq bir adamam. Kimsəsizəm. İndi mən neyləyəcəm? Başıma haranın daşını salım? İndi mən kimi inandıra bilərəm ki, tiryək satmaqla məşğul olmamışam. Sadəlövhlüyümdən bəlaya düşmüşəm. Buta gəlib nə deyəcək? Deyəcəkmi ki, Şəfəq bükülüdəkinin tiryək olmasından bixəbərdi? Birdən demədi. Yəqin Nəcəfi də başqa otaqda danışdırırlar, ondan izahat alırlar. Görən, Nəcəf nə deyir? Birdən-birə, xəbərsiz-ətərsiz girdaba atılan Şəfəq özü də bu acı həqiqətə məəttəl qalmışdı.

Müstəntiqin sorğu-suallarından Şəfəqə aydın olurdu ki, vəziyyət düşündüyü qədər də sadə deyil, çox ağırdı. Düşdüyü vəziyyətdən çıxmaq onun üçün çətin olacaq. Onu da fikirləşdi ki, görünür Nəcəf əvvəlcədən nəzarətə götürülübmüş, sadəcə olaraq Buta da, mən də bundan xəbərsiz imişik. Yoxsa, Buta Nəcəfi də, özünü də pis vəziyyətə salmazdı. Hadisə baş vermişdi. Artıq hər şey gecdi.

Bəli, Şəfəq əcəb tora düşmüşdü. Balıq torda çabaladığı kimi, o da müstəntiqin otağında atılıb-düşürdü, fəryad qoparırdı, andaman eləyirdi. Təşviş və həyəcan onu get-gedə bürüyürdü. — İndi nə olacaq? — deyə o, gah yumruqlarını düyünləyir, gah da barmaqlarını ovcunda bərk-bərk sıxırdı. Həyəcanın artması Şəfəqin fikrini gərginləşdirirdi. O, böhtana düşmüşdü. Xəyanətin qurbanı olurdu. Ancaq düşdüyü vəziyyətlə heç cürə barışa bilmirdi. Başqa çarəsi də yox idi. Belə əcaib zorakılığın qurbanı olmaq nə qədər dəhşətlidi. İyrəncdi. Şəfəq bundan sonra hadisələrin necə cərəyan eləyəcəyini ağlına da gətirmirdi. O, üzərinə çökən dağlar ağırlıqda yükün altında çabalayırdı. Ətraf sanki zülmətə dönmüşdü. O, heç şeyi görmürdü. Hərdənbir xəyalında iki şey bərqərar olurdu: oğlu və təhsil aldığı universitet. Bu fikirlər onu rahat buraxmırdı. Çox çəkmədi ki, Buta da polis idarəsinə gətirildi. Onunla da sorğu-sual başlandı. Buta dərhal tiryəki kimdən almasını boynuna aldı. Üstəlik, onu da bildirdi ki, Şəfəqin tiryək alverinə qoşulması birinci dəfə deyildi. "Cəhənnəmə ge-

dən özünə yoldaş axtarar", — deyib aqillər. Nəcəfsə Şəfəq barədə belə deməmişdi. Bununla da Nəcəflə Butanın dedikləri arasında əməllicə-başlıca fərq yaranırdı. Bu fərq Şəfəq üçün az da olsa ümid yaradırdı. Çox çəkmədi ki, Nəcəf də izahatını dəyişdi. Şəfəqdən bir neçə dəfə belə bükülü aldığını bildirdi. Buna görə müstəntiq Vahabovda Nəcəfə ikrah hissi oyandı. Ancaq bunu hiss elətdirməməyə çalışdı. Vaxt sürətlə ötürdü. Vəziyyət yüngülləşmək əvəzinə daha da ağırlaşırdı. Şəfəqin əsəbləri sim kimi gərildikcə daxilində qətiyyətsizlik, mütərəddidlik başlanırdı. Getdikcə onda həddi izah edilməsi mümkün olmayan qorxu yaranırdı. Yerinə yetirilməsi mümkün olmayan ehtiraslı arzular insanı sərsəm xəyallara və ölümə meylləndirir, fəlakətlərə aparıb çıxarır. Polis idarəsinə gəlmək, müstəntiq suallarına cavab vermək, qazamatlara atılmaq Şəfəqin həyatına, düşüncələrinə çox-çox yaddı. O, bütün nüfuzunu itirmək təhlükəsi qarşısında qalmışdı. Düşünürdü ki, dar kamerada da, türmədə də ləyaqət və şərəfini nə qədər qoruyub saxlasa da, kimliyini, təmizliyini heç kəsə sübut eləyə bilməyəcəkdi. Bütün bunları düşünən Şəfəq indi özünü asmağa da, zəhərləməyə də, suya atıb boğmağa da, odda yandırmağa da gedərdi. Ancaq Şəfəq üçün o yollar da bağlanmışdı. Onun aləmində istədiyi kimi hərəkət eləmək, söz demək imkanı da tükənmişdi.

İlk günü xeyli çək-çevirdən sonra gecədən xeyli keçmiş Şəfəqi ayrıca bir kameraya göndərdilər.

* * *

Şəfəq üçüncü gün idi ki, dar, az işıqlandırılmış, üfunətli kamerada qalırdı. Onun gecəsi-gündüzü yox idi. Oturub-durub düçar olduğu fəlakətin acı nəticələri barədə düşünürdü. Axşam idi. O, kameradakı köhnə dəmir çarpayıdakı çirkli pambıq-döşək və adyalın üstə uzanmışdı. Ağır bir yuxuya getmişdi. Ona görə də





o, dəhlizdə gəzişən xidmətçilərin ayaq səslərini eşitmirdi. Sanki hansı bir qüvvəsə onu birdən-birə silkələdi. Yuxudan hövlnak oyandı. Çöldən açarla kameranın dəmir qapısının açıldığını duydu. O qalxıb çarpayıda əyləşdi. Elə bu vaxt qapı açıldı. Polis formasında xidmətçi içəri girdi:

— Qalx, gedək.

— Hara?

— Müstəntiqin otağına.

Şəfəq ayağa qalxdı. Polisin müşayəti ilə müstəntiqin otağına gəldi. Otaqda divarın yuxarı hissəsinə böyük saat bərkidilmişdi. Saata baxdı. Saat gecə 12-ə qalırdı. Polis nəfəri Şəfəqə:

— Əyləş. Mən də qapının ağzındayam, — deyib dəhlizə çıxdı. Qapı bir balaca aralı qaldı. O biri otaqda qapı arxasında danışanların gumur-gumur səsləri eşidilirdi. Əvvəl Butanı danışdırdılar. Sonra onu harasa apardılar. Əvəzində Nəcəfi gətirdilər. Daha onunla olan danışıq eşidilmədi. Bir az keçmiş polis nəfəri içəri keçib bildirdi:

— Səni Nəcəflə də, Buta ilə də üzləşdirəcəklər.

— Nə vaxt?

— İndi.

Şəfəq bir söz demədi. Az keçmişdi ki, əvvəl Nəcəflə, sonra da Buta ilə onu müstəntiq üzbəüz qoydu. Danışıqlar diktafona köçürüldü. Təhrif olunan sözlər, saxtalaşdırılan fikirlər Şəfəqdə Nəcəflə Butaya qarşı ikrah hissi oyadırdı. Belələrinin sözlərini o, özlüyündə qorxaq, çəpgöz dovşanların xırıltısından, hiyləgər, qırmızı tülkülərin vaqqıltısından, yaramaz ac çaqqalların ulaşmasından fərqlənməyən bir şey sanırdı. Onun aləmində ala-qaranlığı sirlə dolduran bu səslər, bu söz və ifadələr bədxasiyyətlərdən, güzəşti mümkün olmayan cinayətlərdən süzülüb gəlirdi. Hər bir addım dəhşətdi! Hər biri görünməmiş cinayətdi! Hər şey, hər şey yalandı! Hər şey boz dumandı! Qaranlıqdı! Zülmətdi! Bu dünyada yaxşı iş görməyin, ondan faydalanmağın bir əhə-

miyyəti varmı? Düşünəndə elə şeylər axtarıb tapıram ki, onlar məni işıqdan daha çox zülmətlər qoynuna sürükləyir. Belə hallarda ətrafdakıları lənətləməkdən, damğalamaqdan başqa çarəm qalmır. Bu amansız, lənətə gəlmiş bədxahlar, Allah bilir, mənim kimi neçə-neçə günahsızı girdaba atacaqlar. Mənə elə gəlir ki, yatdığım, çıxacağım anı səbirsizliklə gözlədiyim bu qəfəsə Nəcəflə Buta hələ bir neçə nəfər də atdıracaqlar. Mərhəmətli və rəhmdil olan Allah, özün kömək ol, günahsız, kimsəsiz, yalqız bir qadına — mənə! Sənə and verirəm qüdrət və inayətinə! Məni bu namərdlər, quldurlar məngənəsindən, cəhənnəm əzabından hifz elə. Axı sənə yaxşı məlumdu ki, bu böhtan toruna bilərəkdən düşməmişəm. Bu ifritələrin, bu iblislərin toruna anlamadan ilişmişəm".

Müstəntiq Şəfəqlə Butanı, Şəfəqlə Nəcəfi üzləşdirdikcə, hər birinin üzlərindəki cizgilərə, gözlərindəki ifadələrə dərindən diqqət yetirir, kiçicik dəyişiklikləri nəzərdən qaçırmamağa çalışırdı. Bir an içərisində Şəfəqdə belə bir fikir yarandı ki, müstəntiq Vahabov vicdanlı adamdır. O, bütün gücü, qüvvəsi ilə həqiqəti üzə çıxarmağa çalışır. Bu daxili hiss onda Vahabova yüngül rəğbət də oyatdı. Bunu deyəsən müstəntiq də duydu. Gözlənilmədən müstəntiq qərara gəldi ki, bu işdə tələsmək olmaz. Danışıqları, üzləşmələri hələ bir qədər də davam elətdirmək lazımdır. Bu məqsədlə də o, bir neçə polis işçisini çağırıb belə bir göstəriş verdi: — Bunları öz kameralarına aparın.

* * *

Növbəti şənbə günü idi. Gecə saat birə işləyirdi. Şəfəqi müstəntiqin otağına gətirdilər. Günahsız Şəfəqə yazığı gələn müstəntiq Vahabov ondan: — Özünü necə hiss eləyirsən? — deyə soruşdu. Şəfəq onun sözündə, səsində dumana, çənə bürünmüş halda güclə sezilə biləcək bir səmimiyyət, qayğı duydu və — Günahsız zindana atılan adam gecə yarı özünü necə hiss eləyə bilər ki, cənab müstəntiq? — deyə cavab verdi. Şəfəqin sözlərində acı bir kinayə, yumşaq bir istehza, narazılıq, bir az da müstəntiqin özündən-özünə şikayət hiss elədi Vahabov. Müstəntiq Şəfəqin sözlərindən nəinki narazı qaldı, əksinə, ona özlüyündə haqq da qazandırdı. Çox keçmədi ki, Vahabov əvvəl Butanı, sonra Nəcəfi kabinetinə gətirtdi. Vahabov diktafonu işə saldı. Sonra Buta ilə Şəfəqin sorğu-sualı başlandı. Vahabov dedi:





— Buta, sən hər dəfə deyirsən ki, Şəfəq tiryək, anaşa alverində iştirak eləyib. Ancaq Nəcəf öz izahatında göstərir ki, Şəfəq birinci dəfə mənə tiryək verib. Nəcəflə sənin sözün düz gəlmir. Buna nə deyirsən? Unutma ki, indi Nəcəf də qonşu otaqdadı, onu da bura dəvət eləyəcəm. Əgər o, öz izahatının üstündə dayansa, sənin vəziyyətin bir qədər də ağırlaşacaq.

Qəflətən qoyulmuş sual və onun zərbəsi Butanı çaşdırdı. O, danışığında kəkələdi. Qəti fikir söyləyə bilmədi. Müstəntiq gözlənilməz sual verdi: — İzahatında yazmısan ki, Lənkərandan Şahməmməd, Səmid, Cəlilabaddan Qızyetər, Şirbala, Masallıdan Əziməli ilə də tiryək, anaşa alış-veriş əlaqələrin olub. İndi de görüm, şəhərdə Nəcəfdən savayı kimlərlə belə alverə girmisən?"

Buta əvvəl susdu, istədi desin ki, Nəcəfdən başqa heç kəslə. Müstəntiq sözünə əlavə elədi: — Unutma ki, sizin əlaqələriniz barədə izahatında Nəcəf bir neçə nəfərin adını da çəkir. İstərdim ki, onların adlarını sənin dilindən də eşidim. Lənkərandan, Cəlilabaddan, Masallıdan olan həmkarların da həbs olunublar. Aşağıda kameradadılar. Onlarla da səni görüşdürəcəm. Hə, necədi? Əlacsız qalan Buta bazarda oturub xırda-xuruş alver eləyən Nisəxanımın, Gülşəkərin, qonşusu Məmətinin, çayçı Şərbətin adlarını yeni siyahıya daxil elədi. Müstəntiq yeni sualını verdi:

— Adlarını sadaladıqların adamlar Şəfəqi tanıyırlarmı?

— Bilmirəm.

— Nəcəfdən başqa Şəfəq kiminlə belə əlaqəyə girib?

Buta susdu. Müstəntiq:

— Deməli, Şəfəq ilk dəfə bu yola atılır. Özü də sənin təhrikinlə.

Başqa söz tapa bilməyən Buta səhvini etiraf eləyib ağlamağa başladı. Müstəntiq Vahabov:

— Elədiyin cinayətin həddi-hüdudunu bilirsənmi? Bir tərəfdən günahsız adamları fəlakətə sürükləyirsən, o biri tərəfdən də gənclər arasında "ağ ölüm"ü yayırsan. Bu alçaqlıqdı, ləyaqətsizlikdi. Cəzadan yaxa qurtara bilməyəcəksən.

Buta hönkür-hönkür ağlayırdı. Müstəntiq: — Serjant, —" deyə səsləndi. Serjant dərhal içəri keçdi. Əlini üzü bərabərinə qaldırıb: — Eşidirəm, — deyə əmr gözlədi. Müstəntiq: — Aparın bunu kameraya", — dedi. Butanın qoluna qandalı vuran serjant onu otaqdan çıxartdı. Müstəntiq üzünü Şəfəqə tutaraq başını yellədi: — Nadanlar, yaramazlar sadəlövhlüyün ucbatından səni gör nələrə çəkiblər"! Vahabov oturduğu stuldan ayağa qalxdı. Qutudan bir dənə papiros çıxarıb damağına qoydu. Alışqanla yandırdı. Dərin bir qüllab götürdü. Yorğun, qayğılı üz-gözündə ciddi bir görkəm yarandı. Gəlib öz yerində əyləşdi. Selektorun düyməsini basdı. Mikrofonda: — Şükürov, Nəcəf Qürbətovu gətirin, — dedi. Çox çəkmədi ki, başqa bir gödək, dolu bədənli serjant Nəcəfi otağa gətirdi. Üz-gözünü tük basmış, bu neçə gündə üzülüb əldən düşmüş Nəcəf içəri girən kimi ağladı: — Sənin başına dönüm, balalarına qurban olum, müstəntiq, ata-babamla qələt eləmişəm, bir də belə işə girmərəm, — deyə yalvarmağa başladı. Müstəntiq soyuqqanlıqla: — Ona daha imkanın da olmayacaq, Nəcəf, — deyə cavab verdi. Müstəntiqin sözündəki zərbə Nəcəfin söz demək iqtidarını əlindən aldı. Vahabov diqtafonu işə saldı: — Nəcəf, yadındadısa, birinci izahatında tiryək alverində vasitəçi kimi Şəfəqin ilk dəfə cəlb olunduğunu demişdin. İkinci izahatında guya onun bir neçə dəfə bu işə cəlb





olunduğunu qeyd eləmisən. On beş-iyirmi dəqiqə bundan əvvəl Buta izahat verdi ki, Şəfəq heç vaxt belə bir işə qoşulmayıb. Buta ilə sənin izahatında ziddiyyət var. Bir anlığa düşün. Butanın Şəfəqlə tiryək məsələsində yalnız bir dəfə əlaqəsi olubsa, səninlə bu əlaqə bir neçə dəfə, yaxud sistem halında necə ola bilərdi? Bəlkə, başqa adamlarla da belə əlaqələrin olub? Şəfəq orda sənə yardımçı xidmət göstərib? Ağlını başına yığ. Həqiqəti danış. Onsuz da hər şey bizə aydındı. Yalan danışıb başqalarına böhtan atmaqla vəziyyətini ağırlaşdırma. Əlacsız qalan Nəcəf: — Onsuz da ziddiyyətli izahatlar vermişəm, — deyə düşündü. Müstəntiqin sualını cavabsız qoymağa üstünlük verdi. Vahabovun üzündə bir ötərgi işıq yarandı. O, daha Nəcəf Qürbətova heç bir sual vermədən serjantdan müttəhimi öz kamerasına aparmağı tələb elədi. Heç bir söz demədən Şəfəqi də öz kamerasına qaytardı. Sual-cavabın bu şəkildə aparılması, danışdırmalarda, üzləşmələrdə Butanın etirafı, Nəcəfin susması Şəfəqdə ümid doğururdu. Əslində, bu ümid Şəfəq üçün sevinc deyildi. Ötəri bir hiss idi. Bu hiss də kameranın qapısı ağzına çatar-çatmaz yox oldu. Şəfəq içəri keçdi. Serjant çöldən qapını bağlayıb getdi. Dəhlizin o biri başına çatıncayadək onun ayaqlarının taqqıltıları eşidildi. Bir dəqiqə keçməmiş taqqıltılar yox oldu. Kameraya ağır bir sükut çökdü. Bir anlığa Şəfəqə elə gəldi ki, bu kamera deyil, qəbirdi, özünün əbədi məskənidi.

* * *

Həmin gecəni Şəfəq dar, rütubətli, zəif işıqlandırılan, sükunətli kamerada keçirdi. Günəş qüruba çəkildikcə parlaq şüaları necə çəkilib gedirdisə, Şəfəqin də ümidləri, qətiyyəti, enerjisi eləcə gedir, əriyib yox olurdu. Belə olan tərzdə onun hər şeyə, hətta, böyük Yaradanına da münasibəti dəyişirdi. O, özlüyündə tutqun və çirkli kamera divarlarına da üsyan qaldırmağa hazır

idi. Çox keçmədən onda qəribə bir hiss oyandı. "Özümü öldürməklə iş bitməyəcək. Qəzavü-qədər nə qismət eləyibsə, onu da görəcəm". Beləliklə, onda ötəri də olsa, ətrafda baş verənlərə laqeydlik hissləri oyandı. O, xeyli düşündü və belə qənaətə gəldi ki, indi cinayətkarlar arasındadır. İstəsə də, istəməsə də o mühitin nümayəndəsi kimi kamerada oturub. Müstəntiqin sorğusuallarına cavab verir. Azadlıq, sərbəstlik qapıları onun üzünə bağlıdı, nə qədər yalvarıb-yaxarsa da, sonu heçliklə nəticələnəcək, çəkdiyi sarsıntılar, mənəviyyatını əzən iztirablar özünə qalacaq. Bax beləcə, Şəfəq ümidsizləşərək az-çox olan inamını da itirirdi. O, böyük təəssüf hissi ilə acizliyini duyurdu. Onu da bilirdi ki, bu qarmaqarışıq dünyada adi, cansız bir əşyadan başqa bir şey deyil. "Bu gün, ya sabah bu kamerada özümü öldürsəm, dünyamdan ayrılsam, bundan heç kəs xəbər tutmayacaq, polis işçiləri həkim dəvət eləyib istədikləri kimi ölümüm barədə bir rəsmi rəy verməl追 ərini tələb eləyəcəklər. Həkimlərə də Allah insaf versin, ağına-bozuna baxmadan polis işçilərinin tələbinə uyğun müayinə aparacaq, akt tərtib eləyəcəklər. Bu da imkan verəcək mənim cəsədimi qara torpağa tapşırsınlar. Onlardan heç vaxt soruşan olmayacaq! Bu, niyə, nədən ötrü özünü öldürdü? Bu işdə günahkar kimdi? Eh, fani dünya! Mən də qəribə adamam. Qəribə sözlər danışıram. Dünyaya gəlişim, qoynundakı dolanışığım heç kəsi maraqlandırmadığı kimi, gedişim də heç kəsi mütəəssir eləməyəcək. Dərdimi deməyə, şikayət eləməyə, umu-küsümü söyləməyə nə vaxtsa yerimmi, adamımmı olub, indi də o iddiaya düşəm? Onsuz da kameradan çıxmaq imkanım yoxdu. Olsa belə mənə təxminən eyni cavabları verəcəklər: "Biz bilmərik", "Sən cinayətkarsan", "Günah özündədi", "Abırlı, ismətli qadın bu yola düşməzdi", "Pozğunsan". Yaxud da ki, ən yaxşı halda "Get burdan, baş-beynimizi aparma", — deyə rədd cavabı verəcəklər, üstəlik də məni ələ salacaqlar..."

Qadın həm ruhən, həm də cismən yorulub əldən düşmüşdü.





Rəngarəng həyatın nəbzi şiddətlə vurduqca, o da acizliyini duyurdu, faydasız olduğunu görürdü. Onun aləmində adi bir kösöv, çay daşı idi. Ömrü boyu miskin və sönük bir həyat keçirən Şəfəq üçün keçmişindən sevincli və maraqlı bir təəssürat qalmamışdı. Onun bütün arzuları, istəkləri kamera divarları arasında kül olurdu. Universitet həyatında közərən ümid qığılcımları sönürdü. Ümidsizlik, əzab, ürək sıxıntıları bu zavallının üz-gözündə açıq-aydın görünürdü.

Yorulub əldən düşən Şəfəq divarın dibində qoyulmuş çarpayıya yaxınlaşdı. Sonra da fikirləşdi ki, bu çarpayıya uzansa, bir zaman qəbristanlıqdakı çuxurda qarşılaşdığı mələklər gələcəklər. Onu da özləri ilə bir dəfəlik əbədi dünyasına aparacaqlar. Şəfəq qəribə düşüncələr içərisində vurnuxurdu ki, yenə dəhlizdə ayaq səsləri eşidildi. Qonşu kameranın qapısı açıldı. Şəfəq: — İndi də növbə bu zavallınındı, — deyə düşündü. O, çarpayıya yaxınlaşdı. Əyilib qırağındaca oturdu. Çox çəkmədən beton kameranın, içəridəki rütubətin soyuqluğu canına işləməyə başladı. Əyninə geyməyə isti paltarı olmadığından: — Burada soyuqdan öləcəm, — deyə hiddətlənməyə başladı. Onu dəhşət bürüdü. Zavallının ağlına da gəlmirdi ki, onu kameranın rütubət və soyuqluğundan daha çox içərisindən gələn üşütmə titrədirdi.

Çarpayının qırağında — oturduğu yerdəcə Şəfəqi yüngül bir yuxu apardı. Röyada gözəl, qəddi-qamətli, pərişan üzlü, səmimi və mehriban baxışlı bir qadın ona güzgü tutdu: — Əməlli bax, — dedi. Şəfəq o güzgüdə əvvəl özünü gördü. Öz gözəlliyinin gücünü duydu. Ürəyi sevinc və fərəh hissi ilə doldu. Elə bu vaxt güzgüdə öz siması əvəzinə ecazkar gözəlliyi ilə insanı vəcdə gətirən bir mənzərə gördü. Orda qəhqəhə çəkən uşaqların içərisindən ayrılıb "Ana, ana, sənə qurban olum! Gəl məni də özünlə apar, sənsizləmişəm", — deyə bir nəfərin dayanıb ağlamsadığını gördü. Şəfəqin ürəyi atlandı. Bir anlığa ona elə gəldi ki, bu, doğrudan da həqiqətdi. Onu çağıran zavallı oğlu Hikmətdi. Ana

üzünü göylərə tutdu. Birdən aləm dəyişdi. İşıqlı gündüz bir anda zülmət gecəyə çevrildi. Zil qaranlığın hakim kəsildiyi bu gecədə nəhəng okeanı xatırladan səmada tək-tək adaya bənzəyən ağ, boz buludlar asta-asta əsən mehin təsirindən qatarlaşıb məchul bir məkana doğru uçdular. Bir anlığa bu mənzərə də dəyişdi və Şəfəqə elə gəldi ki, sonuncu gördükləri babasının əlləri ilə saldığı bağçadı, başlanğıcını böyük sürətlə dağların uca zirvələrindən alan Qazyan arxıdı. Şəfəq qarmaqarışıq, izahı mümkün olmayan bir aləmdə çabalayır, düşdüyü vəziyyəti xatırlayırdı ki, birdən ona güzgü tutan qadın qeybə çəkildi. Güzgü düşüb çilik-çilik oldu...

Şəfəq yuxudan hövlnak oyandı. Nə eləyəcəyini bilməyib için-için ağlamağa başladı.

* * *

Suallar və onlar üzərində qurduğu mühakimələr müstəntiq Vahabovu çıxılmaz vəziyyətə salmışdı. O, adını unutduğu, hansı aqilinsə dediklərini xatırladı. Bəli, cinayət olan yerdə vicdan oyanır. Cinayətlər artdıqca vicdan da yüksəlir. Qəribəyik biz insanlar. Qarşımıza anlaşılmaz bir şey çıxanda ayaq saxlayırıq. Bir anlığa dayanırıq. Öz-özümüzə sual veririk: — Biz bu düşdüyümüz vəziyyətdən çıxa biləcəyikmi? Çıxa biləcəyiksə, necə? Bilməyəcəyiksə, vəziyyətimizin sonu nə ilə nəticələnəcək? Əlbəttə ki, girdab! Əzab! İztirab! Qaranlıq! Zülmət! Faciə! Kin! Küdurət! Qəzəb! Nifrət! Çıxış yolları tapa bilməyəndə, gücsüzlüyümüzü açıq-aydın duyanda qəzavü-qədərə üz tuturuq. Onunla razılaşmağa başlayırıq. Müvəqqəti ruhi sakitlik! Bədbinlik! Əlacsızlıq! Baş verənlərə qane olub gözləmək: ümid, inam, arzu, firavan gələcək, işıq, sevinc, fərəh, şadyanalıq. Eh, necə də aldadırıq özümüz özümüzü. Ömrümüzü badi-fənaya verib gedəndə də cənnət, behişt ümidi ilə köçürük əbədi dünyamıza. Bu





imkan hansı canlıda mövcuddu, İlahi?! Düşüncələr seli müstəntiq Vahabovda belə bir fikir oyatdı: Şəfəqi həbs eləmək, yoxsa. — Onu bu cinayətə təsadüfən qoşub quldurlar, — deyə, buraxmaq. Bəli narkomaniya, onu gənclər arasında yaymaq, ondan qazanc məqsədi güdmək böyük cinayətdi. — Şəfəq böhtana düşüb, — deyə onu burdan çıxarmaq indiki halda necə? Bükülü Şəfəqin əlində tutulub. Predmet ortadadı, faktlar, dəlillər onun cinayətdəki iştirakını təsdiq eləyir. Ancaq həqiqət budu ki, Şəfəqin bu cinayətdə iştirakı təsadüfidir. O, bilərəkdən bu işə qoşulmayıb. Bunu əsas götürüb Şəfəqi həbsdən azad eləsəm, mənim barəmdə nə düşünəcəklər?! Deməzlərmi ki, almısan, aldığından gətir bizə də ver, müstəntiq Vahabov! Yaxşı, təsəvvür eləyək ki, müqəssirliyini təsdiq elədim. İşi məhkəməyə ötürdüm. Bu zavallı zindanlara atıldı. Bəs mənim vicdanım?! Bəs mənim namusum?! Bəs mənim qeyrətim?! Bəs mənim ləyaqətim, şərəfim?! İnsanlığım necə olsun? Düşün, müstəntiq Vahabov, düşün! Görəsən, cinayətin ağırlığını bu zavallı dərk eləyirmi? Mənə elə gəlir ki, eləyir. Eləməsəydi, beli bu dərəcədə bükülməzdi. Həqiqət Şəfəqin tərəfindədi. Həqiqəti necə sübut eləmək? Alan da, satan da insafsızcasına Şəfəqi özlərinə tay eləyirlər. Qəribədi. İçimdə iki hiss baş qaldırır. Biri: "İşi yekunlaşdır, Şəfəqi də cinayətkar kimi məhkəməyə ötür", — deyir. İkincisi, məni az qala dəli eləyir. Mənə rahatlıq vermir. Görən, bu vicdandımı? Vicdanımın səsinə qulaq asaraq Şəfəqi azadlığa buraxsam, bütün həyatımı risqə qoymuram ki? Vəzifəmi, rütbəmi, nüfuzumu itirmirəm ki? Bəli, hər şey gedir. Yaxşı, bütün itirdiklərimin müqabilində tapdığım nədi? Belə demək mümkünsə, təmiz, saf vicdan!

İndi müstəntiq Vahabov iki yol ayrıcında dayanmışdı. O, çox fikirləşdi, çox götür-qoy elədi.

İnsan qəlbi nə qədər geniş, nə qədər hüdudsuzdu?! Bəs mütiliyi necə? O da hüdudsuzdumu? İnsan ömrü hüdudludursa, baş-

lanğıcı və sonu müəyyəndirsə, bəs ondan həmişə fədakarlıq tələb eləmək necə? Qarşılaşacağı məsələləri əvvəlcədən yüz dəfələrlə ölçüb-biçən cavan müstəntiq böyük çətinlik qarşısında dayanmışdı. İndi axırıncı addım atılmalıydı. Ancaq necə? O cavan oğlan çiskin və boz duman içərisində dəhşətli qaranlıqda keçidin ortasında dayandı. ...Şəfəqi dəhşətli günlər — işgəncələr gözləyir. O, bu işgəncəyə razılaşıb imza atmalıdı, ya da bu zavallını işgəncələrə aparan yolu öz əlləri ilə kəsməlidi. Şərə rəvac verirsə, özü mənən elədiyi cinayətin əsirinə, quluna çevrilir. Yox, kəsirsə, işdə cinayət tərkibi yoxdu, — deyə buraxırsa, daha ağır bir yükün altına girir. Özü də qanunun sərt qadağalarına əsasən, eyni cinayətin bərabər hüquqlu iştirakçıları tək, ən azı rüşvətxor kimi cəzasını çəkməlidi. Yox, yox, rüşvət almağı heç kəs ona sırıya, yük eləyə bilməz. Şəfəq kimsəsiz, daldasız, imkansız bir adamdı. Onun arxasınca gələni yoxdu. Rüşvət vermək imkanı olmayan bir adam "Rüşvət vermişəm", — deyə onun üzünə də dura bilməz. İnsafən, Şəfəq də elə adam deyil. Axı nədi bu cavan müstəntiqin günahı? Haqqı, ədaləti bərpa eləyib? Bir günahsız qadının azadlığa buraxılması üçün fədakarlıq göstərərək xeyir-dua verən müstəntiq sevinmək, fərəhlənmək əvəzinə niyə ruhi əzablar çəkməlidi? Ruhi əzablar fiziki işgəncələrdən qat-qat ağırdı — deyirlər. Nədi bu zavallı müstəntiqin günahı? Araşdırıb həqiqəti ortaya çıxarmaqmı? Eh... Həqiqət, həqiqət! Sənin üzünə baxmaq, səninlə birlikdə addımlamaq nə qədər çətindi, başa necə də bəla gətirməkdi. Göz görə-görə faciəyə atılmaqdı. Alçaqlıq, nadanlıq, vicdansızlıq ətrafdakılar tərəfindən necə də yumşaq, necə də mülayim qarşılanır. Şirin yalanlar bəzən acı həqiqəti öz taxt-tacından necə də məharətlə sıxışdırıb salır. Heç kəs ona gözün üstə qaşın var demir. Cavan oğlan zavallı Şəfəqin gününə, düşdüyü vəziyyətə mənən ağlaya-ağlaya düşündü: Yalan girdabdı. Qan, irin verən yaradı. Ona açıq gözlə baxmaq, sonra da heç bir şey görmürmüş kimi ondan uzaqlaşmaq nadanlıqdı. İnsanlıq hisslərini itirməkdi. Vicdanı korluqdu.





İşıq, nur qaranlığın əksidi. Bunun sübuta da ehtiyacı yoxdu. Müstəntiq Şəfəqin acınacaqlı vəziyyətini düşündükcə dəhşətə gəlirdi. Bir anlığa yeniyetməlik dövrünü yaşayan bacısı, cavan arvadı, on yaşlı qızı gəlib durdu gözləri önündə müstəntiq Vahabovun. Şəfəqə yazığı gəldikcə, tiryək, anaşa oyunçularına nifrət və qəzəbi artırdı onun.

Şəfəqin həbsi insan hüququnun, insan ləyaqətinin tapdalanması olardı. Fikirləşməkdən az qala başı çatlayan Vahabov axır ki, tərəddüd eləmədən qəti hökmünü verdi: Şəfəqi azadlığa buraxmaq! Saf, təmiz vicdanla yaşamaq! Bu cavan oğlan son qərarı ilə özündə mənəvi yüngüllük duydu. Hamıya aydındı ki, təbiətdə buludların toqquşması ildırımların çaxması, göy guruldaması ilə nəticələnir. Qanunlardakı boşluqlar, qeyri-humanist müddəalar insan hüquqlarının tapdalanmasına, mənəviyyatın zorlanmasına gətirib çıxarır.

* * *

Polis idarəsində uzun-uzadı danışdırmalardan, sorğu-suallardan qurtaran Şəfəq iyirmi günə yaxın idi ki, yataqxanada, fabrikdə və universitetdə tanıyanların suallarına cavab verməkdən yorulmuşdu. Eşidib-bilənlərdən bəziləri Butanı, Nəcəfi lənətləyir, bəziləri də onların çirkin əməllərinə inana bilmirdilər. Ancaq hamıya bir şey aydın idi ki, bir neçə gün polis idarəsində saxlanılan Şəfəq azadlığa buraxılmışdı. Buraxılmışdısa, deməli, tiryək alverində onun günahı yoxdu. Xoşbəxtlik və bədbəxtlik nisbi anlayışlardı. Onlardan heç biri maddi təminatla bağlı ola bilməz. Bu məsələlərin hər ikisi mənəvi sərvətlərlə, dəyərlərlə əlaqədardır. Belə olduğu halda, kim özünü xoşbəxt, kim özünü bədbəxt sanar? Xoşbəxtlik, ya bədbəxtlik çox zaman insanın özündən asılı olmur. Kim deyə bilər ki, beş dəqiqə sonra, ya beş metr

qabaqda onu hansı hadisə gözləyir. Əlbəttə ki, heç kim. Ancaq bir həqiqət var ki, özünün xoşbəxtliyini, ya bədbəxtliyini dərk eləmək dəhşətdi. Özünü maddi təminatlı sanan və zər-ziba toplamaqla fəaliyyəti məhdudlaşan, kifayətlənən adam əslində dünyadan tez doyur, həyatında yeni, əlvan rəng çalarları axtarır, onu tapa bilməyəndə, heç bir şeylə maraqlanmır. Təmin olunmuş vəziyyətdən ehtiyaclı bir hala düşür. Ən cazibədar, ən maraq doğuran şeylərə laqeyd, etinasız münasibət bəsləyir. Yaxınlarını ya unudur, yaxud da görmək belə istəmir. Nəticədə onda harınlıq, mənəvi piylənmə yaranır. İdrakının işığı sönür. Belə olanda təminatlı şəxsi kimsənin adi sözü, mənasız bir hərəkəti hövsələdən çıxarır. Xoşuna gəlməyən adamı qapmağa, dişləməyə, çeynəməyə, cəzalandırmağa hazır olur. Deməli, təminatın da həddi var. Həddi aşılan hər şey xəstəlik kimi müalicə tələb eləyir. Əks halda, hədsiz "xoşbəxtlik" insanı bədbəxtliyə gətirib çıxarır.

Bədbəxtlik faciədi. O, insanı əzab-iztirablar dənizində çalxalayır. Nəhəng qudurğan dalğaların, tufanların qoynuna atır. Ömrü əbəs yerə məhv eləyir.

Dünya bütövlükdə qeyri-adi bir mənzərədi. İnsan bu mənzərədən ləzzət almaq, feyziyab olmaq üçün onun hər bir guşəsinə can atır. Ömrünü başa vurub gedəndə isə yaşadığı, ömür sürdüyü dünyanın cazibədarlığını, ecazkarlığını, füsunkarlığını, ləzzətini nə qədər dərindən duysa da, bütün gördükləri, təmasda olduqları nə varsa, yavaş-yavaş nəzərlərində sönür, özü də hiss eləmədən qaranlıq zülmətə atılır. Bu qəribə gediş və gərdiş nəticədə xoşbəxtliklə bədbəxtliyin çalın-çarpaz xətlərini bütünlüklə birləşdirərək bir nöqtəyə gətirib çıxarır. Müstəntiq Vahabov da, müttəhim Şəfəq də nə təminatlı adamlar idilər, nə də iddialı. Bu adamlar yalnız haqq, ədalət tərəfdarı idilər, hər zaman haqq, ədalət axtarır, ona tapınırdılar. Onlar gördüklərini, eşitdiklərini anlayırdılar. Fərqləri onda idi ki, müstəntiq Vahabov fəal, müttəhim





Şəfəq isə passiv idi. Lakin yaxşı, ya pis olsun, fərqi yoxdu, yaşadıqları dünyanın bütün əlamətlərini özlərində əks etdirə bilirdilər. Adamlara sözlərini deməyi bacarırdılar. Qəribə idi. İstehzalı gülüşlər də, etinasız təbəssümlər də, onların hər birinin aləmində riyakarlıq və ikiüzlülüyün törəməsi idi.

* * *

Diplom işinin müdafiəsinə üç gün qalırdı. Şəfəq gecəni-gündüzə qatıb polis idarəsində qaldığı on beş günün əvəzini çıxmağa çalışırdı. O, bütün günü dərslərinə hazırlaşırdı. Axşam yorulduğundan, bir az da özünü pis hiss elədiyindən təmiz hava almaq üçün balkona çıxdı. Mehrablı gecə ay işığında əsrarəngiz bir mənzərə yaratmışdı. Şəfəq neçə vaxt bundan əvvəl professor Cəmalə xanımla dəniz sahilində gəzdikləri anları xatırladı. Mavi, sakit dənizin səthində güclə seçilə biləcək qabarmalar gəlib durdu gözləri önündə. Xəyalı onu çəkib lap uzaqlara aparırdı ki, qapı döyüldü. Şəfəqə elə gəldi ki, keçən həftə Dubaya gedən Yaqut qayıdıb. Yəqin açarını hardasa unudub. O, tələsik balkondan evə keçdi. Gedib qapını açdı. Qapı ağzında iki polis nəfəri dayanmışdı. Onlar icazəsiz-filansız içəri keçdilər. — Kapitan Tağıyev, — deyə özünü təqdim elədi. Sonra da: — Şəfəq sənsən? — deyə soruşdu. Şəfəqin bədəni titrədi, səsi çıxmadı, başı ilə "hə" işarəsini verdi. Kapitan dərhal: — Prokurorluğun qərardadına əsasən həbs olunursan, — dedi və qandalı Şəfəqin biləyinə vurdu. Bu adamın təkəbbürlü gülüşü, şorgözlüyünü nümayiş elətdirən gözlərindəki parıltı və oynaqlıq Şəfəqdə ikrah hissi oyatdı.

Qolları qandallanmış ananı otaqdan çıxarıb apararkən yataqxananın dəhlizlərindən durub zavallıya baxanlar böyük təəssüf və təəccüb hissi keçirirdilər. Bədbəxt Şəfəqsə daha heç kəsin üzünə baxmırdı. Yataqxanadan çıxan kimi Şəfəqi tələm-tələsik

maşına mindirib polis idarəsinə apardılar.

Qadını müstəntiq otağına saldılar. Yenidən istintaq başlandı. Bu dəfə sorğu-sualı yaşı altmışa yaxın bir müstəntiq aparırdı: ucaboy, arıq, qarayanız, dazbaş bir adamdı; üzündə, alnında dərin qırışlar vardı. Batmış ordlarından, çuxura düşmüş gözlərindən hiyləgərlik yağırdı. Çallaşmış, uzun, tüklü qaşları üzünə qəribə bir görkəm verirdi. Onun iti baxışlarında amirlik duyulurdu. Heç bir kişilik cazibəsi olmayan bu adam qadın görən kimi hayıl-mayıl olurdu. Yaramaz, düşük hərəkətləri ilə əlindən bir şey gəlməsə də, qəlb oğurluğuna girişirdi, vicdansızlığa meylli idi. Lovğalıq, şöhrətsevərlik, təkəbbürlülük müstəntiqin xarakterini tamamlayırdı. Onun yaşına yaraşmayan hərəkətləri, cürbəcür gizli işarələr eləməsi, ikibaşlı danışıqları, sırtıqlığı Şəfəqi sarsıdırdı. Qadınlar kimi əlvan, güllü-güllü, naxışlı parçadan tikilən paltarlar geyərdi. O, müttəhimləri aldatmağa çalışsa da, həmkarları onu asanlıqla aldadırdılar. Onu yalnız öz mənafeyi maraqlandırırdı. Mənəviyyatında şikəstlik vardı, idrakının gözləri torlu idi. Ən gözəl şeylərə adi hal kimi baxırdı. Başqalarının başlarına gələn ən qorxulu, ən dəhşətli faciələrə təəccüblənməzdi. Hər cür söyüşlər söyməkdən çəkinməzdi. Özgələrin nalayiq, kobud sözləri, təhqirləri onu həyəcanlandırmazdı. Bu xarakterinə görə tanış-bilişləri, həmkarları ona "Gönüqalın" ləqəbini vermişdilər. Onun hissləri buz kimi soyuq idi. İmkansızları adam yerinə qoymurdu və onlara qarşı amansızlıq göstərirdi. Şəfəqin gözlərində bu adam müstəntiq yox, mənəviyyat qəssabına oxşayırdı.

Bədbəxtlik, cəhalət, cahillik qanmazlıqdı, idrakı sönüklük və mənəviyyatı korluqdu. İnsanı qüdrət və şöhrətin ən parlaq zirvəsinə qaldırmaq olar. Həyatın dibinə də endirmək mümkündü. Deyirlər, insanı batalqadan onun ağlı, zəkası çıxarmağa qadirdi. İndi bu deyilənlərin hamısı Şəfəq üçün gəlişi gözəl sözlərdən başqa bir şey deyildi. Düşdüyü faciədən, batalqadan, girdabdan çıxmağa özünün ağlı, zəkası kifayət eləmirdi. Onun taleyi





dönmüşdü. Ömür çırağı sönürdü. Söndükcə də qəlbində intiqam atəşi qaynayır, köksündə dəhşətli bir fırtına coşurdu. Belə hallarda Şəfəqin xarakterində yad ədalar meydana çıxırdı. Onun qızarıb-bozaran üz-gözündə gah ciddi, sərt bir görkəm yaranır, gah da acı bir kinayə, istehza duyulurdu.

Şəfəqin taleyi elə gətirmişdi ki, bir dərd-səri, zərbəni özündən uzaqlaşdırmamış yenilərini alırdı. Onlar da qalaq-qalaq çiyinlərinə yüklənirdi. O, əvvəllər dərd-sərlərini düşündükcə ağlayıb-sıtqayırdısa, acı göz yaşları axıdırdısa və dolmuş ürəyini bu yolla boşaltmağa çalışırdısa, indi hər cür çətinliklərə adət eləmişdi. — Qəzavü-qədərin qismətidi, — deyə hər şeyi sövti-təbii qəbul eləyirdi. O, daha ağlamırdı, acı göz yaşları tökmürdü, sıtqamırdı. Düşünürdü: əgər ən təhlükəli fəlakət qəzavü-qədərdən gəlirsə, amma təhlükənin qarşısını almaq üçün bir tədbir hazırlanmırsa, bu qədər ağlayıb sıtqamağa, haray-həşir qoparmağa ehtiyac varmı? Lap tutaq ki, ağladım, haray qopardım, üz-gözümü cırdım, özümü şikəst elədim, işlərə bir əncam çəkiləcəkmi? Qətiyyən yox! İnsan gərək öz şərəf və namusuna arxalansın. Vicdanının səsinə qulaq assın.

Müstəntiq: — Podpolkovnik Şeydayev, — deyə özünü təqdim elədi və suallarını verdi. İlk sorğu-sual başlayan kimi Şəfəq etinasız və laqeyd halda bu yaşlı müstəntiqə: — Mən iyirmi gün əvvəl Vahabovun suallarına cavab vermişəm və həmin izahatımı da təsdiq eləyirəm, indi təkrar nə deməliyəm ki? — deyə cavab verdi. Müstəntiq Şəfəqin üzünə baxdı. Otuz altı illik təcrübəsi dövründə o ilk dəfə idi ki, müttəhimdən belə soyuqqanlı, qəti cavab eşidirdi.

Müstəntiq onun sözündə guya qeyri-adi bir şey görmürmüş kimi dedi:

— Sənin cavablarınla qənaətlənməyin nəticəsidir ki, müstəntiq Vahabov hüquq-mühafizə orqanlarından kənarlaşdırıldı, məhkəmə onun yekunlaşdırdığı cinayət işini ibtidai istintaqa

qaytardı. Ona görə də sən tələb olunan bütün suallara doğru-düzgün cavab verməlisən.

Şəfəq müstəntiq Vahabov barəsində tətbiq olunan cəza tədbirini eşitcək sanki qulaqlarına inanmadı. Özlüyündə cavan müstəntiqin halına yanıb-yaxıldı. Öz-özünə düşündü ki, mən qaramat hara gedirəmsə, fəlakətlər də, faciələr də ardımca sürünür. Heyf! Çox heyf, müstəntiq Vahabovdan. O, vicdan və namus mücəssəməsi idi, həqiqətin qurbanı oldu.

Başqa əlacı qalmayan Şəfəq suallara cavab verdi. Sonradan Şəfəqlə üzləşmə prosesində Nəcəf də, Buta da fəallaşmışdılar. İstədikləri sözü, istədikləri böhtan və iftiranı deməkdən çəkinmirdilər. Hər dəfə bu alçaqlar bildirirdilər ki, guya Şəfəqlə onların tiryək alveri birinci dəfə deyildi. Onlar yataqxanada həmişə Şəfəqdən yardımçı kimi istifadə eləmişlər. Hər dəfə də müstəntiq Şeydayevin qışqıraraq: "Buna nə deyirsən, fahişə?", "Cavab ver, dişi canavar", "Boynuna al, alçaq" kimi təhqiramiz, kobud, sərt ifadələri onun beyninə mismar kimi vurulur, hökmlü səsi quvalt zərbəsi tək qulaqlarında taqqıldayırdı.

Şəfəqin izahatlarından özü üçün heç bir nəticə hasil eləyə bilməyəcəyini görən müstəntiqin danışıq və hərəkətlərində birdən-birə qəribə yumşalmalar görünməyə başladı:

— Gəl inadkarlıq göstərmə. Nə özünü incit, nə də məni. Onsuz da sən həbsdən yaxa qurtara bilməyəcəksən. Tiryək alverində Nəcəflə, Buta ilə birgə fəaliyyətini boynuna al.

Şəfəq özü də bilmədən nifrət və qəzəblə:

— Mən həqiqəti deyirəm. Sizsə həqiqətin ağzına daş basmağa çalışırsız. Bir anlığa mənim yerimə bacını, qızını, yaxın qohum-əqrəbanı qoy. Onda vicdanın oyanacaq. Onda görəcəksən ki, ədalətsiz yol tutmusan. Hərəkətlərindən özün peşman olacaqsan.

Müstəntiq danışığı başqa vaxta saxladı. Serjantı çağırıb müttəhimi kameraya göndərdi.





* * *

Günün müxtəlif vaxtlarında müstəntiqin otağına get-gəllər Şəfəqi cana doydurmuşdu. O, kamerada olarkən növbə çəkənlərin dəhlizdəki ayaq səslərini eşidəndə tir-tir əsir, qaçıb gizlənmək, canını qurtarmaq üçün bala quş kimi kiçik bir deşik axtarırdı. Nə insafsız müstəntiq, nə iftiraçı dələduzlar, nə də maymaq, miskin növbə çəkənlər onu başa düşmək istəyirdilər. Əksinə, bu zavallını bürüyən qaranlığı daha da qatılaşdırmağa çalışırdılar.

Şəfəq ilanlı, əqrəbli quyunun, əlçatmaz, ünyetməz dərənin dibindəydi. Onu bu quyudan fələyin də çıxara biləcəyinə ümüd yox idi. Hər gün hər bir danışıqda işıq sızan deşiklər tıxanır. Tıxandıqca da Şəfəq zülmətin daha dərin qatlarına, vahimə yaradan laylarına enirdi.

Şəfəqin bir köməyi yox idi, ardınca heç kim gəlmirdi. Bunu müstəntiq də duymuşdu, fikirləşirdi ki, bu işdə ondan maddi xeyir görə bilməyəcək. Bu barədə qəti qərara gələn müstəntiq fayda götürmək üçün başqa yollar axtarmağa başladı. Şəfəqin gəncliyi, gözəlliyi saçı-saqqalı ağarmış qoca müstəntiqin başına şəhvət hissindən doğan "sevda" toxumları səpirdi. Hər görüşdən-görüşə, danışıqdan-danışığa toxumlar şişir, rişələr atıb göyərirdi. Ancaq Şəfəq bundan tam xəbərsiz idi.

Növbəti dəfə danışıq üçün Şəfəqi otağa gətirdilər. Otaq olduqca geniş idi. Burda bardan tutulub gətirilən on dörd-iyirmi yaş arasında on beşə yaxın gözəl vardı. Azğınlıqdan, ya maddi imkansızlıqdan dağ çiçəyi tək təravətli olan bu incə, zərif, şux, füsunkar gözəllərin yolu barlardan, kazinolardan keçərək polis idarələrinə, oradan da dustaqxanalara və dəri-zöhrəvi xəstəxanalara uzanıb gedirdi. SPİD-ə yoluxanlar isə böyük əzab-əziyyətdən sonra soyuq məzarlarda əbədi dünyalarına qovuşmalı olurdular.

Otaqdakı qızlardan kimisi bir kənara çəkilib siqaret çəkir, kimisi rəfiqəsi ilə zarafatlaşır, danışıb gülürdülər. Bu qızların hər biri özlərini polis idarəsində yox, sanki hansısa kino-teatr zalında, konsert salonlarında sanırdılar. Arabir göz-qaş oynatmaqla, naz-qəmzə satmaqla polis nəfərlərinə "Bizi bura niyə gətiribsiz?", "Buraxın gedək", "Necə hərəkət elədiyimizi özümüz bilərik", "Biz azad ölkənin azad vətəndaşlarıyıq", "Mən bara pul, kef üçün gəlmişəm", "Mal mənimdi, özüm bilərəm" kimi cavablar verirdilər. Cavanlı-qocalı polis işçiləri qızları dinləyib gülüşürdülər. Sonra da gözlərinə xoş gələnləri otaqdan tək-tək çıxarıb aparır, bir saatdan sonra geri qaytarırdılar. Yerdə qalanlar belələrindən: — Razı sala bildinmi? — deyə soruşurdular. Xanımlarla polis işçiləri arasında gedən sərhədsiz, qeyri-etik söhbətləri, arabir işlətdikləri jarqonları eşidən Şəfəqi dəhşət bürüyürdü. O, yüz dəfələrlə Allaha yalvarırdı ki, müstəntiq tez gələydi, onunla sorğu-suala başlayaydı, sonra da bu ifritələrin yanından çıxarıb kameraya göndərəydi. Nə gözləri bu ifritələri görəydi, nə də qulağı deyilənləri eşidəydi.

Müasirliyi əndazəsiz geyimlərdə, restoranlarda, nə bilim daha haralarda axtaran, yüngül küçə musiqilərinə atılıb düşən, əndamlarını necə gəldi oynadan, bütün fikri-zikri kef çəkmək olan bu zavallıların hamısı həyat girdabı içərisində mənən ölmüşlərdi. Onlar cismən yaşasalar da, ruhən yoxdular. Zahirən gözə görünsələr də, batilən heçdilər. Onların hər biri vaxtı çatanda gözəl ailə qura bilərdilər. Ana olmağa qabil idilər. Övlad törətmələri mümkün idi. Gələcək nəslin inkişafına təkan verə bilərdilər. Özləri də Azərbaycan cəmiyyətinə gözəl töhfələr bəxş eləyərdilər. Ancaq nə fayda? Artıq gecdi. Onların hamısı ifritə, qəhbə, fahişə missiyasını canla-başla yerinə yetirirdilər. Bir anlığa sir-sifətlərinə baxsan, gözlərinin içinə diqqət yetirsən, hər birinin necə aludəliklə, heyranlıqla, fəxranəliklə bu işə qoşulmalarının şahidi olarsan. Yeriyərkən əndamlarını burcutmaları, döşlərini qabartmaları, ağız-burunlarını büzüşdürmələri, gözlərini axıtmaları, qaşlarını oynatmaları, işlətdikləri söz və ifadələr, ədalı səs ritmləri qədim peşənin incəliklərini açıq-açığına diqtə eləyirdi. Qəribə burasıdır ki, bunların hər biri öz əməllərindən nəinki həyalanır, utanır, hətta, fəxrlə deyirdilər: "Bəli, mən qəhbəyəm", "Mən fahişəyəm", "Adımı da boynuma alıram". Belələri təmiz qadınlara da bəzən həqarətlə baxırdılar, onları geridə qalmışlar, həyatı başa düşməzlər, nadanlar kimi qiymətləndirirdilər.





Bayaqdan bəri bu ifritələri müşahidə eləyən və qəlbində onların hər birinə qəzəb, nifrət bəsləyən Şəfəqə bütün aləm mənasız, cansıxıcı, qorxunc görünürdü.

Gecə yarıdan keçmişdi. Müstəntiq Şeydayev Şəfəqi öz otağına çağırdı. Fahişələr: — Get bala, get, sən də borcunu ver, — deyib gülüşdülər. Şəfəqin əti sanki sümüyündən aralandı. Qayıdıb nəsə demək istədi, ancaq bacarmadı. Üzünü çevirib müstəntiqin kabinetinə getdi. Müstəntiq Şeydayev hər gün verdiyi sualları təkrar eləməyə başladı. Şəfəqə indi yaxşı aydın idi ki, bu axşam Şeydayevin başlıca məqsədi heç də köhnə suallara cavab almaq deyildi. Onu vurnuxduran tamamilə başqa sevda idi. Şəfəq ölümə razı olardı, ancaq bu mənəviyyat qəssabının, femida keşikçisinin təklifinə yox. Ona görə də dəhşətli iztirablar içərisində boğulan, əsəbdən dodaqlarının qanı qaçan Şəfəqdə müstəntiqin iti, sırtıq baxışları, yaşına uyuşmayan hərəkətləri, nitqində işlətdiyi ikimənalı sözlər kəskin nifrət, kin oyatdı. Onun sakit axan fikirləri yavaş-yavaş öz məcrasından çıxdı, özünüidarə pozuldu və birdən-birə hiddət və qəzəblə qışqırdı:

— Alçaqlar! Əclaflar! Bu nalayiq hərəkətlərinizlə nə demək istəyirsiz? Riyakar, saxta, sarsaq, ürəkbulandıran niyyətləriniz baş tutmayacaq! Özgələr hesabına piylənmiş siz dazbaşlar həyatın nəşəsini başqalarına zülm eləməkdə, əzab-iztirablara sal-

maqda görürsüzsə, yayın cırcıramasında qızmar günəş altında soyuqdan titrəyən mən və mənim kimilər həyat cəngəlliklərindən keçərək, ömrümüzü ədalət mizan-tərəzisi ilə nizamlayaraq yaşayırıq və ondan aldığımız ləzzət və nəşəni dünyanın özü ilə dəyişmirik! Siz yazıqsınız! Ancaq zər-zibalısınız! Pulunuz var! Qanunlar əlinizdədi! Ondan istədiyiniz kimi bəhrələnə bilərsiz! Mən və mənim kimilər gündəlik loxmasına qane olub, vicdan, namus, ləyaqət və şərəflərini sizin kimilərdən qorumağa çalışırıq! Siz hesab edirsiz ki, azadsız, təmin olunmuş xoşbəxtlərsiz, bizsə qəfəsdəyik, azadlıq işığına həsrət bədbəxtlərik! Əgər belə düşünürsüzsə, səhv eləyirsiz! Siz də, biz də eyni bezin qıraqlarıyıq! Eyni materialdan yoğrulmuşuq! Fərqimiz ondadı ki, sizin Allahınız varidatdı, puldu! Namus oğurluğudu! Biz isə vicdan güzgüsüyük! Ədalət, haqq, insaf, namus mücəssəməsiyik! Allahımızı başımız üstə görüb onun qüdrətinə, şövq və şücaətinə arxalanırıq! Siz hər cür ədalətsizliyə gedə bildiyiniz halda, biz o yolları seçməkdən qaçırıq! Siz olmuşlara qara eynəkdən baxırsız, bizsə öz gözlərimizlə! Sizi və bizi eyniləşdirəcək yeganə şey soyuq məzardı! Arzular, istəklər, xəyallar orda sona yetəcək! Sizə nəsib olmayan topladığınız qan və çirkablı varidat puçluqdan, yoxluqdan başqa bir şey deyil! Cənab müstəntiq, əgər divanda qanunları tapdalayıb ədaləti, haqqı boğaraq, ağa qara deməyi müvəffəqiyyət sanırsızsa, özünüzü kimsəsizlər, imkansızlar, məzlumlar üzərində qalib bilirsinizsə, sizi təbrik eləyirəm!

Möhtərəm Şeydayev, heç bir fərqi yoxdu. İstər dustaqxana olsun, istərsə də çöl! Hər ikisində insanlar ömür sürürlər! Mənim kimilərə içəri də birdi, çöl də! Çölün içəridən bircə fərqi var ki, orada sərbəstlikdi! Qanunlarla, qadağalarla buxovlanmırsan! Azadlığa çıxacağın günü saymırsan! Tələsmirsən!.. Bəlkə yalan deyirəm, Şeydayev?! Ver qərarını! Nifrət eləyirəm sənə də, sənin kimi əxlaq düşgünlərinə də!





Mənim özümdən savayı heç bir şeyə gücüm çatmır! Sənin kimi özümə xidmət eləyəcək nə əlimdə qılıncdan da kəsərli qanunum var, nə də belimdə tapançam! Mənim silahım sözdü, istehzalı gülüşlərdi! Ən acıqlı, hirsli, qəzəbli vaxtlarımda əxlaqsız, kütbeyin adamlara gülürəm və bu gülüşlərdən də ləzzət alıram! Buna tam əmin ola bilərsən! Unutma ki, insan taleyi ilə oynamağın, əylənməyin, zarafatlaşmağın sonu böyük fəlakətlərlə nəticələnir! İstərdim, dediklərimlə xam xəyalların gözqamaşdırıcı nəşəsindən silkələnib ayılasan! İç dünyanın göz qapaqlarını qaldırasan! İnsanlığını duyasan! Qızın yaşda olanların ar-namusuna təcavüz eləmək iddiasından heç olmasa bu yaşda əl çəkəsən! Bəzilərinin uydurduqları kimi, insan heç də meymundan əmələ gəlməyib! Adəm ilə Həvvanın törəməsi olduğuna da inanmıram! Hardan, nədən yarandığımızı da bilmirəm! Yaranış kökündən də, tarixindən də xəbərsizəm! Ancaq onu bilirəm ki, bu dünyanı quran da insandı, dağıdan da. Siz piylənmişlər, siz harınlamışlar qırmağa, sökməyə, dağıtmağa adətlisiz! Əl çəkin insanlığa ləkə gətirən bu əməllərinizdən!..

Açıq deyin görüm, məndən nə istəyirsiz? Azacıq özündə güc tapa bilirsənsə, çıxart tapançanı, vur məni! Ölərəm sənin qarşında əyilmərəm! Mənə namusum canımdan da əzizdi! Qandın, ya yox?! Nə qərar çıxarırsan çıxar. Bəli, mən cinayətkaram! Sənsə düşgün!

— Qışqırma, harda olduğunu da, unutma!

— Harda olmamın mənim üçün daha heç bir əhəmiyyəti yoxdu.

İstəyinə nail ola bilməyən müstəntiqin Şəfəqi kameraya göndərməkdən savayı özgə çarəsi qalmadı. Baş tutmayan niyyətlər dünyasında çabalayan, vurnuxan, əlinə bir şey sala bilməyəcəyini qətiləşdirən müstəntiq Şeydayev tiryək“ oyununda əsas oyunçu kimi Şəfəqi xarakterizə eləyərək cinayət işini yekunlaşdırıb ona imza atdı və səhəri gün məhkəməyə ötürdü.

* * *

Hiyləgərliklə ikinci dəfə zirzəminin dar kamerasına atılan Şəfəq anarxistlər mühitində, qanunsuzluqların baş alıb getdiyi xəstə bir cəmiyyətdə, dovşanla canavarın fərqləndirilmədiyi dəhşətli bir zəmanədə gücsüzlüyünü anlayırdı. Danışdıqları nə qədər həqiqət olsa da ona inanmaq istəməyənlərin tapılacağını özlüyündə yəqinləşdirirdi. Əli xeyirxah insanlardan üzülən yurdsuz-yuvasız bu zavallı qadının üzünü məchulluqlara, qəza-vü-qədərə tutmaqdan özgə bir çarəsi qalmadı. O, qanunsuz-filansız həbs olunmuşdu; hey düşünürdü: bu dörd divar arasından çıxa biləcəyimə azacıq da olsa işıq yeri varmı? Ümidimi, inamımı necə də sarsıtdılar? Həyat mənim üçün niyə belə zindana çevrildi? Bu düşdüyüm girdabın qatı qaranlığında köməyimə çatan olacaqmı? Yazıq müstəntiq Vahabov, mənim yolumda gölməçələrin çirkabı sənin də üstünə sıçradı. Səni də haqq, ədalət yolunda addımladığın üçün məyus elədim. Nəticəsi belə olacaqdısa, sən niyə bu yolu seçirdin? Onsuz da mən bu qondarma cinayət girdabında boğuluram. Alçaq Buta o bükülünü mənə niyə verdi? Niyə həqiqəti demir? Məni tiryək satmaq “oyununa” qatmaqla özünün vəziyyəti düzələcəkmi? — İşində cinayət tərkibi yoxdu, — deyə məhkəmə onu azadlığa buraxacaqmı? Yaxşı, bəs Nəcəf?.. Bir qadını şərləyib zindanlara atmaq başına papaq qoyan kəslərə şərəf gətirərmi? Məni azadlıqdan qoparan, arzularımı, istəklərimi ürəyimdəcə boğan bu lənətə gəlmiş faciə hardan doğdu? Heç vaxt ağlıma gətirə bilmədiyim və neçə gündə ağuşunda sıxıldığım qazamat ağzını açaraq məni udmağa hazırlaşır. Buranın rütubətli, ağır, iyrənc, üfunətli ab-havası qorxunc ilanların zəhəri tək canıma işləyir. Özümü aldatmaq niyə? Burda oturmuşamsa, müstəntiqin suallarına cavab verirəmsə, dediyim həqiqətlər nəzərə alınmırsa, izahatlarıma qondarma bir





şey kimi baxılırsa, deməli, istəsəm də, istəməsəm də mənə yaxınlaşmaqda olan yeddibaşlı qorxunc əjdahanın ixtiyarındayam. O, məni istədiyi vaxt iti, zəhərli dişləri altında əzəcək!... Neyləmək olar?.. Bu, mənim taleyimdi! Nə qədər acı olsa da, mənim qismətimdi!..

Tir-tir əsən, pərişan saçları üzünə tökülmüş, dərd-sər içində inləyən, dar kamerada zəif lampa işığında çarpayının küncündə domuşub oturan zavallı Şəfəq beynində sap kələfi kimi düyünlənən, bulaş-bulaş olan düşüncələrini açmağa çalışırdı. Ancaq düyünlər nəinki açılır, daha da dolaşır, qarmaqarışıq bir vəziyyət alırdı. Onun sarsılan qəlbi, göynəyən ürəyi qəmli, kədərli, qüssəli, ahu-zarlı, iniltili, göz yaşı dolu bir nəğmə oxuyurdu. Həyat qəribədi. Adi bir şıqqıltıdan gizlənən dovşanlar kimi, təhlükə duycaq uçub canını qurtarmağa çalışan quşlar tək Şəfəq kimi məzlumlar acizləşərək qoluzorlularla, canavar təbiətlilərlə qarşılaşdıqda miskin bir hala düşürlər. Yıxılmışları ayağa qaldırmaq əvəzinə vicdan əzabı çəkmədən onları tapdalayan, əzən, şil-küt eləyən, əzazil Şeydayevlər məzlumlar, arxasızlar üzərində hökmranlıqlarını təmin eləmək üçün hər cür alçaqlığa, rəzalətlərə gedirlər. Və bunu da özləri üçün ən böyük qələbə sanırlar. Qatı cinayətkarlıqlarını unudub özlərini mütəfəkkirlər, bəsirətlilər kimi göstərirlər! Kimdi günahkar?! O zavallı kimsəsizlərmi? İmkansızlarmı? Həyatdan, yaşamaqdan ümidi qırılıb üzünü haqqın dərgahına tutanlarmı? Allahdan imdad istəyənlərmi? Yoxsa, haqqı, ədaləti beşiyindəcə boğan nadanlarmı? Rüşvət almaq üçün hər cür əxlaqsızlıqlara əl atan quldurlarmı? İnsan əti yeyən quzğunlarmı? İçalat dağıdan canavarlarmı? Düşündükcə, az qala dəli olmaq dərəcəsinə çatırsan. Eh... Dünya!.. Dünya!.. Deyirəm, insan hüquqlarını qoruyacaq qulbeçələrdən, qanunlar toplusunu ayaqları altına alan, səfillərin ətinə-qanına susamış talançı canavarlardan nə gözləyəsən, nə umasan?! Alçaqların yazılmamış öz qanunları var: Üzdə həqiqət! Üzdə ədalət! Batildə ya-

lan! Batildə hiylə, şər! Əməldə iblisanə düşüncələrin reallaşdırılması. Qəzəb qığılcımı doğuracaq bu əməl sahibləri nə qədər kor, gözüqıpıq olsalar da, gördükləri işlərin sonu qazancdı, sərvətdi. Acı məğlubiyyət üzərində iyrənc qələbədi! Çox güman ki, bu qələbə kin-küdurətli ac-yalavacların yandırdıqları çırağın şöləsidi!

Qarmaqarışıq, ziddiyyətli fikirlər qara kabus kimi çulğayırdı Şəfəqi. Universitetdə tələbə ikən xəyalında yaratdığı ülvi, pak, gözəl mənzərələr uçulub dağılırdı onun gözləri önündə! Bu zaman heç ağlına da gəlmirdi ki, həbsindən cəmi-cümlətanı üç gün sonra ona doğma anası kimi qayğı göstərən elmi məsləhətçisi Cəlalə xanım ürək tutmasından dünyasını dəyişmişdi.

Ətrafında azğın-azğın nərildəyən qazamat küləyi, aşıb-daşan qorxu, təlaş, vahimə duyğularını qucuyan coşqun dalğalar nəhayətsiz mənəviyyat dənizini öz məcrasından çıxarmağa çalışırdı. Şəfəqə elə gəlirdi ki, neçə gün bundan əvvəlki hisslərlə doğulmaqda olan yeni duyğular arasında qəddarlığı təsəvvür olunmayan, dəhşətli bir toqquşma başlanıb. Bundan istifadə eləyən köhnə hisslərlə yeni duyğuların iblisləri üz-üzə dayanıb, yeni iddialar uğrunda mübarizə aparır, çarpışırdılar. Özü isə bu çarpışmada donub qalıb. Hara üz tutursa yolunu nəhəng, qudurğan dalğalar, qasırğalar kəsir. Sanki ayağının altındakı yer lərzəyə gəlir, başının üzərindəki göy birdən-birə tar-mar olur.

Fırtına nəriltisinə bənzər qorxunc hadisələrin təsir qüvvəsinə Şəfəqin əsəbləri dözmürdü. O, yaxşı başa düşdü ki, bu dəhşətli mənzərə ali təbiətin qüdrətindən doğmamışdı, o içində coşubdaşan qorxunun, təlaşın, əzabın, iztirabın vahiməsidi, gurultusudu.

* * *

Şəfəqi kameradan çıxarıb dustaq maşınına mindirəndə saat ona qalırdı. Günəş göyün üzündə uçuşan topa-topa buludların





arasından çıxıb boylanır, namərdlərin, nakəslərin haqq-ədalət mizan-tərəzisini əyənlərin əvəzində xəcalət çəkirmiş kimi buludlardan üzünə sipər çəkməyə çalışırdı. Canlı və cansız aləm Şəfəqin gözlərinə tamam başqa bir qiyafədə görünürdü. Şəfəq dinmədən, danışmadan maşına mindi. On dəqiqə keçər-keçməz maşın beşmərtəbəli binanın qarşısında dayandı. Əlləri qandallı, zəif, qaməti əyilmiş Şəfəqi yekə, hört-pörtlü polis işçiləri məhkəməyə gətirdilər. Onu müttəhim kürsüsündə əyləşdirdilər. Əvvəlcədən hazırlanmış mükəmməl ssenari əsasında Qorxmaz Qorxmazovun sədrliyi ilə məhkəmə zalında böyük bir "tamaşa" başlandı. "Aktyorlar" böyük səriştə, təcrübə nümayiş elətdirərək öz obrazlarını oynayırdılar. Mühakimə xarakterli dialoqlar bəzən hər şeydən xəbərsiz tamaşaçıların arasında qarmaqarışıqlıq, səs-küy salırdı. Hərdən bir də hakimin onlara "Sakit olun!", "İmkan verin!" müraciətləri eşidilirdi. Şəfəq isə məhkəmədə əvvəl özünü itirsə də tez bir zamanda özünə gəldi. Səhnədə gedən şıdırğı oyunların baş gicəlləndirici, ürəkbulandırıcı, cansıxıcı təsirini duydu. Ağlından dərhal belə bir fikir keçdi: insani münasibətlər şəbəkəsi milyon-milyon tellərlə çarpazlaşan, düyünlənən nəhəng bir mexanizm idi. O, əlahiddə, fenomen mexanizmdə təbii parlaqlıqla yanaşı, süni, gözqamaşdırıcı işıq da vardı. Şən həyatla bir cərgədə adlayan ağır, işgəncəli bir güzəran da mövcuddu. Həyat əyləncələr məskənidi. Bugünkü tamaşanın, — məhkəmə prosesinin də öz zövqü, öz ləzzəti var. İnsan qəlbi bəzən genişliyi, əzəməti, möhtəşəmliyi ilə kainatı xatırladır, bəzən də məhdudluğu, dayazlığı, alçaqlığı, üfunəti ilə nəhayətsiz batalqalara bənzəyir. Məhkəmədə öz rolunu ifa elədikcə, həmdərdlilərin cavablarını dinlədikcə, rejissorların-hakimlərin münasibətlərini gördükcə Şəfəqin gözündə qayğılı, əzablı, məşəqqətli ömrünün elə bil bütün tarixi yazılırdı. O, coşğun, qudurğan dalğalı, fırtınalı, tufanlı dənizdə qondarma sorğu-suallı, yalan mühakiməli, hiyləgər niyyətli məhkəmədə sanki "heykəl

kimi dayandı lal“. Prosesin sonunda ağına-qarasına baxmadan necə istəyirdilərsə, elə də qərardadı oxudular:

“Şəxsi qazanc, varlanmaq məqsədi ilə Bakı şəhərində müntəzəm şəkildə tiryək alveri ilə məşğul olduğuna və gənclərin əxlaqını, mənəviyyatını korladığına görə Seyidzadə Şəfəq Bilal qızı ciddi rejimli cəza düşərgəsində saxlanılmaqla on il müddətinə azadlıqdan məhrum edilsin.

Hökm qətidi, heç bir xahiş və şikayət qəbul edilmir“.

Məhkəmə zalından çıxarılan Şəfəq birbaşa ciddi rejimli cəza islah düşərgəsinə göndərildi.

* * *

Şəfəqin sənədləri də, özü də cəza düşərgəsinin rəhbərliyinə təqdim olundu. Bununla da zavallı qadın yeni, lakin arzuolunmaz, girdablı bir həyata atıldı. Yazılmış və yazılmamış qanunların, qadağaların, etirazların çulğalaşdığı üfunətli bir aləm. Ömrü boyu düşünmədiyi, ağlına gətirə bilmədiyi bu həyat indi onu öz qoynuna aldı. Həbsxana işçiləri müvafiq qeydlərini götürdülər. Dustaqxana həyatı, gün rejimi, oradakı vəziyyət, özünü aparma qaydaları ilə Şəfəqi tanış elədilər. Sonra onu dustaqlar yatan baraka apardılar. Onun üçün də çarpayı ayırdılar. Dustaqxananın geniş həyəti bütünlüklə hündür daş hasara alınmışdı. Hasaradək üç zolaq salınmışdı. Zolaqlar tikanlı elektrik məftilləri ilə bir-birindən ayrılırdı. Hələ bu azmış kimi daş hasarın üstündən yüksək gərginlikli elektrik xətləri keçirdi. Həyətin dörd tərəfində gözətçi məntəqəsi vardı. Gün ərzində məntəqənin gözətçiləri növbələrini dəyişirdilər. Nə gözətçilərin, nə də dustaqxananın digər işçilərinin rəisin xüsusi göstərişi olmadan dustaqlara yaxınlaşmaq, onlarla söhbət eləmək səlahiyyətləri vardı. Dustaqxanada on səkkiz yaşından yetmiş yaşınadək dustaq qadınlar vardı. Onlar ciddi rejimdə saxlanırdılar. Hər gün səhər eyni vaxtda yataqdan qalxır, səhər, günorta, axşam naharlarını yeməkxanada





birlikdə eləyir, birlikdə işləyir, axşamlar da eyni vaxtda xidmətçilər tərəfindən işıqlar söndürülürdü. Hamı yatmalı idi.

İlk gün idi. Şəfəq baraka gətirildi. Orada bir neçə qadın əyləşmişdi. Hər kəs öz işində idi. Dustaqxananın yeni sakinini görcək onlar böyük maraq və həvəslə ona baxdılar. Şəfəq keçib özünə ayrılan çarpayının qırağındaca əyləşdi. Gözucu yatacağı baraka baxdı. Orada nə az, nə də çox üç cərgə düzülmüş otuz üç çarpayı saydı. Divarların, tavanın rəngi çirk-pasdan seçilmirdi. Pəncərələrə çöldən dəmir barmaqcıqlar vurulmuşdu. Döşəmənin rəngi ala-qırmızı görünürdü. Rütubətdən, havasızlıqdan, üfunətdən adamın burnu göynəyirdi. Bir anlığa əziz balası Hikmət, xeyirxahları: rəfiqəsi Süsən, onun ömür-gün yoldaşı Şəfi, Əsəd kişi, Qumru qarı, Mətanət, Cavad, yataqxanada yaşadığı qızlar, müstəntiq Vahabov gəlib durdu gözləri önündə. — Nə yaxşı həyatda beləleri də varmış, — dedi. Bədxahları barədə fikirləşmək belə istəmədi. Biixtiyar beynindən belə bir fikir də keçdi: düşdüyüm bu qaranlıq mühitdə keçəcək ömrümün xoşbəxt, səadətli anları olmayacaq. On il əzablı, zillətli, məşəqqətli günlərimi sayacam. Yəqin ki, burda da xeyirxahlarım, bədxahlarım olacaq. Neyləməli? Qaradan tünd rəng varmı? Bilmirəm... Təkcə onu bilirəm ki, həyata gəlməyimdənsə, gəlməməyim yaxşı imiş. O qədər doğulub, sonra da ölənlər olub ki! Heç sayı bilinmir. Bəs mən niyə ölmədim? Ona görə ki, dünyanın dağlar ağırlıqda yükünü kürəyimdə daşıyım? Axı hara?! Axı niyə?! Neyləmişəm?! Nə günah sahibiyəm, atılmışam zindana! Allah bilir, kimlər gəlib taleyimlə oynayacaq, məni əsəbiləşdirəcək bu zindanda?! Deyəsən, mən də zülmə, işgəncəyə dözənəm. Eh... Şəfəq! Şəfəq! Həyat nə qədər şirinmiş?!. Ömür nə qədər əzizmiş?! Belə olmasaydı, bu mənasız, sırtıq həyata, əzablı, iztirablı, məşəqqətli ömrə vida eləməyə gücüm, qüvvəm çatardı. Heyf! Çox heyf, cəsarətsizliyimdən, acizliyimdən, qorxaqlığımdan yaşadığım ömür kimə gərəkdi?! Bədnam damğası vuruldu mənə! Kimi

inandıra bilərəm ki, mən günahsızam?! Heç də abırsız deyiləm?! Məni böhtana salıblar. Mənim qürurumu sındırıblar. Mənəviyyatıma təcavüz eləyibər. Ləyaqətimi, şərəfimi tapdalayıblar. Ömrümə qəsd eləyiblər. Lakin namusum özümdədi. Vicdanım təmizdi. Eh, Şəfəq! Şəfəq! Danış özün-özünlə! Bu qaranlıq mühitdə yarat özün üçün xəyali cənnətləri. Ya da röyada gördüyün o dəhşətli, vahiməli cəhənnəm atəşini!..

Düşüncələr aləminə qapanan Şəfəq ətrafında heç kəsi, heç nəyi görmürdü və əslində görmək də istəmirdi. Onun aləmində hər şey sönük, hər şey qaranlıq içərisində idi. Şəfəq handan-hana özünə gəldi. Başını qaldıranda ucaboylu, dolu bədənli, qısa saçlı bir qadının ona tərəf gəldiyini gördü. Qadının qırx yaşı olardı. Uzun, codlaşmış sifəti, yumru çənəsi, böyük ağzı, yekə burnu vardı. Bu, qadından çox qəssaba oxşayırdı. Yeriyərkən addımlarını böyük atır, çiyinlərini qaldırıb qollarını yana açırdı. Şəfəq əvvəl ona fikir vermək istəmədi. Bunu qadın da aydın başa düşdü. O, gəlib Şəfəqin qarşısında dayandı və üstən aşağı onu süzdü, rişxəndlə, ələ salırmış kimi gülümsündü.

— Adın nədi?

— Şəfəq.

— Bilməlisən ki, mənim adım Sarıcadı. Buranın bir sahibi var. O da mənəm. Burdakı on beş illik fəaliyyətimə görə Şeflik rütbəsi qazanmışam. İndi baxıram ki, yaxşı sir-sifətin var. Gözlərin də pis deyil. Özün də burdakılardan cavansan. Güman eləyirəm ki, səndən yaxşı kəniz olar.

— Nə?

— Canına azar. Yaxşı qulaq as. İlk gündən yerini bilməlisən. Əlimin suyunu da sənə göstərməliyəm. Yoxsa, qudurarsan.

Sarıca qəflətən: — Həyasız, fahişə, — deyə qışqırdı. Şəfəq diksinib oturduğu yerdən dik atıldı. Sarıca: — Birinci mənim yanıma niyə gəlmədin? — deyib Şəfəqin saçlarından tutub qəflətən arxaya çəkdi və onun üzünə tüpürdü. Şəfəqə elə gəldi ki, başı geri qanrılarkən boyun-boğaz damarları qırıldı. O: — Ana, öldüm, — deyib qışqırdı. Sarıca onun üzünə, başına bir neçə yumruq zərbəsi endirdi. Şəfəqin üz-gözü, sinəsi ağız-burnundan axan al-qana boyandı. Sarıca Şəfəqi buraxıb aralıda əyləşən qadınlara üzünü tutaraq hökmlə: — Naznazı, — dedi. Kimsə dərhal qadının yanına qaçdı:

— Bəli, eşidirəm, Şef.

— Apar bunu, üst-başının qanını yuyub təmizləsin; sonra da başa sal ki, bilsin Sarıca kimdi, onun bundan sonra vəzifəsi nə olacaq.

— Oldu! Baş üstə.

Naznazı Şəfəqin qoluna girdi. Onu barakın aşağı tərəfindəki su başına gətirdi. Kranı açıb Şəfəqə: — Yaxşı-yaxşı yuyun, — dedi. Şəfəq hönkürtü ilə ağlamağa başladı. Naznazı dərhal:

— Ağlamağı qurtar. Buranın öz yazılmamış qanunları var. Əgər Şefin əmrinə tabe olmasan, gecələrin birində özün-özünə qəsd eləmiş kimi meyidin burdan çıxacaq. Özün bil, ya Şefin dediklərini sözsüz qəbul elə, ya da hər gün bir neçə dəfə səni döydürəcək, şil-küt elətdirəcək.

Şəfəq təəccüblə Naznazının üzünə baxdı. O, başı ilə dediklərini təsdiqlədi.

Əlacsız qalan Şəfəq soruşdu:

— Axı, mən neyləməliyəm?

— Sən onun qarşısında müntəzir dayanmalısan. Onu başının tacı kimi qəbul eləməlisən.

— Başa düşmürəm.

— Onu özü başa salar. Oğurluq, satqınlıq, yalançılıq, xəyanət, qeybət, paxıllıq burda ölümlə nəticələnir. Sarıca işləmir. Onun bütün işlərini biz görürük. Bir müddət hər axşam onun ayaqlarını yumalısan. Paltarlarını yuyub ütüləməlisən. Yatağını qaydaya salmalısan. Özü məsləhət biləndə onu masaj eləməlisən. Bir sözlə Şefin qulluğunda durmalısan. Azadlıqda aşiqin

varsa belə, Sarıcadan iznsiz onunla da görüşə getməməlisən... İndi gedib böyük lütfkarlıqla Şefin qarşısında təzim elə, üzr istə.

— Sən deyənləri eləməsəm necə?

Bunu eşidən Naznazı gözlənilmədən Şəfəqin üzünə var gücü ilə bir şillə vurdu. Şəfəq büdrədi. Naznazı onun qolundan tutdu. Sonra da dedi:

— İndi başa düşdün. Əgər başa düşmədinsə, barakın bütün sakinlərinin bax beləcə əllərinin suyunu dadmalısan. Bunu "tiryək oyunu" ilə məşğul olanda bilməliydin. Hələ universiteti oxumanı demirəm.

Şəfəq üz-gözünün yaşını silə-silə düşündü ki, mənim barəmdə bu məlumatları Naznazı hardan bilir? Elə bu vaxt əlavə elədi:

— Dabbaqda gönünə də bələdik. Sən gəlməzdən Şef barəndə məlumat alıb. Unutma ki, həbsxanadakı xidmətçilər də Sarıcadan çəkinirlər, qorxurlar. Bu barakda ən təcrübəli sakin Şefdi, onun sağ və solunda əyləşən vəziridi, vəkilidi. Başdakı çarpayı Şefindi, məsləhətçilərinindi. Yaşın azdı. Hələ ən azı on il burda yaşamalısan. Şefin əksinə çıxsan, səni məhv eləyər. Gözlərini, bədənini, digər üzvlərini itirə bilərsən.

Türmədə işin ciddiliyini duyan Şəfəq başını buladı. Heç bir söz demədən su kranından ayrıldı. Naznazı qabaqda, Şəfəq də onun ardınca Şefin yanına gəldilər. Şef haçandan-haçana başını qaldırıb onun üzünə baxdı. Şəfəqi ağlamaq tutdu. O, ağlaya-ağlaya anlaşılmaz sözlər işlətdi. Nə demək istədiyini heç kəs başa düşmədi. Sarıca Naznazının üzünə baxdı. Sonra amiranə, zabitəli bir səslə soruşdu:

— Nə demək istəyir?

Naznazı çəkinə-çəkinə özündən quraşdırdı:

— Əvvəlcə, səni tanımayıb. Kimliyini bilməyib. Peşimançılıq hissi keçirir. Bunun üçün səndən üzr istəyir.

Şef böyür-başındakıların üzünə baxaraq soruşdu:

— Nə deyirsiz?





Sağ tərəfində əyləşən:

— İmkan verək.

Solunda əyləşən:

— Mən də elə düşünürəm.

— Bağışlayıram. Keçsin əyləşsin.

Naznazı ilə Şəfəq keçib yanaşı əyləşdilər.

Şef üzünü Şəfəqə tutaraq:

— Ayağa qalx, kimsən, bura nə üçün, necə düşmüsən? — deyə soruşdu.

Şəfəq çəkinə-çəkinə, qorxa-qorxa ayağa qalxdı. Vaxtsız valideynlərini itirməsi, bir zaman babasının himayəsində yaşaması, Gəncə həyatı, ailə qurması, doğma balasından ayrılması, Bakıya gəlişi, yataqxana həyatı, işləyə-işləyə ali təhsil alması, Butanın onu "tiryək oyununa" qatması və müstəntiq Vahabovun, müstəntiq Şeydayevin məsələyə münasibəti, məhkəmənin ədalətsiz qərarı ilə bağlı suala doğru-dürüst cavab verdikcə həyəcanlanır, ağlamsınırdı. Keçirdiyi vəziyyəti iti nəzərlərlə dərindən müşahidə eləyən və dediklərini nöqtəbənöqtə, kəlmə və kəlmə izləyən, içində hələm-hələm insana yazığı gəlməyən, əməllərindən heyfslənməyən Sarıcanın Şəfəqə yazığı gəldi. Oturub maraqla Şəfəqi dinləyənlərin bircə-bircə üzünə baxdı. Hamı ciddi-cəhdlə çalışırdı ki, Şəfəqə olan yaxşılı-pisli münasibətini Sarıcadan gizlətsin. Şef çox ayıq, qəddar, verdiyi hökmdən dönməyən, qərarının əksinə getməyən adam idi. Öz hərəkətlərinə hədd, danışıqlarına sərhəd qoymazdı. Tez əsəbiləşərdi. Barakdakı bütün şeylərə hamı onun gözləri ilə baxmağa çalışardı. Ancaq həqiqət, qətiyyətli söz, onun başlıca xüsusiyyətlərindən idi. Şəfəqin duruşu, danışığı, hadisələrə münasibəti Sarıcanın xoşuna gəldiyindən o, astadan dedi:

— Əyləş. Naznazının dediklərinə əməl elə.

Şəfəq heç bir söz deməyib əyləşdi. Bununla da Şəfəqlə əlaqədar söz-söhbətə son qoyuldu.

* * *

Üç aya yaxın idi ki, türmə həyatını, onun ab-havasını, yazılmış və yazılmamış qanunlarını, dustaqların xarakterini, hərəkətlərini dərindən izləyir, özünü də türmə oyunlarının iştirakçısına çevirirdi. Ona ən çox əzab-əziyyət verən, ürək ağrısı gətirən Sarıca, onun qeyri-insani hərəkətləri, hadisələrə münasibəti, zəif, imkansız dustaqlara olan əzazilliyi idi. Şəfəqin aləmində Sarıca qadından çox canavara bənzəyirdi. O, dustaqları adam yerinə qoymurdu. Onları qoyun adlandırırdı. Qəribə o idi ki, bir nəfər də olsun nəinki ona qarşı çıxmırdı, əksinə, təhqirlərini təbii şəkildə qəbul eləyirdilər. Sanki belə də olmalıydı. Sarıca nə vaxt gözlərini qıyıb astadan boğazını arıtlasaydı, dərhal kiminsə cəzalandırılacağına heç kəsdə şübhə yeri qalmırdı. Belə vəziyyətdə qadınlardan bir çoxu: — Ay Allah, — deyə içini çəkərdi. Özünü üzdə o yerə qoymasa da, Sarıca bu sözdən, iç çəkmələrdən ləzzət alır, bu ləzzət də kiməsə çox baha başa gəlirdi. Şəfəqə elə gəlirdi ki, Sarıcanı başları üzərinə qaldıran, ona meydan açdıran, qol-qadan verən elə zəif, gücsüz, qüvvətsiz dustaqların özləri idilər. Şəfəq Sarıca ilə bağlı bir suala cavab axtarırdı: bu dustaqlar sözü bir yerə qoyub, qüvvələrini birləşdirib Sarıcaya qarşı niyə çevrilmirlər, nə üçün onun dərsini verməyə cəsarət eləmirlər? Şəfəq özü də məmnuniyyətlə belə bir ittifaqa qoşulmağa hazır idi. Ancaq bircə iş vardı ki, bu fikrini açıb söyləməyə etibarlı bir adam tanımırdı. Düşünmədən səhvə yol versəydi, Sarıca əleyhinə bircə kəlmə söz desəydi...

Heç yaddan çıxası deyil. Adi günlərdən biri idi. Sarıcanın çarpayısı bir qədər səliqəsiz görünürdü. Onun ürəyincə yığılmamışdı. Bu Sarıcanı əsəbiləşdirdi. Dustaqlar arasında qorxu, təlaş, vahimə yarandı. Bunu hiss eləyən Sarıca özünə yenicə xidmətçi seçdiyi Sonanı yanına çağırdı və soruşdu:





— Çarpayı niyə belə səliqəsizdi?

Sona qorxa-qorxa, əsə-əsə cavab verdi:

— Necə yəni? Başa düşmürəm. Bacardığım belədi.

— Küçük, necə yəni bacardığım belədi? Qudurmusan deyəsən?

— Xeyr, mən qudurmamışam. Xoşun gəlmir, özün elə.

— Necə? Yaxın gəl görüm.

Sona yaxınlaşmışdı ki, Sarıca onun qarnına güclü bir yumruq vurdu. Sona: — Öldüm, ana, — deyə qışqırıb üzü üstə döşəməyə yıxıldı. Onu döşəmədən qaldırmağa və Sarıcaya: — Niyə Sonanı elə vurdun? — deməyə heç kəs cəsarət eləmədi. Əksinə, hamı elə bil ağzına su alıb durmuşdu. Sona döşəmədə qarnını qucaqlayıb qıvrılır, göz yaşları içərisində: — Qarnım deşildi, — deyə inildəyirdi. Haçandan-haçana Sarıca: — İtin cəsədini götürün burdan, — dedi, dərhal qadınlar bir-birini gözləmədən irəli qaçdılar, hərəsi Sonanın bir tərəfindən tutub yatdığı çarpayısına qoydular. Sonra da Sarıcanın hökmü ilə çarpayıdan uzaqlaşdılar. Aradan iki saata qədər vaxt keçmişdi ki, dustaqlar öz aralarında qorxa-qorxa, çəkinə-çəkinə Sonanın öldüyünü dedilər. Çox çəkmədən vəzir-vəkil tərəfindən dustaqlara belə bir məlumat verildi: "Sona çarpayısının üstündən yıxılıb ölüb". Sonanın ölümü ilə milçək, ya kəsəyən ölümü arasında heç bir fərq olmadı. Türmə rəhbərliyi də, nəzarətçilər də, elə dustaqlar da zavallı Sonanın ölümünə saya parçadan adi bir don tikdilər. Həkimlər də onun ölümünə eləcə akt yazıb imza atdılar.

* * *

Neçə vaxt idi ki, həbsxana ömrünü yaşayan Şəfəq bu qaranlıq mühitlə, qadağalar qoyulmuş şəraitə heç cürə alışa bilmirdi. O da başqaları kimi tikiş sexində işləyir, gündəlik, həftəlik planlarını ödəməyə çalışırdı. Sarıcanın Şəfəqə olan xoş münasibəti

başqalarına da sirayət eləmişdi. Heç kim üzə bir söz deməsə də, bəziləri Şefi ona qısqanır, içərilərində paxıllıq hissləri doğurdu. Bəzən də Şəfəqə "Şefin əziz xələfi", — deyə müraciət eləyirdilər. Ömrü boyu yalan danışmayan Şəfəq kimsənin sözünü danışmağı, kimsəyə pislik eləməyi də ağlına gətirmirdi. İnsafən, ilk gün nəzərə alınmazsa, o, Şefdən nəinki fiziki cəza, heç töhmət də, məzəmmət də almamışdı. O, özünü necə aparmaq lazım olduğunu yaxşı başa düşürdü. Bilirdi ki, Sarıcanın kəşfiyyatı güclüdü, müşahidələri itidi, yaddaşı möhkəmdi, faktları, hadisələri tutuşdurub özü üçün fayda verəcək zəruri nəticələrə gəlmək qabiliyyəti heç kəslə müqayisə olunmaz. Məhkəmə-hüquq qanunlarını yaxşı da bilir. O, bir adamla düşünüşməsin, düşünüşdüsə, onun əlindən qaçıb qurtarmaq olduqca müşkül məsələdi. Dustaqlar qəribə vəziyyət almışdılar. Sarıcanın münasibəti xoş olan adamlara onların da münasibəti yaxşı idi. Yaxud əksinə, Sarıcanın kimdən zəhləsi getsəydi, heç kim tərəfə baxmazdı, quru bir salam da verməzdi. Dustaqların bu sədəqəsini Sarıca da dərhal dərk eləyirdi və yüksək dəyərləndirirdi. Hardansa Şəfəqdə belə bir fikir oyandı: "Sarıcada qadınlıq əlaməti yoxdu. Bu tipdə qadın ola bilməz. Qəddarlıq, rəhmsizlik, əsəbini qanla əritmək, hədsiz kobudluq, dediyi yerdən kəsmək, hökm qadın təbiətinə xas deyil. Qadın olsaydı, bir dəfə ailə, övlad, yaxın adamlar barədə canıyananlıqla danışdığını eşidərdim. Tutduğu əməldən peşmançılıq hissi keçirdiyini duyardım. Göz yaşları axıtdığını görərdim. Əksinə, onun aləmində mərhəmətli, yumşaq qəlbli adamlar acizlərdi. Özünün dediyi kimi həmişə də onlara qəzəb və nifrətlə baxardı". Şəfəq bu xəstə qadınla özlüyündə heç cürə barışa bilmirdi. Qəlbində ona qarşı güclü üsyankarlıq, intiqam hissi doğsa da, var qüvvəsi ilə onu büruzə verməməyə çalışırdı. Heç vaxt unudulan deyil Şəfəqin gözləri ilə gördükləri.

İsti avqust günlərindən biri idi. Göydən od-alov ələyən günəş asfaltı elə qızdırmışdı ki, barakdan bayıra çıxmaq olmurdu. Ya-





yın isti nəfəsi tüğyan eləyirdi. Belə bir şəraitdə baraka xəbər yayıldı ki, Sumqayıtdan Qənirənin əri görüşə gəlib. Qadının otuz yaşı olmazdı. Boylu-buxunlu gözəl qadın idi. O, ticarətdə işləmişdi.

Mağazada işlədiyi üçüncü gün alıcıdan yarım dollar artıq aldığına və özünü bu bəladan qurtarmaq üçün müstəntiqlə məhkəmənin tələb elədiyi on min dolları rüşvət verə bilmədiyinə görə altı il müddətinə həbs olunmuşdu. Sarıca Qənirəni kişi hissiyatı ilə qısqanırdı. Ona görə də o, Qənirəyə ərinin görüşünə getməyə icazə verməmişdi. Zavallı qadın xidmətçiyə yalvarmışdı ərinə çatdırsın ki, guya ciddi xəstədi, ayağa qalxmaq üçün fiziki imkanı yoxdu. Xəbər Qənirənin əri Soltana çatanda əlacı kəsilən kişi gətirdiklərini xidmətçiyə verir və xahiş eləyir ki, onları arvadına çatdırsın.

Xidmətçi çatdırdı da. Zavallı Qənirə ərinin gətirdikləri çayı, qəndi, bişmiş yarpaq dolmalarını, nazik ağ yuxaları, qoz, fındıq, badam ləpələrini, meyvələri və təndir çörəyinin içini oyaraq arasına qoyduğu iki yüz dolları çıxarıb stolun üstünə qoydu. — Şef, buyurun süfrəyə — deyə dilləndi. Sarıca gətirilənlərə gözucu baxdı, vəzir-vəkilini çağırıb bildirdi:

— Onu dustaqlar arasında bərabər bölün.

Vəzir-vəkil böyük canfəşanlıqla gətirilən şeyləri böldülər. Sonra da Sarıcanın göstərişi ilə dustaqlara payladılar. Qənirə öz payını qəzet parçasına büküb taxta şkafın aşağı gözünə qoydu. Həmin gecə Qənirə səhərə qədər yata bilməyib çarpayısında eşələndi.

Bəli, bütün dustaqlar bu əcaib hadisənin şahidi idilər. Hamı özlüyündə qeyzə gəlsə də, heç kəs özündə qüvvə tapıb Sarıcaya bu barədə bir kəlmə də söz demədi. Əslində, demək də mümkün deyildi.

Heç özü də bilmədən Şəfəq düşündü: "Nə yaxşı ki mənim arxamca belə gələnim yoxdu və olmaycaq da".

Sarıca Allahına bəndəlik eləmirdi. Demək olar ki, o, hər gün əl-qolunu işə salır, haqlı-haqsız kimisə döyür, söyür, təhqir eləyirdi. Onun bu hərəkətlərinə xidmətçilər də göz yumurdular. Sarıca türmə həyatına elə öyrənmişdi ki, burdan çıxmaq fikrində deyildi. Üstəlik dustaqların pullarını əllərindən alır, xidmətçilər vasitəsi ilə türməyə papiros, nə qədər qadağalar qoyulsa da alkoqollu içkilər gətizdirirdi. Barakda çox zaman yeyir-içir, papiros çəkirdi. Vaxt tapıb dustaqlara bədənini, musqullarını oynatdırırdı.

Adi günlərdən biri idi. Şəfəq çarpayısına uzanmışdı. Sarıca qəflətən: — Şəfəq! — deyə çağırdı. O, çarpayısından dik atıldı. Tələm-tələsik Sarıcanın yanına qaçdı. Qadın dərhal:

— İçmək istəyirəm.

Şəfəq nə deyəcəyini bilmədi. Sarıca içki olmadığından bildirdi:

— Dəmir quruşqanı götür. Bir paçka quru çayı boşalt ona. Qaynat.

Şəfəq Sarıcanın dediklərini yerinə yetirdi. Çay tam qaynayandan sonra onu gətirib Sarıcaya verdi. O, çayı qurtum-qurtum içməyə başladı. Yarım saat keçməmiş başı dumanlandı. Belə hallarda Sarıca daha qorxulu və amansız olurdu. Bəzən heç bir günahı olmayan adamı vurur, ayaqlayırdı. Dustaqlar qışqırdıqca, ağladıqca, yalvardıqca, o, ləzzət çəkirdi, nəşələnirdi.

Dustaqlardan kimisi kluba gedib televizora baxırdı, kimisi paltarlarının yırtıq-söküyünü yamayırdı, kimisi də həyət-bacada gəzişirdi. Şəfəq barakda oturub Süsənə məktub yazmalı oldu:

*"Əziz bacım Süsən, salam! Qəlbinin təmizliyinə, ürəyinin yumşaqlığına yaxşı bələdəm. Onun üçün də sənə məktub yazıram. Bil və agah ol. Məktubu sənə türmədən yazıram. Təəccüblənmə. İstərdim məni necə var, elə də qəbul eləyəsən. İnan mənə. Sənin Şəfəqin nəyəsə aldanmayıb. Dar düşüncəlilik eləməyib. Əxlaqı pozğunluğa, düşgünlüyə yuvarlanmayıb. Sadəcə olaraq, bir böhtançının, fırıldaqçının, ifritənin qurğusuna, toruna düşmüşəm. Guya tiryək alverçilərinə şərait yaratmışam. Nəticədə on il azadlıqdan məhrum edilmişəm. Əziz bacım, istək, arzu hələ adama xoşbəxt həyat gətirmir. Düşünülmüş fəaliyyət də bəzən kara gəlmirmiş. Tale. Qismət. Qəzavü-qədər. Bunlar da əsas şərtmiş. Süsən, o bir Allah bilir ki, gecə-gündüz Hikmətlə səni düşünürəm. Sizi anıram. Ancaq nə fayda. Səndən çox-çox uzaqlardayam. Oğlum Hikmətin taleyindən də xəbərsizəm. Mən dünyaya gələli, ağlım söz kəsəli daim qaynar qar üzərində addımladım. Nəhayətsiz okeanların burulğanlarına atıldım. Zamanın üzüqara gərdişində qolumdan tutanlar da oldu, mənə ağır zərbələr endirərək vurub yıxanlar da... Hərdən düşünürəm: Danışığımda, fəaliyyətimdə səhvə yol vermişəmmi? Vermişəmsə, harda? Nə vaxt? Yox, doğrudan da qüsursuzamsa...*

*Xəcalətimdən əvvəl sənə məktub yazmaq, qanını qaraltmaq istəmədim. Sonra fikirləşdim ki, bu boyda dünyada qəlbimi açacağım, dolmuş ürəyimi boşalda biləcəyim yeganə adamsan. Neçə vaxtda başım elə qatılıb ki, nə danışdığımı, nə iş gördüyümü aydın təsəvvür eləyə bilmirəm. Gecələr yuxularım ərşə çəkilir. Gündüzlər hər şey dumana-çənə bürünmüş halda gözlərim önünə gəlir. Sonra da yavaş-yavaş qeyb olur. İndi mənə məlum olur ki, türmə də xüsusi bir cəmiyyətdi, bir dünyadı. Onun da müxtəlif əqidəli, müxtəlif niyyətli sakinləri var. Hər dəqiqəsi bir ilə bərabər türmənin dövlət qadağalarından savayı özünün daha kəsərli, daha dözülməz, daha arzuolunmaz tələbləri mövcuddu. Qəribədi, adı qadın, görkəmi qadın olan bəzi dustaqlar istəklərincə hərəkət eləməyənləri hər an aradan götürməyə qadirdilər. Onlardan elədikləri cinayətlərin səbəblərini soruşan yoxdur. Bircə yol var. Dediklərinə kor-koranə əməl eləmək. Qoluzorlular zəifləri yırtıb-dağıtmağa hazırdılar. Bununla belə, elələri də var ki, onlara yazığım gəlir. Aramızda heç bir günah işlətmədən, qanun pozmadan, arxasızlıqları, imkansızlıqları ucbatından bu qaran-*

*lıq zindana atılıblar. Onlar danışdıqca alışıb-yanır, acı göz yaşları axıdırlar. Elələri də var ki, onların vəziyyəti ilə tanış olanda az qala öz dərdi-sərimi unuduram. Allaha şükür eləməkdən, o böyük qüdrətdən möhlət diləməkdən başqa çarəm qalmır.*

*Nə isə... Əziz bacım! Səni çox yormaq istəmirəm. Zaman bizə imkan verərsə, görüşəriksə, həbsim barədə sənə təfərrüatı ilə hər şeyi danışaram. Həyatın girdabı mənə böyük dərs verdi. İnsanların iç üzünü açıb göstərdi. Məni bağışla, Süsən, "İnsan canavardan da yırtıcıdı", — deyənlər nə qədər haqlıymışlar. Təəssüf! Çox təəssüf! Eh... fikirləşəndə az qala dəli oluram... İndi səndən bircə təvəqqəm var. O, da mənim balamdı. Əgər ondan xəbər tuta bilsən, mənə məktub yaz. Məndən Şəfi qardaşa da salam söylə!*

*Hörmətlə: bacın Şəfəq."*

Şəfəq məktubu dörd yerə qatlayıb konvertə qoydu və poçtla yola saldı. İyirmi gün keçməmiş Süsəndən cavab məktubu aldı. Məktubda yazılırdı:

*"Əziz bacım Şəfəq, salam! Məktubunu aldım.Onu yana-yana, göz yaşları içərisində oxudum. Ağlına, tərbiyənə bələdəm. Səmimiyyətinə inanıram. Tiryək alveri. Məhkəmə. Türmə. Dustaq bu sözləri oxuduqca dəhşətə gəldim. Sən türməyə düşməyə layiq deyilsən, bacı. Ancaq fələk deyir: "Sən saydığını say, gör mən nə sayıram". Yadda saxla ki, türmə insanlar üçündü. Taleyindən şikayətlənmə. Qismətindən, qəzavü-qədərdən gileylənmə. İnsanlardan da umu-küsü eləmə, Şəfəq. Zaman gələr, hər şey yerinə düşər. Onda görərsən ki, insanların hamısı bir ölçüdə, bir biçidə olmadığı kimi eyni ağılda, eyni xarakterdə də deyillər, bacım. Yazdıqlarından belə qənaətə gəlirəm ki, insanlara münasibətin ciddi şəkildə dəyişib. İstərdim bildiklərini sənə xatırladım. Beş, on nadürüst, naxələf, oğru, quldur, anasının əmcəyini kəsən, rəzil, ikiüzlü yaşadığımız cəmiyyətdə hələ hamı demək deyil. Yaşadığımız dünya yaxşıların, xeyirxahların, fəzilətlilərin çiynində dayanıb. Axı, sən özün də xeyirxahsan. Paksan, təmizsən. Kimsəyə pislik eləməzsən. Dediklərinlə əməllərin arasında nəsə bir fərq duyuram, bacım. İnan mənə. Bunun üçün səni qınamıram. Sən addımbaşı pislərin, nalayiqlərin, insani hisslərini itirmişlərin əhatəsində olmusan. Yaxşılıqdan çox pislik görmüsən. Ömrün boyu əzablar qoynunda çabalamısan. Çətinliklərə qatlaşmısan. Əzab, məşəqqət verəcək iyrənc hadisənin birini özündən kənarlaşdırmamış, ikincisi, üçüncüsü ilə üzləşmisən. Bütün bunlar sənin hissinə, düşüncənə, iradənə, xarakterinə, həyata baxışına təsir eləməyə bilməzdi. Onun üçün də səni qınamıram. Ancaq sənə haqq da qazandırmıram, Şəfəq. İnsan çətinliklərdə, mübarizələrdə mətinləşir, bacı. Allah bilir ki, səndən ayrılalı bir gün də sənsiz olmamışam. Oturanda da, gəzəndə də, bəzən yatağıma uzananda da sənin barəndə düşünmüşəm. Sənsiz səninlə söhbət eləmişəm. Neçə dəfələrlə səni yuxularımda görmüşəm. Ürəyim dolub qübar eləyəndə dərdimi Şəfiyə danışmışam. İnsafən, Şəfi də sənin xatirini çox istəyir. Hətta, bir dəfə mənə dedi ki, bəlkə Hümmət oğlunu Bakıdakı uşaq evlərindən birinə təhvil verib. Bu günlərdə Bakıya gedəcək. Hikməti uşaq evlərində axtaracaq. Tapan kimi səni sevindirəcəyik, Şəfəq. Deyə bilərsən: — Hikməti axtarmaq üçün Bakıya sən niyə getmirsən? Buna haqqın da var. Ancaq mən indi ikicanlıyam. Uzaq səfərə çıxa bilmərəm. Şəfi çox yaxşı adamdı. O, mənsiz də öz işini görəcək. Narahat olma. Təki Hikməti tapaq. Onunla öz balam kimi əlaqə saxlayacam. Çalışıb səninlə görüşdürəcəm, Şəfəq.*

*Bilirəm, həyatınla, düşdüyün vəziyyətlə barışa bilmirsən. On il böyük vaxtdı. Neyləmək olar?! Gərək hadisə baş verməyəydi. Ancaq verib. Deyirlər, zaman yayından çıxan oxdu. Çıxdı geri qaytarmaq olmaz. Neyləmək olar. Bu da bir həyatdır. İndi çalış özünü qoru. İnşallah, zindandan sağ-salamat, xeyirliklə çıxacaqsan.*

*Şəfidən də sənə çoxlu salam var. Əl-ayağım qurtarandan son-*

*ra görüşərik.*

*Hörmətlə: bacın Süsən."*

Şəfəq məktubu oxuyub için-için ağladı. Sonra dörd qatlayıb əziz xatirə kimi qoynunda gizlətdi.

* * *

Son günlər Süsən özündə deyildi. Vicdanı mənəviyyatını sıxdığından heç cürə özündə rahatlıq tapa bilmirdi. Şəfəq dara düşmüşdü. İndi ona kömək lazım idi. Ancaq necə? Süsən çox düşündü, çox götür-qoy elədi. Axırda belə qərara gəldi ki, əri Şəfi ilə danışsın. Şəfəqə kömək eləməyin mümkünlüyü barədə ərinin də fikrini öyrənsin. Bu niyyətlə də o, axşam ərinin evə gələn vaxtı gözlədi. Süsən hər şeyin yerini bilən, tədbirli bir qadın idi. Həlli mümkün olmayan məsələləri də özünün səmimiyyəti, mehribanlığı ilə yoluna qoymağı bacarırdı. Bununla belə, o, ərinə təzyiq göstərməyi də xoşlamırdı. Əmin idi ki, əri onun sözlərinə etiraz eləməyəcək. Axşam Şəfi evə bir qədər gec gəldi. Şam naharından sonra Süsən qalxıb televizorun düyməsini basdı. Təsadüfən televizorda uşaqların bəzən valideynlər tərəfindən atılması, azyaşlıların dayanacaqlarda maşınların qarşısına qaçmaları, çörək pulu üçün maşın şüşələrini silmələri, mənəviyyatlarını korlayan işlərə cəlb olunmaları, kimsəsizlik, qanmazlıq ucbatından törətdikləri cinayətlər, islah-əmək düşərgələrinə atılmaları, zavallıların qəlb göynədən, ürək yandıran danışıqları, bəzi ata, ana həsrətlilərin acı göz yaşı tökmələri konkret faktlarla göstərilir, ailə, məktəb və ictimaiyyətin üzərinə düşən vəzifələr, onların əlbir işi şərh olunurdu.

Kimsəsiz uşaqların düşdükləri acınacaqlı vəziyyət Şəfini də, Süsəni də sarsıtdı. Şəfi dərindən köksünü ötürdü: — Yamanca məni qəhərləndirdi, kövrəltdi bu uşaqların sözləri, — deyə bildirdi. Yaranmış vəziyyət Süsənə imkan verdi ki, gündüz düşündükləri barədə əri ilə söhbət aparsın.





Süsən astadan dedi:

— Mən də çox qəhərləndim, Şəfi. Özümüz uşaq olanda, deyirəm, belə şeylər heç ağlımıza da gəlmirdi. Yazıq uşaqlar, nə günah sahibidilər? Doğuldular, dünyaya göz açdılar, ona görə ki, zülm, əzab, iztirab, cəhalət içərisində yaşasınlar. Soyuqda, şaxtada, qarda, yağışda, palçıq, toz-torpaq içərisində ömür sürüb xəstələnsinlər? Onlar min cür əzab, məşəqqət içərisində yaşasalar da, böyüyəcəklər. Xeyirxahlarını, bədxahlarını tanıyacaqlar. Onda görəm namərd, nadan, cahil valideynləri uşaqlarının üzünə baxa biləcəklərmi? Onlar necə deyəcəklər ki, Oğlum", ya qızım, sənin anan, ya atan mənəm? Belə övladlar valideynlərini bağışlayarlarmı? İnanmıram. Qəribədi. Adamlar var ki, neçə ildi ailə qurublar. Allahdan uşaq diləyirlər. Uşaq üçün dil-dodaqları təpiyir. Uşaqları olmur ki, olmur. Elələri də var ki, bircə dəfə uşağının üzünü görmək üçün canını da qurban verər. Zavallı Şəfəq özü zindan küncündə çürüyür. Balasını bir an belə yaddan çıxarmır.

— Mənim də Şəfəqə yazığım gəlir. Qaragünlü elə bil fəlakət, əzab üçün doğulub.

— Şəfəq məni çox istəyir. Lap çox. Təəssüflənirəm ki, mən Şəfəqə kömək eləyə bilmədim. Gərək mən onu burdan buraxmayaydım. Tubu onun ömrünü puç elədi. Onu bədbəxt elədi. Həyatına zəhər qatdı.

Süsən dərindən köks ötürdü. Sonra sözünə davam elədi:

— Şəfəqin türməyə düşməsi mənim üstümə bir insan kimi böyük yük qoydu.

Şəfi təəccüblə:

— Necə yəni?

— Bilirsən ki, Şəfəq mənim rəfiqəmdi. Onunla bir otaqda yaşamışam. Çörək kəsmişəm. Əlimizə düşən loxmamızı bir-birimizdən əsirgəməmişik. Yatıram, demək olar ki, hər gün onu yu-

xuda görürəm. Özü də pərişan. Gözləri yaşlı. Gündüzlər oturubdururam. Yadımdan çıxmır ki, çıxmır Şəfəq.

— Axı niyə?

— Bilmirəm... O, kimsəsizdi, imkansızdı, Şəfi. Belələrinə kömək Allaha da xoş gedər, ləyaqəti, vicdanı olan insanlara da. Atalar deyib: "Yaxşılığı elə, at dəryaya, balıq bilməsə də, xaliq bilər".

— Axı, ona necə kömək eləmək olar? Doğrusu bilmirəm. Mən də bu işdə acizəm. Haqlıdı, ya haqsızdı, məhkəmə neçə vaxtdı hökm çıxarıb onu atıb içəri. Onu türmədən qurtarmaq, bilirsən, nə qədər xərc tələb eləyir?

— Yox, Şəfi! Onun həbsdən azad olunması çətin məsələdi. Ona bizim gücümüz çatmaz. Mən fikirləşirəm ki, bəlkə onun oğlunu axtarıb tapaq. Oğlunun barəsində Şəfəqə xəbər verək. Yazıqdı. Balasının yerini bilsə, sevinəcək.

— Axı, Hümmət uşağı da özü ilə aparıb.

— İnanmıram. Dilsiz-ağızsız körpəni, Hümmət heç hara apara bilməz. Dilsiz uşağın yüz cür dərdi var. O, yüz cür qayğı tələb eləyir. Hümmət evdə uşağın yanında olmalıydı, yoxsa, işləməliydi?! Bu, mümkün deyil. Hümmət uşağı heç bir qohumunun himayəsinə verməyib. Şəfəqin dediyinə görə, canıyanan adamları da yoxdu.

— Bəlkə uşağı satıb?

— Ee... Sən Allah elə demə. Dəhşətə gəlirəm. Bircə şey ağlıma gəlir. Hikmət Gəncədəki uşaq evində deyilsə, deməli, Bakıdakı uşaq evlərindən birində olacaq. Mən buna inanıram.

Şəfi başqa söz deməyib çiyinlərini çəkdi. Süsən sözünə davam elədi:

— Bilirəm, sənə əziyyət verirəm. Gəl, bir də Hümmətgilin qonşuları ilə əlaqə saxlayaq. Uşaq evlərini axtaraq. Şübhədən çıxaq.

— Nə deyirəm? Etiraz eləmirəm. Sabah Hümmətgilin qonşuları ilə, evlərini alan adamla bir də görüşərəm. Sən demiş, bəlkə xəbəri olan var?





— Çox sağ ol, Şəfi. Mən belə də düşünürdüm. —Yaxşılıq yerdə qalmır, — deyiblər. Nə vaxtsa, Allah bizə elədiyimiz yaxşılığın əvəzini verər.

* * *

Yataqdan erkən qalxan Şəfi səhər naharından sonra vaxtı ilə Hümmətgil yaşayan ünvana gəldi. Əvvəl ev sakinləri ilə, sonra da qonşularla görüşdü. Ata Hümmət, oğul Hikmət barədə soruşdu. Hamı bircə fikir söyləyə bildi: "Hümmət gedəndən geri qayıtmayıb və özü barədə də elə bir məlumat verməyib". Yeni bir məlumat ala bilməyən Şəfi uşaq evinə getdi. Vəziyyəti uşaq evinin müdirinə açıqladı. Şəfini sonadək dinləyən müdir təəssüf hissi ilə ikinci dəfə bildirdi ki, onun rəhbərlik elədiyi uşaq evinə Hikmət Hümmət oğlu Seyidzadə adlı uşaq təhvil verilməyib və hazırda da yoxdu. Əlacı kəsilən Şəfi bir də günorta evə qayıtdı. Arvadının sual dolu baxışlarına cavab olaraq: — Xəbər-ətər yoxdu, görək Bakıdakı uşaq evlərində olacaqmı? — dedi.

Süsən bildirdi:

— Əcəb işdi. Yazıq Şəfəq oyuna düşüb, dözümlü adamdı. Mən olsaydım, çoxdan ürəyim çatlardı.

— Hümmət namərdlik elədi. Vəziyyəti öyrənmədən, dəqiqləşdirmədən hərəkət eləyib. Bu, kişilikdən deyil. Günahsız qadını belə cəzalandırmazlar. Görünür, elədikləri cinayəti Allah-Təala Tubuya bağışlamadı. Haqqı-sayını verdi.

— Şəfi, qadan alım, Bakıya nə vaxt gedəcəksən?

— Bazar günü axşam. Necə bəyəm?

— Bu dəfə uşaq evlərinə gedib Hikmətlə maraqlana biləcəksənmi?

— Hə, lap birinci günü.
— Görən Bakıda uşaq evləri çoxdumu?
— Narahat olma, Süsən. Uşaq evinin işçiləri Bakıda nə qədər uşaq evi olduğunu yəqin ki, bilər.
— Mən də elə düşünürəm. Hikməti tapsaq, bilirsən, Şəfəq necə də sevinəcək?!
— Bilirəm, Süsən, bilirəm. Narahat olma. Ola bilməz ki, Hümmət bu şəhərdən bir dəfəlik getsin. Atasının, anasının qəbri üstə ziyarətə gəlməsin. Uşaq tapılacaq. Geci-tezi var.
— Ay Şəfi, Allah sənin canını sağ eləsin. Mənim, balamın üstündən əskik olmayasan. Sən danışanda elə bilirəm ki, hər şey mənim istəyimcə olacaq.
— Allahı olan naümid qalmaz. Yaxşıdı ki, nikbinsən, inamlısan, ümidlisən.
— Hikmətin yeddi yaşı var. Yəqin ki, məktəbə gedir. Hər şeyi qanan vaxtıdı. Düşünürsənmi: uşaq evindədisə, yoldaşlarının yanına yaxın adamları, atası, ya anası gələndə, halları xəbər alınanda Hikmət yazıq nə vəziyyətə düşür? Hümmət oğlu ilə əlaqə saxlamırsa...
— Nə bilmək olar. Bəlkə vəziyyət heç də biz düşünən kimi deyil.
— Sənə and verirəm Allaha. Məni qorxutma. Şəfəq bilsə...

* * *

Bütün gecəni Gəncədən Bakıya maşın sürən Şəfi avtobus vağzalına çatanda hava yavaş-yavaş açılırdı. Sərnişinlər avtobusdan düşüb sürücülərlə xudahafizləşdilər. Şəfi maşını bir kənara çəkib saxladı. O, maşından düşərkən şəriki Nadirə dedi:
— Qardaşım, mənim şəhərdə vacib işim var. Sən maşını ustalara göstər. Yağlat. Yanacaq götür. Sonra dincəl. Mən də gedənə bir saat qalmış gələcəm.





— Hara gedirsən? Bütün gecəni maşın sürmüsən. Yorğunsan, yuxusuzsan. Dözməzsən.
— Narahat olma. Yəqin ki, bu axşam maşını sən idarə eləməli olacaqsan.
Nadir şərikinin sözünü çevirmədi. Şəfi: — Hələlik, — deyib ondan ayrıldı. Taksi maşınına əyləşdi: — Uşaq evinə, — dedi. Sürücü: — Hansına? — deyə cavab verdi. Şəfi tutuldu. Hansı uşaq evinə gedəcəyini bilmədiyindən əvvəl sürücünün üzünə baxdı, sonra soruşdu:
— Bakıda uşaq evi çoxdu?
— Ala, mən nə bilim. Hara gedəcəyini bilmirsən?
— Dedim, uşaq evinə.
— Mən də dedim hansına?
— Hansı olur-olsun.
Əlacsız qalan sürücü maşını işə saldı. Yarım saatdan sonra daş hasarla əhatəyə alınmış geniş həyətli binanın qarşısında oldular. Sürücü: — Uşaq evi buradı, düşə bilərsiz, — dedi. Şəfi sürücünün pulunu verib müdirin otağına getdi.
Əminə xanım keçib arxası yumşaq oturacaqda əyləşmişdi. O, Şəfiyə yer göstərdi və: — Eşidirəm, — dedi.
— Xanım, mən Gəncədən gəlmişəm. Təqribən beş-altı il bundan əvvəl iki yaşlı Hikmət adlı uşağı atası saxlaya bilmədiyindən uşaq evinə verib. Mən o uşağın dayısıyam.
Şəfi kostyumunun döş cibindən pasportunu çıxarıb stolun üstünə qoyaraq sözünə davam elədi.
— Bu da mənim sənədlərim. Xahiş eləyirəm uşağın tapılmasında mənə kömək eləyəsiz.
Əminə Şəfinin üzünə diqqətlə baxdı:
— Uşaqlar barədə başqalarına məlumat verməyə bizim ixtiyarımız yoxdu.
Şəfi məcbur olub Şəfəqin taleyi haqqında danışdı. Şəfi olub-keçənləri bildirdikcə Əminənin bənizi gah qaralır, gah da ağarır-

dı. Söhbətin sonuna yaxın Əminənin gözləri bulud kimi doldu. Bir damcı yaş gözlərindən yanaqlarına süzüldü. Şəfinin pasportunu götürüb açdı. Özü üçün lazım olan qeydləri götürdü və Şəfəqin halına yanaraq təəssüf hissi ilə dedi:

— Uşağın adı Hikmət Hümmət oğlu Seyidzadə. Eləmi?

— Bəli, bəli!

— Uşaq burdadı.

— Onu görə bilərəmmi?

— Bu şərtlə ki, ona heç bir söz deməyəsiz. O, indi ikinci sinifdə oxuyur. Tənəffüsə az qalır. Əminə sellektorun düyməsini basdı. Mikrofondan cavan qadın səsi eşidildi:

— Bəli.

— Bura gəl.

Yarım dəqiqə keçməmiş qapı açıldı. Katibə içəri keçdi:

— Bəli, Əminə xanım. Eşidirəm.

— Minarə, qızım ikinci sinifdə dərs varmı?

— Bəli, hələ bir saat da var. İndi tənəffüsə çıxacaqlar.

— Gülruh müəlliməyə de ki, Seyidzadəni mənim yanıma göndərsin.

Araya sakitlik çökdü. Özündə daxili sıxıntı duyan Şəfi soruşdu:

— Burda uşaq çoxdu?

— Xeyli var, iki yüzə qədər.

— Hamısı da atılmışlar, eləmi?

— Çoxu kimsəsizlərdi. Eləsi var atası yoxdu. Anası gətirib qoyub bura. Eləsi var, anası yoxdu, atası gətirib atıb. Elələri də var ki, nə atasının olduğu bilinir, nə də anasının. Yenə bunlara dözmək olar. Elə alçaq valideynlər var, ikisi də yaşayır. Ancaq uşaqlarını bura verib gedəndilər. Sanki elə-belə də olmalıydı. Gül kimi uşaqlar ata, ana nəvazişindən məhrum olublar. Adam bu uşaqlara baxanda qəlbi qan ağlayır. Bunlar da böyüyəcəklər. Bir tərəfə çıxacaqlar. Ancaq məni ağrıdan odu ki, bu zavallıların ömrü boyu mənəviyyatlarında boşluq olacaq. Bax, onu biz in-





sanlar doldura bilməyəcəyik...

Söhbətin bu yerində qapı döyüldü. Əminə xanım: — Buyurun, — deyə dilləndi. Yumrusifət, qaraqaş, qaragöz, ağ üzünə zərif qızartı çökmüş altı-yeddi yaşlı bir oğlan uşağı içəri girdi. Əminə xanım dərhal:

— Oğlum, necəsən? — dedi.

— Çox sağ olun.

Şəfi altdan-altdan, saymazyana Hikmətə diqqətlə baxır, anası ilə oğlu arasında oxşar cizgilər görürdü.

— Dərslər ağırlıq törətmir ki?

— Xeyr.

Əminə şkafa yaxınlaşıb şəkilli, nazik cildli şeir kitabını götürüb Hikmətə verdi: — Bu kitabı oxuyarsan. Ən çox xoşuna gələnlərdən birini seçib əzbərlə. Ayın axırında tədbirdə səndən soruşacam. Müəllimə də tapşıracam, səninlə yaxşı məşğul olsun.

Hikmət getdi. Şəfi yerindəcə donub qalmışdı. Haçandan-haçana o, üzünü Əminə xanıma tutaraq:

— Uşaq da anasına bu qədər oxşaya bilərmiş, Xudaya? İnanın, gözləri də, alnı da, üzünün cizgiləri də, çənəsi də, baxışları da eynən anasıdı Hikmətin. Əminə xanım, siz böyük, xeyirxah işlə məşğulsuz. Bu zavallı, bədbəxt qadın biləndə ki, balası sağdı, sevincinin həddi-hüdudu olacaqmı? Allah, nə qədər pakmış, ülvi imiş Şəfəq? Belə olmasaydı, yeganə övladının uşaq evində olmasını yuxusunda necə görə bilərdi? Bəyəm, bu möcüzə deyilmi? Bu, böyük qüdrətin misilsiz hikmətidi. Aman Allah, Şəfəqə bu sevinci necə çatdıracam?! Qəflətən o, bunu eşitsə, dözə biləcəkmi? Ürəyi çatlamayacaq ki? Bu sirri Hikmətə necə çatdıra bilərik?

— Çatdırsaq, Hikmət ağıllı uşaqdı, soruşacaq hanı anam? Bəs onda mən nə deyim?

— Bu gün Gəncəyə qayıdacam. Bir neçə gündən sonra ömür-

gün yoldaşımla gələrəm. Bəlkə onu Hikmətə bir müddət xalası kimi təqdim eləyək. Sonrasına baxarıq.

— Gedin, mən Hikmətin xatirini çox istəyirəm. Elə tərbiyəçilər də, müəllimləri də. Onda siz də çalışın, ona hədiyyə ilə gəlin. Könlünü alın. Sizə isinişsin. Yavaş-yavaş anasının olmasını da qulağına oxuyarıq.

Şəfi Əminə xanımla xudahafizləşib kabinetdən çıxdı.

* * *

Süsən ərini qapı ağzındaca qarşıladı: — Hikməti tapa bilmədim, — sözünü eşidəcəyi qorxusunun təsiri altında o, ərinin gözlərinin içinə baxdı. Birdən Şəfinin çöhrəsində təbəssüm, işıq, gözlərində sevinc duydu. Qadın bir qədər cəsarətləndi və səbirsizliklə soruşdu:

— Hə, necədi vəziyyət? Tapa bildinmi?

— Tələsmə qoy ayaqqabılarımı çıxarıb otağa keçim.

— Yox! Məni nigarançılıq içərisində qoyma. Hə, yox?

— Əşi, hə!

Süsənin sanki bədəni titrədi. O, özünü saxlaya bilmədi, ərini qucaqlayıb üzündən öpdü. Arvadının hərəkətlərindən, sevincindən məmnun olan Şəfi otağa keçdi. Paltarlarını dəyişdi. Sonra bildirdi:

— Qadası, yamanca susuzlamışam. Çayın varmı?

— Niyə yoxdu? Əgər şad xəbər gətirməsəydin...

— Çay verməyəcəkdin?

— Əlbəttə. Bəs nə bilmişdin?

Süsən tələm-tələsik mətbəxə keçib təzəcə dəmlənmiş çaydan bir stəkan süzüb stola gətirdi.

Şəfi çay içə-içə Hikmətlə görüşünü olduğu kimi danışdı. Süsən dərhal dedi:

— Şəfi, sənə qurban olum. Bəlkə bu dəfə məni də özünlə





Bakıya aparasan. Hikməti mən də görüm.

— Əminə xanımla mən də elə danışdım... Məsləhət bildi ki, uşaq üçün biz bir hədiyyə də alaq. Onda bu günlərdə dükan-bazara çıxaq. Görək nə ala bilərik?

— Nə alacağıq?! Bir dəst paltar. Mer-meyvə, konfet, tort.

— Dediklərini Bakıdan da ala bilərik.

Bu söhbətdən sonra Süsən dəftər, qələm götürüb, Şəfəqə növbəti məktub yazdı:

*"Salam, Şəfəq! Əzizim, bu gün sevincimin həddi-hüdudu yoxdu. İstəyirəm sevincimi səninlə yarı bölüm. Şəfi qardaşın axır ki, Hikməti tapa bildi. Hikmət Bakıdakı uşaq evindədi. İkinci sinifdə oxuyur. Şəfinin dediyinə görə, gözəl-göyçək, yaşına görə boylu-buxunlu oğlandı. Dərslərini yaxşı oxuyur. Şəfi ilə belə qərara gəldik ki, bu yaxınlarda birlikdə Bakıya gedək. Hikmətlə tanış olaq. Vəziyyətini əməllicə-başlıca öyrənək. Narahat olma, bacım. Hikmətlə müntəzəm əlaqə saxlayacağıq. Ona öz balamız kimi baxacağıq.*

*Hə, az qala unudacaqdım. Mənim ikinci qız övladım da dünyaya göz açdı. Adını da Şəfi ilə məsləhətləşib Şəfəq qoyduq.*

*Hələlik: Bacın Süsən".*

O, elə həmin gün məktubu yola saldı.

Bir həftə keçməmiş Şəfəq məktubu aldı. Oxudu! Oxudu! Gözlərinə inanmadı. Əvvəl ona elə gəldi ki, gördükləri yuxudu. Çox keçməyəcək oyanacaq. Oxuduqları, düşündükləri birdənbirə yox olacaq. O, bir də məktubu oxudu. Qəflətən hönkürtü ilə ağlamağa başladı. Rəfiqələri başına toplaşdı. Hərə bir tərəfdən ona təskinlik, ürək-dirək verməyə başladı. Şəfəq məktubu ovucunun içərisində gizlətdi, sonra gedib əl-üzünü yudu. Sərin su üz-gözünə dəydikcə Şəfəqin əsəb gərginliyi qətrə-qətrə götürülürdü. Bir azdan o, özündə sakitlik duydu. Gedib rəfiqəsinə təşəkkür məktubu yazdı:

*"Əziz bacım Süsən. Məktubunu aldım. Oxudum. Əvvəl oxu-*

*duqlarıma inanmadım. Sonra da sevincimdən ağladım. Əvvəla, ikinci övladının dünyaya gəlişi münasibəti ilə səni də, Şəfi qardaşı da təbrik eləyirəm. Balamız xoşbəxt olsun. Mənim əvəzimdən adaşımın üzündən öp. Sağlıq olsun tale imkan versə, xalası da... Qaldı Hikmətə. Bacım, oğlumun tapılması, ondan hal-əhval tutmağın mənə düşdüyüm qaranlıq zindanı unutdurdu. Sənə də, Şəfi qardaşa da necə təşəkkür eləyim, bilmirəm. İndi məni öldürsələr də, çarmıxa çəksələr də sanaram ki, dünyanın xoşbəxtiyəm. Balamın salamatlığı, sağlamlığı mənə canımdan da əzizdi.*

*Səndən bir xahişim var bacı. Əgər bir də Hikmətlə görüşə bilsəniz, çalışın onunla şəkil çəkdirib mənə də göndərin. Mənim üçün bu, çox əziz, şirin xatirə olar?*

*Yalvarıram sənə. Mənim təşəkkürümü Şəfi qardaşa da çatdır. O, çox böyük əziyyət çəkib. Bacım, siz həqiqətən də xoşbəxt olmağa layiq, vicdanlı adamlarsız. Ailənizdəki səmimiyyət, mehribanlıq, ləyaqət və şərəf hissi məni çox sevindirir. Əziz bacım Süsən, qarşında baş əyirəm. Heç vaxt mənə olan diqqətinizin əvəzini çıxa bilməyəcəm. Onu da bilirəm ki, elədiklərinizin hamısı insanlıq naminədi. Yüksək əxlaqınız sizi belə bir mərhəmət göstərməyə vadar eləyib.*

*Hörmətlə: Bacın Şəfəq".*

Məktubu həmin gün yola salan Şəfəq sevincindən qanad açıb uçmaq istəyirdi.

Süsənlə Şəfi Hikmətin görüşünə getmək üçün tədarük gördülər. Ona hədiyyə aldılar. Ay yarımdan sonra Hikmətlə görüşmək üçün avtobusa əyləşib Bakıya, uşaq evinə getdilər... Əminə Şəfini görcək tanıdı. Əyləşdiyi stuldan qalxıb Şəfi ilə, Süsənlə əl verib görüşdü. Şəfi yoldaşını göstərərək bildirdi:

— Mənim həyat yoldaşımdı. Süsən xanım.

Əminə:





— Tanışlıq üçün çox şadam.

Süsən:

— Elə biz də. Ancaq indiyədək sizinlə əlaqə saxlaya bilmədiyimiz üçün bizi bağışlayın. Günahkarıq.

Əminə:

— Qətiyyən, xanım. Keçən dəfə əriniz mənə hər şeyi təfərrüatı ilə danışıb. Şəfəq xanımın taleyinə mən də ürəkdən acıyıram. Axı mən də qadınam, mən də anayam. Sizə təşəkkürümü bildirirəm ki, böyük insanlıq nümayiş elətdirərək Hikməti axtarmısız. Bununla da siz bir uşağın, ananın sevincinə səbəb olmusuz. Onların içindəki boşluğu doldurmağa çalışırsız. Siz də, sizin övladlarınız da xoşbəxt olmağa layiqsiz. Kaş, hamı sizin kimi olaydı, Süsən xanım Hikmətə xalalığı siz eləyəcəksiz məncə.

— Bəli!

— Çox yaxşı. Mən Hikmətlə sizin barədə danışmışam. Uşaq xalası olduğunu eşitcək əvvəl tutuldu. Sonra sevindi. Hikmət çox ağıllı, həssas uşaqdı.

— Xalası ona qurban.

Sir-sifəti həyəcandan ağaran Süsənin acizanə danışığı çox sadə və təbii alındı. Bundan Şəfi də, Əminə də xoşhal oldular.

— Əminə bacı, atası uşağının yanına heç gəlibmi?

— Yox! Uşağı bizə təhvil verib gedəndi. Mən də məəttələm, o, niyə belə eləyir.

Özünü saxlaya bilməyən Şəfi:

— Bu nadanlıqdı. Alçaqlıqdı. Zavallı Şəfəqin bir gün də olsun, uşaqsız günü yoxdu. Namərd atanınsa heç yadına da düşmür. Sabah da kişiləşib deyəcək: "Mənim oğlum var".

Süsən:

— Əsəbiləşmə.

Əminə:

— Eh, pir olmuşlar. Ondan da betər atalar var.

Şəfi:

— Əminə xanım, biz bir az uşaqlar üçün konfet, mer-meyvə gətirmişik. Hikmət üçün də paltar almışıq.

— Hardadı?

— Katibənin otağında.

— Eybi yoxdu. İndi uşağı bura gətirdərik. Tanış olarsız. Söhbət eləyərsiz. Sonra da hədiyyələri təqdim eləyərsiz. Ancaq sizə onu da deyim ki, yemək şeylərini gərək onun sinif yoldaşları arasında böləsiz. Gətirdiklərinizi saxlamaq üçün Hikmətin yeri də yoxdu.

Süsən:

— Məsləhət sizindir, Əminə xanım. Bu kimsəsizlərin sahibi göydə Allah, yerdə sizsiz.

Şəfi:

— Onda mən zənbilləri bu otağa gətirə bilərəmmi?

— Hə...

Şəfi katibənin otağından zənbilləri götürüb yenidən Əminə xanımın yanına qayıtdı. Süsən aldıqları kostyumu, köynəkləri, ayaqqabıları zənbildən çıxardıb divarın dibində sıra ilə düzülən stulların üstünə düzdü. Əminə sellektorun düyməsini basıb katibəni çağırdı. Minarə otağa girdi:

— Eşidirəm, — dedi.

— Gülruh müəlliməyə çatdır, Hikmət Seyidzadəni də götürüb mənim otağıma gəlsin.

— Oldu.

Süsən:

— Əminə xanım, Hikmətə icazə verərsizmi onu şəhərə çıxaraq. Onunla şəkil çəkdirək. Anasına göndərək. Anası yazıqdı.

— Mənim ona ixtiyarım yoxdu. Çünki uşaq əmanətdi. Gərək, bu barədə məndən inciməyəsiz. Bir tin aşağıda foto-atelye var. Mən Gülruh xanımdan xahiş eləyərəm, o da sizinlə gedər. Şəkil çəkdirərsiz. Onlar qayıdar.

— Bəlkə Şəfi getsin, şəkilçəkən gətirsin. Elə burda şəkil





çəkdirək. Həm onun şagird dostları ilə, həm də sizinlə.

— Etiraz eləmirəm.

Süsən Şəfinin üzünə baxdı. O, dərhal:

— Qoyun Hikmət gəlsin, onunla tanış olaq, sonra.

Elə bu vaxt qapı açıldı. Katibə içəri girdi.

— Gülruh müəllimə ilə Hikmət gəliblər.

— De, gəlsinlər.

Gülruh müəllimə ilə Hikmət otağa daxil oldular. Hikmət əllərini yanına salıb ayaqlarını cütləyərək qapı ağzında dayandı. Əminə:

— Gülruh xanım, siz keçin əyləşin.

O, sonra üzünü Hikmətə tutaraq:

— Yaxın gəl, oğlum.

Hikmət Əminə xanıma yaxınlaşdı. O, Hikmətin başına sığal çəkdi. Sonra əlini onun çiyninə qoydu və astadan dedi:

— Yadındamı, mən sənə demişdim. Xalan səni axtarır.

— Hanı, gəlir ki?

— Gəlib.

— Hanı?

Süsən ayağa qalxdı. Onu qucaqlayıb üzündən öpdü və ağlaya-ağlaya dedi:

— Xalan sənə qurban. Burda olduğunu bilmirdim. Səndən xəbərsiz qalmışdım.

Hikmət bir qədər geri çəkildi. Təəccüblə Süsənin üzünə baxdı. Sir-sifəti ağardı. Gözlərində ani olaraq anlaşılmaz hisslər əks olundu. Çox çəkmədi ki, bu hisslər də ötüb keçdi. Şəfi də bu dəm özünü Hikmətə yetirdi. O, da uşağın üzündən öpdü:

— Böyük oğlansan. Xalan səni çox istəyir, oğlum.

— Siz hardan gəlmisiz?

— Gəncədən.

Bu mənzərəni müşahidə eləyən Əminə xanımın da, Gülruh müəllimənin də gözləri doldu. Nə deyəcəklərini bilmədilər. Sü-

sənə elə gəldi ki, Hikmət ona inanmır. O bir də Hikməti qucaqladı:

— Oğlum, mən sənin xalanam Süsən xalan. Bu kişi də sənin dayındı.

Hikmət üzünü Əminəyə tutaraq həyəcan içərisində:

— Bunlar nə danışırlar, Əminə müəllimə?

— Onlar düz deyirlər, oğlum. Süsən xalan da, Şəfi dayın da çoxdandı sənin yanına gəlmək istəyiblər. Ancaq yerini bilməyiblər. Görüş onlarla. Onlar səni çox istəyirlər.

— Mən heç hara getməyəcəm.

Əminə gülümsündü:

— Yox! Mən də səni heç kəsə verməyəcəm. Məktəbi qurtarıncayadək burda — mənim yanımda qalacaqsan.

— Məktəbi qurtarandan sonra da burda qalacam.

Süsən:

— Oğlum, görürəm, burda sizə yaxşı baxırlar. Sağ olsun Əminə müəllimə də, Gülruh müəllimə də.

Nə qədər söz-söhbət aparsalar da, Hikmət Süsənlə Şəfini soyuqqanlıqla qarşıladı. Onlara heç cürə isinişə, uyuşa bilmirdi. Dediklərinə o qədər də əhəmiyyət vermirdi. O, haçandan-haçana dedi:

— Əminə müəllimə, bəs deyirdin sənin də atan var. Heç o da gəlmir ki?

— Var, oğlum, var.

Süsən özünü saxlaya bilməyib:

— Hələ anan da var.

— Yalandı. Mənim anam yoxdu. Yəqin ölüb.

Hikmətin sualı Süsəni yalan danışmağa məcbur elədi. O, bildirdi:

— Yox, oğlum! Anan neçə vaxtdı xəstədi. Biz sənə nə üçün yalan deməliyik?

Hikmət çiyinlərini çəkdi. Süsən növbəti yalanı deməli oldu:





— Anan sənin üçün paltar alıb göndərib. Sağalan kimi özü də sənin yanına gələcək.

— Mən paltar istəmirəm. Anam olsaydı, özü gələrdi mənim yanıma.

Əminə:

— Yox, oğlum, sən düz fikirləşmirsən. Xəstə anan bura necə gələ bilər ki? Xəstə adamları heç biz də bura qoymuruq.

— Atam ki, gələ bilərdi. Tahirin, Zakirin, İbişin atası, Fikrətin, Səriyyənin, Qəmbərin anası ki gəlir.

— Sənin də xalan, dayın gəlib də. Nə tələsmisən, onlar da gələcəklər.

— Gələcəklər?

— Əlbəttə.

Əminə üzünü Süsənə tutaraq sözünə əlavə elədi:

— Anası göndərən paltarlarını gətir. Oğlum geyinsin. Görüm, necə yaraşır?

Süsən paltarları gətirdi və bildirdi:

— Hikmət paltarlarını geyinsin. Şəfi dayısı da gedib fotoqraf gətirsin. Hamımız birlikdə şəkil çəkdirək.

Əminə:

— Mən də razı.

Hikmətin çöhrəsində zərif bir təbəssüm yarandı. Sonra soyunub geyinmək üçün utandığını bildirdi. Əminə dərhal:

— Aydındı. Ağıllıdı mənim balam. Keç, oğlum, katibənin otağında dəyiş gəl.

Hikmətlə Gülruh müəllimə paltarları götürüb katibə olan otağa keçdilər. Uşaq paltarlarını dəyişdikdən sonra yenidən Əminə xanımın otağına qayıtdılar. Paltarlar Hikmətin əyninə sanki ölçülüb-biçilmişdi. Hamı bir ağızdan: — Çox mübarək! Çox mübarək! — dedi. Şəfi fotoqraf gətirmək üçün otaqdan çıxdı. Əminə xanım üzünü Süsənə tutaraq soruşdu:

— Bayaq necə dediz? Zənbil gətirmisiz?

Əminənin nə demək istədiyini dərhal Süsən duydu:

— Hə, konfet, mer-meyvə.

— Çox sağ olun. Bizim də təşəkkürümüzü Hikmətin anasına bildirin.

— Yaxşı.

— İndi siz Hikmətlə söhbət eləyin, biz də gəlirik, — deyib Əminə xanımla Gülruh müəllimə otaqdan çıxdılar.

Süsən Hikmətin saçlarına sığal çəkə-çəkə ovsunlayıcı suallar verir, onun rəğbətini qazanmağa çalışırdı.

Bir saat keçməmiş Şəfi fotoqrafla otağa daxil oldu. Bir az söhbət eləmişdilər ki, Əminə xanımla Gülruh müəllimə də otağa qayıtdılar. Əvvəl Hikmətlə Süsən, sonra Hikmət Süsən və Şəfi ilə, daha sonra hamı birlikdə şəkil çəkdirdilər. Süsən:

— Daha bəs eləyər, elə deyilmi Hikmət.

— Bəsdi.

— Xalanı unutmayacaqsan ki?

— Yox. De, anam da gəlsin. Mən anamı görmək istəyirəm.

— Tələsmə, oğlum. Xəstəxanadan çıxan kimi gələcək.

Şəfi üzünü fotoqrafa tutaraq:

— Şəkilləri sizdən nə vaxt götürə bilərəm?

— İki saatdan sonra.

— Oldu.

Şəfi fotoqrafın pulunu verdi. O, xudahafizləşib getdi.

Əminə xanım Şəfigil gətirən meyvə və konfetləri uşaqlara paylamaq üçün yeməkxanaya aparılmasını katibəyə tapşırdı... Şəfi ilə Süsən uşaq evindən heyrət içərisində ayrıldılar.

* * *

Tiryək alverinə qurşanması ilə əlaqədar Şəfəqin on il müddətinə azadlıqdan məhrum olunması xəbərini yataqxanada yaşayan qızlardan eşidəndə Mətanətin başına sanki dünya dolandı. Bütün





bədəni titrədi. O, beli sınmış ilan kimi yataqxanadan çıxıb evə necə gedəcəyini bilmədi. İstədi rayona zəng çalsın. Vəziyyəti atasına, anasına çatdırsın. Bu məqsədlə o, telefonun dəstəyini götürdü. Nə fikirləşdisə, dəstəyi qaytarıb öz yerinə qoydu. Bir anlığa Şəfəqin keçən ömrünü xatırladı: onun uşaqlıq illəri. Doğma babası evində ögey nənəsinin cansız-çəlimsiz qızcığaza elədiyi sitəmlər. Başına açdığı məkrli oyunlar, məşəqqətli hərəkətlər. Şəfəqin uşaq sadəlövhlüyü. Gəncə, Bakı həyatı. Böhtanlar, iftiralar. Qaranlıq zindan. Yaşadığı cəmiyyətdən umu-küsülər. Həyata, nadanlara, cahillərə nifrəti. Öz-özünə qapanmaları. Pərişan baxışları. Qarşılaşdığı hadisələrin təsirindən doğan acı gözyaşları. Mətanət için-için, yana-yana düşündü, düşündü. Əlindən nə gələcəyini heç təsəvvürünə də gətirə bilmədi. Əlacsız qalıb divanda oturaraq Cavadın gəlişini gözləməyə məcbur oldu. Əsəbləri gərildiyindən divandaca mürgüləməyə başladı. Aradan xeyli keçmiş Cavad qapını açıb içəri girdi. Mətanət ərinin gəldiyini hiss eləyib ayağa qalxaraq dəhlizə çıxdı. Cavad arvadından: — Sənə nə olub, bir təhər görünürsən? — deyə soruşdu. Mətanət: — Hə, — deyə doluxsundu. Bu, Cavadın narahatlığını artırdığından o, ayaqqabılarını çıxarıb çətələklərini geyindi və arvadının ardınca mətbəxə keçdi:

— Nə baş verdiyini mənə demədin?

— Şəfəq həbs olunub.

— Nə?!

— Hə... Özü də on il müddətinə.

— Sən dəli olmusan, nədi?

— Zavallının həbsini eşidəndən dəli kimiyəm.

— Hardan eşitdin?

— Yataqxanaya getmişdim. Qızlar dedi.

— Həbsinə səbəb nədi?

— Guya tiryək alveri ilə məşğul olub.

— Kimlə?

— Komendantla.

— İnanmıram. Şəfəq elə iş görməz.

— Hamı elə deyir. Yataqxanadakı qızlar da Butaya qarğıyırlar. Yaxşı, ona neyləmək olar?

— Çox çətin.

Cavadı fikir götürdü. Əlacsız qalıb istirahət otağına keçib divanda əyləşdi.

Mətanət dedi: — Bu xəbəri eşitcək matum-mutum quruyub. Bayaqdan fikirləşirəm, bəlkə rayona zəng çalım, vəziyyəti atama, anama çatdırım.

— Neyləyəcəklər ki? Məlumat verməklə ancaq qanlarını qaraldacaqsan.

— Onsuz da gec-tez biləcəklər.

Cavad daha bir söz demədi. Mətanət Şəfəqin hansı həbsxanada ola biləcəyi barədə düşündü. Heç nə ağlına gətirə bilmədi. Sonra öz-özünə fikirləşdi. — Ola bilməz ki, Şəfəq harda, hansı həbsxanada olması haqqında bizə məlumat verməsin. O, sonra üzünü ərinə tutaraq: Bakıda neçə qadın türməsi var — deyə soruşdu. Cavad əvvəl çiyinlərini çəkdi, sonra Necə bəyəm — deyə suala sualla cavab verdi. Mətanət:

— Şəfəqlə görüşə gedərdik.

Cavad bir qədər düşündü, sonra nagüman halda bildirdi:

— Əgər o, doğrudan da, on il müddətinə azadlıqdan məhrum edilibsə, mənə elə gəlir ki, hardasa, bizim də bu işdə günahımız var. Biz Şəfəqə yataqxana, iş yeri tapmaqla öz işimizi bitmiş hesab eləmişik. Cavan, gözəl qadındı, Şəfəq. Onun nəyə ehtiyacı ola biləcəyini əvvəlcədən düşünməmişik. Əlaqə saxladığı adamları öyrənməmişik. Ehtirasın törədicisi ehtiyacdı. Ehtiyac adamı hər cür yola getməyə sövq eləyir. Bəlkə, doğrudan da Şəfəq törətdiyi cinayətin nəticəsini əvvəlcədən görə bilməyib? Ya Butanın, ya da onun kimilərin şirin dillərinə aldanıb? Fikirləşdikcə, mən də başımı itirirəm...





Mətanət əlləri qoynunda ərinin dediklərini axıradək dinlədi. Sonra deyilənlərə qəti etirazını bildirdi:

—Yox, Cavad. Şəfəq varına qane olandı. Onun əxlaqına söz ola bilməz. İnanmıram ki, o, alverə, pul qazanmaq məqsədi güdənlərə qoşula. Onun vicdanı təmizdi. Şəfəqdə pula hərislik heç vaxt ola bilməz. Mən qadınam. Qadın olduğum üçün də onu yaxşı tanıyıram. Zavallını həqiqətən də girdaba yuvarlayıblar. On il azadlıqdan məhrum olma az deyil. Yazıq Şəfəqin uşağından, bir də oxuduğu universitetdən savayı dərd-səri yox idi. Nə vaxtı görüşsəydik, oturub-durub oğlundan danışardı. Universiteti oxuyub qurtarmasından söhbət açardı. Bəzək-düzək, pul qazanmaq, harasa getmək, kiminləsə görüşmək, kimsənin qeybətini, paxıllığını eləmək barədə onun dilindən bircə kəlmə də eşitməmişəm. Adətən, biz qadınlar haylı-küylü oluruq, eşitdiyimizi gözlərimizlə gördüyümüz kimi qələmə veririk. Bəzən birinin üstünə ikisini qoymaqdan da çəkinmirik. Şəfəq tamamilə başqa adamdı. Sadaladığım əlamətlərin əsla biri də onda yoxdu. Türmə həyatı onu məhv eləməyəcək ki? O, ağır türmə həyatına dözə biləcəkmi? Cavad, əzizim, bir fikirləş, görək, onu hardan tapa bilərik. Yadındamı? Atam da, anam da onu bizə etibar eləmişdilər. Heyf! Çox heyf!

Cavad arvadının suallarını cavabsız qoydu. Ayağa qalxıb telefonun dəstəyini götürdü. Nömrələri yığdı. Mikrofondan qırıq-qırıq qudok eşidildi. O, nömrələri bir də yığdı. Əlaqə yaratmaq mümkün olmadığını görüb dəstəyi yerinə qoydu. Qayıdıb öz yerində əyləşdi. Xeyli fikrə getdi. Sonra bildirdi:

— Tələsmə. Sabah bir şey fikirləşərik. Şəfəqin düşdüyü vəziyyətə mən də acıyıram, dəhşətə gəlirəm. Niyə belə olmalıydı?

* * *

Adi günlərdən biri idi. Səhər tezdən qapının zəngi çalındı.

Yataqdan yenicə qalxan Cavad qapıya yaxınlaşdı. Qapı ağzında orta yaşlı bir nəfərin dayandığını gördü. Kişi salam verib: — Zakirəm, — deyə əvvəl özünü təqdim elədi, sonra soruşdu:

— Cavad qardaşgilin evidi?

— Bəli.

— Yoldaşının da adı Mətanət xanım?

— Bəli.

Qonaq əlini pencəyinin döş cibinə saldı. Dörd qatlanmış kağızı çıxardıb Cavada tərəf uzatdı. Bunu sizə qadınlar türməsindən göndəriblər. Cavad məktubun kimdən gəldiyini dərhal başa düşdü. Zakiri otağa dəvət elədi. O: — Tələsirəm, — deyə etirazını bildirdi. Cavad qapı ağzındaca ondan soruşmalı oldu:

— Məktubu sənə kim verdi?

— Türmədə yatan Zərrin adlı qohumum. Görüşə getmişdim. O, mənə dedi ki, Şəfəq adlı günahsız bir qadını həbs eləyiblər. Qohumları onun həbsindən xəbərsizdi. Xahiş elədi ki, onun məktubunu sizə çatdırım. Şəfəq barədə mənim başqa məlumatım yoxdu.

Zakir xudahafizləşib pilləkənləri tələm-tələsik endi. Cavad qapını örtüb otağa qayıtdı. Vanna otağında yuyunub-daranan Mətanət ərindən: — Nədi ki — deyə soruşdu. Cavad:

— Şəfəqdən məktub gətirib.

— Nə danışırsan?

— Hə...

— Oxu görək.

Cavad dörd qatlanmış kağızı açdı. Yazılanları oxumağa başladı. Salamdan sonra kağızda Şəfəqin həbsi, həbsinin səbəbləri, özünün vasitəçi kimi tiryək alverindəki iştirakı, türmədə düşdüyü vəziyyət və hadisələrə münasibəti, oğlundan xəbərsizliyi açıqlanırdı. Türmənin ünvanı göstərilirdi. Cavad yazılanları oxuyan kimi Mətanət kağızı ondan aldı. Gəlib divanda əyləşdi. Yazılanları səssizcə oxumağa başladı. Oxuduqca gözlərində yaş





alacalanır, gözləri hərfləri qarışıq salırdı. Yaş yanaqlarından üzüaşağı süzülürdü. Cavad arvadının həyəcanlandığını görcək dedi:

— Gərək belə olmayaydı. İndi neyləyə bilərik? Hazırlaşaq, bəlkə növbəti şənbə günü Şəfəqlə görüşə gedək. Orda hər şeyi dəqiqliyi ilə öyrənərik.

— Görüş ala bilərikmi?

— Çalışarıq.

* * *

İki gün əvvəldən Mətanət dükan-bazara getdi. Türmədə lazım ola biləcək şeyləri aldı. Şənbə günü ər-arvad səhər naharından sonra qadınlar türməsinə gəldilər. Cavad da, Mətanət də bu yerləri ilk dəfə gördüklərindən kimlərə müraciət eləyəcəklərini bilmirdilər. Onlar qapıçıya yanaşdılar. Qapıçı ucaboy, iyirmi beş yaşı olar-olmaz bir serjant idi. Cavad qabağa yeriyib salam verdi və gəlişinin məqsədini açıqladı. Serjant dərhal: — Bu mənlik deyil, onu rəislə danışmaq gərəkdi, — dedi və üzünü çevirib gedirdi ki, Cavad növbəti sualını verdi:

— Rəisinizi necə görə bilərəm?

— Barakları gəzir. Gözləyin, indi gələr.

— Ona necə müraciət eləmək olar?

— Polkovnik Qulamov.

— Çox sağ olun.

Cavadla Mətanət əllərində gətirdikləri zənbillə qapı ağzındaca gözləməli oldular. Qadınlı-kişili türmə işçiləri barsız-bəhərsiz arılar tək dəhlizdə qaynaşır, danışa-gülə o tərəf-bu tərəfə gedib gəlirdilər. Hərəkətlərindən onlar işgörənə də oxşamırdılar. Ancaq özlərini elə göstərirdilər ki, guya hər biri böyük vəzifə sahibidi. Yeyib-yatmış, üz-gözlərindən yağ daman bu adamları müşahidə elədikcə, hərəkətlərinə göz qoyduqca Mətanət daxilən əsəbiləşirdi. O, özünü saxlaya bilməyib ərinə tərəf əyildi,

pıçıltılı səslə qulağına dedi:

— Bu qədər adamın burda nə işi ola bilər ki?

— Mən hardan bilim.

— Yəqin türmədəkilər işləyir, bunlar yeyirlər.

— Elə olsaydı, nə vardı ki?

Elə bu dəm yaşlı bir kişi Cavada yanaşdı:

— Oğlum, mən Qazaxdan gəlmişəm. Dustaqla görüşün izinini kimdən almaq lazımdı?

— Əmi, biz də bilmirik. Qapıçı dedi ki, rəisləri polkovnik Qulamovu gözləyək.

— Paho, iş rəisə qaldısa, canımız burda çıxar.

— Tələsmə, əmican, görək axırı necə olur?

Günortaya yaxın qapı ağzında dustaqlarla görüşə gələnlərin böyük bir növbəsi düzüldü. Onların içərisində uşaqdan tutmuş ağsaqqala, ağbirçəyə qədər adam vardı. Təkcə rəis gözə görünmürdü. Ac-susuz növbəyə dayananlar cana doymuşdular. Yorğunluğa dözmədiklərindən hərəsi bir tərəfə çəkildi. Kimisi daş, kərpic üstündə, kimisi çömlək oturdu, kimisi ağrıdığından ayağının birini götürüb o birini qoyurdu. Bayaqdan bəri ayaq üstə dayanan Mətanət başqaları eşitməsin deyə bildirdi:

— Belə getsə, görüş ala bilməyəcəyik. Vaxtımız hədər gedəcək. Bəlkə bu arada gəzənlərdən birinə yanaşasan, himləşibcimləşəsən. Ciblərinə bir şey basasan. Onlar şərait yaradalar, görüşək.

— Tələsmə.

— Mən deyənə bax. Onların bircə azarı var, o da bu növbəyə dayananlardan nə isə qoparmaq.

— Əşi, bu camaatın vəziyyətini görmürsən? Hamısı zəhmət adamıdı. Başlarından bir torba darı töksən cır-cındırlarından yerə bir dənə də düşməz.

— Ay pir olmuş, onu sən elə düşünürsən. Bunların başqa dərdi var. Yoxsa, deyərdilər: Çıxın, gedin evinizə, bu gün görüş olmayacaq. Onlarsa adamların yorulub-əldən düşmələrini gözləyirlər.





Cavad çiyinlərini çəkdi. Az keçmiş qəbul pəncərəsinin qarşısında orta yaşlı, dolu bədənli, sarışın, gülərüz bir qadın göründü. Mətanət dərhal: — Hə, yeridi, get, onunla danış, — deyə ərini dümsüklədi. Cavad dərhal qadına yaxınlaşıb salam verdi. O, başını qaldırıb diqqətlə Cavadın üzünə baxdı:

— Hə, eşidirəm, — dedi.

— Bizə kömək elə.

— Biz deyəndə kimləri nəzərdə tutursan?

O, arvadını göstərərək cavab verdi.

— Arvadımla mənə.

Qadın gülümsündü.

— Onu rəislə danışmaq lazımdı.

— Əvəzimizdə siz danışın.

— Onda gözləyin.

Qadın pəncərənin açıq qapısını örtdü. Aradan xeyli keçmiş o, pəncərəni yenidən açdı. Başı ilə Cavada: — Yaxın gəl, — işarəsini verdi. O, saymazyana qapıya yaxınlaşdı. Yüz dollar, — deyə astadan pıçıldadı. Ər-arvadın cibində cəmi-cümlətanı əlli dollar vardı. Cavad geri çəkildi. O, astadan vəziyyəti açıqladı. O, dərhal pəncərəyə yaxınlaşdı:

— Xanım, cəmi əlli dollar pulumuz var.

— Yox. Mənə deyiləni ərinə çatdırdım. Nə vacibdi indi görüşəsiz. Gedin, yüz dollar düzələndə gələrsiz.

— Xanım.

— Qurtardıq. Məni biabır eləməyin. Camaat baxır, ayıbdı. Gedin, gedin.

Əlacsız qalan Mətanət geri çəkildi. Mat-məəttəl ərinin üzünə baxdı. Cavad başını buladı. Elə bu vaxt görüşə gələn, ayaqlarına duz yığıldığından çətinliklə ayaq üstə dayanan bəstəboy bir qadın Mətanətə yaxınlaşaraq soruşdu:

— Qızım, nə deyirlər? Görüş verəcəklərmi?

— Yüz dollar istəyirlər, xala.

— A bunların evi yıxılsın. Hər dəfə yüz dollar alıb görüş verirlər. Fikirləşən yoxdu ki, biz külbaşlar bu qədər pulu hardan alırıq? Balamız türmədə can verir, bizsə çöldə. Belə də yaşamaq olar?! Belə də insanlıq olar?! İndi də gözləyirlər qaş qaralmasını. Hamını bircə-bircə içəri çəkib ciblərini soyacaqlar. Kimlərin nəyi var, əllərindən alacaqlar.

Mətanət dərhal:

— Bəlkə birinin yüz dolları yoxdu.

— Yoxdu, gedib tapmalıdı.

— Axşama qalsaq, əlli dolları alıb bizə görüş verərlər?

— Yox, qızım! Onların məzənnəsi var. Məzənnəni aşağı salmırlar.

— Niyə?

— Bilirlər ki, gedib qayıdacaqsız.

Cavadla Mətanət əlacsız qalıb görüşü başqa vaxta saxladılar.

* * *

Dostlarından yüz dollar tapan Cavad arvadı ilə növbəti şənbə günü yenidən qadınlar türməsinə gəldilər. Günün dönməsini gözlədilər. Bu dəfə qəbul pəncərəsinin qənşərində qırx yaşı ancaq olan zabit forması geymiş bir kişi əyləşmişdi. Cavad pəncərəyə yaxınlaşdı. Salam verib bildirdi:

— Biz Şəfəqlə görüşə gəlmişik.

— Əcəb eləmisiz. Birinci dəfə gəlirsiz?

— Yox, keçən şənbə günü də gəlmişdik.

— Görüşdüz?

— Yox!

— Niyə?

— Yüz dollarımız olmadığı üçün.





— İndi necə?

— Gətirmişik.

— Ver!

Cavad cibindən çıxardığı yüz dolları sağına-soluna baxaraq qorxa-qorxa zabitə verdi. Zabit gülümsünərək soruşdu:

— Müəllimsən?

— Bəli, nədən bildiz?

— Dolları qorxa-qorxa verməyindən. Gözləyin. İndi çağıraram sizi.

Cavad qızardı. Ancaq heç bir söz deməyib geri çəkildi.

Mətanət dərhal:

— Nə oldu?

— Dedi gözləyin.

— Dolları aldı?

— Hə...

— Allah sənə şükür. Nə yaxşı.

Cavad gülümsünərək bildirdi:

— Gör nəyə şükür eləyirik? Dələduzun, quldurun halalca pulumuzu almasına?

— Başqa əlacımız varmı?

— Yox!

Aradan bir saat keçmişdi ki, qapıçı pəncərəyə yaxınlaşdı. O yan-bu yana baxdı. Üzünü Cavada tutaraq:

— Müəllim, siz gəlin, adamınız görüşə gəlib.

Zabit qapını açdı. Əvvəl Mətanət, sonra Cavad dəhlizə daxil oldular. Əvvəl onları yoxlama otağına gətirdilər. Zənbillərindəki şeyləri bircə-bircə çıxarıb, o tərəf-bu tərəfinə baxdılar. Qadağa qoyulmuş şey tapa bilmədiklərindən götürdüklərini təzədən zənbillərə yığdılar. Sonra da onları görüş üçün nəzərdə tutulmuş otağa apardılar. Şəfəq onları görcək oturduğu stuldan qalxdı. Mətanətlə qucaqlaşıb öpüşdülər. Hər ikisini ağlamaq tutdu. Cavad əlindəki zənbili yerə qoydu. Haçandan-haçana onlar bir-bi-

rindən ayrıldılar. Şəfəq əl verib Cavadla da görüşdü. Mətanətin həyəcan içərisində: — Bu nə olan şeydi? — deyə verdiyi suala cavab olaraq Şəfəq başına gələnləri söylədi. Sonra soruşdu:

— Əsəd əmi, Qumru xalagil necədilər? Məndən onlara salam söyləyin. Boynumda haqları çoxdu. Görünür, bu da mənim qismətimmiş. Şapərigildən nə xəbər var?

— Demək istəməzdim. Onsuz da nə vaxtsa, eşidib-biləcəkdin.

Şəfəq rəfiqəsinin üzünə baxdı. Mətanət sözünə davam elədi:

— Ema üç il bundan əvvəl Musa adlı bir oğlana qoşulub qaçdı — ərə getdi. Bir uşağı oldu. Qayınanası, əri ilə yola getmədilər. İndi bir uşaqla geri qayıdıb. Hazırda anası ilə birlikdə yaşayır. Kəbiş isə hələ evdədi...

O, səsinə bir qədər ara verdi. Sonra dedi:

— Fəriş pis oğlan deyildi.

— Necə yəni deyildi.

— Hə... Şapəri Fərişə "Jiquli" markalı maşın almışdı. O da eşitdiyimə görə yeyib-içib o tərəf-bu tərəfə sürürmüş maşını. Deyilənlərə məhəl qoymurmuş.

— Nəticəsi nə oldu?

— Nə olacaq? Anasının elədikləri yazıq oğlanın qabağına çıxdı. Oturub Məmmədrəşidin kababxanasında araqdan vur ki vurasan. Keflənib oturub maşına. Böyük sürətlə şəhərə tərəf sürüb. Körpüyə çatanda yığışdıra bilməyib maşını — uçub körpüdən Göyçay çayına.

— Nə?

— Hə...

— Sonrası necə oldu?

— Sonrası budu ki, yazıq oğlan dəyişib dünyasını.

Bu sözləri eşidən Şəfəqin gözlərindən yaş sel kimi axmağa başladı. Cavad Şəfəqə təskinlik vermək istədi. Mətanət dediklərinə peşman oldu və dedi:





— Bağışla məni, Şəfəq. Gərək deməyəydim bunları sənə, əziz bacım.

Cavad:

— Özünü ələ al, Şəfəq. Dözmək və səbr etmək lazımdır. Həyatın nəşəsi kimi çətinlikləri də var. Bu da insanlar üçündür.

Şəfəq:

— Çətinliklər hamı üçün yox, Cavad qardaş, mən və mənim kimilər üçündür. Mənim türməyə düşməyimi eşitsələr, hərə barəmdə bir şey fikirləşəcək. Kimisi məni həqiqətən də əxlaqsız, kimisi də alçaq, ləyaqətsiz, şərəfsiz bir qadın kimi dəyərləndirəcək. Özümü həmişə artıq söz-söhbətdən qorumuşam. Namusumu oğlumun namusu sanmışam. İndi kimə sübut eləyə bilərəm ki, həqiqətən də mən təmizəm, pakam. Desəm də, mənə inanarlarmı? Zaman gələcək. Düşdüyüm vəziyyəti danışsam, oğlum da mənə çətin ki...

Cavad:

— Yox, bacım. Nahaq helə düşünürsən. Məndən incimə. Sən ancaq hadisələrin pis tərəfi barədə fikirləşirsən. Bununla da özünə ağır, sarsıdıcı əzablar verirsən. Belə olmaz. Həyat davam eləyir. On il nədir ki? Bir də gözümüzü açıb görəcəyik ki, həbsdən azad olan günündü. Biz də səni qarşılamaq üçün gəlmişik.

— Eh, sizi pir olasız. Sağ olun ki, mənə təskinlik verirsiz. Təkcə oğlumdan narahatam. Hardasa, onun taleyi də mənim taleyimə bənzəyir. Balaca, kimsəsiz balam.

Şəfəq ağladıqca Cavadla Mətanətin qəlbi parçalanırdı. Nə deyəcəklərini bilmirdilər. Elə bu vaxt zabit içəri girdi, Şəfəqə üzünü tutaraq:

— Vaxtınız qurtardı, — dedi.

Şəfəq dərhal ayağa qalxdı. Astadan bildirdi:

— Axşama az qalır. Gedin, siz də narahat olmayın. Tale qismət edərsə, görüşərik.

Cavad:

— Əziz bacım, niyə elə düşünürsən. Biz tez-tez səninlə görüşə gələcəyik. İndi bu gətirdiklərimizi də qəbul elə.

Mətanət:

— Şəfəq, bizim bu sahədə təcrübəmiz yoxdu. Nə sözün varsa, de.

Şəfəq:

— Sizə xoşbəxtlik arzulayıram.

Zabit ikinci dəfə başını içəri saldı:

— Qurtarın, — dedi.

Şəfəqlə Mətanət qucaqlaşıb öpüşdülər, göz yaşları içərisində bir-birindən ayrıldılar, xudahafizləşdilər.

Görüşdən sonra Şəfəq özündə deyildi. İçində dərin boşluq yaranmışdı. Köhnə, cır-cındır geyən, bədəni titrəyən Şəfəqə bir anlığa elə gəldi ki, ac-yalavacdı, zənbillərdəki də sədəqədi. Ətrafdakıların həqarətli baxışları altında yaşadığı baraka doğru addımlayır. Zülmündən cana doyduqları, təngə gəldikləri qadınların hər biri kimi, o da Sarıcanın yanına getməlidi, görüşü barədə dəqiq, müfəssəl hesabat verməlidi. Ürkək, çevik hərəkətlərlə kazarmaya girdi. Sarıca bərk əsəbi görünürdü. Papirosdan dərin qüllab aldı, sonra Şəfəqə tərəf döndü. Sarıcanın sərt sifətinin gərilməsindən, hədəqədən çıxan gözlərinin itiliyindən Şəfəq yerindəcə dondu. Rəfiqəsinin gəlişi ilə qəlbində doğan fərəh, sevinc hissləri kədər və ümidsizlik, peşimançılıq içərisində əriyib yox oldu. Onun məhzun, pərişan baxışları Sarıcanın gözlərinin içinə dikildi. Şəfəq dil-dodağı təpiyə-təpiyə dedi:

— Rəfiqəm əri ilə gəlmişdi.

— Rədd ol, icazəsiz sonuncu dəfə olsun. Səni iki yerə cıraram!

Sarıcanın təhqir, ikrahedici sözləri Şəfəqi tutdu. Özü də hiss eləmədən Sarıcaya qarşı qəlbindəki qəzəb və nifrət hissi gözlərində parıldadı. Sarıca dərhal onu duydu və iti addımlarla yaxınlaşıb sağ əlinin tini ilə Şəfəqin boynunun ardından güclü bir





zərbə endirdi. Şəfəq huşunu itirdi, tirtap döşəməyə sərildi. Sarıca dərhal yanındakılara:

— Zibili götürün burdan. Gətirdiklərini də öz aranızda bərabər bölüşdürün.

Qadınlar hərəsi bir tərəfdən Şəfəqi götürdülər. Aparıb çarpayısında uzandırdılar. Sonra da gedib zənbillərdəki ərzağı bölüşdürdülər. Alt-üst paltarlarını isə Sarıcanın göstərişi ilə gətirib Şəfəqin çarpayısının başından atdılar. Bir saatdan sonra özünə gələn Şəfəq başını çarpayıdan qaldırdı. O, yan-bu yana baxdı. Başı ağrıdığından yaylığını götürüb alnından çəkdi. Onun üçün ətraf matəmə dönmüşdü. Qəlbi dumana, çənə bürünən bu zavallı indi hər şeyi zülmət içərisində görürdü və ona elə gəlirdi ki, ömrü boyu bu müdhiş zindandan yaxa qurtara bilməyəcək. Hamı üçün fəlakət olan Sarıca dustaqların bircə-bircə başlarını yeyəcək. Onun həyata öz baxışı var, yazılmamış, təsəvvürə gəlməyən qanunları var. Onun üçün başqaları tərəfindən çıxarılmış qərarlar, məhkəmənin hökmü, qanunun məntiqinə əsaslanan həqiqətlər yalandı, boş şeylərdi, zir-zibillərdi.

* * *

Adi günlərdən biri idi. Gün günortadan əyilmişdi. Baraka vaxtilə karate idman növü ilə məşğul olan iyirmi səkkiz-iyirmi doqquz yaşlarında bir dustaq gətirdilər. Boylu-buxunlu, qurğaz bir qadın idi. Saçlarını oğlansayağı vurdurmuşdu. Çevik hərəkətləri vardı. Əyninə dar cins şalvar geymişdi. Qırmızı köynəyinin ətəklərini üstən aşağı buraxmışdı. Sir-sifətdən də eynilə oğlana bənzəyirdi. Qarayanız, arıq, uzun sifəti, qapqara gözləri, nazik dodaqları vardı. İlk baxışdan nəzakətli, zirək, ağlı başında, ədəb-ərkanı özündə olan adama oxşayırdı. Təbəssümlü baxışlarından mehribanlıq yağırdı. Özünü olduqca sərbəst aparırdı. Kimsə ilə, demək olar ki, maraqlanmırdı. Dustaqlar öz aralarında xısın-xı-

sın danışırdılar. Hamıda belə təsəvvür yaranmışdı, indi ya bir saatdan Sarıca ayağa qalxacaq, gedib bu təzə zavallı dustağın xəşilini qatacaq. Heç bir şeydən xəbərsiz kimi, Sarıca üzünü vəzir-vəkilinə tutaraq:

— Təzə dustaq gəlib, hə?

Hər ikisi eyni vaxtda:

— Hə! — dedilər.

Sarıca ayağa qalxdı. İdman edirmiş kimi əllərini belinə qoyub bir neçə dəfə o yan-bu yana əyildi. Qadınlardan bir çoxu qorxudan içini də çəkdi. Sarıca təzə dustağın çarpayısına tərəf addımladı. Dustaq çarpayısına uzanıb ayağını-ayağının üstən aşırmışdı. Sarıca çarpayının yanında dayandı. Ona diqqətlə baxdı. Təzə dustaq gözlərini yumaraq özünü Sarıcanı görmürmüş kimi aparırdı. Onun bu saymazyana hərəkətləri Sarıcaya bərk təsir elədi. O, öz dəst-xətti ilə bu dustağa da yanaşdı.

— Adın nədi?

— Həkimsən?

— Yox! Əzrailəm.

— Belə de. Canımı almağa gəlmisən?

— Əvvəl gözlərini çıxaracam. Sonra qol-qıçlarını, qabırğalarını sındıracam, ciyərini çıxaracam, axırda da canını alacam.

— Aydındı. Adımı soruşursan deyim, Ağca

Sarıcaya elə gəldi ki, təzə dustaq onu dolayır, ələ salır. O, əsəbi halda:

— Nə?

— Ağca!

Sarıcanın sir-sifəti bozardı, hirsdən, qəzəbdən dil-dodağı təpidi, var gücünü toplayıb gözlənilmədən Ağcaya zərbə endirdi. Sonra da əllərini onun saçlarına atdı, başını qolları arasına aldı. Ağca Sarıcanın barmaqlarından bərk-bərk tutaraq arxaya tərəf basdı və başını onun qolları arasından çıxartdı. Onu arxaya itələdi. Sonra keçib çarpayısının qırağındaca oturdu. Gülümsünə-





gülümsünə başını buladı və sakitcə bildirdi:

— Yaşına hörmət elə. Get, yıxıl yat yerində. Sən dəli olmusan, nədi? Olmaya məni ələ salmaq, təhqir eləmək fikrindəsən. Əlsiz-ayaqsızlara, gücsüzlərə bu cür münasibət insanlığa sığarmı? Nəzərə al ki, burda səndən də qolu zorlular ola bilər. Sənə bu münasibəti göstərsələr, dözərsənmi? Onsuz da azadlıqdan məhrum olub bu qaranlıq zindanlara düşənlər dünyanın ən böyük bədbəxtləridi. Kimisinin ailəsi dağılıb. Kimisi balasından uzaq düşüb. Kimisi də, Allah bilir... Hərənin yüz dərdi var.

— Mənə ağıl öyrətmə, fahişə! Buranın öz qanunları, hökmdarı var. Hamı o qanunlara riayət eləməyə, hökmdarına baş əyməyə, müntəzir dayanmağa borcludu. Yoxsa...

Ağca Sarıcanın sözlərinə əhəmiyyət vermədi, o deyənləri eşitmirmiş kimi sözünə davam elədi:

— Bu zavallıların taleyi onsuz da qaranlıqdır, yolları zülmətlər qoynundan keçir. Allaha rəvamıdı ki, bu yazıqlara sənin kimi qolu zorlular yenidən zülm eləsinlər. Nadanlar yaşadığımız bu qaranlıq mühitdə, böhranlı məqamda ağına-bozuna, pisinə-yaxşısına baxmadan zəiflərə, fəqir-füqəralara həmlə eləyirlərsə, onların qanını içməyə, ətini didişdirməyə hazırdılarsa, onda biz biyabanı gəzib dolaşan şüursuz, dilsiz-ağızsız yırtıcılardan nə umaq? Biz qadınlar bu qaranlıq zindana atılmışıq. Çoxlarına elə gəlir ki, biz bura düşmüşüksə, hamımız cinayətkar, oğru, quldur və əxlaqsızlarıq. Halbuki bunların bir çoxu dünyanın yükünü çiyinlərində, dərd-sərini ürəklərində gəzdirən ləyaqətli və şərəfli insanlardır. Təəssüf ki, onlar arasında başqalarının arxasında gizlənən, bütün əxlaq normalarını pozan və bircə dəfə də olsun özünə hesabat verməyən sənin kimi vicdanı qırıqlar, düşgünlər, riyakarlar böyük şəstlə addımlayırlar. Məni yandıran, mənə əzab verən odu ki, azadlıqda da, bu qaranlıq zindanda da yaşadığımız fani dünyanın üfunət verən oğru, düşgün sakinləri qəlbi ətir saçan fəzilətlilərdən daha çoxdu. Biz zavallılarsa hələ azad-

lıqda ikən yaxşını pisdən ayıra bilmədiyimiz üçün addımbaşı nadanların toruna düşərək gəlib bura çıxmışıq. Bu cəhənnəm ocağında əzab-əziyyətlər məngənəsində sıxılırıq, boğuluruq, məhv oluruq. Qadınlıq, analıq hissimizi, duyğumuzu itiririk. Bunlar azmış kimi bu zavallıları söyməyə, döyməyə sənə kim ixtiyar verib? O hədsiz səlahiyyətləri sən kimdən almısan? Bu törətdiyin cinayətləri, ölçüyəgəlməz rəzalətləri ulu göylərdən baxan — mənəviyyatımızın hüdudlarından boylanan böyük Yaradan götürərmi? Sənə xəbərdarlıq edirəm! Əməllərinə son qoy! Bayaqdan sənə fikir verirəm. Hamı kəniz kimi başına dolanır. Bu dolaşma hörmətdən, ehtiramdan yox, inanıram ki, qorxudandı. Nə qədər mən burdayam, kimsəni söyməyə, təhqir eləməyə sənə imkan verməyəcəm...

Ağcanın dedikləri, saymazyana hərəkətləri və kənarda dayanıb köhnə dustaqların hadisənin gedişini diqqətlə izləmələri Sarıcanı hövsələdən çıxardı. O, dəvə kimi nərildəyib əl-qolunu oynatdı. Dustaqların hamısı özlüyündə "Sarıca öldürəcək, parçalayacaq, məhv eləyəcək", — deyə düşünürdü. Bunu dustaqların gözlərindən duyan Sarıca Ağcaya yaxınlaşıb növbəti zərbəsini endirmək istəyirdi ki, bu idmançı qız — təzə dustaq onun əllərindən tutdu və var gücü ilə arxaya itələdi. Sarıca özünü saxlaya bilməyib arxada qoyulmuş çarpayının üstündəcə oturdu. Kənardan bu mənzərəni müşahidə eləyənlərin nəzərlərinə tab gətirə bilməyən Sarıca kişi söyüşləri söydü. Özünü yenidən Ağcanın üstünə atdı. Bu dəfə təzə dustaq yerindən pələng kimi sıçradı. Sağ ayağının tini ilə onun yanbızına vurdu. Sarıca geri çəkildi. Ağca növbəti zərbələrini də Sarıcaya endirdi. Köhnə dustaqları qorxu, təşviş, həyəcan bürüdü. Onlardan bəziləri qışqırdı. Ağca dərhal qışqıranlara tərəf çevrildi: — Kimin səsini eşitsəm, onun bağırsaqlarını çıxarıb əlimə doluyacam, — dedi.

Səs kəsildi. Sarıca taburetkanı götürüb Ağcanın üstə qaçdı. Onu Ağcanın başına endirdi. Ağca taburetkanı tutub kənara atdı.





Sonra var gücü ilə atılıb Sarıcanın başından təpiklə vurdu. Sarıca özünü itirib büdrədi. Ağca növbəti zərbəni endirdi. Sarıca Ağca ilə hesabını sonraya saxlamaq qərarına gəldi.

Bu vəziyyət hamının ürəyincə olsa da heç kəs ona münasibət bildirmədi. Əksinə, dustaqlarda belə bir fikir yarandı ki, Sarıca qəddar olduğu qədər də hiyləgərdi, o nə vaxtsa Ağcadan öz qisasını alacaq. Zavallı Ağcanın burdan gec-tez yalnız meyidi çıxacaq. Qəribə idi ki, heç kəs qorxduğundan bu barədə Ağcaya bir söz demədi...

Yatmaq vaxtını bildirən siqnal verildi. Beş dəqiqə keçməmiş hamı soyunub yatağına girdi. Bir azdan işləməkdən yorulub əldən düşən dustaqların xorultusu, fısıltısı eşidildi. Ağcanın ürəyinə dammışdı ki, Sarıca bu gecə sakit yata bilməz. O, nə vaxtsa qisasını almağa gəlməlidi. Ağca sakitcə sıyrılıb çarpayısından düşdü. İməkləyə-iməkləyə yatağından aralandı. Sarıcanın gəlişini gözlədi. Gecə yarıdan keçmişdi. Oturduğu yerdə az qala Ağcanı yuxu aparacaqdı. Elə bu dəm barakın yuxarı başındakı çarpayının setkalarının zəif cingiltisi eşidildi. Ağca bütün diqqətini səs gələn tərəfə yönəltdi. Bir də onu hiss elədi ki, Sarıca onun boş çarpayısının yanındadı. Həyətdəki projektorların pəncərələrdən içəri süzülən ala-toran işığında Sarıcanın əlindəki bıçağın uzun tiyəsi parıldadı. O, bir-iki addım da irəli atdı. Bıçağı güclü zərbə ilə çarpayının ortasından keçirtdi. Barakı səs-küy bürüsə də, o, zərbəsinin boşa çıxdığını duyub geriyə döndü. Ağca onun dirsəyindən təpiklə vurdu. Qaranlıqda əlindən çıxan bıçağın hara düşdüyünü Sarıca bilmədi. Ağca daha ona güzəştə getməyi lüzumsuz sandı. O, bir neçə zərbə ilə Sarıcanı vurub yıxdı. Sinəsi üstündə oturub baş-gözünü yumruqladı. Çox keçmədi ki, Sarıcanın: — Öldürmə", qələt eləmişəm", bir də eləmərəm, —" sözləri eşidildi. Ağca buna baxmayaraq, onu tam gücdən düşüncəyədək döydü. Sonra da gedib öz yerində uzandı. Səhərə qədər nə Ağca, nə Sarıca, nə də dustaqlar yata bildilər.

Səhər bunu eşidən türmə rəhbərliyi növbəti iğtişaşın, dava-şavanın olmaması üçün Sarıcanın başqa dustaqxanaya köçürülməsini qərara aldı.

* * *

Sözlərindəki düzgünlük, qətilik, hərəkətlərindəki dönməzlik, xarakterindəki mübarizlik, ürəyindəki yumşaqlıq, təvazökarlıq, səmimiyyət, mehribanlıq, qayğı Ağcanın nüfuzunu tez bir zamanda dustaqlar arasında qaldırdı. Getdikcə Sarıcanın xofu yavaş-yavaş dağılır, kimsənin dediyi — Birdən qayıdar? — ehtimalını puça çıxarırdı. İndi qadınlar oturub-durub Allaha şükürlər oxuyur, deyir, gülür, özlərini türmə şəraitində olsa da sərbəst aparırdılar. Dustaqlardan bəziləri mədhiyyə oxumağa öyrənmişdilər, adətkərdə idilər. Belələrinin yaltaqlıq cəhdlərinə Ağca ciddi etirazını bildirirdi:

— Əzizlərim, bilin və agah olun. Yaltaqlığa nifrət eləyirəm. Dedi-qoduları, umu-küsüləri, qeybəti yığışdırın. Sarıca və onun kimi nadanlara aramızda yer olmamalıdı. Onun eybəcər sifətli, fitva verən vəzir-vəkilinə üz tuturam. Gedin güzgüyə baxın. Orada özünüzün meymuna bənzər simanızı görəcəksiz. Biz qadınıq. Arımız, ismətimiz, namusumuz olmalıdır. Biz gərək insani hisslərimizi qoruyaq, dəyərləndirək. Mən idmançıyam. Uzun illər karate“ ilə məşğul olmuşam. Adam öldürmüşəm. Bunun üçün də peşiman deyiləm. Bilirəm, hər biriniz üzümə vurmasanız da arxamca deyəcəksiz ki, Ağca canidi! Qatildi! Əlləri insan qanına batıb! Bəli, caniyəm! Qatiləm! Soruşsanız, necə:

— Qaş qaralmışdı. Məşqdən çıxıb evə gedirdim. Qonşu binanın qarşısından keçəndə yaşlı bir qadının tükürpədici səsini eşitdim: “Qoymayın, məni öldürür... Məni bədbəxt eləyir“. Bu sözlər bir neçə dəfə təkrarlandı. Qəribə idi. Qonşuların hamısı balkona çıxıb haray-qışqırığı eşidir, ancaq bu qadına köməyə





gələn yox idi. Adamların biganəliyi, doğrusu, məni dəhşətə gətirdi. Mən vicdanıma sığışdırmayıb pilləkənləri qalxdım. Üçüncü mərtəbəyə çatanda səsin haradan gəldiyini duydum. Qapını döydüm. Handan-hana bir cavan oğlan qapını açdı. Bu adam yeyib-içdiyindən, narkotik maddə çəkdiyindən kefli idi. O, məni görcək üstümə atıldı. Onu nə qədər sakitləşdirməyə çalışsam da, inadından dönmədi. Qadını söyür, təhqir eləyir: — Evdəki pulları, qızılları ver, — deyirdi. Dözməyib ona bir-iki təpik vurdum. Əlbəyaxa mənə gücü çatmayacağını görən bu cavan oğlan gözlənilmədən bıçaq çıxartdı. Qadını vurdu, sonra da mənə hücuma keçdi. Əsəbiləşdim. Vurduğum zərbə onun mədəsinin üstündən tutdu. Gözlərimin qabağındaca başı kəsilmiş toyuq kimi çırpına-çırpına dünyasını dəyişdi. Mən ordan çıxıb kor-peşman evimizə gəldim. Vəziyyəti atama, anama bildirdim. Özüm polis idarəsinə getdim. Hər şeyi olduğu kimi danışdım. Məni həbs elədilər. Gördüyünüz kimi indi də sizin aranızdayam.

Əziz rəfiqələrim! Tale biz zavallıların ömür yolunu birləşdirib. İstəsək də, istəməsək də bu yolu birlikdə getməliyik. Bu, bizim qismətimizdi. Mən istəməzdim ki, bu qaranlıq mühitdə özümüz özümüz üçün daha rəzil, daha zəlil bir məngənə quraq, həngamə yaradaq. Fikir verin. Birincisi faciənin baş verməyidir. Hansı səbəbdənsə, demirəm haqlı, ya haqsız, azadlıqdan məhrum olmaq. İkincisi əzizlərimizdən ayrı düşmək. Üçüncüsü, qaranlıq və rütubətli divarlar arasında hüquqlarımızın məhdudlaşdırılması. Dördüncüsü, qadınlıq hisslərimizin unutdurulması. Beşincisi, xoşbəxtlik, səadət deyilən şeyə birdəfəlik arxa çevirmək. Üstəgəl, özümüzün türmə içərisində türmə yaratmamız. Mən haqsızlığa, lovğalığa, qəddarlığa, qeybət və paxıllığa, bir sözlə insani keyfiyyətlərə yabançı, əxlaqa xələl gətirə bilən hər şeyə nifrət eləyirəm. İnsan ən ağır zindanda da ləyaqətlə yaşamağı bacarmalıdı.

Ağca danışdıqca dustaqların qəlbi açılır, onlara elə gəlirdi ki, türmədə azadlıq günəşi doğmuşdur, onun parlaq şüaları zavallı qadınların hər birinin qəlbinə işıq saçır, ılıq bir nəfəs gətirirdi. Qadınların arasından biri irəli çıxdı. Onun adı Həmidə idi. Əllidən artıq yaşı olardı. Ağarmış, pırpız saçları üz-gözünə tökülmüşdü. O, neçə vaxtdı Sarıcanın zülmündən cana doyduğunu, üzündəki şırımın ondan qaldığını deyib ağlamsındı. Ağca onu səbr və təmkinlə dinləyib dedi:

— Sarıca getdi, onun barəsində söz-söhbət də qurtardı. Gəlin, qeybət qırmayaq. Bundan sonrakı həyatımızı yaşayaq. Normal iş, normal həyat şəraiti yaradaq.

Yalnız işləməklə, ağlayıb-sıtqamaqla özümüzü bədbəxt eləyə bilərik. Kitabxanaya yazılaq. Oxuduğumuz əsərləri müzakirə eləyək. Bədii özfəaliyyət dərnəyi yaradaq. Televiziyada baxdığımız kinolara, tamaşalara yığışıb münasibətimizi bildirək. Çalaq, oxuyaq. Düçar olduğumuz dərd-səri başımızdan qovaq. Yoxsa, özümüz-özümüzü yeməli, didməli olacağıq. Bir də gözümüzü açacağıq ki, qocalmışıq. Bax, bu, faciədi. Yaşamağı bacarmamaqdı. Bəlkə, mən düz fikirləşmirəm? Məni qınamayın. Mən çıxış yolunu oturub dizimizə döyməkdə yox, yeni həyatın qurulmasında görürəm. Biz türmə rəhbərliyini də yeri gəlsə bir çox şeylərə qata bilərik.

Şəfəq Ağcanı dinlədikcə sevinir, fərəhlənir, özlüyündə ona dönə-dönə təşəkkürünü bildirirdi.

* * *

Süsənlə Şəfi əllərində zənbil qəbul pəncərəsinin qarşısına çatanda içəridən bir nəfər qadın: — Salam, bura hara, siz hara? — deyə Şəfidən soruşdu. Şəfi diqqətlə qadının üzünə baxdı. Onun qırxdan az yaşı olmazdı. Sarıbəniz, dolu bədənli bu qadına əyninə geydiyi forma çox yaraşırdı. Onun codlaşmış üz-gözündə, alnında zərif, incə qırışlar vardı. Qalın dodaqları arasından qızıl dişləri apaydın görünürdü. Şəfi qadına:





— Mən də sizi hardasa görmüşəm. Unutduğum üçün üzr istəyirəm.

— Mən də əslən Gəncəliyəm. Adım da Səfayə. Bir neçə dəfə sizin idarə elədiyiniz avtobusla Gəncəyə getmişəm. Bir dəfə də qızımı yola salmışam.

— Çox gözəl. Bundan sonra unutmaram, xanım.

— Çox sağ olun. Nə əcəb bura gəlmisiz?

— Bizim də burda adamımız var.

— Kimdi ki?

— Şəfəq.

Qadın fikrə getdi. Şkafdan qeydiyyat kitabını götürdü. Seyidzadə Şəfəqin adını tapdı. Adın qarşısındakı qeydi oxudu. Sonra üzünü Şəfiyə tutaraq:

— Buna görüş düşmür.

— Niyə?

— Təqribən bir ay bundan əvvəl ona görüş verilib.

— Biz uzaq yol gəlmişik. Bəlkə bizi nəzərə alasız.

— Bu, təkcə mənlik iş deyil. Gözləyin.

Səfayə gedib tez də qayıtdı. — Hə, yüz dollar verin, aparım rəisə çatdırım, sonra görüşün, — dedi. Şəfi arvadının üzünə baxdı. Süsən:

— Bu uzaqlığa yolu boş-boşuna geri qayıtmayacağıq ki. Nə istəyir ver. Şəhərdən özümüzə lazım olan şeyləri gələn dəfə alarıq.

Şəfi heç bir söz demədən əlini cibinə saldı. Yüz dolları çıxarıb Səfayəyə verdi. Səfayə bildirdi:

— İndi çöldə gözləyin. Mən kişinin düşərini çatdırım. Sonra sizə də işarə vuraram, gələrsiz. Başqaları bilməsin.

Şəfi ilə Süsən həyətdə gözləməli oldular. Getdikcə Süsənin həyəcanları artırdı. O, pıçıltılı səslə: — Bədbəxt qız, sənin bu

günün də varmış, — dedi. Şəfi astadan başını yellədi: — Olacağı gora aparmaq olmaz, — deyə cavab verdi. İyirmi dəqiqə keçər-keçməz Səfayə qəbul məntəqəsinə qayıtdı. Pəncərəni açıb başı ilə Şəfiyə: — Gəlin, — işarəsini verdi. Ər-arvad içəri keçdilər. Yoxlamadan sonra Şəfəq Süsəni görcək üstünə atıldı. Öpüşdülər. Zavallı Şəfəq Şəfiyə də əl verdi. Göz yaşları axıda-axıda Şəfəq başına gələnləri danışdıqca sanki Şəfinin də, Süsənin də damarlarında qanı donurdu. Danışmağa söz tapmırdılar. Hamısı özlüyündə mərdiməzarları, ədalət mizan-tərəzisini əyənləri, haqqı-batil eləyənləri lənətləyirdilər. Əslində bu yazıqların gücləri özlüklərində danışıb-söyləməyə, yanıb-yaxılmağa, nakəslərə nifrətə çatırdı. Bu zavallıların da nə maddi imkanları, nə də arxalı adamları vardı ki, günahsız Şəfəqi bu qaranlıq zindandan qoparsınlar. Şəfəq söhbəti oğlunun üzərinə gətirdi. Süsən heç bir söz demədən Hikmətin tək, sonra da özləri ilə, uşaq evinin müdiri Əminə xanımla, Gülruh müəllimə ilə çəkdirdiyi şəkilləri bircə-bircə Şəfəqə verdi. Şəfəq şəkillərə nə qədər diqqətlə baxsa da, heç bir şey anlamadı. Süsən gülümsündü:

— Oğlunu tanımadın, Şəfəq?

— Nə?!

— Bu, boyuna qurban olduğum Hikmətdi! Sənin oğlundu! Əməlli bax!

— Yox! Ola bilməz!!! Yox!!!

Şəfəq bir də şəkli nəzərdən keçirtdi. Ürəyi atlandı. Sanki damarlarında qanı dondu. Əvvəl heç bir söz deyə bilmədi, özündən getdi. Nə eləyəcəyini bilməyən Süsən Şəfəqi qucaqladı. Əllərindəki şəkilləri aldı. Sonra da ərinə: — Bir stəkan su, — dedi. Şəfi otaqdan çıxdı. Onu dəhlizdə görən Səfayə başı ilə: — Nə olub? — deyə soruşdu.

— Şəfəqin ürəyi qısıldı, bir stəkan su, — deyə Şəfi cavab verdi. Qadın tələm-tələsik otağa keçib stəkanı su ilə doldurdu. Sonra da dəhlizə çıxıb Şəfiyə verdi. O, otağa qayıdanda Şəfəq





yavaş-yavaş özünə gəlirdi. Süsən ərindən stəkanı alıb rəfiqəsinin dodaqlarına yaxınlaşdırdı: — İç, iç! — dedi. Özünə gələn Şəfəq sudan bir qurtum içdi. Əlləri ilə üz-gözünü qaydaya saldı. Süsən stəkandakı sudan əlinə töküb Şəfəqin üzünə səpdi.

Şəfəq:

— Hanı şəkillər?

Süsən şəkilləri yenidən Şəfəqə verdi. Ana şəkildən gülümsəyib baxan oğlunun boy-buxununa, üzünə, dodaqlarına, ağzına, burnuna, geniş alnına tökülmüş saçlarına, parıldayan gözlərinə baxdı, yenidən uçqundu. Tez də özünə gəldi. Qucaqlayıb Süsəni öpdü. Hönkürdü. Şəfi handan-hana dedi:

— Bacım, ürəyini sıxma. Hikmət Bakıdakı uşaq evində olsa da bizim tam nəzarətimizdədi. Uşaq evinin müdiri Əminə xanım da, müəllimləri də çox yaxşı adamlardı. Onlar uşaqlara öz doğma balaları kimi baxırlar. Hikmət kimi uşaqlar orda çoxdular. Narahat olma, bacım. Nə mən, nə də Süsən Hikməti unutmayacağıq.

Süsən:

— Hikmət elə bilir ki, sən xəstəxanadasan. Sağalan kimi onun yanına gedəcəksən. Mən onu inandırmışam ki, sən həqiqətən də onu çox istəyirsən. Hikmətlə görüşmək arzusundasan...

Şəfi:

— Hikmət uşaq evində qayğının nə olduğunu bilmir. Heç kəsdən minnət götürmür. Vaxtaşırı biz onun yanına gedəcəyik. Səninlə də əlaqə saxlayacağıq. Düzü, biz Hikməti səninlə görüşə gətirmək istədik. Ancaq Əminə xanım Hikmətin uşaq evindən çıxarılmasına izin vermədi.

Süsən gülümsünərək:

— Bayaqdan Hikmət, Hikmət — deyirdin. İndi oğlunun harda olmasından, vəziyyətindən xəbərdarsan. Bizim nəzarətimizdə olduğunu bilirsən. Sevinmək, gülmək əvəzinə özün də başlayırsan ağlamağa. Yaxşı, sənin bu hərəkətlərinə nə ad verək? Biz

elə bilirdik ki, sən sevincdən uçacaqsan.

Şəfəq dərindən ah çəkdi. Əlləri ilə üz-gözünün yaşını sildi. Sonra dedi:

— Süsən, fiziki zəhməti, əzabı çəkməyə nə var ki? Onların heç biri məni qorxutmur. Məni yoran, öldürüb-dirildən daxili sarsıntılardı, iztirablardı. Ömrüm boyu iztirablar içərisində inləyirəm. Nəyə əlimi atıramsa, boşa çıxır. Arzularım puç olur. Bütün bunları fikirləşəndə dəhşətə gəlirəm. Bacım Süsən, qardaşım Şəfi, heç zaman mənə elədiklərinizin əvəzini qaytara bilmərəm. Onu da anlayıram ki, elədiklərinizin müqabilində məndən təmənna da ummamısınız. Bu zəhməti, qayğını sizlərə çəkdirən təmiz vicdanınızdı. Allahınızı başınızın üzərində görmənizdi. Sizdən bircə təvəqqem var, o da Hikmətdi. Ondan muğayat olun.

Süsən:

— Şəfəq, Hikməti bizə tapşırma. O, bizim işimizdi. Sənə vədlər də vermək istəmirik. Hər şeyə, bacım, özün şahid olacaqsan. İki-üç aydan bir də olsa səninlə görüşə gələcəyik. Özünü darıxdırma.

Bu dəm qapı açıldı. Xidmətçi başını içəri saldı: — Vaxtınız qurtardı, — dedi.

* * *

Əzizlərinin görüşündən qayıdan Şəfəq baraka necə gəldiyini bilmədi. Süsənin gətirdiklərini şkafın gözünə qoyub çarpayısının qırağındaca oturdu. Hikmətin şəkillərinə baxdı, bir də baxdı. Kövrəldi. Sevincdən gözlərində alacalanan yaş yanaqlarına süzüldü. O, dönə-dönə şəkildən baxan oğlunun üzündən öpdü. Bunu kənardan müşahidə eləyən Zəminə Şəfəqə yaxınlaşdı. Yenə oğlun yadına düşüb? — deyə soruşdu.

— Yox, Zəminə. Bu gün bəlkə də mənim ən xoşbəxt günümdü. Rəfiqəm Süsən oğlumu tapıb. Şəklini çəkdirərək mənə gətirib. Budur, mənim oğlum.





Zəminə böyük sevinc və maraq hissi ilə şəkilləri Şəfəqdən aldı. Hikmətə diqqətlə baxdı. Sonra da bildirdi: — Ay Allah, bunu xoşbəxt elə. Ağzına, burnuna, gözlərinə bax balamın, necə də anasına oxşayır. Bacım, bundan sonra ağlayıb-sıtqamağa haqqın yoxdu. Mən həbs olunarkən məhkəmə iki balamın uşaq evinə verilməsinə hökm verib. Onlar da hazırda uşaq evindədilər. Mənə elə gəlir ki, sahibsiz uşaqlar üçün uşaq evi daha məsləhətdi. Başqalarının yanında qalsaydılar, ola bilsin ki, nəzarətdən yayınardılar. Sən də şükür elə, əziz balan etibarlı əllərdədir.

— Bəlkə də.

— Yox! Şübhə eləmə! Təsəvvür eləyirsən? Sarıca burdan gedəndən sanki azadlığa çıxmışıq. Allahın bizə yazığı gəlib.

— Niyə?

— Necə niyə? O, burda olsaydı, görüşə getdiyin üçün səni peşman eləyəcəkdi. Oğlundan aldığın şad xəbəri də vurub gözündən tökəcəkdi. Sevincini göz yaşlarınla yuduracaqdı.

Şəfəq gülümsündü və dedi:

— Mən qorxurdum ki, burdan sağ çıxmayaq. Ağca qanımızın arasına girdi. Onda kişi xarakteri var, təkcə özü üçün yaşamır. Gələndən böyük həvəslə özfəaliyyət dərnəyi, müxtəlif əyləncələr yaradıb. Günümüz necə gəlib keçir, özümüz də bilmirik. Sarıca burda olanda açılan hər səhər bizə bolluca qəm, kədər, qorxu, təlaş, həyəcan gətirirdi. Sanki doğan günəş də bizə qaranlıq, zülmət təlqin eləyirdi. Hər anımız ağır düşüncələr içərisindən keçirdi. Adam nə qədər döyülər, söyülər, təhqir olunar? Nə qədər ağız-burun qanı görmək olardı?

— O, doğrudan da qadın deyildi. Qəribə idi. Sarıca azadlığa çıxmaq istəmirdi. Türmədən azad olunma vaxtı çatanda qəsdən bir cinayət törədir, yenidən məhkum olunma vaxtı uzadılırdı.

— Eh, o da bir cür bədbəxtdi. Azadlığa çıxıb hara, kimin ya-

nına gedəcəkdi ki. Bir dəfə sözarası dedi ki, çöldə nə evi var, nə də kimsəsi. Oturub türmədə. Biz də işləyirdik onun əvəzində. Kiməsə ərzaq gələndə "paylayın" hökmünü verirdi.

— Neçə dəfələrlə onun əlindən qurtarmaq üçün özümə qəsd eləmək fikrinə düşmüşdüm. Bir az da qalsaydı, özümü bir təhər eləyəcəkdim. Mənim üçün həyat mənasız görünürdü. Sarıcanın Ağcaya həmləsi baş tutmayanda və bir-birinin dalınca zərbələr alanda az qala sevincdən ürəyim çatlayacaqdı. Gücsüzləri, zəifləri görəndə çiçəyi çırtlayırdı zalım qızı Sarıcanın. Necə deyərlər siçan tələyə düşəndə pişik sevinən kimi.

* * *

Türməyə Telli adlı təzə dustaq gətirilmişdi. Bu qadının altmışa yaxın yaşı olardı. Üz-gözündən zəhmət adamı olduğu aydın görünürdü. Dən düşmüş saçlarını iki yerə ayıraraq səliqə ilə daramışdı. Qonur gözləri, balaca, dəyirmi sifəti, kiçik burnu vardı. Əyninə paltarların üstündən uzun, pamazı, dərin cibli xalat geymişdi. Xalatın ağ sədəf düymələrini bağlamış, əllərini ciblərinə qoyaraq, həyətdəki partanın üstündə oturmuşdu. — Balalarımın taleyi necə olacaq, — deyə için-için ağlayırdı. Barakdan çıxan dustaqlar iki-bir, üç-bir bu qadının başına toplaşır, hərəsi bir tərəfdən ona təskinlik verməyə çalışırdı. Ağca Tellidən soruşdu:

— Türməyə nə üstdə düşmüsən?

Haylı-küylü, hər şeyi şişirtməsi ilə danışan bu qadın dedi:

— Heç nə, a bacı? Allah bilir ki, bu işdə bizim günahımız yox idi.

— Axı nə işdi o?

— Heç anam, heç. Soruşma. Dili qurusun, ciyəri yansın, bizi böhtana salanın. Ərimlə gedib neçə vaxtda maaşımızdan yığdığımız pulla bazardan xalça almışdıq. Bir gün gəlinlə sözümüz çəpləşdi. Gəlin məni söydü, saçımdan tutub evdə o tərəf-bu tərəfə sürüdü. Üst-başımı cırdı. Axşam oğlum evə gələndə arvadının hərəkətlərini ona çatdırdım. Gəlin axşam anasına telefon elədi. Olan-olmazın anasına bildirdi. Gecə yarı idi. Qapımız döyüldü. Yataqdan qalxıb qapını açdım. Otağa bir neçə polis işçisi daxil oldu. Onlar bircə-bircə evləri gəzdilər. Axırda gəlib həmin xalçanın üzərində dayandılar: — Hə budu, — deyə ərimlə mənim üzümə baxdılar. Xalçaları büküb götürdülər. Bizi maşına əyləşdirib oğru kimi polis idarəsinə apardılar. Şəhərdə bir neçə evin də oğurluğunu üstümüzə atdılar. Xalçalar azmış kimi: — Oğurladığınız büllur qabları, qızılları, brilyantları harda gizlətmisiz? — deyə cavab verməyi bizdən tələb elədilər. Biz: — Nə oğurluq, nə büllur, nə qızıl, nə brilyant? — deyə böhtanları, iftiraları özümüzdən uzaqlaşdırmağa çalışsaq da faydası olmadı. Axırda müstəntiq işə xitam vermək üçün bizdən küllü miqdarda rüşvət istədi. Bizim rüşvət vermək imkanımız olmadığından istintaq işini məhkəməyə ötürdü. Məhkəmə də nə ağına baxdı, nə də qarasına. Ərimi də həbs elədilər, məni də. İndi vallah yanıram, odlanıram. Məni yandıran oğlumun nadanlığıdı. Oğul doğ, böyüt, ərsəyə çatdır, nəticəsi də bu. Mən oğlu bunun üçünmü doğmuşdum? Axı mənim ərim Sərkər gəlinini: — Qızım, — deyə çağırırdı. Onu doğma balamızdan çox istəyirdik. Bədnam övladlar neylədiklərini bilmədilər. Özlərinə də, övladlarına da qara ləkə yaxdılar. Valideynə qarşı çıxmaq olardımı? Bunu böyük Yaradan götürərmi? Ataya, anaya, ya qayınataya, qayınanaya da böhtan atmaq olardımı? İndi kimə inanasan? Mənim yazığım Sərkərə gəlir. Mən bir təhər dözəcəm. Ancaq uzun müddətdi ki, yazıq kişi xəstədi. Vallah o, bu dərdə dözməyəcək. Namərd oğul, nankor gəlin böyük cinayət elədilər. Deyirlər: "Cinayət olan yerdə vicdan oyanar". Bəs hanı o vicdan, o qeyrət?! Hanı?!

Partada əyləşən, dörd illik dustaqlıq təcrübəsi olan Əsmayə başını yelləyərək bildirdi:

— Sizi başlarından eləyiblər, a bacı. Gərək onları özünüz

əvvəlcədən başa düşəydiz. Bu vəziyyətə gəlib çıxmağa imkan verməyəydiz.

— Nə deyim vallah?

Bayaqdan bəri deyilənlərə səssiz-səmirsiz qulaq asan Səbinə özünü saxlaya bilməyib dedi:

— Bura hərə bir cürə düşüb. Hamı da özünü günahsız sanır. Qəbahətini başqasının üstünə atmağa çalışır. Heç öz əməllərimiz, əxlaqımız barədə düşünmürük. Çox az hallarda: — Bu mənim taleyimdi, ya qismətimdi, — deyirik. Bununla da günahı özümüzdə yox, Allahımızda axtarmağa çalışırıq. Zəhərləyib öldürmüşəm ərimi. Nə var, nə var, mənə xəyanət eləyib. Hansı qadınlasa oturub-durduğu, kef elədiyi üçün. Bəyəm, vəziyyətdən çıxmağın yolu təkcə ərimi öldürmək idimi? Əlbəttə, yox! Oturmuşam türmədə. Hirsim, qəzəbim soyuyub. Fikirləşirəm. Balam, mən ərimi tutduğu çirkin, əxlaqsız, pozğun yoldan çəkindirə bilməzdimmi? Qəti şəkildə deyirəm, bilərdim. Əgər çəkinməsəydi, boşana bilərdimmi? Bəli! Bəs niyə boşanmadım?! Çünki mənəmlik, hikkəbazlıq, lovğalıq, dar düşüncəlilik, qısqanclıq hissi ağlımı cilovladı. Caniyə, ərimin qatilinə çevrildim. Nəticəyə bir anlığa fikir verin: mən qaranlıq zindanda inləyirəm. Bir oğlum, bir qızım onun-bunun küncündə zəlil olub. Mənim düşüncəsiz hərəkətlərim ucbatından balalarım nə ata, nə də ana nəfəsi, qayğısı, istəyi, sevgisi, məhəbbəti duyurlar. Kimdi günahkar?! Bir, üç, ya beş dəfə yolunu azan ərim, yoxsa ərinin qatili olan arvad. Balalarımı başqalarının himayəsinə verib gəlib oturmuşam türmədə, utanmaz-utanmaz göz yaşları axıdıram. Hamıya özümü yaxşı göstərməyə çalışıram. Mən həqiqətən də yaxşıyammı? Türmədən qurtarandan sonra balalarımın üzünə baxmağa haqqım olacaqmı? Onları yedirtməmişəm, içirtməmişəm, əzab-əziyyətlərini çəkməmişəm... İndi sizdən soruşuram: doğduqlarıma “ananızam” deyə bilərəmmi? Onlara necə deyim ki, özüm istəyib seçdiyim atanızın qatili mənəm?! Balalarım





məni bağışlayacaqmı? İnanmıram... Bax, budu həqiqət. Gərək biz qadınlar özümüzə də bir nəzər salaq. Kimliyimizi dərk eləyək.

Sən də mənim kimi, Əsmayə bacı. Oğul-uşaq tərbiyəsində səhvə yol vermisən. Elə bilmisən ki, yedirib-içirirsən, bununla da borcunu ödəmisən. Oğlunun qəlbində nə sən, nə də ərin məskən salıb. İncimə məndən. Gəlib deyəcəm. Oğlunun qəlbi boşdu. İçi yoxdu. Övlad qəlbində yaşaya bilməyən ata, ana çoxdanın bədbəxtidi, ölüsüdü...

Ağca dilləndi:

— Türmə islah məktəbidi. Bunu biz qadınlar da bilməliyik. Bilirəm, bura bilməyərəkdən, günahsız düşənlər də var, böyük qəbahəti olanlar da. Gəlin, bir anlığa etiraf eləyək — özümüzdən çox razıyıq biz qadınlar. İş görəndə bura düşə biləcəyimizi heç vaxt ağlımıza da gətirməmişik. Gətirsəydik, ayaq saxlardıq. Eləməmişik. İndi də başlamışıq sarsaqlamağa. Başqalarında günah axtarmağa. Gəlin, düşdüyümüz vəziyyətdən ağılla nəticə çıxaraq. Bu zindana düşməyi bir də özümüzə rəva görməyək. Bilirsiz ki, bir neçə gündən sonra əziz bayramımız — Novruz gəlir. Gəlin dedi-qodunu, umu-küsünü ataq. Əhvalımızı bayram üçün sazlayaq.

Ağcanın dedikləri dustaqların qəlbində köklənmiş ağır, iztirablı, sarsıdıcı hissləri dağıtdı, əvəzində şux, oynaq, sevinc, fərəh gətirəcək duyğular oyatdı.

* * *

İllər gəlib keçirdi. Mətanətlə Cavad, Süsənlə Şəfi hər üç-dörd aydan bir Şəfəqin görüşünə gəlirdilər. Tanıdıqları adamlar, azadlıqda baş verənlər barədə ona yerli-yataqlı məlumatlar da ötürürdülər. Ayrılarkən gətirdiklərini Şəfəqə verib gedirdilər. Süsənin hər dəfə Hikmətdən gətirdiyi xəbərlər Şəfəqi sevindi-

rir, qəlbində fərəh hissi doğururdu.

— İnsan dar gündə tanınar, — deyirlər. Türmədə axtarsan hər ağılda, hər xarakterdə adamlar tapmaq olardı. İstər yaxşı olsun, istərsə də pis. Şəfəq ürəyinə yatan, sözü-söhbəti tutan Hürü ilə, Ağca ilə, Anaxanımla əlaqə saxlayır, dərdlərini, sevinclərini bir-biriləri ilə bölüşürdü. Can deyib, can eşidirdilər. Birinin bir yeri ağrıyanda dərhal onun başının üstünü kəsdirirdilər. Əllərindən gələn köməyi əsirgəməzdilər. Dustaqlar da, türmə işçiləri də onlara "dörd bacı" ləqəbini vermişdilər.

Adi axşamlardan biri idi. Küləyin uğultusu aləmi başına götürmüşdü. Xəzərdən sahilə sarı qalın, qara buludlar uçuşurdu. Hərdənbir yağış damcıları da gəlirdi. Həyət-bacada kimsə görünmürdü. Küləyin qaldırdığı toz-torpaqdanmı, havanın soyuqluğundanmı, yağış damcılarının gəlişini görcək üst-başlarını islatmasındanmı türmə xidmətçiləri də öz yerlərinə çəkilmişdilər. Təkcə gözətçi məntəqəsində əli avtomatlı keşikçilər vəzifələrini yerinə yetirirdilər. Şam naharından sonra dustaqlar baraka çəkildilər. İki-bir, üç-bir, dörd-bir olub keçənlərdən söhbət eləyirdilər. Bir yerə toplaşanlardan kimlərsə də, lətifələr deyib gülürdülər. Şəfəq çarpayısında uzanıb sakitcə kitab oxuyurdu. Yatdığı barak, uzandığı çarpayı sanki qəflətən başına dolandı. Gözlərini yumdu. Bir neçə saniyə keçmiş açdı. Ürəyinin qalxdığını hiss elədi. Çarpayısından qalxdı. Kürəyində ağrı duydu. Mədəsi göynəməyə başladı. Həyatında belə şeylə ilk dəfə qarşılaşdığından orqanizmində nə baş verdiyini bilmədi. Şəfəq: — Allah, öldüm! — deyə zarıldamağa başladı. Rəfiqəsi Hürüyə dedi:

— Başım üstümdə durmur, yıxıla bilərəm. Ürəyim qalxır. Su başına getməyə kömək elə.

Bunu eşidən qadınlar Şəfəqi dövrəyə aldılar. Hürü ilə Ağca hərəsi bir tərəfdən Şəfəqin qoluna girib onu su başına apardılar. Ağrı, mədədəki göynərti, ürək qalxması getdikcə şiddətlənir, Şəfəqin vəziyyətini ağırlaşdırırdı. Şəfəq əlinin iki barmağını ağzına salıb boğazına tərəf uzatdı. Mədəsindəkiləri geri qaytarmağa özünü məcbur elədi. Yediklərini qaytardıqdan sonra əhvalının bir balaca yaxşılaşdığını gördü. Əl-üzünü yudu. Qayıdıb yenə öz çarpayısında əyləşdi. Geri qayıdanda Şəfəqin sir-sifəti bozarmışdı. Tibbi biliyi olmayan bu dustaqlardan kimisi "Soyuqlayıb", kimisi "Yəqin qan təzyiqi var", kimisi "Bəlkə zəhərlənib" diaqnozunu" qoymağa çalışırdı. Elə bu dəm Anaxanım da mədəsindən şikayətlənməyə başladı. Onun da ardınca Zübeydə ufuldadı. Bunları görən Ağca: — Zəhərləniblər, — deyə bildirdi, həyəcan qurğusuna tərəf qaçdı və düyməni basdı. Çox keçmədi ki, nəzarətçilər baraka gəldilər. Ağca üç nəfərin şam naharından zəhərləndiyini bildirdi. Çaşıb qalan nəzarətçilər əvvəl tutuldular, nə deyəcəklərini bilmədilər. Sonra vəziyyətin ağır fəsadlar verə biləcəyini fikirləşib: — Bu saat, — deyə kazarmadan çıxdılar. Zəng eləyib təcili tibbi yardım maşını çağırdılar. On beş dəqiqə keçməmiş tibbi yardım maşını türmənin qapısı ağzında dayandı. Nəzarətçilər xəstələri türmənin tibb məntəqəsinə gətirdilər. İlkin müayinələr başlandı. Xəstələrə toxdadıcı iynələr vuruldu, həblər qəbul etdirildi. Mədələrinin yuyulması, təmizlənməsi işi aparıldı. Sonra ağ saçlı Səmərə həkim bildirdi:

— Vəziyyətiniz yaxşıdı. Ancaq sizi xəstəxanaya köçürəcəyik. Yaxşı olar ki, bu axşam həkimlərin nəzarətində qalasız. Necə deyərlər: "Ehtiyat igidin yaraşığıdı".

Həkim türmənin müdiriyyəti ilə razılaşdıqdan sonra xəstələri tibbi yardım maşınına mindirib birbaşa xəstəxanaya apardılar. Üçünü də bir otaqda yerləşdirdilər. Xəstəxananın həkimi Fazilə xanım tərəfindən onların təkrar müayinəsinə başlandı. Hərarətləri, qan təzyiqləri, ürəklərinin döyüntüləri yoxlanıldı, zəruri yardımlar göstərildi. Hər şeyin tədricən qaydaya düşdüyünü görən Fazilə gülümsünərək Şəfəqə dedi:

— Hər biriniz kəfəni yırtıb çıxmısız. Nə yaxşı ki, zəhərlən-

diyinizi tez başa düşmüsüz. Geciksəydiz, həyatınız böyük təhlükə qarşısında qalardı. Bir neçə gün burda qalın, sizdən analiz götürək, dərin müayinədən keçin. Həm müalicə olunun, həm də dincəlin.

— Həkim, biz üçümüz də həm həkimlərə, həm də Ağcaya minnətdar olmalıyıq. Ağca olmasaydı, biz barakda qıvrıla-qıvrıla qalacaqdıq.

— Ağca kimdi?

— O da dustaqdı. Ləyaqətli qadındı.

Həkim bir daha sözü çevirmədi. Xudahafizləşib otaqdan çıxdı. Şəfəq çarpayısına uzandı. Gözlərini yumdu və öz-özünə dedi: "Aman Allah, nə qədər ağlagəlməz, təsəvvürolunmaz işlər varsa, mənim başıma gəlir. Bu nə taledi, bu nə qismətdi?! Hər şeyimi itirmişəm: Evim, ailəm, təhsil aldığım universitet... Təkcə oğlumla görüşməyə ümidliyəm. Az qala o imkan da əlimdən çıxacaqdı. Bala niskili ilə, oğul həsrəti ilə dünyamı dəyişəcəkdim. Azadlığa çıxmağıma altı aydan da az vaxt qalır. Aman Allah, mənə rəhm elə. Səsini eşitmədiyim, boyuna-buxununa həsrət qaldığım balamla bircə dəfə də olsun görüşüm. Üzündən-gözündən öpüm. Bircə dəfə "Ana!" deməsini eşidim..." Düşüncələr içində nə vaxt yuxuya getdiyini bilmədi Şəfəq.

* * *

Xəstəxanadan qayıdan dustaqlar türmədəki rəfiqələri tərəfindən qapı ağzındaca böyük rəğbətlə qarşılandılar. Hamı gülür, hamı sevinir, hamı növbə ilə xəstələrin üz-gözlərindən öpürdülər. Bir-birilərinə gözaydınlığı verirdilər. Şəfəq Ağca ilə bacı kimi qucaqlaşdılar. Şəfəq dedi:

— Ağca, dünyanın ən xoşbəxt adamısan. Allah-Təala özü səni bura göndərib ki, biz zavallılara xeyirxahlıq göstərəsən.

Ağca qəhqəhə çəkərək soruşdu:





— Xeyir ola? Xoşbəxtin türmədə nə işi? Ağzında dustaq deyirsən. Dustaq hara, xoşbəxtlik hara?

— Yox. Sən olmasaydın, şəxsən mən hələ o vaxt Sarıcanın əlində...

— Sarıca qələt eləyirdi.

— Bilirsən, həkim biz xəstəxanada olanda nə dedi?

— Yox.

— Hardan biləcəksən?! Dedi ki, bir az da yubansaydız, həkimə gec müraciət eləsəydiz, çoxdan o dünyalıq olmuşduz.

— Yox! Həkimlər elədi də. Bir iş görməmiş, xidmət göstərməmiş xəstələrə, xəstə sahiblərinə minnət qoymağı öyrəniblər. Hələ siz dustaq olmasaydız, elə sözlər, ifadələr işlədəcəkdilər ki, damarlarınızda qanınız donacaqdı.

— Niyə?

— Niyə? Niyə? Ay qız, pul qoparmaq üçün. Dustaqda nə var ki, nə alsın. İndi bildin? Həkimləri sən mənə tanıdacaqsan?

Şəfəq gülümsündü. Ağcanın qoluna girib baraka getdi.

* * *

İlin axırıncı çərşənbəsi idi. Axşam türmə rəhbərliyi ilə razılaşmaya əsasən dustaqlar həyətdə tonqal qaladılar. Ağca türmə xidmətçilərinin nəzarəti altında tonqalı yandırdı. Dustaqlar barakdan çıxıb tonqala tərəf axışdılar. Çox çəkmədi ki, hamı tonqalın ətrafına toplaşdı. Odunlar çıqqa-çıq alışdıqca tonqal alovlanır, ocaqdan qalxan qığılcımlar havada oynaşırdı. Açıq səmada öz cazibədarlıqları ilə insan ruhunu oyadan sayrışan ulduzlar, parlayan aypara tonqalın işığı ilə qamaşan gözlərdə o qədər də hiss olunmurdu. Bir neçə saatlığa da olsa dustaqlar sanki öz dərd-sərlərini unudub bu füsunkar gecənin seyrindən ayrılmaq istəmirdilər. Onların xoş niyyətli söhbətləri, gülüşləri, qəhqəhələri yadda qalan canfəşanlıq yaradırdı. Ocaq alovlandıqca ətrafa

saçılan şölələr dustaqların üz-gözünü zil qaranlıqdan ayırırdı. Ocağın gözündə getdikcə cadar-cadar olmuş gözlər körük altında saxlanılan mis kimi qızarırdı. Bunu görən dustaqlar həvəslənir: — Kababı əskikdi, — deyə bir-birilərinə közləri göstərirdilər. Ağca uzun bir kösövü götürdü, ocağın gözünü qurcaladı. Ocaq daha gur alışmağa, alovlanmağa başladı. Qığılcımlar kapalla havaya qalxır, tez də qaralıb yox olurdular. Elə bu vaxt bayaqdan bəri tonqalın kənarında dayanan Səkinə xanım özünə yaxın olan kösövləri götürüb ocağın gözünə atdı. Onlar alışdıqca alovun titrək işıqları yenidən ətrafı bürüyürdü. Bu kösövlər qaralanda dustaqlar digərlərini ocağın gözünə atırdılar. Onlar da çox çəkmədən alışıb yanırdılar. Beləcə, ocağın bir tərəfində alovun dilləri aşağı enəndə onun işıqlandırdığı üzlər qaralırdı. Başqa kösövlər alışıb şölənəndə dustaqların da o biri üzləri alovun qızıl dillərinin parıltısında işıqlanırdı.

Tonqalın hənirtisi dustaqların bədənini isindirdiyi kimi, üzlərini də qızardırdı. Qəm, kədər, qüssə, nigarançılıq, inilti içərisində boğulan bu zavallıların qəlbində doğan sevinc, fərəh hissləri alovun işığında onların hər birinin gözlərinin parıltısından apaydın görünürdü.

Axşamdan xeyli keçmiş ocağın odu-alovu qırmızımtraq parıltıya çevrilərək öləziyir, gecənin zil qaranlığı öz qorxunc, zəhlətökən pərdəsini yenidən ətrafa çəkməyə can atırdı. Bayaqdan bəri ala-toranda alovun şölə saçan parıltısından xoşhallanan, fərəhlənən, sevincdən gülümsəyən şeylərin, həmçinin dustaqların özlərinə bənzəməyən, anlaşılmaz siluetləri görünürdü. Alovun son nəfəsi kəsildikcə hər tərəf qaranlıq zülmətə qərq olurdu. Hər şey əsrarəngiz zülmət içərisində əriyib yoxa çıxırdı.

Ocağın sönməsindənmi, havanın soyumasındanmı, ya maraqlarının azalmasındanmı dustaqlar yavaş-yavaş baraka çəkildilər. Yaxın adamlarının, qohumlarının bayramqabağı gətirdikləri sovqatları bir yerə yığıb hamılıqla deyə-gülə yeməli oldular. Bu





təşkilatçılıq üçün dustaqlar Ağcaya razılıqlarını bildirir, ona dönə-dönə təşəkkür eləyirdilər. Ağca gülümsəyərək dedi:

— Mən neyləmişəm ki. Bu, belə də olmalıydı, xanımlar! Unutmayaq ki, birimizin göz yaşları qalanlarımızın da qəlbində ilan kimi qıvrılan qəm, kədər duyğularını oyadır. Bircə nəfərimizin ürəkdən gələn qəhqəhəsi hamımızın içində gülüş, fərəh, sevinc ovqatı yaradır. Mən istərdim dərdimiz nə qədər böyük olsa da, onu əzmimizlə, iradəmizlə, gücümüzlə əritməyi bacaraq.

* * *

Türmədən azadlığa buraxılacağına bir aydan da az vaxt qalırdı Şəfəqin. Onun həyəcanları günbəgün artırdı. Hara gedirdisə, nə iş görürdüsə, kiminlə danışırdısa, onu bircə şey maraqlandırırdı: azadlığa çıxan kimi balası ilə görüşmək. Şəfəq çox fikirləşdi, çox götür-qoy elədi. Belə qərara gəldi ki, Süsənə türmədən çıxacağı gün barədə məktubla məlumat versin. O, belə də elədi. Oturub rəfiqəsinə qısa bir məktub yazdı:

*"Əziz bacım Süsən! Bəzi kiçik narahatçılıqlara baxmayaraq, vəziyyətim pis deyil. Ancaq istəyirəm biləsiz ki, iyunun 18-də azadlığa buraxılma vaxtım çatır. Azadlığa buraxılacam. Günlər bir-birini əvəzlədikcə, vaxt daraldıqca səbrim az qala tükənir. İstərdim azadlığa çıxan kimi işə girəm, ailəlilər yataqxanasında bir otaq alıb Hikmətlə birlikdə yaşayam. Doğrusu, qorxduğum yeganə şey odu ki, oğlum məni "Ana" kimi qəbul eləməsin. Əslində Hikmətin buna haqqı da var. Axı mən ona heç vaxt analıq eləməmişəm. Əgər oğlum məni bağışlasa, elə düşünərəm ki, həmin andan dünyanın ən xoşbəxtiyəm... Görüşənədək!..*

*Hörmətlə: bacın Şəfəq.*

*22 may."*

Eyni məzmunlu məktubun birini də Mətanətə yazıb yola sa-

lan Şəfəq öz-özünə düşündü: "Onsuz da, mənə niyyət düşmür. Nəyi özümə arzulamışamsa, qismətim həmişə əksinə olur. Qoy, Allah heç olmasa, bundan sonra mənə imdad eləsin. Balama bundan sonra xoş gün qismət eləsin. Eh... Hikmət! Hikmət!.. Əziz balam! O bir Allah bilir ki, səndən ayrılalı hər gün ürəyimdən daş asılıb. Özüm qəfəsdə ola-ola səni aramışam... Səni axtarmışam... Neyləyəydim ki, bütün imkanlarım əlimdən alınmışdı. Şər, böhtan, iftiralarla dolu iddialarla, yalanlarla nə az, nə də çox, ömrümün on ilini qaranlıq zindanlarda çürütmüşəm. Bu müddətdə Süsənlə Şəfi, Mətanətlə Cavad ananın havadarları olublar. Əgər onlar da olmasaydı, ağzıma daşlar, səninlə qovuşmaq ümidimi itirəcəkdim, barakda gecə-gündüz ac-yalavac ciyildəşən siçovullar tək qalacaqdım. Əziz balam... Qəlbimin sərvəti... Düşünən beynim... Sən varsan, deməli, bizim üçün nə qədər əziyyətli, iztirablı da olsa, həyat var. Bilirəm. Mən bu qaranlıq zindandan qurtulanda özümüzün daldalanmağa, başımızı soxmağa bir komamız da olmayacaq. Yenə qayğımızı istəsək də, istəməsək də kimsə çəkəcək. Bizi himayə eləyəcək. — Allah varsa, onun rəhmi də var, — deyirlər. Neyləmək olar, bizimki də belə gətirdi. Barəmdə etibarsızlıq, dəyanətsizlik eləyən atan heç olmasa səni bir dəfəlik atmayaydı... Axı nəydi sənin günahın?! Övlad üçün bu qədər qəddarlıqmı olardı, Xudaya?! Nə isə... Ata, ana hissiyyatı... Məsuliyyəti!.. Qayğısı!.. İstəyi!.. Məhəbbəti!.. Hanı, ya Rəbbim!.."

Düşündükcə Şəfəqi ağlamaq tutdu. O, heç vaxt ağlına gətirə bilməzdi ki, oğlunu uşaq evinə təhvil verəndən cəmi-cümlətanı yarım il sonra Hümmət Moskva çayında boğulacaq.

Çox keçmədi ki, Şəfəq Mətanətdən cavab məktubu aldı.

*"Əziz bacım Şəfəq! Məktubunu aldım. Cavadla birlikdə oxuyub çox sevindik. Məlumun olsun ki, ölkədə gedən son hadisələrlə əlaqədar atamgil Göyçaydakı evlərini Bakıda yaşayan bir nəfərlə üç otağa dəyişdilər. Altı ay keçməmiş atam qəflətən əbədi*





*dünyasına qovuşdu. Anam tək yaşamasın deyə, biz onun evinə köçdük. Hazırda anamla birlikdə yaşayırıq. Bizim evimizdə heç kəs qalmır. Anamla da, Cavadla da belə qərara gəldik ki, sən həmin evdə yaşayasan. Qaldı oğlunun səni qəbul eləməsinə. Əziz bacım, indi Hikmət on yeddi yaşının içindədi. Xoşbəxt olsun, böyük oğlandır. Hər şeyi başa düşən, hadisələri düzgün qiymətləndirməyi bacaran çağlarıdır. İnanıram, Süsən sənin barəndə onunla danışmış olar. Hikmət nəinki səni qəbul eləmək, səninlə görüşmək, qovuşmaq üçün çox sevinəcək. Narahat olma! Biz sənə hər cür yardımçı olmağa hazırıq. Sənin azadlığa buraxılacağın anları biz də səbirsizliklə gözləyirik! Azadlıq günündə görüşənədək.*

*Hörmətlə: bacın Mətanət.*

*14 iyun."*

Bir neçə gün sonra Şəfəqi nəzarətçi otağına çağırdılar. Otaq o qədər də geniş deyildi. Yuxarı başda masanın arxasında mülki geyimdə bir kişi, ondan da bir az aşağıda əyninə zabit forması geymiş nəzarətçi Qurbanə xanım əyləşmişdilər. Kişini ilk dəfə gördüyündənmi, ya nəzarətçi otağına çağırıldığına görə qorxduğundanmı Şəfəq ayaq üstə dayanıb titrəyirdi. Bunu açıq-açığına kişi də, elə Qurbanə də duyurdular. Qurbanə Şəfəqi vəziyyətdən çıxarmaq üçün dedi:

— Bizim ən məsuliyyətli, bütün qayda-qanunları, davranış normalarını gözləyən dustaqlarımızdandı Şəfəq. Belələrinin türməyə düşməsi, mən deyərdim ki, tam təsadüfidi, cənab polkovnik.

Şəfəq indi başa düşdü ki, bu kişi də zabitdi, türmədə böyük vəzifəsi olan, məsuliyyət daşıyan şəxslərdəndi. Şəfəq gözucu kişini nəzərdən keçirdi. Onun altmışa yaxın yaşı olardı. Geniş alnında dərin bir çapıq vardı. Dən düşmüş seyrək saçlarını arxaya daradığından alnındakı çapıq apaydın görünürdü. Uzun sifətini yenicə təraş elətdirmişdi. Qara, iti gözləri vardı. Diqqətlə fi-

kir verəndə bu adam səmimiyyət və rəğbət oyadan cəhətlərdən də xali deyildi. Ürəyi açıq, şən adama oxşayırdı.

Polkovnikin adı Muxtar idi. O, Şəfəqin üzünə baxıb gülümsündü və astadan ağır-ağır bildirdi:

— On illik türmə həyatı sənə dərs verdimi?

Keçmişi bir anlığa gözləri qarşısında canlanan Şəfəq bütün ruhu incik halda cavab verdi:

— Bunu unutmaqmı olar?

— Türmə yaşadığımız həyatın dolanbac, əyridolam yollarının gətirib çıxardığı bir aləmdi. Sənədləri, istintaq materiallarını nəzərdən keçirəndə məlum olur ki, bu qaranlıq mühitin sənin tək günahsız sakinləri çoxdu. Ancaq qatillərin, canilərin azadlıqda olub ağır cinayətlərini davam etdirdiklərini, vətənə, xalqa xəyanətlərini açıq-açığına görəndə və onların cəzadan kənarda qalmalarını biləndə adamı dəhşət bürüyür. Qəribədi, qızım, cinayətkarlar azadlıqdadı, kefdədi, var-dövlət toplamaqda davam eləyirlər. Vəzifələri bölüşdürürlər. İnsan əti yeyən quldurlar əlsiz-ayaqsızları, məzlumları zorlamaqdadılar. Böyük malikanələrdə öz firavan həyatlarını qururlar. Onların hər biri məzlumların xəyali yaratdıqları cənnətlərdə nazənin gözəllərlə əylənirlər. Bircə dəfə də olsun imkansızlar barədə düşünmürlər. Bunları görəndə adamı xəcalət təri bürüyür. Qəribə məxluqlarıq. Bəzən it əvəzinə canavarı zəncirdə saxlamaq iddiasına düşürük. Unuduruq ki, zəncir qırılan tək canavar ilk əvvəl bizim özümüzü parçalayacaq. Deyəsən, bir az qəliz danışıram. Sual verə bilərsən ki, olan olub, keçən keçib, indi bunları xatırlatmağın nə mənası var? Burda nə mən, nə sən, nə də o, günahkardı. Günahkar yaşadığımız cəmiyyətdi, düşdüyümüz mühitdi, saxtakarlığa imkan verən qanunlardı. Qanunlar necə qurulubsa, ölkədə təbii zəlzələ baş verəndə məzlumlar uçqunlar altında qırılırlar, quldurlar qazanırlar. Buludlar toqquşur, şimşəklər çaxır, göy guruldayır, leysan yağışlar aləmi yuyur, itirən kasıblar, tapan məmurlar olurlar.





Çay daşır, sel aləmi yuyur, acından ölən zəhmətkeşlər, xoşhallaşan möhtəkirlərdi. Belə getməz, qızım. Elə fikirləşmə ki, qaranlıq zindanlara düşən günahsız təkcə sənsən... Yox! Milyonlardı!

Zaman ölçüb-biçəndi, gec-tez hər şeyi öz yerinə qoyandı. Məqam gələcək. Günahkarlar üzə çıxacaq. Onda yaşadığımız xəstə cəmiyyət doğduğu cinayətkar quruluşa qəzəb və nifrətlə lənətlərini yağdıracaq.

Vaxtın tamam olur. Sabah saat 10-da səni azadlığa buraxacağıq. Sənədlərin hazırlanır. Çalış, bu əzab məngənəsinə, qaranlıq zindana bir də düşməyəsən... Hələ cavansan... Həyatını qura bilərsən... İndi bizə deyiləcək sözün varmı?

Şəfəq polkovnikin son sözlərini eşitcək illərdən bəri həsrətini, intizarını çəkdiyi balası gəlib dayandı gözləri önündə. Qəlbi titrədi. İçində birdən-birə baş qaldıran duyğular hansı güclü, qüvvətli təkanın təsiri altındasa, az qala vulkan kimi püskürəcəkdi. Səmimiyyətdən, hörmət və ehtiramdan doğan bu söhbəti sakit-sakit dinləyən zavallı bayaqdan bəri ona: — Qızım, — deyə müraciət eləyən yaşlı polkovnikin, nəzarətçi Qurbanənin üstünə atılmaqdan özünü bir təhər saxlaya bildi. Nə yaxşı ki, bu hisslər, emosiyalar həddini aşmadan yavaş-yavaş sönməyə, sakitləşməyə, öz axarına düşməyə başladı. Handan-hana Şəfəq polkovnikə cavab verdi.

— Yox!

— Get hazırlaş, qızım.

Şəfəq nəzarətçi otağından çıxdı. Nə eləyəcəyini bilmirdi. O, baraka qayıdanda dustaqlar onu sevinc hissi ilə qarşıladılar. Üz-gözündən öpüb təbrik elədilər.

* * *

Süsənlə Şəfi Şəfəqin azadlığa buraxılacağından bir gün əvvəl Bakıya uşaq evinə gəldilər. Onlar Əminə xanımla dəhlizdə qar-

şılaşdılar. Əminə Şəfi ilə Süsəni görcək gülümsündü. Hər ikisinə əl verib salamlaşdı və ucadan dedi:

— Hikmət balamızı təbrik eləyə bilərsiz. Dünən sonuncu buraxılış imtahanını da verdi. Əla qiymətlərlə orta təhsilini başa vurdu.

Şəfi də, Süsən də eyni vaxtda Əminəyə təşəkkürlərini bildirdilər. Şəfi sonra əlavə elədi:

— Əminə xanım, sabah Hikmətin anası Şəfəq azadlığa buraxılır. Biz istəyirik ana-bala bunları görüşdürək. Bilirik, görüş çox çətin və həyəcanlı olacaq.

Əminə əvvəl tutuldu. Nəsə düşündü. Çiyinlərini çəkdi. Sonra dedi:

— Gedəyin kabinetə. Bu ayaqüstü söhbət deyil.

Əminə qabaqda, Şəfi ilə Süsən də onun ardınca kabinetə getdilər. Əminə qonaqlara: — Əyləşin, — deyə yer göstərdi. Ər-arvad stul çəkib oturdular. Əminə gözləri yaşarmış halda soruşdu:

— Hikməti özünüz himayəyə götürürsünüzmü?

— Anası ilə birlikdə yaşayacaq.

— Çox yaxşı. Doğrusu, gəlişiniz məni də sevindirir. İndi Hikmət də böyüyüb, müstəqil həyata atılır. Düşünürəm ki, işləyib özünü də, anasını da halal qazancı ilə dolandıra bilər. Onun bütün sənədləri hazırdı. Siz gəlməsəydiz, bu gün, sabah onları yataqxanaya köçürməli olacaqdıq. Bilirsiz ki, indi yataqxanalarda yaşamaq nə qədər çətindi?

Elə bu vaxt qapı döyüldü. Əminə xanım: — Gəl, — dedi. Qapı açıldı. Gülruh müəllimə içəri girdi. Şəfigili içəridə görcək salam verib: — Sonra gələrəm, — deyə qapıdan çıxırdı ki, Əminə xanım dedi:

— Hikməti çağır gəlsin.

— Oldu.

Çox çəkmədi ki, Gülruh müəllimə qabaqda, Hikmət də onun





ardınca içəri girdilər. Şəfi ilə Süsən ayağa qalxıb Hikməti qucaqladılar, üz-gözündən öpdülər. Süsən:

— Səni təbrik eləyirəm, oğlum, təhsilini başa vurmusan.

— Təşəkkür eləyirəm, xala. Bilirdim gələcəyinizi.

Əminə:

— Oğlum, xalangil gəliblər səni aparmağa. Daha böyük oğlansan. Sərbəstsən. Müstəqil fəaliyyət göstərə, həyatını istədiyin kimi qura bilərsən. İnanıram ki, həyatda ləyaqətlə yerini tuta biləcəksən. Süsən xalanla, Şəfi əminlə getməyə razısanmı?

Hikmət ani fikrə getdi. Sonra ümidsiz halda soruşdu:

— Anam yaşayırmı? Mən, doğrudan da, onu görə biləcəyəmmi?

Şəfi də, Süsən də o andaca təsdiqlədilər:

— Hə, oğlum.

Hikmət:

— Onda gedirəm.

Əminə şkafın gözünü açdı. Hikmətin sənədlərini çıxartdı. Ayağa qalxıb doğma balası tək onun üzündən öpdü, dodaqları səyriyə-səyriyə: — Sənə uğur olsun, oğlum, — dedi. Hikmət Gülruh müəllimə ilə də görüşdü. — Mənim doğmalarım, — deyə bir dəfəlik uşaq evindən niskilli duyğularla ayrıldı Hikmət. Şəfi ilə Süsən hərəsi Hikmətin bir tərəfində addımlaya-addımlaya, sevinə-sevinə uşaq evindən çıxdılar.

* * *

İyun ayının 18-i idi. Saat ona qalırdı. Şəfəq həyəcandan bir yerdə qərar tuta bilmirdi. Azadlığa buraxılmasına hökm verilən iyirmiyə qədər dustaq həbsxananın qapısı ağzına toplaşaraq türmə işçilərinin adbaad çağrışını gözləyirdilər. Vaxt daraldıqca Şəfəq ürək gubbultularını eşidirdi.

* * *

Səhər naharından sonra Süsənlə Şəfi Hikməti götürüb "Bakı" mehmanxanasından çıxdılar. Gül mağazasına gəlib təzə tər çiçəklərdən böyük bir buket bağlatdılar. Şəfinin təzə aldığı "Qaz 24" markalı "Volqa" maşınına əyləşdilər. Onlar türmənin həyətinə çatanda əllərində gül-çiçək dəstələri tutmuş adamlar iki-bir, üç-bir qapıya tərəf yaxınlaşırdılar. Adamların üz-gözlərindən sevinc yağırdı. Şəfi üzünü Hikmətə tutaraq bildirdi:

— Bu adamlar da azadlığa buraxılanları qarşılamaq üçün gəliblər.

Hikmət:

— Mən də elə bilirəm. Yadınızdamı Şəfi əmi, Süsən xala, siz bir zaman mənə demişdiz ki, anan xəstəxanadadı. Sağalanda səni görməyə gələcək. Ancaq indi biz türməyə anamı qarşılamağa gəlmişik.

Şəfi çaşdı. Hikmətin üzünə baxdı. Süsən dərhal dedi:

— Oğlum, xəstəxana sözünü mən qəsdən özümdən uydurdum. Anan türməyə günahsız düşənlərdəndi. İstərdim, başqaları sənin ananın türmədə olduğunu bilməsinlər.

— Süsən xala, mən həmişə anamı yuxularımda görmüşəm. Gözləri nəmli, baxışları pərişan. O, həmişə yuxularımda məni əzizləyib, saçlarımdan öpüb, başımı sığallayıb, bağrına basıb. Görünür, anam həmişə mənim barəmdə düşünüb. Elə deyilmi, Süsən xala?!

Süsən özünü saxlaya bilməyib doluxsundu:

— Elədi, oğlum, elədi.

— Anam yuxularımda gördüyüm kimidisə, mən mütləq onu görən kimi tanıyacam. Mən də həmişə xəyalımda anamı yaratmışam, röyalarda anamın nəfəsini duymuşam. Uşaq evində yemişəm, içmişəm, böyüyüb-ərsəyə çatmışam. Ancaq anasız. Ana barədə kitablarda oxumuşam.





Hikmət danışdıqca Süsənin gözlərində alacalanan yaş yanaqlarına süzülürdü. Bunu görən Şəfinin də ürəyi yumşaldı. O, qəsdən dedi:

— Gəlin, biz də qapıya yaxınlaşaq. Görək, nə vaxt gəlirlər? Gül dəstəsini qucağında tutan Hikmət Şəfi ilə, Süsənlə adamlara tərəf getdilər. Heç özləri də bilmədən gəlib Mətanətlə Cavadın yanında dayandılar. Mətanətin gözləri qeyri-şüuri olaraq, Hikmətə dikildi. Oğlanın gözlərində, üzünün cizgilərində Şəfəqə bənzərlik gördü. Mətanətin ürəyi titrədi. O, Süsəni göstərərək astadan ərinə pıçıldadı:

— Bu qadın Süsən olacaq. Yanındakı da əri — Şəfi qardaş. Əlində çiçək dəstəsi tutan oğlana fikir ver. Eynilə Şəfəqə oxşayır.

— Ağ eləmə. Sən də öyrənmisən, hər gördüyündə bir məna axtarmağa.

— Yox, Cavad. Ürəyimə damıb, vallah, bu oğlan Hikmət olacaq.

Cavad Hikməti diqqətlə süzdü. Şəfəqi gözləri önünə gətirdi. Deyəsən, o da Şəfəqlə bu oğlan arasında bir oxşarlıq, bənzərlik duydu. Sonra çiyinlərini çəkdi. Mətanət özünü saxlaya bilməyib, Süsənə yaxınlaşdı və astadan soruşdu:

— Bacım, siz Süsən deyilsiz ki?

Süsən ona tərəf döndü və dərhal dedi:

— Mətanət xanım?!

— Hə!

Süsənlə Mətanət çoxdanın tanışları kimi öpüşüb görüşdülər. Mətanət ərinə:

— Süsəndi!

Eyni şəkildə də Süsən ərinə sevincək bildirdi:

— Bu xanım, Şəfəqin dediyi Mətanətdi.

Şəfi Mətanətə salam verdi. Mətanət salamı alıb, üzünü Hikmətə tərəf çevirmişdi ki, Süsən dedi:

— Tanış olun, Hikmət balamızdı! Şəfəqin oğludu! Anasını

qarşılamağa gəlib!

Mətanət:

— Nə?!

Mətanətin damarlarında sanki qanı dondu, o, özünü saxlaya bilməyib, Hikməti qucaqladı: — Mənim balam, mənim oğlum! — deyə onun üz-gözündən öpdü. Mətanəti ağlamaq tutdu. Haçandan-haçana bildirdi:

— Maşallah, böyük oğlan olub...

Cavad Hikmətə əl verib üzündən öpdü. Utandığından yanaqları qızaran Hikmət bir addım geri çəkildi. O, Süsənin üzünə baxdı. Süsən dərhal dilləndi:

— Mətanət xalandı! Ananın rəfiqəsi! Yanındakı da Cavad dayındı! Ananı qarşılamağa gəliblər, oğlum! Utanma!

Heyrətlə, anlaşılmaz hisslər içərisində Cavad:

— Möcüzədi!.. Yazılası romandı. Rəhimdil Allahın böyük mərhəmətidi!

Şəfi başı ilə Cavadın sözlərini təsdiqlədi və qolundakı saatına baxdı. Əqrəblər saat 10-u göstərirdi. Bu dəm türmənin radio qovşağından elan olundu.

“Cənablar və xanımlar, xahiş olunur, qapı ağzında dayanmayasız, bir qədər kənara çəkiləsiz. Həbs müddətini tamam çəkmiş vətəndaşlar azadlığa buraxılırlar. Türmədən azad olanlara uğurlu yol diləyirik, özlərini, yaxın adamlarını təbrik eləyirik“.

Bu elandan beş dəqiqə keçməmiş azadlığa buraxılanlar sənədlərini alıb bir-birinin ardınca qapıdan çıxırdılar: Gəncəli Əsmayə, Sumqayıtlı Səbinə, Lənkəranlı Sənubər, Qazaxlı Qönçə... Qapı örtüldü. Bayaqdan bəri səbri tükənən Hikmətin qanı az qala beyninə vurdu. Həyəcanlandı. Bir anlığa ona elə gəldi ki, qapı bir daha açılmayacaq. Açılsa da anası buraxılmayacaq... Bu qarmaqarışıq, sarsıdıcı hisslər içərisində boğulan Hikmət təntidi. Beş dəqiqə keçər-keçməz qapı yenidən açıldı. Şəfəq qapı ağzında göründü. Süsən: — Şəfəq gəlir, — demək istəyirdi ki, Hikmət qapıya tərəf qaçdı. “Odu!”, “Anamdı!” “Anamdı!” — deyə qışqırdı. O, anasına çatıb onu qucaqladı, göz yaşları içində “Ana!”, “Ana!”, “Sənə qurban olum, ana!”, “Başına dönüm, ayaqlarının altında ölüm, ana!”, “Səni daim yuxularımda görmüşəm!”, “Ömrüm boyu səni axtarmışam, ana!”, “Türmə sənə yaraşmır, türmə hara, sən hara, ana?!” — deyə-deyə hönkürürdü Hikmət. Şəfəqə elə gəldi ki, bu, yuxudu. Bir azdan ayılacaq, hər şeyin röya olduğunu görüb yenidən için-için doğranacaq, ürəyi göynərti verəcək. Müəmmalı, dolaşıq hisslər içərisində donub qalan Şəfəq handan-hana geri çəkilmək istədi. Gözləri yaşlı Hikmətin qolları arasından ayrılar-ayrılmaz Süsənlə Mətanətin göz yaşları içində dayanıb onlara tamaşa elədiklərini gördü. O, yalnız indi başa düşdü ki, qarşılaşdığı hadisə həqiqətdi. Hikməti də bura Süsən gətirib. Ana başını qaldırıb uzun illərdən sonra üz-gözünü, boy-buxununu ilk dəfə gördüyü oğluna baxdı, baxdı. Qollarını qulaclayıb onun yenidən boynuna sarıldı: — “Oğlum!”, “Mənim balam!”, “Üz-gözünə, boy-buxununa, nəfəsinə həsrət qaldığım oğlum!”, “Mənim Hikmətim!” — deyə-deyə üz-gözünü yalamağa başladı. Daxilən sarsılan Mətanət də, Süsən də, Cavad da, Şəfi də özlərini itirdilər. Gözlənilməz hadisə baş verə biləcəyini düşünüb Şəfəqlə Hikməti dövrəyə aldılar. Elə bu vaxt oğlunun qolları arasında ananın ürəyi sıxıldı. Şəfəq doğmaca balasının qucağındaca qaldı. Rəfiqələri Hikmətlə birlikdə Şəfəqi kənara çəkdilər. Aralıda dayanıb hadisəni müşahidə eləyənlər sanki öz dərd-sərlərini unudub Allahın yaratdığı bu möcüzənin önündə sehirlənmişdilər. Hamı Allaha dualar oxuyurdu. Bir neçə dəqiqədən sonra özünə gələn Şəfəq Süsənlə, Mətanətlə, Şəfi ilə, Cavadla görüşdü. Sonra da oğlunun qoluna girib yaz günəşinin oynaq, gülümsər şəfəqləri altında əzizlərinin müşayiəti ilə maşına tərəf addımladılar. Ya Rəbbim, görəsən bu, ana-balanın gələcək xoşbəxt həyatının uğurlu başlanğıcıdımı?! Ədalətsizliyin, zorakılığın baş alıb getdiyi iyrənc, xəstə cə-

miyyətdə onlar bir də girdaba düşməyəcəklər ki?!

***2004***





## OXUDUQLARINIZ

Girdab........................................................................3-625

**Ağarəhim**
Bakı, BQU, 2014, 625 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 03.03.2014*
*Çapa imzalanıb: 03.04.2014*
*Həcmi: 39,6 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**

Ağarəhim Rəhimov Əsərlər

348

*Ağarəhim Rəhimov* *Əsərlər*

349

*Ağarəhim Rəhimov* *Əsərlər*

350

*Ağarəhim Rəhimov* *Əsərlər*

351

*Ağarəhim Rəhimov* *Əsərlər*

352

*Ağarəhim Rəhimov* *Əsərlər*
353

*Ağarəhim Rəhimov* *Əsərlər*

354

*Ağarəhim Rəhimov* *Əsərlər*

355

*Ağarəhim Rəhimov* *Əsərlər*

356

*Ağarəhim Rəhimov* *Əsərlər*

357

*Ağarəhim Rəhimov* *Əsərlər*

358

*Ağarəhim Rəhimov* *Əsərlər*

359

*Ağarəhim Rəhimov* *Əsərlər*

360

Ağarəhim Rəhimov Əsərlər

361

*Ağarəhim Rəhimov* *Əsərlər*

362

Ağarəhim Rəhimov Əsərlər

363